Crossref
ÜZVÜ

DOI:10.30546/3006-0346
ISSN: 2664-4975
E-ISSN: 3006-0346

# GEOSTRATEGİYA

2025
№1 (85)

BAKI-2025

**Baş redaktor:**
**Əli Həsənov**

**Redaktor:**
**İbrahim Əliyev**

**Məsul katib:**
**İsmayıl Qasımov**

**Redaksiya heyəti:**
**Prof.Dr. Aleksandr Puxkal (Ukrayna)**
**Prof.Dr. Arif Quliyev (Ukrayna)**
**Prof.Dr. Aygün Attar (Türkiyə)**
**Prof.Dr. Babaxan Şərifov (Özbəkistan)**
**Prof.Dr. Cəfər Cəfərov (Azərbaycan)**
**Prof.Dr. Durxan Kıdırılı (Qazaxıstan)**
**Prof.Dr. Efim Pivovar (Rusiya)**
**Prof.Dr. Elçin Əhmədov (Azərbaycan)**
**Prof.Dr. Elman Nəsirov (Azərbaycan)**
**Prof.Dr. Ədalət Muradov (Azərbaycan)**
**Prof.Dr. Əli Həsənov (Azərbaycan)**
**Prof.Dr. Heydərbəy Bababekov (Özbəkistan)**
**Prof.Dr. Hikmət Məmmədov (Azərbaycan)**
**Prof.Dr. Xəqani Məmmədov (Azərbaycan)**
**Prof. Dr İradə Hüseynova (Azərbaycan)**
**Prof.Dr. İsa Həbibbəyli (Azərbaycan)**
**Prof.Dr. Kemal Çiçek (Türkiyə)**
**Prof.Dr. Quram Marxuliya (Gürcüstan)**
**Prof.Dr. Musa Qasımlı (Azərbaycan)**
**Prof.Dr. Sergey Pirojkov (Ukrayna)**
**Prof.Dr. Səlahəddin Xəlilov (Azərbaycan)**
**Prof.Dr. Şəfa Əliyev (Azərbaycan)**
**Prof.Dr. Ziyad Səmədzadə (Azərbaycan)**
**Dos.Dr. Akkan Suver (Türkiyə)**
**Dos.Dr. Aleksandr Quşşin (Rusiya)**
**Dos.Dr. Cahangir Cahangirli (Azərbaycan)**
**Dos.Dr. Ərəstun Mehdiyev (Azərbaycan)**
**Dos.Dr. Əlimusa İbrahimov (Azərbaycan)**
**Dos.Dr. Firdovsiyyə Əhmədova (Azərbaycan)**
**Dos.Dr. İbrahim Əliyev (Azərbaycan)**
**Dos.Dr. Mübariz Qurbanlı (Azərbaycan)**
**Dos.Dr. Müslüm Nəzərov (Azərbaycan)**
**Dos.Dr. Oleq Kuznetsov (Rusiya)**

***“GEOSTRATEGİYA”*** jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan Respublikasında dissertasiyaların ***Tarix, Antropologiya, Siyasi elmlər, Fəlsəfə, Sosiologiya və İqtisadi elmlər*** üzrə əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına salınmışdır.
Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal ildə altı dəfə nəşr olunur.

Member of Crossref

DOI:10.30546/3006-0346
ISSN: 2664-4975
E-ISSN: 3006-0346

# GEOSTRATEGY

2025
№1 (85)

BAKU-2025

**Editor-in-Chief:**
**Ali Hasanov**

**Editor:**
**Ibrahim Aliyev**

**Executive Secretary:**
**Ismayil Gasimov**

**Editorial Board:**
**Prof. Dr. Alexandr Pukhkal (Ukraine)**
**Prof. Dr. Arif Guliyev (Ukraine)**
**Prof. Dr. Aygun Attar (Turkey)**
**Prof. Dr. Babakhan Sharifov (Uzbekistan)**
**Prof. Dr. Jafar Jafarov (Azerbaijan)**
**Prof. Dr. Durkhan Kidirili (Kazakhstan)**
**Prof. Dr. Efim Pivovar (Russia)**
**Prof. Dr. Elchin Ahmadov (Azerbaijan)**
**Prof. Dr. Elman Nasirov (Azerbaijan)**
**Prof. Dr. Adalat Muradov (Azerbaijan)**
**Prof. Dr. Ali Hasanov (Azerbaijan)**
**Prof. Dr. Haydarbay Bababekov (Uzbekistan)**
**Prof. Dr. Hikmat Mammadov (Azerbaijan)**
**Prof. Dr. Khagani Mammadov (Azerbaijan)**
**Prof. Dr. Irada Huseynova (Azerbaijan)**
**Prof. Dr. Isa Habibbayli (Azerbaijan)**
**Prof. Dr. Kemal Chichek (Turkey)**
**Prof. Dr. Guram Markhulia (Georgia)**
**Prof. Dr. Musa Gasimli (Azerbaijan)**
**Prof. Dr. Sergei Pirozhkov (Ukraine)**
**Prof. Dr. Salahaddin Khalilov (Azerbaijan)**
**Prof. Dr. Shafa Aliyev (Azerbaijan)**
**Prof. Dr. Ziyad Samadzadah (Azerbaijan)**
**Assoc. Prof. Dr. Akkan Suver (Turkey)**
**Assoc. Prof. Dr. Alexandr Gushshin (Russia)**
**Assoc. Prof. Dr. Jahangir Jahangirli (Azerbaijan)**
**Assoc. Prof. Dr. Arastun Mehdiyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Alimusa Ibrahimov (Azerbaijan)**
**Assoc. Prof. Dr. Firdovsiyya Ahmadova (Azerbaijan)**
**Assoc. Prof. Dr. Ibrahim Aliyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Mubariz Gurbanli (Azerbaijan)**
**Assoc. Prof. Dr. Muslum Nazarov (Azerbaijan)**
**Assoc. Prof. Dr. Oleg Kuznetsov (Russia)**

***"GEOSTRATEGY"*** journal is included in the list of periodicals recommended by the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan to publish the main results of the dissertations of the Republic of Azerbaijan on ***History, Anthropology, Political Science, Philosophy, Sociology and Economic Sciences.***
The international socio-political, scientific-theoretical journal is published six times a year.

# Siyasi elmlər

UOT 327; 339.9
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.011

## TÜRKİYƏ VƏ AZƏRBAYCAN MEDİASINDA KONFEDERASİYA MƏSƏLƏSİNƏ MÜNASİBƏT

**MÜBARİZ GÖYÜŞLÜ**
*BDU Jurnalistika fakültəsinin dissertantı və müəllimi, AMEA Mərkəzi Elmi Kitabxanasının şöbə müdiri*
*E-mail: mubariz2011@hotmail.com*

Türk milli şüurunun birinci amili türk dili, ikinci amili isə islam dinidir. Bir-birindən ayrılmayan bu amillər türk mədəniyyətini, türk milli şüurunu səciyyələndirir. Türklük və islamın əsrlərlə davam edən vəhdətindən fərqli bir türk kültür fenomeni ortaya çıxmışdır. Buna görə də, bu gün türk birliyindən bəhs edəndə, ilk növbədə, müsəlman-türk coğrafiyası yada düşür.

Türk dövlətlərinin hər birində milli şüur tarixən müxtəlif səviyyələrdə inkişaf etmişdir. Ümumən, türk dövlətləri içərisində öz türk milli kimliyini daha yüksək səviyyədə qoruyub saxlayan ölkənin Türkiyə olduğunu söyləsək, yanılmarıq. Digər türk dövlətləri isə iki əsrə yaxın bir müddətdə Rusiya imperiyasının (Çar Rusiyası və SSRİ) türkofob və islamafob siyasətinin təzyiqi altında öz varlıqlarını bu və ya digər şəkildə qoruyub saxlamışlar.

Digər postsovet türk dövlətlərindən fərqli olaraq, öz milli şüurunu nisbətən daha çox qorumağa nail olmuş Azərbaycanda 60-70-ci illərdə milli ziyalılar ana dilinin əksər sahələrdə tətbiq olunmasına və rus dilinin geniş yayılmasının qarşısını almağa nail olmuşlar. Ümummilli lider Heydər Əliyevin milli şüurun inkişafında oynadığı rol isə ondan ibarət olmuşdur ki, o, Azərbaycan dilinin elm, təhsil və mədəniyyət sahəsində yayılmasını təmin etmiş, bu sahədə fəaliyyət göstərən milli ziyalıları önə çəkmişdir.

Azərbaycan xalqının milli şüurunun mövcudluğu, SSRİ-nin süqutu dövründə ortaya çıxan milli azadlıq hərəkatının bütün ölkə ərazisini əhatə etməsi ilə özünü sübut etdi. 1960-70-ci illərdən başlayaraq Azərbaycan öz milli şüurunu SSRİ ideologiyasına qarşı mədəni müqavimət gücü kimi formalaşdırdı və SSRİ-nin süqutu ərəfəsində bu güc özünü siyasi fenomen kimi reallaşdırdı.

Ümumiyyətlə, SSRİ-nin süqutu ilə ikiqütblü sistemin çöküşünü və yeni dünya düzəninin formalaşmasını müşahidə edirik. Yeni dünya düzənində türk-müsəlman dünyasının özünəməxsus yerinin olduğu və bu proseslərdə Türkiyə-Azərbaycan birliyinin xüsusi rol oynadığı müşahidə olunur. Dünyada qlobal bir oyunçuya çevrilmək və öz yerini tutmaq üçün qardaş dövlətlərin strateji baxımdan bir araya gəlmələrinin vacibliyi danılmaz həqiqətdir. Bu məsələ, XX əsrin əvvəllərində olduğu kimi, bu gün də gündəmdədir.

Azərbaycan Xalq Cümhuriyyəti (AXC) dövründə Azərbaycan dövlətinin Türkiyə (Osmanlı) ilə birləşməsi məsələsi müzakirə mövzusu olmuşdur. Bu fikirlər həm Osmanlı hakimiyyəti, həm də AXC hökuməti daxilində mövcud olmuşdur. Osmanlının Hərbiyyə naziri Ənvər paşanın əmri ilə 1918-ci ildə Azərbaycana gələn osmanlı zabiti Behiç Erkinin xatirələri bunu deməyə əsas verir. O, Gəncədəki hökumət nümayəndələri ilə Osmanlı-Azərbaycan dövlətlərinin konfederasiya şəklində birləşməsi məsələsini müzakirə etmək üçün göndərilmişdi. Osmanlı əvvəlcə Azərbaycanın birləşdirilməsi ideyasından çıxış etmiş, lakin sonradan onun müttəfiqi Almaniya buna qarşı çıxdığı üçün, konfederasiya məsələsi müzakirə obyektinə çevrilmişdir [11].

Sabiq dövlət müşaviri Vəfa Quluzadə ADR dövründə baş verən hadisələri belə şərh edirdi: “1920-ci ildə Atatürk qoşunları Azərbaycandan şərtlə çıxardı. Şərt də o idi ki, Rusiya Azərbaycana hörmətlə yanaşsın. Rusiya bu vədi verdi. Türkiyənin imkanı olsaydı ordusunu burda saxlayardı. Amma bu, mümkün olmadı, çünki böyük imperiya dağıldı, Atatürk Türkiyəni qoruyub saxlaya bildi. Ancaq Türkiyə ona nail oldu ki, Azərbaycanın dövlət statusunu saxladı. Biz bilirik ki, Türkiyə bizim əbədi olaraq arxa-dayağımızdır. Biz əminliklə deyirik ki, bir şey olsa, Türkiyə Azərbaycana kömək edəcək. Bugünkü şərtlər elədir ki, tam havadan asılı vəziyyətdə qalmaqla yaşamaq mümkün deyil” [6].

SSRİ-nin süqutundan sonra Azərbaycan və Türkiyənin əməkdaşlığı artan xətt üzrə inkişaf etmişdir. Ümummilli Lider Heydər Əliyevin “bir millət, iki dövlət” tezisi Azərbaycan-Türkiyə yaxınlaşmasını ifadə edən mühüm bir açıqlama idi. Bu açıqlama, Rusiya üçün arzuolunmaz olsa da, yeni bir geosiyasi oyunçunun Azərbaycan tərəfindən Cənubi Qafqaza dəvət olunması demək idi. Türkiyə vasitəsilə Azər-

baycan Qərbə qapı açmış olurdu. Bu, bir tərəfdən, Azərbaycanın iqtisadi maraqlarına, digər tərəfdən, onun siyasi maraqlarına cavab verirdi. Çünki Azərbaycan Türkiyə vasitəsilə Rusiya və İrandan asılılığını azaltmaq istiqamətində addımladı.

Türkiyə güclü bir NATO ölkəsi kimi, Azərbaycanın iqtisadi layihələrinə və onun siyasi təhlükəsizliyinə zəmanət verən yeganə ölkə oldu. Xüsusilə, 2016-cı il 15 iyul hadisələrindən sonra Türkiyənin daha müstəqil siyasət aparmaq imkanlarının artması və 2020-ci ildə Azərbaycanın işğal edilmiş ərazilərinin böyük bir hissəsini geri qaytarması, 2023-cü ildə ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsi, Şuşa Bəyannaməsinin imzalanması, Azərbaycan-Türkiyə yaxınlaşmasını yüksək səviyyəyə çatdırdı. Məlum hadisələrdən sonra bəlli oldu ki, Azərbaycan-Türkiyə birliyi zərurətdən irəli gəlir. Çünki hər iki ölkə təklikdə geosiyasi təzyiqlərə müqavimət göstərmək iqtidarında deyildir. Bu gerçəkliyi yalnız siyasətçilər deyil, həm də sadə xalq anlamış oldu. Şuşa Bəyannaməsindən sonra artıq Azərbaycan-Türkiyə birliyi deyil, ümumən türk dövlətləri birliyi məsələsi aktuallaşdı. Türk Dövlətləri Təşkilatının (TDT) yaranması artıq Avrasiyada Avropa Birliyinə bənzər bir təşkilatın rəsmi şəkildə meydana çıxdığını göstərdi. Bu baxımdan, türk dövlətlərinin birliyi ideyasının inkişaf tarixini iki mərhələyə bölmək olar: Azərbaycan-Türkiyə birliyi və Türk Dövlətləri Birliyi (Turan).

Azərbaycan-Türkiyə birliyi və Türk Dövlətləri Birliyi (Turan) məsələləri SSRİ-nin süqutundan sonra paralel şəkildə gündəmə gəlmişdir. Bunlar bir-birinə bağlı olan məsələlərdir. Çünki güclü bir geosiyasi oyunçuya çevrilmək və geniş iqtisadi məkan qazanmaq üçün Türk Dövlətləri Birliyinin yaradılması daha məntiqlidir. Lakin bu birliyin təməli Azərbaycan-Türkiyə birliyində qoyulmuşdur. Azərbaycan-Türkiyə birliyi məsələsi həm cəmiyyətdə, həm də siyasətçilər arasında müstəqillik illərinin əvvəllərindən başlayaraq geniş müzakirə obyektinə çevrilmişdi. Düşündürücü sual ondan ibarət idi ki, bu birlik hansı formada ola bilər: bir dövlət, federasiya və ya konfederasiya?

SSRİ-nin süqutundan sonra Azərbaycanda Türkiyə ilə hansı formada bir araya gəlmək istiqamətində hər iki tərəfin mətbuatında müzakirələr yer almışdır. Bu məsələ Azərbaycan ziyalıları arasında olduğu kimi, ölkə ictimaiyyətində də fərqli yanaşmalara yol açmışdır. Bu fikirlər “lehinə”, “əleyhinə” və “neytral” olmaqla üç qrupa bölünə bilər.

Bu fikirlərin gündəmə gəlməsi daha çox Türkiyənin Silahlı Qüvvələrinin Baş Qərargahının keçmiş rəisi İlkər Başbuğun bəyanatı ilə bağlı olmuşdur. İlkər Başbuğ çıxışlarının birində belə demişdir: “Mənim ən böyük xəyalım Türkiyə və Azərbaycanın tək dövlət olmasıdır. Onsuz da “tək millət, iki dövlət” deyildirmi? Bir-birimizlə tərcüməçi olmadan danışırıq. Amma mümkün deyil. İmkan verməzlər. Kaş ki, şərait uyğun olaydı” [4].

Lakin birlik məsələsi və onun müzakirəsi daha əvvəlki dövrlərdən başlamışdır. Türkiyənin sabiq daxili işlər naziri Meral Akşənər demişdir: “Məndən sonra Türkiyə ilə Azərbaycan arasında konfederativ birliyin yaradılması təklifi verilmişdi. Azərbaycanda bir çox siyasətçilər konfederasiya təklifini əvvəlcə müdafiə etməsələr də, sonradan tərəfdar çıxdılar. İlk o təklifə dəstək verənlər Əbülfəz Elçibəy, Sabir Rüstəmxanlı və Bəxtiyar Vahabzadə oldular. 1999-cu ildə Konfederasiya təklifi çap olunandan sonra bu şəxslərin verdikləri dəstəyi minnətdarlıqla xatırlayıram” [1].

1999-cu ildə konfederasiya yaradılması məsələsi meydana çıxanda, onu dəstəkləyənlərlə yanaşı, qarşı çıxanlar da olmuşdur. “Lehinə” olanlar arasında bu birliyin hansı formada olması barədə fikir fərqləri vardır. Onların əksəriyyəti konfederasiya şəklində birləşməyi dəstəkləyirdilər. Azərbaycan-Türkiyə-Gürcüstandan ibarət konfederasiyanın yaradılması ilə bağlı fikirlər də mövcud idi. Bu məsələyə münasibət həm iqtidarın, həm də müxalifətin içində bir-birinə qarşı duran iki cəbhənin meydana çıxmasına səbəb oldu.

Azərbycan və Türkiyə ilə konfederasiyanın yaradılması ideyasının ilk müəlliflərindən biri mərhum dövlət müşaviri Vəfa Quluzadə hesab olunur. O deyirdi: “Bu təklif üçün heç bir mərhələ yoxdur. ...Yaranacaq konfederasiya Türkiyənin Xəzərə çıxışı kimi geosiyasi hadisə olardı. Gələcəkdə vəziyyət belə olmayacaq. Azərbaycan Lixtenşteyn, Andorra deyil. Avropa onları qoruyur. Amma bizim vəziyyətimiz elə deyil. Bizə daimi ittifaq lazımdır... Əminəm ki, konfederasiya baş verəcək” [6].

“STRATFOR” beyin mərkəzi 2009-cu ildə Türkiyənin Azərbaycanla birləşərək Orta Asiyaya təsir layihəsinə başlaya biləcəyini iddia etmişdir. “STRATFOR”un Fransanın “Le Monde Diplomatique” qəzetinin türk versiyasında dərc olunan hesabatında bu iddia irəli sürülüb [13].

Konfederasiya yaradılması təşəbbüsünü dəstəkləyənlər qarşı tərəfin arqumentlərinin əsassız olduğunu irəli sürürlər. Konfederasiyanın əleyhinə olanlar arasında bəzi müxalifət partiyaları, xüsusilə,

Müsavat Partiyası, Kommunist Partiyası və YAP-ın bir çox nümayəndələri əksəriyyət təşkil edirlər (yəni mətbuatda öz mövqelərini bildirənlər).

Anti-konfederasiya tərəfdarı olan siyasətçilərin əsas arqumentləri və əks-arqumentləri bunlardır:

- Konfederasiya Azərbaycanın müstəqilliyinə təhlükədir. Çünki böyük dövlətlər kiçik dövlətləri əvvəl-axır öz içində əridir. Həmçinin, Qərb dövlətləri bu cəhdi xoş qarşılamayacaqlar (Rəsul Quliyev, Tahir Kərimli və s.) [8].

- Türkiyə ilə konfederasiyaya getmək Azərbaycanın parçalanmasına şərait yaradacaq. Çünki bir qrup Rusiya ilə, digər qrup İran ilə birləşmək ideyasını ortaya atacaq (Etibar Məmmədov) [12].

- Konfederasiya – keçmişdə qalmış və bu gün əhəmiyyətini itirmiş bir məsələdir (Rəsul Quliyev, Bahar Muradova) [5]. “Kiminsə qoltuğu altına girmək bizim dövlət başçımızın da, dövlətimizin də perspektivində nəzərdə tutulmur" (deputat Hadı Rəcəbli). [14].

- Konfederasiya – Türkiyənin ziyanına olan bir ideyadır. Çünki Türkiyənin daxilində “Kürdüstan” qurmaq istəyənlər federasiya və ya konfederasiya təklifindən çıxış edirlər. Bu məsələ, onların dəyirmanına su tökmək olardı (Məlahət İbrahimqızı) [5].

- Azərbaycan Avrasiya İttifaqına girərək Rusiya ilə birlikdə olmalıdır. Bölgədə türk-slavyan dövlətlər birliyi yaradılmalıdır (Qüdrət Həsənquliyev, Arif Rəhimzadə və s.) [12].

- Konfederasiyaya ehtiyac yoxdur. Dövlətlərarası əlaqələrin inkişaf etdirilməsi və münasibətlərin qorunub saxlanılması kifayətdir (Aydın Mirzəzadə, Zahid Oruc) [14].

- Bir dövlətdə birləşmək xəyaldır və mümkün deyildir. İlk növbədə, siyasi iqtidar buna razı olmaz (Zərdüşt Əlizadə) [9].

Konfederasiya tərəfdarı olan siyasətçilərin əsas arqumentləri və əks-arqumentləri aşağıdakılardır:

- Konfederasiya hər iki dövlətin mənafeyinə xidmət edir. Çünki ayrı-ayrılıqda bu dövlətlər öz müstəqilliklərini itirmək təhlükəsi ilə üzləşirlər. Həm Azərbaycanda, həm də Türkiyədə bu birliyi istəməyənlər, dolayı yolla Rusiyanın müstəmləkəçilik siyasətini müdafiə edənlər və ölkəmizin, türk dünyasının möhkəmlənməsinin əleyhinə çıxanlardır (Fərəc Quliyev) [2].

- Konfederasiya - dövlətin təhlükəsizliyinin zamanına və şəraitinə bağlı bir məsələdir. Buna ehtiyac yarananda, ona getmək zəruridir. Çünki Rusiya müstəqilliyimiz üçün böyük təhlükədir (Fazil Mustafa) [2]. Artıq bu zaman yetişmişdir (Toğrul İsmayıl) [10].

- Konfederasiya - Avropa Birliyi nümunəsi kimi, demokratiyaya keçidin geosiyasi təminatına əsas verir (Pənah Hüseyin) [8].

- Konfederasiyaya daxil olan ölkələrin dövlət müstəqilliyinə heç bir təhlükə yoxdur. Əksinə, bu məsələnin və Cənubi Azərbaycan məsələsinin gündəmə gəlməsi yeganə çıxış yoludur (professor Kamil Vəli Nərimanoğlu).

- Konfederasiyaya Azərbaycan-Türkiyə birliyi ilə deyil, həmçinin, digər türk dövlətləri və GUAM ölkələri ilə də iqtisadi birliyə çevrilə bilər (Həsrət Rüstəmov, Vaqif Hacıbəyli) [5]

YAP-çı millət vəkili Hikmət Babaoğlu mətbuatda konfederasiya ideyasına elmi-nəzəri və analitik-empirik yanaşma ortaya qoyaraq bəzi məsələlərə aydınlıq gətirmişdir. O, konfederasiyanın lehinə və əleyhinə olanların bir çox arqumentlərinin əsassız olduğunu irəli sürərək, məsələyə elmi yanaşmanın tərəfdarı olmuşdur, Qafqazda konfederasiya yox, strateji tərəfdaşlıq münasibətlərinin daha real və perspektivli olduğunu əsaslandırmışdır [3].

Azərbaycan-Türkiyə birliyi Avrasiyada türk-müsəlman düşmənlərini ciddi narahat edir. Onlardan biri də Yunanıstandır. Yunan spiker İoannis Teodoratos Türkiyənin Azərbaycanla iki ölkə arasında Zəngəzur dəhlizi yaratmağa çalışmasından çox böyük narahatlıq keçirdiyini ifadə etmişdir [15].

Digər tərəfdən də Rusiya son dövrdə SSRİ-ni bərpa etmək fəaliyyətlərinə başlayıbdır. ReAL Partiyanın icra katibi Natiq Cəfərli son dövrdə bölgədə Rusiyanın SSRİ-ni bərpa etməklə bağlı bəyanatlarının və fəaliyyətinin təhlükəli olduğunu nəzərə alaraq, Türkiyə ilə "İttifaq Dövləti" müqaviləsinin bağlanılmasını zərurət hesab etdiyini açıqlayıb [7].

### Nəticə

Bütün bu məsələlərin təhlili göstərir ki, nəinki Azərbaycan-Türkiyə birliyi, bütün türk-müsəlman dövlətlərinin birliyi və bu birlik içində onların hərtərəfli inteqrasiyası zamanın tələbidir. Konfederativ əsaslarda birləşmək, yaxud birliyin başqa forma və üsullarını müəyyənləşdirmək, o istiqamətdə çalışmalar həyata keçirmək, konfederasiya ideyası ətrafında səslənən fikir və təklifləri diqqətə almaq lazımdır. Hətta bu ideyanın əleyhinə olan fikirləri də təhlil etmək, doğru yolu tapmaq vacibdir. Bunun ən optimal formalarını axtarıb tapmaq üçün isə bu məsələlərin geniş rakursda və təcili elmi müzakirələrinə ehtiyac vardır. Çünki zaman gözləmir və bizdən təcili seçim tələb edir. Tarixi zərurəti anlayaraq doğru seçim etmək, qarşıda bir və ya bir neçə

xalqın ən azı bir əsrlik taleyini müsbət mənada həll etmiş olur. Əks təqdirdə, XX əsrin əvvəllərində olduğu kimi, türk-müsəlman dünyasının başına gələnlər yenidən təkrarlana bilər.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Abbaslı C. Dərin dövlətin əsas hədəfi - Türkiyə ilə Azərbaycanın birləşməsi. [Elektron resurs] - Musavat.com 16.04.2016 – URL: https://musavat.com/news/siyaset/derin-dovletin-esas-hedefi-turkiye-ile-azerbaycanin-birleshmesi_340251.html*

*2. Abbaslı C. Fərəc Quliyev: "Konfederasiya əleyhinə çıxanlar Azərbaycanın güclənməsini istəməyənlərdir" [Elektron resurs] - Musavat.com 21.06.2018 – URL: https://musavat.com/news/ferec-quliyev-konfederasiya-eleyhine-cixanlar-azerbaycanin-guclenmesini-istemeyenlerdir_535398.html*

*3. Babaoğlu H. Konfederasiya ideyasına elmi-nəzəri və analitik-empirik yanaşma... [Elektron resurs] - trend.az 17 İyun 2018. URL: https://az.trend.az/azerbaijan/politics/1928012.html*

*4. Başbuğ: "Ən böyük xəyalım Azərbaycan və Türkiyəni..." https://axar.az/news/planet/90457.html*

*5. Hakan Boz. Tek Millet İki Devlet'ten, Tek Millet Tek Devlete; Azerbaycan-Türkiye Konfederasyonu mu? [Elektron resurs] - 21. Yüzyıl. – 28 eylül 2011. URL: https://www.21yyte.org/tr/merkezler/bolgesel-arastirma-merkezleri/guney-kafkasya-iran-pakistan-arastirmalari-merkezi/tek-millet-iki-devletten-tek-millet-tek-devlete-azerbaycan-turkiye-konfederasyonu-mu*

*6. Konfederasiya ideyası hər zaman real olub. [Elektron resurs] - Musavat.com – 29.08.2011 – URL: https://musavat.com/news/gundem/konfederasiya-ideyasi-her-zaman-real-olub_107117.html*

*7. Məmmədzadə Ə. Ya SSRİ, ya da Türkiyə ilə Konfederasiya seçimi... - Azərbaycan böyük güclərin toqquşma mərkəzində. ... [Elektron resurs] - 20 aprel 2021. URL: https://bakivaxti.az/az/posts/detail/azerbaycan-boyuk-guclerin-toqqusma-merkezindedir-ya-ssri-ya-da-turkiye-ile-konfederasiya-secimi-1618904525*

*8. Pənah Hüseyn Rəsul Quliyevin cavabını verdi. [Elektron resurs] - musavat.com. 09.09.2011 URL: https://musavat.com/news/siyaset/Penah-Huseyin-Resul-Quliyevin-cavabını-verdi_107756.html*

*9. Politoloq: "Azərbaycanla Türkiyənin birləşməsi mümkün deyil" ... [Elektron resurs] - bbc.com-15 Aprel 2016. URL: https://www.bbc.com/azeri/azerbaijan/2016/04/160415_azerbaijan_turkey*

*10. Politoloq, professor Toğrul İsmayıl "Yeni Müsavat"ın canlı yayımında Türkiyə-Azərbaycan münasibətlərindən danışdı. [Elektron resurs] - Müsavat.com. 03.10.2018 – URL: https://musavat.com/news/yeni-musavat-in-canli-yayiminda-politoloq-professor-togrul-ismayildir-canli-yayim_560186.html*

*11. Rəğbətoğlu, M. 103 il əvvəlki Türkiyə-Azərbaycan konfederasiyası ideyası – Osmanlı zabitinin xatirəsi. [Elektron resurs] teleqraf.com – URL: https://teleqraf.com/news/toplum/310945.html*

*12. Sərdar Cəlaloğlunun Konfederasiya təklifi qalmaqal yaratdı. [Elektron resurs] - Teref.az 14.06.2018 – URL: http://teref.az/gundem/88961-serdar-celaloglunun-konfederasiya-teklifi-qalmaqal-yaratdi.html*

*13. STRATFOR, Türkiye'nin Azerbaycan'la birleşerek Orta Asya'yı nüfuzu altına alma projesine başlayabileceğini öne sürdü. [Elektron resurs] - t24.com.tr/haber 24 Nisan 2009. URL: https://t24.com.tr/haber/turkiye-azerbaycanla-birlesebilir-iddiasi,43067*

*14. Türkiyə ilə necə birləşək? [Elektron resurs] - 16 Aprel 2016 – URL: https://news.milli.az/politics/425762.html*

*15. Yunan spiker tutuştu: Türkiye ve Azerbaycan birleşecek. [Elektron resurs] - Yeni Akit. 22.10.2020 - URL: https://www.yeniakit.com.tr/haber/yunan-spiker-tutustu-turkiye-ve-azerbaycan-birlesecek-1422360.html*


## XÜLASƏ


Məqalədə Türkiyə və Azərbaycan münasibətlərinin hazırkı vəziyyətinə nəzər salınıb. Hər iki dövlətin strateji müttəfiqlik çərçivəsində əlaqələri ən üst səviyyəyə qaldırmasına diqqət çəkilib. Azərbaycana və Türkiyəyə qarşı təhdidlər onları daha da sıx birləşməyə yönləndirir. Bu təhdidləri nəzərə alaraq konfederasiya formatında birlik, birləşmək təkliflərinin zaman-zaman gündəmə gətirildiyi təqdim olunub. Konfederasiya ideyasına razı olanlar və olmayanlar fikirlərini media vasitəsilə ifadə ediblər. Onların hər birinin səsləndirdiyi arqumentlər məqalədə araşdırılıb, Azərbaycanla Türkiyənin konfederativ əsaslarda birləşməsini vacib edən amillər təhlil olunub. Hər iki dövlətə qarşı təhdidlərin mənbəyi, gələcəkdə onlara qarşı müqaviməti formalaşdırmağın vacibliyi önə sürülüb. Azərbaycan-Türkiyə birliyinin güclənməsinin gələcəkdə Türk Dövlətləri Təşkilatının daha da böyüməsinə, təşkilatlanmasının genişlənməsinə səbəb ola biləcəyi vurğulanıb. Ümumilikdə Azərbaycan-Türkiyə birliyi, konfederasiyası ilə bağlı çağırışlara, mövcud duruma diqqət edilməsinin vacibliyi önə çəkilib. Çünki

bu məsələlərdə düzgün qərar qəbul edilməzsə, 100 il, 200 il olduğu kimi indi də çöx böyük çətinliklərlə qarşılaşa biləcəyimiz yekun olaraq vurğulanıb.

**Açar sözlər:** *Azərbaycan, Türkiyə, konfederasiya, türk birliyi, Cənubi Qafqaz, media.*

**Мубариз Гёюшлу**
***Факультет журналистики БГУ, докторант и преподаватель, заведующий кафедрой Национальной Академии Наук Азербайджана, mubariz2011@hotmail.com***

**РЕЗЮМЕ**
**Отношение к вопросу конфедерации в турецких и азербайджанских СМИ**

В статье рассматривается современное состояние отношений между Турцией и Азербайджаном. Обращается внимание на то, что оба государства подняли свои отношения на самый высокий уровень в рамках стратегического союза. Угрозы в адрес Азербайджана и Турции направляют их к более тесной интеграции. Учитывая эти угрозы, представляется, что предложения о единстве и объединении в формате конфедерации время от времени выносятся на повестку дня. Сторонники и несогласные с идеей конфедерации высказывали свои мнения через СМИ. В статье рассматриваются аргументы, высказанные каждым из них. Анализируются факторы, делающие необходимым объединение Азербайджана и Турции на конфедеративных принципах. Выдвинуты источники угроз обоим государствам и важность формирования сопротивления им в будущем. Подчеркнуто, что укрепление азербайджано-турецкого союза может привести к дальнейшему росту Организации Тюркских Государств и расширению ее организации в будущем. В целом, была подчеркнута важность уделения внимания вызовам и нынешней ситуации, связанной с азербайджано-турецким союзом и конфедерацией. Потому что если не будет принято правильное решение по этим вопросам, то был сделан вывод, что сейчас мы можем столкнуться с большими трудностями, как и 100 или 200 лет назад.

**Ключевые слова:** *Азербайджан, Турция, конфедерация, тюркское единство, Южный Кавказ, медиа.*

**Mubariz Goyushlu**
***BSU Journalism Faculty PhD candidate and teacher, Head of Department of the Azerbaijan National Academy of Sciences, mubariz2011@hotmail.com***

**SUMMARY**
**Attitude to the confederation issue in the Türkiye and Azerbaijan media**

The article considers the current state of relations between Turkey and Azerbaijan. Attention is paid to the fact that both states have raised their relations to the highest level within the framework of a strategic alliance. Threats against Azerbaijan and Turkey are directing them towards closer integration. Considering these threats, it is presented that proposals for unity and unification in the confederation format have been brought to the agenda from time to time. Those who agree with the idea of confederation and those who disagree have expressed their views through the media. The arguments voiced by each of them are examined in the article. The factors that make the unification of Azerbaijan and Turkey on confederal principles necessary are analyzed. The source of threats against both states and the importance of forming resistance against them in the future are put forward. It was emphasized that the strengthening of the Azerbaijani-Turkish union could lead to the further growth of the Organization of Turkic States and the expansion of its organization in the future. In general, the importance of paying attention to the challenges and the current situation related to the Azerbaijani-Turkish union and confederation was emphasized. Because if the right decision is not made on these issues, it was concluded that we may face great difficulties now, just as we did 100 or 200 years ago.

**Keywords:** *Azerbaijan, Turkey, confederation, turkic union, South Caucasus, media.*

UOT 32
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.013

# SOYUQ MÜHARİBƏ İLLƏRİNDƏ ABŞ-ÇXR MÜNASİBƏTLƏRİNDƏ TAYVAN MƏSƏLƏSİ

**XƏYYAM İSMAYILZADƏ**
*Bakı Dövlət Universiteti*
*Beynəlxalq münasibətlər kafedrası.*
*Siyasi elmlər üzrə fəlsəfə doktoru*
*E-mail: ekonika22@yahoo.com*

## GİRİŞ

Qloballaşan dünyada həyata keçirdiyi iqtisadi islahatlarla xarici dünyaya açılan və bununla da bu gün ikinci ən böyük iqtisadiyyata çevrilən Çin Xalq Respublikası böyük bir güc olmaq yolunda irəli gedərkən, mədəniyyət və ənənələrindən də geri qalmır. Min illər boyu tarixi və mədəni keçmişi olan bu sivilizasiyanın öz xarici siyasət prinsiplərini müəyyən edərək istifadə etdiyi ən uğurlu təlim Konfutsi fəlsəfəsidir. Ancaq yüksəlişi sürətlə davam edən bir dövlət başda ABŞ olmaqla, bəzi Qərb dövlətlərini də narahat etmiş və Çinlə bağlı müxtəlif təhdid nəzəriyyələrinin ortaya çıxmasına səbəb olmuşdur. Buna cavab olaraq, Çin dinc dövlət olduğunu və status-kvoya qarşı üsyan etməyəcəyini sübut etmək üçün Konfutsi təlimlərinə əsaslanan beynəlxalq münasibətlər nəzəriyyələri və xarici siyasət prinsiplərini inkişaf etdirməyi seçdi.

"Soyuq müharibə" illərində ABŞ-ÇXR münasibətlərində ziddiyyətli məqamların olması, xüsusilə, Tayvan probleminin həlli əsas məsələlərdən biri idi. ÇXR-in hərbi doktrinasında sabitliyi pozan amil "vətənin birləşməsi" rəsmi istiqamətidir. Pekinin irəli sürdüyü şərtlərlə Tayvanın ÇXR-ə birləşməsi və Cənubi ÇXR (Spratli arxipelaqı) və Şərqi ÇXR (Senkaku adaları) dənizlərində mübahisəli ada əraziləri üzərində nəzarətin yaradılması, uzun illərdir ki, məhz Tayvan məsələsi öz aktuallığını itirməmişdir. Bu baxımdan məsələnin Çin tərəfindən həll edilməməsi digər dövlətlərlə, eləcə də ABŞ-la münasibətlərinin qarşılıqlı şəkildə inkişafına maneəçilik törədir. Eyni zamanda, müəyyən şərtlər daxilində hərbi gücdən istifadə də istisna edilmir. ÇXR-in hərbi qurumunun əhəmiyyətli potensialı öz maraqlarını qorumağa qadirdir və münaqişə baş verərsə, istənilən ölkə üçün ciddi təhlükə yarada bilər (1, səh 497).

ABŞ ekspertlərinin fikrincə, ÇXR artan iqtisadi, demoqrafik, hərbi və siyasi potensialına görə Asiya qitəsində mərkəzi oyunçulardan biridir və uzunmüddətli perspektivdə Asiyada hakim mövqedə qala bilər. Buna görə ABŞ-nin qarşıdakı 15-20 il ərzində ÇXR ilə münasibətlərinin aydın şəkildə həll olunması son dərəcə vacibdir. ÇXR açıq şəkildə düşmən olmasa da, onun hələ də bölgədə təsir gücünə görə ABŞ-a rəqib olduğu və regionda uzunmüddətli milli maraqların reallaşmasını çətinləşdirə bilməsi danılmaz faktdır. Vaşinqton, xüsusilə ÇXR-in hərbi təhlükəsi və hərbi xərclərin qeyri-adekvat artımından narahatdır. Mərkəzi Kəşfiyyat İdarəsinin məlumatına görə, 2025-ci ildən sonra ÇXR-in regionda əsas hərbi gücə çevrilmək ehtimalı daha yüksəkdir. Məhz buna görə ÇXR -in Amerika ilə münasibətləri mürəkkəb olmaqda davam edir və müxtəlif istiqamətlərdə inkişaf edəcəkdir. Onların arasında birgəyaşayış, əməkdaşlıq, rəqabət və ekstremal situasiyalarda birgə səylərin göstərilməsi halları var. Sabitliyin əsas amili ticarət-iqtisadi sahədə qarşılıqlı faydalı ikitərəfli münasibətlərdir. Qeyd etmək olar ki, Rusiyanın Şimal-Şərqi Asiyada rolunu qiymətləndirmək, regionda inkişaf etməkdə olan hərbi-siyasi vəziyyətə təsir etmək üçün real imkanları arzuolunan deyil. Rusiyanın iqtisadi zəifliyinin nəticəsi onun hərbi potensialının kəskin şəkildə azalmasına səbəb oldu.Bu gün Rusiya hərbi büdcəsini Yaponiya (5 dəfə), ÇXR (3 dəfə), Koreya Respublikası (2 dəfə) üstələyir. Bu fakt RF Silahlı Qüvvələrinin Şərqdəki qruplaşması ilə müqayisə edilə bilər və ondan üstün olmağa başlayır. Nəticə etibarı ilə Rusiya zəifləmiş dövlətin maraqlarına məhəl qoymamağa və təzyiq göstərməklə, o cümlədən zor tətbiq etməklə onu öz maraqlarına xidmət etməyə meyilli ola bilərlər. Bu, Asiya-Sakit Okeanı regionunda dünya güc mərkəzinin dəyişməsi ilə bağlı xüsusi narahatlıq doğurur. Yeganə fövqəldövlət ABŞ geostrateji maraq zonasının bir hissəsi olan regionlarda digər ölkələrlə necə davranmaq qaydasını diktə etməyə çalışır. Belə ki, regionda ABŞ və Yaponiya, ABŞ və Cənubi Koreya arasında müttəfiqlik əlaqələri - hərbi-siyasi sahədən tutmuş hərbi-texniki və əlaqələndirilmiş birgə əməliyyat hazırlıqlarına qədər keyfiyyətcə daha yüksək səviyyəyə qalxır.Bunun nəticəsində ABŞ-nin buradakı mövqeyi nəinki zəifləyir, həm də nəzərəçarpacaq dərəcədə güclənir. ABŞ silahlı qüv-

vələrinin hərbi mövcudluğunun kəmiyyət parametrləri onun hərbi texnikasının əlçatmaz keyfiyyətində özünü büruzə verir. Hərbi sahədə yeniliklərin böyük əksəriyyəti ABŞ-da tətbiq olunur. Bunlar trayektoriyanın sürətləndirici hissəsində ballistik raketlərlə mübarizə aparmaq üçün şüa silahlı təyyarə kompleksləri, hava hücumundan müdafiənin təşkili üçün X-45A robot hücum təyyarəsidir. Bunlar arasında aviasiya silahları daşıyıcıları, mühüm hərəkət edən obyektlərə yüksək dəqiqlikli silahlar və s. vardır. Quru qoşunları optik sistemi, videokamera, rəqəmsal kompaslı lazer məsafəölçən, modul zireh mühafizəsi, kompüter şəklində silahları idarəetmə mərkəzinə sahib olan avadanlıq hazırlayır (2, səh 136).

1945-ci ildə dostluq və müttəfiqlik müqaviləsi bağlamış ÇXR və Sovet İttifaqı arasında çatlar 60-cı illərin ortalarına doğru daha da aydınlaşdı. Bunun bir təsiri ABŞ-da Çinlə uzaq münasibətlərə yenidən baxmaq istəyi əks olunsa da, Prezident Riçard Niksona qədər administrasiya tərəfindən heç bir ciddi önəm verilmədi. Prezident Nikson 1971-ci ildə antisovet siyasətinə dəstək axtarmaq və Vyetnam bataqlığından çıxmağa kömək etmək üçün Milli Təhlükəsizlik müşaviri Henri Kissinceri gizli şəkildə Pekinə göndərdi. Başqa bir fakt ondan ibarət idi ki, Çinlə münasibətlərdə müəyyən yaxınlaşma Moskvanı Vaşinqtondan daha da uzaqlaşdıracaqdır ( 3, səh 312).

1953-cü ildə ABŞ Prezidenti seçilən Duayt Eyzenhauer qatı anti-kommunist idi və hesab edirdi ki, bu rejimi bütün Avropa və Asiyadan silmək lazımdır. O, Çinə müəyyən qədər inansa da, Tayvanın lideri Çan Kay Şekə (Chiang Chieh-Shih) də etibar etmirdi. Bütün bunlara baxmayaraq, Çinin mümkün işğalının qarşısını almaq üçün o, Tayvanla qarşılıqlı müdafiə haqqında müqavilə imzaladı. Eyzenhauer administrasiyası Tayvanın müstəqilliyi məsələsini "daxili məsələ" kimi görür və tərəflər arasında həll edilməsini lazım bilərək Çinə qarşı münasibəti aşağı səviyyədə saxlamağa çalışırdı. Vaşinqtonun fikrincə, əsas prioritet Çinlə ticarət əlaqələrini genişləndirmək və Pekinin Moskvanın dəstəyinə ehtiyacını maksimum azaltmaq idi ( 4).

Gözləntilərin əksinə olaraq, 1960-1963-cü illər arasında prezident vəzifəsini icra edən Con Kennedi siyasi həyatı boyu ABŞ-da ÇXR-nı və Tayvan lideri Çan Kay-Şek tərəfdarlarını tənqid etmişdir. Bu yanaşmanın daxili siyasət həssaslığından qaynaqlandığını deyənlər də var idi ki, Şərqi Avropadakı ölkələrlə əlaqələri inkişaf etdirən Kennedi öldürülüb ikinci müddətə seçilsəydi, Pekinlə münasibətləri yaxşılaşdıracaqdı.

ÇXR və kommunizmə qarşı mənfi münasibəti olmayan Prezident Lindon Consonun (1963-1969) hakimiyyəti dövründə iki ölkə arasında münasibətləri normallaşdırmaq üçün müxtəlif cəhdlər edilsə də, həmin illərdə "mədəni inqilabı dərinləşdirən" qarşı tərəfdən lazımi cavab alınmadı. Daha sonra isə ABŞ-nin Vyetnam müharibəsi ilə əlaqədar iki ölkə arasında münasibətlərdə müsbət irəliləyişə nail olunmadı. Kommunistlərin 1949-cu ildə vətəndaş müharibəsində qalib gəlməsi və 1950-ci ildə Koreya müharibəsinə qoşulması ilə ABŞ-nin Çinlə tarixi dostluğuna zərbə vuruldu. Budəfəki dostluq Pekində kommunist hökmdarlarını təcrid siyasəti ilə əvəz olundu. L.Consondan sonra ABŞ Prezidenti olan Riçard Nikson (1969-1974) Çinin ABŞ maraqları üçün vacib olduğuna inanırdı. Eyni vaxtda, Vyetnam müharibəsinin (1965-1977) başa çatması "güclər balansını" ABŞ-nin xeyrinə açıq şəkildə dəyişdi. Prezident R.Niksonun hakimiyyəti dövründə H.Kissincerin diplomatiyası nəticəsində 1972-ci ilin fevralında iki dövlət arasında Şanxay Bəyannaməsi imzalandı və R.Niksonun Pekinə səfəri 21 fevral 1972-ci ildə baş tutdu. İki ölkə qarşılıqlı ofislər açmağa razı oldu və R.Nikson Pekini ÇXR-nın yeganə paytaxtı kimi qəbul etdi. Bütün bunlar Çinin gözləntilərini tam olaraq əks etdirməsə də, Tayvanın BMT-dən çıxarılması və yerinə Çinin gəlməsi sevindirdi. Bu variant isə sovetləri ABŞ-la olan gərginlikləri daha tez həll etmək yollarını axtarmağa vadar etdi (5, səh 129).

1979-cu ilin yanvarında ÇXR-nın rəsmi tanınması və iki ölkə arasında diplomatik münasibətlərin inkişafı Prezident Cimmi Karterin hakimiyyəti dövründə baş vermişdir. O biri tərəfdən, sovetlərlə yaxınlaşmağı hədəfləyən ABŞ Çinin təkidi ilə Tayvan ilə imzaladığı silah satışı ilə bağlı qarşılıqlı müdafiə müqaviləsini ləğv etdi və onu regional şəraitin tələb etdiyi səviyyədə məhdudlaşdırdı.

ABŞ-da keçirilən prezident seçki kampaniyasında Tayvanın lehinə danışan növbəti Prezident Ronald Reyqan (1981-89) seçildikdən sonra ABŞ-ÇXR münasibətlərinə xələl gətirməyə cəhd etməmiş, Nikson və Karter dövründə imzalanmış müqavilələrə əməl etməyə davam etmişdir. 1984-cü ildə Prezident R.Reyqan ÇXR-na səfər edərək iki ölkə arasında iqtisadi, mədəni və strateji əlaqələrin daha da yaxşılaşdırılmasına nail oldu.

1976-cı ildə ÇXR lideri Mao Tszedunun ölümündən sonra yeni lider Den Syaopinin iqtisadi islahatları və bazar iqtisadiyyatına keçidi, xüsusilə, hər iki tərəf üçün uğurlu oldu. Belə ki, bu dövrdə ÇXR ABŞ-nin əsas kommersiya tərəfdaşlarından birinə çevrilsə də, məşhur Tiananmen meydanında rejim əleyhdarlarının öldürülməsi faktı insan haqları mövzusunda iki dövlət arasında fikir ayrılığına səbəb oldu.

Hazırda ABŞ və ÇXR arasında nəinki hərbi, həm də iqtisadi-siyasi sahədə gərginliyin olması gözləniləndir. ABŞ-da fəaliyyət göstərən sağtəmayüllü beyin mərkəzi "Heritage Foundation" nin ekspertləri tərəfindən Çinlə bağlı bəzi məlumatlar bəyan olunmuşdur. Layihədə yaxın gələcəkdə ABŞ üçün Cin bütün sahələrdə hələ də təhlükə olaraq qeyd olunur. Eyni zamanda, bölgədə ABŞ-nin yaxın müttəfiqləri olan Cənubi Koreya, Filippin, Yaponya, Tayvan kimi ölkələrin təhlükəsizliyi və ABŞ iqtisadiyyatının isə maksimum Çindən müstəqil olması təşəbbüsü də vardır (6).

ABŞ Prezidenti Donald Trampın "İlk növbədə ABŞ" prinsipi Şərqi və Cənub-Şərqi Asiyada Çinin xeyrinə işləyə bilər. Çünki, Bayden administrasiyasının apardığı siyasətdən fərqli olaraq, o bölgədə tamamilə, Çinin maraqlarına uyğun güc boşluğu yarana bilər. Amma Tayvanla bağlı məsələ qeyri-müəyyəndir və ABŞ-nin onu müdafiə edəcəyi bəlli deyildir. Ehtimal var ki, Tayvana silah satışı artırılsın, bu da regionda stabilliyin pozulmasına gətirib çıxara bilər. Bu çərçivədə Çin ABŞ-ı bu siyasətdən çəkindirmək məqsədilə, Tayvan ətrafında hərbi təlimlər apara bilər. Prezident D. Tramp Çinə qarşı tarif siyasətinə əməl etsə, öz növbəsində, Çin ABŞ şirkətlərinə əlavə rüsumlar tətbiq edəcək və açıq-aydın Tayvana müdaxilə etməsə də, onu sıxışdırmaq üçün "boz zona" taktikasını irəli sürəcəkdir.

## Nəticə

Paralel surətdə ABŞ Cənibi Çin dənizində aktiv olmağı planlaşdırır. ABŞ müttəfiqləri olan Yaponiya və Filippin ilə birgə hərbi təlimləri keçirməyi nəzərdə tutur. Çin isə ASEAN ölkələri ilə daha sıx əlaqələr qurmağı, ABŞ-nin təsir dairəsini tarazlaşdırmağı və təhlükəsizlik sahəsində əməkdaşlıq mexanizmlərini təşviq etməyi hədəfləyir. Nəticə olaraq qeyd olunmalıdır ki, ÇXR ABŞ-ni dünya düzəninin inkişafına mane olan, sabitliyə qarşı çıxan, dövlətləri potensial təhlükə kimi qələmə verərək özünü beynəlxalq ictimai rəydə məsuliyyətli və güclü bir aktor kimi göstərməyə çalışaqdır.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Abbasbəyli.A, "Dünya siyasəti". Bakı – 2011, 584 s.*

*2. А.В. Смирнов1, Д.Н. Ермаков 1, О.Ю. Казенков: Современные китайско-американские международные отношения в условиях глобализации-Moskva 2022, 280 s.*

*3. Henri Kissincer. Diplomatiya. Türkiye İş Bankası Kültür Yayınları, İstanbul 2006, s. 681-701.*

*4. https://www.gilderlehrman.org/history-by-era /seventies/essays/united-states-and-china-during-cold-war.*

*5. Həsən Bilgin," Strateji olaraq Çin", USAK Yayınları, Ankara 2010, s. 212.*

*6. https://www.ordu.az. Çin-ABŞ münasibətlərində dönüş gözlənilir? "Boz zona" taktikası davam etdiriləcək?.*

## XÜLASƏ

Məqalədə "soyuq müharibə" illərində ikitərəfli münasibətlərdə bütün əlaqələrin, xüsusilə, Tayvan məsələsinin araşdırılması haqqında məlumat verilir. Bu problem daim mübahisə predmeti olaraq nəinki iki dövləti, eyni zamanda, beynəlxalq təşkilatları, dövlətlərarası qurumları narahat etmiş, bu və ya digər formada dünya düzəninin formalaşmasına müəyyən mənada təsir göstərmişdir. Qloballaşan dünyada bu məsələnin həll olunması istiqamətində hər iki dövlət aralarında kəskin ziddiyyətlər olmasına baxmayaraq, dövlət başçıları və digər səviyyələrdə görüşlər keçirir, anlaşılmaz məqamları aradan qaldırır ki, bütün bunlar burada geniş əks olunmuşdur.

**Açar sözlər:** *ABŞ, ÇXR, Tayvan, "soyuq müharibə", kommunizm, qloballaşma, sivilizasiya, hərbi doktrina, vətəndaş müharibəsi, güc balansı.*

**Хайям Исмаилзаде**
***Бакинский Государственный Университет,***
***Кафедра международных отношений,***
***Доктор философских наук, и.о. доцента***
***Ekonika22@yahoo.com***

**Тайваньский вопрос в отношениях США и КНР в годы холодной войны**

**РЕЗЮМЕ**

В статье представлена информация об исследовании всех аспектов двусторонних отношений в период холодной войны, особенно тайваньского вопроса. Эта проблема, как постоянный предмет спора, волновала не только два государства, но и международные организации и межправительственные органы и так или иначе оказывала определенное влияние на формирование мирового порядка. Несмотря на острые противоречия между двумя государствами в решении этого вопроса в глобализирующемся мире, они проводят встречи на уровне глав государств и других уровнях, устраняют недопонимания, все это широко отражено здесь.

**Ключевые слова:** *США, КНР, Тайвань, холодная война, коммунизм, глобализация, цивилизация, военная доктрина, гражданская война, баланс сил.*

**Khayyam Ismayılzadeh**
***Baku State University,***
***Department of International Relations,***
***Doctor of Philosophy in Political Science, Acting Associate Professor***
***Ekonika22@yahoo.com***

**The Taiwan issue in US-PRC relations during the Cold War**

**SUMMARY**

The article provides information on the study of all relations in bilateral relations during the Cold War, especially the Taiwan issue. This problem has always been a subject of dispute not only for the two states, but also for international organizations and intergovernmental bodies, and in one way or another has had a certain impact on the formation of the world order. In the globalizing world, despite the sharp contradictions between them, both states hold meetings at the heads of state and other levels to resolve this issue, and all this is widely reflected here.

**Keywords:** *USA, PRC, Taiwan, Cold War, communism, globalization, civilization, military doctrine, civil war, balance.*

UOT: 32
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.015

# AZƏRBAYCAN DİASPOR TƏŞKİLATLARININ ERMƏNİ LOBBİSİNƏ QARŞI FƏALİYYƏTLƏRİ (1994-2020-ci illər)

**GÜLŞƏN BABAYEVA**
*Gəncə Dövlət Universiteti*
*Sosial fənlər kafedrasının dissertantı*

*E-mail: e_durustkari@mail.ru*

## Giriş

Təşkilatlanma səviyyəsinə görə dünyanın ən güclü icmaları arasında yer alan erməni diasporu, uzun illər ərzində yaratdığı lobbi təşkilatları şəbəkəsinin təsir gücündən həmişə təmsil etdiyi xalqın bədxah əməllərinə dəstək əldə etmək, əsl simasını ört-bas etmək üçün istifadə etmişdir. Belə güclü diasporun bədxah təcrübəsinin formalaşmasında şübhəsiz "türk" faktoru aparıcı rol oynamışdır.

Belə bir sistemli gücün Azərbaycan dövlətinə və xalqına qarşı amansız fəaliyyətini və bədxah əməllərinin təsirini 30 ildən çoxdur ki, dərindən hiss edirik. Qarabağ müharibəsində Ermənistana güclü hərbi-siyasi dəstək verən dövlətlərin bu dəstəyi sayəsində torpaqlarımızın 20%-ni işğal edən ermənilər, güclü lobbi təşkilatları vasitəsilə dünya miqyasında öz işğalçılıq əməllərini haqlı çıxarmağa çalışmış və Azərbaycan əleyhinə genişmiqyaslı fəaliyyət göstərmişlər. Müstəqilliyin ilk illərində ölkə daxilində hərbi-siyasi və sosial-iqtisadi vəziyyətin mürəkkəb olmasından istifadə edən ermənilərə qarşı Azərbaycan dövləti adekvat reaksiya verə bilməmiş, bu isə xalqımızın haqq səsinin dünyada eşidilməsinin qarşısını almışdır. Bu reallığı vaxtında görən uzaqgörən Ümummilli Liderimiz Heydər Əliyev xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması və fəaliyyətlərinin sistemləşdirilməsi istiqamətində sürətli addımlar atmış, dövlət-diaspora münasibətlərinin yüksək səviyyədə təşkil edilməsi üçün hüquqi-təşkilati işlər görmüşdür. Bütün bunlar isə illər keçdikcə öz nəticəsini daha aydın göstərməyə başlamış və erməni lobbisi sözün, əsl mənasında balanslaşdırılmışdır.

Erməni lobbi təşkilatlarının Azərbaycan əleyhinə fəaliyyətləri. 1994-2020-ci illər arasında, yəni atəşkəs dövründə, erməni lobbi təşkilatları Azərbaycan əleyhinə geniş və sistematik fəaliyyət göstərmişdir. Bu fəaliyyətlər əsasən aşağıdakı istiqamətlərdə aparılmışdır:

- Təbliğat və dezinformasiya kampaniyaları [8]: Erməni lobbi təşkilatları müxtəlif media platformalarında Azərbaycanın əleyhinə təbliğat apararaq Qarabağ münaqişəsində öz mövqelərini beynəlxalq ictimaiyyətə qəbul etdirməyə çalışmışdır. Qarabağ münaqişəsini "ermənilərin müstəqillik mübarizəsi" kimi təqdim etməklə, Azərbaycanı "təcavüzkar" kimi göstərməyə cəhd etmişlər. Sosial media, beynəlxalq media qurumları və qeyri-hökumət təşkilatları (QHT) vasitəsilə Azərbaycanın Qarabağdakı tarixi irsini inkar edən və təhrif edən məqalələr yayılmışdır.

- Diplomatik təzyiqlər və tanınma cəhdləri: Erməni diasporu və lobbi təşkilatları dünya ölkələrində, xüsusilə ABŞ və Avropa dövlətlərində Qarabağda qondarma "Dağlıq Qarabağ Respublikası"nın müstəqilliyinin tanınması üçün çalışmışdır. ABŞ-nin bəzi ştatlarında və Avropanın bəzi parlamentlərində Qarabağla bağlı Azərbaycan əleyhinə qətnamələrin qəbul edilməsinə nail olmuşlar. Avropa Parlamenti və BMT kimi beynəlxalq qurumlarda Ermənistanın maraqlarına xidmət edən qətnamələrin qəbuluna çalışmışlar.

- İqtisadi sanksiyalar və blokadalar üçün təşəbbüslər [7]: Azərbaycanın enerji layihələrini sabotaj etmək məqsədilə erməni lobbisi müəyyən ölkələrdə Azərbaycanın neft və qaz ixracatına maneə törətməyə cəhdlər etmişdir. Bakı-Tbilisi-Ceyhan (BTC) və Bakı-Tbilisi-Ərzurum (BTE) kimi enerji layihələrinin reallaşmasının qarşısını almaq üçün "ekoloji və insan hüquqları pozuntuları" kimi cəfəng iddialarla bir sıra kampaniyalar aparmışdır. Ermənistanın iqtisadi blokadadan çıxması üçün beynəlxalq təşkilatlara təzyiqlər göstərmişdir.

- Hüquq və insan haqları məsələləri üzərindən manipulyasiyalar: Xocalı soyqırımını inkar edən və Azərbaycanı "müharibə cinayətləri törətməkdə" ittiham edən kampaniyalar təşkil olunmuşdur. Beynəlxalq məhkəmələrdə və insan hüquqları təşkilatlarında Azərbaycanın Qarabağda apardığı siyasətə qarşı iddialar qaldırılmışdır. Ermənilərin "məcburi köçkün" statusu ilə bağlı beynəlxalq arenada diqqət çəkməyə çalışmışlar.

- Türkiyə və Azərbaycan əleyhinə birgə fəaliyyətlər: Erməni diasporası xüsusilə ABŞ-da və Fransada "erməni soyqırımı" iddialarını gündəmdə saxlayaraq Türkiyə və Azərbaycanı birgə şəkildə hədəfə almışdır. Azərbaycan-Türkiyə strateji əməkdaşlığına

mane olmaq məqsədilə erməni lobbiçiləri müxtəlif siyasi və iqtisadi təşəbbüslərlə çıxış etmişlər.

- Lobbiçilik və siyasi təsir [10]: ABŞ-da ANCA (Armenian National Committee of America), Fransa və digər ölkələrdə isə ARF (Armenian Revolutionary Federation) kimi lobbi təşkilatları vasitəsilə Azərbaycanın maraqlarına zərbə vurmağa çalışılmışdır. Erməni diasporu ABŞ Konqresi və Avropa Parlamentində Azərbaycan əleyhinə qanunların qəbuluna təsir göstərmişdir. Erməni lobbiləri müxtəlif QHT-lərə maliyyə yardımı göstərərək anti-Azərbaycan məqalə və hesabatların hazırlanmasını təşviq etmişdir.

- Mədəni və tarixi irsə yönəlik iddialar: Azərbaycan mədəniyyətinin Qarabağda “erməni irsinin bir hissəsi” kimi təqdim olunmasına çalışılmışdır. UNESCO və digər beynəlxalq mədəniyyət qurumlarında Azərbaycanın tarixi abidələrinin “ermənilərə məxsus olduğu” barədə saxta məlumatlar yayılmışdır.

Bu dövr ərzində Azərbaycan isə informasiya və diplomatik mübarizəsini gücləndirərək bu cəhdlərin qarşısını almaq üçün müxtəlif strategiyalar həyata keçirmişdir.

Erməni lobbisinə qarşı Azərbaycan diasporunun təşkilatlandırılması fəaliyyətləri. Azərbaycan diasporunun mütəşəkkil varlıq kimi meydana gəlməsində və milli maraqların qorunması uğrunda effektiv və ardıcıl fəaliyyət göstərməsində ulu öndər Heydər Əliyevin və onun xarici siyasət kursunu davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rolu böyükdür. 1993-2003-cü illərdə Azərbaycan Respublikasının Prezidenti olmuş Heydər Əliyevin və 2003-cü ildən Prezident İlham Əliyevin diaspor quruculuğu ilə əlaqədar imzaladığı qərarlar, fərmanlar və sərəncamların təhlili, xarici səfərlərdə diaspor təşkilatları ilə görüşləri, çıxışları və bəyanatları onu göstərir ki, erməni lobbisinin Azərbaycan əleyhinə, Qarabağ həqiqətlərini dünyadan gizlətmək səylərinin qarşısını almaq üçün diasporun təşkilatlanması üçün ardıcıl kurs həyata keçirilmişdir [3; 2; 5]. Milli dövlətin maraqlarına sadiqlik və onun maraqlarının qorunmasının əhəmiyyətinin dərk olunması bu kursun başlıca tərkib hissəsini təşkil etmişdir.

Hazırda dünyanın əksər ölkəsində 300-ə yaxın icma və birliyimiz fəaliyyət göstərir və diasporumuzun təşkilatlanma prosesi bu gün də davam edir. Hələ diaspor komitəsi yaranmamışdan əvvəl formalaşmış və ayrı-ayrılıqda fəaliyyət göstərən çoxsaylı cəmiyyət və birliklər bir araya gələrək, Azərbaycan federal birlikləri yaratmağa başladılar. Onların sırasında Ümumrusiya Azərbaycan Konqresini, Ukrayna Azərbaycanlıları Konqresini, Rusiya Azərbaycanlılarının Federal Milli-Mədəni Muxtariyyətini, Almaniya Azərbaycan Cəmiyyətləri Federasiyasını, İsveç-Azərbaycan Federasiyasını, Qazaxıstan, Qırğızıstan və Özbəkistan Azərbaycanlılarının “Turan” Konqresi və Qırğızıstanda “Azəri” İctimai Birliyini qeyd etmək olar [14, s. 72].

Based on Azerbaijan's observations of the European Union's initial monitoring mission in Armenia, it is evident that the mission lacks substantive arguments to contribute to peace. The mission focuses on portraying Armenians positively while ignoring the crimes committed by Armenians on Azerbaijani territories. Despite being aware of the destruction of mosques, looting of underground and surface resources, and the desecration of sacred sites, the mission has remained silent on these issues. Meanwhile, global media outlets have highlighted concerns about the closure of the Lachin-Shusha road, frequently placing such reports on their front pages. The progression of events indicates that the EU

is preparing to launch a new, long-term mission in the region. Despite the complexities of political developments in the region, Azerbaijan maintains an active and constructive role on the global stage, contributing positively to various international initiatives. Furthermore, the number of European states seeking to cooperate with Azerbaijan continues to grow [14]. One of the headlines in the media addressed Russia's ambassador to the UN Security Council, whose statements about the Lachin road raised concerns for Armenia’s representative Simonyan. During UN discussions, Western countries adopted a biased stance, applying double standards to the issue. At the Security Council meeting, Anna Evstigneeva, Russia’s deputy permanent representative to the UN, reiterated Russia’s traditional position, calling on Azerbaijan and Armenia to show restraint, avoid actions that could escalate tensions, and adhere to the trilateral agreements signed on November 10, 2020, January 11, and November 26, 2021, as well as October 31, 2022. She emphasized that fully implementing these agreements would provide the most stable foundation for normalizing relations between Baku and Yerevan, contributing to lasting peace in the South Caucasus [19].

As European representatives deepen their involvement in the South Caucasus, Russia’s stance toward Armenia, its longstanding ally, appears to be shifting. This has led to potential geopolitical changes in the region. For example, Russia’s relatively neutral position frustrated Armenian parliamentary speaker Alen Simonyan, who criticized Russia for its perceived indifference: “I view Russia's statement at the UN negatively. As an ally, Russia could have made a more targeted statement, similar to those by countries with less close ties to Armenia. I think Russia either cannot, does not want to, or neither can nor wants to support Armenia. After recent events, this no longer surprises me” [18]. Reports on the EU mission indicate that Armenia and Azerbaijan agreed on the deployment of the mission along the border. This step coincided with heightened tensions at the border as the two countries moved closer to signing a peace agreement. Armenia agreed to facilitate the EU civilian mission along the border with Azerbaijan, while Azerbaijan expressed conditional willingness to cooperate [3]. However, the EU’s October 6 statement lacked detailed information on the mission’s scope, potential, and objectives, merely noting that the mission would begin in October for a maximum duration of two months, aiming to build trust and support border commissions through its reports [3].

This progress appears to stem from the October 6 bilateral talks in Prague between Armenian Prime Minister Nikol Pashinyan and Azerbaijani President Ilham Aliyev, held as part of the European Political Community Summit. French President Emmanuel Macron and European Council President Charles Michel also participated in the discussions.

When commenting on the activities of the EU's mission in Armenia, political analyst Tigran Grigoryan told Eurasianet that these developments represent positive progress, adding that specific steps from Armenia are expected during the two-month mission. He noted that "Baku is pressuring Yerevan to expedite a peace agreement, finalize border demarcation, and resolve other outstanding issues, such as new transport routes between the two countries" [3]. Based on Grigoryan's remarks, Azerbaijan's insistence on reaching a peace agreement is perceived as pressure rather than constructive engagement. Amid these developments, Azerbaijani President Ilham Aliyev visited the administrative headquarters of the Western Azerbaijan Community on December 24, 2022, where he emphasized historical Azerbaijani lands. Aliyev stated, "I am confident that the day will come when our compatriots, their children, and grandchildren will return to their historic homeland in Western Azerbaijan" [20]. Meanwhile, during the protests by Azerbaijani environmental activists on the Lachin-Khankendi road, certain states maintained their traditional double standards, adopting biased stances. Reflecting on these events, President Aliyev remarked during his New Year and Solidarity Day address, "We hope that donor organizations will end this injustice. Unfortunately, international donor organizations have not provided a single cent or dollar of aid to Azerbaijan, despite the large-scale destruction we have faced. We have carried out and will continue to carry out all restoration efforts at our own expense" [18].

In assessing the geopolitical interests surrounding the South Caucasus, the positions of regional actors merit attention. Israel, for instance, has taken notable steps toward collaboration with Azerbaijan. In an interview, Israeli Ambassador to Azerbaijan George Deek expressed Israel's readiness to assist

with the development of "smart cities" in the liberated territories and reiterated its commitment to supporting infrastructure restoration in Karabakh [13]. However, such initiatives have raised concerns in some countries, including Iran, which has expressed hostility toward Azerbaijan's partnerships while overlooking Armenia's actions against Islamic values [6]. This hypocritical stance further exacerbates regional tensions.

Armenian Prime Minister Nikol Pashinyan has also expressed dissatisfaction with the role of Russian peacekeepers in Karabakh, stating, "Clarifying the specifics of Russia's peacekeeping operation is essential. While I have repeatedly emphasized the importance of Russian peacekeepers for ensuring Armenian security, their recent inaction regarding regional developments raises questions" [12]. This shift in tone reflects broader tensions in Armenia-Russia relations, as highlighted in reports suggesting that Yerevan may openly support Ukraine despite Moscow's disapproval [1].

The evolving geopolitical landscape also includes broader international dynamics. Ukrainian officials remain optimistic about victory in their conflict with Russia, with plans for intensified counteroffensives in the coming months. Meanwhile, institutions like the U.S.-based Hudson Institute have urged the American government to prepare for potential scenarios involving the collapse of the Russian Federation [1]. Such developments suggest that while Russia's global influence may wane, it is more likely to transition from a geopolitical superpower to a regional player. In this context, media outlets like Charlie Hebdo in France have published biased articles against Azerbaijan, falsely alleging that the country seeks to eliminate the Armenian population of Karabakh [24]. These baseless claims, clearly aligned with Armenian narratives, undermine European values and exacerbate misinformation. Simultaneously, Ruben Vardanyan, a newly appointed Karabakh separatist leader, continues to use humanitarian pretexts to issue statements against Azerbaijan, raising concerns over violations of Azerbaijani sovereignty and airspace.

The OSCE Minsk Group failed to achieve any tangible results over three decades, and similarly, following the 44-day war, Russian peacekeeping forces did not ensure the withdrawal of Armenian military units from Karabakh. As stated in the fourth clause of the Declaration signed by Azerbaijani President Ilham Aliyev, Russian President Vladimir Putin, and Armenian Prime Minister Nikol Pashinyan: "The Russian peacekeeping contingent is deployed in parallel with the withdrawal of Armenian armed forces" [21].

In 2023, a trilateral meeting in Brussels between European Council President Charles Michel, Azerbaijani President Ilham Aliyev, and Armenian Prime Minister Nikol Pashinyan aimed to foster confidence in peace. However, the EU Mission's actions, perceived as encouraging Armenia toward conflict, suggest that Armenia remains reluctant to abandon its revanchist policies. After the victory in the Patriotic War, which began on September 27, 2020, in response to Armenian provocations, the positions of international organizations toward Azerbaijan shifted significantly. Prior to this, Armenia and Azerbaijan were treated equally at negotiation tables, without explicitly identifying Armenia as the aggressor.

In total, six meetings have been held between Michel, Aliyev, and Pashinyan. Key topics of discussion included the return of the Western Azerbaijan community and the provision of essential services to Armenians in areas under peacekeepers' control by Azerbaijan, rather than Armenia. During these discussions, Pashinyan's acknowledgment of "Karabakh being part of Azerbaijan" reflected a recognition of the new geopolitical realities. Additionally, Armenia's military provocations along the provisional border on February 12 raised questions about the EU's semi-military mission stationed in Armenia. This mission, intended to build trust between the two countries, had achieved no tangible success in that regard [9].

## Conclusion

Based on the findings of our research, the arrival of the European Union mission in the South Caucasus, the resurgence of Armenia's revanchist sentiments, and the futile resistance of Armenians in the Karabakh region compelled the Azerbaijani government to launch an anti-terror operation. This operation, lasting only 23 hours, concluded with the Armenians raising a white flag. While Armenia's military had agreed to sign a capitulation in 2020 after 44 days of war, the remnants of its forces in Karabakh surrendered within 23 hours.

Following the operation, approximately 27,000–

30,000 residents left Karabakh, which exposed Azerbaijan to various international pressures. A key reason for their departure was that the majority of these individuals were not Azerbaijani citizens but nationals brought to the region from Armenia and other countries. Another significant factor was their involvement in crimes against Azerbaijan, including acts of ethnic cleansing and genocide in collaboration with separatist forces. These realities underline the challenges faced in restoring stability and sovereignty in the region.

**References**


1. *Ağayev, T. İrəvan Moskva ilə bütün bağlarını qırır. Bakı Xəbər. 6 yanvar 2023.*
2. *AI-nin Ermənistandakı missiyası hərbi kontingentə bənzəyir. 25 yanvar 2023. URL: https://report.az/region-xeberleri/kiv-ai-nin-missiyasi-mulki-deyil-herbi-kontingente.*
3. *Armenia, Azerbaijan agree to EU mission on border. Eurasianet. 7 oktyabr 2022. URL: https://eurasianet.org/armenia-azerbaijan-agree-to-eu-mission-on-border.*
4. *Armenia: EU establishes a civilian mission to contribute to stability in border areas. Consilium Europa. 23 yanvar 2023. . URL: https://www.consilium.europa.eu/en/press/press-releases/2023/01/23/armenia-eu.*
5. *Azərbaycan-Fransa iqtisadi əlaqələrinin səviyyəsi məmnunluq doğurur. https://azerbaijan-france. 26 aprel 2023.*
6. *Cəfəri, R. Azərbaycanla təhdidlə danışmaq olmaz, İran törətdiyi terrora görə cavab verəcək. Azərbaycan. 3 fevral 2023.*
7. *European Political Community: Leaders of Azerbaijan and Armenia meet in Prague. 7 oktyabr, 2022. URL: https://euneighbourseast.eu/news/latest-news/european-political-community-leaders.*
8. *Əliyev, A. Avropa atqası pozdu. Həftə içi. 23 fevral – 1 mart, 2023.*
9. *Həmid, S. AI missiyası niyə susur? Xalq. 15 fevral, 2024.*
10. *Kamalqızı, R. Avropanın enerji təhlükəsizliyinə növbəti töhfə. Səs. April 26, 2023.*
11. *Qardaşxanova, Q. Ədalət qlobal hüquq müstəvisində təmin olunmalıdır. Azərbaycan. 3 fevral, 2023.*
12. *Qəribli, M. Ermənistana sülhməramlılar əleyhinə kampaniyası Rusiyanı çox narahat edir. Bakı Xəbər. 6 yanvar, 2023.*
13. *Qəribli, M. İsraildən Azərbaycana misilsiz təklif – müsəlman ərəb dövlətlərindən belə görmədik. Bakı Xəbər. 6 yanvar, 2023.*
14. *Quliyev, R. Azərbaycanın "Yaşıl enerji" dəhlizinə qoşulmaq istəyən Avropa ölkələrinin sayı artır. Həftə içi. 23 dekabr, 2022.*
15. *Quliyev, R. Laçında nəzarət postunu bu gün qoymayıblar. Həftə içi. February 23 – 1 mart, 2023.*
16. *Məmmədova, M. Laçın-Xankəndi yolu: Zafərdən Zafərə. Səs. 26 aprel, 2023.*
17. *Müstəqillik dövründə ingilisdilli mətbuatda Azərbaycana dair (1993-2003). Məqalələr toplusu. Sim-Sim.*
18. *Ordahallı, V. Beynəlxalq donor təşkilatları Azərbaycanın azad ərazilərinə niyə kömək etmir? Bakı Xəbər. 6 yanvar, 2023.*
19. *Ordahallı, V. Rusiyanın sülhməramlıların fəaliyyətinə dair çıxışı niyə narahatlıq doğurur? Bakı Xəbər. 23 dekabr, 2022.*
20. *President İlham Əliyev Qərbi Azərbaycan icmasının inzibati binasında yaradılan şəraitlə tanış olub. 23 dekabr, 2022.*
21. *Vəliyev, V. Fransızsayağı monses. Səs. 26 aprel, 2023.*
22. *Zəfər Yolu: Qarabağ savaşından Şuşa Bəyannaməsinədək. Elm. 2021.*
23. *Варданян: представитель полноты, вскрытые карты, гуманитарный кризис к открытию аэропорта Ханкенди. Башня. 3 января.*
24. *Тагиев, Т. Иран против «Октопус доктрины» издох. Баку Хабар. 3 yanvar, 2023.*



**Vəfa Zakir qızı İsmayılova**

***Bakı Dövlət Universitetinin "Diplomatiya və müasir inteqrasiya prosesləri" kafedrasının doktorantı***

***E-mail: vafaismayilova@shahgroup.az***


**XÜLASƏ**


Məqalə Ermənistanın və bəzi dövlətlərin regionda sülh prosesinə maneə olan destruktiv fəaliyyətlərini və separatizmi dəstəkləyən siyasətlərini təhlil edir. Xankəndi-Şuşa yolunda ekoloji ziyana qarşı etiraz edən azərbaycanlı gənclərin fəaliyyətləri beynəlxalq mediada vurğulanır və bu, təhlilin mühüm hissəsini təşkil edir. Araşdırma həmçinin bu fəaliyyətlərin davamını, Cənubi Qafqazda Avropa nümayəndələrinin monitorinq missiyasında iştirakını və regional mün-

aqişələrdə geosiyasi maraqların həyata keçirilməsini əhatə edir. Xüsusi diqqət Avropa İttifaqının Cənubi Qafqazdakı missiyasına yönəldilir, bu da regionda əhəmiyyətli təsirə malik olan dövlətlər arasında narahatlıq doğurur.

**Açar sözlər:** *Avropa İttifaqı, Cənubi Qafqaz, Azərbaycan, Ermənistan, Missiya.*

**Вафа Закир гызы Исмаилова**
**Докторант кафедры «Дипломатия и современные интеграционные процессы» Бакинского Государственного Университета**

## РЕЗЮМЕ

Статья анализирует деструктивные действия Армении и некоторых государств, которые препятствуют мирному процессу в регионе и способствуют поддержке сепаратизма. Деятельность азербайджанской молодежи, протестующей против экологического ущерба на дороге Ханкенди-Шуша, которая освещается в международных СМИ, составляет значительную часть анализа. Исследование также охватывает продолжение этой деятельности, участие европейских представителей в наблюдательных миссиях на Южном Кавказе и реализацию геополитических интересов в региональных конфликтах. Особое внимание уделяется миссии Европейского Союза на Южном Кавказе, которая вызывает обеспокоенность среди государств региона, обладающих значительным влиянием.

**Ключевые слова:** *Европейский Союз, Южный Кавказ, Азербайджан, Армения, Миссия.*

## SUMMARY

The article examines the obstructive actions of Armenia and certain states, which hinder the peace process in the region and promote policies supporting separatism. The ongoing activities of Azerbaijani youth protesting against ecological damage on the Khankandi-Shusha road, as highlighted in international media, form a significant component of the analysis. The study also addresses the continuation of these activities, the involvement of European representatives in surveillance missions in the South Caucasus, and the pursuit of geopolitical interests in regional conflicts. Particular focus is given to the European Union's mission in the South Caucasus, which has raised concerns among regional states with substantial influence in the area.

**Keywords:** *European Union, South Caucasus, Azerbaijan, Armenia, Mission.*

UOT 32(092)
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.023

# AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASI DEMOKRATİK DÖVLƏT QURUCULUĞUNUN TƏMƏL PRİNSİPİ KİMİ

**İBRAHİM BABAYEV**
*Azərbaycan Dövlət İqtisad Universitetinin "Humanitar fənlər" kafedrasının baş müəllimi*
*E-mail: babayevibrahim@inbox.ru*

1995-ci ilin noyabrın 12-də ilk müstəqil Azərbaycanın Konstitusiyası qəbul edilmişdir. Konstitusiyada təsbit olunan "demokratik", "hüquqi", "dünyəvi" kimi anlayışlar bir dövlət quruculuğu və idarəçiliyi sistemi olaraq müasir Azərbaycan dövlətçiliyinin xarakterik xüsusiyyətlərini, səciyyəvi cəhətlərini ifadə edir.

Demokratiya müasir Azərbaycan dövlətçiliyinin əsasında duran, onun mahiyyətini, xarakterini göstərən təməl prinsipidir, anlayışıdır. "Demokratiya mücərrəd anlayışdır, yəni demokratiyaya ona nəzərdə tutulan son məqsədə çatmaq üçün hansısa bir konkret çıxış nöqtəsi kimi baxmağa imkan vermir. Ona görə də demokratiya xalq hakimiyyəti ideyalarının yad, yaxud yeni olduğu məkanlarda birdən-birə həyata keçirilə bilməz. Hər bir digər nəzəriyyə kimi, o da əvvəlki stereotiplərin bütünlüklə yox edilməsini, habelə başqa davranış normaları və standartlarının formalaşması üçün vaxt tələb edir. . . Təbii ki, demokratiya yalnız demokratik inkişaf təcrübəsinin olduğu yerdə uğurla həyata keçirilir. Lakin bu mühakimə tranzit cəmiyyətlərdə demokratiyanın müvəffəqiyyətinin mümkünlüyünü əsla şübhə altına almır" [11,s.734-738].

1993-cü ildə, Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra dövlətin bütün imkanları cəmiyyətin siyasi sisteminin demokratikləşdirilməsi probleminin minimal ehtiyatla həllinə yönəldilir. Məhz böyük dövlətçilik təcrübəsi və səriştəsi olan Heydər Əliyev Azərbaycanın ən ağır vaxtlarında hakimiyyətə gəlişi ilə belə bir tarixi missiyanı öhdəsinə götürərək, müstəqilliyin əbədi və dönməz olmasını şərtləndirən bütün amillərin işlək mexanizmə çevrilməsini həyata keçirdi. Rusiyalı politoloq K. K. İvanov qeyd edir ki, müstəqil dövlət quruculuğu zamanı ən vacib məqam dövlətin imicini formalaşdırmaqdır [8].

Bu mənada Heydər Əliyev Azərbaycanın dövlətçilik imicinin memarı oldu. Bütün bunlar isə Azərbaycanda siyasi sabitlik olmadan əldə edilə bilməzdi. Bu baxımdan, Heydər Əliyevin müəllifi olduğu yeni neft strategiyası əsasında Azərbaycan dövləti ilə dünyanın aparıcı şirkətləri arasında 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin bağlanılmasının müstəsna rolu oldu.

Məhz bu tarixi hadisədən bir il sonra müstəqil Azərbaycanda milli- demokratik dövlət quruculuğu istiqamətində ikinci bir mühüm addım atıldı: dövlət başçısı Heydər Əliyevin rəhbərliyi və müəllifliyi ilə hazırlanan müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edildi.

1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyanın qəbul edilməsi siyasi plüralizmi, söz, yığıncaq və assosiasiyalar azadlığını, dövlət idarəçiliyi orqanlarının seçilməsini legitimləşdirən, habelə vətəndaşların hüquq və azadlıqlarını təmin edən möhkəm demokratik bazanın yaradılmasında əsaslı addım idi.

Konstitusiyanın dövlət quruculuğunda yeri və rolu postsovet təcrübəsində xüsusilə özünəməxsus şəkil almışdır. Azərbaycan da daxil olmaqla müstəqilliyini bərpa edən digər ölkələrdə Konstitusiyanın dövlət quruculuğunun əsas hüquqi bazası olmasını səciyyələndirən bir fikirdə deyilir: "Müasir hüquq doktrinasında hüquqi, demokratik və konstitusion dövlət anlayışları sinonim anlayışlar kimi istifadə olunur və konstitusion dövlət anlayı konstitusiya quruluşunun bərqərar olduğu dövləti ehtiva edir. Dövlətin konstitusiya quruluşu məhfumu isə, ilk növbədə, hüququn dövlət hakimiyyətinə münasibətdə aliliyi və insan hüquq və azadlıqlarının ali dəyərlər kimi tanınması və təmin olunması ilə şərtlənir [2,s.251].

Qeyd edək ki, Konstitusiyanın müasir modelləri tarixi inkişafın müxtəlif mərhələlərindən keçmişdir. "Bütün xarici ölkə konstitusiyalarını tarixi inkişaf prosesinə görə üç dövrdən birinə aid etmək olar. Birinci - bu konstitusiyaların meydana gəlməsindən I Dünya müharibəsinə kimi olan dövr; ikinci - iki dünya müharibələri arası dövr; üçüncü - II Dünya müharibəsindən sonrakı dövr; halbuki, bəllidir ki, ayrı-ayrı ölkələr üçün bu dövrlər heç də eyni əhəmiyyət kəsb etmir. Üçüncü dövrü iki yarımdövrə bölmək olar: birinci - 90-cı illərin əvvəllərinə kimi olan dövr; ikinci- Avropa ölkələrində sosialist sis-

temin iflasa uğraması... ilə xarakterizə olunan 90-cı illərdən sonrakı dövr" [9,s.95].

Azərbaycan tədqiqatçıları Konstitusiyanın mahiyyəti ilə bağlı belə ümumiləşdirmə aparırlar: Konstitusiya (latın sözü olub, "quruluş", "təsisat" deməkdir) - dövlətin əsas qanunudur. Konstitusiya həmin ölkənin ictimai-iqtisadi quruluşunun əsasını, idarəetmə formasını və dövlət quruluşunun formasını, şəxsiyyətin hüquqi vəziyyətini, mərkəzdə və yerlərdə hakimiyyət və idarəetmə orqanlarının təşkili qaydasını və səlahiyyətlərini, dövlət hakimiyyətinin bölünməsi prinsipini təsbit edir. Konstitusiya həmin ölkənin hüquq sistemini təşkil edən digər normativ aktlara nisbətən ali hüquqi qüvvəyə malikdir [3,s.21-25].

Konstitusiyanın cəmiyyətdə rolu onun funksiyalarında təzahür edir. O, əsasən üç funksiyanı həyata keçirir: siyasi funksiya, hüquqi funksiya və humanist funksiya. Siyasi funksiya, hər şeydən əvvəl, siyasi müxtəlifliyin, çoxpartiyalılığın və ideoloji plüralizmin formalaşmasını və tanınmasını təsbit edir. Hüquqi funksiyanın mahiyyəti ondan ibarətdir ki, o, Konstitusiyanı cəmiyyətin hüquq sisteminin təməli kimi tanıyır və müxtəlif hüquq sahələri üzrə əsas hüquqi müddəaları müəyyən edir. Onların həyata keçirilməsinin təməlində isə dövlət suverenliyi, insan hüquq və azadlıqları, hakimiyyətin bölgüsü prinsipi və s. kimi müddəalar dayanır. Humanist funksiya Konstitusiyanın bütün vəzifələrini özündə əks etdirir. Bu isə o deməkdir ki, Konstitusiyada ümumbəşəri dəyərlər və sivil cəmiyyət üçün xarakterik olan hüquq və azadlıqların möhkəmləndirilməsi təcəssüm olunur.

Konstitusiyanın ali hüquqi qüvvəsi və cəmiyyət həyatındakı yerinə və roluna dair rusiyalı tədqiqatçılar da nəzərəçarpacaq fikirlər irəli sürmüşlər. Bu xüsusda O.Kutafin və E.Kozlova aşağıdakı fikri qeyd edirlər: "Ümumilikdə, konstitusiya ictimai həyatın bütün sahələrini - siyasi, iqtisadi, sosial, mənəvi və s. sahələrini əhatə edir və bu sahələrdə ictimai münasibətlərin fundamental əsaslarını nizamlayır. Konstitusiyanın digər fərqləndirici cəhəti isə onun ayrıca hüquqi xassələrə malik olmasındadır. Bu xassələr konstitusiyanın yuxarıda qeyd olunan xüsusiyyətlərindən doğur və konstitusiyanın aliliyində, onun yüksək hüquqi qüvvəsində, dövlətin qanunvericiliyində və hüquq sistemində təməl rolunu oynamasında, onun qorunmasında, xüsusi qaydada qəbul olunmasında, ona baxılmasında və düzəlişlər edilməsində əks olunur" [10].

Qeyd edək ki, müasir dövrdə də konstitusiyalarla bağlı ziddiyyətlər qalmaqdadır. Xüsusilə siyasi sistemi kövrək olan dövlətlərdə konstitusiya böhranları bəzən sistemli hal alır.

Bununla bağlı A. Avtonomovun əsərində qeyd edilir ki: "Hər bir konstitusiya özünəməxsus spesifikaya və xarakterik xüsusiyyətlərə malikdir. Bununla yanaşı, onları müəyyən kriteriyalara görə də təsnif etmək olar. Artıq qeyd olunduğu kimi, konstitusiya qəbul olunduğu və ona dəyişikliklər edildiyi zaman özündə mövcud siyasi qüvvələrin nisbətini təcəssüm etdirir. Lakin siyasi qüvvələrin nisbəti heç də sabit deyil, bu nisbət daim dəyişir. Bundan başqa, ayrı-ayrı siyasi qruplaşmalar real şəkildə həyata keçirilməsi üçün obyektiv zəmini olmayan müddəaların əsas qanuna daxil edilməsinə də müvəffəq olurlar" [7,s.162].

Konstitusiya böhranının postsovet təcrübəsindən bir nümunəni tədqiqatımızda xatırlatmaq məqsədəmüvafiqdir. Qırğızıstan Respublikasının ilk konstitusiyası 5 may 1993-cü ildə qəbul olunmuşdur. Bu konstitusiya digər postsovet ölkələrində qəbul olunan konstitusiyalar kimi sosialist epoxasından sonra ölkənin demokratiyaya və kapitalizmə inteqrasiyasını hüquqi cəhətdən əsaslandırırdı.

İkinci konstitusiya layihəsi isə 27 iyun 2010-cu ildə, Qırğızıstanda baş vermiş məlum hadisələrdən sonra qəbul olunmuşdur. Bu konstitusiya əsasən ölkənin siyasi sisteminin dəyişilməsinə yönəlmişdi. Belə ki, yeni konstitusiyanın qəbulundan sonra Qırğızıstan rəsmən prezident respublikası idarə üsulundan parlament respublikası idarə üsuluna keçmişdir.

Azərbaycan Respublikasının Konstitusiyası preambula, 5 bölmə ( Ümumi müddəalar; Əsas hüquqlar, azadlıqlar və vəzifələr; Dövlət hakimiyyəti; Yerli özünüidarəetmə; Hüquq və qanun), 12 fəsil (Xalq hakimiyyəti; Dövlətin əsasları; Əsas insan və vətəndaş hüquqları və azadlıqları; Vətəndaşların əsas vəzifələri; Qanunvericilik hakimiyyəti; İcra hakimiyyəti; Məhkəmə hakimiyyəti; Naxçıvan Muxtar Respublikası; Bələdiyyələr; Qanunvericilik sistemi; Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər; Azərbaycan Respublıkasının Konstitusiyasına əlavələr), 158 maddə və keçid müddəalarından ibarətdir.

Konstitusiya ilə Azərbaycanın dövlət quruculuğunun hüquqi əsasları müəyyən edilib. Heydər Əliyev bu haqda demişdir: "Bizim yeni konstitusiyamız, şübhəsiz ki, birinci növbədə Azərbaycan

Respublikasının dövlət müstəqilliyini, bu müstəqilliyin əbədi olduğunu və dövlət müstəqilliyini qoruyub saxlamaq, yaşatmaq üçün bütün prinsipləri əks etdirməlidir.Yəni, dünya demokratiyasının əldə etdiyi bütün nailiyyətlərdən demokratiya sahəsində inkişaf etmiş dövlətlərin konstitusiya təcrübəsindən istifadə etməli və Azərbaycan Respublikasının özünəməxsus tarixi milli ənənələrini əks etdirən prinsipləri özündə cəmləşdirir. Bir sözlə biz elan etmişik və mən bir daha bəyan edirəm ki, Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı, dünyəvi dövlət qururuq. . . " [5,s. 60].

18 oktyabr 1991-ci il tarixli "Dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının 19-cu maddəsində Azərbaycan Respublikası Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə qoşulduğunu tanıdığını bəyan etdi. Bu prinsip sonradan 12 noyabr 1995-ci il tarixli ümumxalq səsverməsi (referendumu) yolu ilə qəbul edilmiş və 24 avqust 2002-ci il tarixdə ümumxalq səsverməsi (referendumu) yolu ilə bir sıra dəyişikliklər edilmiş Azərbaycan Respublikası Konstitusiyasında daha da inkişaf etdirilmişdir.

Konstitusiya normaları digər normalara münasibətdə prioritetdir və qanunlar, digər qanun qüvvəli aktlar konstitusiyada müəyyən edilən qayda və prosedura uyğun qəbul edilir. Konstitusiya şəxsiyyətin hüquqi statusunu, sosial münasibətlər sistemini, dövlət hakimiyyət orqanlarının sistemini və sair tənzimləyən normativ hüquqi akt və ya prinsipləri tənzimləyir. Konstitusiyada toplumun inkişaf prioritetlərini müəyyən edən ideya və dəyərlər əks olunub.

Azərbaycan Konstitusiyasında azadlıq, bərabərlik, şəxsi toxunulmazlıq, təhsil hüquqları, əmək, habelə vicdan azadlığı, sərbəst toplaşmaq azadlığı, seçki hüququ və digər hüquqlar öz əksini tapıb.

Konstitusiyanın qəbulundan sonra islahatların hüquqi bazası formalaşdırılmış, insan hüquq və azadlıqları ilə bağlı bir sıra sənədlər qəbul edilmiş, ölkəmiz müxtəlif beynəlxalq konvensiya və sazişlərə qoşulmuşdur. Habelə hakimiyyət qolları arasında - qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin qarşılıqlı fəaliyyətinin təmin edilməsi üçün real mexanizmlər formalaşdırıldı. Prezident Heydər Əliyevin 21 fevral 1996-cı il tarixli sərəncamı ilə Hüquq İslahatları Komissiyasının yaradılması tarixi səciyyə daşıyır. Onun 1996-cı il iyunun 8-də imzaladığı "Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi haqqında" sərəncamı xüsusi qeyd edilməlidir. Bu sənədə əsasən "Prokurorluq haqqında", "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında" qanun və digər hüquqi sənədlərin layihələri hazırlanıb və qəbul olunmuşdur. Digər sənədlərdən "İşgəncələrin və qeyri-insani və ya insan ləyaqətini alçaldan rəftarın və ya cəzanın qarşısının alınması haqqında" Avropa Konvensiyası, "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Konvensiya, "Yerli özünüidarə haqqında" Avropa Xartiyasının ratifikasiyası, "Vətəndaşlıq haqqında", "Sərbəst toplaşmaq azadlığı haqqında", "Dini etiqad azadlığı haqqında" qanunlar da dövlət quruculuğunda mühüm hüquqi baza rolu oynadı. Konstitusiya qanunlarından isə "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında", "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında", "Azərbaycan Respublikasının Nazirlər Kabinetinə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" və sair qeyd edə bilərik.

Konstitusiyaya 2002 və 2009-cu illərdə edilən əlavə və dəyişikliklər modern dövlət quruculuğunun vacib şərti olmaqla yeni dövrün tələbləri ilə şərtlənirdi. Bu zərurət dünya ölkələrinin praktikasında mütəmadi olaraq müşayiət olunan bir tendensiya kimi konstitusionalizm ideyalarının təkamülündə vacib mərhələdir.

22 iyun 2002-ci il tarixli fərmanla Konstitusiyada dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Referendum Aktı layihəsi ümumxalq səsverməsinə çıxarıldı.

24 avqust 2002-ci ildə keçirilmiş referendumdakı yeni dəyişikliklərə əsasən 29 maddəyə 41 düzəliş edildi.

Ümumilikdə təklif edilən dəyişiklikləri şərti olaraq aşağıdakı kimi qruplaşdırmaq olar:

1. İdarəetmə və insan hüquqları məsələlərinə dair prinsipial dəyişikliklər;
2. Qanunvericilikdə bu və ya digər formada təsbit olunmuş normaların Konstitusiyaya gətirilməsi ilə bağlı dəyişikliklər;
3. Digər dəyişikliklər [12].

Dəyişikliklər sırasında müsbət cəhətdən xarakterizə olunmalı dəyişikliklərdən biri seçki hüquqlu 40 min vətəndaşa qanunvericilik təşəbbüsü hüququnun verilməsidir. Ayrıca qanunla tənzimlənəcək bu məsələnin reallaşma mexanizmlərinin sadə və de-

mokratik qaydalara uyğun müəyyən edilməsi bu dəyişikliyin işləkliyinə hüquqi təminat yaradar.

Konstitusiyaya dəyişikliklər sırasında müsbət qiymətləndirilməli digər təklif 108-ci maddənin II hissəsinə edilən "əvvəllər Azərbaycan Respublikasının prezidenti seçilmiş şəxsin təminatı qaydaları Konstitusiya Qanunu ilə müəyyən edilir" müddəasıdır [1,s.37].

Konstitusiyaya təklif edilən dəyişikliyin böyük bir hissəsi qanunvericilikdə bu və digər formada əks edilmiş bir sıra normaların Konstitusiyada təsbit olunmasıdır. Bu xüsusda Novruz Mehdiyevin qənaəti belədir: "Bu gün biz tam əminliklə deyə bilərik ki Azərbaycan Respublikasının Konstitusiyasında əks olunan hüquqlar, azadlıqlar və vəzifələr cəmiyyətdə öz real təminatını tapmışdır. Ona görə də onu faktiki konstitusiya adlandırmaq olar" [13].

Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev mətbuata açıqlamasında Heydər Əliyevin konstitusionalizm ənənələrinin dirçəldilməsindəki rolunu dəyərləndirərək qeyd edib ki, 2002-ci il avqustun 24-də keçirilmiş referendumla Konstitusiyanın mətninə bir sıra dəyişikliklər edilmiş, o cümlədən Konstitusiya Məhkəməsinə müraciət hüququna malik subyektlərin dairəsi genişlənmiş, ombudsman, məhkəmələr və vətəndaşlar Konstitusiya Məhkəməsinə müraciət etmək hüququ əldə etmişlər.

Demokratik, hüquqi dövlət quruculuğu, həyata keçirilən siyasi, hüquqi, iqtisadi və digər islahatlar beynəlxalq hüquq normaları və prinsiplərinin tələbləri nəzərə alınmaqla Azərbaycan Respublikasının Konstitusiyasına yenidən əlavə və dəyişikliklər edildi. 2009-cu il martın 18-də "Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında" Referendum Aktı qəbul olundu.

Müasir dövrdə əsas təyinatı konstitusiyaların aliliyinin təmin edilməsi olan konstitusiya nəzarəti orqanlarının üzərinə düşən mühüm vəzifələrdən biri də məhz konstitusiyanın mütəmadi inkişaf etdirilməsi ilə bağlıdır.

Bu isə qanunvericiliyin, məhkəmə təcrübəsinin mütəmadi təkmilləşdirilməsi, o cümlədən, Konstitusiya normalarının rəsmi şərhi vasitəsilə həyata keçirilir. Bununla da, sabitliyin mühüm amili kimi Konstitusiyanın rolu qorunmaqla yanaşı, həm də onun mətnində tez-tez dəyişikliklər edilmədən demokratik inkişafa dinamik təsir edir.

Konstitusiyanın 12-ci maddəsinin 1-ci bəndində təsbit edilir: "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir"[1,s.7]. Konstitusiya vətəndaşlara bütün növ insan hüquqlarından istifadə imkanı verir. Azərbaycan Konstitusiyasının hətta inkişaf etmiş dövlətlərin konstitusiyaları ilə müqayisədə kifayət qədər mütərəqqi hesab edilə biləcək müddəalarından biri də onun 12-ci maddəsinin ikinci hissəsində təsbit olunmuşdur. Maddədə qeyd olunur ki, "Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir"[1,s.7]. Bu insan hüquqlarının beynəlxalq standartlara uyğun tətbiqinə imkan verən mühüm prinsipi ehtiva edir. Bu prinsip ölkəmizdə insan hüquq və azadlıqlarının beynəlxalq hüquq normalarında və insan hüquqlarına dair beynəlxalq müqavilələrdə nəzərdə tutulanlardan daha artıq məhdudlaşdırılmasına yol vermir.

İnsan hüquqlarının müdafiəsi istiqamətində Azərbaycan Respublikası Konstitusiyasının müddəaları çox əhəmiyyətlidir. Konstitusiyanın bu məziyyəti ilə bağlı Ş. Əsgərov yazır: "Yeni Azərbaycanın yeni bünövrəsi və dövlət quruculuğunun prioritetləri və strateji inkişaf yolu Konstitusiyada qoyulmuşdur. Yeni Konstitusiyada diqqət mərkəzinə kütlənin yox, fərdin qayğıları, hüquqları, azadlıqları çəkilir" [4].

Görülən işlərin məntiqi nəticəsi olaraq insan hüquqlarının qorunmasının keyfiyyətcə yeni mərhələ üzrə davam etdirilməsi, təkmilləşdirilməsi üçün nəzərdə tutulan İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planı Prezident İlham Əliyevin sərəncamı ilə 2006-cı ildə təsdiq olundu. Dövlət başçısının 18 iyun 2007-ci il tarixli sərəncamı ilə 18 iyun- İnsan hüquqları günü təsis edildi.

Azərbaycanın Avropa Şurası ilə əlaqələrinin inkişafı, eyni zamanda BMT-nin Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi də deyilənlərə əyani sübutdur. Prezident İlham Əliyevin 27 dekabr 2011-ci il tarixli sərəncamı ilə daha geniş sferanı əhatə edən "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" təsdiq edildi.

Qeyd olunduğu kimi, özünün səciyyəvi xüsusiyyətlərinə, prinsip və əsaslarına görə müasir Azərbaycan Respublikasının demokratik, hüquqi, dünyəvi dövlət olması Konstitusiyanın 7-ci maddə-

sinin 1-ci bəndində təsbit edilir [1,s.5]. Bu dövlətin demokratikliyinin ən yüksək göstəricisi və meyarı elə Konstitusiyanın "Hakimiyyətin mənbəyi" başlıqlı 1-ci maddəsinin 1-ci bəndidir: "Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır" [1,s.4]. Konstitusiyanın 2-ci maddəsində isə təsdiq edilir: "Sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur" [1, s. 4]. Məhz müstəqil dövlətçiliyimizə nail olmağımızın misilsiz nəticəsidir ki, demokratik Konstitusiya əsasında artıq Azərbaycan xalqı öz idarəetmə formasını sərbəst surətdə öz səsvermə yolu ilə seçdiyi nümayəndələri vasitəsilə müəyyən edir.

Beləliklə, Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamaq, möhkəmləndirmək, onun gələcək inkişaf yolunu müəyyən etmək amalı ilə qəbul edilən, demokratik və dünya standartlarına cavab verən Əsas Qanunu-Konstitusiyası vətəndaş cəmiyyətinin bərqərar olmasının mötəbər təminatıdır. Müvafiq elmi ədəbiyyatda xüsusilə vurğulandığı kimi "Konstitusiyanın birbaşa hüquqi qüvvəyə malik olmasının təsbiti dövlətçiliyin və hüququn inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Azərbaycan xalqının əsas məqsədlərindən biri kimi qanunun aliliyinə və cəmiyyətin bütün üzvlərinin firavan həyatına, azad və sərbəst fəaliyyətinə təminat verən vətəndaş cəmiyyətinin bərqərar edilməsinin başlıca prinsipləri yeni inkişaf mərhələsinin başlanğıcını qoyan Konstitusiyada qanunvericilik yolu ilə təsbit edildi" [6,s.11].

Ölkə Prezidentinin 26 iyul 2016-cı il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Referendum Aktının layihəsi 2016-cı il sentyabrın 26-da ümumxalq səsverməsinə (referenduma) çıxarıldı. Konstitusiya dəyişiklikləri yeni çağırışlardan irəli gələn zərurət idi. Əlavə və dəyişikliklər Konstitusiyanın daha da təkmilləşməsinə, insan və vətəndaş hüquq və azadlıqları ilə bağlı məsələlərin təkmilləşməsinə xidmət edirdi. Bu referendum dövlət quruculuğunun möhkəmləndirilməsində yeni hüquqi islahat kimi tarixi missiya daşıdı. Birinci Vitse-prezidentlik İnstitutunun təsis edilməsi məhs siyasi hakimiyyətin sabitliyinə və idarəetmənin çevikliliyinə xidmət edən yeni bir model oldu.

Ümumiyyətlə, qeyd olunanların yekunu olaraq aşağıdakı kimi ümumiləşmə apara bilərik: Konstitusiya dövlətin hüquq sistemində spesifik təyinata və funksiyalara malik dövlət quruluşunu, dövlət hakimiyyəti orqanlarının təşkili və fəaliyyətinin prinsiplərini, vətəndaşların əsas hüquqlarını, azadlıqlarını və vəzifələrini müəyyən edir, qanunvericiliyin əsasını təşkil edir. Azərbaycan Respublikasının Konstitusiyası siyasi, ideoloji və başqa funksiyaları daşımaqla cəmiyyətin və dövlətin həyatında, ölkənin siyasi və hüquq sistemində mühüm rol oynayır.

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: "Qanun" nəşriyyatı, 2009, 68 s.*

*2. "Azərbaycan 2020: inkişafın yeni hədəfləri". Bakı, Azərnəşr, 2012, 848 s.*

*3. Dəmirov A. H, İsmayılov Ş. N, Hüseynov Q. F. Azərbaycan Respublikasının Konstitusiyası və hüququn əsasları (mühazirə kursu). Dərs vəsaiti. Bakı: Mütərcim, 2010, 196 s.*

*4. Əsgərov Ş. Heydər Əliyevin liberal maarifçilik ideyaları. /"Heydər Əliyev irsi Azərbaycanın dövlətçiliyi" mövzusunda konfransın materialları. Bakı, "Azərbaycan" nəşriyyatı.*

*5. "Heydər Əliyev. Böyük azərbaycanlı". Bakı, Azərnəşr, 2013, 816 s.*

*6. Məlikova M. F, İsmayilov X. C. Azərbaycanin Dövlət Müstəqilliyinin Bərpasinin Hüquqi Əsaslari. //Baki Universitetinin Xəbərləri. Sosial-siyasi elmlər seriyası, №1, 2012.*

*7. Автономов А. С. Конституционное (государственное) право зарубежных стран. Учебник. – 3-е изд. , перераб. и доп. – М. : РИОР; ИНФРА – М, 2012, 476 с.*

*8. Иванов К. К. Трансформация функций современного государство. // Молодой ученый. Чита, 2012, №9, с. 206-208*

*9. Конституции зарубежных государств: Великобритания, Франция, Германия, Италия, Соединенные Штаты Америки, Япония, Бразилия: учеб. пособие / [сост. сб. , пер. , авт. введ. и вступ. ст. В. В. Маклаков]. – 6-е изд. , перераб. и доп. – М. : Волтерс Клувер, 2009, 624 с.*

*10. Кравец И. А. Конституционализм и российская государственность в начале XX века. Учебное пособие. М. : ЮКЭА, 2006, 368*

*11. Мехтиев Р. На пути к демократии: размышляя о наследии. Баку, Шерг-Герб, 2007, 752 с.*

*12. http://law. org. az/index.php?newsid=27 azpenalreform.az/az/library/articles/234-konstitusiyaya-edil601c601k.html*

## XÜLASƏ

Məqalədə Azərbaycan dövlət müstəqilliyinə nail olduqdan sonra qarşısında duran əsas prioritetlərdən biri, dövlətin ən ali qanunu olan konstitutsiyasının qəbulu geniş şərh edilir. Konstitusiya dövlətin hüquq sistemində spesifik təyinata və funksiyalara malik dövlət quruluşunu, dövlət hakimiyyəti orqanlarının təşkili və fəaliyyətinin prinsiplərini, vətəndaşların əsas hüquqlarını, azadlıqlarını və vəzifələrini müəyyən edir, qanunvericiliyin əsasını təşkil edir. Dövlətçiliyin əsas prioritetlərindən biri kimi Konstitusiyanın qəbulu ilə modern dövlət quruculuğu prosesi yeni mərhələyə transformasiya olundu. Azərbaycanın dövlət müstəqilliyi getdikcə möhkəmləndirilməkdə, respublikada demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi daha da sürətlə inkişaf etməkdədir.



**Açar sözlər:** *Azərbaycan Respublikası, konstitusiya, demokratiya, dövlət, hüquqi prinsiplər, vətəndaş cəmiyyəti.*



**Ибрагим Бабаев**



## РЕЗЮМЕ
## КОНСТИТУЦИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ КАК ОСНОВНОЙ ПРИНЦИП В СТРОИТЕЛЬСТВЕ ДЕМОКРАТИЧЕСКОГО ГОСУДАРСТВО

В статье рассматривается роль конституционных реформ в Азербайджанской Республике с 1995 года в дальнейшем укреплении нашей государственности. Согласно международному опыту, осуществление конституционных реформ в каждой стране широко практикуется в соответствии с геополитическими и геоэкономическими условиями, уровнем развития и перспективами. Сообщается, что Конституция Азербайджанской Республики, имеющая прочную правовую базу, значительно улучшилась и будет продолжать обеспечивать устойчивое развитие Азербайджанской Республики надолго, определять цели демократического развития нашего независимого государство.



**Ключевые слова:** *Азербайджанская Республика, конституция, демократия, государство, правовые принципы, гражданское общество.*



## SUMMARY
## THE CONSTITUTION OF THE AZERBAIJAN REPUBLIC AS A BASIC PRINCIPLE IN CONSTRUCTION OF A DEMOCRATIC STATE

The article discusses the role of constitutional reforms in the Republic of Azerbaijan since 1995 in further strengthening our statehood. According to international experience, the implementation of constitutional reforms in each country is widely practiced in accordance with the geopolitical and geo-economic conditions, level of development and prospects. It is reported that the Constitution of the Republic of Azerbaijan, which has a solid legal base, has improved significantly and will continue to ensure the sustainable development of the Republic of Azerbaijan for a long time, to define the goals of democratic development.



**Key words:** *Republic of Azerbaijan, constitution, democracy, state, leqal principles, civil society.*

UOT 327; 930.22
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.025

# BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ "YUMŞAQ GÜC"

**MƏHƏBBƏT SEYİDOVA**
*Bakı Dövlət Universiteti Beynəlxalq münasibətlər kafedrasının doktorantı*

*E-mail: mahabbatseyidova78@gmail.com*
*https://orcid.org/0009-0000-1094-8477*

## Giriş

"Yumşaq güc" (soft power) konsepsiyası görkəmli amerikalı politoloq, Harvard Universitetinin professoru Cozef Nay tərəfindən işlənib hazırlanıb. İlk dəfə bu anlayış 1990-cı ildə "Foreign Policy" jurnalında nəşr olunan məqalədə işlənib. Alim təklif edirdi ki, bir dövlət digər dövlətləri onun arzuladığını arzulamağa həvəsləndirirsə, bu zaman xüsusi güc növü – "yumşaq güc" yaranır [1, 166]. Bu termin tarixin dönüş anında meydana gəlmiş və "soyuq müharibə"də qələbəsini möhkəmləndirməyə çalışan ABŞ üçün qlobal müzakirələrin hissəsinə çevrildi. Bu zaman aydın idi ki, ikiqütblü qarşıdurmada ABŞ-nin qalib gəlməsində "yumşaq güc" vasitələri az rol oynamamışdır. Beləliklə, beynəlxalq arenada milli maraqların reallaşması ideyası cazibədar obrazların yaradılması yolu ilə uğurla həyata keçirilmişdir. "Yumşaq güc" termini amerikalı alim tərəfindən "sərt güc" (hard power) anlayışı ilə paralel şəkildə tətbiq edilmişdir. "Sərt güc" məcburiyyət, hədə və ya rüşvət yolu ilə həyata keçirilirsə, "yumşaq güc" inandırma, cazibə, şirnikləndirmə, qarşılıqlı əlaqə, könüllü razılıq yoluna əsaslanır. Neoliberalizm cərəyanının nümayəndəsi olan C.Nay sübut etməyə çalışırdı ki, ideyaların gücü daha güclüdür, nəinki kontragenti onun üçün arzuolunmaz hərəkətlərə məcbur etmək, çünki məcburiyyət göstərilən təzyiqə müqavimətin göstərilməsinə səbəb ola bilər və münaqişənin gərginləşməsi ilə yanaşı, subyektin nüfuzunu sual altına qoya bilər. "Soyuq müharibə" başa çatdıqdan sonra yaranan faktiki birqütblü dünyada ABŞ-nin total üstünlüyü şərtləri altında bu cür yanaşma daha çox aktuallıq qazanırdı. 2004-cü ildə nəşr olunan məqaləsində C.Nay "yumşaq güc" anlayışının tərifini verdi – "arzuolunanı məcburetmə və ya ödənişlər ilə deyil, cazibə vasitəsilə əldə etmək qabiliyyəti". Altı il sonra "Hakimiyyətin gələcəyi" adlı monoqrafiyasında C.Nay terminin daha geniş izahını verdi: " Yumşaq güc – arzuolunan nəticələrin əldə edilməsi gündəliyini müəyyən edən qarşılıqlı əlaqələr vasitəsilə başqalarına təsir etmək, simpatiya cəlb etməklə təsir göstərmək qabiliyyətidir" [2, 21]. Başqa sözlə desək, C.Nayın nəzəriyyəsinə uyğun olaraq, subyektin can atdığı nəticənin əldə olunmasına dəstəyin göstərilməsi üçün subyektin könüllü şəkildə verdiyi razılıq hesabına beynəlxalq arenada uğur qazanmaq mümkündür. Əvvəllər C.Nay hesab edirdi ki, mədəniyyət, siyasi dəyərlər və xarici siyasət "yumçaq gücü" yaradır [3, 165]. Mədəniyyət və siyasi dəyərlər tarixən müəyyən edilmiş dəyişikliklər olduğu halda, xarici siyasət hakimiyyətdə olan siyasətçilərin maraqları ilə bağlı subyektiv faktorlar ilə müəyyən edilir. Sonralar C.Nay "yumşaq gücü" yaradan komponentlərə adətən "sərt güc"lə təcəssüm olunan "uğurlu iqtisadiyyat" və "peşəkar hərbi güc" amillərini əlavə etdi [4, 399]. Ümumiyyətlə, məhz C.Nay ilk dəfə olaraq dövlət tərəfindən beynəlxalq arenada öz geosiyasi nüfuzunun və təsirinin artırılması məqsədilə ənənəvi hərbi güc və ya iqtisadi vasitələr və üsullardan deyil, mədəni-ideoloji vasitələrdən mümkün istifadəni konseptual səviyyəyə qaldırdı.

1990-cı illərdə politoloq Cozef Nay ilk dəfə olaraq "yumşaq güc" terminindən istifadə etdikdə, o, qloballaşan dünyada iqtisadi və siyasi uğurun əldə edilməsi məqsədilə Amerika dəyərlərinin artan əhəmiyyətini və onların yayılmasının vacibliyini vurğulamağa çalışırdı. Yumşaq güc - nümunə gücü ilə başqalarına təsir etmək və dövlətləri bir-birilə rəqabətə deyil, əməkdaşlığa təhrik etmək qabiliyyətidir. O dövrdə ABŞ öz qüdrətinin tarixi zirvəsində idi və bütün digər dövlətlər onun siyasi və iqtisadi dəstəyini qazanmağa çalışırdı. Lakin indi dünya post-Qərb mərkəzli quruluşa keçid dövrünü yaşayır. Struktur olaraq biz ABŞ-nin əvvəlki kimi hökmranlıq etdiyi adət etdiyimiz dünyada yaşayırıq, lakin beynəlxalq ictimaiyyətin yeni post-hegemon qaydalarının formalaşması istiqamətində hərəkət edirik. Bu yeni mərhələdə rəqabət və mübarizə aparmaq qabiliyyəti əməkdaşlıq qədər az əhəmiyyət kəsb etmir. Bu, həm də dəyərlər, KİV və idelogiyaya da təsirsiz ötüşmür.

Bir çox qeyri-Qərb dövlətlər, əsasən Rusiya, Çin və İran Yaxın Şərqdə rejimlərin dəyişdirilməsi kursunu götürən ABŞ tərəfindən təhdid hiss edirlər. Cavab reaksiyası olaraq onlar öz dəyərlərinə müraciət edir və yayılmasına çalışırlar. Dünya iyerarxiyası şərtləri altında bu dövlət liderləri əməkdaşlıq naminə liberal çağırışlara skeptik yanaşırlar, xüsusən

Cozef Nayın özü "yumşaq güc" amilinin məqsədinin "efemer populyarlıq deyil, ABŞ üçün arzuolunan nəticələrin əldə edilməsində" görürdü.

"Yumşaq güc"ün rolunun azalmasını ən azı üç nümunə ilə təsvir etmək olar.

Birincisi, Ukraynadan Suriyaya qədər ərazidə biz zorakılığın və qanunsuzluğun artmasını, yeni silahlanma yarışını, Avropanın şərqində və Yaxın Şərqdə yeni proksi-müharibələr, yeni simmetrik və asimmetrik hərbi əməliyyatları müşahidə edirik.Bir millətin yaşaması təhlükə altında olanda müdafiə olunan dövlətlər, çətin ki, "yumşaq güc" və müsbət obrazların yaradılması haqqında düşünəcəklər.

İkincisi, Asiyada, Avropada və Avrasiyada post-hegemon keçidin yüksək dərəcədə qeyri-müəyyənliyi nəticəsində sosial-iqtisadi ziddiyyətlər kəskinləşir. Vahid dünya regionlara bölünür: ABŞ, Rusiya, Çin, Türkiyə və digər böyük dövlətlər qonşu ölkələrə təsir göstərməyə və yeni geosiyasi məkanlar yaratmağa çalışırlar. Suriya, Ukrayna və Cənubi Çin dənizi yeni hərbi toqquşma zonalarıdır. Ticarət və investisiya sahəsində bir-birilə rəqabət aparan ticarət blokları yaradılır, Ümumdünya Ticarət Təşkilatı artıq faydasız bir quruma çevrilir. Yumşaq güc öz əhəmiyyətini saxlasa da, sərt ictimai sövdələşmələr və gizli danışıqlar ilk plana çıxır.

Nəhayət, mədəniyyət kodları dəyişir və etnik millətçilik hallarının artımı müşahidə edilir. Dövlətlər ABŞ-nin himayədarlığını və maddi dəstəyini axtarmırlar, milli potensialı və regional əlaqələri daha da inkişaf etdirirlər. ABŞ-nin özündə də "yumşaq güc" konsepsiyasından uzaqlaşırlar. Prezident kiçik Corc Buş dönəmində xüsusilə məşhurlaşan "yumşaq güc" strategiyası xüsusi "rəqəmsal" və maliyyə resursları ilə möhkəmləndirilərək əcnəbi fəalların cəlb edilməsi və izlənilməsi vasitəsilə həyata keçirilirdi. Öz rəqiblərini dəf etmək məqsədilə ABŞ nümunə gücündən deyil, kobud təzyiq, izlənmə və rüşvət vasitələrindən istifadə edir.

"Yumşaq güc"ün rolu tədricən azalacaq. Qütbləşən dünyada ABŞ-nin vəzifəsi öz liderliyini istənilən mümkün vasitələrlə qoruyub saxlamaq olduğu halda, yüksələn güclər hegemonluğun zəifləməsi yolu ilə öz mövqelərini beynəlxalq arenada möhkəmləndirməyə çalışırlar. Gələcək üçün mümkün ssenari: qeyri-müəyyənlik, çevik müvəqqəti birliklərin yaradılması, müəyyən sahələrdə məhdud əməkdaşlıq, digər məsələlər üzrə qarşıdurma və rəqabət. Böyük güclər öz aralarında birbaşa toqquşmalardan qaçaraq "öz" nüfuz dairələrini əvvəlki kimi möhkəmləndirməyə çalışacaqlar. Beynəlxalq münasibətlər sisteminin iştirakçıları tərəfindən qəbul edilən dəqiq qaydalar toplusunun olmaması "yumşaq güc" vasitəsilə əməkdaşlığa deyil, rəqabətə təhrik edir. Yeni qaydaların təsdiq olunmasına qədər "yumşaq güc"dən istifadə çətin ki, tələb olunacaq.

Güc nə deməkdir? Anqlo-sakson geosiyasi fikir mövqeyindən güc (power) anlayışını ilk növbədə təhlil etmək lazımdır. İngilis dilində güc (power) anlayışı hakimiyyət, hökmranlıq və güc mənasını verir. Güc (power) anlayışı təbiət etibarilə maddi (pul və ya resursların iqtisadi hakimiyyəti, silah və personal kimi məcburetmə üçün fiziki vasitələrin olması) və psixoloji (qanuni, dini və ya elmi hakimiyyət, intellektual və sosial prestij, xarizma, təxəyyül və ya həqiqi reputasiya) olur və hər ikisi diplomatik və ya hərbi qüdrətin təmin olunmasına xidmət edir. Təbiəti etibarilə yaxşı və ya pis olmayan güc (power) amili hər yerdə cəmiyyətin xüsusiyyətlərindən asılı olaraq müxtəlif formada özünü büruzə verir. Müxtəlif yerlərdə və müxtəlif vaxtlarda hakimiyyət və hökmranlıq tamamilə müxtəlif cür yayılırdı. İspan kralı II Filippin hakimiyyəti zadəgan torpaq sahiblərinə arxalanırdı, lakin şəhər bankirlərinə bağlı olan Avropa gücü ona hərbi üstünlük əldə etməyə imkan vermişdi.Vyetnam müharibəsi dövründə ABŞ-da rəngarəng siyasi koalisiyanın müqaviməti ölkə rəhbərliyini hərbi əməliyyatları dayandırmağa məcbur etmişdir. Buna görə də hər bir strateq üçün başlıca problem gücün harada və hansı formada təcəssüm etdiriləcəyini müəyyən etmək, eləcə də hərbi gücdən istifadənin ən effektiv olacağı məqamları müəyyən etməkdir.

Harvard Universitetinin professoru Cozef Nay və ABŞ-nin keçmiş dövlət katibi Rişard Ermitaj güc amilinin müasir növlərinin əsas prinsiplərini müəyyən etmişlər. "Güc – arzuolunan nəticəni əldə etmək üçün başqalarının davranışına təsir etmək qabiliyyətidir". Ermitaj və Nay qeyd edirlər ki, tarixən güc ölkənin sahəsi və əhalisinin sayı, təbii ehtiyatları, iqtisadi gücü, hərbi gücü və sosial sabitlik kimi meyarlardan asılı idi. İstənilən gücün mənbəyi ilk növbədə kontekstdən asılıdır. "Sərt güc" (hard power) ölkələrə arzuolunan nəticəni almaq üçün "yerkökü və çubuq" üsulundan istifadə etmək imkanı verir. "Yumşaq güc" (soft power) zorakılıq tətbiq etmədən insanları öz tərəfinə çəkmək imkanı verir. "Yumşaq güc" üçün əsas prinsip legitimlikdir. "Ağıllı güc" (smart power) nə sərt, nə də "yumşaq güc"dü, hər ikisinin kombinasiyasını özündə ehtiva edir.

Ermitaj və Nay 2007-ci ildə Amerikanın gələcək strategiyasının formulunu müəyyən etmişlər:

"Ağıllı güc sərt və yumşaq gücdə nəzərdə tutulan ABŞ məqsədlərinin əldə edilməsi üçün inteqrasiya olunmuş strategiyanın, ehtiyat bazanın və alətlərin inkişafını nəzərdə tutur. Onlar qeyd edirlər ki, ABŞ əvvəllər xarici siyasətində sərt gücdən istifadə edirdi, çünki onun hərəkətləri düz idi və onun qüdrətinin əsasları xarici aktorlar üçün görünən idi. Qeyd etmək lazımdır ki, 2007-ci ildə Nay və Ermitajın rəhbərliyi altında ağıllı güc üzrə hesabat Obamanın qalib gəldiyi prezident seçkilərinə bir il qalmış hazırlanmışdı. Bu hesabatın məqsədi Obama və ya MakKeynin qalib gəlməsindən asılı olmayaraq gələcək prezidentin xarici siyasət proqramı qismində təklif etmək idi. Dövlət katibi Hilari Klinton bu proqramın qəbul edilməsini ictimaiyyət qarşısında təsdiq etdi və bildirdi ki, ABŞ "ağıllı güc"dən istifadə edəcək.

Harvard Universitetinin professoru Cozef Nayın "Project Syndicate" jurnalında nəşr olunan son məqaləsində qeyd edirdi: "2021-ci ilin sonlarında Rusiya Ukrayna ilə sərhəddə öz qoşunlarını cəmləşdirirdi, Çin hərbi təyyarələri Tayvan yaxınlığında uçurdular, Şimali Koreya nüvə silahının yaradılması üzrə proqramını davam etdirir, Taliban döyüşçüləri ilə Kabul küçələrində patrul işlərini həyata keçirirlər. Bütün bunları müşahidə edərkən dostlarım mənə belə bir sual verdi: "Yumşaq gücə nə oldu? "[5, 1]

"ABŞ prezidenti Co Bayden tərəfindən təşkil olunan 100-dən artıq ölkənin iştirakıyla keçən "Demokratiya uğrunda" virtual sammitdə iştirak etməyən Çin efirdə və sosial şəbəkələrdə belə bir bəyanatla çıxış etdi ki, o, daha sabit demokratiyaya malikdir, nəinki ABŞ. Bu, iki böyük dövlətin başqalarına məcburetmə və ya ödənişlə deyil, cəzbetmə vasitəsilə başqalarına təsir etmək qabiliyyəti kimi anlaşılan "yumşaq güc" uğrunda rəqabət idi.

1990-cı ildə "yumşaq güc" haqqında ilk dəfə yazdığımda mən analitiklərin güc haqqında ümumi təsəvvüründə olan çatışmazlığı aradan qaldırmağa çalışırdım. Lakin bu konsepsiya tədricən siyasi rezonansa səbəb oldu. Bu fikir əslində yeni deyildi, bu cür konsepsiyalar Lao-Tsı kimi qədim filosofların əsərlərində də öz əksini tapıb. "Yumşaq güc" yalnız beynəlxalq davranışa və ya ABŞ-ə aid deyil. Bir çox kiçik dövlətlər və təşkilatlar da cəzbetmə qüvvəsinə malikdirlər, demokratik ölkələrdə isə "yumşaq güc" minimum olaraq, liderliyin mühüm komponentidir. Lakin hazırda bu konsepsiya, bir qayda olaraq, beynəlxalq münasibətlər ilə təcəssüm olunur. Avropa İttifaqının liderləri bu termindən tez-tez istifadə edirlər. 2007-ci ildə Çinin o vaxtkı prezidenti Hu Tszintai bəyan edəndə ki, Çin "yumşaq güc"ü inkişaf etdirməlidir, hökumət buna milyard dollarlıq həcmində investisiya qoyuluşu etdi. İndi Çinin qarşısında effektiv "yumşaq güc" strategiyasını həyata keçirmək vəzifəsi dayanır. Əgər Çin artıq sərt gücünü yumşaq güclə effektiv şəkildə əlaqələndirə bilsə, o, rəqib koalisiyaları az qıcıqlandıracaq.

Yumşaq güc – hakimiyyətin yeganə və hətta ən mühüm mənbəyi hesab edilmir, belə ki, onun təsiri adətən yavaş və dolayı olur. Lakin onu nəzərə və ya diqqətə almamaq ciddi strateji və analitik səhvdir. Roma imperiyasının qüdrəti yalnız legionlarına deyil, Roma hüquq və mədəniyyətinin cazibədarlığına əsaslanırdı. Bir Norveç analitiki II Dünya müharibəsindən sonra ABŞ-nin Qərbi Avropada mövcudluğunu "dəvət edilən imperiya" qismində təsvir etmişdir. Berlin divarının dağıdılmasında bir güllədən belə istifadə edilməmişdir, onu Qərbin "yumşaq güc"ünün toxunduğu adamların əllərində olan çəkic və buldozerlə dağıtdılar. Ağıllı siyasi liderlər çoxdan anlayıblar ki, dəyərlər hakimiyyət yarada bilər. Əgər mən səni arzuladığımı arzulamağa məcbur edə bilirəmsə, mənə səni istəmədiyini etməyə məcbur etmək lazım gəlməyəcək. Əgər ölkənin dəyərləri başqaları üçün cazibədardırsa, ona "yerkökü və çubuq" siyasətindən istifadə etmək lazım olmayacaq".

"Yumşaq güc" əsasən üç əsas mənbədən qaynaqlanır: mədəniyyət, demokratiya və insan haqları kimi siyasi dəyərlər və siyasətçilər. Hökumət başqalarına öz evində (misal üçün, mətbuat azadlığı və etiraz etmək hüququ), beynəlxalq institutlarda (başqalarına məsləhət vermək və çoxtərəfliliyi təşviq etməklə) davranışı, həmçinin xarici siyasəti (misal üçün, inkişafı və insan haqlarını təşviq etməklə) vasitəsilə təsir göstərə bilər. COVID-19 pandemiyası dövründə Çin "vaksin diplomatiyası"ndan istifadə edərək öz "yumşaq gücünü" gücləndirməyə çalışırdı. Çin hökumətinin səyləri dünyanın bir çox yerlərində infrastruktur layihələri dəstəkləyən "Bir kəmər, bir yol" təşəbbüslərinin möhkəmlənməsinə yönəlmişdi. Lakin beynəlxalq sorğuların nəticələri qənaətbəxş deyildi. Cazibədarlıq göstəricilərinə görə Çin Afrika istisna olmaqla, bütün qitələrdə ABŞ-dan geri qalır. Çinin yumşaq gücünün aşağı səviyyədə olmasının səbəblərindən biri millətçi xarici siyasətində sərt gücdən yöndəmsiz istifadəsi olmuşdur. Bura nümunə olaraq Avstraliyanı iqtisadi cəhətdən cəzalandırmasını və Himalay boyu Hindistanla sərhəddə hərbi əməliyyatları aparmasını göstərmək olar. Çinin "yumşaq güc"lə problemləri var. Hər bir halda, vaksin diplomatiyası ilə "canavar-döyüşçü diplomatiyası"nı (təcavüzkar, kiçik dövlətləri məcburi qorxutma) eyni

anda həyata keçirmək çətindir [6, 49].

Güc növlərinin təfsiri. Müasir amerikalı politoloq Uolter Rassel Mid C.Nayın sərt və yumşaq güc ideyasını ABŞ-nin hökmranlığı kontekstində daha da inkişaf etdirir və Antonio Qramşinin hegemonluq haqqında konsepsiyasını təfsir edir. O qeyd edir ki, sərt güc hərbi və iqtisadi tərkib hissələrinə bölünür: "Birincini kəskin qüvvə adlandırmaq olar, çünki o, süngülərin gücünə əsaslanır və onların təsirini öz dərinizdə hiss edə bilərsiniz - müqavimət göstərsək, iti süngülər bizi düzgün istiqamətə itələyir. Bu, Amerika sisteminin möhkəm təməlini təşkil edir. İqtisadi tərkib hissə eyni anda həm yoldan çıxardan, həm də inandıran yapışqan qüvvədir. Bu, "başqalarını bizim sistemə cəlb edən iqtisadi institutlar və strategiyalar şəbəkəsidir və sonra onların tərk etməsini çətinləşdirən şərtlər yaradır". [7, 22]

"Yumşaq güc" də iki aspektə malikdir: Amerika dəyərlərinin, mədəniyyətinin, siyasətinin cəlbedici qüvvəsini və gündəliyini müəyyən edən və müzakirələrin sərhədlərini təyin edən qüvvə (Qramşinə görə, dünya hegemonluğu qüvvəsi). "Bizim sistemi təşkil edən dəyərləri, ideyaları, siyasi addımları ehtiva edən cəlbedici qüvvə başqa millətləri məmnun edir. Hegemonluq qüvvəsi süni və ixtiyari olduğu qədər, tarixi nöqteyi nəzərdən II Dünya müharibəsi dövründən Amerika nizam sistemi təbii, arzuolunan, qaçılmaz və sabit görünürdü".

Bu qüvvəyə bazarları və istehsalçıları Amerika asılılığına cəlb edən kommersantların, bankirlərin və treyderlərin nüfuzlu lobbisi təsir göstərir. Praktikada bu, Amerikanın ticarət-maliyyə orbitinə cəlb edilmiş ölkələr, o cümlədən ÜST, Dünya Bankı və BVF kimi təşkilatlar üçün qeyri-bərabər ticarət və mübadilə şərtlərinin yaradılmasında öz əksini tapır və onlar ABŞ-la münasibətlərin pozulmasından qorxurlar, belə ki onların satış bazarlarına ehtiyacı var və qiymətli kağızlara malikdirlər. "Amerika iqtisadiyyatının və ya qüdrətinin dağılması bütün dünyaya hədsiz böyük ziyan vuracaq", - Mid hesab edir.

Cəlbedici qüvvə, əlbəttə ki, hər kəsə təsir göstərmir, belə ki bir çox ölkələr Amerika dəyərlərini və mədəniyyətini nəinki qəbul etmirlər, hətta açıq şəkildə çox vaxt qınayırlar. Lakin bu qüvvənin bir neçə elementinə ABŞ-nin bir çox dövlətlərə göstərdiyi immiqrasiya və humanitar yardımı aid etmək olar.

U.R.Midin fikrincə, hətta hərbi qüvvə müstəsna olaraq kəskin güc deyil, ABŞ-nin hərbi bazalar şəbəkəsi, beynəlxalq əməkdaşlıq, o cümlədən NATO vasitəsilə bütün dünyada mütəxəssislərin təlimi və humanitar proqramları yumşaq komponentə malikdir. U.R.Midin bu yanaşması humanitar əməliyyatların və hərbi əməliyyatların aparılması dixotomiyasından daha geniş imkanları göstərir. Qeyd edildiyi kimi, müxtəlif ölkələr müəyyən meyarlardan asılı olaraq güc və hakimiyyətin bu və ya digər variantından istifadə edirlər.

**Nəticə**

Beynəlxalq münasibətlərdə "yumşaq güc"dən istifadə ilə bağlı müzakirələr getdikcə boşdan-boşluğa tökülməyi xatırladır. Hərçənd dünyada baş verən hadisələrdən açıq-aşkar görünür ki, milli maraqların müdafiəsi məsələsində bu alət az effektivdir, dövlətlər əvvəlki kimi yumşaq gücə az əhəmiyyət verirlər. Bu cür nəticələr belə qənaətə gəlməyə əsas verir ki, hətta hər iki metoddan istifadə ilə bağlı nəzəri məsələlər hələ də mükəmməllikdən uzaqdır və terminologiyanın özü dəyişikliklərə məruz qala bilsə də, çox güman ki, müzakirələr davam edəcək.

**ƏDƏBİYYAT SİYAHISI:**


*1. Soft Power // Foreign Policy. 1990. No 80. s. 153–171.*

*2. Nye J.S. Soft Power: The Means to Success in World Politics. New York: Public Affairs, 2004.s.19 – 26.*

*3. Nye J.S. Notes for a Soft Power Research Agenda // Power in World Politics / ed. by F. Berenskoetter, M.J. Williams. London: Routledge, 2007a. s. 162–172.*

*4. Nye J.S. The Place of Soft Power in State-Based Conflict Management // Leashing the Dogs of War: Conflict Management in a Divided World / ed. by C.A. Crocker, F.O. Hampson, P. Aall. Washington: United States Institute of Peace Press, 2007b. s. 389–400.*

*5. Joseph S. Nye, Jr., Whatever Happened to Soft Power? Project Syndicate.2022.s.1 https://www.project-syndicate.org/commentary/whatever-happened-to-soft-power-by-joseph-s-nye-2022-01*

*6. Nye J.S. The Future of Power. New York: Public Affairs, 2010.s.46-60.*

*7. Walter Russell Mead: P alter Russell Mead: Power, Terror, Peace and War. 2008. s.21-25*


**XÜLASƏ**


"Yumşaq güc" konsepsiyası XX-XXI əsrlərin astanasında müasir beynəlxalq münasibətlər nəzəriyyəsinin neoliberal istiqamətinin liderlərindən biri Cozef Nay tərəfindən işlənib hazırlanıb. Məqalədə "yumşaq güc" konsepsiyasının başlıca müddəaları

və elmi dairələrin bununla bağlı düşüncələri analiz edilir. "Yumşaq güc" araşdırma mövzusu olaraq məşhur olsa da, lakin hələ də onun istifadə hüdudları ilə bağlı vahid anlayış yoxdur. Məqalədə konsepsiyanın banisi C.Nayın nəzəri yeniliklərinin təhlili verilir və "yumşaq güc" və onun fəaliyyət mexanizmi ilə bağlı digər alimlərin fikirləri araşdırılır. Məqalədə qeyd edilir ki, "yumşaq güc" dövlətin beynəlxalq arenada yaratdığı imicdir və əməkdaşlığa və dünya siyasətinin əxlaqi-etik aspektlərinə əsaslanan milli maraqların reallaşması strategiyasıdır. "Yumşaq güc" və "sərt güc" arasında qarşılıqlı əlaqə, həmçinin "yumşaq gücün" praktikada tətbiqinin real nəticələrinin qiymətləndirilməsi ətrafında müzakirələr gedir. Analiz nəticəsində belə bir nəticə hasil olur ki, xarici alimlərin bu konsepsiyanın nəzəri-metodoloji və praktiki tərəfləri ilə bağlı çoxsaylı sualları vardır. Buna baxmayaraq, amerikalı alimin işləyib hazırladığı konsepsiyanın tarixi-siyasi fikrin və beynəlxalq münasibətlər nəzəriyyəsinin inkişafı üçün əhəmiyyəti böyükdür.

**Açar sözlər:** *C.Nay, "yumşaq güc", "sərt güc", "ağıllı güc", realizm, neorealizm, neoliberalizm, xarici siyasət.*

## SUMMARY

### Soft power in international relations

The concept of "soft power" was developed by Joseph Nye, one of the leaders of the neoliberal direction of modern international relations theory at the turn of the 20th-21st centuries. The article analyzes the main provisions of the concept of "soft power" and the thoughts of scientific circles about it. Although "soft power" is popular as a research topic, there is still no unified understanding of the limits of its use. The article analyzes the theoretical innovations of the founder of the concept, J. Nye, and examines the opinions of other scientists regarding "soft power" and its mechanism of action. The article states that "soft power" is the image created by the state in the international arena and is a strategy for the realization of national interests based on cooperation and moral and ethical aspects of world politics. The interaction between "soft power" and "hard power", as well as the assessment of the real results of the application of "soft power" in practice, are being debated. As a result of the analysis, such a result is obtained that foreign scientists have many questions regarding the theoretical-methodological and practical aspects of this concept. Nevertheless, the concept developed by the American scientist is of great importance for the development of historical-political thought and the theory of international relations.

**Keywords:** *Nye J.S., "soft power", "hard power", "smart power", realism, neorealism, neoliberalism, foreign policy.*

## РЕЗЮМЕ

### Мягкая сила в международных отношениях

Концепцию «мягкой силы» разработал Джозеф Най, один из лидеров неолиберального направления современной теории международных отношений на рубеже XX-XXI веков. В статье анализируются основные положения концепции «мягкой силы» и мысли о ней в научных кругах. Хотя «мягкая сила» популярна как тема исследования, до сих пор нет единого понимания границ ее использования. В статье анализируются теоретические новации основоположника концепции Дж. Ная, а также рассматриваются мнения других ученых относительно «мягкой силы» и механизма ее действия. В статье утверждается, что «мягкая сила» — это имидж, создаваемый государством на международной арене, и стратегия реализации национальных интересов, основанная на сотрудничестве и морально-этических аспектах мировой политики. Обсуждается взаимодействие «мягкой силы» и «жесткой силы», а также оценка реальных результатов применения «мягкой силы» на практике. В результате анализа получен такой результат, что у зарубежных учёных возникает множество вопросов относительно теоретико-методологических и практических аспектов данной концепции. Тем не менее, концепция, разработанная американским учёным, имеет огромное значение для развития историко-политической мысли и теории международных отношений.

**Ключевые слова:** *Най Дж.С., «мягкая сила», «жесткая сила», «умная сила», реализм, неореализм, неолиберализм, внешняя политика.*

UOT 321; 323
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.028

# GƏNCLƏRLƏ İŞİN TƏŞKİLİ: NƏZƏRİ VƏ METODOLOJİ YANAŞMALARIN ƏSASLARI

**MURAD HƏSƏNXANLI**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının doktorantı*
*E-mail: mhsnxanli@gmail.com*

## Giriş

Gənclərlə işin təşkilinin nəzəri-metodoloji əsasları cəmiyyətin inkişafında böyük rol oynayan bir sahədir. Gənclər siyasəti gənc nəslin düzgün yönləndirilməsi ilə cəmiyyətin gələcək sosial-iqtisadi və siyasi inkişafını təmin etməyə yönəlmiş strateji yanaşmaların məcmusudur. Gənclərlə işin təşkilində nəzəri əsaslar müxtəlif sosial və psixoloji yanaşmalara əsaslanaraq, gənclərin tərbiyəsi, sosial inteqrasiyası və ictimai fəaliyyətlərdə fəal iştirakını təmin etmək üçün mühüm istiqamətləri müəyyən edir. Bu sahənin metodoloji əsasları isə müxtəlif tədqiqat metodlarını, o cümlədən sosioloji, pedaqoji və psixoloji araşdırmaları, həmçinin təşkilatın effektivliyinin qiymətləndirilməsi üçün nəzərdə tutulmuş metodologiyaları əhatə edir. Gənclərlə işin təşkilində nəzəri və metodoloji yanaşmalar cəmiyyətin tələblərini gənclərin potensialı ilə uyğunlaşdıraraq, onların fərdi inkişafına dəstək olmaq və sosial inteqrasiyasını təmin etmək üçün əhəmiyyətlidir.

Bu baxımdan, Azərbaycan gəncliyi hər zaman dövlət siyasətinin prioritet istiqamətlərindən biri olmuşdur. Xüsusilə müstəqillik illərindən sonra gənclərin inkişafına yönəlmiş siyasət və proqramlar hazırlanaraq həyata keçirilmişdir. Gənclərlə işin təşkilinin Azərbaycan modeli, yerli xüsusiyyətlər və qlobal çağırışların nəzərə alınması ilə formalaşdırılmışdır. Bu modelin əsasını dövlətin gənclərə yönəlik strategiyaları, qanunvericilik bazası, milli və beynəlxalq təşkilatlarla əməkdaşlıq, gənclər hərəkatlarının və təşkilatlarının fəaliyyəti təşkil edir.

Müasir cəmiyyətin sosial, iqtisadi və siyasi inkişafını təmin etmək üçün gənclərin düzgün yönləndirilməsi və onların potensialının səmərəli istifadəsi zərurəti artmaqdadır. Bu baxımdan, tədqiqatımızın məqsədi gənclərlə işin təşkilində nəzəri və metodoloji yanaşmaların əsaslarını müəyyən etmək və onların cəmiyyətin inkişafına töhfəsini təhlil etməkdir. Tədqiqat gənclərlə işin təşkilində nəzəri və metodoloji yanaşmaların elmi əsaslarını genişləndirərək, mövcud yanaşmalara yeni perspektivlər və qiymətləndirmə meyarları əlavə edir.

Bu tədqiqatda sosioloji, pedaqoji və psixoloji yanaşmaların sintezi əsasında müxtəlif tədqiqat metodlarından istifadə edilmişdir. Sosioloji araşdırmalar vasitəsilə gənclərin cəmiyyətdəki mövqeyi və onların sosiallaşma prosesinə təsir edən amillər araşdırılmış, pedaqoji araşdırmalar isə gənclərin tərbiyəsi və təlim-tərbiyə prosesinin effektivliyini dəyərləndirmək üçün tətbiq edilmişdir. Psixoloji tədqiqatlar isə gənclərin fərdi inkişafını və sosial davranışlarının formalaşmasını anlamağa yönəlmişdir. Bu yanaşmaların birləşdirilməsi ilə gənclərlə işin təşkilində nəzəri və praktiki çərçivə formalaşdırılmışdır.

## Gənclərlə işin təşkilinə nəzəri yanaşmalar

Dövlət gənclər siyasəti ölkələrin innovativ inkişafı üçün zəruri sosial şəraitin formalaşmasını təmin edən, vətəndaş cəmiyyəti institutları, ictimai birliklər və gənclər təşkilatları ilə fəal qarşılıqlı əlaqə əsasında həyata keçirilən dövlət fəaliyyətinin müstəqil istiqaməti kimi qəbul edilməlidir.

Bu istiqamət çərçivəsində, gənclərlə işin nəzəri əsasları sosial nəzəriyyələrə və inkişaf yanaşmalarına dayanır. İlk olaraq qeyd etmək lazımdır ki, gənclər təkcə bioloji yaş qrupuna daxil olan insanlar deyil, həm də cəmiyyətin inkişafında aktiv iştirak edən sosial qrup kimi çıxış edirlər. Bu səbəbdən, gənclərlə işin təşkilində sosial və psixoloji nəzəriyyələr xüsusi əhəmiyyət daşıyır. Gənclərin sosiallaşması, onların sosial dəyərləri mənimsəməsi və sosial rollara adaptasiya olması prosesi bir çox sosioloq və psixoloq tərəfindən tədqiq edilmişdir. Məsələn, Erik Eriksonun sosial inkişaf nəzəriyyəsi gənclərin uşaqlıqdan etibarən şəxsiyyət kimi inkişafında əsas mərhələləri müəyyənləşdirir. Erikson gənclik dövrünü kimlik axtarışı və həyat məqsədlərinin müəyyən edilməsi kimi xarakterizə edir ki, bu da gənclərin sosiallaşma prosesinin mərkəzində dayanır [6].

Nəzəri yanaşmalar baxımından, gənclərlə işin təşkilində sosial struktur nəzəriyyələri də əhəmiyyət kəsb edir. Məsələn, funksionalist yanaşma gənclərin cəmiyyətin davamlı inkişafı üçün hazırlıq dövrü kimi görülməsi zərurətini vurğulayır. Bu yanaşma gənclərin cəmiyyətdəki müxtəlif rollara və

vəzifələrə adaptasiyasının vacibliyini önə çəkir [4]. Əksinə, konflikt nəzəriyyəsi gəncləri cəmiyyətin mövcud sosial strukturlarına qarşı potensial olaraq mübarizə aparan sosial qrup kimi təhlil edir. Bu yanaşma gənclərin mövcud sosial qaydalar və normalarla münaqişədə olduğunu vurğulayaraq, onların sosial dəyişiklik prosesində necə iştirak etdiyini izah edir [10].

Gənclərlə işin təşkilinin əsaslarından biri də sosial konseptual yanaşmalardır. Bu yanaşma gənclərin cəmiyyətin fərqli sahələrində rolu və mövqeyi ilə bağlı olan sosial nəzəriyyələrə əsaslanır. Gənclərin sosiallaşması prosesi, onların mədəni və ictimai dəyərləri mənimsəməsi təhsil alması və əmək bazarına daxil olması ilə birbaşa əlaqəlidir. Gənclərin sosial rolunun formalaşması isə onların mənsub olduqları cəmiyyətin mədəniyyətindən və sosial strukturlarından asılıdır. Gənclərin sosiallaşması prosesində ailə, təhsil müəssisələri, media və digər sosial təsisatlar mühüm rol oynayır. Bu təsisatların hər biri gənclərə müəyyən dəyərləri və normativ davranışları öyrədir, onları cəmiyyətin fərqli strukturlarına hazırlayır. Gənclərlə işin təşkilində bu sosial təsisatlar arasında harmoniyanın təmin edilməsi vacibdir. Məsələn, təhsil sisteminin gənclərin əmək bazarına hazırlığını təmin etməsi, onların peşə bacarıqlarının formalaşdırılması və gələcək karyera seçimlərində dəstək göstərməsi gənclər siyasətinin uğurlu icrasının mühüm şərtlərindən biridir.

Bu baxımdan, iki əsas nəzəriyyəni təhlil etmək lazımdır. Belə ki, Piyer Burdyenin (Pierre Bourdieu) mədəni kapital nəzəriyyəsi ilə Riçard Lörner (Richard M. Lerner) və digərlərinin müəllifi olduğu gənclərin inkişafı nəzəriyyəsi (positive youth development) arasındakı əlaqə gənclərin sosial mühit və fərdi imkanları ilə onların potensial inkişafı arasında mövcud olan qarşılıqlı təsirləri dərindən araşdırır. Burdyenin fikirlərinə əsasən, mədəni kapital – təhsil, dil bacarıqları, mədəni biliklər və sosial əlaqələr kimi resurslar gənclərin cəmiyyətdəki mövqelərini və gələcəkdə əldə edəcəkləri sosial, iqtisadi statusu formalaşdırır. Mədəni kapitalın çatışmazlığı, gənclərin "sosial nərdivan" ilə yuxarıya qalxmasını çətinləşdirir [7]. Gənclərin inkişafı nəzəriyyəsi isə mədəni kapitalın rolunu daha da gücləndirərək, gənclərin aktiv inkişafını dəstəkləyən müsbət mühitlər yaratmağı təklif edir. Bu yanaşma gəncləri yalnız problemli və ya risk altında olan fərdlər kimi deyil, resursları və potensialı olan aktorlar kimi görür, onların müsbət sosial imkanlara çıxışını təmin etməyə yönəlir. Mədəni kapitalı gücləndirən təhsil, cəmiyyətin dəstəyi və sosial iştirak kimi faktorlar gənclərin inkişafı nəzəriyyəsi çərçivəsində gənclərin güclü tərəflərinin inkişafına birbaşa təsir edir [3]. Bu iki nəzəriyyənin birgə təhlili göstərir ki, mədəni kapitalın artırılması gənclərin resurslardan daha geniş istifadə etməsinə və cəmiyyətdə daha aktiv rol oynamasına şərait yaradır, gənclərin inkişafı nəzəriyyəsi isə bu kapitalın necə dəyərləndiriləcəyinə və inkişaf etdiriləcəyinə dair mütərəqqi yanaşmalar təqdim edir.

**Gənclərlə işin təşkilinin metodoloji bazası**

Nəzəri məsələlərlə yanaşı, gənclərlə işin təşkilində istifadə olunan metodologiyalar həm nəzəri yanaşmaları, həm də praktik təcrübələri əhatə edir. İlk növbədə qeyd etmək lazımdır ki, bu sahədə istifadə olunan metodlar tədqiqatçının hansı aspektləri öyrənmək istəməsinə bağlı olaraq dəyişir. Gənclərin sosiallaşma prosesi psixoloji inkişafı və cəmiyyətdəki mövqeyi müxtəlif metodlar vasitəsilə araşdırıla bilər. Gənclərlə işin təşkilində istifadə olunan əsas metodlardan biri sosioloji tədqiqatlar və anketlərdir. Bu metod vasitəsilə gənclərin sosial, iqtisadi və siyasi baxışları, onların maraq və prioritetləri təhlil olunur. İkinci vacib metod olaraq psixoloji testlər və fərdi müsahibələr qeyd edilməlidir. Bu metodlar gənclərin psixoloji inkişafını, onların emosional və davranış modellərini daha dərindən öyrənməyə imkan verir. Bununla yanaşı, eksperimental metodlar vasitəsilə müxtəlif sosial proqramların və dövlət siyasətinin gənclərə təsiri tədqiq olunur. Məsələn, müəyyən bir təlim proqramının və ya liderlik təşəbbüsünün gənclərin inkişafına təsiri eksperimental tədqiqatlarla ölçülə bilər [1].

Gənclərin qərar qəbuletmə proseslərinə cəlb olunması, onların liderlik bacarıqlarının inkişaf etdirilməsi və sosioloji baxımdan cəmiyyətin idarə edilməsində rol almaları bu yanaşmanın əsas prinsiplərindəndir. Bununla yanaşı, gənclərlə işin təşkilində gənclərin fərdi maraqları və prioritetləri nəzərə alınaraq, fərdiləşdirilmiş yanaşmaların tətbiqi də müasir dövrün tələblərindən biridir. Gənclər müxtəlif sosial və mədəni mühitlərdən gəldikləri üçün onlarla işləyərkən fərdi ehtiyaclar və inkişaf məqsədləri nəzərə alınmalıdır. Gənclərin sosial baxımdan zərərli vərdişlərdən qorunması, onların sağlam həyat tərzi formalaşdırması və vətəndaş fəallığının artırılması bu sahədə müasir yanaşmaların prioritetləri arasındadır.

Bu məqsədə nail olmaq aşağıdakı vəzifələri həll etməklə həyata keçirilməlidir. Birinci vəzifə gənclə-

ri sosial təcrübəyə cəlb etmək və onları özünüinkişaf üçün potensial imkanlar barədə məlumatlandırmaq, gənclərin elmi, yaradıcılıq və sahibkarlıq fəaliyyətinə dəstək verməkdir. Bu həll yolu ilə aşağıdakılar əldə edilməkdədir [5]:

– cəmiyyətdə gənclərin həyatının bütün problemləri (səhiyyə, idman, təhsil, mənzil, asudə vaxt, iş, karyera, sosial həyat, ailə, beynəlxalq əlaqələr, digər ölkələrdə gənclərin həyatı və s.) üzrə informasiya sistemlərinin və sosial təhsil proqramlarının hazırlanması;

– gənclərlə iş müəssisələrinin maddi-texniki bazasının müasirləşdirilməsi, onların şəbəkəsinin genişləndirilməsi, təlim sisteminin müasirləşdirilməsi və gənc işçilərin fasiləsiz təhsili mexanizmlərinin formalaşdırılması;

– gənclərə informasiya və konsultativ yardımın göstərilməsi, kənd və ucqar ərazilərdə yaşayan gənclərin müvafiq məlumatların axtarışı, tətbiqi və yayılması imkanlarını bərabərləşdirən xüsusi layihələrin hazırlanması, gənclərin onlar üçün yaradılan şərait haqqında məlumatların əlçatanlığının təmin edilməsi;

– gənclərin əmək və təsərrüfat fəaliyyətinə cəlb edilməsinin səmərəli modellərinin və formalarının, o cümlədən əmək birliklərinin, tələbə qruplarının fəaliyyətinin inkişafı, gənclərin əmək birjalarının və gənclərin məşğulluğunun digər formalarının inkişafı, gənclərin daha çevik cəlb edilməsi üçün qanunvericilik bazasının təkmilləşdirilməsi və əmək fəaliyyətində hüquqi mənafelərinin təmin edilməsi;

– gənclərin regionlararası və beynəlxalq qarşılıqlı fəaliyyətinə dəstək (tematik toplantılar, düşərgələr və festivallar, elmi-praktik və işgüzar konfranslar, diskussiya klubları, gənclər mübadiləsi), milli və dünya mədəniyyətinin dəyərlərinin qarşılıqlı nüfuzuna yönəlmiş beynəlxalq informasiya gənclər layihələrində iştirakı;

– gənclərin sahibkarlığına, o cümlədən iqtisadiyyatın innovativ sektorlarına dəstək proqramlarının həyata keçirilməsi.

İkinci vəzifə liderlik qabiliyyətinə malik, təşəbbüskar və istedadlı gənclərə inteqrasiyalı dəstək sistemini formalaşdırmaqdır. Bu sistemə daxildir [9]:

– müsabiqə tədbirlərində (peşə və yaradıcılıq müsabiqələri, idman yarışları, elmi olimpiadalarda) iştirak edən gənclərin sayının dəfələrlə artırılmasının təmin edilməsi, müsabiqələrin siyahısının genişləndirilməsi və seçim üsullarının təkmilləşdirilməsi;

– kiçik şəhərlərdən və kənd yerlərindən olan mükafatçılar və istedadlı gənclər üçün "sosial liftlər" (dəstək və müşayiət) sisteminin yaradılması və inkişafı, onları yetişdirən qurumlara, ictimai birliklərə və mentorlara ünvanlı dövlət dəstəyi, qrantların və subsidiyaların verilməsi təcrübəsinin genişləndirilməsi;

– istedadlı gənclər üçün internat məktəbləri sisteminin inkişaf etdirilməsi, aparıcı təhsil müəssisələrinin və elmi təşkilatların imkanlarından istifadə etməklə yay elmi düşərgələrinin və məktəblərin, elmi-tədqiqat ekspedisiyalarının keçirilməsi;

– mükafatçıların və onların tərbiyəçilərinin sosial statusunun yüksəldilməsi, istedadlı gənclərin nailiyyətlərinin ölkədə və dünyada fəal şəkildə təbliği və populyarlaşdırılması, ən yaxşı yerli və xarici universitetlərdə, dünyanın təhsil və elm mərkəzlərində təcrübə keçmələrinin təşkili;

– gənclərin ictimai həyatın idarə olunmasında iştirakının səmərəli modellərinin və formalarının yayılması, gənclərin özünüidarəetmə orqanlarının fəaliyyətinə cəlb edilməsi;

– ölkə gənclərinin təhsil, elm, mədəniyyət, texnologiya sahəsində innovativ beynəlxalq layihələrə, beynəlxalq yaradıcı, elmi və idman birliklərinə cəlb edilməsi.

Üçüncü vəzifə gənclərin vətəndaş və vətənpərvərlik tərbiyəsi, gənclər arasında hüquqi, mədəni və mənəvi dəyərlərin formalaşmasına köməklik göstərməkdir. Bu vəzifənin yerinə yetirilməsi aşağıdakı məsələləri həll edir [8]:

– gənclərin könüllü fəaliyyətinin inkişafı, gənclərin ictimai birliklərinin və qeyri-kommersiya təşkilatlarının fəaliyyəti üçün şərait yaradılması;

– sağlamlıq, əmək, ailə, tolerantlıq, insan hüquqları, vətənpərvərlik, vətənə xidmət, məsuliyyət, fəal həyat və vətəndaşlıq kimi ictimai dəyərlərin ictimai birliklərin proqramlarından və sosial reklamından istifadə etməklə populyarlaşdırılması;

– vahid vətəndaş kimliyinin formalaşması, müxtəlif etnik qrupların nümayəndələrinə qarşı dözümlülüyün tərbiyəsi, millətlərarası əməkdaşlıq proqramlarına dəstək;

– gənclərin ölkənin tarixi və mədəni irsinə marağını stimullaşdırmaq, daxili turizm sisteminin inkişaf etdirilməsi, regionlararası gənclər mübadiləsi yolu ilə ətraf mühitin qorunması, ekoloji təşkilatların layihələrinin həyata keçirilməsində gənclərin iştirakının dəstəklənməsi, tarixi abidələrin bərpası.

Gənclər siyasəti cəmiyyətin, onun müxtəlif qruplarının, təbəqələrinin, sosial institutlarının bir sosial qrup kimi gənclərə, habelə gənclərin özlərinin digər sosial qruplara, sosial institutlara, cəmiyyətin dəyər-

lərinə münasibətinin göstəricisidir. Eyni zamanda dövlətin, siyasi partiyaların, ictimai birliklərin və ictimai münasibətlərin digər subyektlərinin müəyyən şəkildə gənclərin sosiallaşmasına və sosial inkişafına, bunun vasitəsilə isə cəmiyyətin gələcək vəziyyətinə təsir göstərməyi hədəfləyən xüsusi fəaliyyət istiqamətinin bir göstəricisidir.

**Gənclərlə işin təşkilinin Azərbaycan modeli**

Gənclərlə işin təşkilində dövlətin əsas yanaşması hüquqi çərçivələr və strateji sənədlər vasitəsilə müəyyən edilir. Azərbaycan Respublikasında bu barədə geniş qanunverici baza olsa da bizim tədqiqatımızın predmetini təşkil edən müasir dövrdə "Azərbaycan Gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı bu sahədə atılan konkret addımların təməlini qoymuşdur [2]. Azərbaycan modeli üçün vacib olan institusional yanaşma, dövlət strukturlarının gənclərlə bağlı işlərdə fəal iştirakı ilə xarakterizə olunur. Gənclər və İdman Nazirliyi yerli icra hakimiyyətlərinin gənclər və idman idarələri, Gənclər Fondu kimi dövlət qurumları gənclərin inkişafına yönəlmiş layihələri dəstəkləyir. Bu institutlar, gənclərin təhsil, məşğulluq, mədəniyyət, idman və digər sahələrdə iştirakını artırmağa yönəlik müxtəlif proqramlar həyata keçirir. Azərbaycanda gənclərlə iş modeli bir neçə əsas prinsipə əsaslanır:

1. Gənclərin iştirakı və təmsilçiliyi. Gənclərin ictimai həyatın müxtəlif sahələrində fəal iştirakı təmin edilir. Dövlət tərəfindən gənclərə öz bacarıqlarını reallaşdırmaq üçün geniş imkanlar yaradılır. Xüsusilə, yerli və beynəlxalq təşkilatlarda gənclərin təmsil olunması üçün xüsusi proqramlar hazırlanır.

2. İnkişaf və təhsil imkanlarının genişləndirilməsi. Gənclərin inkişafı üçün təhsil proqramlarının təkmilləşdirilməsi vacib bir komponentdir. Azərbaycanın gənclər siyasəti çərçivəsində ali təhsil müəssisələrinin sayının artırılması, xarici təhsil proqramlarına dəstək və gənclərin peşəkar bacarıqlarının inkişafı məqsədilə müxtəlif kurslar təşkil edilir.

3. Sosial müdafiə və məşğulluq siyasəti. Gənclərin sosial müdafiəsi və işlə təmin olunması Azərbaycan dövlətinin diqqət mərkəzindədir. Gənclər üçün dövlət proqramları çərçivəsində müxtəlif iş imkanları yaradılır, işsizliyin qarşısını almaq məqsədilə təlimlər və peşə kursları həyata keçirilir. Dövlət həmçinin gənclərin sahibkarlıq təşəbbüslərini dəstəkləyir, bu məqsədlə xüsusi fondlar və kredit proqramları mövcuddur.

Azərbaycan modelində gənclərlə işin təşkilində gənclər təşkilatlarının xüsusi rolu var. Gənclər təşkilatları cəmiyyətin müxtəlif sahələrində sosial-iqtisadi problemlərin həllinə yönəlmiş layihələr həyata keçirir. Bu təşkilatlar dövlət tərəfindən dəstəklənir və onlara geniş fəaliyyət imkanları verilir. Müstəqillik illərində bir çox qeyri-hökumət təşkilatları və gənclər hərəkatları formalaşmışdır. Məsələn, Azərbaycan Gənclər Təşkilatları Milli Şurası (NAYORA) və Gənclər Fondu gənclərin hüquqlarının müdafiəsi, onların təhsil, mədəniyyət, idman və digər sahələrdə iştirakının təmin olunmasında mühüm rol oynayır. Gənclər təşkilatlarının fəaliyyətinə dəstək, onların resurslarla təmin edilməsi və təşəbbüslərinin genişləndirilməsi dövlət siyasətinin mühüm istiqamətlərindən biridir.

Azərbaycan gəncləri beynəlxalq səviyyədə də geniş imkanlardan yararlanır. Gənclər siyasətində beynəlxalq əməkdaşlıq, xüsusilə də BMT, Avropa Şurası və İslam Əməkdaşlıq Təşkilatı kimi qurumlarla əlaqələr inkişaf etdirilir. Azərbaycan gənclərinin qlobal arenada iştirakı və inteqrasiyası üçün beynəlxalq proqramlar və təhsil imkanları dəstəklənir. Gənclər beynəlxalq təhsil proqramlarında iştirak edərək qlobal bilik və təcrübə qazanırlar. Eyni zamanda, Azərbaycanda keçirilən beynəlxalq forumlar, konfranslar və simpoziumlar gənclərin qlobal məsələlərdə iştirakını artırır. Bu, həm də gənclərin müxtəlif ölkələrin mədəniyyətləri ilə tanış olmasına və qlobal vətəndaşlar kimi formalaşmasına yardım edir.

**Nəticə**

Tədqiqatın nəticəsi olaraq belə bir nəticəyə gəlirik ki, gənclərlə işin təşkilinin nəzəri-metodoloji əsasları, cəmiyyətin gələcək inkişafına istiqamətlənmiş strateji məqsədləri əks etdirən bir prosesdir. Gənclərlə işin təşkilində nəzəri-metodoloji əsaslar cəmiyyətin sosial inkişafını dəstəkləyən vacib bir sahə kimi çıxış edir. Gənclərin sosial, iqtisadi və siyasi həyatda mövqeləri onların doğru istiqamətə yönləndirilməsi və inkişaf etdirilməsindən asılıdır. Nəzəri yanaşmalar gənclərin sosiallaşması və şəxsiyyətin formalaşması ilə bağlı vacib elmi nəticələr təqdim edərkən, metodoloji yanaşmalar bu tədqiqatların tətbiqi üçün lazım olan üsulları təmin edir. Gənclərlə işin nəzəri-metodoloji yanaşmalarının düzgün tətbiqi, cəmiyyətin davamlı inkişafında mühüm rol oynayır. Bu sahənin əsas nəzəri-metodoloji çərçivəsi, gənclərin sosiallaşması, şəxsi inkişafı və cəmiyyətə inteqrasiyası üçün geniş əhatəli yanaşmalar təklif edir. Müasir dövrdə dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən həyata keçirilən gənclər siyasəti strategiyaları gənclərin bilik və ba-

carıqlarını inkişaf etdirməklə yanaşı, onların cəmiyyətin fəal vətəndaşlarına çevrilməsinə dəstək verir. Bu siyasətin uğurla həyata keçirilməsi üçün gənclər siyasətinin yalnız nəzəriyyələrlə məhdudlaşmayıb, eyni zamanda sosial və iqtisadi reallıqlara, həmçinin gənclərin fərdi tələblərinə uyğunlaşdırılması zəruridir. Ümumən, gənclər siyasəti gənclərin rifahı, təhsili, demokratik proseslərdə iştirakı və sosial inklüzivliyi kimi müxtəlif və qarşılıqlı əlaqəli sahələri əhatə edir. Bu siyasət gənclərə cəmiyyətdə yer tapmaq, müstəqilliyə nail olmaq, ictimai həyatda iştirak etmək və əmək bazarına daxil olmaq üçün lazım olan bilik və bacarıqlar qazandırmaq imkanı verir.

Gənclərlə işin Azərbaycan modeli gənclərlə işin təşkili sahəsində uğurlu və kompleks yanaşmanı əks etdirir. Hüquqi, institusional və beynəlxalq əməkdaşlıq aspektlərini əhatə edən bu model, gənclərin inkişafı və cəmiyyətə inteqrasiyası üçün geniş imkanlar yaradır. Dövlətin fəal dəstəyi və gənclərin təşəbbüslərinə göstərilən diqqət, bu modelin əsas sütunlarını təşkil edir. Gənclərin təhsil, məşğulluq, sosial müdafiə və beynəlxalq əməkdaşlıq sahələrində qazandıqları nailiyyətlər Azərbaycanın gənclər siyasətinin effektivliyini və davamlı inkişafını təmin edir.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Akseli, B. Katılımcılık bağlamında yerel yönetimlerde gençlik çalışmalarının değerlendirilmesi: Balıkesir Büyükşehir Belediyesi örneği. Balıkesir: Balıkesir Üniversitesi, 2024. 117 s.*

*2. Azərbaycan Gəncliyi 2017-2021-ci illərdə Dövlət Proqramı Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. URL: https://e-qanun.az/framework/36474*

*3. Benson, P.L.; Scales, P.C.; Hamilton, S.F.; Sesma, A. Positive Youth Development: Theory, Research and Applications. URL: https://fyi.extension.wisc.edu/youthadultpartnership/files/2015/08/Positive-Youth-Development.pdf*

*4. Exploring the Role of Functionalism in Understanding Youth Sub-Cultures. URL: https://www.geniushigh.com/sociology-essay/functionalism-and-youth-subcultures.#:~:text=Functionalism%20Perspective%3A,their%20own%20status%20as%20adults.*

*5. Emslie, M. Toward a Youth Work Profession. Child & Youth Services, 2013, 34(2), 125–138. URL: https://doi.org/10.1080/0145935X.2013.785880*

*6. Erikson, E.H. Identity: Youth and Crisis (Austen Riggs Monograph, 7). New York: W.W. Norton & Company, 1994. 336 p.*

*7. Huang, X. Understanding Bourdieu - Cultural Capital and Habitus. Review of European Studies, 2019, 11(3):45. DOI: 10.5539/res.v11n3p45*

*8. Lin, J. C., & Jackson, L. Patriotism in moral education: Toward a rational approach in China. Journal of Moral Education, 2022, 52(3), 343–361. URL: https://doi.org/10.1080/03057240.2022.2136148*

*9. Oparinde, K.M.; Agbede, G.T.; Bariki, M. Student/Youth Leadership Development in Contemporary Societies: A Review Attempt. Journal of Social Sciences, 2017, Volume 53, Issue 1.*

*10. Youth Crime According to Conflict Theory: Research Paper. URL: https://ivypanda.com/essays/youth-crime-according-to-conflict-theory/*

## XÜLASƏ

Bu tədqiqat gənclərlə işin təşkilinin nəzəri və metodoloji əsaslarını araşdıraraq, cəmiyyətin sosial, iqtisadi və siyasi inkişafında gənclərin düzgün yönləndirilməsinin vacibliyini vurğulayır. Gənclər siyasəti gənc nəslin düzgün tərbiyəsi və onların cəmiyyətin gələcək inkişafına töhfə verməsinə yönəlmiş strateji yanaşmalar məcmusudur. Gənclərlə işin təşkilində nəzəri əsaslar müxtəlif sosial və psixoloji yanaşmalarla gənclərin sosiallaşması, fərdi inkişafı və ictimai həyatda fəal iştirakı üçün istiqamətləri müəyyən edir. Metodoloji yanaşmalar isə bu tədqiqatları həyata keçirmək üçün sosioloji, psixoloji və pedaqoji metodlardan istifadə edir. Sosioloji araşdırmalar vasitəsilə gənclərin sosial və siyasi proseslərdəki mövqeləri, psixoloji testlər isə onların fərdi inkişafı və davranışları təhlil edilir. Bu tədqiqatın nəticəsində gənclərlə işin nəzəri və metodoloji yanaşmalarının düzgün tətbiqinin cəmiyyətin davamlı inkişafında mühüm rol oynadığı aşkar edilmişdir. Gənclər siyasətinin uğurlu icrası üçün bu yanaşmaların cəmiyyətin sosial reallıqlarına və gənclərin fərdi ehtiyaclarına uyğunlaşdırılması zəruridir. Nəticədə, dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən həyata keçirilən strategiyalar gənclərin bilik, bacarıq və vətəndaşlıq fəallığının artırılmasına, onların cəmiyyətin aktiv üzvləri kimi formalaşmasına şərait yaradır. Bu yanaşma gənclərə cəmiyyətdə yer tapmaq, müstəqilliyə nail olmaq və əmək bazarına daxil olmaq üçün lazımi imkanlar təqdim edir.

**Açar sözlər:** *Gənclərlə iş, nəzəri yanaşmalar, metodoloji baza, sosiallaşma, konflikt nəzəriyyəsi, mədəni kapital.*

**Мурад Гасанханлы**
*Докторант Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

**РЕЗЮМЕ**

**Организация работы с молодежью: основы теоретических и методологических подходов**

Это исследование посвящено изучению теоретических и методологических основ организации работы с молодежью, подчеркивая важность правильной ориентации молодежи для социального, экономического и политического развития общества. Молодежная политика представляет собой комплекс стратегических подходов, направленных на правильное воспитание молодого поколения и его вклад в будущее развитие общества. Теоретические основы организации работы с молодежью включают различные социальные и психологические подходы, определяющие направления социализации, личностного развития и активного участия молодежи в общественной жизни. Методологические подходы используют социологические, психологические и педагогические методы для проведения этих исследований. Социологические исследования анализируют позиции молодежи в социальных и политических процессах, а психологические тесты оценивают их личностное развитие и поведение. Результаты исследования показывают, что правильное применение теоретических и методологических подходов в организации работы с молодежью играет важную роль в устойчивом развитии общества. Для успешного осуществления молодежной политики необходимо адаптировать эти подходы к социальным реалиям и индивидуальным потребностям молодежи. В результате стратегии, реализуемые государствами и международными организациями, способствуют повышению уровня знаний, навыков и гражданской активности молодежи, что позволяет им стать активными членами общества. Этот подход предоставляет молодежи необходимые возможности для того, чтобы найти свое место в обществе, добиться независимости и выйти на рынок труда.

**Ключевые слова:** *работа с молодежью, теоретические подходы, методологическая база, социализация, теория конфликта, культурный капитал.*

**Murad Hasankhanli**
*PhD candidate at the Academy of Public Administration under the President of the Republic of Azerbaijan*

**SUMMARY**

**Organization of Youth Work: Fundamentals of Theoretical and Methodological Approaches**

This study explores the theoretical and methodological foundations of organizing youth work, emphasizing the importance of properly guiding young people for the social, economic, and political development of society. Youth policy is a set of strategic approaches aimed at the proper upbringing of the younger generation and their contribution to the future development of society. The theoretical foundations of organizing youth work encompass various social and psychological approaches that define the directions for youth's socialization, personal development, and active participation in public life. Methodological approaches employ sociological, psychological, and pedagogical methods to conduct these studies. Sociological research analyzes youth's position in social and political processes, while psychological tests evaluate their personal development and behavior. The results of this research show that the correct application of theoretical and methodological approaches in organizing youth work plays a significant role in ensuring society's sustainable development. For youth policy to be successfully implemented, these approaches must be adapted to social realities and the individual needs of young people. As a result, strategies implemented by states and international organizations contribute to increasing youth's knowledge, skills, and civic engagement, enabling them to become active members of society. This approach provides young people with the necessary opportunities to find their place in society, achieve independence, and enter the labor market.

**Keywords:** *youth work, theoretical approaches, methodological framework, socialization, conflict theory, cultural capital.*

UOT 327; 930.22
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.029

# XARİCİ SİYASƏTİN FORMALAŞMASINDA MİLLİYYƏTÇİLİYİN TƏSİRİ: NƏZƏRİ–KONSEPTUAL YANAŞMA

**FİDAN XƏLİLOVA**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasının doktorantı*

*E-mail: fidan.dia@gmail.com*
*ORCID 0000-0002-5874-119X*

Vestfal sülhündən sonra hüquqi subyekt kimi formalaşmış və müasir beynəlxalq münasibətlər sistemində də əsas aktor olaraq qalan milli dövlətlərin dünya siyasətindəki mövqeyini, rolunu və iştirak səviyyəsini müəyyən edən əsas göstəricilərdən biri, həyata keçirdiyi xarici siyasət kursudur. Dövlətin apardığı siyasət daxili və xarici siyasət olaraq təsnif edilir. Dövlətlərin daxili siyasəti nizamlayıcı prinsiplər (məs: Konstitusiya) əsasında hazırlanır, funksiyaların və səlahiyyətlərin fərqləndirilməsi prosesi ilə həyata keçirilir [20].

Xarici siyasət məfhumu isə ümumi siyasət anlayışında dövlət sərhədlərindən kənarda olan siyasi məkanda fəaliyyətdir [14, s.54]. Bir çox konseptual yanaşmalar xarici siyasəti, əsas etibarilə, daxili siyasətin davamı kimi qiymətləndirir. Lakin xarici siyasətin öz spesifik xüsusiyyətləri gözardı edilməməlidir. Dövlətin xarici siyasətinin xarakteristikası ayrıca təhlil olunmalı, onun istiqamətləri, məqsədləri, prinsipləri, prioritetləri və mexanizmləri daxili siyasətdən asılı olmayaraq dəyərləndirilməlidir.

Xarici siyasət beynəlxalq sistemdə hüquqi subyektlərin sərhədlərindən xaricə çıxmasını təmin edən mücərrəd və konkret fəaliyyət növüdür. Müasir qloballaşan dünyada xarici siyasi fəaliyyəti olmayan dövlət inkişaf edə bilməz. Dövlətin varlığı onun milli maraqlarına xidmət edən daxili və xarici siyasətinin vəhdətindədir [14, s.60]. Dövlət xarici siyasəti o məqsədlə reallaşdırır ki, dünya siyasətinin iştirakçısına çevrilsin, həmçinin beynəlxalq səviyyədə öz təhlükəsizliyini təmin edə bilsin [1, s.155].

Xarici siyasət, dövlətin beynəlxalq arenada, istər regional, istərsə də qlobal miqyasda, milli maraqlarının təmin olunması istiqamətində həyata keçirdiyi fəaliyyət növüdür. Bu fəaliyyətdə siyasi, iqtisadi, mədəni, humanitar, hərbi, təhlükəsizlik və digər sahələri əhatə edən strateji maraqların reallaşdırılması nəzərdə tutulur. Xarici siyasət anlayışına nəzəri-konseptual cəhətdən fərqli baxışları qeyd etmək bu məfhumun daha aydın izah olunması üçün faydalı olacaqdır. Məsələn, xarici siyasəti tədqiq edən politoloq Corc Modelski bu anlayışı tərif edərkən qeyd edir ki, dövlətin bu siyasəti öz fəaliyyətini beynəlxalq mühitə uyğunlaşdırmaq, həmçinin digər dövlətlərin davranışlarına təsir göstərərək vəziyyəti maraqlarının təmin olunması üçün optimal hala gətirməyə hesablanıb [3, s.6].

Dövlətin xarici siyasətinin formalaşmasına və reallaşdırılmasına təsir edən bir sıra amillər vardır ki, hər bir dövlətin xarici siyasətini təhlil edərkən bu meyarlara diqqət etmək labüddür. Belə ki, bu amillər bir çox hallarda xarici siyasətin əsas istiqamət və hədəflərini, o cümlədən tətbiqi mexanizmlərini müəyyən edir. Buna görə də dövlətlərin xarici siyasət kursunu təhlil edərkən strateji əhəmiyyətə malik bir sıra amillər nəzərdən keçirilir. Bu amillərə beynəlxalq sistemin xarakterini, dünyada mövcud olan vəziyyəti, dövlətin milli gücünün kəmiyyət və keyfiyyət göstəricilərini (geosiyasi mövqeyi, hərbi gücü, iqtisadi potensialı, hökumətin tərkibi, diplomatik fəaliyyətin keyfiyyəti, milli xüsusiyyətləri və s.), dövlətlərin ikitərəfli və çoxtərəfli münasibətlərini və s. aid etmək olar. Bundan başqa, xarici siyasətə təsir edən ölkədaxili faktorları da qeyd etmək lazımdır. Bunlara ictimai rəyi, media institutlarının fəaliyyətini, siyasi rejimin xarakterini, milli ideologiyaları, siyasi partiyaları, vətəndaş cəmiyyətinin rolunu və s. misal göstərmək olar. [3, s.6]

Amerikanın siyasət sahəsində görkəmli tədqiqatçısı Ceyms Rozenau 1960-cı illərdə xarici siyasətə təsir edən əsas amilləri beş qrupda birləşdirmişdir:

1. Fərdi amillər (liderlərin şəxsi keyfiyyətləri, siyasətçilərin təcrübəsi, nüfuzu, və s.);
2. Funksional və ya müəyyən bir rola malik olmaq amili;
3. Bürokratik amil (hökumət qurumlarının səlahiyyət dərəcəsi);
4. Sosial-ictimai amillər (cəmiyyətdə mövcud olan dəyərlər, milli birlik hissi, iqtisadi inkişaf səviyyəsi və s.);
5. Digər amillər (geosiyasi reallıqlar, ideoloji xüsusiyyətlər, ölkədə sabitlik və s.)

Dövlətlərin xarici siyasətinə istiqamət verən ən təsirli faktorlardan biri kimi ideologiya amilinə xüsusi diqqət yetirmək lazımdır. İdeologiya anlayışı bir sıra elmi mənbələrdə müxtəlif sosial qrupların mənafelərini ifadə edən, ümumi mənafelər çərçivəsində sosial reallığı izah edən nəzəriyyələr, ideyalar və biliklər sistemi kimi təsvir olunur [3, s.52]. İdeologiya və dəyərlər mikro səviyyədə fərdlərin sahib olduğu inanclar və makro səviyyədə institutlar tərəfindən tətbiq edilən, aşılanan və ya təkrar formalaşdırılan, geniş şəkildə paylaşılan inanclar kimi konseptuallaşdırıla bilər [4].

Cəmiyyətdə ümumi maraqlar və ideyalar əsasında formalaşan milli ideologiyalar müəyyən funksiyalarına görə səciyyələndirilir. Milli ideologiyalar ictimai həmrəylik və bütövlüyü təmin etmək, toplum daxilində harmoniyanın qorunmasına xidmət etmək kimi rollara malik olan baxışlar sistemi şəklində də qeyd edilə bilər. Siyasi ideologiyaların funksiyaları dedikdə, yönləndirmə, səfərbəredici, birləşdirici, maarifləndirici, tərbiyəedici, inteqrativ və kommunikativ funksiyalar nəzərdə tutulur.

Bundan başqa, idelogiyaları bir sıra meyarlara görə təsnif edirlər. Bunlara aşağıdakılar aiddir:

• Sosial mənafeyə münasibəti baxımından;

Bu kateqoriyaya mütərəqqi, mühafizəkar, mürtəce, liberal, radikal, milliyyətçi, beynəlmiləl ideologiyalar daxildir.

• Sosial bazasına görə:

Bu kateqoriyada milli, sinfi qrup və irqi ideologiyalar yer alır.

• Daxili strukturuna görə;

Serbiya Rusiya ilə sıx tarixi və dini bağlılığı olan əsas Balkan ölkələrindən biridir. Rusiya-Ukrayna müharibəsi başlayandan Serbiya NATO və Qərb təzyiqlərinə baxmayaraq, Rusiya ilə siyasi və hərbi əlaqələrini davam etdirməkdə israrlıdır. Moskva ilə enerji, hərbi əməkdaşlıq və iqtisadi münasibətlərin davam etməsi Serbiyanın Rusiyaya sadiq bir tərəfdaş kimi qəbul edilməsinə əsaslar yaradır. Bu isə Qərblə yanaşı Türkiyə üçün də mövcud mürəkkəb münasibətlər çərçivəsində Serbiya ilə əlaqələri qorumaq və balanslı siyasət yürütməkdə çətinliklər doğurur [1].

Serbiya ilə Türkiyənin siyasi əlaqələri son illərdə güclənmişdir, lakin NATO üzvü olan Türkiyə üçün Serbiyanın Rusiya ilə əməkdaşlığı regional dinamikaya təsirsiz ötüşmür. Türkiyə Qərb alyansının üzvü olaraq Balkanlarda "yatmış barıt çəlləyi" hesab edilən Serbiya ilə münasibətlərində daha ehtiyatlı olmağa çalışır. Həm Qərb dairələri, həm də Ankarada hesab edirlər ki, rəsmi Moskvaya təzyiqlər "bıçaq sümüyə dirənən" həddə çatarsa, Kreml Belqradın "düyməsinə basaraq" onun münaqişə potensi-

alından faydalanmağa çalışa bilər. Bütün bunları və digər ehtimalları nəzərə alaraq Ukrayna müharibəsi fonunda Türkiyə, Serbiya ilə iqtisadi əlaqələri gücləndirərək bu ölkənin Qərbə daha çox yaxınlaşmasına dəstək olmağa çalışır.

Bosniya və Herseqovina da Türkiyənin Balkan siyasətində xüsusi yeri olan bir ölkədir. Türkiyə, bu ölkədə yaşayan müsəlman boşnak icmasının güclü dəstəkçisi kimi çıxış edir və etnik-mədəni diplomatiyasından uğurla istifadə edir. Bosniya 1990-cı illərin müharibələrindən sonra hələ də etnik bölünmələrin və qarşıdurmaların potensial təsiri altındadır. Rusiya-Ukrayna müharibəsi Bosniyada da serb azlıq arasında Rusiya təsirini gücləndirmiş və serb icması vasitəsilə Rusiya Balkanlarda öz mövqeyini genişləndirməyə çalışır [2].

Türkiyə Bosniya və Herseqovinada sülhün və sabitliyin qorunmasında NATO və beynəlxalq aktorlarla yaxından əməkdaşlıq edir. Lakin bu ölkədəki bəzi serb millətçiləri və siyasi liderlər Moskvanın təsirinə meyilli olduqları üçün Türkiyənin qarşılaşdığı əsas siyasi problem Bosniya daxilindəki balansı qorumaqdır. Türkiyə Bosniya və Herseqovinada müxtəlif beynəlxalq missiyalarda iştirak edərək regionda hərbi təsirini saxlamağa çalışır. Hələ 2020-ci ilin əvvəlində Türkiyə və Bosniya arasında imzalanan müqaviləyə əsasən, Ankara bosniyalı hərbçilərin təliminə və türk istehsalı müdafiə məhsulları ilə təminatına 21,4 milyon avro hərbi yardım göstərəcəyini öhdəsinə götürüb. Digər bir anlaşma ilə məşhur "Bayraktar TB2" PUA-larının yarı qiymətinə Sarayevoya verilməsi razılaşdırılıb. Təsadüfi deyil ki, Bosniya lideri məhz Türkiyə PUA-sı ilə şəklini paylaşaraq ölkədəki Rusiya meyilli separatçı qismə nəzərən "birliyimizi pozmaq istəyənlər qarşısında bunu görəcək" yazmışdı. Bundan əlavə Bosniya və Herseqovina ilə Türkiyə 2023-cü ildə hərbi əməkdaşlıq planı imzalayıb. Paralel olaraq Ankara iqtisadi, mədəni, humanitar layihələrlə həm müsəlman qismə, həm də digər icmalara dəstək verir və onların tam olaraq Moskvanın orbitinə meyillənməsi cəhdlərini balanslaşdırır [3].

Beynəlxalq birlik tərəfindən hələ də tam tanınmayan Kosovo da Balkan regionunda ən həssas siyasi mövzulardan biri olaraq qalır. Kosovo 2008-ci ildə müstəqilliyini elan etdikdən sonra Serbiya və Rusiya tərəfindən tanınmamışdır. Türkiyə Kosovonun müstəqilliyini dərhal tanımış və bu ölkənin beynəlxalq aləmdə daha geniş tanınması üçün fəal diplomatik dəstək göstərmişdir. Türkiyə həmçinin Kosovo Silahlı Qüvvələrinin qurulması və müdafiə qabiliyyətinin artırılması sahəsində də mühüm rol oynayır.

Rusiya-Ukrayna müharibəsi Kosovoda da ciddi narahatlıqlar yaratmışdır, çünki Rusiya Serbiya ilə əməkdaşlıq edərək, Kosovonun beynəlxalq səviyyədə tanınmasına mane olmaqla qalmır, həmçinin vaxtaşırı Belqrad vasitəsilə bölgədə vəziyyəti gərginləşdirməyə davam edir. Bütün bu risklər fonunda Türkiyə Kosovoda sülh və təhlükəsizliyi qorumaq məqsədilə NATO çərçivəsində missiyalarda iştirakını davam etdirir. Eyni zamanda regionda sabitliyi qorumaq üçün Serbiya və Kosovo arasında diplomatik danışıqlara dəstək vermək də Türkiyə üçün mühüm siyasi prioritetdir [4].

Şimali Makedoniya, NATO üzvü olaraq Türkiyə ilə sıx əməkdaşlıq edən Balkan ölkələrindən biridir. Şimali Makedoniya həmçinin Avropa İttifaqı ilə inteqrasiya prosesindədir və bu, Türkiyə üçün regionda Aİ ilə əlaqələri gücləndirmək üçün bir platforma yaratmışdır. Rusiya-Ukrayna müharibəsi fonunda Türkiyə Şimali Makedoniya ilə təhlükəsizlik və iqtisadi əlaqələrini genişləndirmək məqsədilə hərbi və iqtisadi əməkdaşlıq proqramlarını davam etdirir.

Türkiyə, Şimali Makedoniyanın NATO-ya üzv olmasını dəstəkləmiş və bu ölkənin ordusunun hazırlıq səviyyəsinin artırılması məqsədilə hərbi dəstəyini əsirgəmir.. Türkiyə ilə Şimali Makedoniya arasında 2021-ci ildə imzalanan Hərbi Təlim və Əməkdaşlıq Sazişi çərçivəsində hər iki ölkə müdafiə sənayesi sahəsində əməkdaşlıq və hərbi təlimlər keçirir. Bu saziş çərçivəsində Şimali Makedoniya hərbçiləri Türkiyədə təlim alır, türk hərbi müşavirləri isə Şimali Makedoniya silahlı qüvvələrinə texniki və taktiki dəstək verir. Türkiyə həmçinin Şimali Makedoniyaya hərbi-texniki dəstək, o cümlədən xüsusi müdafiə vasitələri və ləvazimatları verir. Bu yardımın əhəmiyyətli bir hissəsini Türkiyənin müdafiə sənayesi tərəfindən istehsal olunan yüngül silahlar, hərbi geyimlər və maddi-texniki dəstək materialları təşkil edir. Həmçinin Türkiyə müdafiə sənayesi şirkətlərinin artıq paytaxt Skopyedə filial və nümayəndəliklərinin açılmasına başlanmışdır.

Rusiya regionda öz təsirini genişləndirməyə çalışdığı bir mərhələdə Türkiyə Şimali Makedoniya kimi kiçik NATO üzvləri ilə daha sıx əməkdaşlıq etməklə bu ölkənin kövrək təhlükəsizlik arxitekturasının möhkəmlənməsinə dəstək göstərir. Sözügedən

ölkə ilə əməkdaşlıq həmçinin Türkiyənin Avropa İttifaqı ilə əlaqələrini gücləndirməyə imkan verir [5].

Albaniya Türkiyə üçün Balkanlarda mühüm strateji tərəfdaşlardan biridir. Bu ölkə ilə Türkiyə arasındakı iqtisadi və siyasi əlaqələr xüsusilə enerji və ticarət sahələrində güclüdür. Albaniya həmçinin NATO üzvüdür və bu baxımdan Türkiyə ilə təhlükəsizlik sahəsində sıx əməkdaşlıq edir. Balkan regionunda Türkiyə PUA-larını ilk əldə edən ölkələrdən biri məhz Albaniyadır və bu, münasibətlərdəki etimadın göstəricisi sayıla bilər. Rusiya-Ukrayna müharibəsi Albaniyanın da enerji təhlükəsizliyinə təsir göstərmiş və Türkiyə bu ölkəyə enerji layihələri ilə dəstək vermişdir.

Albaniya həmçinin TANAP və TAP enerji layihələrində yaxından iştirak edir, bu da Türkiyəyə Balkanlarda enerji təsirini artırmağa imkan verir. Türkiyə, Albaniya ilə hərbi sahədə də əməkdaşlığını genişləndirir və bu ölkədə müdafiə sənayesi layihələrini həyata keçirir. Albaniyanın Avropaya inteqrasiya prosesində Türkiyə onun əsas dəstəkçilərindən biri kimi çıxış edir və bu, regionda siyasi mövqelərini gücləndirir [6].

Monteneqroya gəldikdə qeyd etməliyik ki, Balkan regionunda kiçik, lakin strateji əhəmiyyətə malik bir ölkədir. 2017-ci ildə NATO-ya üzv olan Monteneqro regionda Qərbin təsirini gücləndirmək baxımından vacib rola sahibdir. Monteneqro ilə Türkiyə arasında müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıq NATO çərçivəsində davam edir. Bununla yanaşı, Monteneqro, Türkiyə üçün turizm, ticarət və investisiya sahələrində də mühüm tərəfdaşlardan biridir.

Rusiya-Ukrayna müharibəsi Monteneqronun xarici siyasətində xüsusilə yeni çağırışlar yaradıb, çünki Rusiya bu ölkədəki investisiyalar və turizm sahəsindəki çox böyük paya sahib idi. Bütün bu iqtisadi risklərə rağmən ölkə Serbiyadan fərqli olaraq Rusiyaya qarşı sanksiyalara qoşulmağa qərar verib. Ukrayna böhranı fonunda Türkiyə, Monteneqro ilə həm NATO çərçivəsində hərbi əlaqələrini, həm də iqtisadi sahədə tərəfdaşlığını gücləndirmək üçün səylərini artırır. Monteneqronun Qərbə inteqrasiyasına dəstək verən Türkiyə, bu ölkənin enerji və turizm sahəsindəki potensialını artırmaq üçün regional layihələrdə fəal iştirak edir [8].

Regionun digər ölkəsi Sloveniya həm AB, həm də NATO üzvü olan Balkan dövlətidir. Türkiyə ilə Sloveniya arasında diplomatik və iqtisadi əlaqələr yaxşı səviyyədədir, lakin bu əlaqələr, məsələn, Xorvatiya və Monteneqro ilə müqayisədə daha az intensivdir. Bununla belə, Sloveniyanın Avropa İttifaqının fəal üzvlərindın olması Türkiyəyə Aİ ilə münasibətlərini genişləndirmək və Balkan regionunda daha güclü iqtisadi inteqrasiya yaratmaq baxımından əhəmiyyətli imkanlar təklif edir.

Rusiya-Ukrayna müharibəsi davam edərkən Sloveniya da Qərbin sanksiyalarına dəstək verir və Türkiyə bu kontekstdə Sloveniyaya enerji təhlükəsizliyi, müdafiə sahəsində əməkdaşlıq imkanları təklif edir. Hər iki ölkə arasında turizm, ticarət və mədəniyyət sahələrində əlaqələrin genişləndirilməsi potensialı böyükdür və Türkiyə Sloveniya ilə bu sahələrdəki əməkdaşlığı daha da gücləndirməyə çalışır [9].

Bolqarıstan Türkiyənin Balkanlarda ən yaxın qonşularından biri kimi xüsusi əhəmiyyət daşıyır. Hər iki ölkə arasında tarixi, mədəni və iqtisadi əlaqələr güclüdür. Bolqarıstan həm Avropa İttifaqı, həm də NATO üzvüdür və bu fakt Türkiyə ilə strateji əlaqələr üçün əhəmiyyətli zəmin yaradır. Bolqarıstanın Türkiyə ilə enerji tranziti və regional təhlükəsizlik məsələlərində əməkdaşlığı mühüm əhəmiyyət kəsb edir.

Rusiya-Ukrayna müharibəsi kontekstində Bolqarıstanın mövqeyi AB və NATO ilə sıx bağlılıq və Rusiyadan enerji asılılığını azaltmaq istiqamətində cəhdlərdən ibarətdir. Bolqarıstan Qərb sanksiyalarına dəstək verməklə yanaşı Türkiyə ilə enerji sahəsində daha geniş əməkdaşlıq imkanlarını araşdırır. Bu xüsusda Türkiyə tranzit ölkə olaraq Azərbaycan qazının Bolqarıstana nəqli və ölkənin enerji təhlükəsizliyi məsələsində fəal dəstəyini göstərir. Eyni zamanda Türkiyə, Bolqarıstan vasitəsilə Avropaya qaz nəqli layihələrində önəmli rol oynayır və bu ölkə ilə ikitərəfli ticarət əlaqələrini gücləndirir [10].

Regionda Türkiyənin ən problemli münasibətlər konfiqurasiyasına malik Yunanıstanın mövqeyi Rusiya-Ukrayna müharibəsi məsələsində tamamilə Qərbin tərəfindədir. Avropa İttifaqının və NATO-nun üzvü olan Yunanıstan Rusiyaya qarşı sanksiyaları tam şəkildə dəstəkləyir. Yunanıstanın bu müharibədə tutduğu mövqe Türkiyənin Balkan siyasətində də bəzi gərginliklər yaratmışdır, çünki Yunanıstan Rusiyaya qarşı Qərb alyansının gücləndirilməsi üçün fəal şəkildə çalışır. Ankaranın Moskva ilə balanslı siyasəti ilə müqayisədə Afinanın birmənalı əks mövqeyi iki ölkə arasında regional məsələlərə yanaşmada bəzən ziddiyyətlərə gətirib

çıxarır. Lakin NATO çərçivəsində hər iki ölkənin təhlükəsizlik sahəsində əməkdaşlıq etməsi regional sabitlik baxımından mühüm əhəmiyyət daşıyır. Eyni zamanda, Rusiya-Ukrayna müharibəsi Balkanlarda enerji təhlükəsizliyi məsələsini ön plana çıxarıb və Yunanıstan enerji tranzit yolları və layihələrində vacib rol oynaya bilər ki, bu da Türkiyə ilə münasibətlərdə yeni imkanlar deməkdir. Yunanıstanın Türkiyə ilə birgə Avropaya gedən enerji xətlərinə ev sahibliyi etməsi iki ölkənin rəqabət və ixtilafları əməkdaşlıq və proqressiv yanaşmalarla balanslaşdırdığının göstəricisi sayıla bilər [11].

## Nəticə

Rusiya-Ukrayna müharibəsi beynəlxalq münasibətlər sistemində ciddi dəyişikliklərə səbəb olmaqla yanaşı, Balkan regionunda da geosiyasi dinamikaları sürətlə yenidən formalaşdırmışdır. Bu kontekstdə Türkiyənin Balkan siyasəti yeni çağırışlarla üzləşmiş, regional güc balansı, təhlükəsizlik siyasətləri və iqtisadi əlaqələr baxımından kompleks bir mərhələyə qədəm qoymuşdur.

İlk növbədə, müharibə nəticəsində Qərb ölkələrinin Balkanlara yönəlik siyasətləri daha aktiv fazaya keçmişdir. Avropa İttifaqı və NATO Rusiyanın regiondakı təsirini azaltmaq məqsədilə Balkan ölkələri ilə daha sıx əməkdaşlıq əlaqələri qurmağa çalışmış, bu da Türkiyənin regiondakı manevr imkanlarına birbaşa təsir etmişdir. Türkiyə bir NATO üzvü kimi bu prosesin bir hissəsi olmaqla yanaşı, eyni zamanda Rusiya ilə münasibətlərini qorumağa çalışaraq balanslaşdırıcı siyasət yeritmişdir. Bu balansı saxlamaq isə Ankaranın regional təsirini davam etdirmək baxımından həm fürsətlər, həm də çətinliklər yaratmışdır.

İkincisi, müharibə enerji təhlükəsizliyi və ticarət marşrutları məsələsini daha da ön plana çıxarmışdır. Türkiyə Balkanlarda enerji tranziti və tədarük zəncirlərinin idarə olunmasında vacib rol oynayan bir aktor kimi mövqeyini gücləndirməyə çalışmışdır. TANAP və TAP kimi layihələr bu çərçivədə mühüm əhəmiyyət kəsb etmiş, eyni zamanda Ankara ilə region ölkələri arasında yeni enerji əməkdaşlığı imkanlarını ortaya çıxarmışdır. Bununla belə, müharibənin yaratdığı qeyri-müəyyənliklər və Avropa İttifaqının enerji siyasətində baş verən dəyişikliklər Türkiyənin Balkanlardakı enerji strategiyasına uzunmüddətli təsirlər göstərmişdir.

Üçüncüsü, Türkiyənin Balkanlarda "yumşaq güc" (soft power) siyasəti də yeni çağırışlarla qarşılaşmışdır. Mədəni və dini bağlar əsasında həyata keçirilən siyasət, müharibənin doğurduğu siyasi qütbləşmə fonunda müəyyən təzyiqlərə məruz qalmışdır. Xüsusilə, Türkiyənin Bosniya və Herseqovina, Albaniya, Şimali Makedoniya və Serbiya kimi ölkələrlə münasibətləri strateji əhəmiyyət kəsb etsə də, Qərbin regiondakı təsirini artırmaq cəhdləri və Rusiyanın siyasi-hərbi təsir dairəsi bu əlaqələrin inkişafına təsir edən mühüm amillər olmuşdur.

Bununla yanaşı, Türkiyənin Balkanlardakı diplomatik fəallığı və iqtisadi əlaqələri regionda mühüm strateji vasitə rolunu oynamağa davam etmişdir. Ankara, Balkan ölkələri ilə ticarət həcmini artırmaq, investisiya imkanlarını genişləndirmək və infrastruktur layihələrinə dəstək verməklə regionda mövqeyini gücləndirməyə çalışmışdır. Lakin bu proses, müharibənin yaratdığı qeyri-sabitlik, inflyasiya təzyiqləri və Avropa İttifaqının iqtisadi siyasətində baş verən dəyişikliklər fonunda bəzi çətinliklərlə qarşılaşmışdır.

Ümumilikdə, Rusiya-Ukrayna müharibəsi Türkiyənin Balkan regionundakı siyasətinə həm yeni imkanlar, həm də risklər yaratmışdır. Türkiyə bir tərəfdən geosiyasi balans siyasəti yürüdərək həm Qərblə, həm də Rusiya ilə münasibətlərini qorumağa çalışmış, digər tərəfdən isə Balkan ölkələri ilə iqtisadi, siyasi və mədəni əlaqələrini dərinləşdirmək üçün müxtəlif vasitələrdən istifadə etmişdir. Bununla belə, müharibənin yaratdığı qeyri-müəyyənliklər, Qərbin regionda daha fəal siyasət yürütməsi və Rusiya ilə bağlı risklər Türkiyənin Balkanlardakı siyasətinin gələcəyini müəyyənləşdirən əsas amillərdən biri olmuşdur.

Nəticə etibarilə, Türkiyənin Balkanlarda davamlı və uğurlu siyasət yürütməsi üçün çevik və praqmatik yanaşma tətbiq etməsi vacibdir. Ankara balans siyasətini qoruyaraq, həm Avropa İttifaqı və NATO ilə əməkdaşlığını gücləndirməli, həm də Rusiya ilə əlaqələrini diqqətlə idarə etməlidir. Bundan əlavə, Türkiyənin Balkanlarda iqtisadi və mədəni təsirini artırmaq üçün strateji investisiyalar və diplomatik təşəbbüslərini genişləndirməsi uzunmüddətli perspektivdə regionda daha güclü mövqeyə sahib olmasına şərait yarada bilər.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Uysal, Ahmet. "Türkiye'nin Balkan Siyaseti ve Sırbistan ile İlişkiler." Balkanlar ve Türkiye (2022).*

*2. Akgün, Mensur. "Bosna-Hersek'te Barış ve Türkiye'nin Rolü." Uluslararası Stratejik Araştırmalar Merkezi, 2023.*

*3. Gürbüz, Mustafa. "Balkanlarda Etnik Çatışmalar ve Türkiye'nin Barış Girişimleri." Ortadoğu Analiz (2022).*

*4. Demirtaş, Birgül. "Kosova Sorunu ve Türkiye'nin Uluslararası Tanıma Sürecine Katkıları." Türk Dış Politikası Yıllığı, 2023.*

*5. Öztürk, Mehmet. "Kuzey Makedonya ve Türkiye İlişkileri: NATO Çerçevesinde Güvenlik Politikaları." Balkan Gözlem Dergisi (2022).*

*6. Yılmaz, Oğuz. "Türkiye-Albanya İlişkileri: Enerji ve Ticaret İşbirliği." Türkiye Ekonomi Politikaları Araştırma Vakfı, 2023.*

*7. Kaya, Ali. "Türkiye ve Hırvatistan İlişkileri: Avrupa Birliği ve NATO Çerçevesinde Yeni İşbirliği İmkanları." Balkan Strateji Dergisi (2023).*

*8. Şen, Cengiz. "Türkiye ve Karadağ: Küçük Bir Ülkede Büyük Stratejik Fırsatlar." Uluslararası İlişkiler ve Strateji (2023).*

*9. Aydın, Mehmet. "Türkiye ve Slovenya: AB ve NATO İlişkileri Çerçevesinde İkili İşbirliği." Avrupa ve Balkan Araştırmaları Dergisi (2022).*

*10. Yılmaz, Orhan. "Türkiye-Bolqarıstan İlişkileri: Stratejik İşbirliği ve Yeni Fırsatlar." Balkan Araştırmaları Dergisi (2023).*

*11. Kıran, Abdullah. "Türkiye ve Yunanistan: Ege'den Balkanlara Gerginlik ve İşbirliği Olanakları." Doğu Akdeniz Stratejik Araştırmalar Merkezi (2023).*



## XÜLASƏ

Rusiya-Ukrayna müharibəsi Balkan regionunda geosiyasi tarazlıqları dəyişdirərək Türkiyənin bu bölgədəki siyasətinə yeni çağırışlar gətirmişdir. Müharibə nəticəsində NATO və Avropa İttifaqının Balkanlardakı fəallığı artmış, Rusiya ilə Qərb arasındakı rəqabət dərinləşmişdir. Bu vəziyyət Türkiyənin regional strategiyasına birbaşa təsir göstərmiş, Ankaranı həm Qərblə, həm də Rusiya ilə balanslaşdırıcı siyasət yürütməyə məcbur etmişdir.

Enerji təhlükəsizliyi, ticarət marşrutları və iqtisadi əlaqələr Türkiyənin Balkanlardakı mövqeyini gücləndirmək üçün mühüm vasitələr olmuşdur. TANAP və TAP kimi layihələr Türkiyənin enerji siyasətində mühüm rol oynamış, lakin müharibənin doğurduğu qeyri-müəyyənliklər bu sahədə çətinliklər yaratmışdır. Bundan əlavə, Türkiyənin "yumşaq güc" (soft power) strategiyası, xüsusilə dini və mədəni bağlar vasitəsilə Balkan ölkələri ilə əlaqələrini möhkəmləndirməyə yönəlmişdir.

Ankara Balkanlarda ticarət və investisiya imkanlarını genişləndirməyə çalışsa da, müharibənin yaratdığı iqtisadi qeyri-sabitlik və Avropa İttifaqının yeni siyasətləri müəyyən çətinliklər yaratmışdır. Türkiyə regionda uzunmüddətli təsirini qorumaq üçün həm diplomatik çeviklik nümayiş etdirməli, həm də iqtisadi və strateji maraqlarını tarazlaşdırmalıdır.

Nəticə etibarilə, Rusiya-Ukrayna müharibəsi Türkiyənin Balkan regionundakı siyasətində həm yeni fürsətlər, həm də ciddi risklər meydana çıxarmışdır. Ankaranın bu çətinlikləri uğurla aşması üçün çevik diplomatiya, güclü iqtisadi əlaqələr və strateji balans siyasəti yürütməsi vacibdir.


**Açar sözlər:** *Türkiyə; Balkan; Rusiya; Ukrayna; geosiyasət; təhlükəsizlik.*

**Эльгюн Ибрагимов,**
***Бакинский Славянский Университет, докторант по международным отношениям***


## РЕЗЮМЕ

Российско-украинская война изменила геополитический баланс в Балканском регионе, поставив перед Турцией новые вызовы. В результате войны активность НАТО и Европейского Союза в Балканах возросла, а соперничество между Россией и Западом обострилось. Эта ситуация напрямую повлияла на региональную стратегию Турции, вынудив Анкару проводить балансирующую политику как в отношениях с Западом, так и с Россией.

Энергетическая безопасность, торговые маршруты и экономические связи стали важными инструментами укрепления позиций Турции на Балканах. Такие проекты, как TANAP и TAP, сыграли ключевую роль в турецкой энергетической политике, однако неопределенность, вызванная войной, создала определенные трудности в этой сфере. Кроме того, стратегия Турции, основанная на использовании «мягкой силы» (soft power), особенно через религиозные и куль-

турные связи, была направлена на укрепление отношений с балканскими странами.

Анкара стремится расширять торговые и инвестиционные возможности на Балканах, однако экономическая нестабильность, вызванная войной, а также новая политика Европейского Союза создали дополнительные препятствия. Чтобы сохранить свое долгосрочное влияние в регионе, Турции необходимо демонстрировать дипломатическую гибкость и находить баланс между экономическими и стратегическими интересами.

Таким образом, российско-украинская война принесла как новые возможности, так и серьезные риски для турецкой политики на Балканах. Для успешного преодоления этих вызовов Анкаре необходимо проводить гибкую дипломатическую стратегию, укреплять экономические связи и придерживаться политики стратегического баланса.

**Ключевые слова:** *Турция; Балканы; Россия; Украина; геополитика; безопасность.*

**Elgun Ibrahimov,**
***Baku Slavic University, PhD Candidate in International Relations***

## SUMMARY

The Russia-Ukraine war has reshaped geopolitical balances in the Balkan region, introducing new challenges to Turkey's policy in the area. As a result of the war, NATO and the European Union have intensified their engagement in the Balkans, deepening the competition between Russia and the West. This situation has directly impacted Turkey's regional strategy, compelling Ankara to pursue a balancing policy between both the West and Russia.

Energy security, trade routes, and economic relations have been key instruments in strengthening Turkey's position in the Balkans. Projects such as TANAP and TAP have played a crucial role in Turkey's energy policy; however, the uncertainties caused by the war have created difficulties in this sector. Additionally, Turkey's soft power strategy, particularly through religious and cultural ties, has been aimed at deepening its relations with Balkan countries.

Although Ankara has sought to expand trade and investment opportunities in the Balkans, economic instability caused by the war and new policies adopted by the European Union have presented certain challenges. To maintain its long-term influence in the region, Turkey must demonstrate diplomatic flexibility while balancing its economic and strategic interests.

In conclusion, the Russia-Ukraine war has created both new opportunities and significant risks for Turkey's policy in the Balkan region. To successfully navigate these challenges, Ankara must adopt a flexible diplomatic approach, strengthen economic ties, and maintain a strategic balance.

**Keywords:** *Turkey; Balkans; Russia; Ukraine; geopolitics; security.*

UOT 327;930.22
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.047

# FOREIGN POLICY PRIORITIES OF AZERBAIJAN

**JOVHAR MUSEYIBZADA**
*PhD Candidate, Fergana State University, Uzbekistan*

*E-mail: jovharmuseyibzada@pf.fdu.uz*
*ORCID: 0009-0001-6059-2613*

## Introduction

Main task of a state's foreign policy involves forming long-term strategic programs based on its strength, resources, geography (i.e. positions of regional and neighboring states) and global standing. These strategic plans form the state's foreign policy priorities, which are constantly refined and categorized to address key issues over time [9, p. 299].

Particularly, foreign policy of 'rising minor powers' is heavily influenced by domestic factors, external realities and capacity constraints [2; 14; 17]. Rising powers (RPs) face more constraints than developed nations, limiting their policy options and leading to prioritization in foreign policy [2]. Although foreign policy helps states assert independence and identity, rising powers are more vulnerable to external pressures and tend to spend resources on priority political actions in their foreign policy [11; 14].

Prioritization allows RPs to concentrate their financial, administrative, and political resources on specific areas where they can make a significant impact [12, pp. 5–]). By focusing on a few critical issues, states develop issue-specific power. For instance, within the European Union, small states have been proactive in negotiations where their economic and political interests are at stake, often prioritizing between policy areas to maximize their influence [19, pp. 659–660].

In this respect, multilateralism is considered indispensable for RPs as a means to advance their foreign policy priorities by the help of strategies like prioritization and coalition-building [18, p. 9]. Within international bodies, RPs focus on policy areas of great importance or on direct benefits that are likely to compensate for their lack of overall structural power [18, p. 2].

In this article, the author will lay out the determinants of Azerbaijan's foreign policy, elaborating on what resources the country uses and what factors shape its foreign policy, and understand what kind of foreign policy strategies it pursues.

## Azerbaijan's Foreign Policy Determinants and Priorities

Azerbaijan's foreign policy is significantly shaped by its geopolitical location and abundant hydrocarbon resources. Azerbaijan's vast hydrocarbon resources are backbone of its foreign policy, equally determining political and economic relations of the country. The export of these resources has enabled Azerbaijan to maintain a balanced foreign policy with numerous international players. To give 'neutral' tone to its balanced foreign policy, Azerbaijan even took the decision to join the Non-Aligned Movement in 2011, allowing Baku to stay equally distant to Western and Russian-led security organizations [7, p. 101].

Azerbaijan's strategic geographic position makes it a key player in regional integration projects of politico-economic nature such as the European Union's initiatives, the Eurasian Economic Union (EEU), and China's Belt and Road Initiative. Nevertheless, Azerbaijan maintains a balanced stance, hoping to derive greater benefits from a non-aligned position [20, pp. 29–30]. This policy is enshrined in the National Security Concept of Azerbaijan, announced in 2017, which states that "the Republic of Azerbaijan implements a multifaceted and balanced foreign policy."

Located at the crossroads of Europe and Asia, Azerbaijan finds itself in an advantageous as well as complex regional environment. The country has to pursue delicate and balanced foreign policy, being at the intersection of Russian led Commonwealth of Independent States (CIS), Economic Cooperation Organization influenced by Iran, and the Organization of Turkic States under Turkey's strong protection [9, p. 312]. Therefore, balanced regional policy is a vital determinant of Azerbaijan's security, hence foreign policy. According to one policy paper, Baku needs to maintain a multilateral foreign policy and balance between various actors to resolve frozen conflicts with neighbors and prevent new tensions [15, p. 3].

The concept of a balanced foreign policy or rather a 'multi-vectorism' was introduced by Heydar Aliyev in the early 1990s as a strategy of survival amid acute crises and threats to the nation's existence [16, pp. 3–4]. This multi-vector approach has been pivotal for Azerbaijan's foreign policy, focusing on equal engagement with various international actors while carefully abstaining from complete dependency on any single power bloc.

During interview, Haydar Aliyev summarized his vision of foreign policy, as "You have to take into consideration the interests of every country. You cannot be friends with some countries and enemies with others despite the fact that this is the way most countries function. Azerbaijan does not want to be an enemy with any country. At the same time, we will not become victim to another country's policies. Azerbaijan has its own independent policy [3]."

On the other hand, President Ilham Aliyev offered slightly different vision of the foreign policy with less enthusiasm to name it as 'balanced'. In an interview, Aliyev emphasized that Azerbaijan's foreign policy is not about balancing interests among various powers but is fundamentally driven by national interests to minimize risks and maximize benefits. Aliyev stated, "We are not seeking a balance. We simply protect our national interests [4]…" This echoes with political analysis that "Azerbaijan makes episodic decisions based on its interests without crossing redlines [1]."

One of the first prominent documents in the area of foreign policy is the "National Security Concept of the Republic of Azerbaijan", adopted in May 2007. It emphasizes the state's independence, territorial integrity, and democratic development, with a strategic focus on integration into the Euro-Atlantic space and maintaining a balanced foreign policy.

Azerbaijan aims to contribute to the Euro-Atlantic security architecture while sharing progressive European values and Islamic cultural heritage. The concept prioritizes restoring territorial integrity, integrating into European and Euro-Atlantic security structures (i.e. NATO). In this regard, the concept declares the readiness of Azerbaijan to contribute to the unified security system in Europe, warning against geographical and political friction of security within Europe.

Participation within international organizations is also considered a top priority in the concept: "Active participation of the Republic of Azerbaijan in the work of international organizations is of great importance for its security and foreign policy… international organizations, in addition to helping to eliminate or prevent threats, create opportunities to protect the national interests of the Republic of Azerbaijan in global politics [6]."

In his October 1993 speech at the swearing-in ceremony, President Heydar Aliyev emphasized the importance of ensuring Azerbaijan's state independence through foreign policy [10]. He advocated for equal, mutually beneficial relations with all countries. Aliyev highlighted the need to use international organizations like the UN and OSCE to resolve the Nagorno-Karabakh conflict and reclaim occupied territories, ensuring Azerbaijan's sovereignty and territorial integrity.

Similarly, the "Military Doctrine of the Republic of Azerbaijan", adopted in June 2010, outlines the factors affecting regional security, such as geopolitical instability, unresolved conflicts (i.e. separatism), and threat to economic interests (i.e. sabotage of energy infrastructure). The doctrine highlights the occupation of Azerbaijani territories by Armenia and its negative impact on national security by causing economic and social destruction. It stresses the importance of "condemnation and isolation of the aggressor by international organizations and all states [5]."

In contrast to the National Security Concept of 2007, the Military Doctrine of Azerbaijan does not explicitly use the word "integration" to depict future relations between Euro-Atlantic institutions and Azerbaijan. According to the doctrine Azerbaijan supports "efforts to create a security system in the Euro-Atlantic space, including the region where the Republic of Azerbaijan is located [8]…"

In his speech at the 5th session of the heads of Azerbaijani diplomatic services in July 2014, President Ilham Aliyev discussed the evolution of Azerbaijan's foreign policy. While, in the early years of independence, foreign policy focused on European and Western partnerships due to economic interests of the West, particularly in the oil and gas sector of Azerbaijan, the new shift recently occurred toward developing relations with Asian countries in 2010s [13].

However, a real paradigm shift is currently taking place in Azerbaijan's foreign policy priorities

as the existential problem of securing territorial integrity has been solved following the Second Karabakh War in 2020. For the rising power, occupation posed enormous security threat and the burden of this security crisis was reflected in all foreign policy documents of the republic up until 2020. Moreover, the occupation had deep moral, economic and societal implications (i.e. having more than a million refugees and internally displaced persons in Azerbaijan) which further necessitated lasting solution taking Azerbaijan's demands into account.

After full restoration of state sovereignty over Karabakh, new opportunities and realities are arising as Azerbaijan is involved in the reconstruction of Karabakh under the concept of "Great Return" (Böyük Qayıdış). Thus, Azerbaijan's foreign policy priorities are experiencing major evolution, the end results and ramifications of which are still unfolding.

First attempts to reshape and diversify its foreign policy priorities after the Second Karabakh War can be observed in the "Azerbaijan 2030: National Priorities for Socio-Economic Development" document adopted in February 2021. This framework urges the country to effectively cooperate with leading international organizations and specialized consulting companies. It aims to attract direct foreign investment, particularly from strategic investors in infrastructural sectors, to bolster Azerbaijan's economic development and reform initiatives, especially in regained territories.

At this point, it is helpful to concisely illustrate the priorities themselves. Take note that the author lists those priorities based on the analysis of foreign policy documents, literature review and study of Azerbaijan's actions within international organizations. Also, this list does not suggest hierarchical order of priorities, although until very recently "settlement of the Karabakh conflict" was on the top of the list.

1. Resolution of the Karabakh conflict: Azerbaijan mobilized all its efforts to protect and strengthen its sovereignty and territorial integrity within internationally recognized borders.

2. Post-conflict recovery of Karabakh: The settlement of the Karabakh conflict is evidently replaced by this foreign policy priority. The policy focuses on the reconstruction and development of liberated territories.

3. Energy, trade and transportation: Develop multilateral economic relations and implement Azerbaijan's energy and transport strategy. Foster trade and energy connectivity, promoting regional infrastructure projects to position Azerbaijan as a link between Europe and Asia.

4. Integration into Euro-Atlantic structures and defense enhancement: Azerbaijan pursues strategic integration into Euro-Atlantic security, economic and, to a lesser degree, political institutions. The main priority is to build defense capabilities through cooperation with NATO, ultimately reaching NATO standards. However, overall integration into Euro-Atlantic institutions is overshadowed by the country's opening up to other regions and international organizations as the world's 'economic and military centers' shift.

5. Cooperation with international organizations and all other states: Establish and maintain good relations with regional countries and achieve a wide representation in international, regional, economic, scientific, technical, cultural, humanitarian, and other organizations.

## Discussion and Conclusion

Azerbaijan's foreign policy has been chronically shaped by the conflict with Armenia and the need to maintain territorial integrity, which affect the country's diplomatic strategies and overwhelm its resources. Azerbaijan's incessant search for new platforms to convey the realities about Armenian occupation deserves attention. For this reason alone, Azerbaijan used all diplomatic means, insisting on the inclusion of the Karabakh issue in several documents of international relevance.

Therefore, one of the foremost priorities for Azerbaijan is the restoration of its territorial integrity and subsequently the reconstruction of liberated territories – Nagorno-Karabakh and 7 adjacent districts. After gaining control of its territories in the Second Karabakh War in 2020, Azerbaijan has focused on rebuilding infrastructure and ensuring the safe return of displaced persons.

Economically speaking, Azerbaijan seeks to enhance trade and energy cooperation, aiming to diversify transportation routes and become an architecture of the regional connectivity as a transit hub. The country's active participation in projects led by international organizations underlines its willingness to developing modern transport and energy

transmission networks, which are crucial for regional economic growth. Azerbaijan acknowledges that 'economic matters' constitute a crucial component of cooperation within international organization.

In fact, Azerbaijan's foreign policy is heavily influenced by its geopolitical location and natural resources. Azerbaijan leverages its position, being located at the crossroads of regional and global trade routes, to enhance its strategic significance and economic potential. On the other hand, hydrocarbon resources have been a determining factor in Azerbaijan's foreign policy direction. Large reserves of oil and gas in Azerbaijan became major drivers of its energy diplomacy and economic initiatives.

Overall, Azerbaijan's 'balanced' regional policy demonstrates the country's strategic adaptation to regional and global dynamics. This policy aims to maximize national interests, ensure security, and foster economic development while maintaining a degree of independence and sovereignty in Azerbaijan's international relations.

## BIBLIOGRAPHY

*1. Abilov S and Hajiyev B (2019) Why the Neutrality of*

*Azerbaijan Is Important for the European Union. Insight Turkey 21 (3). SET VAKFI İktisadi İşletmesi, SETA VAKFI: 53–67.*

*2. Adnan M (2014) Foreign Policy and Domestic Constraints:*

*A Conceptual Account. South Asian Studies. Epub ahead of print 1 July 2014.*

*3. Aliyev H (1999) Azerbaijan's President, Heydar Aliyev.*

*Looking Back on the Century - Personally and Professionally. Available at: https://www.azer.com/aiweb/categories/magazine/74_folder/74.articles/74_aliyev3.html (accessed 1 July 2024).*

*4. Aliyev I (2019) Ilham Aliyev was interviewed by Real TV. Available at: https://president.az/en/articles/view/31826 (accessed 24 June 2024).*

*5. Azərbaycan Respublikasının Hərbi doktrinası (2010). Available at: https://anl.az/down/meqale/azerbaycan/2010/iyun/124735.htm.*

*6. Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasının təsdiq edilməsi haqqında (2007). Available at: https://e-qanun.az/framework/13373 (accessed 30 March 2024).*

*7. Geybulla A (2018) The third powers and Azerbaijan. Third Powers in Europe's East, 1 March. European Union Institute for Security Studies (EUISS). Available at: https://www.jstor.org/stable/resrep17442.15.*

*8. Gurbanova S (2010) Гейдар Алиев и внешнеполитический курс Азербайджанской Республики. Baku: Şərq-Qərb. Available at: https://anl.az/el_ru/2015/qs_aqiv.pdf (accessed 15 March 2024).*

*9. Hasanov A (2013b) Присоединение Азербайджана к системе международных отношений: формирование и развитие внешнеполитической деятельности. In: Современные международные отношения и внешняя политика Азербайджана. Second. Baku: Zərdabi, pp. 266–335.*

*10. Heydar Aliyevs Heritage (1993) Azərbaycan*

*Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin Andiçmə mərasimində nitqi Bakı. Available at: https://lib.aliyevheritage.org/az/66679364.html.*

*11. Mugomba AT (1979) Small Developing States and the External Operational Environment. In: The Year Book Of World Affairs, 1979. Routledge, p. 16.*

*12. Panke D (2012) Small states in multilateral negotiations. What have we learned? Cambridge Review of International Affairs 25(3). Routledge: 387–398.*

*13. President of the Republic of Azerbaijan (2014) Speech by Ilham Aliyev at the 5th session of the heads of Azerbaijani diplomatic services. Available at: https://president.az/en/articles/view/12392.*

*14. Rothstein RL (1976) Foreign Policy and Development. Policy: From Nonalignment to International Class War. International Affairs 52(4): 598–616.*

*15. Sauerborn D, Scianna BM and Mazziotti M (2013). Multipolarity is key: Assessing Azerbaijan's foreign policy. Center for Economic and Social Development: 14.*

*16. Strakes JE (2015) Azerbaijan and the Non-Aligned. Movement: Institutionalizing the "Balanced Foreign Policy" Doctrine. Istituto Affari Internazionali: 24.*

*17. Stremlau JJ (1982) The Foreign Policies of Developing Countries in the 1980s. In: The Foreign Policy Priorities Of Third World States. Routledge, p. 18. Available at: https://doi.org/10.4324/9780429310980-1.*

*18. Thorhallsson B and Steinsson S (2017) Small State Foreign Policy. In: Oxford Research Encyc-*

*lopedia of Politics. Oxford University Press, pp. 1–25. Available at: http://politics.oxfordre.com/view/10.1093/acrefore/9780190228637.001.0001/acrefore-9780190228637-e-484.*

*19. Thorhallsson B and Wivel A (2006) Small States in the European Union: What Do We Know and What Would We Like to Know? Cambridge Review of International Affairs 19(4). Routledge: 651–668.*

*20. Valiyev A (2016) Azerbaijan: Absorb and Conquer, 1 May. European Council on Foreign Relations. Available at: https://www.jstor.org/stable/resrep21670.7.*

**Azərbaycanın xarici siyasət prioritetləri**

**XÜLASƏ**

Bu araşdırmanın məqsədi Azərbaycanın xarici siyasət prioritetlərini müəyyən etməkdir. Məqalədə Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən bəhs edilir, onun xarici siyasətini hansı amillərin formalaşdırdığı və hansı xarici siyasət strategiyası həyata keçirdiyinə dair ətraflı təhlillər aparılır. Məqalə siyasi sənədlərin, rəsmi bəyanatların, eləcə də mövcud ədəbiyyatın təhlilinə əsaslanmışdır. Tədqiqat göstərir ki, Azərbaycan Qarabağ münaqişəsinin həlli, işğal nəticəsində yaranan təhlükəsizlik problemlərini dilə gətirmək və regional enerji, ticarət və nəqliyyat layihələrində aparıcı rol oynamaq kimi prioritet sahələr üzrə səylərini gücləndirir və nəticədə yüksələn güc kimi öz qlobal təsirini artırır.

**Açar sözlər:** *Azərbaycan, xarici siyasət, Qarabağ, əməkdaşlıq, enerji, ticarət*

**Внешнеполитические приоритеты Азербайджана**

**РЕЗЮМЕ**

Целью данного исследования является понимание основных направлений внешней политики Азербайджана. В статье излагаются детерминанты внешней политики Азербайджана, подробно излагаются факторы, формирующие его внешнюю политику, и какие внешнеполитические стратегии он реализует. В статье приоритетные направления внешней политики Азербайджана будут выведены из ключевых внешнеполитических документов. Исследование изучает взаимодействия Азербайджана с различными международными организациями путем анализа политических документов, официальных заявлений, а также существующей литературы. Исследование показывает, что Азербайджан усиливает свои действия по разрешению карабахского конфликта, выражения своих опасений по поводу безопасности, вызванных оккупацией, и получения признания в региональных энергетических, торговых и транспортных проектах, усиливая свое мировое влияние как растущей державы.

**Ключевые слова:** *Азербайджан, внешняя политика, Карабах, сотрудничество, энергетика, торговля*

**SUMMARY**

The aim of this study is to understand the main foreign policy directions of Azerbaijan. The article lays out the determinants of Azerbaijan's foreign policy, elaborating on what factors shape its foreign policy, and what kind of foreign policy strategies it pursues. In the article, priority foreign policy directions of Azerbaijan will be deduced from key foreign policy documents. The research involves examining policy documents, official statements, as well as existing literature. The study finds that Azerbaijan amplifies its efforts regarding the resolution of the Karabakh conflict, voice its security concerns resulting from the occupation, and gain recognition in the regional energy, trade and transportation projects, enhancing its global influence as a rising power.

**Keywords:** *Azerbaijan, foreign policy, Karabakh, cooperation, energy, trade.*

UOT 93/94; 327
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.051

# MÜASİR TÜRK DÖVLƏTLƏRİNİN AKTUAL PROBLEMLƏRİ

**LƏMAN MİKAYILOVA**
*Odlar Yurdu Universiteti*
*Beynəlxalq münasibətlər və turizm kafedrasının müəllimi*

*E-mail: lamanmikayilova7@gmail.com*

## Giriş

Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistanın daxil olduğu müasir türk dövlətləri siyasi, iqtisadi və sosial sahədə mürəkkəb problemlərlə üzləşirlər. Bu dövlətlərin ümumi mədəni və tarixi əlaqələri var, lakin onların özünəməxsus milli problemləri də var. İdarəetmə problemləri, iqtisadi sabitlik üçün təbii sərvətlərə güvənmək və şaxələndirmə zərurəti kimi həll edilməli olan aktual məsələlər var. Bundan əlavə, mədəniyyətin qorunub saxlanılması və təhsildə islahatların aparılması getdikcə qloballaşan cəmiyyətdə öz varlığını qoruyub saxlamaq üçün vacibdir. Ərazinin trayektoriyasına güclü qonşularla geosiyasi dinamika və Türk Şurası kimi regional koalisiyaların cəlb olunması da təsir göstərir. Onların davamlı inkişafını və regional birliyini təmin etmək üçün bu çətinlikləri həll etmək vacibdir [8].

## Siyasi problemlər

Türk dövlətlərində çoxlu sayda insan haqları müdafiəçisi birləşmək azadlığı ilə bağlı müəyyən mərhələlərdə saxlanılıb və ya həbs edilib. Qeyri-hökumət təşkilatları (QHT-lər), xüsusən də Cənub-şərqdə, İnsan Hüquqları Dərnəyi də daxil olmaqla, polis axtarışlarına məruz qalıb. Saxlanmaların, araşdırmaların və həbslərin sayında artım müşahidə olunur ki, bu da qadınları və müəyyən insan qruplarından olan şəxsləri müdafiə edən təşkilatlara daha çox təzyiq göstərir [1].

Bir sıra türk dövlətlərində idarəetmə problemləri geniş yayılıb. Məsələn, Türkiyədə dövlət institutlarının deqradasiyası və hakimiyyətin konsolidasiyası daha avtoritarlaşan, demokratik prosedurları və hesabatlılığı zəiflədən sistemlə nəticələnmişdir.

Bənzər bir şəkildə, digər türk xalqları da siyasi qeyri-sabitlik və idarəçilikdə qeyri-adekvatlıqlarla üzləşirlər ki, bu da siyasətin effektiv şəkildə həyata keçirilməsini və ictimaiyyətin etibarını qazanmağı çətinləşdirir.

## İqtisadiyyatla bağlı problemlər

Bir çox türk dövlətləri öz iqtisadiyyatları üçün əsasən təbii ehtiyatlardan asılıdırlar ki, bu da onları qlobal bazardakı dəyişikliklərə qarşı həssas edir. Məsələn, Qazaxıstan iqtisadiyyatı daha çox neft ixracına əsaslanır və bu da onu dünya bazarında neftin qiymətindəki dəyişikliklərə qarşı həssas edir.

Türk dövlətləri arasında enerji sahəsində ən çox inkişaf etmiş ölkələr isə Azərbaycan və Türkiyədir. Son illərdə Azərbaycan Türkiyənin əsas təbii qaz təchizatçılarından birinə çevrilib [2s.63].

İqtisadiyyatın şaxələndirilməsi səyləri hələ də davam etsə də, infrastrukturun qeyri-kafi olması və xarici bazarlara çıxışın məhdudlaşdırılması kimi maneələrlə qarşılaşırlar. Bundan əlavə, sosial-iqtisadi bərabərsizliklər hələ də mövcuddur. Məsələn, gəlir bölgüsü tez-tez qeyri-bərabər olur ki, bu da inkişaf və həyat standartlarında fərqlərə səbəb olur.

## Sosial və mədəni dinamika ilə bağlı problemlər

Mədəni irsin və dillərin qorunması cəmiyyətdə aktual məsələdir. Türk Dövlətləri Təşkilatı (TDT) quruma üzv olan ölkələr arasında mədəni tərəfdaşlıqların təşviq edilməsində və ortaq kimlik hisslərinin yaradılmasında mühüm rol oynamışdır [7].

Bununla belə, mədəniyyətin qorunması ilə müasirliyi tarazlaşdırmaq hələ də çətin bir səydir. Bundan əlavə, gənc nəsilləri qlobal miqyasda rəqabətqabiliyyətliliyə hazırlamaq üçün keyfiyyətin və əlçatanlığın artırılması kimi müasir tələblərə cavab vermək üçün bu ölkələrin təhsil sistemləri tez-tez islahatlara ehtiyac duyur [5].

Yekun olaraq qeyd etməliyik ki, "Türk Dövlətlərinin Təşkili: Siyasət, İqtisadiyyat, Mədəni Əməkdaşlıq və 2040-a Baxış" türkdilli dünyada mühüm rol oynayan bir təşkilatın və onun üzv dövlətlərinin siyasi, iqtisadi və mədəni aspektlərini əks etdirən mühüm amildir [3s.232].

## Geosiyasətdən gələn təzyiqlər

Türk cümhuriyyətləri Çin və Rusiya kimi daha böyük dövlətlərin təsirinə məruz qalan mürəkkəb

geosiyasi məkanda yerləşir. Çinin Mərkəzi Asiyada artan iqtisadi iştirakı regionun dinamikasını dəyişib. Bunu infrastruktur xərcləri və ticarət səyləri göstərir ki, bu da vaxtaşırı bu bölgədə tarixən böyük təsirə malik olan Rusiya ilə gərginliyə səbəb olur.

TDT ilk dəfə 2009-cu ildə Naxçıvan Sazişi ilə Türk Şurası kimi yaradılmışdır. Təşkilat, mədəni və iqtisadi əməkdaşlığı təşviq etmək və türkdilli ölkələr arasında tarixi və dil əlaqələrini genişləndirmək məqsədi ilə hökumətlərarası qurum kimi yaradılmışdır.

Bununla belə, qrup yavaş-yavaş öz diqqətini türk dövlətlərinin daha böyük strateji hədəflərini əks etdirən siyasi və təhlükəsizlik əməkdaşlığını əhatə etmək üçün genişləndirdi. 2021-ci ildə İstanbul Sammiti zamanı təşkilatın adı rəsmi olaraq Türk Dövlətləri Təşkilatı adlandırıldı. Bu, təşkilatın ilk növbədə mədəni varlıqdan ümumi tarix, dil və mədəniyyətlə birləşdirilən hərtərəfli siyasi, iqtisadi və təhlükəsizlik ittifaqına çevrilməsinin mühüm məqamı idi [4].

"Bir millət, iki dövlət" ideyasını türk dövlətləri arasında daha geniş əməkdaşlıq formasına çevirdiyi üçün İkinci Qarabağ müharibəsi türk birliyi üçün əlamətdar bir məqam oldu. Azərbaycan və Türkiyənin imzaladığı 2021-ci il Şuşa Bəyannaməsi onların hərbi və siyasi əlaqələrini gücləndirdi və iki ölkə arasında artan həmrəyliyi ifadə etdi. Türkiyənin əhəmiyyətli hərbi yardımı ilə mümkün olan müharibədə Azərbaycanın uğurları türk birliyini gücləndirməklə yanaşı, türk dünyasının Rusiya kimi böyük dövlətlər bahasına getdikcə artan geosiyasi üstünlüyünü nümayiş etdirdi [4].

Bundan əlavə, 2021-ci ildə İstanbul Zirvə Toplantısı zamanı "Türk Dünyasına Baxış 2040" təsdiq edilib. Bu sənəd daha bağlı, vahid və güclü türk dünyasını yaratmaq məqsədi daşıyan uzunmüddətli siyasətlərin əsasını qoyub. Bu strateji məqsəd ortaq türk əlifbasının yaradılması, enerji və ticarət sahəsində əməkdaşlığın təkmilləşdirilməsi səyləri kimi son tədbirlərdə öz əksini tapıb [4].

Türk dövlətləri arasında regional təhlükəsizlik əməkdaşlığının, iqtisadi inteqrasiyanın və mədəni və dil birliyinin mərhələli şəkildə institusionallaşması Avrasiyada vahid türk təsir dairəsi yaratmaq üçün strateji imkan yaradır və onu qlobal güc dəyişikliyi şəraitində sabitləşdirici qüvvə kimi yerləşdirir.

OTS-in (Türk Dövlətləri Təşkilatı) məqsədi bu kənar qüvvələrlə mübarizə aparmaq və onların maraqlarını dünya səhnəsində tanıtmaq üçün birgə işləmək üçün üzv dövlətlər arasında əməkdaşlığı təkmilləşdirməkdir.

Tarixən Türküstan kimi tanınan Orta Asiyanın böyük güclər üçün mühüm geosiyasi döyüş meydanına çevriləcəyi gözlənilir. Bu, regionun zəngin təbii sərvətləri və Avropa ilə Asiya arasında körpü rolunu oynayan strateji yerləşməsi ilə bağlıdır. Böyük dövlətlər və qlobal qeyri-sabitlik arasında rəqabət getdikcə artır. OTS enerji, ticarət və təhlükəsizlik kimi sahələrdə əməkdaşlığı artırmaqla özünü mühüm regional aktor kimi göstərmək üçün bu fürsətdən istifadə etmişdir [6].

OTS-in böyük güc rəqabətinin, xüsusən də Ukraynadakı müharibənin və Rusiyaya qarşı tətbiq edilən sanksiyaların yaratdığı dəyişən regional dinamika nəticəsində regional əməkdaşlığı genişləndirmək və müstəqilliyini ifadə etmək şansı var.

OTS-nin artan gücünə baxmayaraq, hələ də aradan qaldırılmalı olan böyük maneələr var. Rusiya Sovet İttifaqının tərkibində olan türk respublikalarına əhəmiyyətli təsir göstərməkdə davam edir və təşkilatın tərəqqisi indiki geosiyasi vəziyyətlə, xüsusən də Ukraynadakı müharibə ilə sıx bağlıdır. OTS-in strateji cəlbediciliyi Rusiyanın artan iştirakı ilə zəiflədilə bilər. Eyni zamanda, Çinin "Bir kəmər və yol" təşəbbüsü Pekinin Mərkəzi Asiyada iqtisadi təsirini artıraraq, regionun iqtisadi və siyasi vəziyyətini daha da mürəkkəbləşdirib [4].

Bu kənar çağırışların öhdəsindən gəlmək üçün OTS heç bir böyük gücdən çox asılı olmayaraq strateji müstəqilliyini qoruyub saxlamalıdır. Əksinə, o, öz daxili birliyini, siyasi, iqtisadi və hərbi əməkdaşlığı möhkəmləndirməyə diqqət yetirməlidir. Bundan əlavə, təşkilatın uzunmüddətli mövcudluğu, xüsusən də Türkiyədən olan davamlı liderlikdən və üzv ölkələrin bəzi üzv dövlətlərdəki siyasi qeyri-sabitlik kimi daxili problemlərə baxmayaraq, öz xarici siyasətlərini koordinasiya etmək qabiliyyətindən asılı olacaq [4].

## Nəticə

Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistanı mədəni və tarixi əlaqələrin uzun tarixi olmasına baxmayaraq, onların müxtəlif siyasi sistemləri, iqtisadi inkişaf dərəcələri və milli gündəmləri birlikdə işləmək üçün həm çətinliklər, həm də imkanlar yaradır.

Bir çox türk respublikaları müasirlik ilə açıqlıq, hesabatlılıq və demokratik dəyərlərə ehtiyac arasında tarazlıq tapmağa çalışdıqları üçün idarəçilik əsas narahatlıq doğurmaqda davam edir. Sabitliyi və ictimai etimadı təmin etmək üçün siyasi institutları gücləndirmək, korrupsiyaya qarşı mübarizə aparmaq və inklüziv siyasətləri təşviq etmək vacibdir. İqtisadiyyata gəldikdə, neft və qaz kimi təbii ehtiyatlara həddən artıq güvənmək risklidir ki, bu da müxtəliflik və innovasiyalara ehtiyacı vurğulayır. Uzunmüddətli davamlılığa nail olmaq üçün qeyri-resurs sənayelərinin genişləndirilməsi, infrastrukturun təkmilləşdirilməsi və sərvət bərabərsizliyinin aradan qaldırılması üçün səylər göstərmək vacibdir.

Digər ümumi məsələ mədəniyyətin qorunmasıdır. Türk dünyası öz dillərini, adət-ənənələrini və irsini qoruyarkən qloballaşmaya uyğunlaşmağın birgə çətinliyi ilə üz-üzədir. Bölgədəki təhsil sistemlərində islahatlar aparılmalıdır ki, gələcək nəsillər qlobal miqyasda rəqabət aparmaq üçün lazım olan bacarıqları inkişaf etdirə bilsinlər, eyni zamanda mədəni kimliklərini gücləndirsinlər. Çoxmillətli ölkələrdə sosial həmrəylik azlıqların hüquqlarına hörmət edilməsini və hər kəsin daxil olmasını təmin etmək üçün diqqət tələb edir [9].

Türk respublikalarının Rusiya və Çin kimi böyük dövlətlərin kəsişməsində yerləşməsi onlara unikal geosiyasi mövqe verir. Bu geosiyasi yerləşmə həm imkanlar, həm də zəif tərəflər təqdim edir, çünki kiçik dövlətlər öz suverenliyini təsdiqləyərək və maraqlarını güdərək ətrafdakı güclərlə mürəkkəb qarşılıqlı əlaqələri idarə etməlidirlər. Türk Dövlətləri Təşkilatı birliyin təşviqi və ümumi problemlərin həlli üçün mühüm məkana çevrilib. OTS iqtisadi inteqrasiyanı, mədəni mübadiləni və strateji əməkdaşlığı gücləndirməklə üzv ölkələrin kollektiv gücünü artırmaq potensialına malikdir [10].

Gələcəkdə türk dövlətləri milli islahatları regional əməkdaşlıqla birləşdirən hərtərəfli strategiya qəbul etməlidirlər. Güclü və zəngin cəmiyyətlər yaratmaq üçün idarəetməyə, iqtisadi müxtəlifliyə, mədəniyyətin qorunmasına və təhsilə sərmayə qoymaq lazımdır. Bundan əlavə, OTS kimi çərçivələr regional birliyi gücləndirə bilər ki, bu da onların dünyada daha yüksək səsə malik olmasına və beynəlxalq münasibətlərdə daha mühüm rol oynamasına kömək edə bilər.

Türk dövlətləri bu problemlərin öhdəsindən gəlmək üçün birlikdə çalışsalar, nəinki öz irəliləyişlərini təmin etmək, həm də dünya sülhü, sabitlik və rifahına müsbət töhfə verən daha güclü və vahid türk məkanı yaratmaq şansı əldə edəcəklər. İrəli getmək üçün biz ümumi dəyərlərə, qarşılıqlı hörmətə və kollektiv tərəqqi vizyonuna sadiq olmalıyıq. Bu, türk dünyası irsinin müasir dövrdə də inkişafını təmin edəcək.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Bertelsmann Stiftung. BTI 2024 Turkey Country Report. Bertelsmann Stiftung's Transformation Index. [Online] 2025. https://bti-project.org/en/reports/country-report/TUR?utm_.*

*2. Baghirov, O. The Organization of Turkic States' economic potential and cooperation prospects among its members. Journal of Turkic Studies, 2023, pp. 53-73.*

*3. Jumayev, H. Organization of Turkic States: Politics, Economics, Cultural Collaborations and 2040 Vision. Edited by Yılmaz Ulvi Uzun and Hakan Kaya. Nobel, 2023. Nobel, 2023, pp. 223-232.*

*4. Yılmaz, A. A Strategic Opportunity for the Organization of Turkic States Amid Great Power Competition. [Online] 2024. https://thediplomat.com/2024/10/a-strategic-opportunity-for-the-organization-of-turkic-states-amid-great-power-competition/?utm_.*

*5. Ozturkmenoglu, O., & Alpkocak, A. (2012). Comparison of different lemmatization approaches for information retrieval on Turkish text collection. 2012 International Symposium on Innovations in Intelligent Systems and Applications. IEEE.*

*6. Nguyen, N., & Seliya, N. (2024). Emotion sentiment analysis in Turkish music. 2024 IEEE International Conference on Information Reuse and Integration for Data Science (IRI). IEEE.*

*7. Golech, S. B., Karacan, S. B., Sönmez, E. B., & Ayral, H. (2022). A complete human verified Turkish caption dataset for MS COCO and performance evaluation with well-known image caption models trained against it. 2022 International Conference on Electrical, Computer, Communications and Mechatronics Engineering (ICECCME). IEEE.*

*8. Tocoglu, M. A., & Alpkocak, A. (2014). Emotion extraction from Turkish text. 2014 European Network Intelligence Conference. IEEE.*

*9. Koksal, H. A., & Ozdemir, A. (2014). RCAM model for Turkish national power transmission system: SF6 circuit breakers, transmission lines, trans-*

*former centers and protection relays. 2014 International Conference on Probabilistic Methods Applied to Power Systems (PMAPS).*

*10. Kayahan, D., & Güngör, T. (2019). A hybrid translation system from Turkish spoken language to Turkish sign language. 2019 IEEE International Symposium on Innovations in Intelligent Systems and Applications (INISTA). IEEE.*

**LAMAN MIKAYILOVA**
***Odlar Yurdu University***
***Lecturer of the Department of International Relations and Tourism***
***E-mail: lamanmikayilova7@gmail.com***

## CURRENT PROBLEMS OF MODERN TURKIC STATES

### ABSTRACT

Modern Turkic states (Turkey, Azerbaijan, Kazakhstan, Kyrgyzstan, Uzbekistan, Turkmenistan, etc.) are grappling with many of the political, economic and social challenges of the 21st century. While some have developed while supporting democratic systems, many remain entangled in a web of authoritarianism driven by corruption and lack of political freedoms. Economically, for states such as Kazakhstan and Azerbaijan, despite being rich in natural resources, questions arise regarding the diversification of the economy - oil and gas, over-reliance on energy exports, and socio-economic inequality. Trade imbalances and inadequate industrialization exacerbate the problems; thus, limiting long-term growth and development.

Especially for small states, preserving and developing Turkic heritage, language and culture in a globalized developing world poses even greater challenges. Education in many of these countries also needs to be more creative and relevant to the world.

On a global scale, geopolitical concerns, especially from neighboring states such as China and Russia, have an impact on the foreign policy and regional alliances of these governments. First, the Turkic Council works to help member states develop bilateral and trilateral relations. However, national interests and goals do not always coincide. The achievement of stability, prosperity, and greater territorial integrity among the modern Turkic republics necessitates joint methods for addressing these challenges.

**Keywords:** *Governance, economic diversification, cultural preservation, geopolitical pressure, regional cooperation.*

**ЛАМАН МИКАЙЛОВА**
***Университет Одлар Юрду***
***Преподаватель кафедры международных отношений и туризма***
***Эл. почта: lamanmikayilova7@gmail.com***

## ТЕКУЩИЕ ПРОБЛЕМЫ СОВРЕМЕННЫХ ТЮРКСКИХ ГОСУДАРСТВ

### РЕЗЮМЕ

Современные тюркские государства сталкиваются со многими политическими, экономическими и социальными проблемами XXI века (Турция, Азербайджан, Казахстан, Кыргызстан, Узбекистан, Туркменистан и др.). В то время как некоторые преуспевают, поддерживая демократические системы, многие остаются в сети авторитаризма, движимого коррупцией и отсутствием политических свобод. С экономической точки зрения, для таких стран, как Казахстан и Азербайджан, несмотря на богатство природных ресурсов — нефти и газа — возникают вопросы, связанные с диверсификацией экономики, чрезмерной зависимостью от экспорта энергоносителей и социально-экономическим неравенством. Торговый дисбаланс и недостаточная индустриализация усугубляют проблемы; таким образом, долгосрочный рост и развитие ограничены.

Сохранение и развитие тюркского наследия, языка и культуры в глобализирующемся развивающемся мире представляет собой особенно сложную задачу для малых государств. Образование во многих из этих стран также должно стать более креативным и актуальным для мира.

В глобальном масштабе геополитические проблемы, особенно со стороны соседних государств, таких как Китай и Россия, оказывают влияние на внешнюю политику и региональные альянсы этих правительств. Во-первых, Тюркский совет помогает странам-членам развивать двусторонние и трехсторонние отношения. Однако национальные интересы и цели не всегда совпадают. Достижение стабильности, процветания и большей территориальной целостности среди современных тюркских республик обусловливает необходимость совместных

методов решения этих проблем.

**Ключевые слова:** *Управление, экономическая диверсификация, сохранение культурного наследия, геополитическое давление, региональное сотрудничество.*

**XÜLASƏ**

Müasir türk dövlətləri 21-ci əsrin bir çox siyasi, iqtisadi və sosial problemləri ilə (Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və s.) məşğul olmaqdadır. Bəziləri demokratik sistemləri dəstəkləməklə bərabər inkişaf etsə də, bir çoxları korrupsiya və siyasi azadlıqların olmaması ilə idarə olunan avtoritarizm şəbəkəsində asılı qalırlar. İqtisadi baxımdan Qazaxıstan və Azərbaycan kimi dövlətlər üçün təbii sərvətlərlə zəngin olmasına baxmayaraq, neft və qaz - iqtisadiyyatın diversifikasiyası, enerji ixracına həddən artıq asılılıq və sosial-iqtisadi bərabərsizliklə bağlı suallar meydana çıxır. Ticarət balansının pozulması və qeyri-adekvat sənayeləşmə problemləri daha da ağırlaşdırır; beləliklə, uzunmüddətli böyümə və inkişafa məhdudiyyətlər qoyulur.

Xüsusilə kiçik dövlətlər üçün qloballaşan inkişaf dünyasında türk irsinin, dilinin və mədəniyyətinin qorunub saxlanması və inkişaf etdirilməsi daha çox çətinliklər yaradır. Bu ölkələrin bir çoxunda təhsil də dünya ilə daha yaradıcı və aktual olmalıdır.

Qlobal miqyasda, geosiyasi narahatlıqlar, xüsusən də Çin və Rusiya kimi qonşu dövlətlərin bu hökumətlərin xarici siyasətinə və regional ittifaqlarına təsiri var. Birincisi, Türk Şurası üzv ölkələrə ikitərəfli və üçtərəfli münasibətləri inkişaf etdirməkdə kömək etmək üçün çalışır. Buna baxmayaraq, milli maraqlar və məqsədlər heç də həmişə üst-üstə düşmür. Müasir türk cümhuriyyətləri arasında sabitliyə, firavanlığa və ərazinin daha çox özünəməxsusluğuna nail olunması bu problemlərin həllində birgə metodlara ehtiyacın yaranması ilə nəticələnir.

**Açar sözlər:** *İdarəetmə, iqtisadi diversifikasiya, mədəni qoruma, geosiyasi təzyiq, regional əməkdaşlıq.*

УДК 32
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.054

# ИСТОРИЧЕСКИЙ ОПЫТ РАЗРЕШЕНИЯ КОНФЛИКТОВ В АЗЕРБАЙДЖАНЕ

**ИРАДА МАМЕДОВА**
*Академия Государственного Управления при Президенте Азербайджанской Республики, магистрант*

*E-mail: iradamamedova112@gmail.com*

## Введение

Азербайджан — это страна с богатой и многогранной историей, которая в течение многих столетий становилась ареной для множества конфликтов, как внешнего, так и внутреннего характера. Его стратегическое положение, на перекрестке Европы и Азии, сыграло важную роль в формировании политических, культурных и социальных процессов, что в свою очередь способствовало возникновению множества этнических и территориальных споров. Одним из самых значимых и затяжных является конфликт в Южном Кавказе, который в последние десятилетия определяет внешнюю и внутреннюю политику Азербайджана, а также его взаимоотношения с соседними странами, в частности с Арменией [1, стр. 150].

Причины конфликтов в Азербайджане имеют глубокие исторические корни, уходящие в далекие времена. Азербайджан является территорией, где пересекались интересы различных мировых держав, таких как Персидская, Османская и Российская империи, а позднее — Советский Союз. Эти политические реальности всегда приводили к возникновению и эскалации конфликтов, как внутри самого государства, так и между соседними странами. Внутри Азербайджана всегда жили многочисленные этнические группы, среди которых были как тюркские, так и армянские народы, что также способствовало возникновению территориальных и этнических споров [4, стр. 45].

После обретения независимости в 1991 году Азербайджан столкнулся с необходимостью не только решения внутриполитических и экономических проблем, но и с угрозой территориальной целостности, особенно в свете событий, связанных с территорией, раннее называемой Нагорным Карабахом. В начале 1990-х годов Азербайджан оказался в центре вооруженного конфликта с Арменией, который привел к значительным человеческим жертвам и территориальным потерям для страны. Хотя с подписанием соглашения о прекращении огня в 1994 году был достигнут относительный мир, долгосрочные решения по урегулированию конфликта так и не были найдены, и ситуация оставалась замороженной на протяжении нескольких десятилетий [5, стр. 103].

Вопрос разрешения конфликтов в Азербайджане выходит за пределы только внутренней политики. Этот процесс также зависит от внешних факторов, таких как роль международных посредников, интересы великих держав, а также дипломатические усилия, направленные на урегулирование и предотвращение дальнейших эскалаций насилия. Не менее важным является и внутренняя динамика, а именно политика, направленная на интеграцию разных этнических групп и восстановление разрушенной инфраструктуры [7, стр. 132].

В данной статье рассматривается исторический опыт Азербайджана в разрешении конфликтов, начиная с периода советского правления и заканчивая новейшими событиями, связанными с карабахским конфликтом. Основное внимание уделяется процессам миротворчества, дипломатическим усилиям и роли международных организаций. Также рассматривается использование военной силы и её последствия, а также внутренние механизмы, применяемые для разрешения конфликта. Цель исследования — выявить ключевые моменты и уроки, которые могут быть полезны для будущих попыток мирного урегулирования и стабилизации ситуации в регионе [9, стр. 70].

## 1. Исторические предпосылки и корни конфликтов в Азербайджане

Азербайджан всегда был территорией, где пересекались интересы различных империй, таких как Персидская, Османская и Российская. Этот перекресток культур, религий и этносов стал основой для множества конфликтных ситуаций, затрагивающих как местные, так и международные отношения [4, стр. 45].

В 19 веке территория Азербайджана вошла в состав Российской империи, и в этот период началась более тесная интеграция различных этнических групп. Азербайджанцы, армяне, грузины, курды, персы и другие народы стали жить на одном пространстве, что порождало напряженность между ними. Однако тогдашние власти Российской империи управляли этническими группами в рамках единой государственной структуры, что позволило хотя бы на время удерживать баланс [5, стр. 103].

Однако с распадом Советского Союза и обретением Азербайджаном независимости в 1991 году началась новая эра напряженности. Одним из первых и наиболее острых проявлений этого стало обострение конфликта между армянами и азербайджанцами, проживавщими в нагорной части Карабаха. Этот регион с преимущественно армянским населением, однако находящийся в пределах Азербайджанской ССР, стал камнем преткновения для двух государств, и с этого момента в регионе началась эскалация насилия [2, стр. 150].

**2. Карабахский конфликт: его эскалация и дипломатические усилия**

Конфликт в Карабахе, который является центральным и наиболее продолжительным конфликтом в новейшей истории Азербайджана, возник в 1988 году, когда армяне, проживающие в в нагорной части Карабаха, начали требовать отделения от Азербайджанской ССР и присоединения к Армении. Эти требования были вызваны как историческими, так и этническими противоречиями, а также политической нестабильностью в Советском Союзе. В результате напряженности между армянами и азербайджанцами значительно ухудшились отношения, что, в свою очередь, привело к насилию. Вскоре эти столкновения переросли в полномасштабную войну, охватившую не только территорию нагорной части Карабаха, но и другие прилегающие районы Азербайджана. В ходе вооруженного конфликта погибли десятки тысяч людей, а миллионы стали беженцами, вынужденными покинуть свои дома. Этот трагический период оставил глубокий след в жизни обеих стран, породив огромное количество человеческих страданий и разрушений [6, стр. 89].

В 1994 году при посредничестве России было подписано соглашение о прекращении огня, которое хотя и привело к временному прекращению боевых действий, не решило ключевых политических и территориальных вопросов. Карабах продолжал оставаться под контролем армянских вооруженных сил, а Азербайджан утратил значительные территории, включая теорриторию, раннее называющуюся Нагорным Карабахом и несколько прилегающих районов. Соглашение о прекращении огня фактически заморозило конфликт, но не дало долгосрочного решения, оставив спорные вопросы открытыми и создавая предпосылки для новых эскалаций насилия [9, стр. 57].

На протяжении почти трех десятилетий после подписания соглашения о прекращении огня стороны пытались достичь мирного соглашения посредством дипломатических переговоров. В этом процессе ключевую роль играла Минская группа ОБСЕ, созданная в 1992 году для содействия урегулированию конфликта. Минская группа, в состав которой входили такие ведущие мировые державы, как Россия, США и Франция, пыталась найти компромисс между сторонами и предложить решения, соответствующие интересам как Азербайджана, так и Армении. Однако различные геополитические интересы стран-посредников и отсутствие консенсуса между ними значительно затрудняли процесс мирного урегулирования. В результате переговоры часто затягивались, и стороны не могли достичь устойчивого мира, несмотря на многочисленные попытки и встречи в рамках Минской группы [7, стр. 132].

Особое внимание следует уделить так называемым «Мадридским принципам», которые были предложены в 2007 году как возможное решение конфликта. Эти принципы предусматривали возвращение некоторых территорий, находящихся под контролем армянских сил, Азербайджану в обмен на гарантии безопасности для армян, проживающих в нагорной части Карабаха, а также предоставление региону широкой автономии. Несмотря на то, что такие предложения рассматривались как компромисс, окончательное соглашение между сторонами так и не было достигнуто. Вследствие этого конфликт продолжал оставаться замороженным, а

вопросы, связанные с территориальной целостностью и правами местных жителей, оставались нерешенными, создавая напряженность в регионе на долгие годы [2, стр. 172].

**3. Использование военной силы и её последствия**

Военные действия всегда играли важную роль в конфликте. Несмотря на усилия международных посредников, обе стороны продолжали вооруженные столкновения. В 2016 году, после более чем 20 лет относительного затишья, вспыхнули очередные бои. Тогда Азербайджан смог вернуть ряд территорий, и боевые действия вновь показали, что военная сила остается важным элементом в этом затяжном конфликте [1, стр. 211].

Наибольший резонанс вызвала война 2020 года, когда в сентябре началась активная фаза боевых действий, которая продолжалась более шести недель. В результате военных операций Азербайджан вернул важные территории в Карабахе, а также территорию, ранее находившуюся под армянским контролем. 10 ноября 2020 года было подписано соглашение о прекращении огня при посредничестве России, что фактически изменило статус-кво в регионе [9, стр. 70].

Однако война привела к большим человеческим жертвам и разрушениям, в том числе среди мирного населения, что ставит под вопрос целесообразность использования военной силы в долгосрочной перспективе. Миротворческое соглашение не решает всех проблем, и вопросы, такие как статус нагорной части Карабаха, возвращение беженцев и восстановление разрушенных территорий, по-прежнему остаются актуальными [5, стр. 128].

**4. Роль международных организаций и внешних игроков**

Международные организации сыграли важную роль в попытках разрешения конфликта, но их вмешательство не всегда было эффективным. Минская группа ОБСЕ, как уже упоминалось, стала основным посредником в мирном процессе. Однако на протяжении десятилетий её усилия не приводили к долгосрочному решению. Несмотря на многочисленные встречи и переговоры, стороны не достигли соглашения по ключевым вопросам, и конфликт продолжал оставаться замороженным [4, стр. 67].

Роль России, Франции и США в мирном процессе была многозначной. Эти страны пытались оказывать влияние на стороны конфликта через дипломатическое давление, но их интересы часто пересекались, и это препятствовало согласованности усилий. Россия, как исторический союзник Армении, оказала давление на эту страну, в то время как США и Франция высказывались в поддержку независимости самопровозглашенного Нагорного Карабаха и безопасности армян. Эти противоречия на международной арене также отражались на результатах переговоров [7, стр. 195].

**5. Перспективы мирного урегулирования и уроки для будущего**

Исторический опыт Азербайджана в разрешении конфликтов, особенно в контексте Карабахского конфликта, демонстрирует, что процесс мирного урегулирования является долгим и чрезвычайно сложным. Несмотря на значительные усилия международных посредников, таких как Минская группа ОБСЕ и другие международные организации, добиться окончательного и устойчивого мира в регионе оказалось крайне трудно. Причины этого кроются не только в геополитических интересах вовлеченных сторон, но и в более глубинных внутренних факторах.

Для Азербайджана, как и для любой другой страны, процесс достижения мира включает в себя множество ключевых аспектов, каждый из которых имеет свою значимость. Одним из важнейших элементов успешного мирного урегулирования является восстановление территориальной целостности страны, утраченной в результате конфликта. Возвращение захваченных территорий не только представляет собой символическую победу в борьбе за суверенитет, но и служит важным шагом к восстановлению справедливости. В Азербайджане этот процесс сопровождается необходимостью обеспечить безопасность и права всех этнических групп, включая те, которые могут быть вынуждены вернуться на восстановленные территории. Это требует не только политической воли, но и реализации комплексных программ по интеграции возвращенных людей и восстановлению дове-

рия между этническими общинами [8, стр. 45].

Важнейшим аспектом мирного урегулирования является также работа с внутренними проблемами, которые возникли в ходе конфликта. Одной из таких проблем является возвращение беженцев и внутренне перемещенных лиц, которых насильственно выгнали из своих домов во время боевых действий. Многие из этих людей проживали в лагерях или у родственников в других частях Азербайджана, а их возвращение на родные земли требует не только правовых и социальных решений, но и значительных усилий по восстановлению разрушенной инфраструктуры. Создание условий для безопасного и стабильного проживания беженцев на родных территориях требует комплексной работы, включая восстановление жилья, инфраструктуры, а также обеспечение доступа к образованию и медицинским услугам. Только в этом случае можно будет создать благоприятные условия для нормальной жизни на вновь возвращенных территориях, что имеет важное значение для поддержания мира и стабильности в стране [6, стр. 128].

Не менее важным является развитие межэтнического диалога, который должен стать основой для долгосрочной стабильности в регионе. Внутренний мир и гармония в Азербайджане невозможны без создания условий для диалога и взаимодействия между различными этническими группами, такими как азербайджанцы, армяне, русские, курды и другие меньшинства, проживающие в стране. Это требует значительных усилий со стороны государства и гражданского общества для формирования общих ценностей и культурного взаимопонимания. Важно, чтобы все этнические группы чувствовали себя защищенными и включенными в процесс принятия решений, а также чтобы их права и интересы были учтены в процессе постконфликтного восстановления. Развитие механизмов совместного существования и интеграции всех этнических групп в социальную и политическую жизнь страны имеет ключевое значение для предотвращения дальнейших конфликтов и укрепления внутреннего мира [8, стр. 45].

Однако перспективы мира на Кавказе зависят не только от политических решений, но и от способности общества к интеграции и совместному существованию. Важно понимать, что мир в регионе невозможен без учета культурных, исторических и социальных особенностей различных народов, которые населят эту территорию. В процессе мирного урегулирования необходимо учитывать не только текущие политические и территориальные вопросы, но и более глубокие культурные и психологические аспекты, которые могут затруднять восстановление доверия между общинами, пережившими многолетний конфликт. Это включает в себя работу с исторической памятью, преодоление стереотипов и предвзятых мнений, а также установление платформ для взаимного уважения и понимания.

**СПИСОК ЛИТЕРАТУРЫ:**

*1. Ахмедов, А. (2015). Конфликт в Нагорном Карабахе: причины и пути решения. Баку: Издательство "Азербайджан".*

*2. Гасанова, И. (2014). Международные миротворческие миссии на Кавказе: опыт и перспективы. Баку: Издательство "Шарг-Гашыг".*

*3. Кисин, В. (2019). Международное право и миротворческие операции в Кавказском регионе. Москва: Юридический центр.*

*4. Макаров, Ю. (2018). Сущность и особенности внешней политики Азербайджана. Москва: Академия международных отношений.*

*5. Мустафаев, И. (2020). Азербайджанская дипломатия в контексте карабахского конфликта. Баку: Издательство "Наука".*

*6. О'Джеймс, Л. (2019). Роль международных организаций в урегулировании этнических конфликтов. Москва: Международное издательство.*

*7. Петрова, Н. (2017). Дипломатия и конфликты на Южном Кавказе: 1991–2020 годы. Москва: Издательство МГИМО.*

*8. Саркисян, Г. (2020). The Armenian-Azerbaijani Conflict: A Historical Overview and Future Prospects. Yerevan: National Academy of Sciences.*

*9. Смит, Р. (2016). War and Peace in the Caucasus: Understanding the Karabakh Conflict. London: Routledge.*

*10. Торнтон, К. (2018). The Role of Russia in the Nagorno-Karabakh Conflict. Cambridge: Cambridge University Press.*

*11. Сулейманов, М. Г. (2021). Конфликты и миротворчество в постсоветском простран-*

*стве: теории и практика. Москва: Издательство "Прогресс".*

*12. Григорян, С. О. (2021). Роль внешних акторов в разрешении конфликта в Нагорном Карабахе. Ереван: Национальный университет.*

*13. Караев, М. Х. (2020). Азербайджан и международная дипломатия: взаимодействие с мировыми игроками. Баку: Азербайджанская энциклопедия.*

*14. Чечель, В. В. (2022). Конфликтные процессы в Южном Кавказе: исторический анализ и прогнозы. Москва: Международные отношения.*

*15. Доклады и отчеты ООН о ситуации в Нагорном Карабахе. (2020). Доклад Генерального секретаря ООН о положении в Нагорном Карабахе. Доступно на официальном сайте ООН.*

**Мамедова Ирада,**

***магистрант второго курса Академии государственного управления при***

**Президенте Азербайджанской Республики**

**РЕЗЮМЕ**

Статья посвящена историческому опыту Азербайджана в разрешении конфликтов, с особым акцентом на Карабахский конфликт. Рассматриваются основные причины, ведущие к конфликтам в регионе, их исторические предпосылки, а также дипломатические усилия и роль международных организаций в процессе урегулирования. Особое внимание уделяется использованию военной силы и последствиям этого для региона, а также внутренним политическим и социальным механизмам, направленным на стабилизацию ситуации. В статье анализируются ключевые моменты миротворческого процесса, а также подчеркивается важность интеграции различных этнических групп и восстановления разрушенной инфраструктуры. Цель исследования — выявить уроки, которые могут быть полезны для будущих мирных инициатив и стабилизации ситуации в Южном Кавказе.

**Ключевые слова:** *Разрешение конфликтов, международные организации, Армения, Азербайджан, этнические конфликты, дипломатические усилия, международные посредники.*

**Məmmədova İradə**

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının II kurs magistrantı***

**XÜLASƏ**

Məqalə Azərbaycanın münaqişələrin həlli sahəsində tarixi təcrübəsinə, xüsusilə Dağlıq Qarabağ münaqişəsinə həsr olunmuşdur. Məqalədə bölgədəki münaqişələrin əsas səbəbləri, tarixi kökləri və həmçinin münaqişələrin həlli prosesində beynəlxalq təşkilatların rolu və diplomatik səylər müzakirə edilir. Xüsusi olaraq, hərbi gücün istifadəsi və bunun nəticələri, həmçinin regionda vəziyyətin sabitləşdirilməsi məqsədilə tətbiq edilən daxili siyasi və sosial mexanizmlər nəzərdən keçirilir. Məqalədə sülh quruculuğu prosesinin əsas məsələləri təhlil olunur, həmçinin müxtəlif etnik qrupların inteqrasiyası və dağıdılmış infrastrukturun bərpasının əhəmiyyəti vurğulanır. Tədqiqatın məqsədi — Cənubi Qafqazda gələcək sülh təşəbbüsləri və vəziyyətin sabitləşdirilməsi üçün faydalı ola biləcək dərsləri müəyyən etməkdir.

**Açar sözlər:** *Münaqişələrin həlli, beynəlxalq təşkilatlar, Ermənistan, Azərbaycan, etnik münaqişələr, diplomatik səylər, beynəlxalq vasitəçilər.*

UOT 327
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.057

# STRATEJİ SƏBR- TÜRKİYƏNİN SURİYADAKI QƏLƏBƏSİNİN AÇARI KİMİ

**SƏRXAN HÜSEYNLİ**
*Bakı Dövlət Universitetinin doktorantı*
*E-mail: serxan_service@yahoo.com*

Türkiyə illərdir Suriyada izlədiyi strateji səbr siyasətinin meyvələrini bu günlərdə dərməyə başlasa da, bu nəticəyə çatmaq ona ucuz başa gəlmədi. Türkiyə illərlə Suriyadakı siyasi proseslərə cəlb olunmuş, burada müxtəlif dövlətlərlə rəqabətə girmiş, səbrlə həyata keçirdiyi taktiki və strateji siyasətin nəticəsində regional güc olduğunu və Suriyanın gələcəyində mühüm rol oynayacağını ortaya qoymuşdur. Xüsusən də, Türkiyədə AK Partiyanın hakimiyyətə gəldiyi 2002-ci ildən bu yana Türkiyənin Suriya siyasəti stabil olmamış, müxtəlif eniş-yoxuşlarla sınanmışdır. AK Partiyanın hakimiyyətə gəldiyi ilk illərdən etibarən Yaxın Şərq ölkələri ilə əlaqələr möhkəmlənmiş bu çərçivədə Türkiyə-Suriya əlaqələri də özünün ən parlaq mərhələsinə çatmışdı. 2011-ci ildə Ərəb baharının dalğası Suriyaya çatanda və ölkəni etiraz dalğaları bürüyəndə Türkiyə Dəməşq rejimini böhranı siyasi üsullarla həll etməyə inandırmağa çalışmışdı [1].

Böhranın ilk günlərindən başlayaraq Türkiyə Əsəd rejimini müxalifətə və xalqa qarşı zor tətbiq etməkdən çəkinməyə, siyasi reformalar həyata keçirməyə çağırmış, yaranmış konflikti sülh yolu ilə həll etməyə səsləmişdi. Qərb dövlətlərinin Suriya ilə əlaqələri kəsdiyi həmin dövrdə Türkiyə hələ də Əsədlə diplomatik əlaqələri qorumuş və onu ölkədə siyasi, iqtisadi və demokratik islahatlar keçirməyə dəvət etmişdi. Böhran yaranandan 6 ay sonrayadək Türkiyə hələ də Suriya rejimi ilə əlaqəni kəsməmiş, "məkik diplomatiyası" ilə Suriya və Qərb ölkələri arasında vasitəçilik etmişdi. Suriyanın sabitliyi və ərazi bütövlüyü Türkiyə üçün daima qırmızı xətt olduğundan Türkiyə Əsəd rejimi ilə dialoq kanallarını açıq saxlamış, 2011-ci ilin avqustunadək onunla danışıqlar aparmışdır [2]. Lakin Türkiyənin inandırma siyasəti iflas etmiş, Əsəd öz xalqına qarşı qətliamlar törətməyə başlamışdı.

Bundan sonrakı mərhələdə Türkiyənin Suriya siyasəti təzyiq və izolyasiya siyasəti kimi xarakterizə edilə bilər. Bu siyasət 2015-ci ilədək davam etmişdir. Bu siyasətin mahiyyəti Suriyadakı rejimi yəni BƏƏS partiyasının hakimiyyətini saxlamaqla iqtidarı Bəşər Əsəddən başqa şəxslərə ötürmək, beləliklə ərazi bütövlüyünü, siyasi stabilliyi qoruyub saxlamaq, eləcə də Türkiyə ilə münasibətlərini davam etdirməkdən ibarət olmuşdur. 2003-cü ildən sonra İraqda yaranmış güc vakuumunun mənfi tərəflərini görən Türkiyə Suriyada buna yol verməmək üçün bütün suriyalıların təmsil edildiyi demokratik hakimiyyətin təsis olunması üçün Əsəd rejiminə siyasi, diplomatik və iqtisadi təzyiqlər etmiş və bu zaman Körfəz ölkələri ilə öz siyasətini koordinasiya etmişdir.

2011-ci ilin oktyabrından başlayaraq Türkiyə suriyalı qaçqınlar üçün "Açıq qapı" siyasəti həyata keçirmiş, milyonlarla suriyalının ölümdən qaçaraq Türkiyəyə sığınmasına şərait yaratmışdır. Türkiyənin əsas düşməni olan PKK-nın Suriyada fəaliyyətini genişləndirməsi, eləcə də İŞİD terrorunun Türkiyənin sərhədlərinə gəlib çatması, Türkiyəni Suriyada daha aktiv siyasət yürütməyə sövq etmişdir. Türkiyə Suriya siyasətinin mərkəzinə bu prinsipləri qoymuşdur:

1. Suriyanın ərazi bütövlüyü və siyasi bütövlüyünün qorunması.
2. Terrorizm və radikalizmlə mübarizə.
3. Sərhəd təhlükəsizliyinin qorunması.
4. Qaçqın axınının qarşısının alınması və qaçqınların könüllü şəkildə ölkələrinə qayıdışlarının təmini.
5. Suriya böhranının BMT-nin 2254 saylı qətnaməsinə uyğun olaraq siyasi həllini tapması [3].

Suriyada Rusiya, İran və Hizbullah Əsəd rejiminin əsas müdafiəçisi kimi çıxış etmiş və bu rejimi siyasi iqtisadi, xüsusilə də hərbi dəstək verməklə qorumuşdur. Türkiyə, İsrail və ABŞ isə Suriyada müxalifətə dəstək vermiş, lakin hər üç dövlət “öz müxalifətini” dəstəklədiyindən qüvvələr parçalanmış, hətta bəzi dövrlərdə Türkiyə Suriyada rejim gücləri və onu dəstəkləyən ölkələr qarşısında təkbaşına qalmışdır. Bundan nəticə çıxaran Türkiyə bu problemi region ölkələri ilə həll etməyin vacibliyinə inanmış və Qərblə siyasətini ayırd etmişdir.

Belə ki, ABŞ-nin PKK-ya yaxınlığı ilə seçilən Suriya Demokratik Qüvvələri və YPG-yə açıq-aşkar dəstək verməsi Türkiyənin haqlı etirazına səbəb olmuş və onu Suriyada Rusiya və İranla yaxınlaşmağa sövq etmişdir. ABŞ-nin dəstəyi ilə Suriyanın şimalında fəaliyyətini genişləndirən bu kürd qruplar artıq mini-dövlət kimi bu ərazilərdə idarəçilik həyata keçirmişlər. İŞİD terror təşkilatının Suriyadakı fəaliyyəti də Türkiyənin cənub sərhədlərinə böyük

təhdid təşkil etmişdir [4]. Eləcə də İŞİD-in varlığı ona qarşı "döyüşən" kürd silahlı qrupların Amerika tərəfindən legitimləşdirilməsinə səbəb olmuşdur. Türkiyə hər iki terror təhlükəsini aradan qaldırmaq məqsədi ilə 24 avqust 2016-cı ildə "Fərat qalxanı" adlı hərbi əməliyyat başlatmış, Cerablus, Əl Bab və s. kimi əraziləri İŞİD-dən təmizləmişdir. Bu əməliyyat zamanı ona Türkiyənin proksisi sayılan Azad Suriya Ordusu da dəstək vermişdir. Bu əməliyyatla Türkiyə öz cənubunda kürd koridorunun yaranmasını da əngəlləmiş, YPG-nin Fəratın qərbinə keçməsinə mane olmuşdur. 20 yanvar 2018-ci ildə Afrin şəhəri və ətrafını kürd yaraqlılarından təmizləmək üçün "Zeytun budağı" adlı uğurlu hərbi əməliyyat keçirən Türkiyə 9 oktyabr 2019-cu ildə isə bu qüvvələrə qarşı "Sülh bulağı" əməliyyatına start vermiş, nəticədə Tel Abyad və Rasulayn şəhərləri arasındakı YPG-lilərə zərbə vuraraq onları geri oturtmuşdur.

2019-cu ildə İran və Rusiyadan hərbi dəstək alan Suriya rejiminin müxaliflərin son qalasına çevrilmiş İdlib şəhərinə hücuma keçməsi Türkiyəni narahat etmiş və onu yeni bir köç dalğası təhlükəsi ilə üzüzə qoymuşdur. Nəticədə, Türkiyə 27 fevral 2020-ci ildə "Bahar qalxanı" adlı hərbi hərəkata başlamış və 1 həftə ərzində İran milisləri və Əsəd qüvvələrinin İdlibə doğru hücumunu geri oturtmuş onlara xeyli itkilər vermişdir. Bununla da Türkiyə İdlib şəhəri və oradakı rejim müxaliflərinin qorunmasının özü üçün qırmızı xətt olduğunun altını cızmışdır.

Suriyadakı demoqrafik və dini vəziyyəti analiz etdikdə aydın görünürdü ki, Əsəd rejiminin devrilməsi ilə orada Türkiyənin rolu artacaqdır. Çünki Suriyada əhalinin 75%-ni təşkil edən sünni ərəblər, yalnız 12% -ni təşkil edən ələvilər tərəfindən idarə olunurdu. Odur ki, ələvilərin qurduğu BƏƏS hakimiyyətinin əsas dəstəkçilərindən olan şiə İranı da rejimin devrilməsinə müqavimət göstərirdi. Eləcə də etnik baxımdan Suriya əhalisinin 5%-nin türkman olması Türkiyənin xeyrinə olan demoqrafiq göstərici idi. Beləliklə, Türkiyə Suriyadakı Əsəd rejiminin, nəhayət ki, 2024-cü ilin sonunda devrilməsindən ən çox dividend əldə edən ölkə olmuşdur. Burada türk siyasi qərarvericilərin strateji səbrini vurğulamaqda fayda var. Belə ki, Suriya konflikti 14 il çəkmiş və bütün tərəfləri yormuşdur. Türkiyə Suriyadakı müxalifəti dəstəkləmiş, İran və Rusiya isə Əsəd rejimini qorumuşdular. İlk vaxtlar müxalifət uğurlar qazansa da, xüsusən də 2015-ci ildə Rusiyanın ciddi hərbi dəstəyi sayəsində Əsəd rejimi hakimiyyətini qorumuş və müxalifətə divan tutmuşdur. Müxalifətin əsas dəstəkçisi olan Türkiyə vəziyyətə müdaxilə edərək Suriya müxalif qüvvələrinin məhvinin qarşısını almış, onların Suriyanın şimalında Türkiyəyə yaxın ərazi olan İdlib vilayətində məskunlaşmalarını təmin etmişdir. O vaxtdan etibarən Suriya müxalifəti İdlibdə avtonom hakimiyyət qurmuş və Əsədə qarşı olan qüvvələrin qalasına çevrilmişdir. Buradakı müxalif qüvvələrə "Əl-Qaidə" terror təşkilatı ilə mənəvi bağlılığı olan Heyət Təhrir əl Şam təşkilatı başçılıq etmişdir. 2017-ci ildə bu təşkilat digər müxalif təşkilatlarla birgə Suriya Qurtuluş Hökumətini quraraq İdlibdə idarəçiliyi ələ keçirmişdir. Bu təşkilat bir sıra dövlətlər o cümlədən Türkiyə tərəfindən terror təşkilatı kimi tanınmış olsa da bəzi iddialara əsasən Türkiyə bu təşkilatla qeyri-rəsmi münasibətlərə malik olub onun vasitəsi ilə Suriyadakı maraqlarını həyata keçirmişdir [5].

Suriyada vətəndaş müharibəsi dövrü Bəşər Əsədin ziyanına, müxalifətin isə xeyrinə işləmişdir. Belə ki, Qərb ölkələrinin tətbiq etdiyi iqtisadi sanksiyalar Suriya iqtisadiyyatını iflic etmiş Əsəd hakimiyyətindən narazılıq pik həddə çatmışdır. Türkiyə isə öz praqmatik siyasəti ilə Rusiya və İranla birlikdə Astana prosesinə start vermiş, Suriya məsələsininin həllində region ölkələrinin rolunu artırmışdır. Bu proses siyasi həll ilə nəticələnməsə də, Suriyada konfliktin eskalasiyasına mane olmuş, eləcə də ölkənin ərazi bütövlüyü məsələsində hər üç dövlətin həssaslığını ortaya qoymuşdur.

2023-cü və 2024-cü illərdə Türkiyə Suriya ilə əlaqələri bərpa etmək üçün bir sıra addımlar atmış, Əsəd rejimi ilə danışıqlar aparmışdır. Lakin Türkiyənin Suriyadakı PKK terror təşkilatının dəstəkçilərinə qarşı rejimdən addımlar atmasını gözləməsi, eləcə də suriyalı qaçqınların öz ölkələrinə geri qaytarılması ilə bağlı tələbləri Əsəd hakimiyyəti tərəfindən nəzərə alınmamışdır. Nəticədə danışıqlar iflas etmişdir. Bu iflasın əsas səbəbi isə Əsədin Türkiyəyə tələblər irəli sürərək onda ordularını Suriyadan çıxarmasını istəməsi, eləcə də suriyalı müxaliflərə dəstək verməməsini tələb etməsi olmuşdur [6].

Əsəd rejiminin devrilməsi 2024-cü ilin 27 noyabrdan 8 dekabradək keçən qısa bir dövrdə baş vermişdir. Bu dövrdə rejimin əsas dəstəkçiləri olan Rusiya və İran digər konfliktlərə tərəf olduqlarından yorulmuş və Əsəd hakimiyyətinə yetərli yardım edə bilməmişdilər. Belə ki, İran və Hizbullah təşkilatı İsrail tərəfindən zəiflədilmiş, regiona təsirləri minimuma endirilmişdi. Rusiyanın isə Ukraynadakı savaşda xeyli itkilər verməsi onun Suriyadakı rejimə dəstəyini azaldmasına gətirib çıxarmışdı. Nəticədə

təşəbbüsü ələ alan müxalifət Heyət Təhrir əl Şam rəhbərliyində 29 noyabrda Hələbi, 5 Dekabrda Hamanı, 7 dekabrda isə Homs şəhərini ələ keçirmişdir. 8 dekabrda isə müxaliflər artıq paytaxt Dəməşqə daxil olmuşlar [7]. Hakimiyyətə gəldikdən sonra HTŞ rəhbəri Əhməd əl-Şəraya "Türk xalqı bizim ən yaxın dostlarımızdır" deyə bəyanatla çıxış etmiş eləcə də Suriyadakı kürd separatçılara qarşı Türkiyənin ilə oxşar siyasətini dəstəkləmişdir [8].

HTŞ hərbi komandiri Əbu Həsən əl-Həmavi 2024-cü ilin dekabrında kürd xalqının Suriya xalqının bir parçası olduğunu və Suriyanın heç bir federal bölgəyə ayrılmayacağını bəyan etmişdir [9]. Onun bu bəyanatı ABŞ-nin dəstək verdiyi Suriyadakı kürd separatçı qruplara, yəni YPG terror təşkilatı və Suriya Demokratik Qüvvələrinə gözdağı olmuşdur. Belə ki, bu qüvvələr illərdir ki, PKK ilə əlbir olaraq Türkiyənin təhlükəsizliyini pozur, eləcə də Suriyada kürd avtonomiyası qurmağa çalışırdılar. NATO-da Türkiyənin təhlükəsizlik ortağı olan ABŞ isə, təəssüf ki, bu terror qruplarını dəstəkləməyə davam etməkdədir.

Hazırda Suriyada HTŞ hakimiyyəti əlində saxlasa da, ölkə "de fakto" parçalanmış vəziyyətdədir. Ölkədə 6 əsas nəzarət bölgəsi var. Ölkə ərazisinin böyük bir hissəsinə Heyət Təhrir əl Şam nəzarət edir. Ölkənin şimal-şərqinə Suriya Demokratik Qüvvələri adı altında toplanmış kürd silahlı qüvvələri nəzarət edir. Burada həmçinin kürdlərə dəstək verən ABŞ ordusu da mövcuddur. Ölkənin şimalına Türkiyənin açıq şəkildə dəstəklədiyi Suriya Milli Ordusu nəzarət edir. Eləcə də Türk Silahlı Qüvvələri də Suriyanın şimalında bir neçə bölgəni nəzarətdə saxlayır. Bundan başqa Dəməşqin cənubuna başqa müxalif qruplar nəzarət edir. İsrail Müdafiə Qüvvələri də Suriyanın cənubunda bəzi ərazilərə nəzarəti ələ keçiriblər. İddialara görə, İraq və Suriyadakı "düşmən" rejimləri devirdikdən sonra İsrail və dəstəkçilərinin əsas planı bölgədə Türkiyə, İraq, İran və Suriya torpaqlarının bir qismini əhatə edəcək olan müttəfiq Kürdüstan dövləti yaratmaqdır. Son olaraq, Əsəd hakimiyyətinin devrilməsi ilə öz ordusunun böyük qismini Suriyadan çıxaran Rusiya, Tartus və Latakiya şəhərlərində kiçik bir ərazidə öz hava və dəniz qüvvələrini saxlaya bilmişdir [10].

BMT və dünyanın demokratik qüvvələri Suriyadakı yeni yaranmış hökumətə şans vermək, onların fəaliyyətini izləyərək Suriya ilə münasibətlərə yenidən baxmaq və illərdir tətbiq olunan sanksiyalara son qoymaq niyyətindədirlər. Onların yeni hökumətdən əsas tələbi islahatların aparılması və Suriyada stabilliyin təmin edilməsidir. Yeni hökumətin dünyaya inteqrasiyasına Türkiyə tərəfindən ciddi dəstək verilməkdədir.

Hazırda Türkiyə Suriyadakı çəkişmənin sonunda əsas strateji qalibdir, desək yanılmarıq. Bunu ABŞ-nin yeni seçilmiş prezidenti D.Trampın Türkiyə haqqındakı bəyanatı da sübut edir. Əsəd rejiminin devrilməsinin arxasındakı gücün Türkiyə olduğunu bildirən Tramp "Heç kəs Suriyada gerçək qalibin kim olduğunu bilmir, amma məncə qazanan Türkiyədir" deyə bildirmişdir [11]. Türkiyənin bu qələbəsinin açarı isə onun strateji səbr nümayiş etdirərək Suriyada həyati maraqları olan regional güclər-Rusiya və İran ilə konfliktə getməməsi, qərbin diktəsi ilə yox, öz maraqları istiqamətində hərəkət edərək Üçlü formatda Astana prosesində iştirak etməsi olmuşdur. Bununla da Türkiyə Rusiya və İranla olan isti münasibətlərini qoruyub saxlamış, eləcə də Suriyada özünün müttəfiqi olan müxalif qüvvələrin məhv edilməsinin qarşısını almışdır. Suriyada nüfuzunu çoxdan itirmiş olan Əsəd rejiminin gec-tez yıxılacağını anlayan Türkiyə qərar-vericiləri Suriyanın daxili işlərinə qarışmamış, orada geniş hərbi əməliyyatlar aparmamış, yalnız siyasi və iqtisadi sanksiyalarla rejimin zəiflədilməsində iştirak etmişdir. Nəticədə Əsəd rejimi devrilmiş, İran və Rusiya strateji məğlubiyyətlə Suriyadan çıxmış və bütün dünya Türkiyənin Suriyadakı nüfuzunu tanımalı olmuşdur. Bu gün Türkiyə Suriyanın bir dövlət kimi yenidən inşa olunmasında əsas rol oynayan gücə çevrilmişdir.

**Nəticə**

"Ərəb baharı" dalğasının Suriyaya yayılması nəticəsində ölkədə vətəndaş müharibəsi başlamış və bu müharibə müxtəlif fasilələrlə 2024-cü ilin sonunadək, yəni Əsəd rejimi devrilənədək davam etmişdir. Türkiyənin cənubunda Suriya ilə 877 km-lik sərhəddə malik olması, eləcə də Türkiyənin təhlükəsizlik maraqları onu Suriya məsələsinə həssas yanaşmağa məcbur etmişdir.

Suriya bir tərəfdən, qərb ölkələri və Türkiyənin digər tərəfdən isə Rusiya və İranın strateji mübarizə meydanına çevrilmiş və heç bir tərəf öz maraqlarından güzəştə getməmişdir. Uzun və gərgin mübarizə nəticəsində Suriyada Rusiya və İranın dəstəklədiyi Əsəd rejimi devrilmiş, nəticədə Türkiyənin dəstəklədiyi müxalif qüvvələr hakimiyyətə gəlmişdir.

10 ildən artıq çəkən bu mübarizə dövründə Türkiyə strateji səbr nümayiş etdirmiş, Suriyada öz maraqlarını izləməklə birlikdə Rusiya və İranla da konfliktə getməmiş, ikili münasibətlərini yüksək səviyyədə saxlamışdır. Hazırda Türkiyə Suriyanın

gələcəyində, onun bir dövlət kimi yenidən formalaşmasında əsas söz sahibi olan ölkələrdən birinə çevrilmiş, bunun nəticəsində də özünün cənub sərhədlərinin təhlükəsizliyini böyük ölçüdə təmin etmişdir.

### ƏDƏBİYYAT SİYAHISI:

*1. Burak Bir, "Türkiye 'Cannot Wait Minute Longer' for Op. in Syria", in Anadolu Agency, 7 October 2019, http://v.aa.com.tr/1604934.*

*2. "Foreign Armies in Syria and How They Came to Be There", in Reuters, 6 December 2024, https://www.reuters.com/world/middle-east/ foreign-armies-sy*

*3. Pinar Dinç, "CMES Regional Outlook: The Fall of the Assad Regime: Challenges and Opportunities for Rojava", in CMES News, 10 December 2024, https://www.cmes.lu.se/ node/1528.*

*4. Section 1.2 from How it happened: Two seismic weeks that toppled Syrian government, AP, 8 December 2024; A timeline of the stunning offensive […], Washington Post, 8 December 2024; US backed Syrian Kurds seize eastern city, Reuters, 6 December 2024*

*5. Erdogan has interests in Syria's reignited war, DW, 4 December 2024; Atlantic Council, What does Türkiye gain from the rebel offensive in Syria?, 5 December 2024*

*6. Türkiye extends Syria, Iraq operations by another two years, France 24, 17 October 2023*

*7. HTS leaders offers to quit, BBC Monitoring, 13 March 2024; HTS linked authority details progress on reforms, BBC Monitoring, 2 April 2024*

*8. Jolani: Syria won't be used as a launchpad for attacks on Israel, Times, 16 December 2024*

*9. Syrian rebel leader says he will dissolve toppled regime forces […], Reuters, 12 December 2024*

*10. Russian Foreign Minister Defends Airstrikes in Syria, New York Times, 1 October 2015*

*11.https://tr.euronews.com/2024/12/16/abdnin-secilmis-baskani-donald-trump-esad-rejiminin-devrilmesinin-arkasinda-turkiye-var*

### Strategic Patience – The Key to Türkiye's Victory in Syria

### SUMMARY

In 2011, the wave of the Arab Spring spread to Syria, leading to a civil war that continued intermittently until the end of 2024, when the Assad regime was finally overthrown. Türkiye, sharing a 877 km-long border with Syria to the south, and having significant security interests, was compelled to approach the Syrian issue with great sensitivity. Syria became a strategic battleground between the Western countries and Türkiye on one side, and Russia and Iran on the other, with no party willing to compromise on its interests.

After a long and tense struggle, the Assad regime, backed by Russia and Iran, was overthrown, and the opposition forces supported by Türkiye came to power. Over the course of this more than decade-long conflict, Türkiye demonstrated strategic patience, pursuing its interests in Syria while avoiding direct conflict with Russia and Iran, and maintaining high-level bilateral relations.

**Key words:** *Strategic patience, Türkiye, Assad regime, HTS, regional competition.*

### Стратегическое терпение- как ключ к победе Турции в Сирии

### РЕЗЮМЕ

В 2011 году волна "Арабской весны" распространилась на Сирию, что привело к началу гражданской войны, которая продолжалась с различными перерывами до конца 2024 года, то есть до свержения режима Асада. Турция, имеющая 877 км общую границу с Сирией на юге, а также обладающая своими собственными соображениями безопасности, была вынуждена с большой настороженностью подходить к сирийскому вопросу. Сирия стала ареной стратегической борьбы между западными странами и Турцией с одной стороны и Россией и Ираном с другой. Ни одна из сторон не пошла на компромиссы по своим интересам.

В результате долгой и напряженной борьбы, поддерживаемый Россией и Ираном режим Асада был свергнут, и к власти пришли оппозиционные силы, поддерживаемые Турцией. В течение более чем десяти лет Турция демонстрировала стратегическое терпение, преследуя свои интересы в Сирии, одновременно не вступая в конфликт с Россией и Ираном и поддерживая с ними высокоуровневые двусторонние отношения.

**Ключевые слова:** *стратегическое терпение, Турция, режим Асада, ХТШ, региональная конкуренция.*

UOT 327; 930.22
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.058

# "REGİON" ("BÖLGƏ") ANLAYIŞI MÜASİR SİYASƏT ELMİNİN KATEQORİYASI KİMİ

**KƏRİMOVA NƏZRİN**
*Azərbaycan Dillər Universitetinin beynəlxalq münasibətlər üzrə doktorantı*
*E-mail: n.karimova@dim.gov.az*

"Soyuq müharibə"nin başa çatması və qlobal siyasi və iqtisadi arxitekturaya fəal surətdə inteqrasiya olunan Azərbaycan Respublikasının yaranması onun regionlarının da beynəlxalq əlaqələrə cəlb edilməsi ilə müşayiət olunurdu. Azərbaycanın regionlarının xarici əlaqələri onun beynəlxalq aləmdə siyasi və iqtisadi fəaliyyətinin mühüm tərkib hissəsinə çevrilmişdir. Ona görə də regionlarımızın beynəlxalq əlaqələrdə iştirakının mahiyyət və formalarının politoloji səpgidə araşdırılması və təsnif olunması vacib məsələ kimi qarşıya çıxır. Bu isə, öz növbəsində, region anlayışının siyasət elminin kateqoriyası kimi elmi çəhətdən izahına ehtiyac doğurur.

"Region" anlayışı bu gün bir tərəfdən, müxtəlif ictimai elmlərin universal kateqoriyalarına aid olunur, digər tərəfdən isə gündəlik səviyyədə geniş istifadə olunur. Sözügedən terminin inteqrativ imkanları onu təkcə bir sıra elmlərə aid etməklə kifayətlənməyərək, bu elmlərin özlərinin komponentlərini vahid regional tədqiqatlar sisteminə transformasiya etməklə, onları əlaqələndirməyə imkan verir.

Müvafiq olaraq, bu istilah üçün universal bir tərif tapmaq olduqca çətindir. İqtisadi tədqiqatlar nöqteyi nəzərindən region iqtisadi topluluqdur (camiədir). Regionlar müxtəlif məkan ölçülərinə malik ola bilər, lakin, bir qayda olaraq, onlar dövlətin ərazisindən kənara çıxmır: ya dövlətin bir hissəsidir, ya da bir neçə dövlətin sərhəddində yerləşən ərazidir. Həmçinin bölgənin mədəni və tarixi anlayışını da vurğulamaq olar. Bu nöqteyi-nəzərdən region tarixən formalaşmış, mədəni, linqvistik, konfessional və digər unikallığı olan bir qurumdur [7, s.5].

Rusiyanın cənub bölgələrinin beynəlxalq əlaqələri probleminin tədqiqatçısı Y.A. Natxo region dedikdə, hadisələrin mövcudluğu, intensivliyi, müxtəlifliyi və qarşılıqlı əlaqəsi əlamətləri ilə məhdudlaşdırıla bilən, bu ərazinin müəyyən edilməsi üçün əsas olan coğrafi, təbii, iqtisadi, sosial-tarixi, milli və mədəni şəraitin spesifik homogenliyi şəklində ifadə edilə bilən mürəkkəb ərazi-iqtisadi və milli-mədəni kompleks kimi müəyyən bir ərazini başa düşməyi təklif edir. Bundan əlavə, dissertasiya müəllifi digər tədqiqatçılara istinad edərək bu tərifi tamamlayır. O, xüsusilə qeyd edir ki, regional məkanlar daha çox zona sərhədlərinə malikdir. Bu güman edir ki, dövlət sərhədləri və dövlətlərin ərazi-inzibati strukturu regional məkanların konfiqurasiyası ilə üst-üstə düşmür ki, bu da qloballaşma və regionallaşmanın intensivləşdiyi dünya prosesləri kontekstində xüsusilə özünü büruzə verir. Regionun bu tərifindən belə nəticə çıxır ki, regionalizmin inkişafında iki istiqamət var - qloballaşma proseslərinin dərinləşməsinə yönəlmiş açıq transsərhəd regionalizmi və qloballaşma proseslərinə qarşı yönəlmiş qapalı regionalizm. Yuxarıda deyilənlərə əsaslanaraq, qloballaşma və regionallaşmanın bir-biri ilə əlaqəli proseslərini milli dövlətlər və xalqlar üçün bütün müsbət və mənfi nəticələrlə beynəlxalq münasibətlərin dünya sisteminin inkişafı və onun bütün səviyyələrində siyasi prosesin bütün müxtəlif aktorlarının qarşılıqlı əlaqələrinin genişlənməsi və mürəkkəbləşməsi kimi şərh edə bilərik [14, s.12].

Politologiyada regionun tərifi regionun dövlətdaxili siyasi vahid kimi anlaşılmasından irəli gəlir. Federalizm və ya regionalizm əsasında qurulan dövlətlərdə daxili siyasi münasibətlərdə üç səviyyəli idarəetmə var: milli, regional və yerli. Bu nöqteyi-nəzərdən region konkret ərazi, institusional struktur, yəni özünün siyasi hakimiyyət orqanlarının olması, siyasi hakimiyyətin digər səviyyələri ilə münasibətlərin hüquqi tənzimlənməsi ilə müəyyən edilir [13, s.8]. Başqa sözlə desək, regionun müəyyənləşdirilməsinə politoloji yanaşma onun bir aktyor kimi ən mühüm xüsusiyyətini vurğulayır.

Regional prosesləri araşdıran tədqiqatçıların əsərlərində "region" anlayışının konkretləşdirilməsinə cəhdlər edilir. Bu zaman konkretləşdirmənin iki əsas strategiyası təklif olunur. Birinci strategiya sintetik tərif yaratmaq cəhdindən ibatrətdir. A.Markuzen universal tərif kimi aşağıdakıları təklif edir: region özündə fiziki çevrəni, sosial-iqtisadi mühiti, habelə şəhər və ya millət kimi digər bölgələrdən və ərazi vahidlərindən fərqli məkan quruluşunu ehtiva edən, tarixən təkamüldə olan kompakt ərazi birliyidir [3, s.17, 28]. Belə yanaşmada bəzən məhz regional identiklik regionun siyasi, sosial və institusional

məkan kimi konstruksiya olunmasına (qurulmasına) yönəlmiş özünəməxsus açar kimi nəzərdən keçirilir.

İkinci strategiya region anlayışını daha dar anlayışlara bölməkdən ibarətdir. Nümunə kimi qeyri-institusional regionları ifadə edən "məkan" (пространство), "altfederal vahid" (субфедеральная единица) (federativ tərkib hissəsi) və "qeyri-mərkəzi hökumət" (нецентральное правительство) anlayışlarını gətirilir [4, s.21].

Elmi ədəbiyyatda "region"u müəyyən edən üç əsas anlayış irəli sürülür: 1) yekcinslik əsasında zonalar (zonalaşdırma); 2) komplekslilik əsasında komplekslər; 3) bu iki xüsusiyyətin birləşməsi əsasında rayonlar. A.P. Klemeşevin fikrinə görə, regionun mühüm atributu ictimai regional maraqların dərk edilməsidir. Bu zaman regiona daxil olan ərazilərin iqtisadi təcrübəsi ilə müəyyən maraqları ifadə edən qruplar arasında əlaqə mühüm amildir. Region iqtisadi artıma və rifaha təsir göstərən dəyişən şərtlərə müəyyən şəkildə reaksiya verən hansısa bir vahid kimi nəzərdən keçirilir [9, s.22-23]. Ümumi etimoloji mənada region, onun tərkib elementlərinin bütövlüyünə və qarşılıqlı əlaqəsinə malik olan müəyyən ərazidir [8, s.55].

"Altfederal vahid" və "mərkəzi olmayan hökumət" anlayışlarına daha yaxından nəzər salaq: altfederal tərkib termini amerikalı C.Kinkayd tərəfindən təklif edilmişdir. Rusdilli ədəbiyyatda oxşar anlayış B.Ştulbeq və V.Vvedenski tərəfindən dövriyyəyə daxil edilmiş "altfederal (subfederal) vahid" anlayışıdır [15, s.134].

M.Kitinq tərəfindən irəli sürülmüş "qeyri-mərkəzi hökumət" konsepsiyası daha uğurludur. Bu termin, birincisi, regionun institusional xüsusiyyətlərini göstərir, ikincisi, konsepsiyanın həm federasiyanın ərazi vahidlərinə, həm də unitar dövlətə şamil edilməsinə imkan verir. "Region" anlayışının konkretləşdirilməsinin ən uğurlu nümunəsi, fikrimizcə, regionun sinonimi kimi A. Lekurt tərəfindən təklif olunan "altmilli (subnational) vahid" anlayışıdır. Belə region anlayışı dəqiq göstərir ki, region dövlət səviyyəsindən bilavasitə sonra gələn siyasi münasibətlər səviyyəsini tutur.

Oxşar tərif 1996-cı ildə Avropa Regional Assambleyası tərəfindən qəbul edilmiş "Avropada Regionalizm haqqında Bəyannamə"də verilmişdir. Bu bəyannamənin 1-ci maddəsində deyilir: "Region dövlət səviyyəsindən bilavasitə əvvəlki səviyyəyə uyğun gələn, müvafiq siyasi səlahiyyətlərə malik hökuməti olan dövlət ərazi qurumudur". Eyni bəyannamədə bölgənin digər xüsusiyyətləri sadalanır: 1. Bölgə ona muxtariyyət, identiklik, səlahiyyətlər və təşkilat formasına zəmanət verən Konstitusiya və ya qanunla tanınır; 2. Bölgənin öz Konstitusiyası, dövlətlərin hüquqi strukturunun bir hissəsi olan muxtariyyət nizamnaməsi və ya qanunu olur; 3. Bölgə çox fərqli siyasi formalara bürünə bilən öz siyasi kimliyini ifadə edir [4, s.22-23].

Burada bölgə altmilli vahid kimi anlaşılacaqdır. Aydındır ki, regionun daxili və xarici siyasət əlaqələrinin altmilli vahidi kimi tanınması onun mədəni-tarixi kimliyini və iqtisadi müstəqilliyini inkar etmək demək deyil. Və iqtisadi, mədəni-tarixi və siyasi bölgələrin sərhədlərinin üst-üstə düşməməsinə baxmayaraq, siyasi bölgənin fəaliyyətinə iqtisadi və mədəni-tarixi faktorlar təsir edəcək. Nümunə olaraq, biz altmilli səviyyədə fəaliyyət göstərən ərazi-siyasi qurum kimi bölgənin tərifindən istifadə edəcəyik.

Bu araşdırma çərçivəsində regionların beynəlxalq siyasi fəaliyyəti beynəlxalq aləmdə xarici dövlətlər və ya onların regionları ilə qarşılıqlı əlaqədə öz məqsədlərinə çatmağa yönəlmiş müstəqil fəaliyyət kimi nəzərdən keçirilir. Region dedikdə isə dövlət daxilində mövcud olan və siyasi münasibətlərin altmilli səviyyəsində fəaliyyət göstərən ərazi-siyasi qurum başa düşülür.

Deyilənləri ümumiləşdirərək bölgə anlayışını belə ifadə etmək olar: əgər dövlət, ümumi məcburi xarakter daşıyan ictimai hakimiyyətin köməyi ilə müəyyən ərazidə əhalinin həyat fəaliyyətini təşkil və təmin etmək üçün yaradılmış cəmiyyətin siyasi sisteminin mərkəzi institutudursa, onun bölgəsi özünəməxsus coğrafi mövqeyi olan, bütövlüyü və tərkib elementlərinin qarşılıqlı əlaqəsi olan müəyyən ərazidir. Bölgə ümumelmi baxımdan daha geniş sosial-ərazi ümumiliyinin əlahiddələşmiş hissəsidir. O, təsərrüfatın, əhalinin, mədəniyyətin, siyasətin və cəmiyyət həyatının digər tərəflərinnin altsistemini əmələ gətirir.

Bölgə dövlətin ərazi vahidi mənasında da işlənir. Daha dəqiq desək region təkcə iqtisadi və ya coğrafi kateqoriya deyil, yəni "bölgə" və "ərazi" anlayışları eyniləşdirilə bilməz. Həm formalaşmasının, həm də mövcudluğunun əsasını təşkil etdiyi üçün ərazi komponenti hər bir region üçün vacibdir. İstənilən region özündə müəyyən ərazini ehtiva edir, lakin ərazini region adlandırmaq üçün təkcə ərazi komponenti kifayət etmir. Müəyyən ərazidə bölgənin for-

malaşması üçün zəruri ilkin şərt iqtisadi, etnoqrafik, konfessional, sosial-mədəni tərkibin spesifikliyinin, cəmiyyətin və hakim elitanın siyasi təşkilatının xüsusi səciyyəsinin olmasıdır [12, s.5].

Region siyasətin subyekti kimi nəzərdə tutulanda burada hakimiyyət və idarəetmə institutlarının fəaliyyəti və səlahiyyətləri ilə bağlı olan onun təşkilati-iqtidar aspektləri dominantlıq qazanır. Sosial tərəf, bir qayda olaraq, inzibati elitanın funksiyalarına və fəaliyyətinə müncər olunur. Beləliklə, regionun problematikası siyasi münasibətlərin təşkilati və sosial səviyyələrə bölünməsindən asılı olaraq fərqləndirilir. Region bu halda siyasi vasitələrlə düzənlənmiş sosial-siyasi bütövlük kimi nəzərdən keçirilir [6, s. 152].

Siyasi elm nümayəndələrinin regionların beynəlxalq fəaliyyətinə diqqəti regional (altmilli) səviyyədə baş verən siyasi proseslərin öyrənilməsinə marağın artmasının nəticəsi idi.

İstər xarici, istərsə də yerli tədqiqatçıların tədqiq etdikləri prosesləri (federallaşma, millətçilik, separatizm və s.) regionların beynəlxalq fəaliyyətinin inkişafı amilləri hesab etmək olar. Onlar regionların beynəlxalq fəaliyyətlərində həyata keçirdikləri prioritet məqsədlərin formalaşmasına gətirib çıxarır. Belə məqsədlərə aşağıdakılar daxildir:

- regionun sosial-iqtisadi inkişafına kömək etmək, istehsalın artımını təmin etmək, ticarət göstəricilərini yaxşılaşdırmaq, vətəndaşların həyat səviyyəsini yüksəltmək;
- regionun maraqlarını qorumaq üçün milli və beynəlxalq proseslərə regionun təsirini artırmaq. regionun maraqlarını qorumaq üçün milli və beynəlxalq proseslərə regionun təsirini artırmaq;
- regional kimliyin təşviqi və dəstəklənməsi [10, s.74].

Bölgələrin maraqlarından asılı olaraq onların xarici iqtisadi fəaliyyəti müxtəlif istiqamətlərə malik ola, müxtəlif yollarla və müxtəlif kanallar vasitəsilə həyata keçirilə bilər. Ənənəvi olaraq regional beynəlxalq fəaliyyətin üç əsas istiqaməti var: siyasi, iqtisadi və mədəni.

Regionların beynəlxalq fəaliyyəti müxtəlif təşkilati-hüquqi mexanizmlər və xarici və daxili şəraitdə əhəmiyyətli fərqlər ilə seçilir. Regionların beynəlxalq fəaliyyəti üçün ən çox müəyyən edilmiş alətlər aşağıdakılardır: 1) regionların beynəlxalq müqavilələrin imzalanmasında və beynəlxalq təşkilatların fəaliyyətində iştirakı; 2) öz müqavilələrini bağlamaq və nümayəndəliklər açmaq; 3) regionların beynəlxalq təşkilatlarda iştirakı [10, s.90].

Regionların beynəlxalq müqavilələrin bağlanmasında iştirakı və beynəlxalq təşkilatlarda iştirakı xüsusi əhəmiyyət kəsb edir, çünki təşkilatlara üzvlük kimi qəbul edilən beynəlxalq müqavilələr və öhdəliklər hökumətin nizamnaməsindən üstündür. Regionların beynəlxalq təşkilatların fəaliyyətində iştirakına gəlincə, bu, əksər hallarda dövlətin bu və ya digər beynəlxalq təşkilata qoşulması ilə bağlı qərarların qəbuluna hazırlıq mərhələlərində məsləhətləşmələr şəklində baş verir. Həmçinin, mərkəzləşdirilməmiş (децентрализованные) dövlətlər regionların səlahiyyətlərinə və ya maraqlarına toxunan məsələlərə baxılarkən dövlətlərarası forumlarda regionların qeyri-rəsmi və ya yarı-formal iştirakını təmin edə bilər. Beləliklə, dövlətin nümayəndə heyətinə regional hökumətlərin nümayəndələri daxil ola bilər. Müxtəlif dövlətlərin regionları arasında bağlanan müqavilələrin əksəriyyəti çox vaxt dar və konkret sahələri tənzimləyir: ticarət-iqtisadi əməkdaşlıq, texnologiyanın inkişafı, təhsil və mədəniyyət məsələləri, mütəxəssislərin mübadiləsi və s. ikitərəfli sazişlər və müqavilələr. Sonuncular konkret layihələrə aiddir, birincilər isə əməkdaşlığın istiqamətlərini müəyyən edir [4, s.31-32].

Regionların beynəlxalq fəaliyyətinin digər aləti regionların beynəlxalq birliklərdə iştirakıdır. Regionlararası birliklərdə birləşərək, regionlar öz maraqlarını ifadə edirlər ki, bu da onlara, beynəlxalq münasibətlər mühitinin formalaşmasına təsir göstərməyə imkan verir. Beynəlxalq təşkilatlara üzvlük milli hökumətlə qarşılıqlı əlaqə ilə yanaşı, regionların beynəlxalq fəaliyyətinin ən geniş yayılmış formalarından biridir. Regionların çoxməqsədli assosiasiyalarına misal olaraq Avropa Yerli və Regional Hakimiyyətlər Konqresi, Avropa Regionları Assambleyası və Avropa İttifaqının Regionlar Komitəsini göstərmək olar. Həmçinin müxtəlif əməkdaşlıqlar - konkret məsələlərin həllinə yönəlmiş regionların assosiasiyaları mövcuddur: bazarların delimitasiyası, texnologiyanın inkişafı və s. Belə əməkdaşlığa misal olaraq Avropa bazarının birgə inkişafına yönəlmiş "Avropa üçün Dörd Motor" təşkilatını göstərmək olar [4, s.33].

Regionların beynəlxalq fəaliyyətinin nəticələrindən danışarkən, onları regionun mərkəzi hökumətlə və bütövlükdə beynəlxalq münasibətlər sistemi ilə münasibətlərinin nəticələri baxımından daxili və xa-

rici amillərə bölmək olar.

Bölgələrin beynəlxalq fəaliyyətinin mərkəzlə regionlar arasında əlaqə üçün əsas nəticəsini dövlət idarəetmə sistemində səlahiyyət bölgüsünə doğru dəyişmə kimi adlandırmaq olar. İlk növbədə, regionların beynəlxalq fəaliyyəti "şaquli" seqmentləşdirməyə, yəni region və dövlət arasında səlahiyyətlərin yenidən bölüşdürülməsinə kömək edir. Beynəlxalq arenaya çıxmaqla region dövlət hakimiyyətinin tarixi monopoliyasını qıraraq yeni səlahiyyətlər əldə edir.

Regionların beynəlxalq fəaliyyəti nəticəsində "üfüqi" seqmentasiya, yəni hakimiyyətin hər bir səviyyəsində siyasi institutlar arasında beynəlxalq münasibətlər sahəsində səlahiyyətlərin yenidən bölüşdürülməsi də baş verə bilər. Belə ki, əgər əvvəllər beynəlxalq fəaliyyətə yalnız dövlət və (və ya) hökumət başçısı, habelə ixtisaslaşmış orqan, məsələn, Xarici İşlər Nazirliyi cavabdehlik daşıyırdısa, müasir şəraitdə bir çox dövlətlərdə tamamilə fərqli dövlət orqanları və təkcə icra hakimiyyəti deyil, həm də qanunvericilik və məhkəmə tərəfindən xarici siyasət əlaqələri qurulur. Üstəlik, "üfüqi" seqmentləşdirmə ilə qarşılıqlı əlaqədə olduqda, bu proses təkcə mərkəzi deyil, həm də altmilli səviyyələrdə baş verir.

Bununla belə, regionların beynəlxalq fəaliyyəti mərkəzdənqaçma meyllərinin minimuma endirilməsi mexanizminə çevrilə bilər. Bu, xüsusilə federal dövlətlər üçün doğrudur, çünki müasir federalizmin mühüm xüsusiyyəti regionlar arasında daimi əlaqə kanalının olmasıdır.

Regionların beynəlxalq fəaliyyətinin inkişafının bütün beynəlxalq münasibətlər sistemi üçün nəticələrinə gəlincə, əsas məsələ regionun dünya siyasətinin subyektinə çevrilməsi faktıdır. Bölgənin beynəlxalq aləmə çıxması daxili və xarici siyasət arasındakı sərhədin aradan qaldırılması deməkdir.

Altmilli vahidlərin fəaliyyətini təmsil edən regionların beynəlxalq fəaliyyəti müasir dünya siyasi prosesində iki əsas tendensiyanı - qloballaşma və regional siyasi proseslərin rolunun güclənməsini özündə birləşdirən fenomendir. Bundan əlavə, regionların beynəlxalq fəaliyyəti əslində "daxili" və "xarici" sərhədlərin silinməsi prosesinin təcəssümüdür, məhz bu sərhədlər üzərində mövqe tutur. Bu spesifikliyə görə regionların beynəlxalq fəaliyyəti həm xarici, həm də daxili amillərlə müəyyən edilir.

Daxili amillərə siyasi sistemin qeyri-mərkəzləşdirilməsi, regionların iqtisadi asimmetriyası və etnik kimlik ilə xarakterizə olunan bölgələrdə millətçiliyin inkişafı daxildir. Xarici amillərə iqtisadi proseslərin qloballaşması və dövlətlərarası inteqrasiya daxildir.

Bu amillərin təsiri regionların beynəlxalq fəaliyyətinin daxili ziddiyyətli təbiətinin formalaşmasına gətirib çıxarır. Belə bir təbiət həm qloballaşma dövrünün, həm də və sənaye cəmiyyətinin sosial-siyasi prinsiplərini (məsələn, çoxvektorlu inkişafı və struktur çoxşəkilliyini) özündə birləşdirir. Lakin məhz bu cür özündə birləşdirmə regionların beynəlxalq fəaliyyətini dövlətlər üçün cəlbedici edir; onlar bu fəaliyyətdə hakimiyyətin bir qisminin regionlara güzəştə gedilməsi bahasına öz daxili strukturunu qoruyub saxlamaq və qlobal siyasi meydanda qalmaq cəhdini görürlər.

Beləliklə, sistem yanaşması nöqteyi-nəzərindən region mürəkkəb struktur olmaqla, ayrılmış bir və ya bir neçə əlamətin məcmusuna görə nisbətən bütöv qurumu təmsil edir [5, s.8-9]. Bu əlamətlərə görə coğrafi, iqtisadi, inzibati-siyasi, geosiyasi regionlar fərqləndirilir. İnzibati-siyasi regionlar isə öz növbəsində inzibati və siyasi mülahizələr əsasında təşəkkül tapmış regionlara ayrılır. Azərbaycan siyasi-hüquqi gerçəkliklərində regionlar daha çox inzibati və iqtisadi rayonlaşdırmada, eləcə də tarixi-coğrafi prinsiplər üzrə formalaşan bölgələrdə ifadəsini tapır. Bizdə siyasi region anlayışına nisbətən uyğun gələni müəyyən tarixi reallıqların və geosiyasi proseslərin məhsulu olan Naxçıvan Muxtar Respublikasıdır. Ölkəmizdə əsas inzibati-ərazi vahidi sayı hal-hazırda 64 olan rayonlardır [1, s.10]. Rayon inzibati-ərazi bölgüsü 1930-cu ildə yaradılmaqla, sabit və davamlı iqtisadi, mədəni və sosial əlaqələri olan ərazilərdən təşkil edilmiş və bir neçə inzibati ərazi dairələrini birləşdirir. Onların ümdə vəzifələri sırasında Azərbaycan Respublikasının ümumi ərazisinin idarə edilməsinin mərkəzləşdirilməsi, dövlət funksiyalarının həyata keçirilməsinin səmərəliləşdirilməsi, habelə dövlət hakimiyyəti orqanlarının əhaliyə mümkün qədər yaxınlaşdırılması göstərilir [2, s.3]. Bundan əlavə, ölkəmiz 2021-ci ilin iyulun 7-də "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanının dərci ilə 14 iqtisadi rayona (Bakı; Naxçıvan; Abşeron-Xızı; Dağlıq Şirvan; Gəncə-Daşkəsən; Qarabağ; Qazax-Tovuz; Quba-Xaçmaz; Lənkəran-Astara; Mərkəzi Aran; Mil-Muğan; Şəki-Zaqatala; Şərqi Zəngəzur; Şirvan-Salyan) bölünür; həmin tarixədək 10 iqtisadi

rayon mövcud olmuşdu. Azərbaycanın iqtisadi rayonları Azərbaycan Respublikasının ərazi-əmək bölgüsü prosesində tarixən formalaşmış özünəməxsus iqtisadi-coğrafi mövqeyi, ərazi-iqtisadi vəhdəti, unikal təbii-iqtisadi şəraiti və istehsal ixtisaslaşması ilə səciyyələnən rayonlarıdır. Bu rayonlar müxtəlif inkişaf yolları keçmiş və bir-birindən iqtisadi, sosial və perspektiv inkişaf imkanları nöqteyi-nəzərindən fərqlənirlər [11, s.169-170]. Burada onu da qeyd etməliyik ki, Azərbaycan, bəlli olduğu kimi, unitar dövlətdir. Ölkəmizin regionları siyasi-hüquqi baxımdan müstəqil altmilli və federativ dövlətlərdə olduğu kimi, subyekt olaraq fəaliyyət göstərmirlər. Yalnız Naxçıvan Muxtar Respublikası spesifik tarixi, coğrafi, siyasi səbəblər üzündən Azərbaycan dövlətçiliyi çərçivəsində xüsusi dövləti statusa malikdir. Azərbaycanın altmilli (subnational) vahidləri xarici qarşılıqlı fəaliyyətdə beynəlxalq münasibətlərin institusional subyekti kimi deyil, vahid dövlət mexanizminin komponenti qismində təmsil olunmuşdur və bu təmsilçiliyi bölgələrin Azərbaycan Respublikasının beynəlxalq əlaqələrində iştirakı olaraq səciyyələndirmək daha düzgündür.

**Açar sözlər:** *"region" anlayışı, altmilli vahid, inzibati-ərazi bölgüsü, federalizm, unitarizm.*

### ƏDƏBİYYAT SİYAHISI:

*1. Azərbaycan regionları 2024. Statistik məcmuə. Bakı: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəi, 2024, 845 s.*

*2. İnzibati-ərazi bölgüsü təsnifati, 2024. Bakı: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəi, 2024, 119 s.*

*3. Markusen A. Regions: economics and politics of territory/ A. Markusen. Lanham: Rowman and Littlefield Publishers, 1987, 304 p.*

*4. Анимица Е.Г. Региональная политика: сущность, основные цели, проблемы // Экономика региона, 2005, №1, с.8-19*

*5. Алексеева А. А. Регион в системе международных отношений. Екатеринбург: Уральский Государственный Педагогический Университет, 2016. 62стр.*

*6. Артюх Е.В. Регион как объект политологического анализа // Территория новых возможностей. Вестник Владивостокского государственного университета экономики и сервиса, 2010, №4 (8), с. 149-157*

*7. Белявцева Д. В. Региональное пространство и политическое сознание общества: опыт концептуализации проблемы // Регионалистика: сб. науч. трудов. Гродно, ГрГУ им. Я. Купалы, 2008, с.3-24*

*8. Василькова Е.А. Понятие «регион» и современные тенденции развития регионализма // Вестник Таганрогского института управления и экономики. 2018, № 2 с. 54-58*

*9. Клемешев А.П. Регион в условиях глобализации // Вестник ВГУ. Серия Гуманитарные науки. 2005, № 2, с. 22-38*

*10. Кузнецов А. С. Политическая регионалистика: теоретико-методологический анализ современных концепций. Диссертация ... кандидата политических наук. Екатеринбург, 2008, 146 с.*

*11. Мамедов Р.М. Анализ и оценка хозяйственных комплексов экономических районов Азербайджана // Российское предпринимательство. – 2011. – Т. 12, № 10. – с. 169-174*

*12. Межевич Н.М. Определение категории «регион» в современном научном дискурсе // Псковский регионологический журнал, 2006, №2, с. 3-21.*

*13. Насыров И. Р. Международное сотрудничество регионов. Мировая практика и опыт Татарстана. Казань: Казан. гос. ун-т, 2007, 330 с.*

*14. Натхо Ю.А. Международные связи субъектов федерации южного региона России: политические аспекты // Автореферат диссертации на соискание ученой степени кандидата политических наук. Москва, 2005. 22 с.*

*15. Штульберг Б., Введенский В. Региональная Политика России: теоретические задачи и методы реализации М., ГелиосАРБ, 2000. 208 с.*

### Понятие «регион» как категория современной политической науки

### РЕЗЮМЕ

В представленной статье рассматриваются некоторые аспекты понятия «регион» как категории политологии. Данное понятие сегодня, с одной стороны, относится к универсальным категориям различных общественных наук, а с другой стороны, широко употребляется в повседневной жизни. Интегративные возможности рассматриваемого термина позволяют не только обозначать им ряд наук, но и преобразовывать

сами компоненты этих наук в единую систему регионоведения, связывая их воедино. Анализ позволил выделить такие компоненты данного понятия, как физико-географические, политические, социокультурные, этнические, экономические и прочие, что дает основание определить регион в качестве территориально-политического образования, существующего в пределах государства и функционирующего на субнациональном уровне политических отношений.

**Ключевые слова:** *понятие «регион», субнациональная единица, административно-территориальное деление, федерализм, унитаризм.*

**The concept of "region" as a category of modern political science**

**SUMMARY**

The article presents some aspects of the concept of "region" as a category of political science. Today, this concept, on the one hand, refers to the universal categories of various social sciences, and on the other hand, is widely used in everyday life. The integrative capabilities of the term in question allow not only to designate a number of sciences, but also to transform the components of these sciences into a single system of regional studies, linking them together. The analysis allowed us to identify such components of this concept as physical-geographical, political, socio-cultural, ethnic, economic and others, which gives grounds to define a region as a territorial-political entity existing within the state and functioning at the subnational level of political relations.

**Key words:** *concept of "region", subnational unit, administrative-territorial division, federalism, unitarism.*

УДК 327; 930.22
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.062

# ТУРИЗМ КАК СОВРЕМЕННЫЙ АТРИБУТ ПУБЛИЧНОЙ ДИПЛОМАТИИ

**СОНА АБАСОВА**
*Бакинский Государственный Университет, диссертант*
*E-mail: sabasova9@gmail.com*

В современный период «классическая дипломатия» считается недостаточным, чтобы решать глобальные проблемы. В настоящее время все большую актуальность приобретает публичная дипломатия. Под публичной дипломатией понимается комплекс мер, нацеленных на изучение и информирование зарубежной аудитории, а также на установление контактов. Это действия, направленные на строительство долгосрочных отношений, защиту целей национальной внешней политики и лучшего понимания ценностей и инструментов собственного государства за рубежом. Иначе говоря, новая публичная дипломатия ориентирована исключительно на диалог с зарубежными государствами, а не только на распространение информации.

Практическая реализация поставленной цели возможна с помощью следующих средств: – формирование «мессиджа» для трансляции за рубеж, информирование массовых аудиторий и отдельных групп и людей, аргументированное изложение и разъяснение внутренней и внешней политики государства, честный и открытый диалог,

– воздействие на тех, кто формирует общественное мнение;

– создание и развитие инструментов коммуникации и убеждения, прямые контакты между общественными институтами, средствами массовой информации, группами людей и частными лицами из разных стран;

– пропаганда своих ценностей посредством кино, телевидения, радио, музыки, спорта, театра, туризма, общения в Интернете и другие формы социальной и культурной активности.

Целью статьи является выявлении основных особенностей публичной дипломатии.

Задачи исследования: 1) расскрыть понятие публичной дипломатии; 2) показать туризм как инструмент «мягкой силы» и атрибут публичной дипломатии.

**Основное содержание**

Под публичной дипломатией сегодня могут пониматься разные формы международного сотрудничества — от взаимодействия общественных институтов, функционирующих по разные стороны государственных границ, до экспертного диалога по ключевым вопросам современности. Более того, в терминологии есть смысловые нюансы между понятиями «публичная дипломатия», «общественная дипломатия», «народная дипломатия» и некоторыми другими, однако в научном дискурсе их принято соотносить с единым англоязычным термином public diplomacy, а потому рассматривать как взаимозаменяемые [1, 57].

В самом широком смысле публичная дипломатия — это система коммуникации между странами и народами вне (помимо) официальных государственных отношений, т.е. любые контакты между людьми, организациями, странами без вовлечения профессиональной дипломатии, т.е. без обязательного участия государства. Публичная дипломатия — это диалог гражданских обществ между собой, который «может осуществляться непосредственно государственными ведомствами, а может — опосредованно — через НПО, СМИ, бизнес-агенты, университеты с их образовательными программами» [2, 45].

Новая публичная дипломатия строит межгосударственные отношения на технологиях «мягкой силы». Понятие “силы”, одно их центральных для теории международных отношений, получило новое звучание с введением в научный оборот неолибералом Дж. Наем термина “soft power” (мягкая сила). В последние годы в политическом дискурсе все чаще стала употребляться бинарная оппозиция “жесткий–мягкий” как отражающая трансформирующуюся природу мировой политики и международных отношений.

«Мягкая сила» во внешней политике государств означает использование культурных, экономических и других невоенных методов воздействия для достижения своих политических и

экономических целей.

Несмотря на 20-летний период своего существования, понятие “мягкая сила” и сегодня остается достаточно дискуссионным и неоднозначным. Широко используемое в научных работах и журналистике, оно, тем не менее, для разных исследователей несет разное смысловое наполнение. Как правило, это понятие используется в контексте оценки региональных и глобальной сфер влияния государств, не только способных, но и стремящихся играть значимую роль в мировой политике. В последнее время оно наиболее часто употребляется при сопоставлении сфер влияния США и Китая. В частности, констатируется упадок “мягкой силы” Соединенных Штатов и рост “мягкой силы” КНР в XXI в. Некоторые исследователи обращаются к изучению “мягкой силы” ЕС, отдельных европейских государств, Японии и России. Следует отметить также, что “мягкой силой” могут обладать не только государства, а также корпорации и отдельные харизматичные личности [3].

По Дж. Наю, сила – это способность влиять на других так, чтобы получить желаемый результат. Следуя логике Дж. Ная, «страна может добиться желаемых результатов в мировой политике, когда другие государства хотят следовать за ней, восхищаясь ее ценностями, подражая ее примеру, стремясь достичь ее уровня благосостояния и открытости. В этом смысле в мировой политике важно формировать повестку дня и привлекать других, а не только заставлять их меняться, угрожая военной силой или экономическими санкциями. Такая мягкая сила, благодаря которой другие хотят того же, что и вы, не принуждает, а привлекает людей».

В качестве нетрадиционных ресурсов, или ресурсов “мягкой силы”, в своих ранних работах Дж. Най выделял привлекательность культуры и идеологии, международные институты, а позднее – культуру, ценности и внутреннюю и внешнюю политику. Многие исследователи склонны из этого ряда ресурсов “мягкой силы” заострять внимание на привлекательности культуры и образа жизни. Например, способность США проецировать свое влияние на международной арене они объясняют не только военным и экономическим потенциалом этого государства, но и популярностью американских фаст-фуда, кинофильмов, музыки и прочими проявлениями массовой культуры.

Инструменты “мягкой силы” включают коммуникацию, в том числе информационные технологии и особенно интернет, дипломатические представительства, культурные, научные и образовательные центры, крупномасштабные мероприятия (например, Олимпийские игры). Носителями “мягкой силы” могут быть и известные торговые бренды, достижения в науке, технике, искусстве. В сфере внешней политики ресурсами “мягкой силы” ЕС выступают его активное участие в международном сотрудничестве по таким вопросам, как глобальное изменение климата, международное право, права человека.

Практически все крупные государства пытаются включить “мягкую силу” в свои внешнеполитические стратегии и расширить ее влияние. Повышать “мягкую силу” государства можно проведением различных мер информационного, рекламного и пропагандистского характера, направленных на улучшение международного имиджа государства. Этот путь формирует образ “мягкой силы” и включает три основных направления: публичную дипломатию, государственную (традиционная) дипломатию, программы помощи развитию зарубежным странам и оказание гуманитарной помощи.

Многие исследователи абсолютизируют значение и роль публичной, и культурной дипломатии в процессе повышения “мягкой силы” государства. Следует отметить, что публичная дипломатия достаточно длительный путь создания положительного имиджа государства за рубежом, хотя и доказавший свою эффективность.

Большое значение для повышения “мягкой силы” государства может иметь и его участие в урегулировании различных кризисных ситуаций и международных конфликтов. В последнее время этот метод достаточно умело использует Пекин, выступая, по сути, медиатором между так называемыми странами-изгоями и Западом. Еще одним действенным инструментом повышения привлекательности государства является механизм предоставления помощи странам мира.

Приоритетом второго, “естественного” пути наращивания государством “мягкой силы”, в от-

личие от первого, является не намеренная рекламация своих достижений, а их реальное и постоянное умножение. Конкретно это проявляется в развитии национальной культуры и науки, создании успешной экономической модели, утверждении справедливого общества, реализации внутренней политики, пользующейся одобрением со стороны собственных граждан, проведении мирной внешней политики, сотрудничестве с другими государствами в целях решения транснациональных проблем, проведении миротворческих акций и пр. Эти достижения объективно определяют уровень “мягкой силы” государства.

Эффективным инструментом «мягкой силы» в настоящее время является и туризм, который представляет собой неофициальную, но законную деятельность отдельных граждан, коммерческих структур, направленную на реализацию национальных и общественных интересов государства на международной арене [4].

Туризм позволяет в определенном смысле реализовывать концепцию «мягкой силы» ориентированную на развитие контактов на человеческом уровне. Говоря о туризме как инструменте публичной дипломатии, можно констатировать активный интерес к развитию такого вида дипломатии, как туристической. Туристическая дипломатия – это инструмент, с помощью которого государство может рассказать миру о себе.

К.И.Косачев отмечает: «Успеха достигает тот, кто умеет задействовать все имеющиеся ресурсы: язык, образование, туризм, национальная кухня, кинематограф, бренды – все то, что мы видим в арсенале тех, кто использует инструментарий «мягкой силы» уже годы и десятилетия либо стремительно овладевает этим инструментарием сейчас» [5].

По мнению А. Савойского, туристическая дипломатия – это средство в осуществлении внешней политики по координированию и предоставлению услуг в области туризма, в информационно-рекламном обеспечении, соответствии гостинично-ресторанного сервиса международным стандартам [6, 78].

Туристическая дипломатия, будучи по сущности экономической, в настоящее время осуществляется все в большей степени методами публичной дипломатии.

**В заключении**

Таким образом, туристическая дипломатия в настоящее время приобрела открытый характер и стала, по сути, публичной. Мир и стабильность через развитие туризма – объективно одна из важнейших задач для многих государств.

Таким образом, проведя исследование, можно утверждать, что публичная дипломатия – это только один из механизмов «мягкой силы», который в современном мире выступает важным и результативным инструментом внешней политики государства с одной стороны, и возможностью для гражданского общества скорректировать внешнюю политику и придать «человеческое лицо» официальной форме дипломатии - с другой. Публичная дипломатия также является ресурсом, площадкой для создания и распространения конструктивных идей, которые впоследствии могут с успехом быть взяты на вооружение на официальном государственном уровне.

Основная характеристика современного мирового процесса – глобализация, которая внесла существенные изменения в сферу международных отношений. В глобализирующемся мире публичная дипломатия превратилась в важнейший инструмент внешней политики страны.

**ЛИТЕРАТУРА:**

*1. Лукин А.В. Публичная дипломатия: государственная пропаганда или общественная инициатива? // Дипломатический ежегодник — 2012. М.: Весь мир, 2013. С.57–86.*

*2. Лебедева М.М. Публичная дипломатия в урегулировании конфликтов // Международные процессы. 2015. Т.13, № 4 (43). С.45–56. https://doi.org/10.17994/it.2015.13.4.43.3.*

*3. И. Радиков, Я. Лексютина “Мягкая сила” как современный атрибут великой державы.*

*4. Т. В. Черевичко. Туризм как инструмент публичной дипломатии.*

*5. Косачев К.И. Разговор с Константином Косачевым: Россия поддерживает свой авторитете в мире «мягкой силой». URL: http://rus.ruvr.ru/radio_broadcast/65446337/86815347.html.*

*6. Савойский А. Экономическая дипломатия современной России в отношении США на международной арене. М., 2011. С. 78*

*7. Торкунов А.В. Образование как инстру-*

*мент «мягкой силы» во внешней политике России // Вестник МГИМО Университета. 2012. № 4 (25).*

*8. Turizm diplomasisi - Uluslararası İlişkiler ve Turizm. Ömər Sarı.*

**РЕЗЮМЕ**

В статье автор отмечает возросшую роль и значение публичной дипломатии в решении глобальных проблем. Среди основных инструментов публичной дипломатии особое место занимает туризм, который гуманизирует международные отношения и укрепляет образ государства.

**Ключевые слова:** *туризм, глобализация, публичная дипломатия, сотрудничество.*

**Tourism as a modern attribute of public diplomacy**

**SUMMARY**

In the article, the author notes the increased role and importance of public diplomacy in solving global problems. Among the main tools of public diplomacy, tourism occupies a special place, humanizing international relations and strengthening the image of the state.

**Key words:** *tourism, globalization, public diplomacy, cooperation.*

**Sona Abasova,**
***Dissertant, Bakı Dövlət Universiteti***
***Sabasova9@gmail.com***

**Turizm xalq diplomatiyasının müasir atributu kimi**

**XÜLASƏ**

Məqalədə müəllif qlobal problemlərin həllində xalq diplomatiyasının artan rolunu və əhəmiyyətini qeyd edir. Xalq diplomatiyasının əsas alətləri sırasında beynəlxalq münasibətləri humanistləşdirən və dövlətin imicini möhkəmləndirən turizm xüsusi yer tutur.

**Açar sözlər:** *turizm, qloballaşma, xalq diplomatiyası, əməkdaşlıq.*

UOT 32
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.065

# BEYNƏLXALQ TƏCRÜBƏDƏ GƏNCLƏR SİYASƏTİNƏ DAİR YANAŞMALARDA YENİ TENDENSİYA VƏ REALLAŞDIRILMA PARADİQMALARI

**XƏLİL YUSİFLİ**
*Gəncə Dövlət Universitetinin doktorantı*
*E-mail: yusiflixalil1@gmail.com*

Məlum həqiqətdir ki, müxtəlif dövlətlərdə gənc nəsillə bağlı siyasətin həyata keçirilməsinə dair bütün istiqamətlərin və spesifik yanaşmaların müxtəlifliyinə baxmayaraq, bütün proqram və strategiyalarda olan bəzi ümumi müddəaların qeyd edilməsi olduqca vacibdir. Bu baxımdan gənclər siyasətinin formalaşmasında dövlət strategiyasının beş əsas müddəasını biz aşağıdakı kimi müəyyənləşdirə bilərik:

1. Təhsil - dövlətin strateji məqsədi təhsilin keyfiyyətinin və əlçatanlığının yüksəldilməsini məqbul variant hesab edir ki, bu da öz növbəsində gənclərin fiziki inkişafının həyata keçirilməsini nəzərdə tutur;

2. Məşğulluq – bu, ilk növbədə, ölkədə əmək bazarının tələbatını əks etdirən peşə hazırlığına, eləcə də gənclər arasında işsizliyin azaldılmasına əsas diqqəti yönəldir;

3. Gənclərin dövlətin siyasi həyatında iştirakı – bu, ilk növbədə, sosial-siyasi əhəmiyyət kəsb edən məsələlərdə gənc nəslin maraqları, gənclərlə dialoq qurmağa imkan verən vətəndaş cəmiyyəti institutlarının inkişafını nəzərdə tutur;

4. Asudə vaxt, mədəniyyət, idman, turizm, aktiv istirahətin təşviqi – bu, asudə vaxta yaradıcı yanaşma modelinin yaradılması, gənclər turizminin inkişafının dəstəklənməsi, o cümlədən gənc istedadlara və gənclərin yaradıcılığına dəstəyin gücləndirilməsini zəruri edir;

5. Gənc nəslin sağlamlığı – bu, məktəblərdə və ali təhsil müəssisələrində tələbələrə tibbi xidmət sisteminin təkmilləşdirilməsi, o cümlədən gənclər arasında zərərli vərdişlərdən uzaq, sağlam həyat tərzinin təbliğini əsaslandırır. Əgər ki, biz hər bir müasir dövlətdə mövcud olan ən aktual problemlərdən birinə – gənclərin məşğulluğuna müraciət etsək, bununla bağlı aşağıdakıları xüsusi şəkildə qeyd etməyimiz məqsədəuyğun ola bilər (1;s.8).

Məlum olduğu kimi, qlobal iqtisadiyyatın böhran problemləri fonunda əmək bazarında ən az qorunan kateqoriyaya çevrilən məhz gənclər çıxış edirlər. Gənclər arasında işsizliyin artımı digər yaş qruplarına nisbətən əhəmiyyətli dərəcədə sürətlidir. Belə ki, Fransada gənclər arasında işsizlik səviyyəsi 22,7% təşkil edir ki, bu da digər yaş qrupları üçün eyni göstəricidən 2 dəfə yüksəkdir. Oxşar vəziyyət Niderland və Polşada da yaranmışdı (2; s.352).

Bu tezis bəzi hüquqi aktlarda da öz əksini tapmışdır. Belə ki, 2004-cü il tarixli "Məşğulluq və əmək bazarlarına yardım haqqında" Polşa Aktı 25 yaşına çatmamış şəxsləri çətin vəziyyətdə olan və xüsusi yardım almaq hüququ olan sosial qrup kimi müəyyən edir (2;s.353).

Qərb ölkələrində dövlət tərəfindən həyata keçirilən tədbirlər aşağıdakı istiqamətlərdə aparılır.

Son illərdə vəzifəsi gənclərin məşğulluğu problemini həll etmək olan ixtisaslaşmış qurumların sayı nəzərəçarpacaq dərəcədə artmışdır. Üstəlik, həm dövlət qurumları, həm də qeyri-hökumət təşkilatları və ictimai birliklər tərəfindən təsis edilir. Son onilliklərdə dövlət səviyyəsində həyata keçirilən təşəbbüslər təkcə gəncləri dəstəkləmək üçün xidmətlərin inkişafına deyil, həm də maliyyələşdirmənin artmasına və peşə təhsilinə çıxış imkanlarının genişlənməsinə səbəb olmuşdu. Gənclərin peşəyönümü və təliminin keyfiyyətinin yüksəldilməsinə təhsil strukturlarının diqqəti xeyli artmışdır. Buna əsasən təhsil proqramlarına düzəlişlər, təcrübə və praktiki təlimlərin təkmilləşdirilməsi həyata keçirilir.

Bundan əlavə, 2013-cü ilin aprelində Avropa Komissiyası tərəfindən "Gənclər üçün təminatlar" konsepsiyasının (ilk növbədə əmək bazarında gənclərin dəstəklənməsi) qəbul edilməsindən sonra Avropa İttifaqına üzv olan hər bir dövlət qanunvericilik bazası əsasında milli səviyyədə müvafiq təminatlar hazırlamağa başlamışlar. Bu baxımdan, Fransanın 2006-cı ildə qəbul etdiyi "Bərabər imkanlar haqqında" Qanunu bütün mülkiyyət formalarından olan şirkətləri ixtisası üzrə iş təcrübəsi olmasa belə, hər il yaşı 25-dən aşağı olan işçiləri işə götürməyə məcbur edir. Onların sayı işçilərin ümumi sayına mütənasib olaraq müəyyən edilir (4;s.35).

Dövlət Fransadakı özəl şirkətlərə - işəgötürənlərə gənclər üçün hər yeni işə görə minimum əmək haqqının 80%-i qədər kompensasiya ödəyir. Bu, heç bir iş təcrübəsi olmayan gəncləri daimi iş və karyera qurmaq imkanı ilə təmin etmək məqsədi daşıyan "Yeni xidmətlər, yeni işlər" proqramlarından

biri əsasında həyata keçirilir. Belə bir tədbir eyni zamanda iqtisadiyyatın digər sahələrində işçi qüvvəsinə olan tələbatı ödəməyə imkan verir (7;s.25).

Böyük Britaniyada 30-a yaxın universitet müvafiq ixtisas əldə etmək istəyən insanlar üçün təkmilləşdirmə kursları təşkil etmişdi. Gənclərin əmək hüquqlarının müdafiəsi iki əsas istiqamət üzrə həyata keçirilir. İlk növbədə, əmək bazarına daxil olarkən gənclərin təhsil və peşə hazırlığının səviyyəsinin yüksəldilməsi və rəqabət qabiliyyətinin artırılmasına. Dövlətin bu məsələdə mövqeyi son illər nəzərə çarpacaq dərəcədə güclənmişdi. Bundan əlavə, işləyən gənclər üçün təhlükəsiz iş şəraitinin yaradılmasına dövlətin təsiri artır. Buna gənclər üçün xüsusi əmək rejiminin müəyyən edilməsi, uşaqların və yeniyetmələrin müəyyən yaşa qədər və ya müəyyən istehsal sahələrində əməyindən istifadənin məhdudlaşdırılması və ya tamamilə qadağan edilməsi yolu ilə nail olunur. Bu cür qaydalar, bir qayda olaraq, gənc nəslin həyat və sağlamlığının qorunmasına dair konstitusiya müddəalarına əsaslanır və milli əmək məcəllələrində ən ətraflı şəkildə ifadə edilir. Ayrı-ayrı hüquqi aktlarda təhsil və işi birləşdirən tələbələr üçün güzəştlər də müəyyən edilir. Belə ki, Polşada tələbə büroları məzunların işlə təmin olunmasına kömək etmək üçün fəal işləyirlər (7;s.231).

Bununla yanaşı, ölkədə gənclərin karyera mərkəzləri sistemi də formalaşdırılmışdır. Onların diqqəti 15-25 yaş arası gənclərə yönəlmişdir. Belə mərkəzlər şəbəkəsi bütün Polşada yerləşir ki, bu da gənclərin işsizliyə, marginallaşmasına və sosial passivliyinə qarşı daha fəal və geniş mübarizə aparmağa kömək edir. Mərkəzlərin iş formaları bunlardır: peşəyönümü üzrə fərdi və qrup sessiyaları, əmək bazarının ehtiyacları və peşə hazırlığı imkanları haqqında məlumatların verilməsi, gənclərin özünə inamının artırılması, karyera yüksəlişi üçün fərdi planların hazırlanması.

Gənclərin məşğulluğunun 2012-ci il Federal Gənclər Siyasəti Planında formalaşdırılmış strateji məqsədlərdən biri kimi müəyyən edildiyi Almaniyada gənclərin məşğulluğu planları hər il Əmək və Sosial İşlər Nazirliyi tərəfindən hazırlanır (5;s.21).

Birləşmiş Ştatlarda 1983-cü il İş Təliminə Yardım Aktı hər bir ştatda gənclərə kömək etmək və yerli təşəbbüsləri dəstəkləmək məqsədi daşıyan federal proqramlar vasitəsilə vəsaitləri bölüşdürən koordinasiya şurasının yaradılmasını nəzərdə tutur. Nyu-Yorkdakı Jobs for Youth Inc. kimi təşkilatlar özəl sektorda məşğulluq sahəsində ixtisaslaşırlar. Eyni zamanda ölkədə genişmiqyaslı proqramlar (məsələn, davamlı peşəkar qayğı planı (məşğulluğa nəzarət) həyata keçirilir (7;s.231).

Gənclər arasında işsizlik səviyyəsinin böyüklər arasında işsizlik səviyyəsindən təxminən iki dəfə yüksək olduğu Niderlandda plan 2003-cü ildə gənclərin işsizliyi ilə mübarizə haqqında qanun təsdiq edilmişdir ki, burada bir sıra innovativ müddəalar, məsələn, gənclərin altı ayadək müvəqqəti məşğulluq təmin edilməsi haqqında 2004-cü ildə İşsizlik Problemləri üzrə Komissiya yaradılmışdır.

Bu komissiyaya milli və yerli səviyyədə, habelə iqtisadi fəaliyyətin müəyyən sahələrində gənclərin işsizliyi ilə mübarizə proqramlarının həyata keçirilməsi səlahiyyəti verilir. İşsiz gəncləri öz kadrlarına cəlb etmək, gənclərin məşğulluğu məsələləri də Niderlandın İş və Gəlir üzrə Milli Mərkəzinin səlahiyyətlərinə daxildir. Bu mərkəz iş axtaranlar üçün təlimlər təşkil edir, kadrların hazırlanmasına köməklik göstərir, ixtisasartırma və yenidən hazırlıq kursları təşkil edir. Mərkəzin bütün ölkə üzrə bir neçə şöbəsi var; onun strukturuna gənclərlə iş üzrə xüsusi bölmələr daxildir (9;s.97).

İş pasportunun tətbiqi Niderlandda gənclərin məşğulluq siyasətinin yaradıcı elementlərindən biridir. Bəzən hətta məktəbi bitirmək haqqında attestat almadan əmək bazarına daxil olan bir çox gənclərin vəziyyəti çox həssasdır. Əmək pasportu işə qəbul şansını artıra bilər, çünki o, gəncin həm məktəbdə, həm də işdə, əmək kurslarında, təlimlərdə və seminarlarda aldığı hər hansı bir ixtisas haqqında məlumatı özündə əks etdirməlidir. Belə bir pasportun əsas xüsusiyyəti, namizədin iş keyfiyyətləri və üstünlükləri, komandada işləmək bacarığı, yaradıcılıq, bacarıq və texniki bacarıqlar haqqında məlumatdır.

Gənclər arasında işsizliyin azaldılmasına kömək edən vasitələrdən biri gənclər üçün iş yerləri yaradan müəssisələr üçün xüsusi vergi rejimlərinin və güzəştlərin verilməsi sistemidir. Məsələn, Niderlandda mövcud olan belə bir sistem kiçik biznesin üzərinə nəinki gənclər üçün 20 min vakant iş yerinin təşkili, həm də ilkin peşə hazırlığının təmin edilməsi öhdəliyinin qoyulmasını nəzərdə tutur. Eyni model Polşada da mövcuddur. 2015-ci ildə seçilən Polşa Prezidenti A.Dudanın ilk qərarlarından biri gənclər təşkilatları tərəfindən hazırlanmış “Gənc nəsil üçün gələcək” proqramının təsdiqi olmuşdur. Sənədin əsas məzmunu müəssisələr üçün vergi və investisiya

güzəştlərinin tətbiqi üçün konkret proqram nəzərdə tutur. Bu yanaşma, ilk növbədə, əmək bazarına ilk dəfə daxil olan gənclərin maraqlarını nəzərə almaqla yeni iş yerlərinin yaradılmasının mümkünlüyünə gətirib çıxarmışdı.

Böyük Britaniyada gənclərin əmək bazarının yaxşılaşdırılması üzrə tədbirlərə aşağıdakılar daxildir:

- İşəgötürənlərin internet saytlarından istifadə etməklə vakansiyalar haqqında məlumatın daha çox açıqlığı;
- İstehsal müəssisələrində "Açıq qapı" günlərinin keçirilməsi;
- Gənclərin konkret biznes layihələrinin həyata keçirilməsinə daha geniş cəlb edilməsi;
- İş yerində mentorluğun inkişafı, işəgötürənlərin peşəyönümlü olması məqsədilə məktəblərə səfərləri və tələbələrlə müsahibələrin keçirilməsi təcrübəsi (8;s.23).

2012-ci ildə Böyük Britaniyanın Əmək və Təqaüdlər Departamenti Gənclər Müqaviləsi proqramına start vermişdi. Bu, işsizliyin azaldılmasına və gənclərin iş yerlərinin artırılmasına (18 yaşdan 24 yaşa qədər olan şəxslər üçün 500 minə qədər iş yerinin), təcrübə keçmək imkanlarının əldə edilməsinə, habelə peşənin əsaslarını öyrənə biləcəyi xüsusi təchiz olunmuş yerlərin təmin edilməsinə yönəlmişdi (1;s.10).

Böyük Britaniyada 2015-ci ildə qüvvəyə minmiş və gənclər üçün əmək bazarında vakansiyaların mövcudluğuna təsir edən qanunvericilik tədbirləri arasında icbari təhsil və ya peşə təhsili yaşının 18 yaşa qədər artırılmasını qeyd etmək lazımdır. Bu tədbir 18 yaşına çatmamış gənclərin əmək bazarına daxil olmasını ləngitdi və onların təhsil səviyyəsini və ixtisasını artırmasına şərait yaratmış olmuşdu.

Son illərdə Polşa hökuməti işsizlərə dövlət dəstəyi almaq hüququnun 30 yaşa qədər uzadılması ilə bağlı Avropa İttifaqının hakimiyyət orqanlarına təklif təqdim etmişdir. Hazırda belə dəstək yaşı 25-dən az olan işsiz şəxslərə verilir (bu yaş həddi Birliyin əksər ştatlarında müəyyən edilmişdi).

Ölkəmizdə bu sahədə yeni nailiyyətlər əldə edilməsi baxımından bizə Polşa təcrübəsi də maraqlı ola bilər. Belə ki, burada gənclərin lazımi peşəkar bacarıqlara yiyələnməsinə və işə düzəlməsinə köməklik göstərilməsinin institusional formalarından biri kimi könüllü əmək qrupları sisteminin olması çıxış edir. Belə bölmələrin yaradılması "Məşğulluğa və əmək bazarlarına yardım haqqında" qanunla nəzərdə tutulmuşdu (maddə 6) (12;s.230). Polşa dövlətində həmin orqanlar ölkə qanunvericiliyinə əsasən, gənclərin, ilk növbədə, sosial cəhətdən əlverişsiz vəziyyətdə olanların, habelə 25 yaşınadək işsizlərin maraqları naminə fəaliyyət göstərən dövlət büdcəli ixtisaslaşdırılmış təşkilatlardır. Belə bölmələrin fəaliyyətinə nəzarəti Əmək və Sosial siyasət Nazirliyi həyata keçirir.

Milli gənclər siyasətinin həyata keçirilməsində müasir dövlətin sağlam nəslin formalaşmasına və millətin psixi sağlamlığının qorunmasına göstərdiyi qayğı çox haqlı olaraq xüsusi rol oynayır. Gəncləri alkoqolizmdən, narkomaniyadan, habelə anti-sosial həyat tərzinin təbliğindən qoruyan qanunların müddəaları da bu məqsədə xidmət edir. Müasir dövlətin qarşısında duran ən mühüm vəzifələrdən biri gənc nəslin informasiya məkanının mənfi təsirindən qorunması zərurətidir. Qanunvericilik modelləri, bir qayda olaraq, spirtli içkilərin satışına, narkotik vasitələrin yayılmasına məhdudiyyət və qadağaların tətbiqi, müvafiq məzmunlu reklam və digər informasiya materiallarına nəzarətin artırılması ilə bağlıdır.

Hər bir milli hüquq sistemində cəmiyyətin ən ciddi çağırışlarından asılı olaraq millətin sağlamlığının qorunmasına yönəlmiş konkret hüquqi qərarlar formalaşdırılır. Bu qurumları birləşdirən yeganə əsas amil inkişaf vektorudur - gənc nəslin fiziki və psixi sağlamlıq üçün çoxalan təhlükələrdən müdafiə səviyyəsinin artırılması. Bəzən buna uşaq və yeniyetmələrin səhiyyə sisteminin (məsələn; Niderlandda) təşkilati şəkildə ayrılması ilə nail olunur.

Böyük Britaniyada gənc nəslin sağlamlığı ilə bağlı aktual problemlərdən biri də, yeniyetmə yaşda hamilə olanların sayının artmasıdır (hazırda ölkədə doğulanların ümumi sayının 4%-i 12-18 yaşlı anaların payına düşür). Müqayisə üçün: Fransada bu göstərici 1,5%, Niderlandda 0,72% təşkil edir (8;s.25). Böyük Britaniya, həmçinin Avropada yeniyetmə alkoqolizminin ən yüksək nisbətinə malikdir. Bu problemləri həll etməkdən ötrü gənclər üçün xüsusi proqramlar əsasında ölkənin tibb müəssisələri onlara narkomaniya və alkoqolizmin qarşısının alınması və aradan qaldırılması məqsədilə daha geniş xidmətlər göstərməyə başlamışdı.

Böyük Britaniyada kontraseptiv vasitələrdən istifadə ilə bağlı təşkilati və izahat işləri daha fəal şəkildə aparılır. Tütün və alkoqollu məmulatların satışına daha sərt məhdudiyyətlər tətbiq edilir. Böyük Britaniyanın Səhiyyə Departamenti gənclərin

sağlamlığı, o cümlədən uşaqların və yeniyetmələrin psixi sağlamlığı ilə bağlı problemlərin artan səviyyəsinə cavab olaraq, tibbi xidmətlərin inkişafı üçün həm profilaktik, həm də müalicəvi xarakterli ayrıca strategiyalar qəbul etmişdir. Niderlandda 19 yaşdan kiçik insanlar üçün xüsusi səhiyyə sistemi mövcuddur. Bu ölkədə bələdiyyə səviyyəsində təşkil olunur. Uşaqlar və yeniyetmələr üçün müəyyən yaş kateqoriyaları üzrə ixtisaslaşmış tibbi yardım mərkəzləri fəaliyyət göstərir: körpələr, məktəbəqədər uşaqlar, ibtidai sinif şagirdləri və lisey şagirdləri. Bu yaş kateqoriyasından olan şəxslər mütəmadi olaraq tibbi müayinələrdən, peyvəndlərdən və skrininqlərdən keçirlər. Uşaq və yeniyetmələrin sağlamlıq vəziyyəti ilə bağlı bütün məlumatlar Uşaq və Gənclərin Sağlamlığının Monitorinqi Təşkilatı tərəfindən toplanır və təhlil edilir. Son illər əhaliyə ən yaxın yerli strukturlar səviyyəsində iş gənclər siyasətinin həyata keçirilməsinin mühüm tərkib hissəsinə çevrilmişdi.

Müxtəlif ölkələrin təhsillə bağlı qanunvericiliyi son onilliklərdə əhəmiyyətli dəyişikliklərə məruz qalmışdır: təhsil standartları tətbiq edilmişdir; təhsil prosesinə dövlət nəzarəti gücləndirilmişdi; Elmi-texniki inqilabın yaratdığı müasir tələblərə uyğun olaraq tələbə və müəllimlərin yeni təlim formaları təmin edilmişdi. Bu baxımdan, məsələn, Böyük Britaniyada aşağıdakılar qəbul edilmişdir:

- Dövlət icbari orta təhsil məktəblərinin maliyyələşdirilməsinə, o cümlədən onlara qrantlar, kreditlər, zəmanətlər şəklində maliyyə yardımının göstərilməsi ilə bağlı 2002-ci il Təhsil Qanunu;
- Xüsusi müfəttişlər tərəfindən dövlət məktəblərinin fəaliyyətinə nəzarətin həyata keçirilməsini tənzimləyən 2005-ci il Təhsil Qanunu;
- Universitetlərə dövlət dəstəyinin artırılmasını, təhsil haqqının ödənilməsinin yeni qaydasını (sabit məbləğin çevik ödəniş sistemi ilə əvəz edilməsi) nəzərdə tutan 2004-cü il tarixli “Ali təhsil haqqında” Qanun, tələbələrin ali təhsil müəssisəsinin fəaliyyətindən və qərarlarından şikayət etmək hüququnu təmin edir;
- 2008-ci il Təhsil və Bacarıqlar Qanuna əsasən məcburi orta məktəb təhsili və ya peşə təhsili üçün yaş həddi 18 yaşa qaldırıldı;
- 2009-cu il “Təcrübə və ixtisasartırma haqqında” qanun, müəllimlərə qarşı tələbləri gücləndirən, xüsusilə onların staj, ixtisasartırma və biliklərə yiyələnməsini tənzimləyən tədbirlərin tətbiqi (12;s.231).

Yeni Zelandiyada 2001-ci ildə müxtəlif təhsil müəssisələrində gənclərin təhsili üzərində nəzarət mexanizmlərini gücləndirən Təhsil Standartları Aktı qəbul edildi. Bu aktın yenilikləri, xüsusən də hər bir təhsil müəssisəsi üçün qəyyumlar şurası tərəfindən hazırlanmış və yenilənmiş məktəblərin nizamnaməsinə aiddir.

Təhsil prosesində yeni istiqamətlər dövlət planlarında da qeyd olunur. Belə ki, Almaniyada 2012-ci ildə Federal Gənclər Siyasəti Planı hazırlanmışdı və bu plan hələ də qüvvədədir. Plan digər məsələlərlə yanaşı, Almaniyanın siyasi sistemi, dünya siyasəti, siyasi münaqişələrin səbəbləri və nəticələri, Avropa İttifaqının qanunları haqqında bilikləri özündə əks etdirən gənclərin siyasi təhsilini tənzimləyir (5;s.23).

Siyasi təhsil məktəblərdə, institut və universitetlərdə, gənclər üçün ixtisaslaşmış siyasi mərkəzlərdə verilir. Mədəni maarifləndirməyə də diqqət yetirilir. Dövlət gənclər siyasətinin bu istiqaməti çərçivəsində gənclər mədəni dəyərlərlə tanış edilir: təsviri incəsənət, musiqi, kino, teatr və balet əsərləri və s. Gənclər üçün pulsuz (və ya güzəştli) ekskursiyalar, sərgilər, Almaniya və qonşu ölkələrin tarixi yerlərinə səyahətlər təşkil olunur. Bu istiqamətin həyata keçirilməsi federal torpaqların dövlət orqanlarına həvalə edilir. Niderlandda “Hər uşaq üçün hər fürsət” adlı dövlət proqramı mövcuddur. Niderlandın təhsil sistemində innovativ yanaşma, adi məktəblərin elementlərini və sosial fəaliyyət mərkəzlərini birləşdirən unikal təşkilatların - icma məktəbləri adlanan təşkilatların yaradılması idi. Dövlət məktəblərində təhsil sağlamlığın qorunması (sağlamlıq məktəbləri), ailəyə dəstək (ailə məktəbləri), əlilliyi olan şəxslərə sosial xidmətlərin göstərilməsi və s. kimi fəaliyyət sahələri ilə birləşdirilir. Dövlət məktəbləri, bir qayda olaraq, dövlət büdcəsi hesabına maliyyələşdirilir. Eyni zamanda bir çox özəl məktəblərdə də buna uyğun modellər tətbiq edilmişdir.

Bütün bu yuxarıda qeyd etdiklərimiz əsasında biz belə qənaətə gələ bilərik ki, beynəlxalq təcrübədə gənclər siyasətində başlıca məqamlar kimi aşağıdakılar çıxış edir:

- Gənclər üçün informasiya və məsləhət mərkəzlərinin və xidmətlərin təkmilləşdirilməsi;
- Gənclərin pulsuz fəaliyyətlərdə, xüsusən də məlumat və təbliğat kampaniyalarında iştirakına yönəlmiş təşəbbüslərin inkişafının təşviq edilməsi;
- Gənclərin mənafeyinə uyğun fəaliyyət göstərən və ya gənclərə xidmət göstərən gənclər təşkilatları-

nın dəstəklənməsi üçün məqsədli büdcə vəsaitlərinin ayrılması;

- Siyasi partiyalar və digər ictimai təşkilatlar tərəfindən gənclərin siyasi fəaliyyətə cəlb edilməsi, gənclərlə bağlı məsələlərdə gənclər təşkilatları ilə birlikdə qərar qəbuletmə sistemlərinin tətbiqi;

- Maliyyə dəstəyinin göstərilməsi və yaşadıqları yer üzrə gənclər qruplarının və klublarının fəaliyyəti üçün maddi şəraitin yaradılması yolu ilə gənclərin klub və maraq qruplarının təşkilinə cəlb edilməsinin təşviq edilməsi;

- İş tapmaqda və işsizliyin azaldılmasında, o cümlədən məşğulluq mərkəzlərinin yaradılması yolu ilə yardımın göstərilməsi;

- Bütün ictimai xidmətlərə və sahələrə (məktəb, ictimai nəqliyyatdan istifadə və s.) bərabər çıxışın təmin edilməsi (12;s.232).

Buradan göründüyü kimi, Avropa ölkələrində gənclər siyasəti ayrı-ayrı ölkələrdə yanaşma fərqliliyinə baxmayaraq, ən sistemli və inkişaf etmiş siyasətdir. Son onilliklərin praktikasından göründüyü kimi, sürətlə dəyişən dünyada strateji üstünlükləri əsas daşıyıcısı gənclər olan insan kapitalını, o cümlədən innovativ inkişaf potensialını səmərəli şəkildə toplaya və ondan səmərəli istifadə edə bilən dövlətlər qazanır.

Beynəlxalq təcrübədə gənclər siyasətinin uğurlarını qiymətləndirərkən başa düşmək lazımdır ki, regional və mədəni xüsusiyyətləri nəzərə almadan, konkret proqramların həyata keçirilməsinin daxili mexanizmlərini öyrənmədən ən yaxşı təcrübəni belə həyata keçirmək mümkün deyil. Buna görə də, xarici gənclər proqramlarının həyata keçirilməsinin praktiki və uzunmüddətli nəticələrini, habelə uğurlu xarici texnologiya və texnikaların Azərbaycan Respublikasında gənclər siyasətinin həyata keçirilməsində istifadə üçün uyğunlaşdırılmasını təhlil etmək zəruri məsələni təşkil edir. Ölkəmizdə gənclər siyasətinin aktual problemlərini həll etmək üçün dövlət və hökumət strukturları arasında qarşılıqlı əlaqə mexanizminin mövcud olduğu ölkələrin təcrübəsinə diqqətin yönəldilməsi olduqca vacib olsa da, öz uğurlarımızı unutmamaq, milli vətənpərvərlik ruhunda daha da təkmilləşdirilməsi vacibdir. Bunun üçün biz, ilk növbədə, aşağıdakı məsələlərin təmin olunmasına tam şəkildə nail olmalıyıq:

- Gənclərin siyasi və vətəndaş hüquqlarının müdafiəsi kimi göstəricilərin təkmilləşdirilməsi;

- Gənclərin sağlamlığının və sosial rifahının təmin edilməsi;

- Peşəkar rəhbərlikdə köməklik;

- Çətin həyat vəziyyətində olan gənclərə dəstək;

- Gənclərlə bağlı kütləvi idman sahələrinin daha da inkişaf etdirilməsi;

-Sağlamlıq imkanları məhdud gənclərin cəmiyyətə inteqrasiyası üçün bərabər imkanların yaradılması və s. (6;s.27).

Beləliklə, bütün bu dediklərimiz əsasında biz belə qənaətə gələ bilərik ki, gənclər siyasətinin sosial kimi mühüm sahədə həyata keçirilməsi yeni təşkilati mexanizmlərin, iş forma və metodlarının tətbiqini tələb edir. Odur ki, dövlətin diqqət mərkəzində gənclərə, xüsusilə də gənc ailələrə geniş sosial-iqtisadi, psixoloji, pedaqoji və tibbi xidmətlər göstərməyə qadir olan sosial xidmət müəssisələrinin yaradılması və təkmilləşdirilməsi daimi şəkildə həyata keçirilməlidir.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Домашнее насилие по законодательству зарубежных стран: ответственность и превенция / отв. ред. Н. А. Голованова. М., 2011.*

*2. Зеленкова М. М. Молодежная политика в России и зарубежных странах // Современные проблемы науки и образования. 2012. № 6.*

*3. Лещенков Ф. А. Защита детей от потенциально опасной информации в соответствии с правом Федеративной Республики Германия // Журнал зарубежного законодательства и сравнительного правоведения. 2015. № 2.*

*4. Меркулов П. А. О новых концептуальных подходах к изучению исторического опыта формирования государственной молодежной политики // Государственная власть и местное самоуправление. 2013. № 1*

*5. Открытое правительство за рубежом: правовое регулирование и практика / отв. ред. И. Г. Тимошенко. М., 2015.*

*6. Петрищев В. И., Грасс Т. П., Алексеенко И. В. Семья — институт социализации подрастающих поколений в Великобритании, США и в Новой Зеландии // Сибирский педагогический журнал. 2009. № 2. 7.Социально-молодежная работа: зарубежный опыт: учеб. - метод. пособие. М., 1997.*

### XÜLASƏ

Qlobal iqtisadiyyatın böhran problemləri fonunda əmək bazarında ən az qorunan kateqoriyaya çevrilən məhz gənclər çıxış edirlər. Gənclər arasında işsizliyin artımı digər yaş qruplarına nisbətən əhəmiyyətli dərəcədə sürətlidir. Son illərdə vəzifəsi gənclərin məşğulluğu problemini həll etmək olan ixtisaslaşmış qurumların sayı nəzərəçarpacaq dərəcədə artmışdır. Üstəlik, həm dövlət qurumları, həm də qeyri-hökumət təşkilatları və ictimai birliklər tərəfindən təsis edilir. Son onilliklərdə dövlət səviyyəsində həyata keçirilən təşəbbüslər təkcə gəncləri dəstəkləmək üçün orqan və xidmətlərin inkişafına deyil, həm də maliyyələşdirmənin artmasına və peşə təhsilinə çıxış imkanlarının genişlənməsinə səbəb olmuşdur.

Milli gənclər siyasətinin həyata keçirilməsində müasir dövlətin sağlam nəslin formalaşmasına və millətin psixi sağlamlığının qorunmasına göstərdiyi qayğı çox haqlı olaraq xüsusi rol oynayır.

Avropa ölkələrində gənclər siyasəti ayrı-ayrı ölkələrdə yanaşma fərqliliyinə baxmayaraq, ən sistemli və inkişaf etmiş siyasətdir. Son onilliklərin praktikasından göründüyü kimi, sürətlə dəyişən dünyada strateji üstünlükləri əsas daşıyıcısı gənclər olan insan kapitalını, o cümlədən innovativ inkişaf potensialını səmərəli şəkildə toplaya və ondan səmərəli istifadə edə bilən dövlətlər qazanır.

Beynəlxalq təcrübədə gənclər siyasətinin uğurlarını qiymətləndirərkən başa düşmək lazımdır ki, regional və mədəni xüsusiyyətləri nəzərə almadan, konkret proqramların həyata keçirilməsinin daxili mexanizmlərini öyrənmədən ən yaxşı təcrübəni belə həyata keçirmək mümkün deyil. Buna görə də, xarici gənclər proqramlarının həyata keçirilməsinin praktiki və uzunmüddətli nəticələrini, habelə uğurlu xarici texnologiya və texnikaların Azərbaycan Respublikasında gənclər siyasətinin həyata keçirilməsində istifadə üçün uyğunlaşdırılmasını təhlil etmək zəruri məsələni təşkil edir.


**Açar sözlər:** *gənclər siyasəti, təhsil proqramları, işsizlik problemi.*


### SUMMARY

Against the backdrop of the global economic crisis, it is the youth that has become the least protected category in the labor market. The growth of unemployment among the youth is much faster than in other age groups. In recent years, the number of specialized institutions tasked with solving the problem of youth employment has increased significantly. At the same time, their founders are both government agencies and non-governmental organizations and public associations. Over the past decades, initiatives at the state level have led not only to the development of youth support agencies and services, but also to increased funding and expanded access to vocational training. The concern of the modern state for the formation of a healthy generation and the protection of the mental health of the nation rightfully occupies a special place in the implementation of national youth policy. Youth policy in European countries is the most systemic and developed policy, despite the differences in approaches in individual countries. As the practice of recent decades shows, in a rapidly changing world, strategic advantages are gained by states that are able to effectively accumulate and use human capital, including the potential for innovative development, the main bearer of which is youth. Assessing the successes of youth policy in international practice, it is necessary to understand that it is impossible to implement even the best practices without taking into account regional and cultural characteristics, studying the internal mechanisms for implementing specific programs. Therefore, it is necessary to analyze the practical and long-term results of the implementation of foreign youth programs, as well as adapt successful foreign technologies and methods for use in the implementation of youth policy in the Republic of Azerbaijan.


**Keywords:** *Youth policy, educational programs, unemployment problem.*

UOT 327; 930.22
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.068

# AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ KOREYA RESPUBLİKASI İLƏ MÜNASİBƏTLƏRİNDƏ "THAAD (YÜKSƏK HÜNDÜRLÜK SAHƏSİNDƏN MÜDAFİƏ TERMİNALI)" PROBLEMİ

**SEVİNC İBADOVA**
*Bakı Dövlət Universiteti,*
*tarix fakültəsinin doktorantı*

*E-mail: Sevincibadova.212@mail.ru*
*Orcid id: 0000-0003-4471-24671*

"THAAD" (Yüksək Hündürlük Sahəsindən Müdafiə Terminalı) problemi regional təhlükəsizlik, Çin və Rusiyanın etirazları və həmçinin Koreya yarımadasının gələcək geopolitik vəziyyəti ilə assosiasiya olunan bir məsələ olaraq Amerika Birləşmiş Ştatlarının Koreya Respublikası ilə münasibətlərində mühüm yerə malikdir. Bu problem 2016-cı ildə ABŞ-nin Koreya Respublikasında "THAAD" raket müdafiə sistemini yerləşdirmə qərarından sonra intensivləşmişdir.

"THAAD" yüksək hündürlükdə uçan ballistik raketləri məhv etməyə yönəlmiş bir raket müdafiə sistemidir. Bu sistem, xüsusilə Şimali Koreyanın ballistik raketlərindən qorunmaq məqsədilə nəzərdə tutulmuşdur. Sistem, raketləri atmosferdən çıxmadan yüksəklikdə vuraraq onların yerə düşməsinin qarşısını alır. 2013-cü ildə Şimali Koreyanın Şərqi Asiyada yerləşən ABŞ hərbi personalı və aktivləri üçün artan ballistik raket təhlükəsindən narahat olan ABŞ rəsmiləri Cənubi Koreyalı həmkarlarına Yüksək Hündürlük Sahəsindən Müdafiə Terminalı (THAAD) raketdən müdafiə batareyalarını və əlaqəli radar sistemlərini Cənubi Koreya ərazisində yerləşdirməklə bağlı müraciət etdilər [8, s. 1].

ABŞ və Koreya Respublikası, "THAAD" sistemini Şimali Koreyanın hərbi təhdidlərinə qarşı bir müdafiə tədbiri olaraq görürlər. Prezident Mun Çe İn əvvəlcə "THAAD" sisteminə qarşı çıxdı, lakin Şimali Koreyanın sentyabrın 3-də keçirdiyi nüvə sınağına cavab olaraq onun yerləşdirilməsini sürətləndirdi. Beləliklə, Şimali Koreyanın 2016-cı ilin yanvarında dördüncü nüvə sınağından sonra ABŞ və Cənubi Koreya 2016-cı ilin fevral ayının əvvəlində rəsmi müzakirəyə başladı [1, s. 2].

Qeyd olunduğu kimi, 2016-cı ildən başlayaraq ABŞ Koreya Respublikası ilə bu sistemin yerləşdirilməsi üzrə danışıqlar aparmış və 2017-ci ildə bu proses tamamlanmışdır. ABŞ "THAAD"ın yalnız raket müdafiəsi məqsədli olduğunu, regionda təhlükəsizliyi təmin edəcəyini və Koreya Respublikasının və regionun gələcəkdəki təhdidlərə qarşı daha güclü müdafiəyə sahib olacağını vurğulamışdır.

2016-cı ilin iyulunda Şimali Koreyanın son nüvə sınağı və raket buraxılışından sonra Cənubi Koreya və ABŞ Birləşmiş Ştatların Silahlı Qüvvələrinə Yüksək Hündürlük Sahəsindən Müdafiə Terminalı (THAAD) raketdən müdafiə sistemini yerləşdirmək barədə razılığa gəldi [4, s. 4].

Cənubi Koreyada "THAAD" raket əleyhinə müdafiə sisteminin yerləşdirilməsi 2017-ci ildə həmin dövrdəki prezident Pak Kın Henin rəhbərliyi altında həyata keçirildi.

Bu qərar Cənubi Koreyada daxili mübahisələrə səbəb oldu. Əhali AN/TPY-2 radarının yaydığı radiasiyanın sağlamlığa zərər verəcəyindən və bölgənin məşhur qarpız istehsalına mənfi təsir göstərəcəyindən narahat idilər. Bəzi vətəndaşlar "THAAD" sisteminin yerləşdirilməsinin demokratik prosedurlara uyğun olmadığını və ABŞ-nin müdafiə xərclərinin Cənubi Koreya tərəfindən qarşılanmaması lazım olduğunu bildirdilər. Habelə 2016-cı ildə Cənubi Koreya hökuməti tərəfindən yeni sistem üçün seçilmiş Seongju şəhərində sakinlərin yüksək səslə "mənim həyətimdə deyil" şüarlı etirazları başladı [7, s. 1].

Ümumiyyətlə, "THAAD" sisteminin Cənubi Koreyada yerləşdirilməsi, regionun təhlükəsizlik mühitinə və beynəlxalq münasibətlərə əhəmiyyətli dərəcədə təsir etdi.

Koreya Respublikasında "THAAD"ın yerləşdirilməsi mövzusu cəmiyyətdə və siyasətdə ciddi mübahisələrə səbəb olmuşdur. Bir tərəfdən ABŞ və Koreya hökumətləri "THAAD"ın təhlükəsizliyi təmin edəcəyini iddia etsələr də, digər tərəfdən bəzi yerli əhali və siyasətçilər bu qərarı müsbət qarşılamamışdır. Bu mübahisələrin əsas mövzularından biri "THAAD"ın Çinlə olan iqtisadi əlaqələri və müttəfiqlik münasibətlərinə mənfi təsir edə biləcəyidir.

"THAAD" mübahisəsinin əsas tərəfdaşlarından biri də Çin və Rusiyadır. Hər iki ölkə Koreya Respublikasında "THAAD" sisteminin yerləşdirilməsini öz milli təhlükəsizlikləri üçün ciddi bir təhdid olaraq qiymətləndirirlər. Bu ölkələr "THAAD" sisteminin yalnız Şimali Koreyaya qarşı deyil, həm də öz ballistik raketlərini izləyən radar və digər texnologiyalarının Çin və Rusiya ərazisinə qədər təsir edəcəyini əsas gətirərək, sistemin yerləşdirilməsinə

qarşı çıxmışdır.

Çin "THAAD"ın radarlardan istifadə etməsi ilə bağlı narahatlıqlarını ifadə etmişdir. Bu radarın Çin ərazisini izləmək və beləliklə, Çin raketləri və digər hərbi fəaliyyətləri haqqında məlumat toplamaq məqsədini daşıdığını iddia etmişdir. Rusiya da oxşar arqumenti əsas gətirərək, bu sistemin regional strateji balansı poza biləcəyini vurğulamışdır.

Çinin bu qərara kəskin etirazı ilə bağlı "People's Daily" qəzetində qeyd olunur ki, "Əgər Birləşmiş Ştatlar və Cənubi Koreya Çin də daxil olmaqla regiondakı ölkələrin strateji təhlükəsizlik maraqlarına zərər vurarsa, o zaman onlar bunun əvəzini ödəməli olacaq və lazımi əks-hücum alacaqlar" [6, s. 46].

Qeyd edək ki, Çin, Koreya Respublikasına qarşı iqtisadi sanksiyalar tətbiq etmiş və Cənubi Koreya şirkətlərinin məhsullarını boykot etmişdir. Bu, Koreya Respublikasının iqtisadiyyatına ciddi təsir göstərmişdir.

"THAAD" mübahisəsi siyasi partiyalar arasında və cəmiyyətin müxtəlif təbəqələri arasında gərginlik yaratmışdır. Məsələn, bəzi müxalifət partiyaları bu addımı Koreya Respublikasının müstəqilliyini və suverenliyini təhdid edən bir addım olaraq qiymətləndirmişdir.

"THAAD" mübahisəsi yalnız Koreya Respublikası, ABŞ, Çin və Rusiyanı əhatə etməklə qalmır, həm də geniş geosiyasi təsirlərə səbəb olur. Koreya yarımadası, Çinin və Rusiyanın təsir sahəsi ilə ABŞ-ın müttəfiqlik əlaqələrinin kəsişdiyi bir məkan olaraq, bu mübahisələr yalnız regional deyil, qlobal təhlükəsizlik məsələlərini də gündəmə gətirir. Şimali Koreya tərəfindən davam edən raket sınaqları və nüvə inkişafı, "THAAD"ın bölgəyə yerləşdirilməsini daha da zəruri edir. Bununla yanaşı, "THAAD"ın müsbət və mənfi təsirləri müzakirə edilir.

Amerika Birləşmiş Ştatlarının Koreya Respublikası ilə münasibətlərində "THAAD" sistemi ilə bağlı tədqiqat apararkən problemin analizində bir neçə sual dayanır. Bunlardan biri "THAAD"ın Cənubi Koreyanı Şimali Koreya raketlərindən həqiqətən müdafiə edə bilib-bilməməsidir ki, bu da yerləşdirmənin arxasında duran ən təcili və kritik məqsəddir. Araşdırmalar göstərir ki, "THAAD"ın müdafiə qabiliyyətinə dair geniş yayılmış "ixtisaslı nikbinlik" həddən artıq şişirdilmişdir. Bu, müvafiq olaraq Şimali Koreyanın "THAAD" sistemini məğlub etmək üçün qəbul edə biləcəyi əks tədbirlərin mövcudluğuna, xərclərinə və effektivliyinə analitik üstünlük verir. Bu qiymətləndirmə raket texnologiyasının müdafiədən daha çox hücuma üstünlük verdiyi adi müdrikliyə uyğundur və raketdən müdafiə sisteminin qurulması vasitəsilə Şimali Koreya raketlərinə qarşı müdafiənin texniki məqsədəuyğunluğuna dərin şübhələr yaradır [7, s. 1].

Növbəti sual isə raketdən müdafiə sisteminin azalan marjinal dəyərini nəzərə alaraq, Şimali Koreyanın artan nüvə və raket təhdidləri qarşısında Cənubi Koreyanın milli təhlükəsizliyini ən yaxşı şəkildə necə təmin etməyinin mümkünlüyüdür. Qeyd etmək olar ki, hazırda ABŞ-RK ittifaqı hər hansı əlavə əsas müdafiə sisteminə ehtiyac duymur. Hazırkı vəziyyətə görə, Koreya yarımadası "çəkindirmə boşluğu" ilə üzləşmir və raketdən müdafiə sistemi ABŞ-ın mövcud nüvə çətirinə çox az dəyər əlavə edir. Əvəzində, təhlillər göstərir ki, ən azı, "THAAD"ın əsaslandırılmasının raketdən müdafiə ehtiyaclarından kənarda axtarılmalı olduğunu və ABŞ-KR ittifaqının "THAAD"ın ələ keçirmə qabiliyyətinə həddən artıq inamdan çəkinməli olduğunu göstərir [7, s. 3].

Beləliklə, ABŞ və Koreya Respublikası arasında "THAAD" problemi təkcə hərbi müdafiə sistemlərinin yerləşdirilməsindən ibarət deyil. Bu, həm də geopolitik əlaqələr, iqtisadi təsirlər və regional təhlükəsizlik məsələləri ilə əlaqələndirilir. "THAAD"ın yerləşdirilməsi, Koreya Respublikası və müttəfiqləri üçün bir tərəfdən müdafiə təmin etməyə çalışarkən, digər tərəfdən regionda və beynəlxalq miqyasda gərginliklər yaratmağa davam edir.

Nəhayət, müdafiə arqumentinin zəif əsasları müdafiə baxımından səmərəsiz və dayanıqlı olmayan "THAAD"a həddən artıq inamın yaranması təhlükəsindən xəbərdar edir. Yanlış idarə olunan nikbinlik narahatlıq doğurur, çünki kifayət qədər zərərin məhdudlaşdırılması imkanlarına sahib olduğuna inanan dövlətlər hərbi gərginliyin artdığı vaxtlara nisbətən daha çox hərbi həll yolunu seçirlər. Təhlillər göstərir ki, bu fərziyyə inandırıcı olmaqdan uzaqdır və buna görə də ABŞ-KR ittifaqının hər hansı hərbi hərəkəti "THAAD"ın şərti olaraq inanılan dərəcədə idarə etmək üçün təchiz olunmadığı nüvə qisas riski ilə nəticələnir. Bundan əlavə, bəzi siyasi dairələrin müdafiə etdiyi kimi, əlavə "THAAD" batareyalarının yerləşdirilməsi müdafiə qabiliyyəti üçün az əhəmiyyət kəsb edəcək və buna görə də məqsədəuyğun deyil.

Bunun əvəzinə, "THAAD" həm Seul, həm də Vaşinqton üçün ilk növbədə alyansın etibarlılığının idarə edilməsi kontekstində baxıldıqda və istifadə edildikdə məna kəsb edir. Məsələn, Seula "THAAD"ın müdafiə qabiliyyətinə məhəl qoymaması və bunun əvəzinə diqqətini ABŞ-KR ittifaqına sadiqli-

yini nümayiş etdirməyin faydasını və strateji xərclərə və risklərə, xüsusən də Çindən gələn diplomatik və iqtisadi reaksiyaya qarşı cari genişlənmiş çəkindirməyə diqqət yetirmək daha yaxşıdır. Digər tərəfdən, Vaşinqton Seulun qərarını Seulun müttəfiqi kimi etibarı üçün lakmus sınağı kimi qiymətləndirə bilər, lakin buna Cənubi Koreya və yarımadada yerləşdirilmiş qoşunları üçün etibarlı müdafiə sistemi kimi yanaşmaq məsləhət görülmür.

**Açar sözlər:** *Koreya Respublikası, Amerika Birləşmiş Ştatları, " THAAD ", Koreya Respublikası-ABŞ ittifaqı, təhlükəsizlik.*

## ƏDƏBİYYAT SİYAHISI:

1. *Anggraining, T. South Korea and Chinese Conflict over THAAD: How it started and the way it ended. 2021.*
*https://www.researchgate.net/publication/349148524_South_Korea_and_Chinese_Conflict_over_THAAD_How_it_started_and_the_way_it_ended*

2. *Davis, P. K., Wilson, P., Kim, J., & Park, J. Deterrence and stability for the Korean peninsula. Korean Journal of Defense Analysis, 28, 1–23. 2016.*

3. *Glaser, C. L., & Fetter, S. Should the United States reject MAD? Damage limitation and US nuclear strategy toward China. International Security, 41(1), 49–98. 2016. doi: 10.1162/ISEC_a_00248.*

4. *Jaganath, S., Bryan, L. F. Missile defense and strategic stability: Terminal High Altitude Area Defense (THAAD) in South Korea. 2017.*
*https://www.osti.gov/servlets/purl/1352416*

5. *Klingner, B. The importance of THAAD missile defense. Journal of East Asian Affairs, 29(2), 21–41. 2015.*

6. *Riqiang, W. China's Anxiety about U.S. Missile Defence: A Solution. Survival, 55(5), 29-52. 2013.*

7. *Soul, P. Deterrence under nuclear asymmetry: THAAD and the prospects for missile defense on the Korean peninsula. 2019.*
*https://ink.library.smu.edu.sg/cgi/viewcontent.cgi?article=4008&context=soss_research*

8. *Toby, D., Narushige, M., Tong, Z. Regional Implications of Evolving Deterrence on the Korean Peninsula. 2018.*
*https://www.jstor.org/stable/pdf/resrep20996.5.pdf*

**Ibadova Sevinj Tahir**
***Baku State University, PhD student***

**The issue of the Terminal High Altitude Area Defense (THAAD) system in the relations between the United States and the Republic of Korea**

**SUMMARY**

In 2016, the decision to deploy the Terminal High Altitude Area Defense (THAAD) system in South Korea led to significant political challenges and controversies. Following North Korea's fourth nuclear test in January 2016, the United States and South Korea initiated official discussions in early February regarding the THAAD system.

This article examines the essence of the "THAAD" issue and explores its regional impacts.

**Keywords:** *The Republic of Korea, the United States of America, "THAAD," the Republic of Korea-U.S. alliance, security.*

**Ибадова Севинч Тахир**
***Бакинский Государственный Университет, докторант***

**Проблема "THAAD (Система противоракетной обороны на высокой высоте)" в отношениях между Соединёнными Штатами Америки и Республикой Корея**

**РЕЗЮМЕ**

В 2016 году решение о размещении системы противоракетной обороны Terminal High Altitude Area Defense (THAAD) в Южной Корее привело к значительным политическим проблемам и вызвало широкие споры. После четвертого ядерного испытания Северной Кореи в январе 2016 года США и Южная Корея начали официальные обсуждения по поводу системы THAAD в начале февраля 2016 года.

В статье исследуется сущность проблемы "THAAD" и анализируются ее региональные последствия.

**Ключевые слова:** *Республика Корея, Соединённые Штаты Америки, "THAAD", альянс Республика Корея-США, безопасность.*

Beynəlxalq ictimai - siyasi, elmi - nəzəri jurnal

Tarix və Antropologiya

UOT 94(479.24)
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.075

**NÜŞABƏ QULİYEVA**
*Bakı Dövlət Universitetinin doktorantı,*
*Azərbaycan Universiteti Beynəlxalq Magistratura və Doktorantura Mərkəzinin direktoru,*
*tarix üzrə fəlsəfə doktoru, dosent*
*E-poçt: nushaba.guliyeva@au.edu.az*
*https://orcid.orglOOOO-OOOI-7117-6394*

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN TƏHSİLİNDƏ İSLAHATLAR VƏ İNKİŞAF

**Giriş:**

Məktəb və maarif tarix boyu hər bir xalqın tərəqqisində, onun milli özünüdərkində də mühüm rol oynayır. Çünki milli özünüdərk formalaşmadan milli-mədəni irs qoruna, inkişaf etdirilə bilməz. Milli-mədəni irsin qorunması birbaşa təhsil sistemi ilə sıx bağlıdır. Bu həqiqətləri dərindən başa düşən Heydər Əliyev Azərbaycan xalqınının maariflənməsinə, savadlanmasına xüsusi diqqət yetirirdi. Əlbəttə, Heydər Əliyevin təhsil sahəsindəki fəaliyyəti ölkədə yeridilən siyasətin tərkib hissəsi idi. Təhsil sahəsində həyata keçirdiyi tədbirlər onun mədəni irsin inkişaf etdirilməsində, maarifçi və milli kadrların hazırlanması sahəsində əvəzsiz bir strateq kimi fəaliyyətinin əsas göstəricisidir.

Müdrik şəxsiyyət respublikada elm və təhsilin, mədəniyyət və incəsənətin, səhiyyənin inkişafına xüsusi qayğı göstərdi. Azərbaycanda mədəni-maarif, elm, səhiyyə, sosial xidmət obyektlərinin geniş şəbəkəsi yaradıldı. Təhsilin inkişafı, milli kadrların hazırlanması işinin təşkili bu dövrdə tamamilə yeni səviyyəyə çatdırıldı [1, s.366].

**Təhsilin önəmi:**

Təhsil insanın inkişafı konsepsiyası baxımından imkanlarının genişləndirilməsində mühüm rol oynayır. Yüksək keyfiyyətli təhsil və əmək bazarının tələblərinə cavab verən peşəkar hazırlıq insanlara layiqli məşğulluq, öz potensialını tam inkişaf etdirərək həyata keçirmək, əməyin məhsuldarlığını artırmaq imkanı verir. Təhsil hər bir ölkənin insan inkişafı və dövlətin gələcəyi üçün vacibdir. Bir məfhum kimi, "təhsil" praktik fəaliyyət üçün gərəkli olan biliklərin və müvafiq bacarıq və səriştələrin məcmusudur.

YUNESKO-nun müəyyən etdiyi beynəlxalq tərifə görə isə, təhsil şəxsiyyətin bacarıq və davranışlarının təkmilləşdirilməsinin elə bir prosesi və nəticəsidir ki, bu zaman o, əqli yetkinlik və fərdi inkişafa nail olur [2].

Belə ki, təhsil dedikdə yalnız formal təhsil, yəni məktəb və ya universitet təhsili nəzərdə tutulmur. Təhsil həyatın müxtəlif çağırışlarına hazırlıq üçün uzunmüddətli və çoxşaxəli öyrənmə prosesidir. Başqa sözlə, təhsil fərdlərə ötürdüyü əsaslı bilik və bacarıqlarla onların öz arzu və amallarını necə ifadə etməsini və həyata keçirməsini müəyyənləşdirir, həm də onları öz icmalarının həyatında fəal iştirak edən düşüncəli vətəndaş kimi yetişdirir. Eyni zamanda, təhsil sistemi ölkənin milli dəyərlərini mənimsəmiş vətəndaş formalaşdırmalı, qloballaşan və müasir dünyada rəqabətə davamlı, peşəkar kompetensiyalara və biliklərə malik bir insan yetişdirir. Bundan əlavə, uşaqlar xoşbəxt və müvəffəqiyyətli bir gələcək üçün hədəf qurmağı və əldə etməyi, duyğuları idarə etməyi, özünün və başqalarının hisslərini anlamağı, dost və tərəfdaş münasibətlərini qorumağı, konfliktləri konstruktiv şəkildə həll etməyi, məsuliyyətli və inamlı bir insan olmaları üçün həyat bacarıqlarını bilməlidir. Xüsusən yeniyetmə yaş dövründə özünütanıma, ünsiyyət bacarıqları və idrak bacarıqları kimi müxtəlif həyat bacarıqlarının inkişaf və tətbiqi vacibdir. Belə ki, filosof Con Dyuinin fikrincə, təhsil həyata hazırlıq deyil; təhsil həyatın özüdür [3].

Heydər Əliyev və Azərbaycanda təhsilin inkişafı:

Azərbaycan Respublikasında müstəqil dövlət quruculuğu vəzifələri – müstəqilliyin möhəmləndirilməsi, təhlükəsizliyin, ərazi bütövlüyünün və iqtisadi maraqların təmin olunması və s. özünəməxsus xüsusiyyətlərlə, vəzifə və taktiki gedişlərlə fərqlənən müxtəlif istiqamətli xarici siyasət yeridilməsini tələb edirdi. Heydər Əliyev ölkənin müstəqilliyinin dönməzliyinə nail olmaq, onu tədricən ənənəvi siyasi təsir dairəsindən çıxarmaq, tarixən formalaşmış xarici iqtisadi, siyasi və mədəni əlaqələrdən müstəqillik mənafeləri üçün səmərəli istifadə etmək, Şərqlə Qərb arasındakı münasibətlər sistemində Azərbaycan Respublikasının özünəməxsus yer tutmasını təmin etmək üçün region dövlətlərinin köklü maraqlarına

toxunmamaq şərti ilə çoxşaxəli və tarazlaşdırılmış siyasət həyata keçirirdi [7, s. 224].

Heydər Əliyevin fəaliyyəti nəticəsində respublikada həyatın elə bir sahəsi qalmadı ki, orada inkişaf, tərəqqi müşahidə olunmasın. Ölkənin iqtisadiyyatı, xalqın rifah halı, elm və incəsənət, səhiyyə sahələri inkişaf edərək Azərbaycanı keçmiş müttəfiq respublikaları sırasında ən ön yerlərdən birini tutmasına gətirib çıxardı. Azərbaycan quruculuq, yaradıcılıq və tərəqqi dövrü keçirirdi, cəmiyyətin bütün təbəqələrində fasiləsiz inkişaf, irəliləyiş ruhu hökm sürürdü. Məhz bütün deyilənlərin nəticəsində yalnız Azərbaycan, həmçinin keçmiş SSRİ respublikalarından Rusiya və Ukrayna ittifaq büdcəsindən dotasiya almırdı. Tarixdən məlum olduğu kimi, iqtisadi müstəqillik, iqtisadi qüdrət millətin siyasi müstəqilliyinin bazisini təşkil edir. Bu baxımdan, keçən əsrin 70-80-ci illərində Azərbaycanın iqtisadi sahədə qazandığı nailiyyətlər siyasi müstəqillik yolunda mühüm təməl hesab edilməlidir.Bu mənada, Ulu Öndərin bu fəaliyyəti ilə təkcə, İttifaq respublikası olan Azərbaycanın deyil, həm də gələcək müstəqil Azərbaycanın möhkəm təməlini, sonrakı nəsillərin xoşbəxt və firavan həyatının təməlini qoydu. Onun ikinci hakimiyyət illərində isə Azərbaycan dünya miqyasında tanınan və tərəqqiyə doğru gedən dövlət statusunu qazandı. Ulu Öndərin yenidən ölkəyə rəhbərliyi sayəsində siyasi sabitlik bərqərar oldu, atəşkəs əldə edildi, irimiqyaslı iqtisadi islahatlara başlanıldı. Bunun nəticəsində ölkədə maliyyə vəziyyəti sabitləşdi, iqtisadiyyata cəlb olunan investisiyaların həcmi ildən-ilə artdı, xalqın həyat səviyyəsi yaxşılaşmağa başladı [4, s.7].

Bu gün birmənalı şəkildə deyə bilərik ki, Ümummilli Liderimizin rəhbərliyi, tövsiyələri ilə hazırlanmış proqramlar, seçdiyi strateji yol Azərbaycan təhsilinin, onun maddi-texniki bazasının uzunmüddətli, dinamik inkişafını təmin etmişdir. Hazırda Ulu Öndərimizin daxili və xarici siyasəti, iqtisadi plan və proqramları Heydər Əliyev məktəbinin layiqli yetirməsi, möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Məhz bu siyasətin ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilməsinin nəticəsidir ki, son illərdə Azərbaycan istər sosial-iqtisadi, istərsə də elm və təhsil sahəsində möhtəşəm nailiyyətlər əldə edə bilib. Dünyanın bir sıra ölkələrinin iqtisadi böhranla çarpışdığı bir vaxtda Azərbaycan özünün iqtisadi uğurlarını ilbəil artırır. Prezident İlham Əliyevin ayrı-ayrı dövlət proqramları şəklində irəli sürdüyü layihələr ölkəni sürətlə irəli aparır. Bu gün Azərbaycan regionun ən güclü dövlətinə çevrilib.

**Təhsilin müasir dövrü**

Dünyanın inkişaf tarixinə nəzər salsaq, görərik ki, bütün mühüm inkişaflar təhsildən başlayır. İqtisadiyyat, mədəniyyət, tibb, elm, müdafiə, təhlükəsizlik, texnologiya sahəsində əldə olunan nailiyyətlər–hamısı təhsilin inkişafı ilə sıx bağlıdır. Təhsildə müvəffəqiyyət qazanan xalqlar bütün sahələrdə sürətlə inkişaf edir. Qarşıya qoyulan vəzifələri yerinə yetirmək üçün aşağıdakı metodlardan istifadə edilmişdir:

- nəzəri təhlil metodu (problemlə bağlı müxtəlif pedaqoji və metodik ədəbiyyatların ümumi təhlili);
- pedaqoji təhlil metodu - müsahibə, müşahidə, analiz, sintez (proqramların, dərsliklər və metodik vəsaitlərin təhlili).
- müqayisəli metod (mövzuyla bağlı fikirlərin xarici ədəbiyyatlarla müqayisəli təhlili).

Daim inkişaf edən dünya təhsil sisteminə inteqrasiya üçün çevik islahatların həyata keçirilməsi zəruridir. Ölkəmizdə də müstəqillikdən sonra bütün sahələr üzrə, həmçinin təhsil sahəsində geniş islahatlar aparılmağa başlanıldı. Dövlət Komissiyası tərəfindən hazırlanan islahatlar proqramı Ümummilli Lider Heydər Əliyevin 15 iyun 1999-cu il tarixli "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramının təsdiqi haqqında" Fərmanı ilə tətbiq olunmağa başlamışdır. Əsas məqsəd təhsilin bütün pillələrində toplanmış potensialı saxlamaq və inkişaf etdirməkdən ibarət idi. Bu islahat proqramı təhsildə humanistləşdirilmə, humanitarlaşdırılma, demokratikləşdirilmə, differensiallaşdırılma və inteqrasiya kimi əhəmiyyətli prinsiplər əsasında təhsil sisteminin strukturunun, məzmununun, kadr hazırlığı və təminatının, tədris, elmi-metodiki və informasiya təminatının idarə olunmasının, maddi-texniki bazasının və iqtisadiyyatının təkmilləşdirlməsini nəzərdə tuturdu [5, s.366-368].

Yeni təhsil proqramının-Kurikulumun qəbul olunması qiymətləndirmə sisteminə də müəyyən dəyişikliklərin edilməsini zəruri etdi. Təhsilin keyfiyyətinin artırılması istiqamətində aparılan islahatlardan biri də qiymətləndirmə sistemi ilə bağlıdır. Belə ki, 13 yanvar 2009-cu ildə "Azərbaycan Respublikasının ümumi təhsil sistemində qiymətləndirmə Konsepsiyası" qəbul edilmişdir. Bu konsepsiya-

ya əsasən yeni qiymətləndirmə mexanizmləri təsdiq olunmuş və onların tətbiqinə başlanılmışdır. Təlim-tədris prosesinin inkişaf etdirilməsi, şagird nailiyyətləri haqqında obyektiv məlumatların toplanması, həmçinin təhsil standartlarının məqsədli şəkildə izlənilməsi üçün yeni qiymətləndirmə mexanizmlərinin yaradılması qarşımızda duran mühüm vəzifələrdən idi [6, s.4].

Artıq ənənəvi qiymətləndirmə vasitələri müasir idarəetmə sistemində və təlim prosesində öz təsirini itirmiş, bunlarla yanaşı, yeni qiymətləndirmə növlərindən istifadə olunmağa başlanılmışdır. Belə ki, bu anlayışların mahiyyətini və məzmununu dərindən dərk etmək, qiymətləndirmə meyarlarını düzgün seçmək, müəyyən ölçülər və hesablamalar aparmaq qiymətləndirmə prosesində vacib şərtlərdən hesab olunur.

Ümumiyyətlə, təhsildə aparılan bütün islahatlar onun keyfiyyətinin artırılmasına xidmət etməlidir. Hazırda təhsil sahəsində mühüm dəyişikliklərin, yeniliklərin həyata keçirilməsi prosesi uğurla yerinə yetirilir. Ölkəmizdə aparılan bu islahatların nəticəsində standartlara uyğun bir çox yeni məktəblər inşa edilmiş və təmir edilmiş, müasir maddi-texniki baza və informasiya-kommunikasiya texnologiyaları ilə təmin olunmuş, təhsilalanlar üçün əlverişli şərait yaradılmışdır. Bundan başqa, məktəb rəhbərliyi və pedaqoji heyət müasir təhsil sisteminə uyğun xüsusi hazırlıqlar keçmiş, onların informasiya-kommunikasiya texnologiyalarından istifadə bacarıqları artırılmışdır. Təhsildə keyfiyyət məsələsi həmişə gündəmdə olmuşdur. Ölkəmizdə də keyfiyyətli təhsilə nail olmaq üçün təhsilin idarə olunması istiqamətində yeniliklərin və dəyişikliklərin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Müasir dövrdə təhsili idarə edənlərin-təhsil menecerlərinin formalaşması yönündə genişmiqyaslı tədbirlər planı hazırlanaraq, həyata keçirilməyə başlanmışdır. Təhsil müəssisələrini idarə edənlər, təhsil menecerləri vaxtı-vaxtında müvafiq qurumlar tərəfindən yoxlanılmazsa, onların monitorinq və qiymətləndirilməsi keçirilməzsə, təhsildə keyfiyyətə nail olmaq mümkün olmaz.

**Nəticə:**

Məhz buradan da çıxış edib deyə bilərik ki, Azərbaycan tarixinin XX əsr mərhələsinin görkəmli şəxsiyyəti, nəhəng siyasətçi, Ulu Öndər kimi ən nüfuzlu adı ləyaqətlə qazanmış və şərəflə daşıyan, 1993-2003-cü illərdə müstəqil Azərbaycan Respublikasının Prezidenti olmuş Heydər Əliyevin 01.10.2003-cü il tarixli Azərbaycan xalqına Müraciətində son cümlələrdə ifadə olunmuş dərin məna həyati mahiyyət kəsb edən, həmçinin tarixyüklü Qərarı – "varislik ideyası" İlham Əliyevin xalqın yüksək fəallığı ilə Prezident seçilməsi və arxada qalan 20 illik böyük bir dövrdə bütün sahələrdə möhtəşəm nailiyyətlərlə dolğun olub, hətta Azərbaycanın 30 illik ən ağır taleyüklü – Dağlıq Qarabağ torpaqlarının işğaldan azad olması, Vətən müharibəsinin zəfərlə başa çatması ilə tarixə iz salmaqla Heydər Əliyev uzaqgörənliyini, Azərbaycan xalqının Ümummilli Liderinin inamında yanılmadığını təsdiq edir.

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Ümummilli lider Heydər Əlirza oğlu Əliyevin irsi və milli idealogiyanın formalaşması məsələləri . – B.: Elm və təhsil, 2010. - 424 s.,*

*2. UNESCO and Education. https://unesdoc.unesco.org/ark:/48223/pf0000248136*

*3. John Dewey. Democracy and Education. 1997 https://www.gutenberg.org/files/852/852-h/852-h.htm*

*4. Rafiq Novruzov. Heydər Əliyevin təhsil siyasəti Xalq qəzeti. - 2018.- 5 may. - № 101*

*5. Heydər Əliyev. "Müstəqilliyimiz əbədidir". Çıxışlar. Nitqlər, Bakı, 2008-ci il, VIII cild,*

*6. Ənvər Abbasov, Qiymətləndirmə sahəsində fəaliyyətlərimizin əsasını təşkil edən sənəd. "Azərbaycan müəllimi".- 2014.- 5 dekabr.*

*7. Гулиева Н. Образовательная политика Гейдара Алиева в Азербайджане (краткий обзор). Heydər Əliyev və türk dünyası, 223-226.*

**XÜLASƏ**

Ölkəmizin müasir dünyada layiqli yer tutması üçün konkret vəzifələr müəyyənləşdirmiş Heydər Əliyev hər bir Azərbaycan vətəndaşından əcdadlarımızın bizə əmanət qoyduğu milli-mənəvi irsi, böyük tarixi keçmişi unutmamağı tövsiyə edir, xalqımızın milli-mədəni varlığının və özünəməxsusluğunu qoruyub saxlamağı indiki və gələcək nəsillərə vəsiyyət edirdi. Heydər Əliyev milli-mənəvi dəyərlərimizə qiymət verərkən, buraya xalqımızın əsrlər boyu formalaşdırdığı inam və etiqadı, milli mədəniyyətini, adət-ənənələrini, əxlaqi keyfiyyətlərini daxil edirdi. Heydər Əliyev milli-mənəvi irsimizin qorunub saxlanılmasında, inkişaf etdirilməsində, dünya miqyasında təsdiqini tapmasında əvəzsiz rol oyna-

mış, onun titanik fəaliyyəti sayəsində Azərbaycan mədəniyyəti milli-dövlət sərhədlərini aşaraq bəşər mədəniyyətinin inkişafına layiqli töhfələr vermişdir. Azərbaycanın son təxminən 50 illik tarixini əhatə edən mənəvi-mədəni həyatında baş verən bütün yeniliklərin, uğurların əsas ideoloqu, təşəbbüskarı və təşkilatçısı Heydər Əliyev olmuşdur. Milli-mənəvi irsimizə, dəyərlərimizə bağlılıq onun tərbiyəsindən, əqidəsindən və ruhundan qidalanırdı. O, həyatı, qəlbi ilə öz xalqının mənəvi köklərinə, dininə bağlı idi, onlardan qaynaqlanır, onlardan ilham alırdı. Milli liderimiz yaxşı dərk edirdi ki, hər bir xalqı tanıdan onun təbii sərvətləri, iqtisadi potensialı, hərbi qüvvəsi deyil, məhz mədəniyyətidir, mənəvi dəyərlər sistemdir.

**Açar sözlər:** *Heydər Əliyev, təhsil, elm, Azərbaycan, qanun, sərəncam, mübadilə.*

### SUMMARY

Heydar Aliyev, who defined concrete tasks for our country to take a worthy place in the modern world, recommended to every citizen of Azerbaijan not to forget the national and spiritual heritage, the great historical past that our ancestors have entrusted to us, and to preserve the national and cultural existence and uniqueness of our people. Heydar Aliyev, while appreciating our national and moral values, included the faith and ethics, national culture, traditions and moral qualities that our people have formed for centuries. Heydar Aliyev has played an irreplaceable role in preserving, developing, and recognizing our national and spiritual heritage in the world, and thanks to his titanic activity, Azerbaijani culture has transcended national and state borders and made worthy contributions to the development of human culture. Heydar Aliyev was the main ideologist, initiator and organizer of all the innovations and successes in the spiritual and cultural life of Azerbaijan over the past 50 years. The loyalty to our national and spiritual heritage and values was nourished by his upbringing, convictions and spirit. His life, his heart, was attached to the spiritual roots of his people, his religion, and he drew from them, he was inspired by them. Our national leader was well aware that it is not its natural resources, economic potential, military strength that distinguishes each people, but its culture, its system of moral values.

**Key words:** *Heydar Aliyev, education, science, Azerbaijan, law, decree, exchange.*

UOT 316.285
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.083

# ETNİK MÜXTƏLİFLİYİN TƏNZİMLƏNMƏSİNDƏ İZOLYASİYA VƏ ASSİMİLYASİYA SİYASƏTİ

**MƏRYƏM ORUCLU**
*AMEA Arxeologiya və Antropologiya İnstitutunun Antropologiya şöbəsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent*

*E-mail: oruclu. meryem@gmail.com*

Müasir dünyada, xüsusilə etnik qrupların daha sıx toplaşdığı Avropada həm ənənəvi milli azlıqların, həm də yeni milli azlıqların, yəni immiqrantların qorunması və hüquqlarının təmin edilməsi məsələsi əsas problem olaraq qalır. Belə ki, təcrübə də göstərir ki, hər hansı dövlətin suverenliyinə böyük təhlükə milli azlıqların hüquqlarının qorunmaması nəticəsində separatizmin baş qaldırmasından başlayır. Bununla da dövlətin suverenliyinə belə bir təhdid milli azlıqların hüquqlarının qorunmasını çox vacib məsələ olaraq ön plana çıxarır.

Qeyd edək ki, II Dünya müharibəsindən sonra Avropa ölkələrində ucuz işçi qüvvəsinə ehtiyacın yaranması ilə əlaqədar inkişaf etməkdə olan ölkələrdən buraya gələn miqrantların sayı sürətlə artmağa başladı. Xüsusilə, 1950-ci ilin əvvəlində on minlərlə əmək miqrantı Avropada məskunlaşmağa məcbur oldu. Bunun nəticəsində fərqli dinə, mədəniyyətə, dilə və kimliyə sahib olan çoxsaylı miqrantlar avropalılarla birgə yaşamağa məhkum oldular. Beləliklə, miqrasiya prosesi nəticəsində milli-etnik cəmiyyətlərin sayının kəskin artması bir dövlət çərçivəsində onlarca fərqli mədəniyyətə malik olan xalqların mövcudluğuna gətirib çıxardı. Bununla da Qərb dövlətlərində çoxsaylı fərqli mədəniyyətlərin mövcudluğu dövlət idarəçiliyi sahəsində çətinliklər yaratdı. Digər tərəfdən, XX əsrin sonlarında polietnik quruluşa malik olan SSRİ-nin və digər bu tipli dövlətlərin süqutu etnik amil məsələsini yenidən aktuallaşdırdı. Belə ki, bu ölkələrdə etnik millətçiliyin və separatizm meyillərinin güclənməsi, o cümlədən etnik ziddiyyətlərin daha təhlükəli hal alması etnik azlıqların problemlərinin həlli məsələsini yenidən ön plana çıxardı.

Müşahidələr göstərir ki, polietnik quruluşa malik olan ölkələrdə ciddi münaqişələrə səbəb olan amillərdən ən əsasını etnik, dini, irqi və mədəni müxtəlifliklərin dövlət tərəfindən tənzimlənməməsi təşkil edir. Qeyd edək ki, müasir dünyada cərəyan edən qloballaşma prosesləri müxtəlif xalqlar arasındakı münasibətlərin xarakterinə ciddi təsir edir və eyni zamanda milli mədəniyyətlərə də təsirsiz ötüşmür. Belə bir faktı da qeyd edək ki, Qərb ölkələrinin fərqli mədəniyyətlərlə tanışlığı prosesi XV-XVII əsrlərdə Portuqaliya, İspaniya və Fransanın Asiya, Afrika və Latın Amerikasında həyata keçirdikləri müstəmləkə işğalları dövründə başlamışdır. Xüsusilə, orta əsrlərin son dövründə aparılan işğalçılıq siyasəti müasir dövrdə baş verən qloballaşma proseslərinin səbəblərindən biri olmuşdur. Qloballaşma prosesi nəticəsində isə həm ölkələrin bir-birindən nisbi uzaqlığı aradan qalxır, həm də müasir dünyada fərqlilik və qeyri-bərabərliyin artması müşahidə edilir. Tarixi proseslər nəticəsində formalaşan, insanların dünyagörüşünü və fəaliyyətlərini istiqamətləndirən etnik-mədəni müxtəliflik, etnik-mədəni dəyərlər müasir dövrdə cəmiyyətin ictimai inkişafında əhəmiyyətli rol oynayır. Mədəniyyətin cəmiyyətin ictimai inkişafında aparıcı rolunun artması müasir dövrdə ictimai inkişafın xüsusiyyətləri ilə əlaqədardır. Bu xüsusiyyətlər dünya sosializm sisteminin iflasa uğraması ilə bir-birinə zidd olan iki sosial-siyasi sistemdən birinin tarix səhnəsindən getməsi və dünyada yeni sistemin formalaşması ilə əlaqədardır. Bir-birinə qatı düşmən olan iki sistem arasında gedən "soyuq müharibə" dövründə xalqlar arasında əsas fərqli cəhətlər ideoloji, siyasi və yaxud iqtisadi xarakterə malik idi. Post- sovet dövründə isə tarixinə, dilinə, dininə və bütövlükdə etnik-mədəni dəyərlərinə müraciət edən xalqlar öz kimliklərini müəyyən etmək imkanı qazandılar. Artıq bu etnik-mədəni dəyərlər xalqlar arasında əsas və başlıca fərqləri təşkil edirdi. Bununla bağlı tədqiqatçı alim Samuil Hantinqton göstərirdi ki, "Yeni dünyada xalqlar arasında əsas fərqlər ideoloji, siyasi, iqtisadi deyil, mədəni xarakter daşıyır" (1, s.21).

Etnik müxtəlifliyə malik olan dövlət üçün mədəni siyasət modelinin düzgün seçilməsi həmin dövlətin sosial inkişafı baxımından çox böyük əhəmiyyət kəsb edir. Əksinə bu modelin düzgün seçilməməsi çoxsaylı münaqişələrə səbəb ola bilər. Xüsusilə, dünyanın müxtəlif bölgələrində baş verən çoxsaylı münaqişələr digər ölkələrə, o cümlədən Avropa ölkələrinə miqrant axınının xeyli dərəcədə sürət-

lənməsinə səbəb olub. Belə ki, 2020-ci ilin statistik məlumatlarına görə, hazırda dünyada 281 milyon beynəlxalq miqrant mövcuddur. Bu rəqəm isə dünya əhalisinin 3,6 faizini təşkil edir (2)

Qeyd edək ki, ilk vaxtlar etnik, irqi, dini və mədəni müxtəlifliklərlə üzləşən bəzi ölkələr bu müxtəliflikləri assimilyasiya və izolyasiya siyasəti vasitəsi ilə tənzimləməyə üstünlük verdilər. Dövlətin assimilyasiya siyasəti milli azlıqların etnik-mədəni dəyərlərini titul etnosun mədəniyyətinə qatmaqla cəmiyyətdəki etnik, irqi, dini və mədəni müxtəlifliklərin ləğv edilməsini nəzərdə tutur. Nəticədə assimilyasiya siyasəti milli azlıqların dillərinin, mədəniyyətlərinin itirilməsinə səbəb olur. Assimilyasiya könüllü və zorakı yolla həyata keçirilə bilər. Birinci halda milli azlıqlar düşdükləri şəraitə uyğunlaşmaq üçün titul xalqın tələblərinə uyğun olan mədəni dəyərləri qəbul edirlər. Yəni milli azlıqlar müəyyən dərəcədə öz mədəni dəyərlərindən könüllü şəkildə imtina edirlər. Digər tərəfdən könüllü assimilyasiya prosesində milli azlıqların etnik-mədəni dəyərlərinin müəyyən elementlərini titul etnos da qəbul edə bilər. Titul etnos tərəfindən məqsədyönlü şəkildə tətbiq edilən zorakı assimilyasiya siyasətinin əsas mahiyyəti isə milli azlıqlara məcburi şəkildə hakim mədəniyyətin dəyərlərinin qəbul etdirilməsindən ibarətdir. Bu siyasətin mahiyyəti daha çox akkultrasiya prosesinə uyğun gəlir. Akkultrasiyanın mahiyyəti işğala məruz qalan xalqın öz etnik-mədəni dəyərlərindən əl çəkməyə və hakim xalqın təklif etdiyi dəyərləri qəbul etməyə məcbur edilməsidir (3).

Zorakı assimilyasiyanın mahiyyətini izah edən amerikalı politoloq Qordonun 1966-cı ildə təqdim etdiyi anqlokonformizm nəzəriyyəsinə görə, ABŞ miqrantları qəbul edən ölkə kimi onları assimilyasiyaya məruz qoyaraq doğma mədəniyyətlərini və dillərini unutdurur. Sonra da onları hakim anqlosakson mədəniyyətini, ingilis dilini universal dəyərlər kimi qəbul etməyə məcbur edir (4, s,14). Zorakı assimilyasiyadan fərqli olaraq könüllü assimilayasiya siyasəti nəticəsində yeni formalaşan mədəniyyətdə milli azlıqların etnik-mədəni dəyərlərinin müəyyən elementləri az da olsa qalır. Lakin buna baxmayaraq assimilyasiyanın hər iki növü cəmiyyətdəki etnik, irqi, dini və mədəni müxtəlifliklərin ləğv edilməsinə hədəflənmişdir.

İzolyasiya siyasəti isə milli azlıqların etnik-mədəni dəyərlərinin titul etnosun etnik-mədəni dəyərləri ilə hər cür əlaqəsinin qarşısının alınmasını nəzərdə tutur. İzolyasiya siyasəti əsasən iki formada həyata keçirilir. Birincisi, miqrantların, xüsusilə milli azlıqların təmsilçilərinin ölkəyə daxil olmasının qarşısını almaq; ikincisi, cəmiyyətdə artıq məskunlaşmış milli azlıqların nümayəndələrinin hakim xalqın mədəniyyətinə assimilyasiyasına mane olmaq məqsədilə onları təcrid etmək, yəni aparteid siyasət yeritmək. İzolyasiya siyasətinin birinci formasına üstünlük verən tədqiqatçılar ölkədə etnik- mədəni müxtəlifliyin qarşısının alınmasının ən real yolunun miqrantların ölkəyə daxil olmasının qarşısının alınmalı olduğunu qeyd edirlər (5, s.3). Milli azlıqların ölkəyə daxil olmasının qarşısının alınmasını əsas tutan belə immiqrasiya siyasəti Avstraliya və Yaponiyada ayrı-ayrı vaxtlarda həyata keçirilmişdir. Bu siyasətə əsasən, ölkədə ağların və ingilis mədəniyyətinin üstünlüyünü təmin etmək məqsədilə ölkədə ilk növbədə, britaniyalıların məskunlaşmasına icazə verilirdi. Britaniyalılardan sonra Şimali Avropadan olan immiqrantlar arzuolunan hesab edilirdilər. Cənubi avropalılara isə bir qədər aşağı kateqoriyaya məxsus olan immiqrantlar kimi baxırdılar. Asiyalı və digər ağdərili olmayan immiqrantların Avstraliyada məskunlaşmasına münasibət mənfi idi. Avstraliya ayrı-seçkiliyə əsaslanan bu immiqrasiya siyasətini yalnız 1973-cü ildə ləğv etdi (5,s.3-4).

İzolyasiya siyasətinin ikinci forması olan aparteid siyasət cəmiyyətdə artıq məskunlaşmış milli azlıqların titul xalqın mədəniyyətinə assimilyasının qarşısının alınmasını nəzərdə tutur. Bu siyasət Cənubi Afrika Respublikasında 1948-1994-cü illərdə aparılırdı. Aparteid siyasət ölkə əhalisini 4 irqi qrupa bölürdü: "qaralar", "ağlar","rənglilər" və"-hindilər". Hakimiyyətdə olan irqçilər ayrı-seçkiliyi həyatın bütün sahələrində tətbiq edərək onların vətəndaş hüquqlarını xeyli məhdudlaşdırırdılar (3) .

Bəzi tədqiqatçılar etnosiyasətin assimilyasiya modelini cəmiyyətin etnik, irqi, dini cəhətdən heterojen əhali qruplarının mədəni hemogenləşməsini, ümumi sivil norma və dəyərlərə əsaslanan monokultural bütövlüyə çevrilməsi kimi xarakterizə edir. Etnosiyasətin assimilyasiya modelinə misal olaraq uzun illər ABŞ-nin daxili siyasətində hökmranlıq edən modeli göstərmək olar. ABŞ əhalisinin uzun illər, hətta əsrlər boyu formalaşmasına səbəb olan nəhəng immiqrant axını öz daxili qanunlarını və ideallarını bəyan edən dövlətin, öz mədəniyyətlərinə və qanunlarına uyğun yaşayacaq, dövlətin qanunlarına isə yalnız zahiri loyallıq nümayiş et-

dirəcək immiqrant icmalarının mexaniki birliyinə çevrilməsi təhlükəsini ortaya qoydu. Vahid dövlət siyasi birliyinin formalaşması üçün ümumi siyasi institutlarla yanaşı, həm də ümumi ideallar, dəyərlər və mədəni standartların olması zəruridir ki, bu dəyərlər, ideallar, mədəni standartlar əksər əhalinin və ölkəyə gələn immiqrantların şəxsi sosial oriyentasiyasına çevrilsin. İlkin mərhələdə Amerikanın idealları və dəyərləri protestant inamlı anqlo-sakson mənşəli ağ amerikalıların sadə "etno-mədəni" formulası kimi formalaşdı. Ölkəyə gələn immiqrantlar öz etno-mədəni dəyərlərindən azad olmalı və göstərilən mədəni ideala yaxınlaşmağa çalışmalı idilər. Lakin anqlo-saksonların bu assimilyasiya nəzəriyyəsi ilə bərabər, daha mütərəqqi hesab olunan "əritmə qazanı"("melting pot") nəzəriyyəsi bir etnik qrupun digərindən üstünlüyünü ehtiva etmirdi. "Əritmə qazanı" konsepsiyası Amerika xalqının inkişafının əsas istiqaməti kimi elan edilərək, etnik və konfessinal azlıqların seqredasiyasını inkar etdi. "Amerika əritmə qazanıdır" şüarı altında keçirilən bu siyasət cəmiyyətin neqativlərindən biri olan irqi diskriminasisiyaya qarşı çıxmaq imkanı verdi. Lakin ümumi formada tərtib edilmiş "əritmə qazanı" nəzəriyyəsi anqlosaksonlara yad olan etnik miqrantların assimlyasiyasını nəzərdə tutan alternativ inteqrasiya variantlarını da istisna etmirdi. "Əritmə qazanı" nəzəriyyəsinin Amarikada meydana gəlməsi təsadüfi deyildi. Bunun əsasında XIX əsrin II yarısında Amerikaya kütləvi immiqrant axınının reallaşması dayanırdı. 1861-1890-cı illərdə 3 on illik ərzində Avropadan gələn immiqrantlar arasında ən böyük faiz Almaniyadan gələn mühacirlərə aid idi. Digər ölkələrdən gələn immiqrantlar Amerikada səpələnmiş şəkildə məskunlaşmışdılar və tez bir zamanda yeni vətənlərində assimilyasiya oluna bildilər. Bunun əksinə olaraq alman immiqrantlar lüteran kilsələri ilə kifayət qədər sıx bağlı olan icmalar yarada bildilər (6,s.237). Amerikaya mühacirət edən alman əsilli katoliklər isə katolik kilsəsinin fəaliyyətini milli əsasda təşkil etmək xahişi ilə Romaya müraciət etdilər. Onların bu hərəkatı "kaxenslizm" adını aldı. Alman icmalarının təsirinin artması Amerika siyasi dairələrini narahat etdi və onlar " əritmə qazanı" ideyasını həvəsləndirməyə və genişləndirməyə başladılar. XX əsrin əvvəllərində aydın oldu ki, alman mühacirləri arasında assimilyasiya prosesi sürətlənir. Cənubi və Şərqi Avropa ölkələrindən yeni mühacir dalğası isə vəziyyəti Amerika cəmiyyətində daha güclü sosial mövqelər tuta bilən "köhnə immiqrant"ların xeyrinə dəyişdi (6, s.238). Nəticədə bir çox alman katolik cəmiyyətlərinin fəaliyyəti zəifləməyə başladı, alman icmaları isə çox aydın görünən aşınmaya məruz qaldılar. Bu vəziyyət amerikanlaşma ideoloqlarını "əritmə qazanı" nəzəriyyəsini tərəfdarlarının bu etnosiyasət modelinə sadiqliklərini gücləndirdi. Sonralar köhnə və yeni immiqrant qruplarındakı vəziyyətin təhlili inteqrasiya proseslərinin mürəkkəb olduğunu göstərsə də, amerikalılar "əritmə qazanı" ideyasından əl çəkmədilər.

Beləliklə, 1960-cı illərə qədər ABŞ-da "əritmə qazanı"na bənzədilən assimilyasiya modeli həyata keçirilmişdir. Bu modeldə əsas hədəf müxtəlif xalqların birləşərək vahid bir Amerika xalqı formasında inteqrasiyasına nail olmaqdır. Lakin Amerika xalqı dedikdə, tamamilə anqlo-sakson mədəniyyətinin hakim mövqeyə malik olduğu millətləşmə nəzərdə tutulurdu. Afrika mənşəli amerikalıların isə burda yeri yox idi. Belə ki, 1960-cı illərə qədər Amerikada irqi ayrı-seçkiliklə bağlı qəbul edilən bir çox qanunlar qaradərililəri ikincə dərəcəli vətəndaş hesab edirdi. Buna görə də 1955-1968 -ci illərdə Amerikada Afrika mənşəli insanların vətəndaş hüquqları uğrunda mübarizəsini əks etdirən hərəkatlar həyata keçirildi. Bu hərəkatlar irqçiliyə qarşı çıxan və cəmiyyətdə hər kəsə bərabərlik və ədalət tələb edən geniş miqyaslı ictimai hərəkatlar olmuşlar(7).

"Əritmə qazanı" konsepsiyasına yenidən baxılması 1960-1970-ci illərdə ölkə zənci iğtişaşları ilə sarsıldıqdan sonra, bir çox mühacir qruplarının etnik dirçəliş yaşadığı, etniklərarası sərhədlərin dərinləşdiyi və mədəni inteqrasiya prosesinin aydın görünmədiyi aşkar olduqdan sonra başladı. Nəticədə 1964-cü ildə Amerika cəmiyyətində anqlo-saksonların mövqelərini bir qədər zəifldən və bütün millətlərin bərabərliyini təmin etməyi nəzərdə tutan "Vətəndaş hüquqlarına dair qanun" qəbul edildi. 1965-ci ildə isə immiqrantlara qarşı ayrı-seçkilin qarşısını alan "İmmiqrasiya haqqında qanun"un qəbul edilməsi afroamerikalıların öz xüsusi statusu olan xüsusi etno-irqi qrup kimi qəbul edilməsinə gətirib çıxardı (8 ). 1968-ci ildə ispan mənşəli amerikalıların tələbi ilə "İkidilli təhsil aktı"nın qəbul edilməsi Amerika etnosiyasətində multikultural meyillərin güclənməsinə təkan verdi. Digər tərəfdən, inteqrasiya üçün yeni model axtarışları nəticəsində Amerika ictimai fikrində getdikcə daha çox mədə-

ni plüralizm anlayışı populyarlıq qazanmağa başladı. Amerikanlaşma prosesinin özü obrazlı şəkildə Amerika ictimai fikrinə "əritmə qazanı kimi deyil, "salat" və ya "vineqret" kimi təqdim olunmağa başladı (6, s.238-239). Amerikanlaşma ideoloqları indi də bəyan etdilər ki, bir millətin inteqrasiyası etnik icmaların tam assimilyasiyasını tələb etmir və onlar Amerika cəmiyyətinin əsas dəyərlərini bölüşdükləri təqdirdə öz mədəni xüsusiyyətlərini saxlaya bilərlər. Digər tərəfdən liberal ziyalıların nüfuzlu bir hissəsi təkid edir ki, mədəni müxtəliflik "Amerikanın taleyi deyil" və bunun öhdəsindən gəlmək lazımdır. Bu cür fikirlər xüsusilə, 2001-ci il 11 sentyabrda baş verən terror aktlarından sonra daha da gücləndi və indi amerikalıların, o cümlədən siyasi elitanın əhəmiyyətli bir hissəsinin ictimai əhvali-ruhiyyəsində üstünlük təşkil edir.

Beləliklə, ABŞ-da qəbul edilmiş etnosiyasət modelinin əsasını təşkil edən Amerika vətəndaş millətçiliyi Amerika millətinin formalaşmasında böyük rol oynadı.

Etnosiyasətin assimilyasiya modelinə üstünlük verən ölkələrdən biri Fransadır. Qeyd edək ki, XVIII əsrin sonunda Fransada respublika elan edildikdə ölkədə hakim fransız mədəniyyəti və dilindən danışmaq belə mümkün deyildi. Ölkə əhalisinin tərkib hissəsi həm etnik, həm də dini cəhətdən olduqca mürəkkəb və fərqli olmuşdur. Lakin uzun illər davam edən assimilyasiya prosesi nəticəsində vahid Fransa xalqının formalaşması üçün ciddi zəmin hazırlandı (7). ABŞ-dan fərqli olaraq Fransada əhalinin əksər tərkibi immiqrantlardan deyil, tarixən ölkədə yaşamış etnik qruplardan formalaşmışdır. Lakin son zamanlar ölkə əhalisinin tərkibində mühacirlərin sayı getdikcə artır. Fransanın bəzi əyalətləri və tarixi bölgələri uzun müddət müstəqil şəkildə inkişaf etmişdir və ölkə əhalisinin əksəriyyətini fransızlardan fərqli olan etnik icmalardan ibarət olan bölgələr içərisində Flandriya, Elzas, Mozel, Korsika, fransız Kataloniyası və Bretanı göstərmək olar. Lakin iki əsrdən çoxdur ki, fransız milləti ideyası Fransada yalnız fransız dilində danışan fransızların mövcudluğu əsasında qurulub. 1992-ci il Konstitusiyasına görə, respublikanın dövlət dilinin fransız dili olduğu göstərilir. Ölkədə uzun illərdir ki, regional dillərin istifadəsinə nəinki icazə verilmir, hətta təqiblərə məruz qalırlar. Bunun nəticəsində regional dillərdə danışanların sayı getdikcə azalır. Məsələn, Bretanda XX əsrin əvvəllərində 1,2 milyon insan Bretan dilində danışırdı, indi isə bu dildə danışanların sayı 250 min nəfərə qədər azalıb. Fransa regional icmaların mədəniyyət də daxil olmaqla heç bir muxtariyyat hüququ olmayan sərt mərkəzləşmiş dövlətdir. Regional bölgələrin büdcəsində yerli mədəniyyətlərə ciddi dəstək verə biləcək vəsait mövcud deyil. Elzas, Bretan və digər bölgələrdə öz səlahiyyətlərini genişləndirmək, mədəni-dil xüsusiyyətlərini qorumaq cəhdləri uğursuzluğa düçar oldu. Buna qismən də yerli millətçilərin II Dünya müharibəsi dövründə alman işğalçı hökumətləri ilə əməkdaşlığı əsas götürülməsi də təkan verdi (6, s.241- 242).

Beləliklə, sərt mədəni və siyasi birləşmə siyasəti nəticəsində Fransa etnik və irqi qruplar, mərkəz və bölgələr arasında sərt ziddiyyətlərin olmadığı kifayət qədər konsolidasiya edilmiş bir cəmiyyətə çevrilmiş oldu. Fransa dövlətinin yaranma tarixi müxtəlif əyalətlərin ardıcıl ilhaqı, daha sonra isə güclü mühacirət dalğasının udulması prosesi kimi təqdim edilsə də, Fransa nə əhalisi, nə də elitası tərəfindən multikultural ölkə kimi qəbul edilmir. Fransanın müasir sakinlərinin böyük əksəriyyəti özlərini fransız adlandırırlar. Baxmayaraq ki, mülki identifikasiyaya üstünlük verərək özlərini eyni zamanda fransız və bretan, fransız və elzas adlandırmaqla həm də etnik kimliklərini saxlaya bilərlər. Lakin buna baxmayaraq etnik anklavların mədəni kimliyini qoruyub saxlamaq istəyi müəyyən dərəcədə davam edir, bəzən hətta kəskin xarakter alır. Buna misal olaraq korsikalıları göstərmək olar. 1960-cı ildən bu günə qədər mərkəzi hakimiyyətlə davam edən açıq qarşıdurma ciddi siyasi perspektivi olmasa da davam edir.

Problem ondadır ki, immiqrant və onların uşaqları özlərini fransız kimi hiss etmədikləri kimi cəmiyyət də onları bəzən fransız kimi hesab etmir. Problem ondadır ki, "bir ölkə-bir dil" prinsipi ona axıradək əməl etmədikdə pis olur (9,s.8). Lakin digər tərəfdən respublika proqramının universal xarakteri hər bir kəsə, hətta yenicə Fransa vətəndaşlığını qəbul etmiş şəxslərə də özünün tam olaraq millətə mənsub olduğunu bəyan etməyə və hüquqlarını müdafiə etməyə imkan verir. Şimali afrikalı və ya hər hansı başqa mənşəli fransızın "fransızlığını" inkar edən kəs respublika prinsipləri əleyhinə çıxmış olur (10, s.87). 2005- ci il iğtişaşları ona gətirib çıxardı ki, Fransada "fransız üslubunda multikulturalizm" haqqında danışmağa başladılar və N.Sarkozi hökumətində ilk dəfə olaraq bir sıra nazir postlarını "rəngli fransızlar" tutdular və cəmiyyətdə mədəni fərqliliklərə

daha çox diqqət yetirməyə başladılar.

Beləliklə, tarixi proseslər etnik, irqi, dini və mədəni müxtəlifliklərin tənzimlənməsinə hədəflənmiş assimilyasiya və izolyasiya siyasət modellərinin səmərəsizliyini ortaya qoydu. Nəticədə müasir ictimai inkişaf prosesində mədəniyyətin aparıcı rol oynadığı bir dünyada assimilyasiya siyasətinin uğurlu olmadığı kimi, qloballaşmanın genişləndiyi və mədəniyyətlərin qovuşduğu bir şəraitdə də izolyasiya siyasətinin də yanlış olduğu aydın oldu.

**Açar sözlər:** *etnik müxtəliflik, izolyasiya, assimlyasiya, əritmə qazanı*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Humtington S. The clash of Civilizations and Remaking of World Order, New York, simon ahd Schuster, 1996, p.368.*

*2. report.az/ diger-olkeler/dunya -uzre - miqrantlarin-sayi.*

*3. elmi-ish-vol-16.03-mart-38-43 pdf.*

*4. Gordon M. Assimilation in American life: The role of Race, Religion and National Orgins. Oxford University Press, 1996, New York, p.276.*

*5. KukathasC. Theoretical foundations of multuculturalizm.http//econfakulty.gmu.edu/probettko/workshop/fale 04/theoretical_ foundations. pdf,p.21.*

*6. Тишков В.А., Шабаев Ю.П. Этнополитология: политические функции этничности: Учебник для вузов/ Тишков В.А., Шабаев Ю.П.-М., Издательство Московского университета, 2011.-376 с.*

*7. C:/Users/user/Desktop/ qzt 2016_1131.htm.*

*8. C:/Users/user/Desktop/ Dunyanin%20multukultural%20menzeresi%20-%201%20yazi.html.*

*9. Филиппова Е. Что происходит во Франции//Бюллетен сети этнологического мониторинга и раннего предупреждения конфликтов. 2005, сентябрь-октябрь,№63,с.8.*

*10. Дьяконов К.Б. Особенности интеграции этнических и конфессиональных меньшинств во Франции/ Социологические исследовании. 2008, №11,с.87.*

**MARYAM ORUCLU**
***Anthropology department of the Institute of Archeology and Anthropology of ANAS, leading researcher, associate professor***

**Politics of isolation and assimilation in the regulation of ethnic diversity**

**SUMMARY**

The article examines the reasons for the rapidly increasing migrations in the modern world and the process of protecting the rights of migrants in the countries where they live. In addition, the policy of regulating the rights of people with different cultures at state level iz analysed. At the same time, the main characteristics of assimilation and isolation policies, which were initially preferred in some countries, and the reasons for the failure of these policess are investigated. The article also analyzes the process of regulating ethnic cultural diversity in the example of the USA and France, which previously preferred these policies.

**Key words:** *ethnic diversity, insulation, assimilation,melting pot.*

**Марьям Оруджлу**
***Ведущий научный сотрудник, доцент отдел Антропологии Института Археологии и Антропологии НАНА***

**РЕЗЮМЕ**

В статье рассматриваются причины стремительно растущей миграции в современном мире и процес зашиты прав мигрантов в странах их проживания. Кроме того, анализируется политика регулирования прав народов различной культуры на государственном уровне. При этом исследуются основные характеристики политики ассимляции и изоляции, которой изначально отдавалось предпочтение и некоторых странах. В статье также анализируется процесс регулирования зтнокультурного многообразия на примере США и Франции, которые ранее отдавали предпочтение такой политике.

**Ключевые слова:** *этнические разнообразия, изоляция, ассимиляция, плавильный котел.*

UOT 94
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.086

# AZƏRBAYCAN -TÜRKİYƏ MÜNASİBƏTLƏRİ: TARİXİ TƏRƏFDAŞLIQDAN STRATEJİ İNTEQRASİYAYA

**ŞAHİSMAYIL İSMAYILOV**
*Azərbaycan Dillər Universiteti,*
*Azərbaycan Universiteti, tarix üzrə fəlsəfə doktoru, dosent*
*E-mail: ismayilovsahismayil@gmail.com*
*ORCID: https://orcid.org/0000-0002-7441-3575*

Qədim tarixi köklərə malik Azərbaycan-Türkiyə münasibətləri qarşılıqlı anlaşma, birgə səylər və sarsılmaz iradə əsasında bu gün sürətlə inkişaf edir. Ümummilli Lider Heydər Əliyevin böyük uzaqgörənliklə səsləndirdiyi “Bir millət, iki dövlət” anlayışı indiki dövrdə müstəqil türk dövlətlərinin, Türk dünyasının inkişaf və tərəqqi strategiyasının müəyyənləşməsində həlledici rol oynayır. Bu müdrik kəlam hazırda yeni dövrdə iki dövlət arasında olan münasibətlərin səviyyəsini, səciyyəvi xüsusiyyətlərini çox gözəl təcəssüm etdirir. Tarixin müxtəlif dövrlərində, XX əsrin əvvəllərində baş verən hadisələrə nəzər salsaq görərik ki, azərbaycanlılar və türklər hər zaman çiyin-çiyinə dövrün çətinliklərinə sinə gərib, ağır sınaqlardan alnıaçıq çıxıblar [3, s. 5]. Ölkələrimiz arasında əlaqələrin inkişaf səviyyəsi regional tərəqqiyə mühüm töhfələr verir. Tarixi dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri daim möhkəmlənməkdədir. Azərbaycan və Türkiyə dövlətləri arasındakı münasibətlər bu gün hər iki ölkə rəhbərliyi tərəfindən həyata keçirilən düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq daha yüksək səviyyəyə çatmaqda, bir sıra sahələr üzrə isə keyfiyyətcə yeni müstəviyə keçməkdədir.

Azərbaycan və Türkiyə arasında əlaqələrin belə səviyyədə inkişafı təkcə bu dövlətlərin yox, həm də regionun ümumi tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir. Hazırda türk dünyasının daha sıx şəkildə bir araya gəlməsini şərtləndirən ən mühüm amillərdən biri də məhz Azərbaycan və Türkiyənin münasibətlərinin inkişafından keçir. Prezident İlham Əliyev bununla bağlı bildirmişdir: “Türkiyə - Azərbaycan əlaqələri, eyni zamanda, bütün türk dünyası üçün də mühüm rol oynayır. Biz türk dünyasının birləşməsi, türkdilli dövlətlər arasında əlaqələrin inkişafı üçün birgə səylər göstəririk”.

Azərbaycan – Türkiyə dövlətlərarası münasibətlərində iqtisadi aspekt xüsusi əhəmiyyət daşıyır. İqtisadi sahədə ilk əməkdaşlıq əlaqələrinin qurulması Azərbaycanın müstəqilliyinin ilk illərinə təsadüf edir. Bu sahədə ilk olaraq 1992-ci il noyabrın 1-də Ankarada Azərbaycan və Türkiyə arasında “Ticarət və İqtisadi Əməkdaşlıq haqqında Saziş” imzalanmış, 23 yanvar 1993 tarixindən isə qüvvəyə minmişdir.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ikinci dövrü (1993-2003) ölkələrimiz arasında iqtisadi əlaqələrin intensivləşdiyi və daha da genişləndiyi illər kimi qiymətləndirilə bilər. İkitərəfli iqtisadi əməkdaşlığa stimul verilməsi məqsədilə 1994-cü ildən sonra həyata keçirilən tədbirlər və iqtisadi əməkdaşlığın hüquqi bazasının təkmilləşdirilməsi istiqamətində atılmış addımlar xüsusi əhəmiyyət daşımışdır. 1996-cı ildə Azərbaycan-Türkiyə Hökumətlərarası Müştərək İqtisadi Komissiyanın yaradılması bu əlaqələri daha da sürətləndirmişdir. Məhz bu əməkdaşlıq platforması qardaş ölkələr arasında iqtisadi sahədə səylərin səfərbər olunmasına güclü təkan vermiş, Türkiyənin Azərbaycan iqtisadiyyatında xüsusi çəkisinin artması ilə nəticələnmişdir.

Ümumiyyətlə, 1996-2003-cü illər Azərbaycan-Türkiyə iqtisadi əməkdaşlığında keyfiyyətcə yeni bir mərhələni təşkil edib. İlk illər Turkiyə ilə xarici ticarətimizdə ixracın əsas hissəsi kimya məhsulları, metal və pambıq idisə, sonralar Azərbaycan Respublikasından Türkiyəyə ixracın 70 faizini neft məhsulları təşkil edib. 1996-cı ildə Azərbaycanın xarici ticarətində ixracın 6,2 faizi, idxalın isə 22,5 faizi Türkiyə Republikasının payına düşüb. Digər tərəfdən Türkiyə Azərbaycan iqtisadiyyatına ən çox investisiya qoyan ölkələrdən biri olmuşdur. 1995-2021-ci illər ərzində Türkiyədən Azərbaycana cəlb edilmiş birbaşa investisiyaların həcmi 13,3 milyard ABŞ dolları təşkil etmişdir (10,4 milyard ABŞ dolları neft sektoruna, 2,9 milyard ABŞ dolları (1-ci yer) qeyri-neft sektoruna). Türk şirkətləri əsasən enerji, sənaye, telekommunikasiya, bank və sığorta, inşaat, nəqliyyat, qida, yüngül sənaye (tekstil), səhiyyə kimi sahələrdə fəaliyyət göstərmişdir.

Onu da qeyd edək ki, ilk vaxtlardan Azərbaycan-Türkiyə iqtisadi əməkdaşlığı ikitərəfli layihələrlə məhdudlaşmamış, regional iqtisadi əməkdaşlıq təşəbbüslərini də əhatə etmişdir. Nəticədə, Azərbaycanın böyük siyasi iradəsi hesabına iki dövlətin bir-

gə fəaliyyəti nəticəsində beynəlxalq əhəmiyyətli bir sıra regional layihələrin icrasına başlanılmışdır. Bakı-Tbilisi-Ceyhan neft kəməri (BTC), Bakı-Tbilisi-Ərzurum qaz kəməri (BTƏ), Trans-Anadolu təbii qaz boru xətti (TANAP), Trans-Adriatik boru xətti (TAP) və Bakı-Tbilisi-Qars dəmir yolu xətti (BTQ) layihələri Azərbaycan – Türkiyə iqtisadi əməkdaşlığının geniş miqyasını göstərən təşəbbüslərdir.

BTC layihəsinin reallaşması istiqamətində mühüm addım kimi 29 oktyabr 1998-ci il tarixində Azərbaycan, Türkiyə və Gürcüstan prezidentləri arasında "Bakı-Tbilisi-Ceyhan" Əsas İxrac Boru Kəmərinin tikintisi ilə bağlı imzalanmış "Ankara Bəyannaməsi", 18 noyabr 1999-cu il tarixində isə ATƏT-in İstanbul zirvə toplantısında "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan Respublikası və Türkiyə Cümhuriyyəti əraziləri ilə "Bakı-Tbilisi-Ceyhan" Əsas İxrac Boru Kəməri vasitəsilə nəql edilməsinə dair" imzalanmış Sazişi göstərmək olar. 13 iyul 2006 tarixində Türkiyənin Ceyhan limanında Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin rəsmi açılış mərasimi keçirilmişdir. BTC kimi Bakı-Tbilisi-Ərzurum qaz kəməri də iki ölkə arasındakı regional xarakterli ən mühüm layihələrdən biridir. 2007-ci ildən etibarən bu xətt ilə Türkiyəyə qaz nəqlinə başlanmışdır. BTC əsas ixrac boru kəmərinin fəaliyyətə başlaması, BTƏ qaz boru kəmərinin istismara verilməsi və bununla da, Azərbaycanın dünya bazarına neft və qaz ixrac etmək imkanı əldə etməsi ölkələrimizin imkanlarını daha da genişləndirmişdir.

İki ölkənin təşəbbüsü ilə həyata keçirilən digər beynəlxalq əhəmiyyətli təşəbbüs Cənub Qaz Koridorunun mühüm komponentlərindən olan TANAP layihəsi Türkiyə və Avropa Birliyi ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsi və təchizatının diversifikasiyası baxımından böyük önəm daşıyır. TANAP çərçivəsində Türkiyəyə ilk qaz nəqlinə 2018-ci ildə başlanmışdır. Əvvəldə illik 16 milyard kubmetr (bunun 6 milyard kubmetrini Türkiyə alır) təşkil edəcək qaz nəqlinin həcminin mərhələli surətdə əvvəlcə 24 milyard kubmetrə, sonra 31 milyard kubmetrə yüksəldilməsi mümkündür. 1850 kilometrlik TANAP xətti 2019-cu ilin sonlarından etibarən Cənub Qaz Koridorunun digər mühüm komponenti olan Trans-Adriatik Təbii Qaz Boru Xəttinə (TAP) bağlanaraq, Yunanıstan, Albaniya, Bolqarıstan və İtaliya üzərindən Avropaya çatdırılır.

Heydər Əliyev zəkasının, onun gərgin, ardıcıl və inadlı fəaliyyətinin nəticəsi olan Bakı-Tiflis-Ceyhan əsas neft ixrac, həmçinin Bakı-Ərzurum qaz kəmərinin region ölkələri üçün, o cümlədən türk dünyası üçün əhəmiyyəti ölçüyəgəlməzdir. İki qardaş ölkənin iqtisadi sahədə birgə səylərinin bəhrələri olan Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin istifadəyə verilməsi hazırda Azərbaycanın, Türkiyənin və digər ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində müstəsna rol oynayır.

Azərbaycan və Türkiyənin iqtisadi sahədə birgə səylərinin davamı olaraq Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xəttinin inşası da xüsusi əhəmiyyət daşıyır. Məlum olduğu kimi, 1993-cü ildə Türkiyə Qarabağ münaqişəsində Azərbaycana olan dəstəyi çərçivəsində Ermənistan ilə sərhədini bağlayıb, bununla da Qars-Gümrü-Tbilisi dəmiryolu da bağlanıb. Bağlanan bu yola alternativ olaraq Azərbaycan ilə Türkiyə arasında Gürcüstan üzərindən dərmiryolu xəttinin çəkilişi ilk dəfə olaraq 1993-cü ilin iyulunda müzakirə olunub. BTQ -nin tikintisinə dair razılaşma üç ölkə arasında 2005-ci ilin yanvar ayında imzalanıb və 2017-ci ildə istismara verilib.

BTQ-nin Naxçıvana kimi uzadılması isə muxtar respublikanın iqtisadi cəhətdən daha da güclənməsi deməkdir. Bir tarixi faktı da qeyd etmək lazımdır ki, 1920-1921-ci illərdə Türkiyə və Azərbaycan arasındakı qarşılıqlı əlaqələrin ən önəmli məsələsi, Türkiyə ordularının Naxçıvan əyalətindan çıxması və bu əyalətin statusunun müəyyənləşməsi idi [6, s. 116].

Ölkələrimiz arasında əməkdaşlığın davamı olaraq 2023-cü ilin sentyabrın 25-də Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Naxçıvanda keçirdiyi zirvə görüşü, həmin görüş çərçivəsində İğdır-Naxçıvan qaz kəmərinin təməlinin qoyulması, “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Qars-Naxçıvan dəmir yolu layihəsinə dair Niyyət Protokol”unun və digər sənədlərin imzalanması Azərbaycanın ərazi bütövlüyünü tam bərpa etməsindən sonra yaranmış reallıqlar çərçivəsində yüksək əhəmiyyət daşıyan tarixi hadisədir. Bu bir daha onu göstərir ki, hazırda Naxçıvanın həm iqtisadi sferada sürətlə inkişaf etməsində qardaş Türkiyə Cümhuriyyəti böyük rol oynamaqdadır.

Qeyd edilməlidir ki, hələ 1990-cı illərin əvvəllərində Türkiyə - Azərbaycan münasibətlərində Naxçıvan xüsusi yer tuturdu. İstər iqtisadi, istərsə də sosial məsələlərin həlli istiqamətində ozamankı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevlə qarşılıqlı diplomatik əlaqələrin saxlanmasına üstünlük verilirdi. Heydər Əliyev 1993-2003-cü illərdə Türkiyəyə 20 dəfə rəsmi dövlət səfəri etmişdir. Bununla birlikdə o, Türkiyə Cümhuriyyətinin 75

illiyi yubileyində (oktyabr, 1998), türkdilli ölkələrin dövlət başçılarının ikinci zirvə görüşündən (oktyabr, 1994) başlayaraq bu görüşlərin hamısında iştirak etmişdir. Bu səfərlərdə o, türkdilli xalqların ölkələrinin dostluq və qardaşlığının möhkəmlənməsi istiqamətində dəyərli məsləhətlər vermişdir [1 s. 105].

1991-1993-cü illərdə muxtar respublika əhalisinin maddi sıxıntılarının aradan qaldırılması, gənclərin Türkiyənin müxtəlif şəhərlərində təhsilə cəlb edilməsi, Naxçıvanla Türkiyə arasında "Ümid" körpüsünün açılması (28 may 1992-ci il) ölkələrimiz arasında olan qardaşlıq əlaqələrinin əsas göstəricilərindən idi. Azərbaycanın beynəlxalq aləmlə inteqrasiyasında, regional təhlükəsizliyin qorunmasında və ümumiyyətlə, ölkəmizin siyasi-iqtisadi və elmi-mədəni maraqlarının reallaşmasında Türkiyə ilə hərtərəfli əməkdaşlığın genişlənməsinə xüsusi əhəmiyyət verən Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra bu istiqamətdəki kursun yüksələn xətt üzrə inkisafını təmin etdi [4 s. 85].

1992-ci il mart ayının 22-24-də Türkiyə Respublikasında səfərdə olan Ulu Öndər Heydər Əliyev iki ölkə arasında iqtisadi, sosial və mədəni əlaqələrin inkişafına təkan verdi. 1992-ci ildə Ermənistan Respublikası silahlı qüvvələrinin Naxçıvanın sərhəd bölgələrinə hücumlar təşkil etdiyi zaman Türkiyə Respublikası may ayının 18-də Ermənistanın hərbi təcavüzünü pisləyən bəyanat verdi. Bəyanata 57 dövlət qoşuldu.

Ulu Öndər Heydər Əliyev Türkiyə Prezidenti Süleyman Dəmirəlin dəvəti ilə 5 may 1997-ci ildə Türkiyəyə rəsmi səfər edib. Səfər çərçivəsində qardaş ölkələrin prezidentləri Türkiyə Respublikası ilə Azərbaycan Respublikası arasında strateji əməkdaşlığın dərinləşməsi barədə bəyannamə imzalayıblar. Sonrakı illərdə də Azərbaycan Respublikası ilə Türkiyə Respublikası dövlət və hökumət rəhbərlərinin qarşılıqlı səfərləri, imzalanmış tərəfdaşlıq sənədləri dövlətlərimizin daha sıx əlaqələr yaratmasına şərait yaradıb. 2013-cü il iyunun 26-da İstanbulda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Cümhuriyyətinin Baş naziri Rəcəb Tayyib Ərdoğan tərəfindən Transanadolu Təbii Qaz Boru Kəməri layihəsi (TANAP) üzrə Hökumətlərarası Müqavilə imzalanıb. Azərbaycan və Türkiyənin, habelə Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsinə vacib töhfə kimi qiymətləndirilən TANAP Xəzər qazının Avropa ölkələrinə nəqlini təmin etməklə Azərbaycan Respublikasının beynəlxalq satış bazarlarına çıxışına və orada möhkəmlənməsinə şərait yaradır. Eyni zamanda layihənin reallaşması Azərbaycan Respublikası və Türkiyə Respublikasının iqtisadi potensialının, enerji təhlükəsizliyinin və strateji rolunun artmasına xidmət edir. Bütün bu hadisələr Türkiyə və Azərbaycan arasında son illərdə iqtisadi sahədə həyata keçirilmiş və bu gün də öz bəhrələrini verən irimiqyaslı təşəbbüslərin hər iki ölkə üçün qarşılıqlı surətdə faydalı nəticələridir.

Azərbaycan və Türkiyənin qardaşlıq və dostluq münasibətlərində regional hadisələrə vahid mövqedən baxış, bölgə problemlərinin həllində eyni davranış sərgiləmək də mühüm yanaşmadır.

Bu prizmadan yanaşsaq, qeyd etməliyik ki, Azərbaycanın ən ağrılı problemi olan Qarabağ məsələsində də qardaş ölkə Türkiyə hər zaman Azərbaycanın yanında olub, ölkəmizin haqlı mövqeyini beynəlxalq arenalarda dəstəkləyib. Türkiyə Respublikası Azərbaycan Respublikası Silahlı Qüvvələri hərbi heyətinin qardaş ölkədə təlimlərdə iştirakını, onların ən yüksək səviyyədə hərbi səriştə və bacarıqlara yiyələnməsini təmin edib. Azərbaycan ordusu istər Türkiyədə, istərsə də Azərbaycanda müxtəlif təlimlərdə əldə etdiyi döyüş qabiliyyətləri hesabına 2016-cı ildə Lələtəpə yüksəkliyinin alınmasında, 2018-ci ilin Günnüt zəfərində misilsiz rəşadət nümayiş etdirib. 2020-ci ilin sentyabr ayının 27-də Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı törədilən genişmiqyaslı hərbi təxribatını pisləyən Türkiyə Respublikası hər zaman Azərbaycanın yanında olacağını bəyan edib. Prezident İlham Əliyev Türkiyə dövlət başçısının bu səylərini çox yüksək qiymətləndirərək deyirdi: “İkinci Qarabağ savaşında göstərdiyimiz əzmkarlıq, iradə, rəşadət bizi böyük Zəfərə gətirib çıxardı və onu da bildirməliyəm ki, bunu hər kəs görür, bizə əlavə güc verən əziz Qardaşım Rəcəb Tayyib Ərdoğanın müharibənin ilk saatlarından başlayaraq son dəqiqələrinə qədər bizə göstərdiyi dəstək və mənəvi dayaqdır. Çünki biz bu dəstəyi hiss edərək, onun sözlərinə qulaq asaraq özümüzü daha da güclü hiss etdik. Çünki hörmətli Cümhurbaşqanı demişdir ki, Azərbaycan bu savaşda tək deyil. Türkiyə Azərbaycanın yanındadır və hər zaman yanında olacaqdır və bu, bizə əlavə güc verdi. Bu, bəzi qüvvələri - Ermənistan himayədarlarını bu savaşdan kənarda tutdu və bizə imkan verdi ki, biz bu şərəfli missiyamızı yerinə yetirək”.

Azərbaycan Respublikasına bütün vasitələrlə dəstək olmağa hazır olduğunu deyən Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan dünyada erməni diasporuna, erməni lobbilərinin bir növ əsirinə çevrilən dövlətlərə öz bəyanatı ilə mesaj vermiş oldu. Türkiyənin iqtidar və müxalifətinin, həmçinin mediyasının Azərbaycanın haqq savaşın-

da yanında olması İkinci Qarabağ müharibəsində Azərbaycanın qələbə əldə etməsində, Azərbaycana qarşı Ermənistanın işğalçı mövqeyinin ifşa olunmasında mühüm rol oynadı. Türkiyə Respublikasından alınmış ən müasir hərbi texnikaların, xüsusilə Bayraktar pilotsuz uçuş aparatlarının Azərbaycan əsgərinin yanında olması qələbənin təminatında çox böyük rol oynadı. Xüsusilə Azərbaycan mediası ilə birgə Qarabağ həqiqətlərinin işıqlandırılmasında rolu olan Türkiyə telekanallarının, xəbər portallarının, qəzetlərin, sosial şəbəkələrin müstəsna rolu tarixi Zəfərin qazanılmasında öz bəhrəsini verdi.

44 günlük Vətən müharibəsi dövründə Türkiyənin Azərbaycana verdiyi siyasi-mənəvi dəstək isə xalqımız tərəfindən ən yüksək qiymətə layiq görüldü. Türkiyə hakimiyyəti, xalqı bütün dünyaya Azərbaycan ilə həmrəy olduqlarını nümayiş etdirdilər. İkinci Qarabağ müharibəsinin hər anını bir qardaş ölkə olaraq Azərbaycanla birgə yaşadı. Qarabağ müharibəsində əldə edilən şanlı Zəfər isə yalnız Azərbaycanın deyil, eləcə də Türkiyə və bütün türk dünyasının tarixi Qələbəsi kimi qiymətləndirildi. Bu tarixi Qələbədən sonra Türkiyə ilə Azərbaycan arasında imzalanan Şuşa Bəyannaməsi isə iki ölkə arasındakı birliyin daha da üst səviyyələrə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edən sənəddir. Bu sənəd Azərbaycanın müstəqilliyi dövründə iki qardaş ölkə arasında imzalanan, hərbi təhlükəsizlik məsələlərini, onun müxtəlif parametrlərini göstərən ilk rəsmi sənəddir. Məhz bu baxımdan Şuşa Bəyannaməsi tarixi önəm daşıyaraq, regionda yeni geosiyasi və geoiqtisadi münasibətlərin başlanğıcını qoydu.

Şuşa Bəyannaməsinin imzalanması Azərbaycan-Türkiyə qardaşlığı və müttəfiqliyinin çağdaş nümunəsi olmaqla "Bir millət, iki dövlət" formulunu daha da inkişaf etdirən, onu yeni bir mərhələyə qaldıran tarixi mərhələdir. Türkiyə və Azərbaycanın birgə əməkdaşlığına əsaslanan bu güc strateji tərəfdaşlığın tükənməz perspektivlərini vəd edir: Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi bir yerdə irəli gedəcək, xalqlarımız bir-birinə daha da yaxın olacaq, dövlətlərimiz bundan sonra da uğurlu əməkdaşlıq edəcək.

Hazırda dövlətimiz tərəfindən Qarabağda aparılan bərpa-yenidənqurma işlərində də Türkiyə yaxından iştirak edir, hər zaman olduğu kimi, Azərbaycanla həmrəyliyini nümayiş etdirir. Türkiyə ilə Azərbaycanın apardığı siyasət bölgədə sabitlik və sülhün bərqərar olması, xalqların birgə və rahat yaşamasına xidmət edir.

Türkiyə və Azərbaycan arasında əlaqələrdə humanitar sahədə əməkdaşlıq təbii xarakter daşıyır. Bu qardaşlıq, eyni dil, soykökə bağlılıq tellərinə əsaslanır. Hələ sərt kommunist qaydalarının hökm sürdüyü sovet dövründə Azərbaycanda Yaşar Kamal, Orxan Kamal, Rəşad Nuri Güntəkin, Nazim Hikmət, Əziz Nesin kimi türk yazıçılarının, digər şair və sənət adamlarının əsərlərinə böyük maraq olub, onların yaradıcılıq məhsulları dəfələrlə nəşr edilib. Azərbaycanın müstəqillik əldə etməsindən sonra bütün sahələrdə olduğu kimi, humanitar-mədəni sahələrdə də böyük dirçəliş baş verib.

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Türkiyəyə 1994-cü il fevralın 8-dən 11-dək davam edən ilk rəsmi səfərində Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında protokol, elmi, texniki, mədəni və iqtisadi sahələrdə əməkdaşlıq haqqında saziş, dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə müqavilə, siyasi məsləhətləşmələr barədə saziş, investisiyaların qarşılıqlı təşviqi və qorunması haqqında saziş və digər mühüm sənədlər imzalandı [5 s. 85].

1994-cü il noyabrın 2-də Türkiyə Böyük Millət Məclisində dahi Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi münasibətilə keçirilən yubiley tədbiri keçirilib və mərasimdə Azərbaycan Prezidenti Heydər Əliyev çıxış edib. Eyni zamanda Azərbaycan Prezidenti Bilkənt Universitetində Füzulinin 500 illik yubileyinə həsr olunmuş şənliklərdə də iştirak edib.

2001-ci il martın 9-da Azərbaycan Prezidenti Heydər Əliyevin Atatürk Mərkəzinin açılması barədə fərman verməsi mədəni əlaqələrimizin inkişafının canlı təcəssümüdur. Heydər Əliyev 2001-ci il martın 12-də Ankara şəhərində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi ilə Türkiyə Cümhuriyyətinin Mədəniyyət Nazirliyi arasında əməkdaşlıq protokolunun təsdiqi haqqında sərəncam imzalayıb və sənəd Azərbaycan-Türkiyə mədəni əlaqələrinin inkişafında iki ölkə arasında həyata keçirilən tələbə mübadiləsi, qarşılıqlı tele-radio yayınlarının həyata keçirilməsində mühüm rol oynayıb.

Hazırda əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan Azərbaycan-Türkiyə mədəni əlaqələri daha yüksək templə inkişaf etməkdədir. 2007-ci il martın 9-da Heydər Əliyev Sarayında Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə keçirilən Dünya Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I Forumunda 48 ölkədən ümumilikdə 513 nəfər iştirak edib.

Qardaş ölkələr arasında əlaqələrin inkişafından, xalqlarımızın ortaq dəyərlərə sahibliyindən danı-

şarkən 2010-cu il mayın 17-də Bakıda Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün abidəsinin açılışını qeyd etmək olar. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkəmizə səfəri çərçivəsində yaddaqalan və dövlətlərimiz arasında əlaqələrin inkişafına mənəvi bir töhfə sayılacaq məqamlardan biri kimi qiymətləndirilən bu hadisə, şübhəsiz ki, qardaşlıq münasibətlərinin ruhuna cavab verir. Abidənin ucaldıldığı yer də bilavasitə Prezident İlham Əliyevin xüsusi diqqət mərkəzində olub. Məhz Azərbaycan Prezidentinin bu diqqəti nəticəsində sözügedən möhtəşəm abidə paytaxtımızın mərkəzində, Bakının tarixi yerində, Türkiyə səfirliyinin yaxınlığında ucaldılıb. "Azərbaycanın kədəri - kədərimiz, sevinci - sevincimiz"- deyən Atatürkün ölkəmizdə möhtəşəm abidəsinin ucaldılmasını Prezident İlham Əliyev yüksək qiymətləndirərək bunun ölkəmizin tarixinə bayram günü kimi yazılacağını da bildirmişdir: "Atatürkün abidəsinin Azərbaycanın paytaxtı Bakı şəhərinin mərkəzində ucaldılması bugünkü günü tariximizə bayram günü kimi yazacaqdır. Bu, Türkiyə Azərbaycan dostluğunun bayramıdır, birliyin bayramıdır. Bu, böyük öndərin xatirəsinə Azərbaycan xalqının qəlbindəki duyğuların ifadəsidir".

Azərbaycan paytaxtında belə bir abidənin ucaldılmasından son dərəcə məmnun olan prezident Rəcəb Tayyib Ərdoğan isə bir daha qeyd edib ki, Türkiyə- Azərbaycan əlaqələrinin bənzərsiz mahiyyəti var: «Hər ötən gün siyasi, hərbi, iqtisadi, mədəni, ticari bütün sahələrdə bu əlaqə artaraq davam etməkdədir. Bundan sonra güclənən bir Azərbaycan, güclənən bir Türkiyə vardır. Dünya birliyində də, şübhəsiz ki, bu iki ölkənin yeri çox önəmli olmaqdadır və olacaqdır" [7].

Bütün bunlar, ölkələrimiz arasında əldə olunan yeni razılışmalar, imzalanan müqavilələr bir daha xalqlarımız arasındakı dostluq, qardaşlıq münasibətlərinin daha da möhkəmlənməsindən, onun sarsılmazlığından xəbər verir.

Qardaş ölkələr arasında təhsil sahəsində əməkdaşlıq əlaqələrinin qurulmasının əsası Azərbaycanın müstəqilliyini əldə etdiyi dövrə təsadüf edir. 1992-ci ildə Azərbaycan Respublikası Xalq Təhsili Nazirliyi ilə Türkiyə Cumhuriyəti Milli Egitim Bakanlığı arasında Azərbaycan tərəfindən xalq təhsili naziri Rafiq Feyzullayevin imzaladığı təhsil sahəsində əməkdaşlıq müqaviləsi Azərbaycan-Türkiyə mədəni əlaqələri üçün yeni imkanlara təkan verdi. 18 maddəlik müqavilədə Azərbaycan və Türkiyə Cümhuriyyəti arasında təhsil sahəsində əlaqələrin inkişafına nail olmaq üçün bir sıra mövzularda razılıq əldə olunub. 1992-ci noyabrın 2-də Türkiyə Cumhuriyyəti hökuməti ilə Azərbaycan Respublikası hökuməti arasında mütəxəssis hazırlığına dair protokol da Azərbaycan - Türkiyə mədəni əlaqələrinin inkişafına təkan vermişdir.

Son 20 ildə isə Türkiyə - Azərbaycan elm, təhsil əlaqələri daha geniş diapazonda inkişaf etməkdədir. Buraya təhsilin ayrı-ayrı səviyyələri üzrə kadr hazırlığı, birgə tədqiqatların aparılması, tələbə-müəllim mübadiləsi və mütəxəssislərin cəlb edilməsi, ali təhsil müəssisələri arasında ikili diplom proqramlarının təsis olunması kimi prioritetləri aid etmək olar.

Bu gün Azərbaycan-Türkiyə qardaşlığı qarşılıqlı olaraq elm və təhsil sahəsində də böyük uğurların qazanılmasına təkan verir. Buna nümunə olaraq hər iki ölkənin birgə səyləri ilə Bakıda cari tədris ilindən fəaliyyətə başlayan Türkiyə - Azərbaycan Universitetinin yaradılmasını da göstərmək olar.

Qeyd edə bilərik ki, Azərtbaycan və Türkiyə beynəlxalq təşkilatlarda müxtəlif beynəlxalq və regional məsələlər uzrə ortaq mövqedən çıxış edir, tərəflər regional və beynəlxalq təşkilatlarda məsləhətləşmələr aparır, bir-birina qarşılıqlı dəstək verir. Azərbaycan BMT, İKT, NATO, Avropa Şurası, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlər Birliyi kimi təşkilatlar çərçivəsində də Türkiyə ilə faydalı əməkdaşlıq edir. Türkiyə və Azərbaycan arasında əlaqələrin gücləndirilməsi Qafqaz bölgəsində sabitliyin təmin edilməsinə yönəlib. Xüsusi olaraq qeyd edək ki, 44 günlük Böyük Zəfərdən sonra Azərbaycan və Türkiyə ümumən türk dünyasının mərkəzinə çevrilib. Azərbaycan və Türkiyənin birgə səyləri nəticəsində türk cümhuriyyətlərini bir araya gətirən Türk Dövlətləri Təşkilatının gücü, qlobal əhəmiyyəti artır.

İkitərəfli əməkdaşlığın bütün istiqamətlərində, o cümlədən siyasi, iqtisadi, hərbi, mədəni, humanitar, idman sahələrin mövcud olan yüksəksəviyyəli əməkdaşlıq qardaş ölkələrimizin, həmçinin dost dövlətlərimizin maraqlarına da xidmət edir. Artıq Azərbaycan-Türkiyə əlaqələri müxtəlif üçtərəfli əməkdaşlıq formatları ilə daha da möhkəmləndirilir.

Bu gün fəxrlə deyə bilərik ki, Türk xalqının ulu öndəri Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir", Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" fəlsəfəsi üzərində qurulan Azərbaycan-Türkiyə münasibətləri özünün ən yüksək səviyyəsinə çatıb. Əminliklə deyə bilərik ki, xalqlarımızın böyük qürur duyduqları Azərbaycan-Türkiyə birliyi və qardaşlığı gələcək nəsillər tərəfindən də davam etdiriləcək.

Təsadüfi deyildir ki, Ümummilli Lider 2001-ci ildə qardaş ölkəyə üçüncü səfərində Azərbaycan və Türkiyə arasında dostluq və qardaşlığın möhkəmləndirilməsindən danışarkən gələcək nəsillər qarşısında aydın vəzifə qoymuşdur: "Azərbaycan ilə Türkiyə arasındakı əlaqələr indiyə qədər dostluq, qardaşlıq əlaqələri olubdur və bundan sonra da belə olacaqdır. Bizim əlaqələrimizin təməli budur və bunun əsasında iqtisadi, ticarət, elm, mədəniyyət və başqa sahələrdə olan əməkdaşlıqlardır. Bunların hamısı indi, deməк olar ki, yüksək səviyyədədir. Ancaq bu əlaqələr bundan sonra daha da yüksəlməlidir.

Türkiyə-Azərbaycan dostluğu əbədidir, sarsılmazdır. Biz bu dostluğa sadiqik və sadiq olacağıq. Bu dostluğu inkişaf etdirmək üçün bütün sahələrdə əməkdaşlığımızı, işbirliyimizi daha da inkişaf etdirəcəyik". [8].

Beləliklə də Azərbaycan-Türkiyə əlaqələrinin çoxşaxəli istiqamətlərdə inkişaf dinamikası onu göstərir ki, qardaş türk dövlətləri arasında gündən-günə dərinləşən əməkdaşlıq təkcə iki dövlətin deyil, bütövlükdə regionun sabitliyi və inkişafı üçün mühüm əhəmiyyət daşıyır. Hər iki ölkənin siyasi liderlərinin məqsədyönlü siyasəti və sarsılmaz iradəsi xalqlarımızın yaxınlaşması və türk birliyinin daha da möhkəmlənəcəyinə əminlik yaradır. Bütün sahələrdə inkişaf edən əməkdaşlıq həm iqtisadi, həm də mədəni sahələrdə tərəqqiyə zəmin yaradır. Əminik ki, bu strateji tərəfdaşlıq Türk dünyasının birliyinə öz töhfələrini verəcək.

Prezident İlham Əliyevin aşağıdakı sözləri isə hazırda qardaş ölklər arasında münasibətlərin ruhunu çox gözəl əks etdirir: "Bu gün dünya miqyasında Türkiyə ilə Azərbaycan qədər bir-birinə yaxın olan ölkələr yoxdur. Bu birlik, həmrəylik, qardaşlıq sözdə deyil, əməldədir".

**Açar sözlər:** *Azərbaycan, Türkiyə, regional əməkdaşlıq, enerji təhlükəsizliyi, Qarabağ münaqişəsi, Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu.*

## ƏDƏBİYYAT SIYAHISI:

*1. Azərbaycan - Türkiyə əlaqələri XX əsrdə - Prof. İsrafil İsmayilov (tarix elmləri doktoru) [s.105]*

*2. Azərbaycan - Türkiyə əlaqələri son 20 ildə: uğurlar və imkanlar [s.20]*

*3. Azərbaycan - Türkiyə əlaqələri son 20 ildə: uğurlar və imkanlar [s.5]*

*4. Müstəqillik dövründə Azərbaycan - Türkiyə əlaqələrinin kulturoloji aspektləri (Fərqanə Hüseynova) [s.85]*

*5. Müstəqillik dövründə Azərbaycan - Türkiyə əlaqələrinin kulturoloji aspektləri (Fərqanə Hüseynova) [s.85]*

*6. 1917-1922-ci illərdə Azərbaycan- Türkiyə münasibətləri [s.116]*

*7. https://president.az/az/articles/view/50*

*8. https://lib.aliyevheritage.org/az/44899944.html*

## SUMMARY

The article analyzes the historical and modern development of Azerbaijan-Turkey relations. Heydar Aliyev's concept of "one nation, two states" reflects the strength of these ties. Cooperation in political, economic, and cultural fields further enhances the unity between the two nations. Joint energy projects (TANAP, Baku-Tbilisi-Ceyhan pipeline) and infrastructure initiatives (Baku-Tbilisi-Kars railway) significantly contribute to regional progress. Additionally, Turkey's support for Azerbaijan's rightful position in the Karabakh conflict elevates the relationship to a strategic level. The joint efforts of these two states hold particular importance for the integration of the Turkic world.

**Keywords:** *Azerbaijan, Turkey, Regional Cooperation, Energy Security, Karabakh Conflict, Baku-Tbilisi-Ceyhan Pipeline, Baku-Tbilisi-Kars Railway.*

## РЕЗЮМЕ

Статья анализирует историческое и современное развитие отношений между Азербайджаном и Турцией. Концепция Гейдара Алиева «один народ, два государства» подчеркивает прочность этих связей. Сотрудничество в политической, экономической и культурной сферах еще больше укрепляет единство народов. Энергетические проекты (TANAP, нефтепровод Баку-Тбилиси-Джейхан) и инфраструктурные проекты (железная дорога Баку-Тбилиси-Карс) вносят значительный вклад в региональное развитие. В то же время поддержка Турцией справедливой позиции Азербайджана в Карабахском конфликте выводит отношения на стратегический уровень. Совместные усилия этих двух государств играют особую роль в интеграции тюркского мира.

**Ключевые слова:** *Азербайджан, Турция, региональное сотрудничество, энергетическая безопасность, Карабахский конфликт, нефтепровод Баку-Тбилиси-Джейхан, железная дорога Баку-Тбилиси-Карс.*

UOT 94 “19/…”
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.089

# RUSİYADA AZƏRBAYCAN DİASPORUNUN VƏ BİR AİLƏNİN TARİXİ

**M.M. KƏRİMOVA**
*Rusiya Elmlər Akademiyası Etnologiya və Antropologiya İnstitutunun Qafqaz şöbəsinin aparıcı elmi işçisi, tarix elmləri doktoru*
*E-mail: mkerimova@yandex.ru*

**L.T. SOLOVYOVA**
*Rusiya Elmlər Akademiyası Etnologiya və Antropologiya İnstitutunun Qafqaz şöbəsinin böyük elmi işçisi, tarix elmləri doktoru*
*E-mail: lubsolov@gmail.com*

**O.A. ƏHMƏDOV**
*Ehtiyatda olan polkovnik*
*E-mail: oktayaxmedov49@gmail.com*

***“Əcdadlarımızı öyrənməklə biz özümüzü tanıyırıq”***
***V.O. Klyuchevski***

Rusiya ərazisində Azərbaycan diasporunun formalaşması çoxəsrlik tarixə malikdir. Əvvəllər bu, ticarət və siyasi əlaqələrin inkişafı ilə əlaqədar idi. Tarixi mənbələrdə rus və Azərbaycan tacirləri arasında çoxsaylı səyahətlər və əlaqələr haqqında məlumatlar mövcuddur. Çox vaxt tacirlər ticarətlə məşğul olduqları yerdə kifayət qədər uzun müddət yaşayırdılar.

Azərbaycanlılar Moskvada XV əsrdən gec olmayaraq yaşamağa başladılar. Bunu həm Şirvandan gələn nümayəndələr, həm də Moskva tacirləri ilə orta əsrlər Azərbaycan dövlətləri arasında fəal ticarət-iqtisadi əlaqələr təsdiq edir. Bu həm də Afanasi Nikitinin məşhur “Üç dəniz arxasına səyahət” əsərində aydın şəkildə təsvir edilmişdir.

1563-cü ildə İvan Qroznı Azərbaycan tacirlərinə ticarət etməyə və müvafiq olaraq Moskva, Həştərxan, Kazan və Rusiyanın digər şəhərlərində yaşamağa icazə verdi [1, s.117]. Və sonralar Azərbaycan tacirləri Rusiyada, ilk növbədə, Moskva, Həştərxan, Yaroslavl, Nijni-Novqorod və Kazanda geniş ticarət aparırdılar. Onlar həmçinin Velikiy Novqorod və Pskovu da ziyarət edirdilər, oradan da Avropaya gedirdilər. XVI əsrin əvvəllərindən Şirvan Səfəvilər dövlətinin tərkibində idi. XVI–XIX əsrlərdə Moskvada təkcə farsların deyil, azərbaycanlıların da daxil olduğu fars təbəələri kifayət qədər adi bir hadisə idi [2].

По мнению В. Флора, в Сефевидском государстве стрелы также изготавливались из бамбуковых тростников, и благодаря острым наконечникам они могли пробивать броню. Боевые стрелы обычно окрашивались, а имена известных воинов выгравировались на их поверхности. Это

служило не только для обозначения их статуса и репутации, но и для того, чтобы различать стрелы. Воины носили «зихгир» (кольца) на пальцах для защиты большого пальца [19, с. 227]. Согласно информации португальского путешественника Антонио Тенреиро, в городе Лар также производились превосходные стрелы [16, с. 33].

Снаряжение лучника включало в себя лук и колчан для стрел. Колчан, удобный и практичный для быстрого передвижения, изготавливался из коры дерева тозагачи и имел длину 70-80 см. Он обладал широкой нижней частью и крышкой, изготовленной из войлока. В колчанах, называемых «Тус», размещалось до 100 стрел. В миниатюрах, а также в различных музеях мира, колчаны, имеющие форму пистолета, демонстрируются под названием садак. Колчаны носились на поясе с помощью тройников, костяных колец и металлических крючков [1, с. 278-279].

В источниках того времени содержится множество сведений о стрелах Сефевидов. Венецианский дипломат Микеле Менбре отмечал, что сефевидские стражники были вооружены луками высокого качества и упоминает, что, находясь на приёме у шаха Тахмаспа, у него было «тростниковое дерево и 4-5 стрел» [8, с. 41]. Гасан-бек Румлу обращал внимание на важность стрел из хеденг, пиша: «Каждая стрела, выпущенная с золотых пальцев (хеденг), могла лишить жизни героя, и каждая стрела, выпущенная от чистого сердца, пронзала грудь воина, открывая врата его судьбы» [5, с. 353]. Искендер-бек Мюнши, высоко оценивая точность стрел, выпущенных гызилбашскими лучниками, писал, что стрелы, выпущенные гызилбашами, могли попасть в муравья прямо в глаз [4, с. 1612-1613; 2, с. 426].

Гызилбаши широко использовали лук и стрелы в бою. Гасан-бек Румлу, рассказывая о нападении узбеков на Мешхед под руководством Убейдулла-хана, писал: «На следующий день узбекские воины начали сражение. Бойцы также натягивали луки и пускали стрелы, поражая врагов ударами стрел, пронзающих сердце, и огневыми стрелами хеденг, которые ранили и убивали чернокожих врагов» [5, с. 470].

Меч. Среди оружия, используемого Сефевидами в ближнем бою, особое место занимали изогнутые мечи, называемые «шамшир». Меч был одним из основных видов оружия в бою, поскольку он был более эффективен, чем стрелы и копья, которые могли потерять свою цель в ветреную погоду [13, с. 175]. В 1501 году, готовясь к битве с аггоюнцами у Шарур, Исмаил Сефеви взял с собой меч с драгоценными камнями, длинное копьё и кинжал. Сефевидские кавалеристы также сражались с аггоюнцами в битве при Хамедане в 1503 году, держа в руках копья и мечи [33, с. 283].

Дон Гарсия де Сильва пишет о сефевидских мечах, что эти мечи, изогну-тые в форме полумесяца, были легче и более удобными в использовании, чем те, что использовали османы. Однако, по его мнению, они не были столь же маневренными и не считались хорошим оружием для защиты [32, с. 157; 14, с. 191]. Пьетро делла Валле описывает сефевидский меч так: «Мечи в Иране (у Сефевидов – Э.С.) имеют только одну сторону с заострённой частью и более изогнуты, чем мечи турок (османов). Они так скованы, что тяжёлая часть остаётся внизу, а лёгкая и острая сторона – сверху. Из-за того, что изгиб находится по краю, меч удобно ложится на седло, когда сидишь на лошади. Это положение было удобным как для кавалеристов, так и для пехоты, так как меч можно было легко взять в руку и привести в боевую готовность» [31, с. 145; 14, с. 191]. Рукоять меча была крестовидной, а на гарде часто были резные украшения. Ножны меча изготавливались из кожи и были сделаны по форме самого меча. В результате эволюции изгиба меча в период правления Сефевидов в конце XVI века появился знаменитый меч «шамшир». Во время правления шаха Аббаса I, «шамшир» приобрёл свои основные характеристики: узкая, толстая часть клинка изящно изгибалась на 2/3 общей длины и постепенно сужалась к концу [2, с. 454].

Мечи шаха и эмиров гызилбашей были более роскошными, что также отмечалось европейскими дипломатов и путешественниками. М.Мембре писал, что шах Тахмасп «сидел на ковре, сделанном из ценнейшей шерсти Хорасана, а рядом с ним был меч с ножнами, украшенными шкурой льва». «Все телохранители шаха носили мечи с ножнами из золота». «Только по указанию шаха никто из охраны не мог носить бархатный корсет, золотой пояс, золотой меч с ножнами и перьями на голове» [8, с. 41, 47, 62].

Пьетро делла Валле, описывая меч шаха Аб-

баса I, упоминает, что его рукоять была из белого слона, и, вероятно, изготовлена из рыбий зубов. Ножны этого меча были сделаны из черной кожи [31, с. 225; 14, с. 192]. Е.Эрдоган, опираясь на данные Адама Олеари, пишет, что меч шаха Сефи был покрыт золотом и украшен драгоценными камнями [14, с. 192]. Точно так же, меч правителя Шираза был покрыт золотом и украшен драгоценными камнями [31, с. 130; 14, с. 192].

В источниках того времени упоминается, что в качестве награды за проявленное мужество и доблесть в бою воинам часто даровали мечи, а также известным эмиром и даже правителям преподносили «украшенные драгоценными камнями мечи». Искендер-бек Мюнши пишет, что «эмиры, отличившиеся в бою, получали мечи из золота, украшенные драгоценными камнями» [4, с. 1232]. Дорогие мечи также входили в состав дипломатических подарков. Рукоятка и ножны этих мечей были украшены. В 1603 году, во время осады Иревана, встретившийся с шахом Аббасом I Г.Тектандер сообщает, что «шаху подарили два меча, и он внимательно их осмотрел. Один из них имел рукоять и ножны, украшенные арабским золотом» [26, с. 177; 2, с. 448].

Хадже Зейналабдин Али Эбди-бек упоминает, что шах Тахмасп даровал «мечи и кинжалы, украшенные драгоценными камнями и серебром», эмиром могольского правителя Хумаюна [7, с. 87-88]. Искандер-бек Мюнши сообщает, что среди ценных подарков, которые могольский посланник Мир Мухаммад Месум принес шаху Аббасу I, был «меч с ножнами» [4, с. 1177]. Дорогие мечи также украшались поясами, и иногда пояс преподносился в подарок отдельно от меча. Гасан-бек Румлу в своем труде пишет, что шах Исмаил, высоко оценив победу Мухаммед-хана Устаджлу в битве с Кор Шахрухом Зулькадаром, отправил ему «корону, украшенную золотыми нитями, и пояс, украшенный драгоценными камнями» [5, с. 401]. В 1575 году «хан Хорезма Хаджим-хан отправил своего сына Мухаммедкулу султана к высокому трону... шах, являющийся покровителем религии, подарил ему одежды, вышитые золотом, ткани, корону, пояс, украшенный золотом, лошадь, осла, динары и дирхемы» [5, с. 622]. Правитель Хакари Зекария-хан, приносящих драгоценные подарки шаху Аббасу I, также представил «пояс, украшенный золотом» [4, с. 1275].

Сефевидские мастера были особенно искусны в изготовлении сабель. В различных уголках государства изготавливались сабли, однако изделия мастеров из Тебриза отличались особым качеством. Эти сабли также входили в число товаров, экспортируемых в соседние страны. Даже в соседнем Московском государстве местные ремесленники изготавливали сабли, основанные на «тебризском образце». В XVI-XVII веках русские мастера, используя определенные образцы, начали изготавливать сабли, и этот процесс стал традицией, при этом для создания сабель использовались лучшие образцы оружия. В.С. Курмановский отметил, что «тебризская традиция» оказала большое влияние на производство сабельных клинков [23, с. 13-14, 24; 2, с. 458].

Кинжал. Кинжал – это оружие с прямым или изогнутым двусторонним лезвием. Рабочая часть лезвия кинжала состоит из двух параллельных частей, которые сходятся к острому концу (лезвию). Как оружие для рукопашного боя, кинжал широко использовался в тесных пространствах и при неожиданных атаках. Кинжал обычно имеет длину 30-35 см, изогнутое и острое лезвие с обеих сторон, что делает его удобным для ближнего боя. Обычно лезвие кинжала помещается в футляр, называемый «кын», и прикрепляется к поясу или ремню для удобства ношения и быстрого извлечения. Кинжал чаще всего использовался в ближнем бою [12, с. 548].

По мнению Е.И.Малозёмова, в Сефевидском государстве было широко распространено несколько типов кинжалов: кинжал в форме ножа – «гард», который был популярен не только среди аристократов, но и среди обычных людей; кинжал с рукоятью в виде птичьей головы – «шахский кинжал», а также кинжал типа «бебут» с одним изгибом в форме латинской буквы «I», который был социальным показателем принадлежности к аристократическому слою и военной элите [24, с. 20].

По мнению В.Флора, в Сефевидском государстве использовались два типа кинжалов. Один был полумесяцобразным и маленьким, в то время как другой был более широким и имел рукоять конусообразной формы [19, с. 225]. Наряду с местными кинжалами, в Сефевидском государстве также использовались привезённые из Индии кинжалы типа «букда» [4, с. 1733].

В Сефевидском государстве кинжал считался символом мужества его владельца. Как и в случае с другими режущими оружиями, наивысшая ценность придавалась самому кинжалу. Лучшие кинжалы изготавливались из высококачественной стали – дамасской стали, а также из индийской и местной стали. Наиболее качественные кинжалы производились в Хорасане и столице государства – Исфахане (24, с. 20).

Иногда рукоять кинжала изготавливалась из золота или серебра, что подчеркивало богатство и статус его владельца, а также украшалась драгоценными камнями. Дон Гарсия де Сильва Фигероа пишет, что солдаты брата фарсского беглербея Имамкули-хана, Давуд-хана, носили кинжалы с золотыми рукоятями, инкрустированные рубинами, изумрудами и бирюзой [32, с. 260; 14, с. 195].

Двусторонний острый нож привозились из стран Кавказа, так как именно там изготавливались лучшие экземпляры этого оружия. Двусторонний острый нож делались из металла, а рукоять – из кости или нефрита [19, с. 225]. Гасан-бек Румлу описывает поход гызылбашской армии против врага следующим образом: «Они двинулись с огромным войском, подобным солнцу в небесах, с воинами, опоясанными мечами и держащими щиты, с копейщиками, количество которых было столь велико, как число звезд, и с доблестными воинами, наносящими удары кинжалами, пылая пламенем и устремляясь вперед, как бушующая вода, раздуваемая ветром битвы, к полю сражения» [5, с. 452]. В ближнем бою кызылбашские воины использовали мечи, кинжалы, булавы и копья. Искендер-бек Мунши, опи-сывая сражение июля 1625 года в Грузии, в местности под названием Гюмю-шлю, между гызылбашскими войсками под предводительством Тахмураса и объединенной армией грузин, отмечает широкое использование мечей и кин-жалов. Он пишет: «Меч злобы начал рубить и разрезать, и в мгновение ока кинжалы, искривившиеся от столкновений, повергли в прах смерти десять тысяч этих разбойников-неверных, разорвав их жизненные артерии» [4, с. 1822].

Гызылбашские эмиры носили более роскошные кинжалы. Микеле Мембре пишет, что в Сефевидском государстве «гвардейцы, отличившиеся храбростью, а также все вельможи носили кинжалы из золота, украшенные бирюзой» [8, с. 47; 2, с. 459]. Эмирам, проявившим мужество в битве, в качестве награды вручались «ремни для кинжалов, украшенные драгоценными камнями» [4, с. 1232]. Когда Эмир-хан Туркман женился на дочери шаха Тахмасиба Фатиме Султан, среди подаренных ему ценных даров был и «ремень для кинжала, украшенный дорогими камнями» [3, с. 479]. Декорированные ремни для кинжалов часто входили в состав диплома-тических подарков. Среди ценных даров, преподнесенных шахом Аббасом I правителю Хакари Закарии-хану, упоминался «ремень для кинжала» [4, с. 1275].

Копье (мизрак). Одним из холодных видов оружия, широко использо-вавшихся сефевидами, было копье. Оно изготавливалось из твердого, упругого и прямого длинного стержня, на конце которого закреплялся наконечник из кости, меди, железа или стали. Копье применялось как колющее и пронзающее оружие для ближнего боя, а также как метательное оружие для поражения целей на расстоянии [17, с. 3]. Письменные источники того времени содержат многочисленные упоминания о широком использовании копья гызылбашами в сражениях. Гасан-бек Румлу привлекает внимание к широкому использованию копья гызылбашами в боях, отмечая: «Кровопролитное копье, словно ядовитая змея, пронзило тела злополучных врагов, оставив в них пробоину» [5, с. 561]. «Надевшие кольчугу герои вновь взметнулись, как бушующее Каспийское море, и ударами острых мечей и смертоносных копий пробили смертельные раны в телах могучих богатырей» [5, с. 561]. Искандер-бек Мюнши пишет: «Гызыл-баши-диловары, держа в руках копья, подобные драконам, на конях сбрасывали злобных узбеков в землю гибели» [3, с. 127]. Эти факты еще раз подтверждают, что сефевидские воины широко использовали копья в битвах.

Португальский путешественник Антонио Тенреиро пишет, что Сефевиды использовали копья не только в крупных сражениях, но и в других ситуациях [16, с. 36; 14, с. 195]. Гызылбашские кавалеристы широко применяли копья в боях с вражеской кавалерией [3, с. 614]. Удар копьем был способен пробить кольчугу противника. «Копье так плотно входило в броню, как если бы ядовитая змея забиралась в свою нору»

[5, с. 561; 22, с. 344]. В.Флор пишет, что копья, не слишком длинные, иногда окрашивались, напоминав острие стрелы [19, с. 226].

С.Ахмедов пишет, что в Государственном Эрмитаже России хранится двустороннее копье, относящееся к раннему периоду Сефевидов, на котором написаны тексты из Корана, а также указано имя мастера – Хаджи Рахимов сына Мухаммеда Салеха. Здесь также хранится копье с узким четырёхугольным наконечником, изготовленное в XVI веке [2, с. 442].

По данным Пьетро делла Валле, во время боя копье располагалось на седле. Он отмечает, что форма сефевидовского копья значительно отличалась от копий, использовавшихся ими самими [31, с. 251; 14, с. 195]. Эвлия Челеби сообщает, что на поле для чавкана в Тебризе целью было поразить мишень именно копьями, и что на ремне висели 12 комплектов копий [27, с. 229-230]. Ж.Шарден также упоминает о проведении чавканских состязаний в Исфахане. Он описывает 15 молодых людей, которые были очень искусны в стрельбе копьями, управлении лошадьми и скоростных гонках. «Они никогда не касались земли, чтобы поднять свои копья, и не останавливались на своих лошадях. Даже на самой высокой скорости они наклонялись и поднимали копья с земли, делая это так искусно, что все смотрели на них с восхищением» [10, с. 435-436].

Топор и таберзин. В сефевидской армии использовались также топор и таберзины как холодное оружие. Шараф-хан Бидлиси пишет, что сторонники Гусейн-бека Юзбаши и Гейдар мирзы смогли пробить ворота дворца Али-Капы с помощью топор и боевых таберзинов и попасть в диван-хану [22, с. 230; 30, с. 128]. Гасан-бек Румлу, рассказывая о осаде гызылбашами Баку, пишет: «Сильные руки саперов, обладавшие ловкостью, которая могла разрушить стену, как стена Искандера или крепость Хейбера, и мощные руки горных рабочих, которые разрывали камни, как ульи, с помощью топор, пробили под эту крепость подкоп» [5, с. 367].

Современный источник подтверждает, что таберзины использовались в битве между гызылбашами под предводительством Исмаила мирзы и прави-телем Эрзурума Искендер-пашой [5, с. 562]. Искандер-бек Мунши отмечает, что гызылбаши использовали топоры и секиры в рукопашном бою [3, с. 317, 359]. В Британском музее хранится головка боевой сефевидской топора, изготовленная в период с 1550 по 1600 год. Головка боевого топора изготовлена из стали и украшена орнаментами с изображениями животных и растительности [2, с. 443].

Топпуз (гюрз). Топпуз был одним из важных боевых орудий в средневе-ковье. Определённый вес этого оружия усиливал его влияние на противника. В персидоязычных источниках топпуз называется гюрз, а в арабоязычных – амуд [11, с. 397]. Нижняя часть гюрза или топпуз с крыльями называется «шешпар». Шешпар состоит из чёрной тяжёлой рукоятки и боевой части с треугольными лезвиями на конце. Булава, называемая «салак» или «салык», обладающая повышенной ударной силой, известна как тюркская гюрзой [13, с. 240; 5, с. 379]. Кавалеристы вешали гюрзы на левую сторону седла. Пехотинцы держали их в руках или подвешивали на поясах. Гасан-бек Румлу, описывая битву между шахом Исмаилом и султаном Мурадом близ Хамадана в 1503 году, пишет: «Меч, похожий на крокодила, разрушил основу жизни молодых людей. Тяжелая булава, словно молот, крушила головы стоящих. Копье, похожее на ядовитую змею, превратило тела львов на поле сражения в потоки крови, и из каждого потока возникла река» [5, с. 379].

В Азербайджанском Национальном Историческом Музее хранится редкое ударное оружие – стальной шешпар. Оружие состоит из стальной полой опоры длиной 74 см и семи приваренных к ней лезвий. В эпоху Сефевидов шешпар был не только ударным оружием, но и символом власти военного чиновника [2, с. 446-447]. По мнению Э.Эгертона, в средневековый период шешпар использовался как боевое оружие и символ власти практически во всех мусульманских странах [29, с. 190, 202; 2, с. 447]. Шеш-пары, изготовленные из высококачественной стали и украшенные золотыми и серебряными элементами, являются не только примерами оружейного мастерства, но и изделиями ювелирного искусства, которые выставляются в музеях по всему миру. В Сефевидском государстве была собрана богатая коллекция шешпаров, которая хранится в Государственной оружейной палате Московского Кремля и в Государственном Эрмитаже [25 с. 121; 2, с. 447]. Шешпар, таберзин и боевой топор

размещались на передней части седла кавалериста, в правом кармане, прикрепленном к седлу.

**Заключение**

Поскольку основу армии Азербайджанского государства Сефевидов составляли конные войска, широко использовались легкие виды оружия. Согласно данным первоисточников, во времена шаха Исмаила и его наследников Сефевидская армия приобрела славу благодаря своему боевому строю, проявленной в различных сражениях доблести и героизму. Это даже вызывало обеспокоенность у их главных соперников – османских правителей. Соперники вынуждены были признавать неоспоримость, храбрость и мастерство Сефевидской кавалерии, которая искусно применяла легкое оружие в битвах.

Согласно данным из первичных источников, тяжелая вооружённая кава-лерия Сефевидов состояла из шлема, доспехов, стрел, лука, копья, шестопёра и меча. Как правило, в бою сначала использовались стрелы для атаки с дальнего расстояния, затем, при сближении, применялись копья, а после – мечи и шестопёры.

**Ключевые слова:** *Азербайджанское государство Сефевидов, военное оружие, лук и стрелы, копье, меч, топор.*

**Источники и литературы:**

*1. Azərbaycanın hərb işi tarixi. I cild. Bakı: Hərbi nəşriyyat, 2006.*

*2. Əhmədov S.Ə. Azərbaycan silahları IX-XVII əsrlərdə: təkamül və inkişafı, Bakı: 2017.*

*3. Münşi İsgəndər bəy. Dünyanı bəzəyənAbbasın tarixi, I Kitab. Fars dilindən çevirən t.e.d., prof. Şahin Fərzəliev. Bakı: Şərq-Qərb, 2010.*

*4. Münşi İsgəndər bəy. Dünyanı bəzəyənAbbasın tarixi, II Kitab. Fars dilindən çevirən t.e.d., prof. Şahin Fərzəliev. Bakı: Şərq-Qərb, 2014.*

*5. Rumlu Həsən bəy. Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı), Fars dilindən tərcümə və şərhlər: AMEA-nın müxbir üzvü, t.e.d., prof. Oqtay Əfəndiyev, tarix üzrə fəlsəfə doktoru, dosent Namiq Musalı. Kastamonu: Uzanlar, 2017.*

*6. Rumlu Həsən bəy. Tarixlərin ən yaxşısı (Əhsənüt-təvarix). II cild. Fars dilindən tərcümə edən t.e.d., prof. Şahin Fazil. Bakı: Elm, 2023.*

*7. Şirazi Zeynalabdin Əli Əbdi bəy. Təkmilətül-əxbar. Fars dilindən tərcümə, müqəddimə və şərhlər Əbülfəz Haşım oğlu Rəhimlinindir. Bakı: Elm, 1996.*

*8. Venesiyalılar Şah Təhmasibin sarayında (Mikel Membre ve Vinçenso Ales-sandri). İngilis dilindən tərcümə, ön söz, giriş və şərhlər AMEA-nın müxbir üzvü Oqtay Əfəndiyevindir. Bakı, 2005.*

*9. Beyhaki Ş.D. Câmi'u'l-Hidâyet fî 'İlmi'r-Rimâyet (Okçuluk Sanatı), Terc. İbrahim Duman. Büyüyen Ay Yayınları, İstanbul: 2020.*

*10. Chardin J. Chardin Seyahatnamesi, İstanbul, Osmanlı Toprakları, Gürcistan, İran 1671-1673. Çeviren A. Meral. Kitap Yayınları, İstanbul: 2014.*

*11. Çoruhlu T. "Gürz", DİA, TDV Yayınları, İstanbul: c.14, 1996, s. 327-328.*

*12. Çoruhlu T. "Hançer", DİA, TDV Yayınları, İstanbul: 1997, c. 15, s. 548-550.*

*13. Göksu E. Türk Kültüründe Silah. Ötüken Neşriyatı, İstanbul: 2019.*

*14. Erdoğan E. Safevi Devletinin Askeri Teşkilatı, Yeditepe Yayınları, İstanbul: 2019.*

*15. Seyyahların Gözüyle Sultanlar ve Savaşlar (Giovanni Maria Angiolello, Venedikli Bir Tüccar ve Vincenzo D`Aleksandrinin Seyahatnameleri). Çeviri ve Notlar: Tufan Gündüz, İstanbul, Yeditepe yayınları, 2007.*

*16. Özbaran S. Portekizli Seyyahlar – İran, Türkiye, İrak, Suriye ve Mısır Yollarında. Kitap Yayınevi, İstanbul: 2007.*

*17. Terzi Mustafa Zeki. "Mızrak", TDVİA, TDV Yayınları, c. 30. İstanbul: 2005, s. 3-4.*

*18. Venedikli bir Tüccar'ın Seyahatnâmesi, Seyyahların Gözüyle Sultanlar ve Savaşlar (Giovanni Maria Angiolello, Venedikli Bir Tüccar ve Vincenzo D`Aleksandrinin Seyahatnameleri). Çeviri ve Notlar: Tufan Gündüz, İstanbul, Yeditepe yayınları, 2007.*

*19. Floor W. Safavid Government Institutions. Mazda Publishers, California: 2001.*

*20. Hales R. Islamic and Oriental Arms and Armour: A Lifetime's Passion. London: Robert Hales C.I. Ltd, 2013.*

*21. Аджа'иб ад-дунйа (Чудеса мира). Критич. Текс, пер. с перс., введ., коммент. И указатели Л.П. Смирновой. Москва: Наука, 1993.*

*22. Бидлиси Ш.Ш. Шараф-наме. т. 2. Перевод, предис., прим., прил. Е.И. Васильевой. М.: 1976.*

*23. Кармановский В.С. Сабельные клинки в России вв.: морфология и конструктивные осо-*

*бенности. Автореферат дисс… канд. ист. наук. Моск. Гос. Унив. имени М.В.Ломоносова. 2010.*

*24. Малозёмова Е.И. Иранское холодное оружие IX-XIX вв. Автореферат диссертации на соискание ученой степени кандидата исторических наук, Санкт-Петербург: 2008.*

*25. Образцов В.Н. Оружия Востока в собрании Эрмитажа. Санкт-Петербург: Изд-во Государственного Эрмитажа, 2015.*

*26. Путешественники об Азербайджана, т. 1. Составил З.И.Янпольский. Баку: ИзАН АзССР, 1961.*

*27. Челеби Эвлия. Книга путешествия (Земли Закавказья и сопредельных областей Малой Азии и Ирана). Перевод и коментарий. Сост. и отв. ред. А.Д.Желтяков; Примеч. и коммент. А. Желтякова, М.Залумяна и Г.Путуридзе. Выпуск 3. Москва: Наука, 1983.*

*28. Хунджи Рухбихан ибн Фахлуллах. Тарих-и алам-ара-йи Амини. Перевод с английского на русский Т.А.Минорской. Баку: Елм, 1987*

*29. Эгертон Э. Индийское и восточное оружие. Перевод с англ. И.А.Емеца. Москва: ЗАО Центрполиграф, 2007.*

*30. Эфендиев О.А. Азербайджанское государство Сефевидрв. Баку: Элм, 1981.*

*31. Della Vella P. Səfərname-ye Pyetro della Valle. Tercome-ye əz mətne əsli-ye italiyayi doktor Şucaəddin Şəfa, Tehran, Şirkəti Çap və İntişarat Elmi Fərhəngi, 1384.*

*32. Figueroa don Qarcia de Silva. Sefername-i Figueroa, tercome-ye Qulamrıza Sami, Tehran: 1984.*

*33. Nasiri M.R. Fərhəng-i Nasiri: Torki-yi Çagatayi, Rumi və Kılmaki be Farsi. Be kuşeşe H.Cəvadi, V.Floor. Təbriz: Kitabxane-yi Muze və Mərkəz-i Esnad-ı Məclis-i Şura-yı İslam, 1392.*

*34. Sanson N. Səfərname-i Sanson. Vəze keşvəre şahanşahi-ye İran zəmane Şah Süleyman. Tercome-ye Tağı Təfəzzüli, Tehran, İbn Sina, 1346.*

*35. Şamlu Vəliqulu b. Davudqulu. Qısasul-xaqani, cilt 1. Be kuşeşe S.S.Nasıri. Tehran: Sazman-ı Çapu İntişarat-ı Vizaret-i Fərhəngu İrşad-ı İslami, 1371.*

*36. Şarden J. Səfərname-ye Şarden, cild 1-5. c. 2. Tercome-ye İqbal Yəğmai, Tehran, Çapxane Heydəri, 1372-1374.*

*37. Şarden J. Səfərname-ye Şarden, cild 1-5. c. 3. Tercome-ye İqbal Yəğmai, Tehran, Çapxane Heydəri, 1372-1374.*

## Azərbaycan Səfəvi dövlətində yüngül hücum silahları

### XÜLASƏ

Azərbaycan Səfəvilər dövləti 235 ildən artıq Azərbaycan və Yaxın Şərqin hərbi-siyasi həyatında əhəmiyyətli rol oynamışdır. Orta əsrlərin ənənəvi döyüş silahları və yüngül süvari qüvvələrindən istifadə edərək, onlar bu coğrafiyada hakim gücə çevrilmişlər. Yüngül süvari qoşununa əsaslanan Səfəvilər klassik döyüş silahları ilə yanaşı, ağır odlu silahlarla da təchiz edilmişdilər.

Bu tədqiqatda biz regionda mühüm döyüş qüvvəsinə çevrilən Səfəvilərin klassik döyüş silahları və onların fərdi döyüşlərdə istifadəsini ilkin mənbələrin işığında araşdırmağa çalışacağıq. Səfəvi ordusunda istifadə edilən ox və yay, qılınc, nizə və balta kimi döyüş silahlarının geniş tətbiq olunduğu döyüşlər ətraflı şəkildə təsvir ediləcəkdir.

**Açar sözlər:** *Azərbaycan Səfəvilər dövləti, döyüş silahları, ox və yay, nizə, qılınc, balta.*

## Light Offensive Weapons in the Safavid State of Azerbaijan

### SUMMARY

The Safavid State of Azerbaijan played a significant role in the military-political life of Azerbaijan and the Near East for more than 235 years. Utilizing traditional medieval weaponry and light cavalry forces, they became a dominant power in the region. The Safavid army, while primarily based on light cavalry units, was also equipped with heavy firearms and siege weapons.

This study aims to explore the classical weapons used by the Safavids, who emerged as a major military force, as well as their application in individual battles, drawing on primary sources. Battles where weapons such as bows and arrows, swords, spears, and axes were extensively employed will be examined in detail.

**Keywords:** *Safavid State of Azerbaijan, weapons, bow and arrow, spear, sword, axe.*

UOT 94 "16/18"
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.094

# NARGİN ADASINDAN TÜRK ƏSİR ZABİTLƏRİNİN QAÇIRILMASININ TƏŞKİLİNDƏ AĞABALA QULİYEVİN İŞTİRAKI BARƏDƏ

**VƏFA ƏLİYEVA**
*AMEA A. Bakıxanov adına "Tarix və Etnologiya İnstitutu "Şimali Azərbaycanın XIX-XX əsrin əvvəlləri tarixi" şöbəsinin dissertantı*
*E-mail: vfa.aliyeva85@mail.ru*

Dünya tarixində ilk sənaye, qlobal, total müharibə sayılan Birinci Dünya müharibəsi həm də XX əsrin əvvəllərində Avropada baş vermiş ən qanlı müharibədir. Hazırda bu müharibənin hərbi əsirləri, əsirlikdə saxlanma şəraiti haqqında çoxlu monoqrafiyalar, məqalələr yazılmış, dissertasiyalar müdafiə edilmişdir. Bununla belə, bu sahədə hələ də çoxlu boşluqlar var ki, onlar xüsusi araşdırma tələb edir. Bu boşluqlardan biri də Nargin adasındakı əsir düşərgəsinin tarixi, eləcə də 1915-ci ilin yayında türk əsirlərinin oradan qaçması və sonradan böyük ictimai rezonansa səbəb olmasıdır. Arxiv sənədlərində olan məlumatlara əsaslanaraq təqdim olunan məqalədə türk məhbusların Nargin adasından qaçması ilə bağlı bəzi hallara aydınlıq gətirilir. İstintaq materiallarının cəlb edilməsi ilə məşhur azərbaycanlı xeyriyyəçi və milyonçu Ağabala Quliyevin əsirlərin qaçışını təşkil etməsi variantı təkzib edilir. Faktlar əsasında sübuta yetirilib ki, bu versiya müəyyən erməni dairələri tərəfindən müharibədən əziyyət çəkən Anadolu müsəlmanlarının ağır vəziyyətinin yüngülləşdirilməsində böyük işlər görmüş görkəmli azərbaycanlı xeyriyyəçini gözdən salmaq üçün hazırlanıb.

Əvvəla məlumdur ki, Birinci Dünya müharibəsi illərində savaşan tərəflərin 7-9 milyon hərbçisi əsir düşmüşdü. Təkcə Rusiya ordusu 2 milyona yaxın düşmən əsgər və zabitini əsir götürmüşdü ki, onlardan 50-60 mini Osmanlı ordusunun hərbçisi idi [9, s. 101]. Rusiya imperiyasında "Dördlər İttifaqı" dövlətlərinin hərbi əsirlərinin saxlanılması üçün çoxsaylı xüsusi əsir düşərgələri təşkil edilmişdi ki, onlardan da biri Nargin adasında fəaliyyət göstərmişdir. 1915-ci ildən 1918-ci ilə qədər fəaliyyət göstərmiş bu düşərgədə ilk növbədə Osmanlı İmperiyasından əsirlər saxlanılırdı. Onlarla yanaşı, düşərgədə alman və Avstriya-Macarıstan hərbi əsirləri də var idi. Düşərgənin yaradılmasının təşəbbüskarı sanitar və təxliyyə bölməsinin rəhbəri, şahzadə A.P.Oldenburq olmuşdur. O, hələ 1915-ci il yanvarın 27-də "daimi yaşayış yerlərindən qovulmuş bir neçə min üsyankar müsəlmanı və ya əsir türkləri" Xəzər dənizindəki adalardan birində yerləşdirmək ideyası ilə Bakı qarnizonunun rəisi admiral Y.V. Klupfelə müraciət etmişdi. Rusiyanın 1918-ci ilin martında Brest-Litovsk müqaviləsi bağladığı vaxt üçün Nargin və Zığda 78 əsir zabit və 7 min əsgər var idi. Ümumiyyətlə, düşərgənin mövcud olduğu müddətdə buradan 25 minə yaxın məhbus keçmişdi [5].

Qafqaza ilk osmanlı əsirləri İstanbul hökumətinin müharibəyə qoşulmasından cəmi bir həftə sonra gətirilmişdir. Onların sağlam olanları Rusiyanın daxili quberniyalarına müxtəlif işlərdə işləmək üçün göndərilir, zəif, xəstə və yaralılar isə Qafqazda saxlanılırdı. Bakı və Tiflisin vağzallarında ilk türk əsirlərini qarşılayan yerli əhali onların durumundan dəhşətə gəlmişdi. Havanın soyuq olmasına baxmayaraq əsirlər soyuq geyimdə, üstəlik yorğun və əldən düşmüş idilər. Nargin adasına gətirilmiş hərbi əsirlərin acınacaqlı durumunu tədqiqatçı Cəmilə Rüstəmova da ətraflı təsvir edir [16, s. 140].

1915-ci ilin iyun-iyul aylarında Nargin adasında əsir türk əsgərlərinin axınının artması ilə adadakı su çatışmazlığı və digər problemlər daha da kəskinləşmişdi. Həmin ilin iyulun 23-nə olan məlumata görə, burada 118-i zabit olmaqla 3761 məhbus yerləşdirilmişdi. Onların əksəriyyətini Osmanlı ordusunun türk və kürd əsirləri təşkil edirdi. Həmçinin əsirlərin arasında ermənilərə (bir baş zabit, iki həkim və 169 aşağı rütbəli), albanlara (bir baş zabit), yunanlara (iki həkim və 47 aşağı rütbəli), ərəblərə (bir baş zabit və 150 nəfər aşağı rütbəli), çərkəzlərə (24 aşağı rütbəli) və acara (bir aşağı rütbəli) rast gəlinirdi. Bundan əlavə, Nargində Avstriya-Macarıstan ordusundan 16 nümayəndə var idi. Əsirlərlə birlikdə adada mülki şəxslərdən 745 Osmanlı təbəəsi (682 türk, 54 kürd, səkkiz erməni və bir yunan), 45 Qacar təbəəsi (31 Azərbaycan türkü, 12 kürd və iki erməni), 76 Rusiya təbəəsi (49 türk və 27 kürd), o cümlədən bir Almaniyanın və bir Avstriya-Macarıstan təbəəsi də yerləşmişdi [9, s. 114].

Yerli müsəlman zabitləri və əhali Qafqaza gətirilən türk əsirlərinə hərtərəfli qayğı və dəstək göstərirdilər. Bakıdakı Müsəlman Xeyriyyə Cəmiyyətinin nümayəndələri adada saxlanılan türk əsirlərinə tez-tez baş çəkir, imkanları daxilində onların ehtiyaclarını qarşılamağa cəhd edirdilər. Bakıda və Şimali Azərbaycanın digər şəhərlərində fəaliy-

yət göstərən müsəlman xeyriyyə cəmiyyətlərindən "Qardaş köməyi", "Möhtaclara Yardım Cəmiyyəti", "Bakı Müsəlman Qadınları Xeyriyyə Cəmiyyəti", "Qafqaz Müsəlmanları Xeyriyyə Cəmiyyəti", "Milli Müsəlman Komitəsi", "Gəncə şəhər Müsəlmanları Xeyriyyə Cəmiyyəti", "İrəvan Müsəlmanları Xeyriyyə Cəmiyyəti", "Nicat" və "Səfa" kimi qurumların üzvləri Nargin adasındakı türk əsirləri üçün əhalidən paltar, yemək, tənbəki toplayır, bununla da öz dindaşlarının taleyinin mümkün qədər yüngülləşdirməyə çalışırdılar. Maraqlıdır ki, Nargin adasındakı düşərgənin rəhbərliyi bu cür yardımlara kifayət qədər loyal yanaşırdı. Bu barədə sənədlərdə qeyd olunurdu ki, Müsəlman Xeyriyyə Cəmiyyətinin nümayəndəsi madam Hacıyeva (çox güman ki, Müsəlman Xeyriyyə Cəmiyyətinin üzvü Sona Hacıyeva nəzərdə tutulur – V.Ə.) Nargin adasının komendantının razılığı ilə qohumları ilə birgə maneəsiz şəkildə adaya gələ bilirdi. Hacıyeva çox vaxt şəxsi gəmisi ilə adaya gələrək, mühafizənin nəzarəti olmadan gecə yarısına kimi türk əsirlərinin yanında qalırdı [11, s. 159-160].

Məhz belə bir vəziyyətdə, 1915-ci ilin yayında Nargindən türk əsir zabitlərinin qaçırılması böyük səs-küyə səbəb oldu. Yerli hakimiyyət orqanları bu işdə ilk növbədə türk əsirləri ilə daim təmasda olan, onlara qayğı göstərən, yardımlarını əsirgəməyən Qafqazın müsəlman xadimlərindən şübhələnməyə başlamışdı. Bu işdə adı hallanan şəxslərdən biri də bədxah erməni dairələri tərəfindən iftiraya uğrayan Ağabala Quliyev olmuşdur. Ağabala Quliyevin Nargin adasında saxlanılan türk əsir zabitlərinin qaçırılmasında iştirakı ilə bağlı istintaq işində erməni izi olduğu üçün biz onun üzərində bir qədər ətraflı dayanmağı lazım bilirik.

Birinci Dünya Müharibəsi illərində Nargin adasında saxlanılan türk əsirləri ilə bağlı Vətən tarixşünaslığında P. Xəlilov, C. Rüstəmova, A. Aşırlı, N. Məmmədova və digər tədqiqatçılar öz əsərlərində kifayət qədər yer ayırdıqları üçün biz təqdim olunan məqaləmizdə yalnız Ağabala Quliyevin bu işdə iştirakı probleminin üzərində dayanacağıq. Belə ki, yuxarıda adları qeyd olunan müəlliflərin demək olar ki, hamısı bir qayda olaraq Ağabala Quliyevin bu işin başlıca təşkilatçısı olması ilə bağlı eyni mövqedən çıxış edirlər [1; 2; 3]. Bu işlə bağlı istintaq materiallarının daha ətraflı öyrənilməsi bizə fərqli qənaətlərə gəlməyə imkan vermişdir.

Öncə qeyd etmək lazımdır ki, türk zabitlərinin Nargin adasından qaçması barədə ada komendantının Bakı quberniya jandarm idarəsinin rəisinə yazdığı 9 avqust 1915-ci il tarixli məktubundan bəlli olur ki, adada əsir kimi saxlanılan türk zabitlərindən kapitanlar Süheyl İzzət, Fərqat Tursun, Şükrü Şaban bəy, poruçik Osman Nuri Abdulla, podporuçik Yusuf Ziya, praporşiklər Hüseyin Hilmi, Fikri Şakir və Yusuf İbrahim iyulun 29-da adadan qaçmağa müvəffəq olmuşlar. Onun yazdığına görə, qaçan türk zabitlərindən yalnız kapitanlar Süheyl İzzət və Şükrü Şaban bəyin şəhərə getmək üçün icazə vərəqələri olduğu halda digər türk zabitləri yaranmış qarışıqlıqdan istifadə edərək, köhnə icazə vərəqələri əsasında sahilə gedən gəmiyə minə bilmişdilər. Belə ki, həmin vaxt arvadı yüksək hərarət içində olduğundan onu sahilə aparmaqla məşğul olan ada komendantı şəxsən bu prosesə nəzarət edə bilməmişdi. Bu üzdən iş yenicə Astaradan adaya gəlmiş 552-ci piyada Simbirsk drujinasının 3-cü bölüyünün komandiri və zabitlərinə həvalə olunmuşdu. Məhz onların səhlənkarlığı səbəbindən əsir türk zabitləri ada komendantının arvadını sahilə aparan "knyaz Baryatinski" gəmisinə minə bilmişdilər. Bundan sonra görülən bütün tədbirlərə baxmayaraq, onları yaxalamaq mümkün olmamışdı [6, v. 46-47].

Türk əsirlərinin qaçışı Nargin adasında ciddi dəyişikliklərə səbəb oldu. Avqustun 13-də əvvəlki komendant Poltoratskinin yerinə leytenant Velikoselski, avqustun 24-də isə podpolkovnik Xəlilov təyin olundu. Yavaş-yavaş adadakı məhbusların sayı azaldıldı. Belə ki, 1915-ci ilin avqust ayında adada 219 zabit və həkim olmaqla 3955 məhbus var idisə, sentyabrın sonuna olan məlumatlara görə zabitlər artıq adadan Rusiya hökuməti tərəfindən digər həbs düşərgəsinə köçürüldülər.Təhqiqatın aparıldığı müddətdə zabitlərin əksəriyyəti imperiyanın daxili əyalətlərinə sürgün olundular. Nəticədə oktyabrın 18-ə olan məlumata görə adada 2869, noyabrın 1-i üçün 2631, 23-ü üçün isə 2563 nəfər əsir qalmışdı [9, s. 118]. Əsirlər tədricən əmək mükəlləfiyyəti əsasında müxtəlif Rusiya quberniyalarına fiziki işlər yerinə yetirməyə göndərilirdi.

İlkin araşdırmadan sonra sözügedən məsələyə xitam verilmişdi, belə ki, əsirlərin məhz komendantın məsuliyyətsizliyi üzündən qaçdıqları təsbit olunmuşdu. Lakin bir qədər sonra Bakı ermənisi A.B.Akopovun Qafqaz canişininə bu məsələ ilə bağlı məktubundan sonra təhqiqat yenidən bərpa olunmuşdu. Həmin məktub Ağabala Quliyev başda olmaqla şəhərin nüfuzlu müsəlman xadimlərini gözdən salmaq məqsədi güdürdü. Bu məktuba görə idi ki, təhqiqat prosesi 1916-cı ilin fevralına kimi davam etmişdi.

A.B.Akopovun Qafqaz canişininə məktubunda ermənilərə xas riyakarlıq elə ilk sətirlərdən özünü göstərir: “Vətəndaşlıq hissi mənə hazırkı müharibə hadisələri ilə bağlı Bakıda baş verənləri gizlətməyə imkan vermir. Sizə ən təvazökar bir xahişlə müraciət edirəm ki, məlumatlarıma diqqət yetirin və bildirdiyim faktları araşdırın”.

1915-ci ilin iyununda 9 türk əsir zabitinin (ada komendantının məktubunda isə 8 nəfərin adı çəkilir) Nargin adasındakı həbs düşərgəsindən gözlənilmədən qaçması bütün Bakı administrasiyasını təşvişə salmışdı. Mövcud versiyaya görə, kimsə Narginə qayıq gətirmiş və bu qayıqla əsirlər İrana yola düşmüşdülər. Akopov isə hadisələrin tamamilə fərqli, hətta fantastik təsvirini verirdi. Onun sözlərinə görə, bir neçə türk hərbi mühəndisi bilərəkdən əsir düşmüşdülər ki, əsirlikdən qaçaraq şəhərin strateji yerlərinin şəkillərini çəkə bilsinlər. Bu plan Biləcəri dəmir yolu qovşağının yerləşdiyi Bakı rayonunun strateji əhəmiyyətindən irəli gəlirdi. Ona tam uyğun olaraq, əsir düşmüş türk zabitləri gəmi ilə adadan qaçaraq, İran tərəfə üzmək əvəzinə Bakı sahilinə yan almışlar. Bu ağlasığmaz aksiyanın əsas təşkilatçısı, Akopovun sözlərinə görə, Bakı milyonçusu və “Türkiyəpərəst” Ağabala Quliyev olmuşdu. Onun tapşırığı ilə Əliheydər Zeynalov adlı bir nəfər əsirləri sahildə qarşılayaraq, İslamiyə mehmanxanasına (İslamiyə mehmanxanası o zamankı Bazarnı küçəsi ilə Qubernski küçəsinin kəsişdiyi ərazidə, indiki Azərbaycan prospektində L.Tolstoy küçəsində yerləşirdi. Mart soyqırımı zamanı yandırılmışdı) aparmışdı. Burada onların şərəfinə guya Ağabala Quliyev tərəfindən Mir Tağı Mir Babayev, Əliheydər Babayev, Balaqadaş İbrahimov və Qasım Qasımov və digərlərinin iştirakı ilə ziyafət verilmşdi. Ziyafətdən sonra əsir türk zabitləri İslamiyə mehmanxanasında gecələmiş, səhərisi gün Ağabala Quliyev türk zabitlərini torpaqölçən adı ilə özünün Puta stansiyasındakı neft mədəninə aparmışdı. Burada bir həftə qalan zabitlər bu müddətdə onun yaxınlığındakı dəmir yolu, Biləcəri dəmiryolu qovşağı, şosse yolları kimi strateji yerlərin çəkilişini aparmışdılar. Bundan sonra Ağabala Quliyev guya onları İran konsulluğundan əldə etdiyi saxta sənədlər vasitəsilə İrana keçirə bilmişdi. Və guya bu xidmətlərinə görə Ağabala Quliyev sinəsində fəxrlə gəzdirdiyi “Ay ulduz” türk ordeni ilə mükafatlandırılmışdı.

Məktubun sonunda öz uydurmalarında şövqə gələn Akopov guya bu epizodun tək olmadığını, Bakıda dövlətə xəyanətlə məşğul olan bütöv bir qrupun fəaliyyət göstərdiyini iddia edir, lakin əlində kifayət qədər material olmadığı üçün bu qrup barədə təfsilatlı yaza bilməyəcəyini də vurğulayırdı [15, v. 43-43 arxa].

Akopovun böhtan dolu məktubunda göstərilən faktların, o cümlədən Ağabala Quliyevin bu hadisədəki iştirakı məsələsinin araşdırılması məqsədilə canişinin dəftərxanasından Bakı quberniya jandarm idarəsinə xüsusi tapşırıq verilmişdir [10, v. 44]. Öz növbəsində Bakı quberniya jandarm idarəsinin rəisi işə dair məlumatları xüsusi vacib məsələlər üzrə məhkəmə təhqiqatçısına ötürmüşdü.

Bakı quberniya jandarm idarəsindən Cənubi Qafqaz dəmir yolları jandarm polis idarəsinin Bakı şöbəsinə göndərilmiş 25 noyabr 1915-ci il tarixli məktubda Ağabala Quliyevin həmin ilin iyunun sonları, iyulun əvvəllərində Puta stansiyasında yerləşən neft sahəsinə hər gün xarici mühəndislərlə getməsi barədə məlumatı yoxlamaq tələb olunurdu [8, v. 80].

Bu göstərişə necə əməl olunmasına dair məlumata 1915-ci ilin dekabrın əvvəllərində Bakı quberniya jandarm idarəsinə göndərilmiş məktubda rast gəlirik. Orada deyilirdi ki, Ağabala Quliyevin, Sultanovun və Bıxovskinin Puta stansiyasının yaxınlığında neft sahələri mövcuddur və bu sahələr mühəndislər tərəfindən idarə olunur. Bu mühəndislər işlərin gedişatına nəzarət etmək üçün tez-tez Puta stansiyasına gedirlər. Hal-hazırda bu sahələrdə işlər dayandırılmışdır. Ağabala Quliyevin Sultanovla məhkəmə mübahisəsi olduğu üçün isə onun sahəsində işlər həmişəlik dayandırılmışdır [7, v. 80 arxa].

Bu işlə bağlı sözügedən mühəndislərin hər biri ayrılıqda dindirilmiş, dindirilmələr protokollaşdırılmışdır. Həmin protokollardan bəlli olurdu ki, bu şəxslərin heç birinin Nargin adasından türk əsirlərinin qaçırılması ilə hər hansı bir əlaqəsi olmamışdı.

Akopovun məktubu ilə bağlı aparılmış təhqiqatın gedişində Ağabala Quliyev 1915-ci ilin noyabrın 28-də Bakı quberniya jandarm idarəsinin rəis köməkçisi tərəfindən şahid qismində dindirilmişdi. Onun həmin tarixdə yazdığı izahatında qeyd olunurdu ki, o, Bakının köklü sakini olmaqla, Bakıda, Kuban və Ter vilayətində böyük unüyütmə müəssisələrinin sahibidir. İstər 1915-ci ilin yayında, istərsə də əvvəlki illərdə A. Quliyev işlərinin çoxluğundan Bakı şəhərindən kənara çıxmamışdı. Azərbaycanlı milyonçu ara-sıra sırf İran plovunu yemək üçün İslamiyə mehmanxanasına getdiyini etiraf edir; bunun üçün o, lüks nömrə tuturdu. Lakin həmin yay A. Quliyev nə öz bağ evində, nə də xüsusilə İslamiyə mehmanxanasında məxsusi olaraq axşam və nahar yeməyi ziyafəti təşkil etməmişdi. Özü də o, Əlihey-

dər Zeynalov, Mirtağı Mirbabayev, Əliheydər Babayev, Balaqadaş İbrahimov, Qasım Qasımovdan ibarət məclisdə də nahar, yaxud şam yeməyi yeməmişdi. Quliyevin bu zaman yalnız Mirtağı Mirbabayevlə tanışlığı var idi, digərləri ilə isə sırf işgüzar münasibətlərdə idi.

Quliyev həmin vaxtlar Sultanovla məhkəməsi olduğundan Puta stansiyasındakı neft mədəninə də baş çəkmirdi. 1915-ci ilin yayında da o, öz sahəsində olmamışdı. Üstəlik, Quliyev hər həftənin şənbə günləri konserv, unüyütmə, nişasta-yağ zavodlarının olduğu Beslan stansiyasına yollanırdı. Müsəlman xeyriyyə cəmiyyətinin üzvü olsa da, o, son zamanlar işlərinin çoxluğundan onun işlərində iştirak edə bilmirdi. 1914-cü ilin payızında Quliyev digər nümayəndələrlə birlikdə xeyriyyəçilik məqsədilə Sarıqamışa səfər etmiş və general Voronovun sərəncamında olmuşdu. O, müharibənin ehtiyacları üçün 3 min, lazaretlərin təşkili üçün isə 20 min rubl ianə etmişdi.

A. Quliyevin ifadələrindən məlum olurdu ki, o, Nargin adasında olmamışdı. Ora un çatdırılması ilə bağlı ada komendantından dəvət alsa da, işləri üzündən Narginə gedə bilməmişdi. Adada saxlanılan türk əsirlərinin nə sayından da xəbəri yox idi, nə də ki, əsirlərdən kiminləsə tanış deyildi. İslamiyə mehmanxanasında olarkən də o, əsir türklərlə rastlaşmamışdı. Qaçanların kimliyi barədə də anlayışı yox idi [13, v. 63-64 arxa].

Təhqiqat gedişində Ağabala Quliyevin təşkilatçılığı ilə ziyafətin verildiyi iddia olunan İslamiyə mehmanxanasının sahibi İsmayıl Mahmudov da dindirilmişdi. Dindirilmə protokolundan bəlli olur ki, Nargin adasından qaçmış əsir türk zabitləri həqiqətən də onun mehmanxanasında gecələsələr də, bu, əsirlərə ada komendantı tərəfindən verilmiş xüsusi icazə vərəqəsi əsasında mümkün olmuşdu. Bu barədə mehmanxananın qeydiyyat kitabçasında da xüsusi qeyd olumuşdu. İsmayıl Mahmudov mehmanxanasında münasib şəraitin olmadığından, əsirlər üçün ziyafətin verilmədiyini söyləmişdi. Məlum olmuşdu ki, mehmanxananın yeməkxanası olmadığından orada gecələyənlər yeməyi birbaşa nömrələrinə aparırlar. Mehmanxana sahibi də ifadəsində Ağabala Quliyevin onun mehmanxanasına ailəsi bağ evində olarkən tez-tez İran plovu yemək üçün gəldiyini bildirmişdi [14, v. 52-53 arxa].

Aparılmış təhqiqatın nəticəsi olaraq Bakı Quberniya Jandarm İdarəsi rəisi 1915-ci il 31 dekabr tarixində yekun qərarını vermişdi. Təhqiqatın nəticələri barədəhəmin qərar Bakı şəhər rəisliyinə göndərilmişdi. Orada qeyd olunurdu ki, A.B. Akopovun Nargin adasında saxlanılan əsir türk zabitlərinin qaçırılmasının Ağabala Quliyev tərəfindən əvvəlcədən hazırlanmış plan əsasında Əliheydər Zeynalovun yardımı ilə həyata keçirilməsi, əsirlərin İslamiyə mehmanxanasında gecələmələri, məhşur Bakı sakinləri Mirtağı Mirbabayev, Əliheydər Babayev, Balaqadaş İbrahimov və Qasım Qasımovun da iştirakı ilə onlar üçün burada ziyafətin verilməsi ilə bağlı iddialar sorğu və məxfi məlumatların toplanması yolu ilə təsdiqini tapmamışdı. İşlə bağlı yalnız əsirlikdən qaçmış bəzi türk zabitlərinin doğrudan da İslamiyə mehmanxanasında gecələmələri barədə məlumatlar əldə edilmişdi. Məhz məlumatların çatışmazlığı səbəbindən, bu barədə gələcək yazışmaların heç bir nəticə verməyəcəyini əsas gətirən Bakı şəhər rəisliyi 5 fevral 1916-cı il tarixli qərarı ilə bu məsələnin təhqiqatının dayandırılması barədə qərar qəbul edir [12, v. 87-88 arxa].

Tədqiqatçı K.A.Paxalyuk özünün “Birinci Dünya müharibəsinin əsirlik məkanı: Nargin adasında türk əsirləri üçün düşərgə (1915-1918)” adlı məqaləsində türk zabitlərinin qaçırılmasında Ağabala Quliyevin təqsirləndirilməsini əsassız olması qənaətinə gəlir. A.B.Akopovun məktubunda irəli sürülən ittihamların istintaq gedişində tutarsızlığını vurğulayır. O, qeyd edir ki, casus axtarılmasını o dövrün ictimai məkanında şpionomaniya, yəni hər yerdə casus görmə səciyyəsi ilə izah etmək lazımdır. Əgər Rusiyanın əksər quberniyalarında alman soyadını daşıyanların hamısını casus qismində görərək, alman xainini axtarırdılarsa, Bakıda ictimai rəy türkpərəstləri düşmən əlaltısı kimi qələmə verirdi. Görünür, “Bakının un kralı” yerli milyonçu Ağabala Quliyevin əleyhdarları bundan istifadə etmək qərarına gələrək, ona qarşı iqtisadi müharibə açmışdılar [9, s. 117].

Bizim fikrimizcə, K.A.Paxalyukun qənaətlərində həqiqət payı olsa da, o, Ağabala Quliyevə qarşı iftiranın səbəblərinə tam aydınlıq gətirmir. Burada bir məqamı açıqlamaq istərdik. Ağabala Quliyevin müharibə dövründə Anadolu hərbzədələrinə yardım göstərməsi, müxtəlif xeyriyyə aksiyalarında fəal iştirak etməsi hakimiyyətin ona qarşı şübhələrini gücləndirmişdi. Onun hətta anti-rus təbliğatı aparması haqqında şayiələr dolaşırdı. Ona görə də Polis Departamenti tərəfindən hələ 1914-cü ildən etibarən onun izlənilməsi üçün gizli xarici nəzarət tətbiq olunmuşdu [17, v. 69-69 arxa]. Görünür, bu qurumun göstərişi ilə Bakı Jandarm İdarəsi 1915-ci ildə azərbaycanlı xeyriyyəçi haqqında təhqiqat aparır. Onun noyabrın 29-da tərtib etdiyi arayışda göstərilirdi ki, 1908-ci ilə dair yoxlanılmamış mə-

lumata görə Ağabala Quliyev müsəlman "Hümmət" partiyasının görkəmli üzvlərindən biri olmuşdur [17, v. 69-69 arxa]. Təbii ki, bu məlumat yanlış idi, belə ki, öz siyasi əqidəsinə görə sağ-monarxist olan Ağabala Quliyev solyönümlü və çarizmin əsaslarını devirməyi qarşısına məqsəd qoyan "Hümmət" partiyasının üzvü ola bilməzdi. Lakin bu təhqiqatın ən mühüm cəhəti odur ki, o A. Quliyevin əsirləri qaçırmasında əlinin olmadığını da dolayı surətdə təsdiqləmiş olurdu. Çünki əgər A. Quliyevin bu işlə bağlı cüzi əlaqəsi olsa idi, Polis İdarəsi mütləq onun haqqında cinayət işi açardı. Amma yuxarıda da qeyd etdiyimiz kimi, əsir məsələsinin təhqiqatı gedişində azərbaycanlı milyonçunun qaçırılmada iştirakına dair tutarlı bir fakt ortaya çıxarılmamışdı. Üstəlik, hələ 1914-cü ildən gizli polis nəzarətində olan A. Quliyevin əsir qaçırılmasında hər hansı bir iştirakı fiziki cəhətdən mümkün deyildi.

Nargin adasından türk əsirlərinin qaçırılması ilə bağlı Türkiyə tarixşünaslığında da müxtəlif əsərlərdə toxunulmuşdur. Türkiyə tarixşünaslığının nümayəndələrindən biri Betül Aslan Nargin adasından türk əsirlərinin qaçırılmasında Azərbaycandakı müəyyən ictimai qurumların rolunun olması ehtimal etsə də, konkret ad çəkmir [4, s. 162]. Öz növbəmizdə qeyd edərdik ki, hakimiyyət orqanlarının apardığı təhqiqat hər hansı bir kənar şəxsin bu işdə əlinin olması ehtimalını rədd edir.

Bizim fikrimizcə, A. Quliyevə qarşı iftiraların müəllifinin Akopov soyadlı erməninin olması daha dərin mətləblərdən xəbər verirdi: bəzi erməni çevrələri, görünür, Quliyevin xeyriyyəçi fəaliyyətindən, ilk növbədə də müharibədən əzab çəkmiş Anadolu müsəlmanlarına yardımlarından narahat idilər. Bu, müəyyən mənada onların öz soydaşlarının müstəsna əzabkeş surətini yaratmaqla, gələcəkdə siyasi dividentlərə ümid bəsləmək planlarını pozmasından irəli gəlirdi. Çünki Bakı müsəlman xeyriyyə cəmiyyəti öz humanitar fəaliyyəti əsnasında məhz müsəlman əhalinin zülmə daha geniş miqyasda məruz qaldığını və təcavüzkar erməni millətçiliyinin hədəfində olduğunu sübuta yetirirdi. Bu fəaliyyəti əngəlləmək üçün isə xeyriyyəçi fəaliyyətin əsas simaları "vurulmalı" idi. Bu baxımdan Ağabala Quliyevin hədəfə alınması təəccüblü görünməməlidir.

**Açar sözlər:** *Ağabala Quliyev, Nargin adası, Birinci Dünya Müharibəsi, Osmanlı imperiyası, türk əsirləri.*

## ƏDƏBİYYATIN SİYAHISI:


*1. Aşırlı A. Nargin adasında türk əsirləri. Bakı, "Elm və təhsil", 2011. - 112 səh.*

*2. Xəlilov P.R. Birinci dünya müharibəsi illərində türk hərbi əsirlərinin Nargin hərbi düşərgəsindən xilas edilməsində azərbaycanlıların roluna dair // AMEA Tarix İnstitutunun Elmi Əsərləri, Xüsusi buraxılış, №48, 49, 50, – s.291-294*

*3. Məmmədova N.Ə. Birinci Dünya müharibəsində Qafqaz cəbhəsi: Qaçqınlar və hərbi əsirlər. elmi red. N. Axundova. Bakı: Təhsil, 2020. 399 səh.*

*4. Betül Aslan. I Dünya savaşı esasında "azerbaycan türkleri"nin "anadolu türkleri"ne "kardaş kömeği (yardımı)" ve bakü müslüman cemiyeti hayriyesi. Ankara, 2000. 395 səh.*

*5. Буланова О. Остров Наргин: три километра ада, боли, смерти и тайн. https://azerhistory.com/?p=5316*

*6. Отношение коменданта острова Нарген начальнику Бакинского Губернскаго Жандармского Управления, от 9-го августа 1915 года.,// ARDTA, f. 46, siy. 4, iş 364, v. 46-47*

*7. Отношение начальника Бакинского отделения Жандармского полицейского Управления Закавказских железных дорог помощнику начальника Бакинского Губернскаго Жандармского Управления. 1-е декабря 1915 года.,// ARDTA, f. 46, siy. 4, iş 364, v. 80 arxa*

*8. Отношение помощника начальника Бакинского Губернскаго Жандармского Управления начальнику Бакинского отделения Жандармского полицейского Управления Закавказских железных дорог. 25-е ноября 1915 года.,// ARDTA, f. 46, siy. 4, iş 364, v. 80*

2023-cü ildə KOBİA (Kiçik və Orta Biznesin İnkişafı Agentliyi) tərəfindən ekoloji, sosial və korporativ idarəetmə prinsiplərinin tətbiqinin stimullaşdırılması və təşviqi üzrə biznes subyektlərində ESG barədə məlumatlılıq səviyyəsinin və onların bu istiqamətdə müvafiq ehtiyaclarının öyrənilməsi məqsədilə ətraflı sorğu keçirilmişdir. Sorğu hər ölçüdə - iri, orta, kiçik və mikro sahibkarlıq subyektləri arasında, eləcə də bütün iqtisadi rayonlar və bütün sektorlar üzrə respondentlər arasında aparılmışdır [8].

Nəticə olaraq, təəssüf ki, ölkə üzrə ESG prinsiplərinin anlaşılma dərəcələri və tətbiqi vəziyyəti yüksək qeydə alınmayıb. Sorğu çərçivəsində verilmiş cavabların təhlilinə əsasən, ölkə üzrə sorğuda iştirak etmiş 278 müəssisədən yalnız 10-u və ya 3,5%-i ESG prinsiplərini tətbiq edir.

**Şəkil 1: ESG prinsiplərinin tətbiqi vəziyyəti, müəssisə sayı göstərilir**

**Mənbə:** *azranking.az, 2023 ESG sorğusu*




Respondentlərin çətinliklər, maneələrlə bağlı suallara verdikləri cavablara əsasən, ESG prinsiplərini tətbiq etmək üçün ətraflı izah və məlumatlandırma, əlavə bilik və bacarıq, insan resursları ilə bağlı ehtiyaclar birinci dərəcəli ehtiyaclar hesab olunur. Vergi güzəştləri, subsidiya, mövcud qanunvericilikdə dəyişiklik və güzəştli kreditlər isə ESG prinsiplərini

tətbiq etmək üçün ikinci dərəcəli ehtiyaclar hesab olunur [8].

Ekoloji təmiz istehsala yönəlmiş yerli layihələr ətraf mühitə mənfi təsirləri azaltmaqla yanaşı, yeni iş yerləri də yarada bilər. Təhsilə, səhiyyəyə, kiçik və orta biznesin inkişafına dəstək kimi sosial təşəbbüslər əhalinin həyat keyfiyyətini yaxşılaşdıracaq və sosial gərginliyi azaldacaq.

Azərbaycan bərpa olunan enerji mənbələri sahəsində öz potensialını inkişaf etdirməyə çalışır ki, bu da ölkənin istixana qazı tullantılarını 2050-ci ilə qədər 40% azaltmaq planının vacib hissəsidir. Ölkə 2030-cu ilə qədər bərpa olunan enerji gücünü 30%-ə çatdırmaq və yaşıl enerji sahəsində lider olmaq üçün mövcud enerji sistemini şaxələndirmək niyyətindədir [9].

COP29 çərçivəsində Azərbaycanın ətraf mühit, sosial məsuliyyət və korporativ idarəetmə, yəni ESG təcrübələri və təşəbbüsləri üzrə vahid onlayn məkanın – ESGhub.az platformasının təqdimatı keçirildi. Yeni platforma - ESG Hub təşkilatların ESG prinsiplərini gündəlik fəaliyyətlərinə və uzunmüddətli strategiyalarına daxil etmələrini asanlaşdırmaq üçün geniş imkanlar təqdim edir [9].

Bütün araşdırmalara və əldə edilən təcrübələrə əsasən əminliklə deyə bilərik ki, ESG sistematik yanaşma və bütün maraqlı tərəflərin fəal iştirakını tələb edən uzunmüddətli investisiyadır. Onların uğurla həyata keçirilməsi Azərbaycan kimi inkişaf etməkdə olan ölkələr üçün daha davamlı və firavan gələcəyin yaradılmasına gətirib çıxarar.

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Pawan Prasad E-Commerce and Socio-Economic Development // Salesian Journal of Humanities & Social Sciences, Vol. IV, No. 1 (May 2013), Page No: 72-79.*

*2. Simakov, V. (2020). HISTORY OF FORMATION OF E-COMMERCE ENTERPRISES AS SUBJECTS OF INNOVATIVE ENTREPRENEURSHIP. Three Seas Economic Journal, 1(1), 84-90.*

*3. Orxan Məmmədli məqalə: Nədir ESG? Banker.az 2024*

*4. Scott Herren ESG Nedir? ESG Yatırımının Gezegenimiz ve İşletmeler İçin Beş Faydası autodesk.com/tr/design-make/articles 2020*

*5. Alex Liu, How Leading E-Commerce Giants are Embracing ESG, 2023*

*6. Кузьмин Е.А., Денисевич Е.И. ESG-цели компаний и их влияние на электронную розничную торговлю , p. 57-61, (2022)*

*7. Laxminarayana Korada (2024) Digital Transformation Balanced with Sustainability Goals. Journal of Engineering and Applied Sciences Technology. SRC/JEAST-E106.*

*8. azranking.az, 2023 ESG sorğusu*

*9. cop29.az,2024.*

**XÜLASƏ**

Azərbaycanda ESG prinsipləri hələ beynəlxalq təcrübələrdə olduğu qədər tam inkişaf etməsə də, bu sahəyə maraq artır. Dövlət, xüsusilə ətraf mühitin qorunması sahəsində müxtəlif layihələr və təşəbbüslər həyata keçirir, məsələn, "Yaşıl enerji" sahəsində investisiyalar və ətraf mühitin mühafizəsi ilə bağlı yeni qanunlar qəbul olunur. Lakin qanunvericilik və tətbiq sahəsində hələ də çatışmazlıqlar mövcuddur. Bir neçə ildir ki, ölkədəki iri şirkətlər sosial məsuliyyət və idarəetmə sahələrində daha çox şəffaflıq və hesabatlılıq nümayiş etdirir. Lakin ESG prinsiplərinin geniş şəkildə tətbiqi və effektiv monitorinq mexanizmlərinin qurulması hələ də inkişaf mərhələsindədir. ESG-nin inkişafı ilə uzunmüddətli iqtisadi sabitlik və beynəlxalq investorların cəlb edilməsi mümkündür.

**Açar sözlər:** *elektron ticarət, esg, davamlılıq, ətraf mühit, sosial, idarəetmə*

**Gulshan Karımova**
***Master student of Azerbaijan State University of Economics***
***E-mail: gulsenkerimova0@gmail.com***

**Application of ESG projects on e-commerce platforms**

**SUMMARY**

Although the principles of ESG in Azerbaijan are not yet as fully developed as in international practices, interest in this area is growing. The state is implementing various projects and initiatives, especially in the field of environmental protection, for example, investments in the field of "green energy" and new laws on Environmental Protection are being adopted. However, there are still shortcomings in the field of legislation and application. For several years, large companies in the country have shown greater transparency and accountability in

the areas of Social Responsibility and management. However, the widespread application of ESG principles and the construction of effective monitoring mechanisms are still under development. With the development of ESG, long-term economic stability and attracting international investors are possible.

**Keywords:** *e-commerce, esg, sustainability, environment, social, management*

**Гульшан Каримова**
***Магистрант Азербайджанского Государственного Экономического Университета***
***эл. почты: gulsenkerimova0@gmail.com***

**Применение ESG-проектов на платформах электронной коммерции**

**РЕЗЮМЕ**

Хотя принципы ESG в Азербайджане еще не так полно развиты, как в международной практике, интерес к этой области растет. Государство реализует различные проекты и инициативы, особенно в области охраны окружающей среды, например, принимаются новые законы об инвестициях и охране окружающей среды в области "зеленой энергии". Но в сфере законодательства и практики все же есть недостатки. В течение нескольких лет крупные компании по всей стране демонстрировали большую прозрачность и подотчетность в области социальной ответственности и управления. Но широкое внедрение принципов ESG и создание эффективных механизмов мониторинга все еще находятся в стадии разработки. С развитием ESG возможна долгосрочная экономическая стабильность и привлечение международных инвесторов.

**Ключевые слова:** *электронная коммерция, esg, устойчивое развитие, окружающая среда, социальные сети, управление*

UOT 33:005
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0113

# İNTERNET MÜHİTİNDƏ BİZNES PROSESLƏRİNİN İDARƏ EDİLMƏSİ

**TURAN ALLAHVERDİ**
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, magistr*
*E-mail: turan.allahverdi1801@gmail.com*

## Giriş

İnternet mühitində biznes proseslərinin idarə edilməsi bir çox üstünlüklərlə yanaşı, müəyyən çağırışlarla da müşayiət olunur. İlk növbədə, məlumat təhlükəsizliyi məsələsi əhəmiyyətlidir. İnternet vasitəsilə böyük həcmdə məlumatın toplanması və saxlanılması kibertəhlükəsizliyin artırılmasını tələb edir, çünki məlumatların oğurlanması, kibercinayətkarlıq və məxfiliklə bağlı problemlər baş verə bilər. Texnoloji infrastrukturun yenilənməsi digər bir çağırışdır. Sürətlə dəyişən texnoloji yeniliklərə uyğunlaşmaq üçün müəssisələr mütəmadi olaraq avadanlıqlarını, proqram təminatlarını və texnologiyalarını yeniləməlidirlər ki, bu da əlavə maliyyə və resurs tələb edir.

## İnternet mühitində biznes proseslərinin idarə edilməsi

İnternet mühitində ticarət müəssisələrinin biznes proseslərinin idarə edilməsi, rəqəmsal transformasiya və qlobal rəqabət şəraitində müəssisələrin effektivliyini artırmaq üçün vacibdir. Bu proseslər, ənənəvi biznes modellərindən fərqli olaraq, sürətli dəyişən texnoloji mühitə uyğunlaşmağı və müştəri tələblərinə çevik cavab verməyi tələb edir.

Biznes Proseslərinin İdarə Edilməsi (BPİ), müəssisələrin fəaliyyətlərini daha səmərəli və effektiv şəkildə həyata keçirmələri üçün proseslərin təhlili, modelləşdirilməsi, optimallaşdırılması və nəzarətini əhatə edən sistematik yanaşmadır. Bu yanaşma, təşkilatların məqsədlərinə çatmaq üçün proseslərini davamlı olaraq təkmilləşdirmələrinə imkan verir.

BPİ, müəssisələrin rəqabət qabiliyyətini artırmaq və bazarda mövqelərini gücləndirmək üçün vacib bir yanaşmadır. Düzgün tətbiq edildikdə, əməliyyatların səmərəliliyini artırır və müştəri məmnuniyyətini yüksəldir.

İnternet mühitində biznes prosesləri ənənəvi metodlardan fərqli xüsusiyyətlərə malikdir və rəqəmsal transformasiya ilə əlaqədar olaraq aşağıdakı əsas cəhətləri əhatə edir:

1. Rəqəmsal interfeyslər və avtomatlaşdırma: [1].

Müştərilərlə əlaqə, sifarişlərin qəbulu və ödənişlər rəqəmsal platformalar vasitəsilə həyata keçirilir. Bu, əməliyyatların sürətini artırır və insan səhvlərini minimuma endirir. Məsələn, onlayn mağazalar avtomatik sifariş emalı və ödəniş sistemləri ilə təchiz olunur.

2. Real vaxt rejimində məlumat axını:

İnternet mühitində məlumatların real vaxtda ötürülməsi və emalı mümkündür. Bu, müəssisələrə operativ qərar qəbul etmə və müştəri tələblərinə çevik cavab vermə imkanı yaradır. Məsələn, e-ticarət platformaları stok məlumatlarını və satış statistikasını dərhal yeniləyir.

3. Qlobal əlçatanlıq və məkan məhdudiyyətinin olmaması:

İnternet vasitəsilə müəssisələr qlobal bazara çıxış əldə edir və coğrafi məhdudiyyətlər aradan qalxır. Bu, yeni müştəri seqmentlərinə çatmaq və bazar payını artırmaq üçün geniş imkanlar yaradır. Məsələn, kiçik bir müəssisə onlayn platforma vasitəsilə beynəlxalq müştərilərə məhsul və xidmətlərini təqdim edə bilər.

4. Məlumatların toplanması və analitikası:

Rəqəmsal mühitdə müştəri davranışları və əməliyyatlar haqqında geniş məlumatlar toplanır. Bu məlumatlar analitik alətlər vasitəsilə təhlil edilərək, marketinq strategiyalarının optimallaşdırılması və müştəri təcrübəsinin yaxşılaşdırılması üçün istifadə olunur. Məsələn, veb-analitika vasitəsilə istifadəçi davranışları izlənilir və uyğun təkliflər hazırlanır.

5. Çeviklik və adaptasiya:

İnternet mühitində biznes prosesləri sürətlə dəyişən bazar şərtlərinə və texnoloji yeniliklərə uyğunlaşma qabiliyyətinə malikdir. Bu, müəssisələrin rəqabət üstünlüyü əldə etməsinə və müştəri tələblərinə daha tez cavab verməsinə imkan verir. Məsələn, onlayn xidmətlər yeni funksionallıqları tez bir zamanda tətbiq edə bilir.

6. Təhlükəsizlik və məlumatların qorunması:

Rəqəmsal əməliyyatlar zamanı məlumat təhlükəsizliyi və məxfilik məsələləri ön plana çıxır. Müəssisələr kibertəhlükəsizlik tədbirlərini gücləndirməli və müştəri məlumatlarının qorunmasını təmin etməlidirlər. Məsələn, SSL sertifikatları və iki faktorlu

autentifikasiya metodları istifadə olunur.

Bu xüsusiyyətlər, internet mühitində fəaliyyət göstərən müəssisələrin biznes proseslərini daha effektiv və rəqabətqabiliyyətli etməyə imkan verir [2].

1. İnternet mühitində biznes prosesləri nədir?

İnternet mühitində biznes proseslərinin idarə edilməsi, müəssisələrin fəaliyyətlərini internet texnologiyaları vasitəsilə həyata keçirməsinə yönələn bir yanaşmadır. Bu yanaşma müəssisənin resurslarının optimallaşdırılması, məlumat axınının sürətləndirilməsi və müştəri təcrübəsinin təkmilləşdirilməsinə yönəlmişdir.

2. İnternet mühitində biznes proseslərinin əsas komponentləri:

• Rəqəmsal infrastruktur: Müasir texnologiyalar və rəqəmsal platformalar vasitəsilə biznes proseslərinin avtomatlaşdırılması və idarə olunması.

• E-ticarət və elektron xidmətlər: Malların və xidmətlərin internet vasitəsilə təqdim edilməsi, satışı və müştərilərlə əlaqələrin onlayn mühitdə idarə olunması.

• Məlumatın təhlili və analitika: Müştəri davranışları, bazar tendensiyaları və digər məlumatların təhlil edilməsi ilə iş proseslərinin optimallaşdırılması.

• Proseslərin inteqrasiyası: Müəssisədaxili və müəssisələrarası iş proseslərinin koordinasiyası və inteqrasiyası.

• Avtomatlaşdırma və süni intellekt: Süni intellekt vasitəsilə müştəri sorğularına cavab vermə, proseslərin avtomatik təkmilləşdirilməsi və təkrar proseslərin avtomatlaşdırılması.

3. İnternet mühitində biznes proseslərinin idarə edilməsi üçün nəzəri yanaşmalar:

• Proses yanaşması: İnternet mühitində biznes proseslərinin idarə edilməsi, hər bir prosesin məqsədinin, nəticəsinin və resurslarının dəqiq şəkildə müəyyən edilməsini tələb edir. Bu yanaşma, prosesləri mərkəzə qoyaraq iş axışını və nəticələri optimallaşdırır.

• Müştəriyə yönəlmişlik: Onlayn biznes proseslərinin idarə olunmasında müştəri təcrübəsinin mərkəzdə olması vacibdir. Müştəri ehtiyaclarının başa düşülməsi və fərdi yanaşmaların təqdim edilməsi internet mühitində rəqabət qabiliyyətini artırır.

• Əlaqələrin inteqrasiyası və çeviklik: İnternet mühiti sürətlə dəyişən bazar şərtlərinə uyğunlaşma və dəyişikliklərə çevik cavab verməyi tələb edir. Bu səbəbdən, internet mühitində fəaliyyət göstərən müəssisələr əlaqələrin idarə edilməsi və çevik yanaşmaların tətbiqi ilə daha müvəffəqiyyətli ola bilər.

• Avtomatlaşdırma və optimallaşdırma: Avtomatlaşdırma alətləri, iş proseslərini optimallaşdırmaq və resurslardan daha səmərəli istifadə etmək üçün geniş istifadə olunur. Bu yanaşma müştəri məmnuniyyətinin artırılmasına və əməliyyat xərclərinin azaldılmasına töhfə verir.

4. İnternet mühitində biznes proseslərinin idarə edilməsinin üstünlükləri:

• Qlobal satış imkanı və bazar genişlənməsi.

• Sürətli və çevik əməliyyatlar.

• Məlumat əsaslı qərar qəbul etmə.

• Daha yaxşı müştəri təcrübəsi.

5. İnternet mühitində biznes proseslərinin idarə edilməsinin çağırışları və problemləri:

• Məlumat təhlükəsizliyi və kibertəhlükəsizlik.

• Tez-tez yenilənən texnologiyalar və yüksək xərclər.

• İnternet mühitində müştəri etibarı və məmnuniyyəti.

İnternet mühitində biznes proseslərinin idarə edilməsi, müəssisələrin daha çevik, müştəriyə yönəlmiş və rəqabətçi olmasına imkan yaradır. Bununla belə, proseslərin düzgün şəkildə idarə olunması üçün davamlı yeniliklərə açıq olmaq, təhlükəsizlik məsələlərini nəzərə almaq və müştəri təcrübəsini yaxşılaşdırmağa fokuslanmaq tələb olunur [3].

İnternet mühitində biznes proseslərinin idarə edilməsi bir sıra üstünlüklər təqdim edir. İlk olaraq, müəssisələrə qlobal əlçatanlıq və geniş bazara çıxış imkanı yaradır. Məkan məhdudiyyətlərinin aradan qalxması nəticəsində dünyanın istənilən yerindən müştərilərə çatmaq mümkündür. İkincisi, proseslərin avtomatlaşdırılması əməliyyat xərclərini azaldır və iş səmərəliliyini artırır. Avtomatlaşdırılmış sistemlər daha sürətli və daha az səhv ilə işləməyə imkan verir. Üçüncüsü, məlumat axını real vaxtda baş verir ki, bu da operativ qərar qəbul etmə və dəyişən bazar şərtlərinə tez uyğunlaşmaq imkanı verir. Müştərilərə fərdiləşdirilmiş xidmət və təkliflər təqdim etmək də mümkündür ki, bu da müştəri məmnuniyyətini artırır. İnternet mühitində biznes prosesləri daha çevik və adaptivdir, yeni texnologiyalara və bazar tələblərinə sürətlə uyğunlaşmağa imkan verir. Bununla yanaşı, məlumatların təhlili və innovasiya üçün geniş imkanlar yaranır. Rəqəmsal mühitdə müştəri davranışları, bazar tendensiyaları və rəqiblərin analizi ilə bağlı böyük həcmli məlumatlara sahib olmaq innovasiya və yeni məhsul inkişafını

asanlaşdırır. Avtomatlaşdırılmış müştəri xidmətləri sayəsində suallar dərhal cavablandırılır və xidmət keyfiyyəti artır. Həmçinin, proseslərin asanlıqla izlənməsi və monitorinqi müəssisələrə daha dəqiq qərarlar qəbul etmək imkanı yaradır. Bu üstünlüklər sayəsində internet mühitində biznes proseslərinin idarə edilməsi müəssisələrə rəqabətqabiliyyətli olmaq, müştəri məmnuniyyətini artırmaq və resurslardan daha səmərəli istifadə etmək imkanı verir [4].

İnternet mühitində biznes proseslərinin idarə edilməsi bir çox üstünlüklərlə yanaşı, müəyyən çağırışlarla da müşayiət olunur. İlk növbədə, məlumat təhlükəsizliyi məsələsi əhəmiyyətlidir. İnternet vasitəsilə böyük həcmdə məlumatın toplanması və saxlanılması kibertəhlükəsizliyin artırılmasını tələb edir, çünki məlumatların oğurlanması, kibercinayətkarlıq və məxfiliklə bağlı problemlər baş verə bilər. Texnoloji infrastrukturun yenilənməsi digər bir çağırışdır. Sürətlə dəyişən texnoloji yeniliklərə uyğunlaşmaq üçün müəssisələr mütəmadi olaraq avadanlıqlarını, proqram təminatlarını və texnologiyalarını yeniləməlidirlər ki, bu da əlavə maliyyə və resurs tələb edir.

## Nəticə

Nəticədə, atılan bu addımlar internet mühitində biznes proseslərinin idarə edilməsini sistematik və davamlı bir proses halına gətirir. Proseslərin idarə olunması zamanı çevik yanaşma, texnologiyaların düzgün istifadəsi və monitorinq mühüm rol oynayır.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Əliyeva, S. M. (2020). Müəssisələrdə qərar qəbul etmə prosesinin optimallaşdırılması. Bakı: UNEC Nəşriyyatı.*

*2. Əsədov, V. H. (2015). Müəssisələrdə strateji qərarların qəbul edilməsinin metodları. Bakı: Elm və Təhsil Nəşriyyatı.*

*3. İsmayılov, N. K. (2014). İdarəetmə qərarlarının qəbul edilməsində risklərin qiymətləndirilməsi. Bakı: Qanun Nəşriyyatı.*

*4. Quliyev, E. T. (2017). Müasir idarəetmə metodları və onların tətbiqi. Bakı: Təhsil Nəşriyyatı.*


## XÜLASƏ


İnternet mühitində biznes proseslərinin idarə edilməsi bir sıra üstünlüklər təqdim edir. İlk olaraq, müəssisələrə qlobal əlçatanlıq və geniş bazara çıxış imkanı yaradır. Məkan məhdudiyyətlərinin aradan qalxması nəticəsində dünyanın istənilən yerindən müştərilərə çatmaq mümkündür. İkincisi, proseslərin avtomatlaşdırılması əməliyyat xərclərini azaldır və iş səmərəliliyini artırır. Avtomatlaşdırılmış sistemlər daha sürətli və daha az səhv ilə işləməyə imkan verir. Üçüncüsü, məlumat axını real vaxtda baş verir ki, bu da operativ qərar qəbul etmə və dəyişən bazar şərtlərinə tez uyğunlaşmaq imkanı verir. Müştərilərə fərdiləşdirilmiş xidmət və təkliflər təqdim etmək də mümkündür ki, bu da müştəri məmnuniyyətini artırır. İnternet mühitində biznes prosesləri daha çevik və adaptivdir, yeni texnologiyalara və bazar tələblərinə sürətlə uyğunlaşmağa imkan verir. Bunununla yanaşı, məlumatların təhlili və innovasiya üçün geniş imkanlar yaranır.



**Açar sözlər:** *internet mühiti, biznes prosesləri, mərhələləri, üstünlükəri, proseslərin təhlili.*



***Turan Allahverdi Natiq oglu***
***Azerbaijan State University of Oil and Industry***
***master***
***E-mail: turan.allahverdi1801@gmail.com***


## MANAGEMENT OF BUSINESS PROCESSES IN THE INTERNET ENVIRONMENT

## SUMMARY


Management of business processes in the Internet environment offers a number of advantages. First, it provides enterprises with global accessibility and access to a wide market. As a result of the elimination of spatial restrictions, it is possible to reach customers from anywhere in the world. Second, automation of processes reduces operating costs and increases work efficiency. Automated systems allow you to work faster and with fewer errors. Third, the flow of information occurs in real time, which allows for operational decision-making and quick adaptation to changing market conditions. It is also possible to provide customers with personalized services and offers, which increases customer satisfaction. In the Internet environment, business processes are more flexible and adaptive, allowing you to quickly adapt to new technologies and market requirements. At the same time, wide opportunities arise for data analysis and innovation.



**Keywords:** *internet environment, business processes, stages, advantages, process analysis.*

**Туран Аллахверди Натиг оглы**
*Азербайджанский Государственный Университет Нефти и Промышленности*
*тагистра*
*E-mail: turan.allahverdi1801@gmail.com*

## УПРАВЛЕНИЕ БИЗНЕС-ПРОЦЕССАМИ В ИНТЕРНЕТ-СРЕДЕ

**РЕЗЮМЕ**

Управление бизнес-процессами в среде Интернета дает ряд преимуществ. Во-первых, это обеспечивает предприятиям глобальный охват и доступ к широкому рынку. Благодаря устранению ограничений по местоположению можно связаться с клиентами из любой точки мира. Во-вторых, автоматизация процессов снижает эксплуатационные расходы и повышает эффективность бизнеса. Автоматизированные системы позволяют работать быстрее и с меньшим количеством ошибок. В-третьих, поток информации происходит в режиме реального времени, что позволяет оперативно принимать решения и быстро адаптироваться к меняющимся рыночным условиям. Также возможно предоставлять персонализированное обслуживание и предложения клиентам, что повышает удовлетворенность клиентов. В среде Интернета бизнес-процессы становятся более гибкими и адаптивными, что позволяет быстро адаптироваться к новым технологиям и требованиям рынка. В то же время существуют широкие возможности для анализа данных и инноваций.

**Ключевые слова:** *интернет-среда, бизнес-процессы, этапы, преимущества, анализ процессов.*

UOT: 33
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0115

# SƏNAYE MÜƏSSİSƏLƏRİNDƏ İNSAN KAPİTALININ STRATEJİ PLANLAŞDIRILMASINA TƏSİR EDƏN AMİLLƏRƏ UYĞUN İDARƏETMƏ QƏRARLARININ QƏBULU

**ELŞAD YUSİFOV**
*Azərbaycan Memarlıq və İnşaat Universiteti, i.ü.f.d., dosent*
*E mail: elshad.yusifov@azmiu.edu.az*
*ORCİD ID: 0000-0003-1946-2937*

**VƏSİLƏ QASIMOVA**
*Azərbaycan Universiteti, magistr*
*E-mail: vesile.gasimova84@gmail.com*
*ORCID ID: 0009-0000-4766-8532*

## Giriş

Cəmiyyətdə baş verən sosial-iqtisadi dəyişikliklər, iqtisadi konyunkturanın dəyişmə dinamikası və ondan irəli gələn qeyri-müəyyənliklər sənaye müəssisələrində strateji planlaşdırmaya, eləcə də strateji idarəetmənin sürətli inkişafına təsir göstərir. Bütün bu dəyişikliklərin nəticəsi olaraq insan resurslarının idarə edilməsi konsepsiyasının inkişafı yeni idarəetmə mərhələsinə keçir ki, bu da insan resurslarının idarə olunmasının uzunmüddətli rəqabət qabiliyyətinin formalaşması və müəssisədə rentabelliliyin qorunub saxlanması, iqtisadi böyüməsi məqsədi baxımından çox vacib olduğunu xəbər verir. Buna görə də strateji idarəetmənin düzgün planlaşdırılması və fəaliyyətin gözlənilən nəticələrinin xüsusiyyəti xarakterinə görə onların strateji mahiyyətini ifadə edir.

Sənaye müəssisələrindəki strateji qərarlar fiziki, maddi, təşkilati və insan resurslarının cəlb edilməsi baxımından əhəmiyyətlidir. Müvafiq fəaliyyətin düzgün planlaşdırılması və məqsədlərə nail olunması baxımından yeni fəaliyyət sahələrinin genişlənməsi, həmçinin müəssisə rəhbərliyinin məsuliyyətinin artmasına da əhəmiyyətli dərəcədə təsir edir. Davamlı rentabellik məqsədilə müəssisələr xüsusilə, insan resurslarına tələbdə dəyişiklik ehtiyaclarını müəyyən etməli və onlara uyğunlaşa bilməlidirlər. Sənaye müəssisəsində strateji idarəetmənin təşkil edilməsi məqsədi ilə menecerlər müəssisənin insan resurslarının daxili güclü imkanlardan tam istifadə edəcəyi və daxili zəiflikləri, eləcə də kənar neqativ təsirləri minimuma endirəcək qərarlar qəbul edə bilməlidirlər.

Hazırda sənaye müəssisələri arasında kəskin rəqabət nəticəsində tələb odur ki, insan resursları müasir dövrə uyğun müəyyən bacarıqlara malik olmalıdır. O cümlədən insan resurslarının idarə edilməsi ilə bağlı müəssisənin fəaliyyətinin davamlılığının təmin olunması məqsədilə səmərəli tətbiq oluna biləcək və faydalı olacaq optimal strateji qərarlar qəbul etmək bacarığından istifadə edilməlidir.

## İnsan resurslarının idarə edilməsi strategiyasının formalaşdırılması

Sənaye subyektlərinin insan resurslarının strateji planlaşdırılmasının obyekti, predmeti və məqsədinin nədən ibarət olduğunu düzgün aydınlaşdırmaq səmərəlilik baxımından çox vacibdir. İstehsalın istənilən sahəsində əsas resurs olaraq müəssisənin kadrları, ümumi şəkildə insan resursları və ya insan kapitalını təmsil edən və obyektiv şəkildə qiymətləndirilə bilən işçi qüvvəsi qeyd olunmalıdır. Burada məqsəd düzgün strategiyanın tətbiqi, onun planlaşdırılması və həyata keçirilməsi yolu ilə insan resurslarının idarə olunmasının keyfiyyətinin yüksəldilməsidir [4].

Sənaye müəssisəsinin insan resursları onun insan kapitalını formalaşdırır. Ümumiyyətlə, insan resursları müəssisənin işçi heyətinə, lakin kəmiyyət və ya funksional və texniki cəhətdən deyil, keyfiyyətcə aiddir. İnsan resursları kompleksinin elementləri aşağıdakı aspektlərlə əlaqələndirilə bilən spesifik xüsusiyyətlərlə əlaqədardır:

- yaradıcılıq qabiliyyəti, işçilərin hərtərəfli inkişafı potensialı;
- işçilərin ümumi mədəniyyəti və mənəvi etibarlılığı;
- komandada əməkdaşlıq və özünütəşkilin müəyyən təsiri, yəni işin təşkili və qərar qəbulunun kollektiv formalarından istifadə etmək bacarığı;
- kollektiv daxilində əmək münasibətlərinin yaxşılaşdırılması;
- həvəsləndirmələr;
- təşəbbüskarlıq.

Yəni insan resursları anlayışının məzmunu işçiyə funksional, texnokratik münasibətlə bağlıdır və onun planlaşdırılması zamanı spesifik xüsusiyyətlər nəzərə alınmalıdır. Müəssisədə mövcud olan

digər resurslarla müqayisədə insan resurslarının özünəməxsusluğu gözlənilməz dəyişikliklərə səbəb ola bildiyindən gözlənilməzliklərə qarşı adaptiv idarəetmə sisteminin tətbiqi imkanları mütəmadi dəyərləndirilməlidir [2, s. 42].

Sənaye müəssisəsində insan resurslarının idarə edilməsi sisteminin və insan kapitalının inkişafı strategiyasının olması insan kapitalının səmərəli inkişafına zəmanət vermir, çünki həm insan resursları ilə işin təşkilində, həm də kadrların ixtisasında problemlər yarana bilər. Bu o deməkdir ki, kadr idarəçiliyi yalnız iki əsas amil nəzərə alındıqda və ondan istifadə edildikdə səmərəli olacaqdır. Birincisi, insan resursları üzrə rəhbərliyin həll etməli olduğu konkret istehsal vəzifəsidir. İkinci amil müəssisənin müvafiq strategiyasının həyata keçirilməsinə yönəlmiş əsas ideyadır və bu müəssisənin bütün cari vəzifələrini həll etmək üçün lazımi şərait yaradaraq, kadr idarəetməsinin bütün forma və növlərini birləşdirir. Strategiyaya uyğun olaraq yaxın gələcəkdə yaranacaq və ya yaranması proqnozlaşdırılan problemləri həll etməyə hazırlığı təmin edirlər. İnsan resurslarının idarə edilməsində ən böyük effekt yalnız təqdim olunan iki amil ahəngdar şəkildə əlaqəli olduqda əldə ediləcəkdir. Birinci amil insan resursları menecmentinin prioritet istiqamətini təmin edəcək, ikincisi isə müəssisənin strategiyasının səmərəli həyata keçirilməsini təmin edəcək.

## İnsan kapitalına transformasiya prosesinin əsas amilləri

Səmərəlilik üçün sənaye müəssisəsinin idarəetmə prosesində bütün maraqlı tərəflərin müxtəlif səviyyə və formalarda iştirakı məqsədəuyğundur. Müəssisə daxilində əməkdaşlıq, onun inkişafı üçün rəqabət üstünlüyü əldə etmək baxımından çox vacibdir. İdarəetmə prosesi əməliyyatların səmərəliliyi, müsbət nəticələrin təmin edilməsi üçün menecerlər və müvafiq şəxslərin birgə iştirakı ilə müxtəlif aspektlərdə inkişafı əhatə etməlidir [5, s. 153]. Menecerlər, işçilər və digər maraqlı tərəflər istehsal, eləcə də digər əməliyyatlarda əməkdaşlıq etdikdə ümumi məqsədlərə çatmaq üçün tapşırıqları effektiv şəkildə idarə edirlər. Buraya təşkilati idarəetmənin planlaşdırılmasında iştirak etmək, müəssisəyə rəhbərlik etmək, nəzarəti təmin etmək, məlumat mübadiləsi və idarəetmə, eləcə də ümumilikdə fəaliyyətin səmərəliliyini artıran müəssisədaxili korporativ ünsiyyət daxildir. Sənaye müəssisəsində əməkdaşlıq insan resurslarının birgə səmərəli işləmək bacarığını nümayiş etdirməsi üçün platforma rolunu oynayır. Əməkdaşlıq qabiliyyətinin səviyyəsi müəssisənin fərdlərinə sənaye biznes proseslərində məhsuldar və səmərəli şəkildə iştirak etməyə kömək edir. Uğurlu nəticə əməkdaşlıq və qarşılıqlı hörmət ruhunu tələb edir [1, s. 131]. Menecerlər adətən müəssisənin bir hissəsi olmaq istəyən və şəxsi uğuru, eləcə də qrup məqsədləri arasında tarazlıq yaratmağa can atan səmərəlilikdə maraqlı olan işçilər axtarır. Müəssisədaxili uğurlu əməkdaşlığa təkan verən amillərə aşağıdakıları aid edə bilərik:

- fərdlərin əməkdaşlıq prosesindəki rolları ilə bağlı aydın razılaşmaların yaradılması;
- işin icrası üçün vacib olan aydın daxili ünsiyyətin təmin edilməsi;
- layihə və ya tapşırığın yerinə yetirilməsi üçün məqsəd və üsullarla bağlı görüşlərin və ya məsləhətləşmələrin keçirilməsi;
- bütün əməkdaşlıq edən insan resurslarının iştirakının təmin edilməsi;
- qrup məqsədlərini fərdi məmnuniyyətdən üstün tutmaq.

Müəssisədə əməkdaşlıq mühiti iqtisadi əməliyyatlarda və inkişafda həlledici amildir [3, s. 462]. Çünki işçilər sərbəst ünsiyyət və əməkdaşlıq etməyə imkan verən mühitdə işlədikdə səmərəli nəticə baş verir. Tərəfdaşlarla müsbət əməkdaşlıq təcrübələrinin artırılması, biznes proseslərinin təkmilləşdirilməsi və ya yeni biznes modellərinin yaradılması kimi müəssisənin müxtəlif aspektlərini təkmilləşdirmək və ya inkişaf etdirmək üçün insan resurslarının idarə edilməsi prosesinə rəqəmsal texnologiyanın inteqrasiyası vacibdir.

## Rəqəmsal mühitdə insan kapitalının idarə olunmasının mühüm aspektləri

Müasir sənaye müəssisələrində tətbiq olunan yeni biznes idarəetmə modellərinə uyğunlaşmaq üçün təşkilati mədəniyyəti uyğunlaşdırma, müəssisədə onu irəli aparmağa hazır olan işçilərin olması ilə yanaşı, işçilərin müəssisənin iqtisadi mühitindəki dəyişikliklərin təzyiqinə tab gətirə bilməsini təmin etmək üçün çox vacibdir. Müəssisələr yarana biləcək proqnozlaşdırılan və təsadüfi hadisələrə, eləcə də yeni biznes proseslərə adaptasiya olmaq məqsədilə davamlı təkmilləşdirmələr aparmalıdır.

Post "Covid" dövründə distant işin təşkili, təlim və inkişaf proqramları çərçivəsində, o cümlədən müəssisədaxili kommunikativ məqsədlər üçün onlayn kanallardan istifadə və müxtəlif işçilər arasında birgə işin prioritetləşdirilməsi kimi yeni şəraitdə fəaliyyətin həyata keçirilməsinə hesablanan idarəetmə məsələləri aktuallıq qazanır. Müasir dövr yeni iqtisadi münasibətlərin reallaşdırılması vəziyyətində olan müəssisələrdə işçilərin işə getmək əvəzinə rəqəmsal sistemlər vasitəsilə əməkdaşlığa meyil etdiyini deməyə əsas verir. Müəssisələr rəqəmsal mühitə transformasiya olunan, eləcə də əhəmiyyətli və ya qismən dəyişdirilmiş biznes modellərini dəstəkləyən, lakin yenə də hər kəs eyni yerdə işləyirmiş kimi işçilər arasında birgə iş təcrübələrini təşviq edən yeni təşkilati mədəniyyəti qəbul etməlidir. Bundan əlavə, rəqəmsal transformasiya rejimində müəssisələr arasında innovasiyaya əsaslanan rəqabət səbəbindən, işçilərə yaradıcı düşüncədən istifadə etmək, yeni biznes innovasiyalarını inkişaf etdirmək və ənənəvi işdən çıxmaq baxımından imkanlar təmin etmək üçün təşkilati mədəniyyət çərçivələri tənzimlənməlidir [6, s. 16]. Bacarıqların işçilər tərəfində yeni mühitə adaptasiya olunması, uğurlu və məmnunedici işin nəticələri deməyə əsas verir ki, müəssisələr bu istiqamətdə təşviq prosesini davam etdirməlidir.

Ümumiyyətlə, işçilərin iş yerində uyğunlaşması fərdin öz məqsədlərinə çatmaq üçün göstərdiyi səydir və fərdlərlə ətraf mühit arasında münasibətləri gücləndirmək üçün davranışa müəyyən düzəlişlər tələb edir. Rəqəmsal texnologiyaya əsaslanan iş mühitinə keçid zamanı bütün iş prosesləri onlayn rejimə keçir. Müəssisələrin işçilər üçün əsas rəqəmsal texnologiya bacarıqlarını inkişaf etdirmə zərurəti onlayn təlim və inkişaf yanaşmalarının artmasına səbəb olur. Hazırda müəssisələr texnoloji dəyişikliklər kimi sürətli dəyişikliklərə məruz qalır ki, bu da işçilərin daha tez uyğunlaşmağa və işlərini daha yaxşı başa düşməsinə səbəb olur. Buna görə də iş yerində uyğunlaşma bacarıqları çox vacibdir. Çünki işçilərdən səmərəli olmaq üçün sistematik şəkildə özlərini inkişaf etdirmələri və daim dəyişən şərtlərə uyğunlaşmaq üçün öz bacarıqlarını davamlı olaraq təkmilləşdirmələri tələb olunur.

**Nəticə**

Sənaye sektorundakı müəssisələr sistematik və davamlı strateji planlaşdırma həyata keçirməlidir ki, bu da istehsal və xidmətlərin təqdim edilməsi fəaliyyətini müasir dövrdə sürətlə dəyişən şəraitə uyğunlaşmaq üçün kifayət qədər çeviklik nümayiş etdirməsi ilə nəticələnməlidir. Belə ki, kadrların bacarıq və qabiliyyətlərinin inkişafı və təkmilləşdirilməsi ilə bağlı strateji planlaşdırma sənaye sahələri daxilində sürətli dəyişikliklər, eləcə də getdikcə mürəkkəbləşən iqtisadi münasibətlər ilə xarakterik olan hazırki dövrdə xüsusilə vacibdir. Nəticə etibarilə, insan resurslarının bacarıq və qabiliyyətlərinin inkişafına investisiya yönəltmək, gələcək biznes layihələri üçün möhkəm zəmin yaratmağa yönəlmiş mühüm amil kimi ortaya çıxır.

Müəssisələr insan resursları idarəetmə fəaliyyəti daxilində rəqəmsal texnologiyanın təşviqinə üstünlük verməlidirlər ki, bu da müasir dövrdə xüsusilə vacibdir. Bu əhəmiyyət rəqəmsal texnologiyanın gətirdiyi sürətli və geniş dəyişikliklərdən irəli gəlir və buna görə də müəssisənin biznes əməliyyatlarının hər tərəfinə təsir göstərir. Nəticə etibarilə, müəssisə daxilində rəqəmsal texnologiyanın tətbiqi onlara rəqəmsal dövrün təqdim etdiyi imkanlardan tam istifadə etməyə imkan verə bilər. Rəqəmsal texnologiyanın avtomatlaşdırılmış istehsal proseslərinə inteqrasiyası, əməliyyat səmərəliliyini artırmaq və səhvləri azaltmaq üçün resurslarının planlaşdırılması sistemlərinin tətbiqi, müəssisə daxilində müxtəlif strukturlar arasında səmərəli ünsiyyəti asanlaşdırmaq üçün platformalar və ya rəqəmsal sistemlərin yaradılması düzgün idarəetmə qərarlarından ciddi şəkildə asılıdır. Müəssisə daxilində rəqəmsal texnologiyanın təşviqi təkcə biznesin səmərəliliyini artıraraq xərcləri azaltmır, həm də rəqabət qabiliyyətini gücləndirir və cari rəqəmsallaşma dövründə bazar tələblərinə adekvat cavab verir.

Sənayenin müxtəlif sahələrindəki müəssisələr qarşılıqlı əlaqəni təşviq edən və birgə işi dəstəkləyən, gücü mərkəzləşdirməyən və qərar qəbul etmə və ya planlaşdırma proseslərini asanlaşdıran inklüziv təşkilati mədəniyyəti inkişaf etdirməklə öz iqtisadi subyektləri daxilində münbit mühiti təşviq etməlidir. Bu yanaşma müəssisənin inkişafı prosesində işçilər arasında mülkiyyət hissini təşviq edir və nəticədə ümumi təşkilati səmərəliliyi artırır.

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Quliyev, R. H. İnsan resurslarının idarə edilməsi. Dərslik. Bakı, 2022, 580 s.*

*2. Буткенова, А. К. Стратегическое планирование человеческого капитала на промышленных предприятиях, Журнал Espacios, Том 39 (4) 2018. с. 37-44*

*3. Gallardo, E., Tunnissen, M., and Scullion, H. Talent management: context matters. J. Hum. Resour. Manag. 2020. 31, p. 457-473. doi: 10.1080/09585192.2019.1642645*

*4. Khoruzhy L.I., Kubrushko P.F., Karataeva O.G. Comparative analysis of human capital management strategies in the context of digitalization of the national economy. Front. Sociol. (2023).8:1114301. doi: 10.3389/fsoc.2023.1114301*

*5. Rinny Dharma Diani, Ketut R Sudiarditha. The role of human resources in human capital management, Siber Journal of Advanced Multidisciplinary (SJAM) vol. 2, No. 1, April - June 2024, p. 145-160*

*6. Staffenová, N., Kucharcíková, A. Digitalization in the Human Capital Management. Systems 2023,11, 337. p. 19 https://doi.org/10.3390/systems11070337*



**XÜLASƏ**

Bazarda müəssisələr arasında gərgin rəqabətin hökm sürdüyü müasir iqtisadiyyatda gəlirli fəaliyyəti davam etdirmək məqsədilə əsas idarəetmə qərarları çevik və qətiyyətli qəbul edilmə xüsusiyyətinə malik olmalıdır. Müəssisə rəhbərliyi tərəfindən qəbul edilən hər hansı bir qərar stratejidir, çünki o, müəssisənin mövcud insan resurslarını maksimum dərəcədə artırmalı, eyni zamanda ən aşağı risk dərəcəsini təmin etmək üçün tədbirlər görməlidir və bununla da müəssisəyə maksimum fayda gətirməlidir. Strateji qərarlar hər bir fərdin xarakterindən asılıdır və bu, onları təbiətcə unikal edən səbəbdir. Hazırda intensiv inkişaf nəticəsində müəssisələrin fəaliyyətinə yanaşma tərzində də dəyişiklik baş verir. Bu məqalədə dəyişikliklərin zəruriliyi dərk olunaraq müəssisənin kapitalını öz biliyi, təcrübəsi, ideyası və yaradıcı potensialı ilə təmsil edən insan resursları tədqiqat obyekti kimi qəbul olunmuşdur. Ona görə də insan resurslarının idarə olunması müəssisənin uzunmüddətli rəqabət qabiliyyətinin formalaşması, mövqeyinin qorunub saxlanması, eləcə də fəaliyyət istiqamətlərinin şaxələndirilməsi baxımından mühüm amil olması qeyd olunaraq ətraflı şərh olunmuşdur.



**Açar sözlər:** *strateji idarəetmə, insan kapitalına transformasiya, bacarıqların təkmilləşdirilməsi, rəqəmsal mühit, əməkdaşlıq.*



**Эльшад Масим оглу Юсифов**
**Васила Радин кызы Касимова**


## ПРИНЯТИЕ УПРАВЛЕНЧЕСКИХ РЕШЕНИЙ С УЧЕТОМ ФАКТОРОВ, ВЛИЯЮЩИХ НА СТРАТЕГИЧЕСКОЕ ПЛАНИРОВАНИЕ ЧЕЛОВЕЧЕСКОГО КАПИТАЛА НА ПРОМЫШЛЕННЫХ ПРЕДПРИЯТИЯХ


**РЕЗЮМЕ**

Чтобы продолжать прибыльную деятельность в современной экономике, где конкуренция между предприятиями очень жесткая, ключевые управленческие решения должны приниматься быстро и решительно. Любое решение, принимаемое руководством предприятия, является стратегическим, поскольку оно должно максимально использовать имеющиеся человеческие ресурсы предприятия, одновременно принимая меры для обеспечения наименьшей степени риска, тем самым принося максимальную выгоду предприятию. Стратегические решения зависят от характера каждого человека, что делает их уникальными по своей природе. В настоящее время в результате интенсивного развития меняется и подход предприятий к своей деятельности. В данной статье, осознавая необходимость изменений, в качестве объекта исследования были взяты человеческие ресурсы, которые представляют собой капитал предприятия с их знаниями, опытом, идеями и творческим потенциалом. Поэтому было подробно разъяснено, что управление человеческими ресурсами является важным фактором с точки зрения формирования долгосрочной конкурентоспособности предприятия, сохранения его позиций, а также диверсификации его деятельности.



**Ключевые слова:** *стратегическое управление, трансформация человеческого капитала, развитие навыков, цифровая среда, сотрудничество.*

**Elshad Masim Yusifov**
**Vasila Radin Gasimova**

**ADOPTION OF MANAGEMENT DECISIONS ACCORDING TO THE FACTORS AFFECTING THE STRATEGIC PLANNING OF HUMAN CAPITAL IN INDUSTRIAL ENTERPRISES**

**SUMMARY**

In order to continue profitable activity in a modern economy where intense competition between enterprises prevails in the market, key management decisions must be made flexibly and decisively. Any decision made by the management of the enterprise is strategic, because it must maximize the existing human resources of the enterprise, at the same time take measures to ensure the lowest risk level, and thus bring maximum benefit to the enterprise. Strategic decisions depend on the character of each individual, and this is the reason why they are unique by nature. Currently, as a result of intensive development, there is a change in the approach to the activities of enterprises. In this article, recognizing the need for changes, human resources, which represent the capital of the enterprise with their knowledge, experience, ideas and creative potential, were taken as the object of research. Therefore, it was noted and explained in detail that human resource management is an important factor in the formation of an enterprise's long-term competitiveness, maintaining its position, as well as diversifying its areas of activity.

**Key words:** *strategic management, transformation into human capital, skills development, digital environment, collaboration.*

UOT: 331:331.5.024.5:336.531.2
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0118

# AZƏRBAYCANDA İNSAN KAPİTALININ İNKİŞAFINA İNVESTİSİYA QOYULUŞU SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**AYSEL BƏDƏLZADƏ**
*Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin doktorantı*
*E-mail: ayselbedelzade9@gmail.com*

Qeyd edək ki, insan kapitalı insanların əmək qabiliyyətini artırmaq məqsədi ilə onlara qoyulan investisiyaların məcmusudur. İnsan kapitalının köməyi ilə həyat təminatının və fəaliyyətinin bütün sahələrinin həyat keyfiyyətinə və əmək məhsuldarlığına töhfə verilir. Müasir şəraitdə inkişafın əsas amilini təşkil etdiyi üçün bütün cəmiyyət insan kapitalının formalaşmasında maraqlıdır. Müəyyən bir fərdin bilik və bacarıq səviyyəsinin artırılması onun gəlirinin artırılması üçün ilkin şərtdir. İnsan kapitalı məhsuldar amil kimi səmərəlilik dərəcəsinə görə üç növə bölünə bilər: müsbət (yaradıcı), mənfi (dağıdıcı) və passiv. Müsbət insan kapitalı yığılmış insan kapitalıdır ki, ona qoyulan sərmayədən, eləcə də artım və inkişaf proseslərindən faydalı gəlir əldə etməyə imkan verir. Mənfi insan kapitalı yığılmış insan kapitalının ona qoyulan investisiyadan iqtisadiyyat və cəmiyyətə heç bir önəmli gəlir gətirməyən, o cümlədən əhalinin yaşayışının yaxşılaşdırılmasına, fərdin və cəmiyyətin inkişafına mane olan hissəsidir. Passiv insan kapitalı ölkənin və ya iqtisadiyyatın inkişaf proseslərinə heç bir töhfə verməyən, əsasən maddi nemətlərin istehlakına yönəlmiş insan kapitalıdır.

Məlumdur ki, rəqəmsal iqtisadiyyatın inkişafı dövründə insan kapitalı problemi xüsusilə aktuallaşıb. Sürətlə dəyişən dünya bəşər cəmiyyəti üçün getdikcə daha çox problem yaradır. Rəqəmsal transformasiya çərçivəsində istənilən dövlətin mütərəqqi inkişafının əsasını sonsuz bilik və bacarıq potensialına malik insanlar təşkil edir. Bir ölkənin təbii sərvətləri və maliyyə resursları ola bilər. Amma insan kapitalının inkişafı yüksək səviyyədə olmasa, bunun heç bir önəmi olmaz. Əmək prosesinin rəqəmsallaşması insan kapitalının bir qrup formalarının inkişafına kömək edir: 1) intellektual kapital; 2) təşkilati kapital; 3) sosial kapital; 4) şəbəkə kapitalı [1, s.359].

İntellektual kapital insan kapitalının bir növü, insanın elmi və yaradıcılıq fəaliyyətini, düşünmə qabiliyyəti, ixtiraçılıq və yaradıcılıq fəaliyyətini nəzərdə tutur. Şəbəkə kapitalı rəqəmsal dünyada xüsusi önəm daşıyır, çünki o, şəbəkələr daxilində qarşılıqlı əlaqə prosesində yaranan insan kapitalının formasıdır. Şəbəkə kapitalı əhalinin imkanlarının bir növ göstəricisidir, eləcə də müxtəlif növ şəbəkələrdən istifadə etməklə onların informasiya xidmətlərinə olan ehtiyaclarını reallaşdırmaq üsuludur. İnsan kapitalının əsas tərkib hissələrindən biri idarəetmə kapitalıdır ki, bu da insan kapitalının intellektual, mənəvi, əxlaqi nailiyyətlər daxil olmaqla yığılmış idarəetmə kadrlarının bir hissəsi kimi müəyyənləşdirilir. Sübut edilmişdir ki, müvafiq qurumlar şəklində idarəetmə bilikləri – idarəetmə institutları, inzibati qanunvericilik, təlimatlar, metodiki vəsaitlər, idarəetmə mədəniyyəti davamlı inkişaf üçün cəmiyyətin iqtisadi əsasını təşkil edir [2, s.155]. İqtisadiyyatın davamlı inkişafının formalaşmasında insan kapitalı önəmli rol oynayır və bərabərsizliyi azaltmağa, təhsil və səhiyyə xidmətlərinə çıxışı artırmağa və inklüziv iqtisadi artımı təşviq etməyə kömək edir. İnsan kapitalı rəqəmsal iqtisadiyyat üçün son dərəcə vacibdir, çünki insan resursları, bacarıqlar, səriştələr və biliklər olmadan texnologiya faydalı olmayacaqdır.

Azərbaycanda insan kapitalının inkişafı ilə bağlı strateji hədəflər ölkə Prezidentinin Fərmanı ilə 6 dekabr 2016-cı il tarixində təsdiq edilmiş strateji yol xəritəsində də yaxın və uzunmüddətli dövr üçün müəyyənləşdirilib. Strateji yol xəritəsinin strateji hədəflərindən birində qeyd olunur ki, insan kapitalı ölkənin qlobal bazarlara inteqrasiyasında, istehsal və xidmət sahələrinin rəqabət qabiliyyətinin, əmək məhsuldarlığının artırılmasında və iqtisadi artımın davamlı olmasında önəmli rol oynayır. Bu məqsədlərə nail olmaqdan ötrü bütün səviyyələrdə təhsilin keyfiyyətini yüksəltmək, kadr hazırlığı vasitəsilə işçilərin bilik və bacarıqlarının inkişafında fasiləsizliyi təmin etmək, ixtisaslı kadrlar hazırlamaq, müəssisələrdə tədqiqat və inkişafa investisiya qoyulmasını stimullaşdırmaq lazımdır. Bunlara əsaslanaraq Azərbaycanda iqtisadiyyatın inkişafının davamlılığı istiqamətində reallaşdırılacaq islahatların tərkib hissəsi kimi biliyin iqtisadiyyatda rolunun artırılması, fasiləsiz insan kapitalının inkişafı və onun məhsuldarlığının artırılması ilə bağlı tədbirlər görülməli və inkişafa hərtərəfli dəstək verilməlidir [3].

İnsan kapitalının inkişafı problemlərinin həlli məqsədilə investisiyaların bu sahəyə yönəldilməsi

vacibdir və belə yanaşma son nəticədə cəmiyyətə və ölkəyə xeyir verəcəkdir. İnvestisiyaların cəlb edilməsi mexanizmlərinin səmərəliliyi təkrar ictimai istehsal proseslərində də özünü göstərə bilər. İnnovativ inkişafın təmin edilməsi üçün investisiyaların davamlı cəlb edilməsi əsas şərtlərdən biri kimi qəbul edilməlidir. Bu baxımdan, milli iqtisadiyyatın innovativ və cəmiyyətin tarazlı inkişafının əsas amili kimi insan kapitalının rolu ön plana çıxır [4, s.15]. Qabaqcıl dünya ölkələrində insan kapitalına investisiyalar ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin və iqtisadi artımın gücləndirilməsinin əsas amilidir. Həmin kapitalın qorunub saxlanılması və toplanması ölkə iqtisadiyyatının inkişafının davamlılığına nail olmağa imkan verir. İnsan kapitalına investisiyalar işçilərin məhsuldarlığının artırılması ilə bağlı olan xərcləri təmsil edir və fərdi kapital daşıyıcılarının və bütövlükdə cəmiyyətin gələcək gəlirlərinin artmasına töhfə verir.

İnsan kapitalına yönəlik investisiyaları maddi və qeyri-maddi olmaqla iki qrupa bölürlər: Maddi investisiyalar uşaqların doğulması, onların tərbiyəsi, habelə insanın formalaşması və inkişafı ilə bağlı xərclərdir. Qeyri-maddi investisiyalara ümumi təhsil və xüsusi hazırlıq, tibbi xidmət və s. daxildir. İnsan kapitalına yönəlik investisiyalar digər kapital formalarına qoyulan investisiyalardan daha çox fayda verir. Bu, ilk öncə, həmin investisiyaların məhsuldarlığın artmasına töhfə verməsi və buna görə insanın, onun işəgötürəninin və bütövlükdə cəmiyyətin gəlirini müəyyənləşdirməsi ilə bağlıdır.

İnsan kapitalına yönəlik investisiyalar müəyyən xüsusiyyətlərə malikdir, çünki onların qaytarılması insanın ömrünün uzunluğundan asılıdır və insana qoyulan hər investisiyanı insan kapitalına investisiya adlandırmaq olmaz. Məsələn, cinayət xarakterli tədbirlərlə bağlı fəaliyyətlərə xərclər insan kapitalına yönəlik investisiyalar deyil, çünki onlar sosial cəhətdən uyğun olmayan və cəmiyyət üçün zərərlidir. Bundan əlavə, insana yönəlik investisiyaların xarakteri və növləri milli, mədəni, tarixi xüsusiyyətləri və ənənələri ilə müəyyənləşdirilir. Hazırda bu sahədə dövlətin rolu kifayət qədər böyükdür. Dövlət bu sahədə məcburi və həvəsləndirici tədbirlərə əl atır. Məcburi tədbirlərə hər kəs üçün məcburi tibbi profilaktik tədbirlər (peyvəndlər), təhsilin orta məktəb səviyyəsində icbari olması və s. daxildir. Lakin əsas tədbirlər həvəsləndirici tədbirlərdir [5, s.165].

Ümumiyyətlə, insan kapitalı biliklər iqtisadiyyatının inkişafı üçün zəruri şərt, bilik və ideyaların yaranması isə iqtisadi inkişafın əsasını təşkil edir. Təhsil, sağlamlıq, tərbiyə, yaradıcılıq qabiliyyətlərinin inkişafı yüksək keyfiyyətli insan kapitalının formalaşması amilləridir ki, bu da gələcəkdə yüksək səviyyədə şəxsi və sosial gəliri və multiplikativ makroiqtisadi effekti təmin edəcəkdir. Multiplikativ effekti investisiyanın gözləniləndən daha çox məhsul verməsini təsvir edən bir anlayışdır [6, s. 12].

İnsan kapitalına yönəlik investisiyalardan investisiya effekti və istehlakçı effektı olmaqla iki növ effekti ayırd etmək olar. İnvestisiya effekti investisiya prosesi başa çatdıqdan sonra fərdin, müəssisənin və ya dövlətin əldə edə biləcəyi faydalarla əlaqələndirilir: artan məhsuldarlıq və qazanc, sağlamlıq vəziyyətinin yaxşılaşdırılması və s. İstehlakçı effekti investisiya prosesinin özündən faydalanmaqla əlaqələndirilir: təhsil və yeni biliklərin əldə edilməsi, sağlamlığın yaxşılaşdırılması və s. Deməli, insan kapitalı məqsədlərə çatmaq baxımından əsas resurslardan biri hesab oluna bilər.

İnsan kapitalının ölkə iqtisadiyyatının inkişaf faktoruna çevrilməsi məqsədilə yüksək texnologiyaların, təhsilin, elmin, elmi-tədqiqatların, mədəniyyətin və ümumən ETT-ni təmin edən hər şeyin inkişafına, fəaliyyətin genişləndirilməsinə önəmli dövlət investisiyaları lazımdır [7, s.16]. İnsan kapitalının formalaşması baxımından təhsil önəmli amildir və ona qoyulan investisiyalar gələcək gəlir mənbəyi kimi müəyyənləşdirilir. İnsan kapitalı nəzəriyyəsində belə bir fikir var ki, ən yüksək gəlir təhsilin ilk pillələrinə: məktəbəqədər, ibtidai, orta təhsilə sərmayə yatırdıqda baş verir. Təhsil İnsan kapitalının inkişafında önəmli rol oynayan təhsil, onun köhnəlməsinin qarşısını alır və ETT-yə uyğun olaraq yeni biliklərə, təkmil təlimlərə, bacarıqlara yiyələnmək yolu ilə zənginləşməni stimullaşdırır. Bu səbəblər fasiləsiz təhsil sisteminin formalaşdırılması və mütəmadi olaraq təkmilləşdirmənin zəruriliyini əsaslandırır. Dövlət təhsil sisteminin əsas sərmayəçisidir, çünki bu cür xərclər sosial cəhətdən faydalıdır. Yüksək təhsilli vətəndaşların olmasında təkcə fərd deyil, bütövlükdə cəmiyyət də faydalanır. Bəzi ölkələrdə nə peşəsi, nə də müvafiq ixtisası olmayan işləyən gənclərin sayı artır və buna görə onlar yalnız az maaşlı və ixtisassız vəzifələrdə işləyə bilirlər. Belə şəraitdə insan kapitalının formalaşdırılması və ya artırılması problemlərini həll etmək qeyri-mümkündür, çünki bu cür iş qabaqcıl təlim tələb etmir və xüsusi qiymətləndirilmir.

Qeyd edək ki, ölkəmizdə dövlət büdcəsindən təhsilə ayrılan xərclərin davamlı artdığını görmək olar. Belə ki, bu xərclərin həcmi 2015-ci ildə 1605,1

milyon AZN olduğu halda, 2023-cü ilə qədər 2519,7 milyon AZN və ya 2,6 dəfə artaraq 4124,8 milyon AZN təşkil etmişdir. Əgər 2015-ci ildə büdcə xərclərinin ümumi həcmində təhsil xərcləri 9,0%, 2020-ci ildə 10,5%, 2022-ci ildə 11,5% təşkil etdiyi halda, 2023-cü ildə 11,3% təşkil etmişdir. Ali təhsilə investisiya cəlb etməyin müxtəlif yolları var, lakin hamısı son nəticədə eyni müsbət effekt verir. Təhsilə investisiya qoymaq yalnız təlim seminarlarına pul xərcləmək deyil. Təhsilə qoyulan investisiyaları üç böyük qrupa bölmək olar.

Hesab edirik ki, müasir dövrümüzdə bilik iqtisadiyyatında mövcud bacarıqlardan səmərəli istifadə edib onları gəlirə çevirən qalib gəlir. Məhz buna görə məhsuldar qüvvəyə, ETT-nin inkişafının əsasına və onun əsasında istehsalın səmərəliliyinin artmasına çevrilən elmə diqqət artır. Yüksək texnologiyalı sənaye sahələrinə investisiyalar yüksək-ixtisaslı işçilərin potensialının toplanmasını, onların əmək məhsuldarlığının artırılmasını, enerji tutumunun azaldılmasını və məhsulun keyfiyyətinin yüksəldilməsini təmin edir. Elmi tədqiqatlara və ali təhsilə ayrılan xərclər, biliyə qoyulan sərmayələr insan kapitalının inkişafı, iqtisadi tərəqqi, peşəkar yaradıcılığın aktivləşdirilməsi, həyat səviyyəsinin yüksəldilməsi üçün həlledici amil hesab olunur. Deməli, iqtisadi siyasətdə dəyişikliklər tələb olunur ki, bunun da əsas istiqaməti insan kapitalının inkişafıdır.

Qloballaşma şəraitində elm və təhsilin sosial tərəqqi naminə artan roluna əsaslanan bilik iqtisadiyyatı sosial və iqtisadi inkişafın ən perspektivli modelinə çevrilir. Məhz buna görə dövlətin əsas prioritet vəzifəsi təhsilə, elmə, peşə hazırlığına, səhiyyəyə investisiyalar hesabına insan kapitalının inkişafı, gələcəkdə sabit makroiqtisadi effektin təmin edilməsi və qlobal çağırışlara operativ reaksiya verməkdir. İnsan kapitalının səmərəli şəkildə idarə olunması məqsədilə ETT-yə investisiya qoymaq insanların peşəkarlıq səviyyəsinin yüksəldilməsi baxımından zəmin yaradır. Belə ki, işçilərin iş yerində həvəsləndirilməsi, işin keyfiyyətinin yüksəldilməsi və idarəetmədə optimal təşkilati strukturun yaradılması üçün maddi və qeyri-maddi imkanların təklif edilməsi insan kapitalına yönəlik investisiyaların daha yüksək məhsuldarlıq gətirəcəyini nəzərdə tutur [8, s.94]. Səhiyyə sahəsindəki investisiyalar da qazanclı ola bilər, ancaq ümumiyyətlə belə bir layihənin qlobal xüsusiyyətini nəzərə alaraq, dövlət ümumiyyətlə onlarla məşğul olur. Çünki dövlət, millətin sağlam və səmərəli olmasını təmin etməkdə maraqlıdır. Səhiyyə sisteminə investisiyalar insan kapitalının inkişafına və qorunub saxlanmasına qoyulan investisiyalar kimi müəyyənləşdirilir, çünki onlar müsbət nəticələrə gətirib çıxarır və xəstələnmənin azaldılması, eləcə də həyatın məhsuldar dövrünün artırılması hesabına əhalinin əmək qabiliyyətinin saxlanmasında ifadə olunur.

İnsan kapitalının bu komponentlərinin keyfiyyətlərinin inkişafına və təkmilləşdirilməsinə qoyulan investisiyaların məcmusu cəmiyyət üzvlərinin potensialını artıra bilir. İnvestisiyalar və onların təhsil üçün effektivliyi məsələsi də dünya birliyində çox aktuallaşır. İnsan kapitalı problemi ilə bağlı tədqiqatların aparılması, insan kapitalına və xüsusən də təhsilə qoyulan investisiyaların qaytarılması son illərdə kifayət qədər adi hala çevrilib

Beləliklə, yuxarıda göstərilənlərə əsasən belə bir nəticəyə gələ bilərik ki, bu gün insan kapitalına investisiyalar ölkənin inkişafında ən vacib rol oynayır. Bunlarla bağlı olaraq bir qrup məsələləri ümumiləşdirmişik və onlara diqqət yetirilməsini vacib hesab edirik:

– İnsan kapitalına investisiyaların səmərəli istifadəsi üçün ölkənin inkişafındakı əsas meyilləri, iqtisadi və coğrafi vəziyyəti öyrənmək, həmçinin xarici mühiti təhlil etmək lazımdır;

– İnsanın özündən, işlədiyi müəssisə və şirkətlərdən, bütövlükdə cəmiyyətdən insan kapitalına xeyli xərc tələb olunur ki, bu xərcləri qarşılamaq üçün insan kapitalına davamlı investisiyalar tələb olunur;

– Unutmaq olmaz ki, insana qoyulan bütün investisiyaları insan kapitalına yönəlik investisiyalar kimi tanımaq olmaz, bu kapitala qoyulan investisiyalar, şübhəsiz ki, insan əməyinin dəyərinin artmasına, həm də bu investisiyalar iqtisadiyyatın transformasiyasında ən önəmli amilə çevrilir, iqtisadi artıma və bütün iqtisadi sistemin innovativ inkişafına səbəb olur;

– İnvestisiyaların inkişafı və cəlb edilməsi və iqtisadi inkişaf baxımından əlverişli mühit yaratmaq üçün işlərin bir hissəsi olaraq əsas investisiya risklərinin azaldılması, sərmayələrin cəlb olunmasına şərait yaradan normativ bazanın inkişafı və institusional tənzimləmə zəruridir;

– İnsan kapitalına investisiyaların cəlbediciliyinin artması ölkənin strateji inkişaf prioritetlərinin həyata keçirilməsini təmin edə biləcək amil kimi qiymətləndirilməlidir və s.

**Açar sözlər:** *insan kapitalı, insan amili, insan kapitalının inkişafı, investisiya qoyuluşu, insan kapitalına investisiyalar, insan kapitalına investisiyaların səmərəliliyinin qiymətləndirilməsi.*

## ƏDƏBİYYAT SİYAHISI:

1. *Булах, И.В. Человеческий капитал в условиях цифровой трансформации и экономики знаний / И.В. Булах, В.В. Сапунова // Стратегия устойчивого развития в антикризисном управлении экономическими системами: Материалы VII Международной научно-практической конференции, – Донецк, – 08 апреля 2021, – с. 356-362.*
2. *Mirisaev, A.A. Investments in human capital as basis for development modern economy / A.A. Mirisaev, Kh. Sh. Kakhramonov // Инженерный бизнес: Сборник материалов I международной научно-практической конференции в рамках 18-й Международной научно-технической конференции, Минск, 01–02 декабря 2020 года. – Минск: Белорусский национальный технический университет, 2021. – р. 152-155.*
3. *Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. – Bakı, 6 dekabr 2016.*
4. *Abdullayev, L.İ. İnsan kapitalından istifadənin səmərəliliyində investisiya-innovativ mexanizmlərin tətbiqi və statistikasının gücləndirilməsi istiqamətləri. Audit – 2019. № 4, Cild 26, – s.12 -23.*
5. *Ильясова, К.Х. Виды инвестиций в человеческий капитал и их эффективность / К.Х. Ильясова, З.К. Раджабова, М.С. Дадаева // Вестник Академии знаний. – 2021. № 42(1), – с. 164-166.*
6. *Манеров, Г.Н. Инвестиции в человеческий капитал - основа развития современной экономики / Г.Н. Манеров, Е.А. Денисенко // Инновационные технологии в машиностроении, образовании и экономике. – 2018. – Т. 13, № 1-1(7), – с. 11-14.*
7. *Гридин, А.И. Способы повышения эффективности инвестиций в человеческий капитал / А.И. Гридин // Евразийский союз ученых. – 2020. № 12-7(81), – с. 15-17.*
8. *Cəfərova N.B. İnsan kapitalı yaradıcılıq vasitəsi kimi. Audit, 2022, 3 (37), s. 93-102.*



**Айсель Бадалзаде**
***Докторант Азербайджанского государственного университета нефти и промышленности***
***E-mail: ayselbedelzade9@gmail.com***


**Оценка эффективности инвестиций в развитие человеческого капитала в Азербайджане**

**РЕЗЮМЕ**


В статье оценены проблемы и эффективность инвестирования в развитие человеческого капитала в Азербайджане. С этой целью определены и систематизированы приоритеты развития человеческого капитала. Обоснована важность формирования и развития человеческого капитала. Рассмотрены оценка человеческого фактора, эффективное использование интеллектуальных ресурсов и решающая роль человека в современном обществе и экономике. Была подчеркнута стратегическая важность инвестиций в обеспечении развития человеческого капитала. Даны предложения о роли и значении инвестиций в обеспечения развития человеческого капитала в Азербайджане в ближайшем будущем.



**Ключевые слова:** *человеческий капитал, человеческий фактор, развитие человеческого капитала, инвестиции, инвестиции в человеческий капитал, оценка эффективности инвестиций в человеческий капитал.*



**Aysel Badalzade,**
***Doctoral student of Azerbaijan State Oil and Industry University,***
***AZ 1010, Azadlig avenue. 34, Baku, Azerbaijan***
***E-mail: ayselbedelzade9@gmail.com***


**Assessing the effectiveness of investments in human capital development in Azerbaijan**

**SUMMARY**


The article assesses the problems and efficiency of investing in human capital development in Azerbaijan. For this purpose the priorities of human capital development are defined and systematised. The importance of formation and development of human capital in modern times has been substantiated. Evaluation of human factor, effective use of intellectual resources, decisive role of man in modern society and economy are considered. The strategic importance of sustainable investment in ensuring human capital development was emphasised and assessments were made in this regard. Suggestions were made on the role and importance of investments in order to ensure human capital development in Azerbaijan in the near future.



**Keywords:** *human capital, human factor, human capital development, investment, investment in human capital, assessment of human capital investment efficiency.*

UOT: 332.14:336.02:336.531.2
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0126

# AZƏRBAYCANIN POSTKONFLİKT ƏRAZİLƏRİNDƏ İNVESTİSİYA-MALİYYƏ MEXANİZMLƏRİNİN İNKİŞAF ETDİRİLMƏSİ YOLLARI

**FATİMƏ MUSAYEVA**
*Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin doktorantı*
*E-mail: fatima.musayevam@gmail.com*

Qeyd edək ki, müasir şəraitdə postkonflikt ərazilərin uğurlu bərpası məsələləri xüsusilə aktuallaşır. Postkonflikt ərazilərin bərpası onların işləmə rejiminin yaradılmasını nəzərdə tutur, burada dövlət istehsalın inkişafı və normal yaşayış üçün şərait yaradır. Həmin ərazilərin bərpasında əsas iştirakçı və əlaqələndirici subyekt və iqtisadi siyasətdə dəyişikliklərin təşəbbüskarı dövlətdir. Bu ərazilərin bərpası üçün yüksək keyfiyyətli institusional iqlim, əlçatan maliyyə-investisiya mənbələri və islahatların mərhələli şəkildə reallaşdırılması önəmli amillər hesab olunur. Postkonflikt ərazilərin bərpası probleminə elmi ictimaiyyətin marağı iqtisadi nəzəriyyənin "postkonflikt dövrdə iqtisadi inkişaf nəzəriyyəsi" adlanan yeni inkişaf istiqamətində öz əksini tapmışdır. Bu nəzəriyyə çərçivəsində tədqiqatların köməyi ilə postkonflikt dövrdə bütövlükdə ölkələrin iqtisadiyyatının və ya onların ayrı bir sektorunun iqtisadi potensialını bərpa etmək və gücləndirmək üçün az və ya çox dərəcədə uğurlu ola biləcək strategiyalar hazırlanır. "Postkonflikt ərazilər" termini məkan planlaşdırılması prinsiplərini dəqiqləşdirmək məqsədi ilə dövriyyəyə daxil edilmişdir. Belə ərazilərə bərpa dövründə xüsusi yanama olmalı və bununla bağlı xüsusi bərpa proqram və strategiyaların hazırlanması tələb olunur [1, s.55]. Postkonflikt ərazilərin bərpası proqramlarının reallaşdırılmasında əsas məqsəd həmin əraziyə köçürüləcək əhali üçün iş yerləri yaratmaq, təhsil, tibbi xidmət, mənzil və təhlükəsizliklə bağlı əsas ehtiyaclarını ödəməkdir.

Hesab edirik ki, Azərbaycanda postkonflikt ərazilərin yenidən qurulması və inkişafı ölkə iqtisadiyyatına əlavə töhfə verə bilər. Postkonflikt ərazilərin səmərəli bərpası ölkənin iqtisadi imkanlarını genişləndirmək üçün əlavə resurslar yaradacaq, xüsusən də regional iqtisadi inkişafa yeni metodoloji və praktiki yanaşmalar formalaşacaqdır. Bu məqsədlə xaricdən investisiya cəlb etmək də zəruridir, lakin öncə, ölkəmiz öz iqtisadi gücünə, maliyyə-investisiya potensialına xüsusi diqqət yetirməlidir [2, s.255]. Postkonflikt ərazilərin maliyyə-investisiya potensialı onların ümumi maliyyə-investisiya imkanlarını ifadə edir, idarəetmə prosesində maliyyə-investisiya resurslarına çevrilir və həmin ərazilərin inkişaf məqsədlərinə nail olunmasına, sosial-iqtisadi inkişaf səviyyəsinin yüksəldilməsinə, eləcə də ərazinin investisiya cəlbediciliyinə imkan verir. Maliyyə-investisiya potensialının həcminə və strukturuna çoxlu sayda amillər təsir edir: istehsalın artım tempi və ərazinin inkişaf dərəcəsi; kənd təsərrüfatı, xammal və sənaye sahələrinin üstünlük təşkil etdiyi istehsalın ərazi tərkibi; milli gəlirin bölüşdürülməsi sahəsində investisiya strategiyası və siyasəti; maliyyə-kredit sisteminin inkişafı və s.

Postkonflikt ərazilərin inkişafı üçün müxtəlif konsolidə edilmiş proqram və proqnozlar hazırlanmalı, bunun üçün ilkin mərhələdə maliyyə-investisiya potensialının müəyyənləşdirilməsi zəruridir. Həmin proqram və proqnozlar dövlətin maliyyə-investisiya siyasəti çərçivəsində hazırlanmalı və reallaşdırılmalıdır. Məlumdur ki, milli iqtisadiyyatın inkişafı və bu inkişafın davamlı olmasından ötrü münbit şəraitin yaradılması ölkənin investisiya-maliyyə fəaliyyətindən və investisiya-maliyyə siyasətindən asılıdır. İnkişafın davamlılığına nail olmaq üçün investisiya və maliyyə bazarlarını inkişaf etdirmək, investisiyaların səmərəliliyini təmin etmək, cəlbediciliyi problemlərini həll etmək, xüsusən də xarici investisiyaları stimullaşdıran mühit yaratmaq lazımdır [3, s.26]. Maliyyə-investisiya siyasətinin məqsəd və vəzifələri maliyyə-investisiya planlaşdırması prosesində hazırlanır. Maliyyə-investisiya planlaşdırması maliyyə-investisiya resurslarının tarazlaşdırılmasına və mütənasibliyinə yönəlmiş fəaliyyətdir. Maliyyə-investisiya planlaşdırması mərhələsində maliyyə-investisiya alətlərinin çeşidi müəyyənləşdirilir, maliyyə-investisiya resurslarının səfərbər edilməsi və istifadəsi üçün metodoloji prinsiplər, konkret metod və üsullar hazırlanır. Maliyyə-investisiya planlaşdırmasının əsas obyekti planda kəmiyyət ifadəsini əldə edən maliyyə-investisiya əlaqələri hesab olunur [4, s.15]. Maliyyə-investisiya planlaşdırılması sistemində əsas yer büdcə vəsaitlərinin hərəkətini, onun formalaşdırılması və istifadəsinin forma və üsullarını, gəlir və xərclərin strukturunu əks etdirən büdcə planlaşdırılmasına verilir.

Maliyyə-investisiya planlaşdırılması sistemi maliyyə-investisiya resursları mənbələrinin strukturunun dəyişməsində konkret əlaqələri və uzunmüddətli meyilləri, habelə gələcəkdə bu sahələrin inkişafını xarakterizə edən amilləri aşkar etməyə imkan verir.

Fikrimizcə, hər hansı bir ərazinin maliyyə-investisiya potensialı istifadə edilib-edilməməsindən asılı olmayaraq, onların sərəncamında olan müxtəlif növ resursların mövcudluğundan asılıdır və bu resurslar qiymətləndirilməlidir. Postkonflikt ərazilərin maliyyə-investisiya potensialının formalaşmasına ekoloji və təbii resurs komponentləri, makroiqtisadi parametrlər, investisiya sahələri və obyektləri, habelə iqtisadi inkişaf səviyyəsi önəmli dərəcədə təsir göstərir. Bu təsirlərin müsbət effekt verməsi üçün postkonflikt ərazilərin inkişafına imkan verəcək maliyyə-investisiya potensialı səmərəli şəkildə idarə olunmalıdır. Maliyyə-investisiya potensialının idarə edilməsi sistemi bir qrup mərhələləri əhatə edir: regionun maliyyə-investisiya potensialının mövcud səviyyəsinin diaqnostikası, onun formalaşmasında problemlərin müəyyənləşdirilməsi; regionun maliyyə-investisiya potensialının formalaşmasında prioritetlərin müəyyənləşdirilməsi; qarşıya qoyulmuş məqsədlərə nail olmağa imkan verən hədəflərin müəyyənləşdirilməsi; daxili və xarici resursların səfərbər edilməsinin əsas istiqamətlərinin müəyyənləşdirilməsi, borc vəsaitlərinin yeni mənbələrinin axtarışı; maliyyə-investisiya potensialının idarə edilməsi strategiyasının elementlərinin formalaşdırılması. Demək olar ki, maliyyə-investisiya potensialı ilk öncə, ərazinin maliyyə-investisiya resurslarının formalaşdırılması imkanları ilə bağlıdır. Hazırda Azərbaycanda postkonflikt ərazilərin maliyyə-investisiya resurslarına olan tələbatının ödənilməsi ümumi məqsədə - əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılmasına yönəlmiş və bu, davamlı inkişafa nail olmaq üçün bütün səviyyələrdə dövlət və yerli özünüidarəetmə orqanlarının büdcə-vergi münasibətləri ilə təmin edilir. Maliyyə-investisiya mexanizmi vasitəsilə proseslərin özünü stimullaşdıran inkişaf proseslərini işə salmaq və sistemin bütün məkanında onların intensivliyini artırmaq mümkündür.

Qeyd edək ki, 10 dekabr 2021-ci il tarixində ölkə Prezidentinin "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" imzaladığı Sərəncamı həmin ərazilərdə investisiya-maliyyə mexanizmlərinin səmərəli tətbiqinə imkan verməkdədir. Həmin sərəncamda işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi, bu ərazilərdə ekoloji baxımdan təmiz texnologiyalar tətbiq edən, yaşıl inkişafa kömək edə biləcək və bərpa olunan enerji mənbələrindən istifadə edən investorlara bu sahədə zəruri dövlət dəstəyinin gücləndirilməsi, investisiya-maliyyə mexanizmlərinin tətbiqinin təkmilləşdirilməsi əsas prioritetlər kimi göstərilmişdir [5]. İşğaldan azad edilmiş ərazilərində investisiya-maliyyə mexanizmlərinin gücləndirilməsində ölkə Prezidenti tərəfindən 2 fevral 2021-ci il tarixində təsdiqini tapmış və 2030-cu ilə qədər dövrü əhatə milli prioritetlərlə bağlı sərəncam da önəmli rola malikdir. Bu sərəncamda birbaşa xarici investisiyaların, o cümlədən infrastruktur sahələrinə strateji investorların milli iqtisadiyyata cəlb edilməsinə, habelə ölkənin milli maraqlarının qorunmasına və xarici investorlar üçün rəqabət mühitinin yaradılmasına, investisiyaların səmərəli tənzimlənməsinə diqqətin artırılması əsas vəzifələr kimi müəyyənləşdirilmişdir [6].

Postkonflikt ərazilərin dirçəldilməsi prosesinin sürətləndirilməsi və sosial-iqtisadi inkişafı məqsədləri nəzərə alınmaqla maliyyə təminatının və investisiyaların cəlb edilməsinin zəruri mexanizmlərinin həlli istiqamətində təsirli və səmərəli tədbirlər reallaşdırılmalı, həmin ərazilərin bərpası və inkişafı ilə məşğul olan yerli və xarici şirkətlərin və müəssisələrin fəaliyyəti üçün şəffaf və stimullaşdırıcı investisiya və innovasiya mühiti təmin edilməli, bu ərazilərdə fəaliyyətlərin davamlı maliyyələşdirilməsi mexanizmləri yaradılmalı, faydalı qazıntı ehtiyatlarının hasilatı və emalına kompleks yanaşmanı təmin etmək üçün mədənçıxarma sənayesinin profilləri əsasında sənaye klasterləri yaradılmalıdır [7, s.284].

Postkonflikt ərazilərdə maliyyə-investisiya mexanizminin inkişafının intensivləşdirilməsi xeyli dərəcədə investisiyaların səmərəli şəkildə cəlb edilməsindən və onların tənzimlənməsi səviyyəsindən də asılıdır. İnvestisiyaların cəlb edilməsi tədbirlərini tənzimləmək məqsədilə inzibati üsullardan, o cümlədən normativ hüquqi aktlardan istifadə olunur. Normativ hüquqi aktlar kreditlərin, subsidiyaların, lisenziyaların və kvotaların verilməsini tənzimləyir. Ölkəyə investisiya cəlb etmək və onun inkişafına nəzarət etmək üçün iqtisadi üsullardan istifadə olunur. Dolayı investisiya siyasəti tədbirlərinə proqnoz proqramları, ərazinin iqtisadi inkişafının planlaşdı-

rılması, vergi və kredit tədbirlərinin reallaşdırılması (vergi dərəcələrinin azaldılması, imtiyazlar) daxildir. Birbaşa iqtisadi üsullara investisiyaların cəlb edilməsini, dövlət və özəl investisiyaların nisbətinin dəyişdirilməsini və s. aid etmək olar [8, s.441].

Azərbaycanın postkonflikt ərazilərindən olan Qarabağ və Şərqi Zəngəzur bölgələrinə cəlb olunan investisiyaların sahələr üzrə bölgüsünü təhlil edək. Qarabağ bölgəsinə 2023-cü ildə 2254399,8 min manat dəyərində investisiya yönəldilib ki, bunun 70,0%-i xidmət sahələrinə, 22,7%-i məhsul istehsalına, 7,3%-i isə yaşayış evlərinin tikintisinə yönəldilib. 2023-cü ildə 2020-ci ilə görə xidmət sahələrinə yönəlik investisiyaların həcmi 10,6 dəfə, məhsul istehsalına yönəldilənlər 7,6 dəfə, yaşayış evlərinin tikintisinə yönəldilənlər isə 3,8 dəfə artmışdır. Şərqi Zəngəzur bölgəsinə isə 2023-cü ildə 4011124,5 min manat dəyərində investisiya yönəldilib ki, bunun 53,5%-i xidmət sahələrinə, 44,2%-i məhsul istehsalına, 2,3%-i isə yaşayış evlərinin tikintisinə yönəldilib [9]. 2023-cü ildə 2021-ci ilə görə xidmət sahələrinə yönəlik investisiyaların həcmi 2,5 dəfə, məhsul istehsalına yönəldilənlər 18,1 dəfə, yaşayış evlərinin tikintisinə yönəldilənlər isə 313,1 dəfə artmışdır.

İnvestisiya fəaliyyətinin davamlı artımına nail olmaq məqsədilə mütərəqqi milli strategiyanın hazırlanması və reallaşdırılması zəruridir. Ölkənin inkişaf üçün investisiya strategiyasının prioritet istiqamətləri sənaye, maliyyə və sosial infrastruktur sahələrində mütərəqqi struktur dəyişikliklərinin başlanması və reallaşdırılmasıdır. Postkonflikt ərazilərdə investisiya cəlbediciliyinin artırılması üçün dövlət tərəfindən uzunmüddətli investisiya layihələrində sahibkarların faydalı iştirakına yönəlmiş tədbirlər kompleksinin təmin edilməsinə də ehtiyac vardır. Postkonflikt ərazilərin dinamik inkişafı prioritetlər sistemini müəyyənləşdirmədən həmin ərazilərdə yerləşən əhali ilə yanaşı, müəssisə və təşkilatların, dövlət orqanlarının fəaliyyətlərinin ardıcıllığını təmin etmədən mümkün deyil. Sosial-iqtisadi inkişafın yuxarıda qeyd olunan məsələlərinin həlli postkonflikt ərazilərdə maliyyə-investisiya mexanizminin inkişafının intensivləşdirilməsini və təkmilləşdirilməsini tələb edir. Postkonflikt ərazilərdə maliyyə-investisiya mexanizminin inkişafının intensivləşdirilməsi məqsədilə müvafiq strategiyanın hazırlanması zəruridir.

Postkonflikt ərazilərdə maliyyə-investisiya mexanizminin inkişafının intensivləşdirilməsi strategiyası regional məqsədlərə nail olmaq mexanizmindən ən rasional, optimal və səmərəli istifadəni təmin edən maliyyə-investisiya sisteminin inkişafı modelidir. Bu strategiya dövlətin balanslaşdırılmış maliyyə-investisiya siyasətinin reallaşdırılmasının əsas alətlərindən biridir. Bu strategiyanı reallaşdırarkən postkonflikt ərazilərin sosial-iqtisadi inkişaf məqsədlərinə nail olmaq üçün tədbirlərin hazırlanması üzrə strateji təhlilin aparılması, daxili və xarici amillərin hərtərəfli öyrənilməsi və onların təsirinin müəyyənləşdirilməsi böyük önəm daşıyır. Postkonflikt ərazilərdə maliyyə-investisiya mexanizminin inkişafının intensivləşdirilməsi strategiyası çərçivəsində görülən tədbirlər həmin ərazilərin maliyyə sabitliyinin bərpasına, maliyyə-investisiya axınlarının intensivləşdirilməsinə və gələcək inkişafın təmin edilməsinə yönəlmiş tədbirlərdir. Özəl investorların cəlb edilməsi maliyyə yükünün yenidən bölüşdürülməsinə kömək edər, bu, dövlətdən əlverişli rejim yaratmağı tələb edir. Dövlət və özəl investorlar arasında uğurlu əməkdaşlıq zamanı elə innovativ inkişaf yolu seçilməlidir ki, bu yolla ərazilərin mövcud potensialını tam olaraq reallaşdırmaq mümkün olsun.

Postkonflikt ərazilərin maliyyələşdirilməsində xarici donor təşkilatları, beynəlxalq maliyyə institutları və potensial xarici investorlarla məsləhətləşmələr aparmaq, onların hansı həcm və miqyasda iştirakı formalarını müəyyənləşdirmək lazımdır. Bu qurumların bərpa işlərinin maliyyələşdirilməsində iştirakı məqsədli və subsidiyalaşdırılmış qrantlardan tutmuş uzunmüddətli güzəştli kreditlərə, birbaşa və portfel investisiyalara qədər müxtəlif formalarda ola bilər.

Hazırda dövlət-özəl əməkdaşlıq platforması postkonflikt ərazilərdə maliyyə-investisiya mexanizminin inkişafının intensivləşdirilməsi üçün mühüm vasitədir. Məhdud büdcə resursları və aktual sosial-iqtisadi problemlərin həlli zərurəti şəraitində xüsusilə vacibdir. Postkonflikt ərazilərdə maliyyə-investisiya mexanizmlərinin inkişafının intensivləşdiriməsi baxımından dövlət-özəl əməkdaşlıq layihələrinin səmərəli və uğurla reallaşdırılması məqsədilə respublikada hakimiyyət orqanları öz səylərini gücləndirməlidir. Dövlət-özəl əməkdaşlığının inkişafı üçün şərait səmərəli qanunvericilik bazasının, regionda effektiv strateji planlaşdırma sisteminin olması, bu mexanizmin inkişafı üçün güclü idarəetmə orqanlarının olması, layihələrin idarə edilməsi metodologiyasından istifadə və dövlət-özəl əməkdaşlığının bütün iştirakçılarının

səmərəli qarşılıqlı fəaliyyəti zəruri şərtdir. Dövlət-özəl əməkdaşlıq mexanizmi çərçivəsində reallaşdırılan tədbirlər kompleksi postkonflikt ərazilərdə investisiya proseslərinin aktivləşdirilməsi üçün səmərəli sosial-iqtisadi siyasətin formalaşdırılmasına imkan verəcəkdir.

Beləliklə, bizə görə postkonflikt ərazilərin maliyyə-investisiya mexanizminin inkişafının intensivləşdirilməsinin əsas istiqamətləri bunlar ola bilər:

- Postkonflikt ərazilərin inkişaf strategiyasının prioritetlərinə uyğun olaraq maliyyə-investisiya mexanizminin inkişafının intensivləşdirilməsi üçün əlverişli mühitin formalaşdırılması;
- Postkonflikt ərazilərdə maliyyə-investisiya mexanizminin inkişafının intensivləşdirilməsi strategiyasının hazırlanması və reallaşdırılması;
- Postkonflikt ərazilərdə təsərrüfat fəaliyyətinin bütün sahələrinin maliyyə-investisiya mənbələri ilə hərtərəfli əhatə olunmasına və ərazi subyektlərinin təsərrüfat müstəqilliyinin bərqərar olmasına yönəlmiş regionun resurs təminatının optimallaşdırılması;
- Regional və yerli səviyyədə qanunvericilik və icra hakimiyyəti orqanlarının işinin məhsuldarlığının və şəffaflığının artırılması;
- Postkonflikt ərazilərin öz resurs bazasının genişləndirilməsi məqsədilə stimulların inkişafı;
- Risk amillərinin və qeyri-müəyyənliyin ərazinin maliyyə-investisiya mexanizminə təsirinin azaldılması və neytrallaşdırılması elementlərinin formalaşdırılması;
- Ərazidə fəaliyyət göstərən ev və fermer təsərrüfatlarının və sahibkarlıq subyektlərinin dövriyyə və əsas kapitalının fasiləsiz maliyyələşdirilməsi məqsədilə regional bank-kredit sisteminin formalaşdırılması və kredit cəlbediciliyinin artırılması və s.

**Açar sözlər:** *Azərbaycan, postkonflikt ərazilər, investisiyalar, maliyyə, investisiya-maliyyə mexanizmi, investisiya-maliyyə resursları, investisiya cəlbediciliyi, maliyyə mənbələri.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Глухова, Е.А. Экономический и социальный аспект восстановления постконфликтных территорий / Е.А. Глухова // Сборник научных работ серии "Экономика". – 2023. № 29, – с. 52-60.*

*2. Əliyev, Ş.T. Qarabağ regionunda bərpa və dirçəliş proseslərinin aktual aspektləri. Regional iqtisadiyyat: Müasir aspektlər və aktual məsələlər adlı Respublika elmi konfransının materialları. – Sumqayıt, – 22–23 aprel 2021, – s. 253-256.*

*3. Mahmudova, L.F. Azərbaycanda strateji innovasiya fəaliyyətinin investisiya-maliyyə təminatının aktual məsələləri. Audit – 2019. № 4, Cild 26, – s.24-36.*

*4. Гуркин, О.В. Совершенствование финансового механизма как способ обеспечения развития экономики страны / О.В. Гуркин, М.А. Сирош // Образование и наука без границ: социально-гуманитарные науки. – 2016. № 5, – с. 12-16.*

*5. İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. – Bakı, – 10 dekabr 2021.*

*6. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı.*

*7. Алиев, Ш.Т. Актуальные проблемы и объективные реалии мирового опыта в восстановлении освобожденных от оккупации территорий / Ш.Т. Алиев, Л.А. Меликова // Развитие науки и практики в глобально меняющемся мире в условиях рисков: сборник материалов IX Международной научно-практической конференции, – Москва, – 28 марта 2022, – с. 277-286.*

*8. Махиев, З.З. Содержание региональной системы привлечения инвестиций / З.З. Махиев // Скиф. Вопросы студенческой науки. – 2019. № 5-1(33), – с. 436-442.*

*9. ARDSK: [Elektron resurs]/ URL: https://www.stat.gov.az/source/regions/.*

**ФАТИМА МУСАЕВА**
***Докторант Азербайджанского Государственного Университета Нефти и Промышленности***
***E-mail: fatima.musayevam@gmail.com***

## Пути развития инвестиционно-финансовых механизмов в постконфликтных территориях Азербайджана

### РЕЗЮМЕ

В статье рассматриваются проблемы разработки и внедрения инвестиционных и финансовых механизмов на постконфликтных территориях Азербайджана. Проанализированы и обобщены вопросы эффективной организации инвестиционно-финансовых механизмов. Была

рассмотрена решающая роль инвестиционных и финансовых механизмов в продуктивном использовании природных и экономических ресурсов постконфликтных территорий. Были освещены проблемы и пути решения финансирования инвестиционных проектов, реализуемых в постконфликтных регионах. Даны предложения по совершенствованию инвестиционных и финансовых механизмов в проектах и мероприятиях по интенсификации Великого Возвращения в постконфликтные регионы в ближайшем будущем.

**Ключевые слова:** *Азербайджан, постконфликтные территории, инвестиции, финансы, инвестиционно-финансовый механизм, инвестиционно-финансовые ресурсы, инвестиционная привлекательность, финансовые источники.*

**FATIMA MUSAYEVA**
***Doctoral student at Azerbaijan State Oil and Industry University***
***E-mail: fatima.musayevam@gmail.com***

**Ways of development of investment and financial mechanisms in post-conflict zones of Azerbaijan**

**SUMMARY**

The article examines the problems of development and implementation of investment and financial mechanisms in the post-conflict territories of Azerbaijan. The issues of effective organization of investment and financial mechanisms are analyzed and generalizations are made. The decisive role of investment and financial mechanisms in the productive use of natural and economic resources of post-conflict territories was considered. The problems and solutions of financing investment projects implemented in post-conflict regions were highlighted. Proposals were put forward to improve investment and financial mechanisms in projects and events to intensify the Great Return to post-conflict regions in the near future.

**Keywords:** *Azerbaijan, post-conflict territories, investments, finances, investment and financial mechanism, investment and financial resources, investment attractiveness, financial sources.*

UOT: 338.431:338.43.4
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0132

# QLOBAL KONTEKSTDƏ AQRAR SEKTORDA SAHİBKARLIQ FƏALİYYƏTİNƏ NƏZƏRİ YANAŞMALAR

**SEVDA HACIYEVA**
*Azərbaycan Dövlət Aqrar Universitetinin dosenti*
*E-mail: sevda.haciyeva70@mail.ru*

XXI əsrin əvvəllərindən başlayaraq Azərbaycanda bazar iqtisadiyatının əsas prinsiplərinin təmin olunması istiqamətində həyata keçirilən məqsədyönlü islahatlarla birlikdə sahibkarlıq strategiyası bütün fəaliyyət sferalarını əhatə etmiş və onun inkişaf xüsusiyyətlərində əsas məqamlar ortaya çıxmışdır. İlk növbədə, dövlət dəstəyinin zəruriliyi ilə xarakterizə olunan aqrar sektorda sahibkarlıq fəaliyyətinin davamlılığı və inkişaf istiqamətləri iqtisadiyyatın digər sahələri ilə müqayisədə əsaslı şəkildə fərqlənmişdir. Bu aspektdə son 20 ildə aqrar sahənin istehsal strukturunun formalaşması və inkişafı daha çox investisiya qoyuluşlarının səviyyəsindən asılı olmuşdur. Təsadüfi deyil ki, investisiya qoyuluşları əsasında özünün inkişaf yoluna qədəm qoyan kənd təsərrüfatında son illər xüsusilə kiçik və orta ölçülü təsərrüfatların inkişafı üçün imkanlar nəzərəçarpacaq dərəcədə yüksəlmişdir. Müvafiq dövrdə dövlət aqrar sahədə dəstəyə daha çox ehtiyac duyan rəqabətqabiliyyətli məhsul istehsalında öncüllük təşkil edən kiçik və orta ölçülü təsərrüfatlar başda olmaqla bütün istehsal subyektlərinin inkişafında mühüm rol oynamışdır [1].

Hesab edirik ki, aqrar sahədə sahibkarlıq fəaliyyətinin dayanıqlı inkişafının təmin olunması məqsədilə dövlət bir qrup məsələlərin həllini prioritetlik səviyyəsinə qaldırmışdır: 1) aqrar sahədə sahibkarlıq fəaliyyətinin formalaşması üçün institusional bazanın təşəkkülü; 2) aqrar sahədə sahibkarların gəlirlərinin artırılması istiqamətində dövlət tənzimlənmə tədbirlərinin həyata keçirilməsi; 3) aqrar sferada təminatlı qiymət siyasətinin tətbiq sahələrinin genişləndirilməsi; 4) aqrar sahədə kiçik və orta sahibkarlığın maliyyə təminatının yaxşılaşdırılması istiqamətində dövlət tərəfindən subsidiyaların verilməsi və maliyyə yardımının göstərilməsi; 5) aqrar bazarda tənzimlənmə mexanizminin təkmilləşdirilməsi; 6) aqrar sahə məhsulları bazarının lokal bazarlarla yanaşı, beynəlxalq bazarlara inteqrasiyasının gücləndirilməsi; 7) aqrar sahədə fəaliyyət göstərən təsərrüfatlara, xüsusilə kiçik və orta ölçülü biznes subyektlərinə güzəştli kreditlərin verilməsi mexanizminin təkmilləşdirilməsi; 8) aqrar sektorda əhalinin məşğulluq səviyyəsinin dövlət tərəfindən tənzimlənməsi və s.

Fikrimizcə, son illər aqrar sektorda məhsul istehsalı ilə məşğul olan təsərrüfat subyektləri təsərrüfatlarda məhsuldarlığı artırmaq, ölkənin daxili istehlak bazarını müvafiq məhsullarla təmin etmək və beynəlxalq bazarlara rəqabətqabiliyyətli məhsulları ixrac etmək strateji məqsədə çevrilmişdir. 2015-2024-cü illəri əhatə edən dövrdə ölkəmizdə xeyli fermer təsərrüfatlarında məhsuldarlıq səviyyəsi əvvəlki illərlə müqayisədə yüksəlmişdir. Xüsusilə, ölkə üçün strateji məhsullardan olan taxıl istehsalında məhsuldarlıq səviyyəsi son illərin ən yüksək səviyyəsinə qalxaraq, təqribən 20-25% artmışdır.

Əldə olunmuş bu yüksək nəticələrin fonunda dövlət kənd təsərrüfat istehsalının daha da inkişafına təkan verəcək bir qrup məsələləri daha çox diqqət mərkəzində saxlamışdır:

- aqrar sahədə istehsal olunan məhsulların keyfiyyətinin və rəqabətqabiliyyətliliyinin yüksəldilməsi;
- aqrar sahədə idxalı əvəz edən məhsul istehsalının intensivləşdirilməsi;
- kənd təsərrüfatı məhsullarının elektron uçot sisteminin yaradılması;
- yerli istehsalçıların dünya bazarlarına çıxışını asanlaşdırmaq məqsədilə azad iqtisadi zonaların yaradılması və s.

Aqrar sahənin potensial imkanlarından yüksək səviyyədə istifadə etmək məqsədilə kənd təsərrüfatı istehsalında yeni struktur dəyişikliklərinin baş verməsinə ərazi əmək bölgüsü sisteminin genişləndirilməsinə və iqtisadi rayonlar üzrə məhsuldar qüvvələrin optimal səviyyədə yerləşdirilməsinə diqqət yetirilmişdir. Məhz bunun nəticəsidir ki, son 20 ildə dövlət kənd təsərrüfatında fəaliyyət göstərən sahibkarları torpaq vergisi istisna olmaqla bütün vergilərdən azad etmiş, faiz dərəcələrini aşağı salmaqla onların maliyyə təminatının genişləndirilməsi baxımından güzəştli kreditlər verilmişdir.

Hesab edirik ki, iqtisadiyyatın digər sahələri ilə müqayisədə kənd təsərrüfatında çalışan işçilərin gəlirləri kifayət qədər yüksək olmadığına görə aqrar sektorun dövlət tərəfindən dəstəklənməsi və onun

tənzimlənməsi məsələləri prioritetlərdən hesab olunur. Belə ki, dövlət tərəfindən həyata keçirilən əhəmiyyətli tənzimlənmə tədbirləri nəticəsində aqrar sahədə fəaliyyət göstərən gəlirləri elə səviyyədə olmalıdır ki, onların kənd təsərrüfatı istehsalı ilə məşğul olmalarında maraqları yüksək olsun. Aqrar sahədə çalışan sahibkarlıq subyektlərinin gəlirlərinin azlığı sahənin çoxşəxəli inkişafına bilvasitə mənfi təsir göstərir. Aqrar sahənin dayanıqlı inkişafı ölkə iqtisadiyyatının bütün mərhələlərində, xüsusilə sahibkarların fəaliyyəti daima dövlətin diqqət mərkəzində olmuşdur.

Bizə görə, aqrar sahədə sahibkarlıq fəaliyyətinin inkişafının iqtisadi əhəmiyyəti ilə yanaşı sosial mahiyyəti də düzgün qiymətləndirilməlidir. Ölkə iqtisadiyyatının çoxşaxəliliyinin təmin olunması istiqamətində aqrar sahibkarlığın artan önəmi ilə bərabər onun siyasi sabitlik və cəmiyyətin demokratik inkişafının təminatı olan geniş mülkiyyətçilər sinfinin formalaşmasında rolu danılmazdır, məşğulluğun təmin olunması, əhalinin rifah səviyyəsinin yüksəlməsi, sosial gərginlik səviyyəsini azaldır, ölkə əhalisinin çox hissəsinin yaşadığı kənddə əhalinin ictimai psixologiyasını və həyat oriyentirlərini müsbət istiqamətdə dəyişməsinə mübət töhfələr verir. Aqrar sahədə təsərrüfat fəaliyyətinin inkişafına təkan verən səmərəli biznes mühitinin yaradılması kiçik və orta sahibkarlıq subyektləri başda olmaqla bütün sahibkarların normal fəaliyyətinin təşkilində müsbət rol oynayan hüquqi baza, iqtisadi mexanizmlərin təkmilləşdirilməsini də şərtləndirir. Hesab edirik ki, bütün bu müsbət tendensiyalarla birlikdə sahibkarların cəmiyyətdə rolunun artırılması, onlarda sosial məsuliyyət hissinin formalaşması baxımından biznes fəaliyyətində etik dəyərlər korporativ məsuliyyət anlayışını aşılayan tədbirlərin xüsusilə aqrar sahədə fəaliyyət göstərən sahibkarlar üçün təşkili əhəmiyyətli ola bilər.

Bunlarla bərabər, aqrar sektorda sahibkarlıq fəaliyyətinin səmərəli təşkili geosiyasət və dünya iqtisadiyyatında baş verən dəyişiklikləri nəzərə almadan aparılması mümkün deyildir. Bu baxımdan, dünya iqtisadiyyatında aqrar sahənin inkişafı kontekstində baş verən mütərəqqi yeniliklər ölkəmizin aqrar sahəsində fəaliyyət göstərən sahibkarlar üçün də nümunə olmalıdır. Aqrar istehsalın inkişafında rol oynayacaq mütərəqqi yeniliklərin tətbiqi istiqamətdə yaranmış çətinliklərin aradan qaldırılmasında dövlət öz imkanlarını səfərbər etməklə yanaşı kənd təsərrüfatı istehsalında əhatəli bilgilərə sahib olan xarici investorların potensialından da maksimum səmərə ilə istifadə etməlidir. Aqrar sektorda kiçik və orta biznesin inkişafı üçün bir tərəfdən, istehsalın perspektiv texnologiyalarla bağlı milli sektorlarının möhkəmlənməsinə imkan yaratmaqla yanaşı innovativ texnologiyaların və nou-hauların aqrar istehsala cəlb olunması bu aspektdə qiymətləndirilməlidir.

Qeyd edək ki, son illər aqrar sahədə strateji əhəmiyyət kəsb edən bir sıra məhsullarının istehsalı dövlət tərəfindən sahibkarlara sifariş verilir. Həmin məhsulların içərisində üzüm, pambıq, taxıl, tütün digər məhsullarla müqayisədə xüsusi çəkiyə malikdirlər. Qeyd olunan məhsullara dövlət tərəfindən müəyyən olunmuş təminatlı qiymət siyasəti həyata keçirilir və burada əsas məqsəd istehsalçıların təşviq olunmasıdır. Hazırda kənd təsərrüfatı məhsullarının qiymətlərinin müəyyənləşdirilməsində bu sahədə qabaqcıl hesab olunan dünya ölkələrinin təcrübəsindən geniş istifadə olunur. Məlumdur ki, bu sahədə qiymət disparitetinin mövcudluğu sahibkarların gəlirlərinin azalmasına və məhdud səviyyədə mənfəət əldə edilməsinə zəmin yaradır. Bu prosesə kənd təsərrüfatında fəaliyyət göstərən inhisarçı təşəbbüsləri daha çox öz mənfi təsirini göstərir. Bu məqsədlə dövlət kənd təsərrüfatı məhsullarının qiymətlərini tənzimləmək üçün qiymətlərin “müdafiəsinə” ayrılmış büdcə vəsaitlərindən istifadə edir.

Müasir dövrdə dövlət tərəfindən həyata keçirilən aqrar siyasətin əsas məqsədi iqtisadiyyatın şaxələndirilməsi və sahibkarlığın bütün formalarının hərtərəfli inkişafını təmin etməyi hədəfləyir. Liberal iqtisadiyyatın inkişafı şəraitində biznes subyektlərinin fəaliyyətinin tənzimlənməsi əsasən dövlət tərəfindən iqtisadi metodlar ilə həyata keçirilməlidir. Bunun üçün dövlətin iqtisadi vasitələrlə tənzimləmə siyasətinin konseptual elmi-nəzəri əsaslarının işlənib hazırlanması və onun yerli şəraitə uyğunlaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Sahibkarlıq fəaliyyətinin iqtisadi vasitələrlə tənzimlənməsi, ilk növbədə biznes və investisiya mühitinin yaxşılaşdırılmasını və sahibkarlıq subyektlərinə dövlət dəstəyinin həyata keçirilməsini təşkil edir.

Fikrimizcə, dövlətin makroiqtisadi tənzimləmə alətləri ilə maliyyə bazarını o cümlədən bazar infrastruktur sisteminin mühüm sahələrinin tənzimlənməsi rəqabət mühitinin inkişafına və antiinhisar mexanizminin təkmilləşdirilməsinə xidmət

edir. Aqrar sahədə istehsalın çoxşaxəliliyinin təmin olunması qeyri-neft sektorunun inkişafında xüsusi rol oynayır. Belə ki, sahə üzrə rəqabətqabiliyyətli və ixracyönümlü məhsul istehsalının artırılması kənd təsərrüfatının ölkəyə yüksək dividend qazandıran xaricdən ölkəmizə daha çox valyuta gətirən bir sahəyə çevrilməsi, regionlarda sahibkarlıq fəaliyyətinin inkişafına və stimullaşdırılmasına imkan yaratmışdır. Aqrar sahədə müşahidə olunan inkişaf dinamikası bu sahəyə iqtisadi marağı əhəmiyyətli dərəcədə yüksəltmiş, kənd təsərrüfatı üzrə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin fəaliyyət imkanlarının genişlənməsinə təsir edən güzəştli kreditlərin verilməsini və ondan səmərəli istifadə olunması mexanizminin təkmilləşdirilməsini şərtləndirərək kommersiya banklarının bu istiqamətdə daha da fəallaşmasını intensivləşdirmişdir [2]. Aqrar sahədə iqtisadi fəaliyyət subyektlərinin inkişafına zəmin yaradan əlverişli investisiya mühitinin formalaşdırılması davamlı iqtisadi inkişafın təmin olunması ilə yanaşı ölkənin istehlak bazarında yerli istehsalın xüsusi çəkisinin artmasına və ərzaq təminatının yaxşılaşdırılmasına əlverişli şərait yaradır [3]. Cəmiyyətdə dövlət və istehsal subyektləri arasında səmərəli qarşılıqlı əlaqələrin formalaşdırılması, biznes qurumlarının fəaliyyətinə əlverişli şəraitin yaradılması, yerli və xarici kapitalın strateji sahələrdən olan aqrobiznesə cəlb edilməsi, makroiqtisadi tənzimləmə vasitələrinin tətbiq səviyyəsinin genişləndirilməsi ilə qarşılıqlı surətdə əlaqədardır.

Azərbaycanın aqrar sektorunda sahibkarlıq subyektlərinin normal fəaliyyətinin təmin olunması, əlverişli və azad biznes mühitinin formalaşması və inkişafı ilə bilavasitə bağlıdır [4]. Belə ki, azad münasibətlər şəraitində aqrobiznesdə bütün sahibkarlıq subyektlərinin bir-birindən tədric olunmuş şəraitdə deyil, liberal biznes mühitində qarşılıqlı asılılıqda (vəhdətdə) optimal səviyyədə fəaliyyətləri elə qurulur ki, sahibkarların hər birinin bu sahə üzrə müstəqil fəaliyyəti və mövqeyi müəyyən edilmiş olsun. Ölkəmizin aqrar sektorunda kiçik və orta sahibkarlıq fəaliyyətinin normal gedişi üçün qətiyyətli iqtisadi siyasət həyata keçirilməlidir ki, son illər bu istiqamətdə dövlətimiz tərəfindən çox vacib, elmi əsaslara söykənən addımlar atılır. Ölkədə mövcud olan iqtisadi, sosial-mədəni və siyasi mühit, rəqabət şəraitinin inkişafına sahibkarlıq subyektlərinin fəallığına və onların mövqelərinə birbaşa təsir göstərir [5]. Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin inkişafı dövlət tərəfindən həyata keçirilən iqtisadi siyasətin başlıca istiqamətlərindən biri olmaqla, regionların sosial-iqtisadi inkişafında, əhalinin iqtisadi və sosial problemlərinin həllində, cəmiyyətdə mikroiqtisadi sabitliyin qorunmasında və daha da möhkəmləndirilməsində ən əsas amillərdən hesab olnur. Bu istiqamətdə son illlər respublikada makroiqtisadi sabitliyin təmin olunması məqsədi ilə həyata keçirilən islahatlar iqtisadi sahələrin mümkün qədər diversifikasiyasını yüksəltməyə və biznes sferasından asılı olmayaraq sahibkarlıq fəaliyyətinin inkişafına əlverişli mühit yaratmışdır.

Azərbaycanda hər bir vətəndaşın iqtisadi hüququ ən ali səviyyədə Azərbaycan Respublikasının Konstitutsiyasında təsbit olunmuşdur. Ölkədə biznes subyektlərinin inkişafı üçün vacib olan hüquqi baza yaradılmış, hər bir sahə üzrə iqtisadi subyektlərin fəaliyyət prinsipləri və hüquqi öhdəliklərinin təsbit olunması məqsədilə yaradılmış müvafiq normativ hüquqi aktlar mütəmadi olaraq beynəlxalq standartların səviyyəsinə uyğun şəkildə təkmilləşdirilmişdir. Azad iqtisadi münasibətlərin intensiv xarakter alması ilə birlikdə ölkədə biznes mühitinin inkişafı məqsədilə bazar infrastrukturunun bütün sahələrinin təkmil mexanizmi formalaşdırılmışdır. Regionlarda sahibkarlıq fəaliyyətinin inkişafı məqsədilə investisiya cəlbediciliyinin artırılması və iqtisadi subyektlərin fəallığının yüksəldilməsi istiqamətində bir sıra mühüm tədbirlər (güzəştli vergi, kredit və s.) həyata keçirilmişdir. Məhz bunun üçün son illər respublikanın rayonlarında iqtisadi subyektlərin ödədikləri vergi ödənişlərinin miqdarı əhəmiyyətli dərəcədə yüksəlmişdir. Baxmayaraq ki, respublikada fəaliyyət göstərən biznes subyektlərinin 85 %-i Bakı və Abşeron yarımadasında fəaliyyət göstərir.

Hazırki iqtisadi şəraitdə Azərbaycan Respublikasında biznes subyektlərinin inkişafı yalnız həmin sahibkarların fəaliyyət dairəsinin genişləndirilməsi ilə bağlı deyil, həm də onların bütün imkanlardan səmərəli istifadə etməklə, ölkənin sosial, iqtisadi və intellektual inkişafının reallaşdırılması, iqtisadi təhlükəsizliyin bir qədər də möhkəmləndirilməsi ilə sıx bağlıdır.

Sahibkarlıq fəaliyyətinin inkişafında mühüm amillərdən biri də əmək bazarının strukturuna müsbət təsir göstərməsidir. Bazar münasibətlərinin inkişafı şəraitində iqtisadi fəal əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində demoqrafik mühitin nəzərə alınması ölkədə məşğulluq səviyyəsinin

müəyyən olunmasına imkan verir. Bazar iqtisadiyyatında fəaliyyət göstərən iqtisadi subyektlərin iqtisadi maraqları hər zaman ön ümdə məqsəd olaraq qalmaqdadır [6]. İctimai tələbatı ödəmək məqsədilə məhsul və xidmətlərin istehsalı sahibkarlara yüksək mənfəət qazanmalarına səbəb olur. Sahibkarlar da, öz növbəsində, cəmiyyətin problemlərinə biganə olmamalı onların həllində müəyyən töhfələr verməlidir. Sahibkarlıq subyektlərinin inkişafı işsiz olan əmək qabiliyyətli insanların əmək bazarında iş tapmaq imkanlarını da artırmış olur. Bilindiyi kimi, Azərbaycan Respublikasında iqtisadi fəal əhalinin təqribən 40% aqrar sahədə fəaliyyət göstərir. Bu amil regionlarda biznes sahələrinin dayanıqlı inkişafını şərtləndirməklə yanaşı paytaxtdan kənarda insanların sosial-iqtisadi rifahının yaxşılaşdırılmasını da zərurətə çevirir [7].

İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin təcrübəsindən yanaşsaq, iqtisadi inkişafın davamlılığını əks etdirən əsas meyarlardan biri iqtisadi diversifikasiyanın təmin olunması istiqamətində innovativ istehsal sahələrinin təşkil edilməsidir. Hazırda Azərbaycan iqtisadiyyatının fundamental inkişafının təmin olunması istiqamətində neft amilinin iqtisadiyyata təsirinin mümkün qədər azaldılması və bunun yeni istehsal sahələrinin inkişafı hesabına həyata keçirilməsi əsas vəzifələrdən biri kimi qarşıda durur. Təsadüfi deyil ki, ölkəmizdə aqrar sektorda sahibkarlıq subyektlərinin inkişaf potensialı real sektorun imkanlarının artırılmasında prioritet məsələlərdən hesab olunur. Bazar münasibətlərinə keçdikdən sonra Azərbaycan iqtisadiyyatında sahibkarlıq fəaliyyətinin təşəkkülü və tarixi inkişaf mərhələlərində dövlət kənd təsərrüfatında fəaliyyət göstərən sahibkarlıq qurumlarının təşviqi istiqamətində mərhələli şəkildə çox vacib addımlar atılmışdır. 1999-cu ilin yanvar ayının 1-dən kənd təsərrüfatında məşğul olan istehsal subyektlərinin torpaq vergisi istisna olmaqla bütün vergilərdən azad olunması, bundan başqa onların maliyyə imkanlarının artırılmasında güzəştli kreditlərin verilməsi, maddi-texniki resurslara olan ehtiyaclarının qarşılanması məqsədilə aqroservis xidmətlərinin ildən-ilə artırılması, subsidya verilmə mexanizminin sadələşdirilməsi və bu qəbildən olan bir sıra məqsədyönlü tədbirlər aqrobiznes sferasına sahibkarlıq subyektlərinin marağın artırılmasına xidmət edən mühüm təşviq elementləri kimi xarakterizə oluna bilər.

Beləliklə, aqrar sektorda sahibkarlıq subyektləri arasında rəqabət üstünlüklərinin formalaşdırılması üsulları kimi – daha aşağı qiymətə (qiymət rəqabəti) və istehlakçıların ehtiyaclarını daha yaxşı ödəmək qabiliyyətinə malik keyfiyyətli məhsulun təklif olunması (qeyri-qiymət rəqabəti) yolu ilə müəyyən etmək olar və bunlarla bağlı bir qrup məsələlərin, amillərin diqqətdə saxlanılması vacibdir:

- Qeyd olunan proseslərdə qiymət və qeyri-qiymət rəqabəti metodlarını cəmləşdirən kombinə olunmuş üsulun istifadəsi daha səmərəli hesab olunur;
- Kiçik və orta sahibkarlıqla bağlı rəqabət üstünlüklərindən danışarkən xüsusi vurğulamaq lazımdır ki, sahibkar, ilk növbədə, həm istehsalda müasir texnologiyalardan istifadə etməlidir, eyni zamanda bazarın mənimsənilməsi üçün optimal marketinq strategiyasını tətbiq etməlidir;
- Aqrar sahə müəssisələrinin fəaliyyət sferasında rəqabət üstünlüklərinin yaradılmasının göstərilən üsulları çərçivəsində müəyyən edilmişdir ki, ilk növbədə, diqqət rəqabət mübarizəsinin gerçəkləşdirilməsi zamanı başlıca rolu ən güclü aləti kimi innovasiyaların tətbiqinin oynadığı qeyri-qiymət metodlarına yönəldilməlidir;
- Aqrar sahə müəssisələrinin yalnız xarici mühitdə aşkarlanmış mühüm irəliləyişlər onun şəxsi rəqabət qabiliyyətini deyil, həm də fəaliyyət göstərdiyi ölkə və ya regionun rəqabət qabiliyyətinin vacibliyini müəyyən etmişdir;
- Bununla əlaqədar olaraq, firmanın rəqabət qabiliyyətliliyi amillərini beynəlxalq şirkətlərin təcrübəsinə əsaslanmaqla nəzərdən keçirmək tövsiyə olunur və s.

**Açar sözlər:** *Qlobal çağırışlar, aqrar sektor, kənd təsərrüfatı, sahibkarlıq, sahibkarlıq subyektləri, sahibkarlıq fəaliyyəti, aqrobiznes, aqrar sektorda sahibkarlığın səmərəlilik problemləri.*

## ƏDƏBİYYAT SİYAHISI:


1. *Ataşov, B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri / B.X.Ataşov. – Bakı: Kooperasiya, – 2017. – 536 s.*
2. *Səmədzadə, Z.Ə. Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. – Bakı, 2010, – 228 s.*
3. *Kərimov, E.N. Azərbaycanda təsərrüfat subyektlərinin istehsal fəaliyyətinin inkişaf problemləri / E.N.Kərimov – Bakı, 2012. – 284 s.*
4. *Əmrahov, V.T. Aqromarketinq / V.T.Əmrahov, A.Z.Qasımova, A.F.Həsənov –Bakı: Mütərcim, – 2014. – 108 s.*
5. *Qafarov, N.C. Aqrar sahədə kiçik və orta biznesin iqtisadi səmərəliliyi / N.C.Qafarov. – Bakı, 2006. – 112 s.*
6. *Şəkərəliyev, A.Ş. Dövlətin iqtisadi siyasəti: dayanıqlı və davamlı inkişaf təntənəsi / A.Ş.Şəkərəliyev. – Bakı, – 542 s.*
7. *Verdiyev, Ə.Ç. Aqrar bazann formalaşmasının iqtisadi problemləri / Ə.Ç.Verdiyev, İ.Ş.Qarayev – Bakı, 2014. – 256 s.*



**СЕВДА ГАДЖИЕВА**
***доцент Азербайджанского Государственного Аграрного Университета***
***E-mail: sevda.haciyeva70@mail.ru***


### Теоретические подходы к предпринимательству в аграрном секторе в глобальном контексте


**РЕЗЮМЕ**

В статье рассматриваются теоретические подходы к предпринимательской деятельности в аграрном секторе в глобальном контексте. Проанализирована и оценена стратегическая роль аграрного сектора в экономике страны. Обоснована важность создания инфраструктуры переработки продукции, выращиваемой в различных областях сельского хозяйства. Приоритетное внимание уделяется развитию предпринимательства в аграрной сфере. Изучена роль субъектов малого и среднего предпринимательства в интенсификации развития аграрного сектора. В условиях современных глобальных вызовов даны различные рекомендации и предложения в направлении повышения эффективности предпринимательской деятельности в аграрном секторе.



**Ключевые слова:** *глобальные вызовы, аграрный сектор, сельское хозяйство, предпринимательство, субъекты предпринимательства, предпринимательская деятельность, агробизнес, проблемы эффективности предпринимательства в аграрном секторе*



**SEVDA GAJIEVA,**
***Associate Professor of Azerbaijan State Agrarian University,***
***E-mail: sevda.haciyeva70@mail.ru***



**SUMMARY**

Theoretical approaches to entrepreneurship in the agricultural sector in a global context

The article examines theoretical approaches to entrepreneurial activity in the agricultural sector in a global context. The strategic role of the agricultural sector in the country's economy is analyzed and assessed. The importance of creating an infrastructure for processing products grown in various areas of agriculture is substantiated. Priority attention is paid to the development of entrepreneurship in the agricultural sector. The role of small and medium-sized businesses in intensifying the development of the agricultural sector has been studied. In the context of modern global challenges, various recommendations and proposals have been given in the direction of increasing the efficiency of business activities in the agricultural sector.



**Keywords:** *Global challenges, agricultural sector, agriculture, entrepreneurship, business entities, entrepreneurial activity, agro-industrial complex, problems of business efficiency in the agricultural sector.*

UOT: 336.01: 336.7
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0135

# AZƏRBAYCANDA BANKLARIN KREDİT PORTFELİNİN MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

**LALƏ ŞAHBAZOVA**
*Lənkəran Dövlət Universitetinin dissertantı*
*E-mail: shahbazova1995@gmail.com*

Qeyd edək ki, bankların kredit siyasətinin onların fəaliyyətinin və bütövlükdə ölkə iqtisadiyyatının inkişafına təsiri artmaqdadır. Bankın kredit siyasəti bank kreditinin hərəkəti ilə sıx bağlıdır. Bütün banklar üçün vahid kredit siyasəti yoxdur. Hər bir konkret bank fəaliyyət göstərdiyi regionun iqtisadi, siyasi, sosial vəziyyətini, daha doğrusu, müəyyən bir bankın fəaliyyətinə təsir göstərən bütün xarici və daxili risklər nəzərə alaraq öz kredit siyasətini müəyyənləşdirir. Kredit siyasətinin düzgün işlənməsi bankların kredit resurslarının səmərəli istifadəsinə yönəldilməlidir. Çünki, kredit resursları bankların əsas gəlir mənbəyidir. Kredit resursları kommersiya banklarının balanslarının passiv hissəsində ifadə olunan və kreditlərin verilməsi prosesində istifadə etdikləri ümumi resursların bir hissəsidir. Kredit resurslarının yerləşdirilməsi şərtləri kreditlərin toplanması, verilməsi qaydası və forması ilə müəyyənləşdirilir.

Məlumdur ki, bankların kreditləşməsi prosesində kredit portfeli formalaşır. Müəyyən şərtlərlə fiziki və hüquqi şəxslərə verilən kreditlər və avanslar kredit portfelini təmsil edir. Kreditlərin verilməsi kommersiya banklarının ən çox gəlir əldə etdiyi fəaliyyətdir. Kommersiya bankları inkişafının hər mərhələsində fiziki və hüquqi şəxslərə kreditlər verərkən müəyyən risklərlə qarşılaşa biləcəyini başa düşürlər [1, s.46]. Ona görə onlar optimal kredit portfelini formalaşdırmaq kimi önəmli bir vəzifəni yerinə yetirməyi qarşılarına məqsəd kimi qoyurlar.

Müasir dövrdə istənilən bankın optimal kredit portfelinin formalaşdırılması əsas vəzifələrindən və problemlərindən biridir. Belə bir kredit portfeli kredit resurslarının toplanması və bölüşdürülməsi, müəyyən şərtlər və məbləğlər daxilində verilmiş kreditlərin mövcud kredit resurslarına uyğun olması, onlar üzrə rentabellik səviyyəsinin maksimum və risk dərəcəsinin minimum məqbul səviyyəyə olduğu kredit portfelidir. Optimal kredit portfelinin formalaşdırılması bazar şəraitində kommersiya bankının əsas məqsədidir, çünki kredit portfeli bank üçün əsas gəlir mənbəyi və habelə aktivlərin yerləşdirilməsində əsas risk mənbəyi kimi çıxış edir. Bankın kredit fəaliyyətində uğur o zaman əldə edilir ki, bank rəhbərliyi kredit portfelini effektiv idarə edə bilsin [2, s.77]. Odur ki, banklarının kredit portfelinin təhlili və düzgün qiymətləndirilməsi əsas prioritetlərdən hesab olunur.

Bankların kredit portfelinin təhlili və düzgün qiymətləndirilməsi onların səmərəli şəkildə idarə edilməsində əsas mərhələlərdən hesab olunur. Bank təşkilatını uğurla idarə etmək üçün təkcə kredit resurslarını daim toplamaq deyil, onları məharətlə idarə etmək də vacibdir. Bununla belə, mövcud resurslardan istifadənin mövcud vəziyyətinin və səmərəliliyinin daimi monitorinqi və təhlili olmadan maliyyə idarəetməsinin hər hansı elementini idarə etmək mümkün deyil. Bankların kredit portfelinin idarə edilməsində əsas məqsəd bank üçün ən az riskli borcalanlara kreditlərin verilməsidir. Bankların kredit portfelinin idarə edilməsi prosesi işin ən önəmli hissəsidir, çünki onların bütün maliyyə-təsərrüfat fəaliyyətinin səmərəliliyi həmin prosesin effektivliyindən asılıdır. Habelə, bankların kredit portfelinin idarə edilməsi təkcə onun həcminin artırılmasından deyil, strukturunun optimallaşdırılmasından və keyfiyyətinin yüksəldilməsindən ibarətdir [3, s.101].

İstifadə olunan kredit resursları bankların müştərilərinə verilmiş kreditləri əks etdirir. Bununla əlaqədar olaraq, bankın kredit resurslarından istifadənin qiymətləndirilməsi prosesində seçilmiş kredit siyasətinin reallaşdırılmasının bank üçün nə dərəcədə sərfəli olduğunu, cari kreditin reallaşdırılmasından gəlirlərin əldə edilib-edilməməsini hesablamaq və təhlil etmək lazımdır. Bu fəaliyyət sahəsinə hər hansı bir düzəliş etmək lazımdırmı? Cari kredit resurslarından istifadədən artan faydaların gizli mənbələri hansılardır? və s. kimi suallara cavab tapmaq olar. Bankın kredit portfeli ilə bağlı bir sıra ixtisaslaşdırılmış göstəricilərin hesablanması və təhlili də verilən suallara cavab verməyə kömək edir. Aktiv əməliyyatların təhlilinin bu aspekti bir çox idarəetmə problemlərinin həllini nəzərdə tutur ki, bunlardan bir qrupunu fərqləndirmişik:

- kredit portfelinin formalaşmasına və onun dina-

mikasına önəmli dərəcədə təsir edən əsas amillərin müəyyənləşdirilməsi;

- kredit portfelinin strukturunun qiymətləndirilməsi (risk səviyyəsi, borcalanların kateqoriyası, verilmiş kreditlərin təminat dərəcəsi və s. üzrə);
- kredit portfelinin risk səviyyəsinin müəyyənləşdirilməsi;
- bankın kredit qoyuluşlarının diversifikasiyasının qiymətləndirilməsi;
- kredit portfelinin rentabelliyinin müəyyənləşdirilməsi [4, s. 34].

Bankın kredit portfelinin müxtəlif keyfiyyət və kəmiyyət xüsusiyyətlərinə uyğun təhlilinin aparılması önəmlidir. Belə bir təhlilini rolu müştəriləri daha da cəlb etmək üçün onun səmərəli idarə edilməsindən ibarətdir. Kəmiyyət təhlili kredit portfelinin struktur və tərkibinin öyrənilməsini nəzərdə tutur. Belə təhlil borcalanların müxtəlif qrupları üçün kredit qoyuluşlarının üstünlük verilən sahələrini, kreditlərin ödənilməsi tendensiyalarını və onların gəlirliliyini müəyyənləşdirməyə kömək edir. Kəmiyyət təhlili müxtəlif iqtisadi göstəricilərə görə zamanla bankın kredit portfelinin struktur və tərkibini öyrənməyi nəzərdə tutur və kredit qoyuluşlarının üstünlük verilən sahələrini, kreditlərin inkişafı və ödənilməsi tendensiyalarını və onların gəlirliliyini müəyyənləşdirməyə imkan verir. Bankın kredit portfelinin kəmiyyət təhlili daha çox maliyyə əmsallarına və göstəricilərin dəyərlərindəki dəyişikliklərin təhlilinə əsaslanır.

Hər bir qrup üzrə göstəricilər toplusuna iqtisadi ədəbiyyatlarda rast gəlinir. Bununla belə, bizim nöqteyi-nəzərimizdən bu göstəricilərin siyahısı kifayət qədər dardır və bankın kredit portfelinin səmərəliliyini və ondan istifadənin rasionallığı vəziyyətini sistemli şəkildə qiymətləndirməyə imkan vermir. İlk növbədə, bankın kredit portfelini təhlil edərkən, bankın aktivlərində kredit qoyuluşlarının ümumi payını hesablamaq məqsədəuyğundur. Bu göstərici aşağıda təqdim olunan düstur əsasında hesablanır.

$$K_a = \frac{K_q}{A_b} \times 100\%$$

Burada $K_a$ - bankın aktivlərində kredit qoyuluşlarının xüsusi çəkisi;

$K_q$- bankın kredit qoyuluşları (xalis kreditlər və kredit təşkilatlarındakı vəsaitlər);

$A_b$ - bankın aktivlərinin ümumi dəyəridir.

Bu göstərici 1 manat bank aktivinə nə qədər kredit borcunun düşdüyünü əks etdirir. $K_a$ - göstəricisi nə qədər yüksək olarsa, bankın kredit aktivliyi bir o qədər yüksək olar. Lazım gələrsə, bankın aktivlərində kredit qoyuluşlarının orta illik xüsusi çəkisini hesablamaq olar, bu məqsədlə aktivlərin və kredit qoyuluşlarının orta illik dəyərlərindən istifadə olunur. Bu göstərici təhlil edilən dövr ərzində bankın kredit qoyuluşlarında və aktivlərində baş vermiş dəyişiklikləri daha dəqiq müəyyənləşdirməyə imkan verir və aşağıda göstərilən düstura uyğun hesablanır.

$$KA_o = \frac{KQ_o}{A_o} \times 100\%$$

$KQ_o$ - bankın kredit qoyuluşlarının orta illik dəyəri;

$A_b$- bankın aktivlərinin orta illik dəyəridir.

Kredit qoyuluşlarının bankın aktivlərində ümumi payı və ya kredit qoyuluşlarının bankın aktivlərində orta illik xüsusi çəkisi hesablandıqdan sonra müəyyən dövr ərzində bankın kredit qoyuluşlarının dinamikasını təhlil etmək məqsədəuyğundur. Bunun üçün aşağıdakı düstura diqqət yetirək.

$$K_q = \frac{K_{q.i.s}}{K_{q.i.ə}} \times 100\%$$

Göstərici 100%-dən çox olarsa, bu, kredit portfelinin artımını göstərir və müsbət qiymətləndirilir. Lakin bankın kredit fəaliyyətinin səviyyəsi 80%-dən yuxarıdırsa və verilən kreditlərin artım tempi 100%-dən yuxarıdırsa, bu o deməkdir ki, kredit portfeli yüksək bank riskləri yaradır ki, bu da kreditlərin mümkün qaytarılmaması və onlar üzrə faizlərin ödənilməməsi ilə bağlıdır

Verilmiş kreditlərin artım tempi 100%-dən az olduqda, onda bu, bankın əsas fəaliyyətində mənfi fakt sayıla bilər, çünki belə bir dəyər kredit portfelinin, bankın kredit bazarındakı payının və bankın rəqabət qabiliyyətinin azalmasından xəbər verir. Kredit portfelinin kəmiyyət qiymətləndirilməsi ilə yanaşı, keyfiyyət təhlili də tələb olunur ki, onun məqsədi kredit portfelinin risk dərəcəsini müəyyənləşdirməkdir. Kredit portfelinin keyfiyyət xüsusiyyətlərinə əsasən kreditləşmə prinsiplərinə uyğunluğu və kredit əməliyyatlarının risk dərəcəsini qiymətləndirmək mümkündür. O, bankda risk dərəcəsini qiymətləndirir və menecerlərə kredit əməliyyatlarını effektiv idarə etməyə imkan verir. Keyfiyyət təhlili zamanı aşağıdakılar baş verir: verilmiş kreditlərin həcminin müəyyənləşdirilməsi; verilmiş kreditlərin ümumi həcmi arasında təminatsız və ya problemli kreditlərin müəyyənləşdirilməsi; vaxtı keçmiş kreditlərin məbləğini əks etdirən xüsusi qrafikin qurul-

ması və s. [5, s.60]. Bankın kredit portfelinin təhlili üçün keyfiyyət kateqoriyaları üzrə bankın kredit borcunun təhlili xüsusi önəm daşıyır. Bu struktur təhlili kontekstində kreditlərin aşağıdakı növləri fərqləndirilir: I qrup - standart kreditlər – 40%; II qrup - qeyri-standart kreditlər – 30-60%; III qrup - şübhəli kreditlər – 20%; IV qrup - problemli kreditlər - 5%-dən çox olmayan; V qrup - ümidsiz kreditlər - 1%-dən çox olmayan.

Azərbaycanda bankların kredit portfelinin mövcud vəziyyətini qiymətləndirmək üçün, ilk öncə, onun strukturunu təhlil etmək lazımdır. Bunun üçün şəkil 1-ə diqqət yetirək.




**Şəkil 1. Azərbaycanda bankların kredit portfelinin strukturu (Mənbə: Mərkəzi Bankın statistik məlumat bazası əsasında tərtib edilib).**

Şəkil 1-dən görürük ki, bankların kredit portfelinin həcminin davamlı artımı baş verib. Kredit portfelinin əsas hissəsini biznes kreditləri təşkil edir. Belə ki, 2023-cü ildə onların həcmi ümumi kredit portfelinin 54,4%-ni təşkil etmişdir. İstehlak və ipoteka kreditləri isə müvafiq olaraq 29,9 və 15,7% təşkil etmişdir.

Kredit riski borcalanın öz öhdəliklərini yerinə yetirməkdən imtina etməsi və ya defolt halında yaranır. Defolt borclunun texniki və ya müvəqqəti olmayan səbəblərə görə kreditor qarşısında müqavilə öhdəliklərini yerinə yetirə bilməməsidir. Bank təcrübəsində hətta defolt riski də fərqləndirilir. Defolt, yəni ödəməmə riski borc alanın kreditin əsas məbləği, faizlər və kredit müqaviləsinin digər şərtləri ilə bağlı öhdəliklərini yerinə yetirə bilməməsidir. Kredit verilməzdən əvvəl nəzərə alınan kredit riskindən fərqli olaraq, borcun ödənilməməsi riski kredit artıq verildikdən sonra qiymətləndirilir. Beləliklə, borc alanın krediti qaytara bilməməsi riski yaranır [6, s.31]. Bu kimi problemləri nəzərə alaraq, bankların sahibkarlıq subyektləri üzrə kredit portfelinin təminatlılıq səviyyəsinin qiymətləndirilməsi də böyük maraq doğurur.

Məlumdur ki, kommersiya bankının fəaliyyətinin ən mühüm meyarlarından biri bankın maliyyə sabitliyinə və etibarlılığına bilavasitə təsir edən kredit portfelinin keyfiyyətidir. Kredit portfelinin keyfiyyəti bank və onun borcalanları və digər maliyyə-kredit təşkilatları arasında idarəetmə və təşkilatlanma keyfiyyəti ilə xarakterizə olunur, həmçinin bütövlükdə kredit sistemini xarakterizə edir. Kredit fəaliyyətinin daha dərin və hərtərəfli təhlilinə imkan verən bankın kredit portfelinin keyfiyyətinin qiymətləndirilməsinin vahid metodologiyasının olmaması kredit risklərinin idarə edilməsinin əsas problemlərindən biridir. Kredit portfelinin keyfiyyət göstəricisi kreditləşmə prosesinin təşkili səviyyəsinin ən mühüm xüsusiyyətlərindən biridir.

Kredit portfelinin keyfiyyətcə qiymətləndirilməsinin aparılması nəzərdə tutur: qiymətləndirmə meyarlarının müəyyənləşdirilməsi; kredit portfelinin elementlərinin və seqmentlərinin keyfiyyətinin qiymətləndirilməsi yolunun tapılması; maliyyə əmsalları sistemi əsasında bütövlükdə kredit portfelinin effektivliyinin qiymətləndirilməsi [7, s.12]. Risklərin minimuma endirilməsi və mənfəətin artırılması baxımından optimal kredit portfelinin formalaşmasını və cəlb olunmuş vəsaitlərin maksimum gəlirliliyini təmin etmək üçün kommersiya bankları kredit üçün müraciət edən şəxsin kreditqaytarma qabiliyyətliliyi üzrə ilkin qiymətləndirilməsini d' aparır. Məsələn, borcalanın krediti ödəmək ehtimalını qiymətləndirmək yolu ilə əsas borcun və faizin ödənilməməsi riskini önəmli dərəcədə azaltmaq olar. Bu, hazırda kredit vəsait cəlb etmək üçün məhşur vasitədir.

Beləliklə, bankların kredit portfelinin təhlilinin və düzgün qiymətləndirilməsinin bu və ya digər üstünlüklərini nəzərə alaraq, onun yaxşılaşdırılması istiqamətlərini təklif edə bilərik:

- təcrübi bacarıqları elmi işlərlə birləşdirərək bankın kredit fəaliyyətinin inkişafına balanslaşdırılmış yanaşmanın tətbiqi vacibdir;
- bankın kredit portfelinin səmərəliliyinin artırılması baxımından, planlaşdırma, keyfiyyət və rentabelliyin təhlili, qiymətləndirilməsi və nəzarəti üsullarını və alətlərini birləşdirən kompleks mexanizmin hazırlanması tələb olunur;

- kreditlərin bir neçə iri borcalan arasında cəmləşməsinin qarşısının alınması siyasətinin həyata keçirilməsi və yarana biləcək risklərin bölüşdürülməsi zərurəti vardır;
- bankın kredit potensialının artırılması, kreditləşmənin inkişafı üçün ən sabit və dayanıqlı vəsait mənbələrinin müəyyənləşdirilməsi məqsədilə resurs bazasının monitorinqi aparılmalıdır;
- iqtisadiyyatda baş verən dəyişikliklərə uyğun olaraq kredit məhsullarının səmərəli çeşidinin formalaşdırılmasına ehtiyac vardır;
- kredit portfelinin strukturuna və onun keyfiyyət tərkibinə daimi nəzarətin gücləndirilməsinə zərurət yaranır;
- kreditlərin verilməsinin hər bir mərhələsində nəzarətin gücləndirilməsi və bankdaxili prosedurlara ciddi riayət olunması mütləq şərtlərdəndir;
- kredit dəstəyi mərhələsində verilən kreditlərin keyfiyyətinin qiymətləndirilməsi üzrə tədbirlər kompleksi reallaşdırılmalıdır;
- kreditlərin restrukturizasiyasının təmin edilməsi baxımından, borcluya daha yumşaq şərtlərlə kredit verməklə, onun ödəmə qabiliyyətini yaxşılaşdırmaq mümkündür;
- yaradılmış kredit ehtiyatından istifadə etməklə, balansda olan borcun silinməsi imkanları yaranır və s.

Beləliklə, bankların kredit portfelinin təhlilinin və düzgün qiymətləndirilməsinin bu və ya digər üstünlüklərini nəzərə alaraq onun yaxşılaşdırılması üzrə təklif olunan tövsiyələr toplusu onların kredit fəaliyyətinin aşağı risk və məqbul gəlirlilik nisbətinin saxlanmasına, habelə kredit portfelinin bu məqsədlə vaxtında monitorinqinə və vaxtı keçmiş borcların erkən aşkarlanmasına əsaslanır.

**Açar sözlər:** *banklar, kredit portfeli, kredit portfelinin təhlili, kredit portfelinin qiymətləndirilməsi, kredit riskləri, kredit ehtiyatları.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Багаева, Н.Ю. Оценка качества кредитного портфеля коммерческого банка / Н. Ю. Багаева // Актуальные вопросы современной экономики. – 2023. № 12, – с. 46-54.*

*2. Гришина, А.А. Качественные и количественные характеристики кредитного портфеля, их оценка и анализ / А.А. Гришина // Вестник молодых ученых Самарского государственного экономического университета. – 2014. № 2(30), – с. 77-82.*

*3. Матитова, З.Н. Оценка кредитного портфеля коммерческого банка / З.Н. Матитова // Экономика и управление: проблемы, решения. – 2017. – Т. 7, № 10, – с. 101-104.*

*4. Рабаданова, Д.А., Османова, С.М. Управление банковскими ресурсами // Экономика и управление: проблемы и решения. – 2018. – Т.7. № 8, – с. 33 – 37.*

*5. Фазлыева, Ю.С. Оценка качества кредитного портфеля коммерческого банка / Ю.С. Фазлыева, М.Е. Горчакова // Global and Regional Research. – 2023. – Т. 5, № 3, – с. 56-62.*

*6. Allahverdiyeva, A.X. Banklarda problemli kreditlər portfelinin idarə edilməsinin təkmilləşdirilməsi. Audit – 2017. № 4, Cild 18, – s.31-40.*

*7. Гоманова, Т.К. Оценка качества кредитного портфеля коммерческого банка / Т.К. Гоманова, К.А. Назина // Актуальные вопросы современной экономики. – 2020. № 3, – с. 10-14.*

**Лала Шахбазова,**
***Диссертант Лянкоранского Государственного Университета,***
***E-mail: shahbazova1995@gmail.com***

### Анализ и оценка современного состояние кредитного портфеля банков Азербайджана

### РЕЗЮМЕ

В статье анализируется и оценивается кредитный портфель банков, действующих в Азербайджане в современное время. Раскрыта и обобщена сущности и функции кредитного портфеля. Приведены показатели формирования и улучшения структуры кредитного портфеля. Отмечена важность изучения рисков, связанных с кредитным портфелем, и принятия необходимых мер. Рассмотрены вопросы стабильности кредитного портфеля и расширения его источников, создания кредитных резервов. Даны предложения по оптимальному анализу и оценке кредитного портфеля банков Азербайджана с учетом трансформации, происходящих в деятельности банков.

**Ключевые слова:** *банки, кредитный портфель, анализ кредитного портфеля, оценка кредитного портфеля, кредитные риски, кредитные резервы.*

**Lala Shahbazova,**
***Doctoral student of Lankaran State University,***
***Azerbaijan Republic,***
***E-mail: shahbazova1995@gmail.com***

**Analysis and assessment of the current state of the loan portfolio of Azerbaijani banks**

**SUMMARY**

The article analyzes and evaluates the loan portfolio of banks operating in Azerbaijan in modern times. The nature and functions of the loan portfolio are explained and summarized. Indicators of formation and improvement of the structure of the loan portfolio are given. The importance of studying the risks associated with the loan portfolio and taking the necessary measures was noted. The issues of stability of the loan portfolio and expansion of its sources, creation of credit reserves are considered. Taking into account the transformations taking place in the activities of banks, proposals were made for the optimal analysis and assessment of the loan portfolio of Azerbaijani banks.

**Keywords:** *banks, loan portfolio, loan portfolio analysis, loan portfolio assessment, credit risks, credit reserves.*

UOT 33
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0137

# REGİONUMUZDA DAYANIQLI MALİYYƏ VƏ YA DAYANIQLI MÜHASİBAT UÇOTUNUN FORMALAŞMASININ ƏSAS PROBLEMLƏRİ

**ELXAN BODUROV**
*Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialının müəllimi*
*E-mail: elxanbodurov@gmail.com*

Davamlı maliyyə və mühasibat uçotu bütün dünyada iqtisadi dayanıqlılığın və ətraf mühitə nəzarətin gücləndirilməsinin mühüm komponentlərinə çevrilmişdir. İqtisadiyyatı neft və qaz hasilatında dərin kök salmış Azərbaycanda dayanıqlı maliyyə təcrübəsinə keçid özünəməxsus problemlər yaradır. İqtisadiyyatını diversifikasiya etmək və qlobal davamlılıq məqsədlərinə nail olmaq səylərinə baxmayaraq, ölkə qalıq yanacaq gəlirlərindən asılılıq, məhdud ictimai məlumatlılıq və tənzimləyici çərçivələrdəki boşluqlar da daxil olmaqla əhəmiyyətli maneələrlə üzləşir. Ətraf mühit, sosial və idarəetmə (ESG) prinsiplərinin maliyyə sistemlərinə inteqrasiyası möhkəm institusional dəstək, şəffaf hesabat standartları və həm özəl, həm də dövlət sektorlarının fəal iştirakını tələb edir. Bununla belə, Azərbaycanda davamlı mühasibat praktikasının yeni yaranmaqda olan mərhələsi potensialın artırılması və siyasət innovasiyası ehtiyacını vurğulayır. Bu çağırışların həlli ölkənin iqtisadi ambisiyalarını qlobal davamlılıq gündəmlərinə uyğunlaşdırmaq, ətraf mühitə təsirləri minimuma endirməklə yanaşı, uzunmüddətli artımı təmin etmək və sosial ədaləti təşviq etmək üçün mütləqdir.

## Məqsəd

Tədqiqatın məqsədi regionumuzda dayanıqlı maliyyə və ya dayanıqlı mühasibat uçotunun formalaşmasının əsas problemlərinin araşdırılmasıdır.

## Metodologiya

Azərbaycan, ilk növbədə, hərtərəfli tənzimləyici bazanın olmaması səbəbindən möhkəm dayanıqlı maliyyə və mühasibat uçotu çərçivəsinin yaradılmasında əhəmiyyətli çətinliklərlə üzləşir. Ətraf mühit, sosial və idarəetmə (ESG) amillərinin maliyyə və mühasibat təcrübələrinə inteqrasiyasının vacibliyi haqqında artan qlobal məlumatlılığa baxmayaraq, Azərbaycanın tənzimləyici ekosistemi hələ də inkişaf etməmişdir. Əsas maneələrdən biri ESG prinsiplərinin inteqrasiyasını tələb edən aydın, möhkəm qanunların və təlimatların olmamasıdır. Müəyyən qaydalar korporativ sosial məsuliyyət və ətraf mühitin davamlılığına toxunsa da, onlar çox vaxt parçalanmışdır və icra mexanizmləri yoxdur. Bu tənzimləmə boşluğu davamlı maliyyə təcrübələrinin sistematik şəkildə qəbul edilməsinə mane olur və korporativ davranışda uyğunsuzluğa yer buraxır. Üstəlik, mövcud qaydaların məhdud şəkildə tətbiqi məsələni daha da çətinləşdirir. Bəzi şirkətlər könüllü olaraq korporativ davamlılıq hesabatını qəbul etsələr də, təcrübə qeyri-adi olaraq qalır və standartlaşdırma yoxdur. Qlobal Hesabat Təşəbbüsü (GRI) və ya Davamlı Mühasibat Uçotu Standartları Şurası (SASB) kimi hesabat çərçivələri geniş şəkildə qəbul edilmir, nəticədə uyğunsuz açıqlamalar verilir. Standartlaşdırılmış yanaşma olmadan, maraqlı tərəflər üçün korporativ davamlılıq fəaliyyətini dəqiq qiymətləndirmək çətinləşir. Tənzimləyici aydınlığın olmaması biznes və maliyyə institutları üçün də qeyri-müəyyənlik yaradır. Firmalar stimulların və ya dəstəkləyici siyasətlərin olmaması səbəbindən davamlı maliyyə təşəbbüslərini uzunmüddətli investisiyalar kimi deyil, əlavə xərclər kimi qəbul edə bilərlər. Bu qavrayış xüsusilə davamlılıq təşəbbüslərini həyata keçirmək üçün çox vaxt resursları olmayan kiçik və orta müəssisələr (KOB) arasında üstünlük təşkil edir.

Əhəmiyyətli maneə standartlaşdırılmış çərçivələrin olmamasıdır, çoxsaylı təlimatların birgə mövcudluğu hesabatlarda və ölçülərdə uyğunsuzluqlar yaradır. Davamlılıq məlumatlarının etibarlılığı və əlçatanlığı, dəqiq qiymətləndirmələrə mane olan natamam və ya qeyri-dəqiq məlumatlarla problemi daha da çətinləşdirir. Xərclər və resurs məhdudiyyətləri, xüsusən də texnologiya və təcrübəyə lazımi investisiyaları ödəyə bilməyən kiçik firmalar üçün başqa bir problem yaradır. Tənzimləmə və siyasət maneələri vəziyyəti daha da gərginləşdirir, çünki uyğun olmayan və ya sürətlə inkişaf edən qaydalar çaşqınlıq və uyğunluq çətinlikləri yaradır [3]. Maliyyə məqsədlərində qısamüddətlilik davamlı təsir üçün tələb olunan uzunmüddətli perspektivlə də ziddiyyət təşkil edir, çünki təşkilatlar tez-tez davamlı davamlılıq nəticələrindən daha çox ani maliyyə gəlirlərinə üstünlük verirlər. Davamlılıq ölçütlərinin ənənəvi

maliyyə sistemlərinə inteqrasiyası metodologiyaların uyğunsuzluğu səbəbindən mürəkkəb vəzifə olaraq qalır. Bundan əlavə, investorlar, tənzimləyicilər və istehlakçılar arasında müxtəlif maraqlardan irəli gələn maraqlı tərəflərin uyğunsuzluğu davamlı maliyyə məqsədlərinin müəyyən edilməsini və icrasını çətinləşdirir. Bacarıqlı mütəxəssislərin çatışmazlığı davamlı maliyyə təcrübələrinin keyfiyyətini və ardıcıllığını daha da məhdudlaşdırır, lakin bu səylərin təsirini ölçmək qeyri-maddi və uzunmüddətli nəticələrə görə çətinləşir [6].

Digər problemlərdən biri əsas maraqlı tərəflər arasında davamlı maliyyə ilə bağlı ümumi məlumatlılığın olmamasıdır. Azərbaycan Mərkəzi Bankının (AMB) keçirdiyi sorğu nəticəsində məlum olub ki, respondentlərin 73%-i davamlı maliyyə fəaliyyətindən xəbərsizdir [1]. Bu bilik çatışmazlığı maliyyə institutlarına, tənzimləyici orqanlara və daha geniş ictimaiyyətə şamil edilir və davamlı maliyyə təcrübələri ilə anlaşma və əlaqəni gücləndirmək üçün hərtərəfli təhsil və potensialın gücləndirilməsi təşəbbüslərinə təcili ehtiyac olduğunu vurğulayır. Azərbaycanda davamlı maliyyə üçün mövcud normativ baza hələ başlanğıc mərhələsindədir. Sorğuda iştirak edən respondentlərin təxminən 48%-i yaşıl maliyyənin inkişafına maneə kimi qeyri-kafi tənzimləyici bazanı göstərib [3]. Ölkə ən yaxşı beynəlxalq təcrübələrə uyğunlaşdırmaq üçün yaşıl istiqrazların buraxılması və digər davamlı maliyyə məhsulları üçün aydın təlimatlar və standartlar tələb edir. AMB bu ehtiyacı dərk edib və hərtərəfli tənzimləyici bazanın işlənib hazırlanması üzərində işləyir, lakin əhəmiyyətli boşluqlar qalmaqdadır.

Yaşıl istiqrazları və digər dayanıqlı maliyyə alətlərini effektiv idarə etmək və buraxmaq üçün maliyyə institutlarında insan potensialının nəzərəçarpacaq dərəcədə çatışmazlığı da var. Respondentlərin təxminən 52%-i tərəqqi üçün maneə kimi ekspert çatışmazlığını qeyd edib [5]. Məqsədli təlim proqramları vasitəsilə yerli təcrübənin inkişaf etdirilməsi davamlı maliyyənin mürəkkəbliklərini idarə etmək üçün lazımi bacarıqların formalaşdırılması üçün vacibdir. Azərbaycanda yaşıl istiqrazlar bazarı hələ də yaranmaqda deyil və bu, güclü bazar infrastrukturunun yaradılmasını zəruri edir. Buraya bazarın likvidliyini və şəffaflığını artırmaq üçün vacib olan yaşıl istiqrazların ticarəti və izlənilməsi üçün platformalar daxildir. Bu sistemlər olmasa, investorların inamı azala bilər ki, bu da davamlı maliyyə təşəbbüslərinin böyüməsinə mane olur.

Azərbaycanın davamlılığa keçidi üçün tələb olunan investisiya miqyası böyükdür. Hesablamalara görə, 2060-cı ilə qədər karbon emissiyalarını əhəmiyyətli dərəcədə azaltmaq üçün təxminən 44 milyard dollar tələb olunacaq və bankların növbəti üç onillikdə təxminən 17,6 milyard dollar töhfə verəcəyi gözlənilir [2]. Bu, əhəmiyyətli bir problemdir, çünki bank sektorunun kredit portfelinin cari ölçüsünə ekvivalent vəsaitlərin yalnız yaşıl layihələrə səfərbər edilməsini tələb edir. Azərbaycan davamlı maliyyənin öz iqtisadi çərçivəsinə inteqrasiyası istiqamətində addımlar atsa da, hələ də ciddi problemlər qalmaqdadır. Maarifləndirmə, tənzimləyici çərçivələr, potensialın yaradılması, bazar infrastrukturu, sektorun zəifliyi və investisiya boşluqları ilə bağlı məsələlərin həlli ölkədə möhkəm dayanıqlı maliyyə ekosistemini inkişaf etdirmək üçün çox vacib olacaqdır.

Bu problemlər vahid standartların işlənib hazırlanması, məlumatların keyfiyyətinin yaxşılaşdırılması və təcrübənin artırılması üçün sənayelər, hökumətlər və akademiya arasında birgə səyləri tələb edir. Bu məsələlərin həlli etimadın artırılması, ardıcıllığın təmin edilməsi və davamlılığın əsas maliyyə təcrübələrinə effektiv şəkildə inteqrasiyası, nəticədə dayanıqlı iqtisadiyyata qlobal keçidin dəstəklənməsi üçün mühüm əhəmiyyət kəsb edəcək.

## Nəticə

Azərbaycan mədən yanacaqlarından asılılığından, inkişaf edən tənzimləyici bazalardan və yaşıl maliyyə alətlərinin yeni yaranmaqda olan vəziyyətindən irəli gələn davamlı maliyyə və mühasibat uçotu istiqamətində unikal çətinliklərlə üzləşir. Ölkə iqtisadiyyatında neft-qaz sektorunun üstünlüyü ikili problem yaradır: iqtisadi sabitliyi qoruyub saxlamaqla bərpa olunan enerji mənbələrinə keçid. Bu keçid əhəmiyyətli investisiyalar, möhkəm siyasət çərçivələri və dövlət və özəl sektorlar arasında əməkdaşlıq tələb edir. Əlavə olaraq, ekoloji, sosial və idarəetmə (ESG) prinsiplərinin maliyyə hesabatlarına və korporativ strategiyalara məhdud inteqrasiyası davamlı mühasibat uçotunda potensialın yaradılması və yerli təcrübənin inkişafına ehtiyacı vurğulayır. Beynəlxalq Davamlılıq Standartları Şurası (ISSB) kimi qlobal çərçivələr təlimatlar təqdim etsə də, bu standartların Azərbaycanın iqtisadi və mədəni kontekstinə uyğunlaşdırılması mürəkkəb

vəzifə olaraq qalır. Bundan əlavə, investorların yaşıl layihələrə inamının artırılması maliyyə məhsullarında şəffaflıq, hesabatlılıq və innovasiya tələb edir. Bu maneələrə baxmayaraq, Azərbaycanın Xəzər regionunda strateji mövqeyindən istifadə etmək və iqtisadiyyatını şaxələndirmək üçün külək və günəş enerjisi kimi bərpa olunan enerji layihələrinə sərmayə qoymaq imkanları var. Bu problemlərin həlli vahid yanaşma, siyasət islahatlarını, beynəlxalq əməkdaşlıq və maliyyə və mühasibat təcrübələrində davamlılığa doğru mədəni keçid tələb edir.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. ADA University. (2024). Azerbaijan's green finance capacity. Baku Dialogues. https://bakudialogues.ada.edu.az/articles/azerbaijans-green-finance-capacity-07-08-2024*

*2. American Chamber of Commerce in Azerbaijan. (2021). Green finance developments in Azerbaijan. https://amcham.az/en/post/1339*

*3. Green Central Banking. (2024). Central Bank of Azerbaijan develops green taxonomy. https://greencentralbanking.com/2024/11/19/central-bank-of-azerbaijan-green-taxonomy-cop29/*

*4. Green Economies in Eastern Partnership. (2023). Scaling up green finance in Azerbaijan. https://www.green-economies-eap.org/resources/Azerbaijan_Scaling%20up%20Finance_English.pdf*

*5. Ministry of Economy of the Republic of Azerbaijan. (2023). Green finance and economic development initiatives. https://www.economy.gov.az/en/post/1688*

*6. The Accountant Online. (2022). Government and finance experts explore Azerbaijan's sustainability plans. https://www.theaccountant-online.com/news/government-and-finance-experts-explore-azerbaijans-sustainability-plans/*

*7. World Bank. (2024). Scaling up green finance: Azerbaijan country report. https://documents.worldbank.org/en/publication/documents-reports/documentdetail/099717411212328052/idu0d3c2f00d0351404d7c08cc40cd0b621a7d59*


**Elxan Bodurov**

## REGİONUMUZDA DAYANIQLI MALİYYƏ VƏ YA DAYANIQLI MÜHASİBAT UÇOTUNUN FORMALAŞMASININ ƏSAS PROBLEMLƏRİ


### XÜLASƏ

Davamlı maliyyə və mühasibat uçotu ekoloji cəhətdən məsuliyyətli iqtisadi inkişafın təşviq edilməsində həlledici rol oynayır, lakin Azərbaycan bu sahədə ciddi problemlərlə üzləşir. Ölkənin neft və qaz sektorundan ciddi asılılığı böyük bir maneə yaradır, çünki iqtisadi model əsasən qalıq yanacaq gəlirləri ilə idarə olunur. Davamlı maliyyəyə keçid bərpa olunan enerjiyə, yaşıl texnologiyalara və məhdud maliyyə stimulları və tənzimləyici çərçivələrlə məhdudlaşdırılan infrastruktura əhəmiyyətli investisiya tələb edir. Digər problem isə davamlılıq prinsipləri haqqında biznes və maliyyə institutları arasında məlumatlılığın və təcrübənin olmamasıdır. Bir çox təşkilatlar qısamüddətli gəlirliliyi uzunmüddətli ekoloji və sosial məqsədlərdən üstün tuturlar. Bu, ekoloji, sosial və idarəetmə (ESG) meyarlarının maliyyə qərarlarının qəbulu proseslərinə və hesabat standartlarına kifayət qədər inteqrasiya olunmaması ilə mürəkkəbləşir. Bundan əlavə, Azərbaycanın maliyyə və mühasibat sistemləri məhdud resurslar, təcrübə və texnoloji imkanlara görə qlobal davamlılıq standartlarını qəbul etməkdə maneələrlə üzləşir. Mövcud ekoloji qaydaların zəif icrası biznes təcrübələrində hesabatlılığı və şəffaflığı təşviq etmək səylərini daha da zəiflədir.


**Açar sözlər:** *Azərbaycan, dayanıqlı maliyyə, dayanıqlı mühasibat uçotu, problemlər.*

**Elkhan Bodurov**

## KEY CHALLENGES TO THE DEVELOPMENT OF SUSTAINABLE FINANCE OR SUSTAINABLE ACCOUNTING IN OUR REGION


### SUMMARY

Sustainable finance and accounting play a crucial role in fostering environmentally responsible economic development, yet Azerbaijan faces significant challenges in this area. The country's heavy reliance on its oil and gas sector presents a major hurdle, as the economic model is predominantly driven by

fossil fuel revenues. Transitioning to sustainable finance requires substantial investment in renewable energy, green technologies, and infrastructure, which is constrained by limited financial incentives and regulatory frameworks. Another challenge is the lack of awareness and expertise among businesses and financial institutions about sustainability principles. Many organizations prioritize short-term profitability over long-term environmental and social goals. This is compounded by insufficient integration of environmental, social, and governance (ESG) criteria into financial decision-making processes and reporting standards. Moreover, Azerbaijan's financial and accounting systems face barriers in adopting global sustainability standards due to limited resources, expertise, and technological capacity. Weak enforcement of existing environmental regulations further undermines efforts to promote accountability and transparency in business practices.

**Keywords:** *Azerbaijan, sustainable finance, sustainable accounting, challenges.*

**Эльхан Бодуров**

## ОСНОВНЫЕ ПРОБЛЕМЫ ФОРМИРОВАНИЯ УСТОЙЧИВОГО ФИНАНСИРОВАНИЯ ИЛИ УСТОЙЧИВОГО УЧЕТА В НАШЕМ РЕГИОНЕ

### РЕЗЮМЕ

Устойчивое финансирование и бухгалтерский учет играют решающую роль в содействии экологически ответственному экономическому развитию, однако Азербайджан сталкивается со значительными проблемами в этой области. Сильная зависимость страны от нефтегазового сектора представляет собой серьезное препятствие, поскольку экономическая модель в основном основана на доходах от ископаемого топлива. Переход к устойчивому финансированию требует значительных инвестиций в возобновляемые источники энергии, зеленые технологии и инфраструктуру, что сдерживается ограниченными финансовыми стимулами и нормативно-правовой базой. Еще одной проблемой является отсутствие осведомленности и опыта среди предприятий и финансовых учреждений о принципах устойчивого развития. Многие организации отдают приоритет краткосрочной прибыльности над долгосрочными экологическими и социальными целями. Это усугубляется недостаточной интеграцией экологических, социальных и управленческих (ESG) критериев в процессы принятия финансовых решений и стандарты отчетности. Более того, финансовые и бухгалтерские системы Азербайджана сталкиваются с препятствиями при принятии глобальных стандартов устойчивого развития из-за ограниченных ресурсов, опыта и технологических возможностей. Слабое обеспечение соблюдения существующих экологических норм еще больше подрывает усилия по содействию подотчетности и прозрачности в деловой практике.

**Ключевые слова:** *Азербайджан, устойчивое финансирование, устойчивый учет, проблемы.*

UOT 339.9
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0139

# GÖMRÜK PROSEDURLARININ TƏKMİLLƏŞDİRİLMƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

**HİDAYƏT ƏHMƏDZADƏ**
*Bakı Dövlət Universitetinin magistrantı*
*E-mail: hidayat02@mail.ru*

## Giriş

Azərbaycanda gömrük xidmətinin və gömrük rüsumlarının təkmilləşməsi, yenilənməsi prosesi uzun tarixi bir prosesdən keçmişdir. Siyasi vəziyyətin dəyişməsi birbaşa olaraq gömrük sahəsində öz əksini tapmışdır. Gömrük sferası ölkənin malik olduğu iqtisadi və digər sahələrdəki siyasətin təzahürüdür.

## Əsas hissə

Gömrük prosedurlarının optimallaşdırılması, onların şəffaflığının artırılması, xarici iqtisadi fəaliyyət iştirakçılarına məlumat və məsləhət vermə təcrübəsinin genişləndirilməsi, həmçinin gömrük infrastrukturunun inkişafi və buraxılış qabiliyyətinin artırılması, Azərbaycan Respublikasının dövlət gömrük sərhədindən keçmə məntəqələrinin potensialı və texniki avadanlıqlarının artırılması, xarici iqtisadi fəaliyyət üçün əlverişli şəraitin yaradılması, hüquqi və fiziki şəxslərə gömrük xidmətlərinin göstərilməsinin keyfiyyətinin yaxşılaşdırılması xarici iqtisadi fəaliyyətdə iştirak iqtisadi subyektlərə, biznes sahəsində iqtisadi inkişafin artım tempinə, həmçinin əhalinin rifah səviyyəsinə təsir göstərir.

Azərbaycan Respublikasının gömrük orqanlarının fəaliyyətinin yaxşılaşdırılmasının əsas istiqamətləri aşağıdakılardır: [1].




**Şəkil 1. Azərbaycan Respublikasının gömrük orqanlarının fəaliyyətinin yaxşılaşdırılmasının əsas istiqamətləri**

Bu istiqamətdə müsbət nəticələrə nail olmaq istifadə edilən gömrük prosedurlarının effektivliyini, risk avtomatlaşdırma mexanizmlərinin istifadə edilməsini, müasir avtomatlaşdırılmış sistemlərin və ən son informasiya texnologiyalarının istifadəsinin sistemli şəkildə analiz edilməsi, elektron məlumat ötürülmə vasitələrinin istifadəsi olmadan mümkün deyildir və fəaliyyət digər bölmələr və təşkilatlarla əlaqələndirilməlidir. Bu işin əsas elementi gömrük nəzarəti üçün sərf olunan vaxtın azaldılmasına, məhsuldarlığının yüksəldilməsinə və malların və nəqliyyat vasitələrinin gömrük proseduru altında mümkün olan ən tez yerləşdirilməsini həyata keçirəcək yeni bir gömrük nəzarəti sisteminə keçiddir.

Yeni gömrük nəzarəti sisteminin əsasları onun keçirilməsinə dair prosedur və şərtlərdir ki, onlar da mümkün qədər aydın və şəffaf olmalıdır, vahid informasiya məkanına malik, effektiv informasiya və texniki dəstək, həmçinin hüquq-mühafizə yardımına malik olmalıdır [2].

Bu sistemin istifadə edilməsi gömrük nəzarəti prosesinə informasiya texnologiyalarının tətbiqi, eləcə də elektron sənəd dövriyyəsi və malların və nəqliyyat vasitələrinin elektron bəyannaməsinin təqdim edilməsini nəzərdə tutur.

Müasir dövrdə gömrük məlumat sistemi daim inkişafdadır. Təkmilləşdirmə layihəsi çərçivəsində gömrük rəsmiləşdirilməsi və nəzarətinin əsas prosesləri, gömrük ödənişlərinin toplanması və risklərin idarə edilməsi sistemini birləşdirən yeni inteqrasiya olunmuş sistem hazırlanmalıdırır [3].

Dünya təcrübəsi göstərir ki, risklərin idarə edilməsi sisteminə aid düzgün qurulmuş elektron bəyannamə ödənişlərin və yığımların toplanmasında artıma, eləcə də xərlərilərin, həmçinin xarici iqtisadi fəaliyyət iştirakçıları, o cümlədən gömrük orqanları işçiləri tərəfindən qaydaların pozulması halların qarşısının alınması azalma ilə nəticələnə bilər.

Gömrük işinin effektivliyinin artırılması məqsədilə idarəetmənin imkanlarından istifadə edilməklə müvafiq sahə ciddi şəkildə tənzimlənməlidir. Gömrük tənzimlənməsinin təkmilləşdirilməsi gömrük

əməliyyatlarının təkmilləşdirilməsi və gömrük texnologiyalarının inkişafi, xarici ticarət fəaliyyətinin tarif və qeyri-tarif tənzimlənməsi tədbirlərinin tətbiqinin effektivliyinin artırılmasını nəzərdə tutur. Bu da Azərbaycan Respublikasının milli maraqlarının xarici iqtisadi fəaliyyət sahəsində təmin edilməsinə xidmət edir.

Hazırkı mərhələdə Azərbaycan Respublikasının gömrük orqanları ölkə regionlarının xarici iqtisadi fəaliyyətinin intensivliyinin artırılması, sərnişinlərin və nəqliyyat vasitələrinin həcminin dəyişməsi fonunda həyata keçirilən aktiv institusional inkişaf mərhələsindədirlər. Gömrük orqanları xarici ticarət fəaliyyətində yüksək səviyyəli peşəkarlıq göstərərək cinayətkarlığın qarşısının alınması ilə bağlı xarakterizə edilən çətin şəraitdə intensiv fəaliyyət həyata keçirirlər. Azərbaycan Respublikasında gömrük işinin təkmilləşdirilməsi ölkənin ümumi iqtisadi siyasətinə uyğun gəlməlidir. Hazırda Azərbaycanda qeyri-neft iqtisadiyyatının davamlı və dayanıqlı, eləcə də rəqabətqabiliyyətli inkişaf etməsi dövlətin iqtisadi siyasətində prioritet istiqamətdir.

Əsası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulmuş, uzunmüddətli dövr üçün düşünülmüş iqtisadi siyasət ölkədə makroiqtisadi sabitlik və dinamik iqtisadi inkişaf üçün əsaslı zəmin yaratmışdır. Nəticədə Azərbaycanda geniş sahibkarlar kütləsi yaranmış, Azərbaycanın sosial-iqtisadi inkişafında qeyri-dövlət iqtisadi subyektlərinin əhəmiyyəti daha da çoxalmış və ümumdünya iqtisadi sisteminə inteqrasiya sferasında önəmli irəliləyişlər əldə edilmişdir [4].

Davamlı iqtisadi islahatlar çərçivəsində aparılan iqtisadi təkmilləşdirmə və islahat siyasəti qlobal iqtisadi sistemin tələblərinə uyğun yeni konseptual fikirlərlə daha da təkmilləşdirilmiş, strateji hədəflərə uyğun olan azad bazar münasibətlərinin və özünüinkişaf qabiliyyətinə xas olan sosialyönümlü, şaxələndirilmiş milli iqtisadiyyatın formalaşdırılması təmin edilmişdir. Ölkənin gömrük orqanlarının məqsədyönlü fəaliyyəti ümumi iqtisadi siyasətin tərkib hissəsi kimi mütərəqqi nəticələr əldə etməyə xidmət edir.

Ümumiyyətlə, həyata keçirilən məqsədyönlü iqtisadi tədbirlər nəticəsində dünya neft məhsulları bazarında baş verən çalxalanmalara baxmayaraq Azərbaycanda makroiqtisadi sabitlik qorunub saxlanılmış, qeyri - neft sektoru subyektlərinin və ümumilikdə iqtisadi regionların sabit inkişafi sürətlənmiş, ölkənin strateji valyuta ehtiyatlarından effektiv istifadə təmin edilmiş, sahibkarlıq subyektlərinə dövlət dəstəyi gücləndirilmiş, münbit biznes və investisiya mühiti yaradılmış, vətndaşaların sosial vəziyyəti mütəmadi olaraq müsbətə doğru dəyişmişdir. Aparılan məqsədyönlü islahat siyasəti ilə bağlı olaraq, o cümlədən Azərbaycanda reallaşdırılan iqtisadi siyasətin və islahatların davamlılığını təmin etmək məqsədilə iqtisadiyyatın hazırki vəziyyətinin daha dərin analizi və müasir iqtisadi inkişaf strategiyasının hazırlanması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamı ilə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" təsdiq edilmişdir. Starteji yol xəritəsinin institusional islahatlar bölməsinə nəzər salsaq və ümumiləşdirmə aparsaq bir sıra vacib məqamlarla yanaşı gömrük prosedurları ilə bağlı məsələdə də təkmilləşdirmənin və islahatlar siyasətinin ölkənin ümumi, strateji inkişafi ilə bağlı olduğunu görürük. Xüsusilə, müxtəlif istiqamətləri əhatə edən yol xəritələri özündə yeni iqtisadi artım yanaşmasını əks etdirir. Buna görə də strateji seçim məhsuldarlığa əsaslanan iqtisadi artım yanaşmasının yaradılmasıdır.

Azərbaycanın gömrük prosedurlarının təkmilləşdirilməsi, yalnız ekonomik səmərə verməklə qalmayıb, eyni zamanda ölkənin beynəlxalq ticarətdə rəqabət qabiliyyətini artırır. Bu istiqamətdə atılan addımlar, daha geniş iqtisadi islahatların bir tərkib hissəsi kimi qiymətləndirilməlidir. Gömrük sistemində aparılan dəyişikliklərin uğurlu olması, həm də müvafiq qanunvericilik bazasının gücləndirilməsi və beynəlxalq təcrübənin öyrənilməsindən asılıdır.

**Nəticə**

Müasir şəraitdə xarici iqtisadi əlaqələr və gömrük fəaliyyətinin sahələri qloballaşma və regionalizasiya faktorlarının təsiri altında formalaşır və bu sahələrdə ictimai siyasət strategiyalarının formalaşması üçün şərtlər müəyyənləşdirilir. Bununla əlaqədar xarici iqtisadi fəaliyyətin təkmilləşdirilməsi və gömrük sisteminin kompleks şəklində müasirləşdirilməsi məsələlərini nəzərdən keçirmək məqsədəuyğundur. Bu gün gömrük orqanları xarici iqtisadi əlaqələrin qurulması sahəsində bir növ tənzimləyici rolunda çıxış edir, məhsuldar qüvvələrin inkişaf səviyyəsinə, xüsusilə milli iqtisadiyyatın strukturunun yenidən qurulması baxımından müəy-

yən təsir göstərir. Belə təsirin effektivliyi ən azı beynəlxalq ticarətin həcminin artırılmasında özünü göstərir.

**Açar sözlər:** *Azərbaycan Respublikası, gömrük prosedurları, təkmilləşdirilmə, istiqamətlər, şəffaflıq.*

**Ədəbiyyat siyahısı:**

1. *Mehrəliyev İ., Abduləzimov Ə.(2008), Gömrük fəaliyyətinin iqtisadiyyatı, Bakı, "Adiloğlu nəşriyyat", 320səh.*
2. *Məmmədov N., Bərxudarov M.(2006), İqtisadi təhlükəsizlik, Bakı, "İqtisad Universiteti nəşriyyatı", 452səh.*
3. *Nuriyev C.Q., Əliyev, A.Ə., Atakişiyev M.C.(2012), Gömrük işinin təşkili və idarə edilməsi, Bakı, "Apostrof " 288səh.*
4. *Şəkərəliyev A.Ş, Həmidova M.Y.(2006), Gömrük işinin təşkili və idarə edilməsi, Bakı, "Hüquq ədəbiyyatı nəşriyyatı",*
5. *Şəkərəliyev A.Ş.(2009) Dövlətin iqtisadi siyasəti: Reallıqlar və perspektivlər, Bakı, "İqtisad Universiteti", 415 səh.*

## MAIN DIRECTIONS OF IMPROVING CUSTOMS PROCEDURES
## SUMMARY

The development trends of the modern era show that it is impossible to achieve effective results if progressive steps are not taken in the field of direct management of its work. Naturally, this fact is clearly evident in the experience of developed countries. The Republic of Azerbaijan, as in all areas, should also demonstrate an appropriate position in terms of using advanced experience. That is, the effective organization of customs work should be approached from the aspect of effective management. The development of customs work in Azerbaijan in accordance with world standards is carried out in the conditions of increasing the transparency of the domestic economy and its further integration into the world economy. This, in itself, should comply with the requirements of the International Convention on the Simplification and Harmonization of Customs Procedures, developed by the World Customs Organization, as well as the framework standards for facilitating and securing international trade, regarding high quality in the relevant field. The fulfillment of this task is possible only by reaching a new stage in the level of development of the customs service in the Republic of Azerbaijan.

**Keywords:** *Republic of Azerbaijan, customs procedures, improvement, directions, transparency.*

## ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ СОВЕРШЕНСТВОВАНИЯ ТАМОЖЕННЫХ ПРОЦЕДУР
## РЕЗЮМЕ

Тенденции развития современной эпохи показывают, что невозможно достичь эффективных результатов без осуществления прогрессивных шагов в области непосредственного управления бизнесом. Конечно, этот факт также наглядно проявляется в опыте развитых стран. Азербайджанская Республика, как и во всех сферах, должна продемонстрировать соответствующую позицию в плане использования передового опыта. Другими словами, к эффективной организации таможенной работы следует подходить с точки зрения эффективного управления. Развитие таможенной работы в Азербайджане в соответствии с мировыми стандартами осуществляется в контексте повышения прозрачности отечественной экономики и ее дальнейшей интеграции в мировую экономику. Это само по себе должно соответствовать требованиям Международной конвенции об упрощении и гармонизации таможенных процедур, а также Рамочным стандартам по упрощению и безопасности международной торговли, разработанным Всемирной таможенной организацией, к высокому качеству в соответствующей области. Выполнение этой задачи возможно только путем выхода на новый этап развития таможенной службы в Азербайджанской Республике.

**Ключевые слова:** *Азербайджанская Республика, таможенные процедуры, совершенствование, направления, прозрачность.*

UOT 339.9
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0142

# İQTİSADİ İNKİŞAFDA GÖMRÜK TARİF TƏNZİMLƏNMƏSİ

**RUSİF ƏLİYEV**
*Bakı Dövlət Universiteti, magistrant*
*E-mail: rusif1306@gmail.com*

## Giriş

Gömrük adətən gömrük siyasəti və onun həyata keçirilməsi mexanizmidir. Gömrük siyasəti, öz növbəsində, mübadiləni tənzimləyən kompleks tədbirlər kimi milli iqtisadiyyatı xarici rəqabətin, onun səmərəli inkişafına şərait yaratmaq üçün xarici ticarətin mənfi təsirindən qorumaq üçün vacibdir. Bu, gömrük xidmətinin həyata keçirilməsi mexanizminin əsas elementidir. Gömrük əsrlər boyu mövcuddur və bütün dövlətlərin struktur elementidir. Gömrük fəaliyyəti bilavasitə ticarətin inkişafı ilə bağlıdır.

## Əsas hissə

Beynəlxalq ticarətin inkişafı üçün gömrük və tarif siyasətinin böyük əhəmiyyətinin birləşməsi yeni istiqamətlərin yaranmasında böyük əhəmiyyət kəsb edir. Bütün iqtisadi siyasətlər qlobal iqtisadi dalğanın genişlənməsinin faydalarını artırmaq maraqlarına doğru irəliləyir. Xatırlatmaq istərdik ki, hər bir ölkə gömrük və tarif siyasəti alətlərinin bu və ya digərindən istifadə edir ki, bu da əsas sosial-iqtisadi problemlərin əksəriyyətini, xüsusən idxal-ixrac fəaliyyətindən kənara çıxan problemləri həll edir [1].

Azərbaycanın beynəlxalq ticarətində Rusiyanın böyük payı var. Belə ki, son iyirmi il ərzində Rusiya beynəlxalq standartlara və qaydalara uyğun gömrük-tarif tənzimlənməsi sisteminin yaradılması istiqamətində mühüm addımlar atıb. Lakin bu gün Azərbaycan innovativ inkişaf modelinə keçmək, iqtisadiyyatları şaxələndirmək və ixraca yönəlmək və bazar iştirakçıları arasında milli rəqabət qabiliyyətini gücləndirmək kimi çətinliklərlə üzləşib. Bu iqtisadi siyasətin həyata keçirilməsi dövlət ənənələri və tarif tənzimləmələri sahəsində tədbirlərin tətbiqini tələb edir.

Dünya iqtisadiyyatına inteqrasiya edən və beynəlxalq ticarət iştirakçılarının davranışını müəyyən edən çoxtərəfli iqtisadi təşkilatların fəaliyyətinə öyrəşmiş Azərbaycan üçün müasir gömrük-tarif tənzimlənməsi sistemi və onun inkişaf tendensiyaları haqqında biliklər praktiki maraq doğurur. Bu, Azərbaycan oyunçularının davranışlarının dünya bazarında qəbul edilmiş qaydalara uyğunluğunu təmin etmək baxımından vacibdir.

Tarif tənzimlənməsi həm ənənəvi, həm də eyni zamanda xarici iqtisadi fəaliyyətin tənzimlənməsi üçün fəal şəkildə istifadə olunur. Tarif tənzimlənməsi mallara idxal və ixrac rüsumlarının dərəcələrinin müəyyən edilməsi yolu ilə həyata keçirilir və dövlət xarici ticarət fəaliyyətinə, başqa sözlə, xarici ticarətə bu dərəcələri müvafiq müddətdə artırmaqla nəzarət edir. Tarif tənzimlənməsi ölkənin gömrük sərhədində gömrük ödənişləri almaqla milli iqtisadi təhlükəsizliyin, ictimai qaydaların, insanların həyat və sağlamlığının, cəmiyyətin milli-mənəvi dəyərlərinin qorunmasını, habelə dövlət büdcəsinin gəlirlərinin ödənilməsini təmin edir. Xarici iqtisadi fəaliyyətin tarif tənzimlənməsinin əsas məqsədi aşağıdakılardır:[2].




**Şəkil 1. Xarici iqtisadi fəaliyyətin tarif tənzimlənməsinin əsas məqsədi**

Gömrük tariflərinin tənzimlənməsi müasir dövlət-ticarət münasibətlərinin əsas tənzimləmə alətidir. Tariflərin müəyyənləşdirilməsində tarifin mənalılığına təsir edən bəzi əsas istiqamətlər var. Bunlar aşağıdakılardır:

• gömrük rüsumlarının növlərinin seçilməsi istiqamətləri,
• tarif strukturunun formalaşdırılması,
• tarif təsnifatı təlimatının gedişatı,
• gömrük rüsumlarının saxlanılması məqsədi ilə idxal olunan malın mənbəyinin müəyyən edilməsi üsulları.

Gömrük tarifinin iqtisadi rolu ondan asılıdır ki, yığımlar malın maya dəyərinə təsir edir və milli bazarı, kapital yığımını qoruyur, ayrı-ayrı iqtisadiyyat mənfəət normalarına və istehsalın tempinə dərindən təsir edir, milli və beynəlxalq şəraitdə istehsalı tarazlaşdırır.

Məsələn, "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanunu xarici ticarətin dövlət tənzimlənməsinin mühüm vasitəsi olan gömrük tarifinin formalaşdırılması və tətbiqi qaydalarını, habelə Azərbaycan Respublikasında daxili bazarın xarici bazarla səmərəli əlaqəsini təmin etməklə, Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mallara görə rüsumların tutulması qaydalarını müəyyən edir. Qanun gömrük tarifini aşağıdakı kimi müəyyən edir:[3].

Tarif- dövlətin gömrük sərhədindən çıxarılan və xarici iqtisadi fəaliyyətə uyğun gələn mallara tətbiq edilən sistemləşdirilmiş gömrük rüsumunun dərəcələrinin məcmusudur. Gömrük tarifi, ümumiyyətlə, aşağıdakı əsas funksiyaları yerinə yetirir:

- Müxtəlif malların idxalı üçün rüsum dərəcələrinin diferensiallaşdırılması yolu ilə idxalın optimal əmtəə strukturunu formalaşdırır;
- qiymət mexanizminin tərkib hissəsi kimi sosial xidmətlər və sahibkarlıq fəaliyyətinin iqtisadi nəticələrinə təsir göstərir;
- xarici rəqabətin əhəmiyyətli təsir göstərə biləcəyi iqtisadiyyatın ayrı-ayrı milli sektorlarını müdafiə edir;
- aktiv xarici ticarət siyasətini asanlaşdırmaq, malların bazarlara çıxarılmasını asanlaşdırmaq üçün ticarət danışıqları zamanı qarşı tərəfə təzyiq göstərmək, azad ticarət zonaları, gömrük ittifaqları yaratmaq;
- idxal və ixrac dərəcələrini, valyuta xərcləri və daxilolmalarını optimallaşdırır və əlverişli ticarət balansı yaradır.

Gömrük tarifinin praqmatik rolu (idxal olunan malların dəyəri üçün dəyər maneəsinin yaradılması) daha çox nəzərə çarpır. Bu rol əmtəələrdə fərqlidir. Bəziləri az əhəmiyyət kəsb edir (xammal, bəzi növ yarımfabrikatlar), digərləri isə (hazır sənaye məhsulları və kənd təsərrüfatı malları) çox vacibdir. Gömrük rüsumu - belə idxal və ixracın vacib şərti malların ölkənin gömrük ərazisinə idxalı və ya ixracı zamanı gömrük orqanları tərəfindən əsaslandırılmamasıdır.

Gömrük rüsumları üç əsas funksiyanı həyata keçirir:[3].

**Cədvəl 1. Gömrük rüsumlarının funksiyaları**

| | |
|---|---|
| **Fiskal funksiya** | Bu funksiya həm idxal, həm də ixrac rüsumlarına aiddir, çünki onlar dövlət büdcəsinin gəlir maddələrinin tərkib hissəsidir |
| **Qoruma funksiyası** | Bu funksiya idxal rüsumlarına aiddir, çünki onlar yerli istehsalçıları arzuolunmaz xarici rəqabətdən qorumağa kömək edir. Daxili bazarı qorumaq üçün idxal rüsumlarının artırılmasının əsas səbəbi daxili rəqabət qabiliyyətinin aşağı olmasıdır. |
| **Balans funksiyası** | Bu funksiya ixrac rüsumlarına aiddir, çünki onun köməyi ilə daxili qiymətlər nədənsə dünya qiymətlərindən aşağı olan malların ixracına mane olur. |

Gömrük rüsumları bütün sərhəd-keçid məntəqələrinə şamil edilir. Gömrük rüsumları gömrük sərhədinin keçməsi ilə qüvvəyə minən və xarici ticarət dövriyyəsi mallarına şamil edilən dolayı vergi növlərinin növlərindən biridir. Gömrük rüsumlarına bütün əsas vergi xüsusiyyətləri daxildir:

- gömrük rüsumlarının ödənilməsi də məcburidir və dövlət hakimiyyəti tərəfindən təmin edilir;
- gömrük rüsumları göstərilən xidməti əvəz etmir və fərdi qaydada tutulur;
- gömrük ödənişlərindən daxilolmalar konkret dövlət xərclərini ödəmək üçün nəzərdə tutulmamışdır.

Ümumiyyətlə, dövlətin xarici iqtisadi fəaliyyətinin tənzimlənməsində tarif aparatının rolu sonsuzdur. Qeyri-tarif tənzimləyicilərindən fərqli olaraq, tarif tənzimlənməsi mahiyyət etibarilə gizlilik və davamlılıq xüsusiyyəti ilə seçilir.

Xarici ticarətin tənzimlənməsi üsulları iki qrupa - iqtisadi və inzibati redaktə üsullarına bölünür. İqtisadi tənzimləmə üsulları ticarət siyasətinin iqtisadi alətlərinin - gömrük tariflərinin, vergilərin tətbiqinə əsaslanır [4]. Bu vasitələrdən dövlət xarici iqtisadi fəaliyyət subyektlərinin iqtisadi maraqlarına və müvafiq olaraq onların davranışına təsir göstərir. Eyni zamanda onların tam əməliyyat müstəqilliyi qorunur. Bu tədbirlər bazar münasibətlərinin xarakterinə daha çox uyğundur və buna görə də bazar iqtisadiyyatında XBİ-nin tənzimlənməsində əsas rol

oynayır. Tarifə xarici ticarət dövriyyəsinə idxal olunan malların qiymətinin tənzimlənməsi üsulu təsir edir. Belə ki, tariflərin tətbiqi idxal olunan malların dəyərini artırır, lakin alıcılarda bahalı xarici mal və ya ucuz yerli mal almaq seçimində qalır. Tariflərin tənzimlənməsi metodu mahiyyət etibarı ilə daxili bazarı xarici rəqabətin zərərli təsirlərindən qorumaq məqsədi daşıyır. Gömrük tarifləri XBİ-nin ən mühüm iqtisadi tənzimləyicisidir.

**Nəticə**

Xarici ticarət əməliyyatlarının şərti idarəetmə sistemi və milli gömrük xidmətlərinin təkmilləşdirilməsinə yardım dünya ticarətinin inkişafına böyük köməkdir. Hazırda gömrük dəyərinin müəyyən edilməsi metodunun uyğunlaşdırılmasından gömrük şuralarının yaradılmasına gömrük tariflərinin formalaşması prinsipləri və gömrük müxtəlif əməkdaşlıq formaları tətbiq edilir. Xüsusi yer iqtisadi prosesləri stimullaşdırmaq üçün gömrük məhdudiyyətlərinin ləğv edildiyi azad iqtisadi zonaların fəaliyyət göstərməsidir. Tələb gömrük xidmətlərinin təkmilləşdirilməsi, gömrük xidmətlərinin effektivliyinin artırılması, itirilmiş prosedurların və rəsmiyyətlərin aradan qaldırılması və yeni informasiya texnologiyalarından maksimum istifadənin artırılması prosesi olub.

**Açar sözlər:** *Beynəlxalq ticarət, iqtisadi inkişaf, gömrük, tariff, tənzimlənmə.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Əhmədov, N. (2022). Azərbaycanın gömrük siyasətinin inkişafı: Yeni çağırışlar və perspektivlər. Bakı: Nurlan Nəşriyyatı.*

*2. Əliyev, A. (2020). Beynəlxalq gömrük standartları və Azərbaycan: Yeni çağırışlar. Bakı: İqtisadiyyat Universiteti Nəşriyyatı.*

*3. Əliyeva, S. (2010). Azərbaycanın beynəlxalq ticarət siyasəti və gömrük siyasəti. Bakı: İqtisadiyyat Nəşriyyatı.*

*4. Krugman, P., Obstfeld, M. & Melitz, M. (2015). International Economics: Theory and Policy. Pearson.*

## CUSTOMS TARIFF REGULATION IN ECONOMIC DEVELOPMENT
## ABSTRACT

Customs tariffs and regulations play an important role in economic development. Customs tariffs and regulations significantly affect the foreign trade policy and economy of countries. Customs tariffs and regulations, on the one hand, can develop the economy by supporting local production, and on the other hand, they can conflict with foreign trade and free market principles and cause economic restrictions. A sound customs policy requires balanced approaches for economic development.

This article attempts to study the importance of customs and customs tariffs and examines how customs tariffs play a significant role in international trade and the economy around the world.

**Keywords:** *International trade, economic development, customs, tariff, regulation.*

## ТАМОЖЕННО-ТАРИФНОЕ РЕГУЛИРОВАНИЕ В ЭКОНОМИЧЕСКОМ РАЗВИТИИ
## РЕЗЮМЕ

Таможенные тарифы и правила играют важную роль в экономическом развитии. Таможенные тарифы и правила существенно влияют на внешнеторговую политику и экономику стран. Таможенные тарифы и правила могут, с одной стороны, развивать экономику, поддерживая местное производство, но, с другой стороны, они могут противоречить принципам внешней торговли и свободного рынка и вызывать экономические ограничения. Правильная таможенная политика требует сбалансированных подходов к экономическому развитию.

В данной статье рассматривается важность таможенных пошлин и тарифов, а также то, какую важную роль таможенные тарифы играют в международной торговле и экономике по всему миру.

**Ключевые слова:** *Международная торговля, экономическое развитие, таможня, тариф, регулирование.*

UOT 339.9
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0146

# DÜNYA TƏCRÜBƏSİNDƏ GÖMRÜK TARİF TƏNZİMLƏNMƏSİ

**RUSLAN XƏLİLZADƏ**
*Bakı Dövlət Universiteti, magistrant*
*E-mail: yanq.yanq@mail.ru*

## Giriş

Dünya təcrübəsində gömrük tarif tənzimlənməsi ölkələrin xarici ticarətinin və iqtisadiyyatının səmərəli şəkildə idarə olunmasında mühüm rol oynayır. Gömrük tarifləri, ölkəyə idxal olunan mallara tətbiq edilən vergi və rüsumlardır və bu, ticarət siyasətinin tərkib hissəsidir. Gömrük tariflərinin tənzimlənməsi beynəlxalq ticarət əlaqələrində müxtəlif məqsədlərə xidmət edir. Bu məqsədlərdən bəziləri iqtisadi müdaxilə, daxili sənaye və istehsalın qorunması, dövlətin büdcə gəlirlərinin artırılması və beynəlxalq müqavilələrə riayət edilməsidir.

## Gömrük tariflərinin tənzimlənməsi haqqında əsas məqamlar

Beynəlxalq ticarət müqavilələri: Ümumdünya Ticarət Təşkilatı (ÜTT) kimi beynəlxalq təşkilatlar, gömrük tariflərinin tənzimlənməsində mühüm rol oynayır. ÜTT, ticarət maneələrinin azaldılmasına, tariflərin transparan olmasına və ticarət mübahisələrinin hallinə yönəlmiş qaydalar təklif edir.

Avropa Birliyi (AB) və Şimali Amerika azad ticarət zonası (NAFTA) kimi regional ticarət blokları da öz üzv ölkələrinə dair tənzimləmələr qəbul edərək gömrük tariflərinin harmonizasiyasını həyata keçirir.

Gömrük tariflərinin növü və strukturu: Gömrük tarifləri ad-valorem (malla bağlı dəyər üzərindən faizlə müəyyən edilən), spesifik (müəyən miqdar və ya çəkidən asılı olaraq müəyyən edilən) və kombinə edilmiş ola bilər.

Hər bir ölkə gömrük tariflərinin strukturu və səviyyəsini öz iqtisadi siyasətinə uyğun olaraq müəyyən edir. Məsələn, inkişaf etməkdə olan ölkələr çox vaxt daxili istehsalı qorumaq üçün yüksək tariflər tətbiq edir.

Ticarət blokları və tarif mühafizəsi: Bəzi ölkələr gömrük tariflərini azaltmaqla xarici ticarətin inkişafını təşviq etməyə çalışır. Məsələn, AB və Cənubi Amerika ölkələri arasında ticarət razılaşmaları gömrük tariflərini aşağı salmağı hədəfləyir.

Tarif mühafizəsi, xüsusilə inkişaf etmiş ölkələrdə, yerli sənayenin qorunması məqsədilə tətbiq edilə bilər. Bu, xarici malların daxili bazara daxil olmasını məhdudlaşdırmaqla yerli istehsalçıları dəstəkləyir [1].

Gömrük tariflərinin azaldılması: Beynəlxalq bazar inteqrasiyası ilə əlaqədar, bir çox ölkə gömrük tariflərini azaldaraq ticarəti asanlaşdırmağa çalışır. Ticarət azadlığı və gömrük tariflərinin azaldılması ölkələrin dünya iqtisadiyyatına daha çox inteqrasiya olmasına səbəb olur.

İdxal kvotaları və subsidiyalar: Gömrük tarifləri ilə yanaşı, idxal kvotaları və subsidiyalar da xarici ticarətə təsir edən vasitələrdir. İdxal kvotaları, müəyyən bir məhsulun idxalını məhdudlaşdırır və daxili bazarın müdafiəsi üçün istifadə olunur.

Subsidiyalar isə yerli istehsalçıları dəstəkləmək məqsədilə tətbiq edilir və bu, beynəlxalq ticarətdə mübahisələrə səbəb ola bilər, çünki digər ölkələr subsidiyaların ticarətə qeyri-sağlam müdaxilə kimi baxa bilər [2].

Beynəlxalq mübahisələrin həlli: Gömrük tariflərinin tənzimlənməsi çox vaxt beynəlxalq ticarət mübahisələrinə səbəb olur. ÜTT və digər təşkilatlar, mübahisələr zamanı bir neçə əsas qayda və mexanizmi təmin edir. Tariflər və digər ticarət maneələri üzərində razılığa gəlmək məqsədilə danışıqlar və həll yolları axtarılır.

XX əsrin sonu və gömrük işində yeni eranın başlanğıcı inteqrasiya prosesləri ilə xarakterizə olunur. Ümumi iqtisadi maraq prinsipi üçün ümumi gömrük sahələri yaradılır. Belə ərazilər daxilində bütün gömrük məhdudiyyətləri aradan qaldırılır və üçüncü ölkələrə qarşı vahid gömrük siyasəti tətbiq edilir. Bu, gömrük sahəsində əməkdaşlığın ən geniş yayılmış formasıdır. Digər radikal meyillər də mövcuddur. Gömrük və tarif sahəsində beynəlxalq əməkdaşlığın əsas prinsipləri aşağıdakılardır: [3].




**Şəkli 1. Gömrük və tarif sahəsində beynəlxalq əməkdaşlığın əsas prinsipləri**

Gömrük ayırmaları gömrük tarifləri üzrə danışıqların (konfransların) təşkili üçün çoxtərəflidir. Bu prinsip əsasında ayrı-ayrı dövlətlərin konkret tarif mövqeləri ilə gömrük rüsumlarının məbləğinin məhdudlaşdırılması mexanizmi mövcuddur. Aşağıdakı müqavilələrdən biri əldə edildikdə, gömrük rüsumu "məhdud" hesab edilir [4].

a) müəyyən məbləğdə rüsumun azaldılması barədə razılaşma;

b) rüsumun mövcud müqavilə səviyyəsindən yuxarı qalxmaması;

c) haqqımı müəyyən səviyyəli razılaşmaya qaldırmamaq.

Tarif ayrı-seçkiliyi prinsipi ilə birbaşa əlaqəli daha çox çeviklik prinsipi ilə əlaqədardır. Bu əlaqə tariflər üzrə danışıqlarda iştirak edən ölkələrə birbaşa danışıqlarda edilən tarif endirimləri və yalnız belə güzəştlərin (bəzi istisnalarla bağlı) şərtləndirildiyi ölkələrə şamil edilməməsi tələbində əksini tapır. Bu tələb rejimin ümumi mahiyyəti baxımından daha münasibdir. Bu tələb rejimin ümumi tərifindən daha əlverişlidir. Müqavilədə (TAS) daha əlverişli rejimin tərifi belədir: “Hər razılığa gələn tərəf bu sazişin digər razılığa gələn tərəflərinin razılığına uyğun olaraq, müvafiq siyahının müvafiq bəndində nəzərdə tutulandan daha az əlverişli olan rejimi təmin etməlidir [5]. Daha çevik rejimin əlavə tərifi aşağıda verilmişdir. CPM-nin I maddəsi (1-ci hissə): “İdxal və ixraca və ya ixraca və ya idxala görə tətbiq edilən bütün gömrük rüsumları və yığımları, idxal çərçivəsində ödənişlər, habelə bu cür rüsum və rüsumların alınması və idxalı ilə bağlı bütün qaydalar və rəsmiyyətlər, istənilən üstünlüklər, əlverişli şərtlər, imtiyazlar və ya razılığa gələn tərəflərdən hər hansı birinin hər hansı digər ölkədə təyin olunanlardan başqa hər hansı bir ölkəyə verdiyi immunitetlər dərhal və bütün digər dövlətlərə xələl gətirməyəcəkdir.

Az inkişaf etmiş ölkələr üçün tarif imtiyazları prinsipi də TTBS mətndə öz tərifini tapmışdır. Həmin universal sazişin mətninə aşağıdakılar əlavə edilir: “İnkişaf etmiş konsensus tərəfdaşları az inkişaf etmiş danışıqlar aparan tərəflərdən tarifləri və ticarətə digər maneələri azaltmaq və ya aradan qaldırmaq üçün ticarət danışıqları zamanı götürdükləri öhdəliklərlə qarşılıqlı əlaqədə ola bilməzlər” (XXXVI maddənin 4.8 bəndi). Tokio Raundunun gedişində (1979-cu il nəşri) tarif üstünlükləri inkişaf edən ölkələrin və ya inkişaf etməkdə olan ölkələrin xeyrinə verildi, ona görə də bu azadetmə daha çox çeviklik prinsipindən daha qanuni idi. Bu qərar BMT-nin Ticarət və İnkişaf Komissiyasının himayəsi altında hazırlanmış Ümumi Preferentlər Sisteminin yaradılmasına başlamışdır.

İnkişaf etməkdə olan ölkələr üçün üstünlüklü rejim prinsipi suveren iki ölkə lehinə ayrı-seçkilik və müvəqqəti olaraq daha əlverişli rejimin xaricində saxlanılmasından ibarətdir. İstisna təkcə yuxarıda qeyd olunan prinsiplərdən kənar deyil, həm də beynəlxalq iqtisadi münasibətlərdə yeni, daha ədalətli nizamın yaradılması üzrə ümumi tədbirlərin tərkib hissəsi olduğu üçün mütərəqqi xarakter daşıyır [6].

Milli gömrük sisteminin bu sahədə beynəlxalq standartlara uyğunluğu beynəlxalq aləmdə iqtisadi əməkdaşlığın genişlənməsində və inteqrasiya proseslərinin inkişafında mühüm rol oynayır. Bu iş beynəlxalq təşkilatlarla, o cümlədən Ümumdünya Gömrük Təşkilatı, MDB Gömrük Liderlərinin Sorğusu və ikitərəfli əlaqələrlə (ştatların gömrük orqanları ilə ayrı) aparılır. Bu baxımdan, Dövlət Gömrük Komitəsi beynəlxalq hüquq normalarına uyğun olaraq digər dövlətlərlə sazişlərin, protokolların və memorandum layihələrinin hazırlanmasında Azərbaycanın beynəlxalq iqtisadi inteqrasiyasının inkişafı və gücləndirilməsinin tərəfdarıdır [7].

1992-ci ildən dövlətin daxili və xarici siyasətinin tərkib hissəsi olan vahid gömrük siyasətinin həyata keçirilməsi sayəsində Komitənin beynəlxalq əlaqələri genişlənərək keyfiyyətcə yeni səviyyəyə yüksəlmişdir. Komitənin ikitərəfli və çoxtərəfli beynəlxalq müqavilələrə üstünlük verməsi gömrük sisteminin təkmilləşdirilməsində səmərəli nəticələr verir. Türkiyə Respublikası, İran İslam Respublikası, Gürcüstan, Özbəkistan, Qazaxıstan, Livan, Bolqarıstan və Ukrayna gömrük orqanları ilə əməkdaşlıq və qarşılıqlı yardım haqqında Sazişlər imzalanmışdır.

**Nəticə**

Dünya təcrübəsində gömrük tariflərinin tənzimlənməsi ölkələrin iqtisadi siyasətinin vacib bir hissəsidir və ticarət sərbəstliyi, daxili istehsalın qorunması, dövlət gəlirlərinin artırılması və beynəlxalq əlaqələrin tənzimlənməsi kimi məqsədlərə xidmət edir. Həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələr müxtəlif metodlarla gömrük tariflərini tənzimləyir və beynəlxalq təşkilatların ticarət siyasətləri bu prosesdə mühüm rol oynayır.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Dixon, A., & McAuliffe, K. (2013). Global Trade Policy: A New Approach. Palgrave Macmillan.*

*2. Hoekman, B., & Kostecki, M. (2009). The Political Economy of the World Trading System. Oxford University Press.*

*3. Krugman, P. R., Obstfeld, M., & Melitz, M. J. (2018). International Economics: Theory and Policy. Pearson.*

*4. Krugman, P., Obstfeld, M., & Melitz, M. (2018). "International Economics: Theory and Policy". Pearson Education.*

*5. Mavroidis, P. J. (2012). WTO and the Regulation of International Trade. Cambridge University Press.*

*6. Miller, M. (2006). "Global Trade Policy". Wiley-Blackwell.*

*7. Saygın, F. (2018). "International Trade and Customs Law". Oxford University Press.*


## XÜLASƏ


Dünya təcrübəsində gömrük tarif tənzimlənməsi, ölkələrin xarici ticarətini idarə etmək, yerli istehsalı qorumaq və iqtisadi siyasətləri həyata keçirmək məqsədilə tətbiq edilən bir neçə əsas mexanizmdən ibarətdir. Gömrük tariflərinin tənzimlənməsi, eyni zamanda qlobal ticarət qaydalarına və iqtisadi şərtlərə uyğun olaraq həyata keçirilir. Gömrük tarif tənzimlənməsi, ticarət siyasətinin mühüm bir hissəsidir və dünya ölkələri arasında iqtisadi əlaqələrin inkişafında əsas rol oynayır. Ümumdünya Ticarət Təşkilatının və regional ticarət bloklarının tətbiq etdiyi tənzimləmələr, qlobal iqtisadiyyatın daha inteqrasiya olunmasına kömək edir. Ancaq hər bir ölkə öz yerli iqtisadi şəraitinə və siyasətinə uyğun olaraq bu tarifləri müəyyən edir.



**Açar sözlər:** *Dünya təcrübəsi, gömrük tarifləri, tənzimləntmə, xarici ticarət, qlobal iqtisadiyyat.*


## CUSTOMS TARIFF REGULATION IN WORLD PRACTICE

## SUMMARY


In world practice, customs tariff regulation consists of several main mechanisms applied in order to manage foreign trade of countries, protect domestic production and implement economic policies. Customs tariff regulation is also carried out in accordance with global trade rules and economic conditions. Customs tariff regulation is an important part of trade policy and plays a key role in the development of economic relations between countries of the world. The regulations applied by the World Trade Organization and regional trade blocs contribute to the integration of the global economy. However, each country determines these tariffs in accordance with its local economic conditions and policies.



**Keywords:** *World practice, customs tariffs, regulation, foreign trade, global economy.*


## ТАМОЖЕННО-ТАРИФНОЕ РЕГУЛИРОВАНИЕ В МИРОВОЙ ПРАКТИКЕ

## РЕЗЮМЕ


В мировой практике таможенно-тарифное регулирование состоит из нескольких основных механизмов, применяемых для управления внешней торговлей стран, защиты местного производства и реализации экономической политики. Таможенно-тарифное регулирование также осуществляется в соответствии с правилами мировой торговли и экономическими условиями. Таможенно-тарифное регулирование является важной частью торговой политики и играет ключевую роль в развитии экономических отношений между странами по всему миру. Правила, принятые Всемирной торговой организацией и региональными торговыми блоками, помогают сделать мировую экономику более интегрированной. Однако каждая страна устанавливает эти тарифы в соответствии со своими местными экономическими условиями и политикой.



**Ключевые слова:** *Мировой опыт, таможенные тарифы, регулирование, внешняя торговля, мировая экономика.*

UOT 330.322.3
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0148

# AZƏRBAYCANDA QEYRİ-NEFT SƏNAYESİNDƏ İNVESTİSİYA FƏALİYYƏTİNİN MÖVCUD VƏZİYYƏTİ

**GÜNAY İSGƏNDƏROVA**
*UNEC, doktorant*
*E-mail: ibrahimligunay03@gmail.com*

## Əsas hissə

Qlobal dünyada dövlətlər o qədər sürətlə və dinamik inkişaf edir ki, artıq hər bir dövlətin gələcəyə yönəlmiş düşünülmüş strategiyası var. Son illərə nəzər salsaq ölkəmizin sosial-iqtisadi həyatındakı irimiqyaslı kəmiyyət və keyfiyyət dəyişiklikləri dövlətimizin də bu inkişafdan və dinamikadan geri qalmadığını müşahidə edərik. Ölkəmiz dünya ölkələrinə nümunə olacaq bir şəkildə öz iqtisadi inkişaf modelini davam etdirir. Sahibkarlara iqtisadi dəstəyin verilməsi, təbii sərvətlərdən və regionların potensialından səmərəli istifadə, qeyri-neft sektorunun inkişafı, investisiyalar üçün əlverişli mühitin yaradılması, rəqabətə davamlı məhsulların istehsalının inkişaf etdirilməsi iqtisadiyyatın yüksələn xətlə inkişafını təmin etmişdir. Azərbaycanın qeyri-neft sektorunun, həmçinin qeyri-neft sənayesinin inkişafı beynəlxalq reytinq agentlikləri tərəfindən də yüksək qiymətəndirilir. UNCTAD-ın yaydığı hesabatda 2023-cü ildə Azərbaycanda ÜDM-nin 0,6% artaraq 76284 mln dollar olduğu qeyd edilib. Bu rəqəm 2015-ci ildə 53076 mln dollar idi. Həmçinin hesabatda qeyd edilib ki, 2022-ci ildə ümumi daxili məhsul (ÜDM) müxtəlif istehlak xərcləri əhali (ev təsərrüfatları) istehlakı (household consumption) üzrə 43,4 %, dövlətin yekun istehlak xərcləri (general government final consumption expenditure) 10,9%, ümumi kapitalın formalaşması (Gross Capital Formation) 12,6%, ixrac (export) 60,1%, idxal (imports) 27,0% təşkil etmişdir. 2023-cü ildə birbaşa xarici investisiyaların axını 252,84 mln dollar təşkil etmişdir [1].

**Cədvəl 1. Neft-qaz və qeyri neft-qaz sektorlarında ümumi daxili məhsul istehsalı**

| | 2024 yanvar-iyul | 2024-cü ilin yanvar-iyul ayları əvvəlki ilin müvafiq dövrünə nisbətən, müqayisəli qiymətlərlə, faizlə |
|---|---|---|
| Ümumi Daxili Məhsul | 70544,0 | 104,5 |
| o cümlədən: neft-qaz sektoru | 24609,0 | 101,2 |
| qeyri neft-qaz sektoru | 45935,0 | 106,7 |

**Mənbə:** *Azərbaycan Dövlət Statistika Komitəsi.*

Statistika Komitəsinin yaydığı hesabatdan da göründüyü kimi, qeyri-neft sektorunun ÜDM-dəki payı neft sektorundan 2 dəfə çox olmuşdur.

Neft və qaz sənayesi Azərbaycanın iqtisadiyyatı və inkişafında mühüm rol oynayır. Əslində, Yanacaq-Energetika Kompleksi (YEK) ilə birlikdə bu sənaye ölkənin iqtisadiyyatını irəlilədən əsas qüvvə hesab olunur. Neft-qaz sənayesi hələ də milli iqtisadiyyatın əsas göstəricisi və vəziyyətini əks etdirən barometr rolunu oynamağa davam edir. Lakin neft və qazın məhdud təbii resurslar olması və onların qiymətlərindəki kəskin dəyişikliklər iqtisadi inkişaf üçün ciddi təhlükələr yaradır. Sürətlə dəyişən və rəqabətli qlobal mühitdə ölkə iqtisadiyyatını neft və qazdan asılılıqdan azad etmək vacibdir. Bu səbəbdən, qeyri-neft sektorunun inkişafı dövlətin əsas prioritetlərindən biri kimi müəyyən edilmişdir.

Neft və qaz sənayesindən başqa bütün iqtisadiyyat sahələri qeyri-neft sektoruna aiddir. Buraya nəqliyyat, xidmətlər, turizm, kənd təsərrüfatı və sənaye kimi sahələr daxildir. Başqa sözlə desək, qeyri-neft sektoru milli iqtisadiyyatın inkişafını təmin edən bütün sahələri əhatə edir. Qeyri-neft sənayesi qeyri-neft sektorunun bir hissəsidir və əsasən emal və istehsal ilə məşğul olan sahələri əhatə edir.

Azərbaycan Dövlət Statistika Komitəsinin hesabatında qeyd edilir ki, 2023-cü ildə 4691 sənaye müəssisəsi fəaliyyət göstərib ki, 99,27%-si qeyri-neft sənayesinin payına düşüb. Həmin müəssisələrin 4657-si, yəni və onun 2754-ü makro, 1017-si kiçik, 920-si isə orta və iri ölçülü müəssisələrdir.

**Cədvəl 2. Fəaliyyət göstərən sənaye müəssisələrinin iqtisadi fəaliyyət növlərinə və sayına görə qruplaşdırılması, vahid**

| Göstəricilər | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|
| | Cəmi | Cəmi | Cəmi | Cəmi |
| Bütün sənaye | 3389 | 3689 | 4095 | 4691 |
| Mədənçıxarma sənayesi | 337 | 351 | 367 | 400 |
| Emal sənayesi | 2515 | 2777 | 3130 | 3660 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 249 | 259 | 273 | 277 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 288 | 302 | 325 | 354 |

**Mənbə:** *Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır.*

Cədvəldən göründüyü kimi sənaye müəssisələrinin sayı illər üzrə artım göstərmişdir ki, bu da dövlətin bu sahədə apardığı islahatlar, atdığı addımlar və qəbul etdiyi inkişaf proqramları əsasında baş vermişdir.

2024-cü ilin yanvar-iyul ayları ərzində ölkədə fəaliyyət göstərən müəssisələr, təşkilatlar və fərdi sahibkarlar tərəfindən 70,5 milyard manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2023-cü ilin eyni dövrü ilə müqayisədə 4,5 faiz çoxdur. Həmin dövrdə sənaye müəssisələri və bu sahədə çalışan fərdi sahibkarlar tərəfindən 37,3 milyard manatlıq sənaye məhsulu istehsal edilmişdir. Müqayisə üçün neft-qaz sektorunda məhsul istehsalı 1,1 faiz, qeyri-neft-qaz sektorunda isə 8,0 faiz artım müşahidə olunmuşdur. Sənaye məhsulunun 65,0 faizi mədənçıxarma sektorunda, 29,3 faizi emal sənayesində, 4,8 faizi elektrik enerjisi, qaz və buxarın istehsalı, paylanması və təchizatı sektorunda, 0,9 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal edilmişdir. Qeyri-dövlət sektorunun sənayedəki payı 81,6 faizə çatmışdır. Ümumi istehsalın 89,8 faizi sənaye məhsullarının istehsalından, 10,2 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsindən əldə olunmuşdur [2].

**Qrafik 1.**




**Mənbə:** *Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, 2024-cü il yanvar-sentyabr ayları üzrə Azərbaycanda sənaye sahəsi*

Qrafikdə Azərbaycanda sənayenin struktur bölgüsü göstərilmişdir. Göründüyü kimi mədənçıxarma sənayesi əsas üstünlük təşkil edir.

Qeyri-neft sənayesinin inkişafı müxtəlif daxili və xarici iqtisadi amillərlə sıx bağlıdır. Daxili amillər arasında infrastrukturun inkişaf səviyyəsi, hüquqi və tənzimləyici mühitin keyfiyyəti, maliyyə resurslarına çıxış imkanları, kadr potensialı və təhsilin səviyyəsi, daxili bazarın tələbi, eləcə də texnologiya və innovasiya mühüm rol oynayır. Xarici amillərə isə xarici ticarət və ixrac perspektivləri, qlobal iqtisadi vəziyyət, beynəlxalq investisiya axını, regional əməkdaşlıq və inteqrasiya, həmçinin texnoloji inkişaf və rəqabət mühiti daxildir. Burada xüsusilə investisiyaların əhəmiyyətini vurğulamaq lazımdır. İnvestisiyalar yeni müəssisələrin yaradılmasında (zavod və fabriklərin tikilməsi ilə istehsal gücünün artırılması), mövcud infrastrukturun modernləşdirilməsində (istehsal müəssisələrinin yenilənməsi və müasir texnologiyalarla təmin olunması), məşğulluğun artırılmasında (yeni iş yerlərinin açılması və peşəkar işçi qüvvəsinin inkişaf etdirilməsi) mühüm rol oynayır. Bundan əlavə, investisiyalar qeyri-neft sənayesində texnologiya və innovasiyaların tətbiqini sürətləndirərək, müəssisələrin rəqabətqabiliyyətini artırır və daha keyfiyyətli məhsulların istehsalını təmin edir.

2024-cü ilin yanvar-iyul aylarında əsas kapitala qoyulmuş investisiyaların ümumi məbləği 9438,7 milyon manat təşkil edib ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,0 faiz artım nümayiş etdirir. Neft-qaz sektoruna yatırılan investisiyalar 0,4 faiz, qeyri-neft-qaz sektoruna isə 2,9 faiz artıb. İstifadə edilən investisiyaların 4914,8 milyon manatı (52,1 faiz) məhsul istehsalı sahələrinə, 3404,4 milyon manatı (36,1 faiz) xidmət sahələrinə, 1119,5 milyon manatı (11,8 faiz) isə yaşayış binalarının inşasına yönəldilmişdir. Əsas kapitala yönəldilən investisiyaların böyük əksəriyyəti – 7728,6 milyon manat (81,9 faiz) daxili investisiyalardır.[2]

**Qrafik 2.**




**Mənbə:** *Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin tərtib etdiyi 2024-cü il yanvar-sentyabr*

*ayları üzrə Azərbaycanda Sənaye sahəsi üzrə statistik göstəricilərinə əsasən tərtib edilmişdir.*

Dövlətimiz qeyri-neft sektoruna investisiyaların cəlb edilməsi üçün müxtəlif təşviqedici tədbirlər görür: vergi güzəştləri və fiskal təşviqlər, investisiya təşviqi proqramları, sərbəst iqtisadi zonaların yaradılması və s.

Qeyri-neft emalı sənayesini genişləndirmək məqsədilə dövlət investisiya strategiyasının əsas istiqamətlərindən biri iqtisadi bölgələrdə sənaye şəhərciyi infrastrukturunun yaradılmasıdır. Bu çərçivədə, hər bir iqtisadi bölgənin potensialı nəzərə alınaraq sənaye şəhərcikləri və xüsusi iqtisadi zonalar qurulmuşdur. Qeyri-neft sənayesinin inkişaf etdirilməsi istiqamətində həyata keçirilən strategiyalar çərçivəsində 8 sənaye parkı, 3 sənaye məhəlləsi və 2 aqropark yaradılmışdır. 2024-cü ilin yanvar-sentyabr ayları ərzində İqtisadi Zonaların İnkişafı Agentliyinin idarə etdiyi sənaye zonalarına 223 milyon manatlıq investisiya qoyulmuşdur. 2013-cü ildən bu yana, ümumilikdə 7,88 milyard manatlıq investisiya cəlb edilərək, 156 sahibkarlıq subyektinə sənaye zonalarında rezident statusu verilmişdir. Sahibkarlar bu zonalara 6,8 milyard manatdan çox investisiya yatırmış və 10,5 min daimi iş yeri yaratmışlar. 2024-cü ilin yanvar-oktyabr aylarında isə Azərbaycanın sənaye zonalarında 27 yeni sahibkarlıq subyektinə rezidentlik verilmişdir. Bunlardan 13-ü Ağdam Sənaye Parkında, 6-sı "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında, 2-si Sumqayıt Kimya Sənaye Parkında, 1-i Pirallahı Sənaye Parkında, 1-i Hacıqabul Sənaye Parkında, 2-si Masallı Sənaye Məhəlləsində, 2-si isə Sabirabad Sənaye Məhəlləsində qeydiyyata alınmışdır. Bu müddət ərzində ümumilikdə 7 milyard 820 milyon manatdan çox investisiya qoyulmuş və 129 sahibkarlıq subyektinə sənaye zonalarında rezident statusu verilmişdir.

Sənaye parklarının rezidentlərinə tətbiq olunan idxal ƏDV və gömrük güzəştləri sayəsində bu rezidentlər 501 milyon manatdan çox vəsaitə qənaət etmişdir. İqtisadiyyat Nazirliyinin tabeçiliyindəki İqtisadi Zonaların İnkişafı Agentliyinin idarə etdiyi 9 sənaye parkının rezidentləri isə bu parkların istehsal gücünü artırmaq məqsədilə artıq 6,7 milyard manatdan çox investisiya qoymuşlar. Nəticədə 10500-dən çox yeni iş yeri yaradılmışdır. Həmçinin, mövcud layihələr üzrə növbəti mərhələdə sənaye zonalarına əlavə 1 milyard manatdan çox investisiya yatırılması və 9400-dən çox yeni iş yeri açılması planlaşdırılır. 2013-cü ildən etibarən sənaye zonalarına ümumilikdə 7,88 milyard manatlıq investisiya yatırılaraq 157 sahibkarlıq subyektinə rezident statusu verilmişdir [3].

Ümumi mənzərəyə nəzər saldıqda görərik ki, Azərbaycan iqtisadiyyatına, xüsusilə qeyri-neft sənayesinə investisiya yatırmaq istəyən sahibkarların qarşısında müəyyən maneələr mövcuddur. Bu maneələr bir sıra daxili və xarici amillərdən qaynaqlanır. Əsas səbəblər kimi aşağıdakıları qeyd edə bilərik:

• İnfrasturuktur çatışmazlığı, regionlarda infrasturukturun zəif inkişafı, sənaye parklarının və məhəllələrinin tam işlək vəziyyətdə olmaması (bəzi sənaye parklarında xidmət və texniki dəstəyin məhdud olması rezidentlərin fəaliyyəti üçün maneə yaradır);

• Bürokratik əngəllər, hüquq sistemində inamsızlıq, vergi və gömrük prosedurlarının sadəlik və şəffaflıq baxımından təkmilləşdirilməsi;

• Bank kreditlərinin əlçatmazlığı (faiz dərəcəsinin yüksək olması);

• Müasir texnologiyaların çatışmazlığı, rəqəmsallaşmanın aşağı səviyyəsi;

• Daxili bazarın kiçik olması investorları daha çox iri bazarlara çıxmağa yönləndirir:

• Qlobal iqtisadi çətinliklər (müharibə, pandemiya və s.)

Azərbaycanın investisiya mühitinin inkişaf etdirilməsi və biznes fəaliyyəti üçün əlverişli şəraitin yaradılması məqsədilə Prezidentin 21 dekabr 2015-ci il tarixli "Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında" fərmanı ilə lisenziya tələb olunan fəaliyyət növlərinin sayı 59-dan 37-yə endirilmişdir. Ölkədə rəqəmsal transformasiya çərçivəsində xarici investorlar üçün biznes fəaliyyətinin elektronlaşdırılması və sadələşdirilməsi təmin edilmişdir. Aparılan islahatlardan biri də kiçik və orta sahibkarlıq subyektlərinə yönəlib; bu sahibkarlar 7 il müddətinə mənfəət, torpaq və əmlak vergilərindən azad olunurlar. Vergi güzəştləri kənd təsərrüfatı sektorunu da əhatə edir: 22 noyabr 2013-cü il tarixli 824 nömrəli qanunla Vergi Məcəlləsinə edilən dəyişikliklərə əsasən, 1 yanvar 2014-cü ildən başlayaraq, torpaq vergisi istisna olmaqla digər vergilərdən 5 il müddə-

tinə azadolma tətbiq edilir. Eyni zamanda, investorlar üçün nəzərdə tutulan güzəştlər sənaye parklarının rezidentlərinə də şamil edilir. Bu sənaye parklarında qeydiyyatdan keçən rezidentlər dövlət tərəfindən təmin olunan ümumi infrastruktur və kommunal xidmətlərdən yararlanma imkanı əldə edirlər. Rezidentlər üçün gəlir və əmlak vergisindən, ƏDV və idxal rüsumlarından 10 il müddətinə azadolma, həmçinin aşağı icarə haqqı tətbiqi nəzərdə tutulmuşdur.

Prezident İlham Əliyevin rəhbərliyi altında, Azərbaycanda son illərdə qeyri-neft sektorunun inkişafına, iqtisadiyyatın müxtəlif sahələrinin şaxələndirilməsinə və ixrac potensialının gücləndirilməsinə böyük diqqət yetirilib. Bununla yanaşı, xarici sərmayənin cəlb edilməsi və biznes mühitinin təkmilləşdirilməsi məqsədilə bir çox mühüm layihələr həyata keçirilib. Bu addımlar ölkəmizə xarici investisiyalar üçün əlverişli bir mühit yaradıb. 2023-cü ildə "Financial Times" qrupunun "FDI Intelligence" nəşri tərəfindən açıqlanan birbaşa xarici investisiyalarla bağlı TOP 100 şəhər reytinqində Bakı 3-cü yerə yüksəlib. Bu nəşrə görə, ötən ildə Azərbaycana qoyulan xarici investisiyaların həcmi, 2017-ci ildən bəri həyata keçirilmiş ən böyük layihələrdən biridir.

Bakıda, İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Azərbaycan İnvestisiya Şirkəti" ASC (AİŞ) ilə Macarıstanın "Hell Group" şirkəti arasında Birgə İştirak Müqaviləsi imzalanıb. Müqaviləyə əsasən, Ələt Azad İqtisadi Zonasında illik 700 milyon ədəd alüminium içki qutusu istehsal edəcək yeni bir zavodun tikilməsi planlaşdırılır. İstehsal olunacaq məhsullar yalnız daxili tələbatı qarşılamaqla yanaşı, həm də Mərkəzi Asiya ölkələrinə ixrac ediləcək. Layihə çərçivəsində 300-dən çox iş yerinin açılması gözlənilir. Layihənin ümumi investisiya dəyəri isə 211 milyon ABŞ dollarıdır.

2023-cü ildə isə, Sumqayıt Kimya Sənaye Parkında Prezident İlham Əliyevin iştirakı ilə "Azərbaycan Vanhong Ceramics Co" MMC-nin keramik plitələr istehsal edən müəssisəsi istifadəyə verilib. 100% Çin kapitallı bu müəssisəyə 50 milyon ABŞ dolları investisiya qoyulmuş və nəticədə 500-ə yaxın yeni iş yeri yaradılmışdır.

Bundan əlavə, Sumqayıt Kimya Sənaye Parkında Çinin "BYD Company Limited" şirkəti ilə əməkdaşlıq çərçivəsində elektrik mühərrikli avtobusların istehsalı layihəsi də həyata keçiriləcək. Bu layihədə AİŞ tərəfdaş olaraq iştirak edəcək. BYD şirkəti ilkin mərhələdə 34 milyon ABŞ dolları, sonradan isə əlavə investisiya layihələri üçün 60 milyon ABŞ dolları sərmayə yatırmağı planlaşdırır. Layihə çərçivəsində 800 yeni iş yerinin yaradılması gözlənilir. 2023-cü ildə, Azərbaycan İnvestisiya Şirkəti (AİŞ) və Türkiyənin "Gen İlaç ve Sağlık Ürünleri Sanayi ve Ticaret A.Ş" şirkəti arasında imzalanan Birgə İştirak Müqaviləsinə əsasən, Pirallahı Sənaye Parkında "Gen Pharma Caucasus Manufacturing Operations" MMC-nin dərman istehsalı zavodunun təməli qoyulub. Layihənin ümumi investisiya həcmi 35 milyon dollar təşkil edir. Bundan əlavə, İsrailin "Bio-Pharmax" şirkəti ilə Ələt Azad İqtisadi Zonasında, dəyəri 45 milyon avro olan əczaçılıq müəssisəsinin tikintisinə başlanılıb. AİŞ-in iştirakı ilə Türkiyənin "Demirören" şirkəti ilə regionlarda kiçik su elektrik stansiyalarının bərpası və istismarı üzrə 15 milyon ABŞ dolları məbləğində investisiya yatırılması planlaşdırılır. İsrail şirkəti ilə damazlıq yumurta istehsalı üzrə 20 milyon manatlıq investisiya qoyulması da nəzərdə tutulur. Həmçinin, dövlət-özəl tərəfdaşlığı çərçivəsində dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı üzrə pilot layihəsinin həyata keçirilməsi üzrə işlər davam edir.

Azərbaycan Prezidenti daim xarici şirkətləri ölkəyə dəvət edir və onların biznes fəaliyyətlərinə şəxsən təminat verdiyini vurğulayır. 44 günlük Vətən müharibəsindən sonra işğaldan azad olunan ərazilərdə bərpa və yenidənqurma işlərinə başlanılıb. Bu işlərin əsasını nəqliyyat və kommunikasiya əlaqələrinin bərpası və bu əlaqələrin ən müasir tələblərə uyğun şəkildə qurulması təşkil edir. Eyni zamanda, yeni yaşayış yerlərinin inşası da bu prosesin mühüm hissəsidir. Dövlət investisiyaları ilə yanaşı, yerli və xarici sərmayələrin cəlb edilməsi, işğaldan azad edilmiş ərazilərdə iqtisadi və sosial infrastrukturun yenidən qurulması, həmçinin əhalinin məşğulluğunun təmin edilməsi məqsədilə aparılan işlər prioritet olaraq həyata keçirilir. 2021-ci il dekabrın 10-da Prezident İlham Əliyev "İşğaldan azad olunmuş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Sərəncam imzalayıb. Bu sərəncama əsasən, işğaldan azad edilmiş ərazilərdə özəl sektorun təşviq edilməsi, investisiya təşviq mexanizmlərinin təkmilləşdirilməsi hədəflənib. Sərəncamın məqsədi, bu ərazilərdə iqti-

sadi canlanmanı sürətləndirmək və investisiyaların cəlb edilməsini artırmaqdır. Eyni zamanda, müasir və effektiv istehsal, ticarət və xidmət infrastrukturunun yaradılması, innovativ texnologiyaların tətbiqi, sənaye potensialının inkişaf etdirilməsi və sahibkarlıq mühitinin yaxşılaşdırılması üçün əlverişli şəraitin formalaşdırılması nəzərdə tutulur [4].

## Yekun

Azərbaycanın qeyri-neft sənayesində investisiya fəaliyyətinin inkişafı, ölkə iqtisadiyyatının şaxələndirilməsi və dayanıqlı infrastrukturun yaradılması baxımından mühüm əhəmiyyət kəsb edir. Son illərdə qeyri-neft sektoruna yönəldilən investisiyalar, həm daxili, həm də xarici investorların marağını cəlb etməklə, iqtisadiyyatın inkişafını dəstəkləyən mühüm amillərdən birinə çevrilmişdir. Dövlət tərəfindən həyata keçirilən təşviq mexanizmləri, vergi güzəştləri və regional inkişaf proqramları, biznes mühitinin yaxşılaşdırılması və investorların cəlb edilməsi istiqamətində müsbət nəticələr doğurmuşdur. Lakin, investisiya mühitində hələ də bəzi çətinliklər mövcuddur, xüsusən infrastruktur məsələləri və maliyyə resurslarına çıxışda bəzi maneələr var. Bu maneələrdən biri də yerli məmurların sahibkarlıq fəaliyyəti ilə məşğul olmasıdır. Bu, investisiya cəlbediciliyini aşağı salır. Fikrimizcə, bu qadağan olunmalıdır. Belə ki, yerli məmur sahibkarlıq fəaliyyəti ilə məşğul olan zaman öz vəzifəsindən sui-istifadə edir və digər sahibkarları bazarda sıxışdırır, nəticədə bazarda sahibkarlar arasında rəqabət mühiti yaranmır. Belə olan halda isə iqtisadiyyata investisiya qoyuluşunda azalma baş verir. Təklif edirəm ki, yerli məmurlar sahibkarlıq fəaliyyətindən kənarlaşdırılsın.

Ölkələrin iqtisadi inkişafı və sağlam cəmiyyət üçün təhlükə yaradan ən dağıdıcı quvvələrdən biri – korrupsiyadır. Müvafiq qanunvericilik aktlarını qəbul etməklə həm korrupsiyanı təqib edən, həm də hökumət səlahiyyətlərindən ixtiyari və qeyri-qanuni istifadə edilməsinə nəzarət edən qurum kimi fəaliyyət göstərəcək müstəqil təsisatlar yaratmaqla ölkələr korrupsiyanın qarşısnı ala bilər.

Bu çətinliklərə baxmayaraq, qeyri-neft sənayesindəki investisiya fəaliyyətinin gələcəkdə daha da artacağı və sektoral şaxələndirmənin təmin edilməsi məqsədilə əlavə tədbirlərin görülməsi gözlənilir. Gələcəkdə bu sahəyə daha çox diqqət ayrılmalı, innovasiyaların tətbiqi və rəqabət qabiliyyətinin artırılması üçün müvafiq addımlar atılmalıdır. Bu yolla, qeyri-neft sənayesi ölkə iqtisadiyyatının əsas dayaq sütunlarından birinə çevriləcəkdir.

**Açar sözlər:** *investisiya, qeyri-neft sənayesi, ÜDM, iqtisadi, hüquqi.*

## Ədəbiyyat siyahısı:

*1. https://unctadstat.unctad.org/CountryProfile/GeneralProfile/en-GB/031/index.html*
*2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi- Sosial, İqtisadi İnkişaf (doklad_2024-07 səh 7).*
*3. https://fed.az*
*4. https://respublika-news.az/az/news/1714807495-xarici-investorlari-celb-eden-boyuk-potensial*
*5. İbad Abbasov, Tərbiz Əliyev- Qeyri-Neft Sənayesinin İqtisadiyyatı*
*6. https://www.stat.gov.az/source/industry/*
*7. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin tərtib etdiyi 2024-cü il yanvar-sentyabr ayları üzrə Azərbaycanda Sənaye sahəsi.*

**G.R.Isgandarova**
***PhD student, UNEC***
***ibrahimligunay03@gmail.com***

## Current state of investment activities in the non-oil sector

## SUMMARY

This article analyzes the current state of investment activity in Azerbaijan's non-oil sector and its development prospects. It examines the strategic steps taken in recent years to develop the non-oil sector and measures to attract foreign investments. The article also discusses the key factors driving investment in the non-oil sector, as well as the challenges faced by this sector, including legal, economic, and structural difficulties. Furthermore, it highlights the tax incentives, investment promotion mechanisms, and regional development programs as key tools for improving the business environment in the non-oil sector. The article concludes with recommendations for the future development of investment activity in the non-oil sector.

**Keywords:** *investment, non-oil sector, GDP (Gross Domestic Product), economic, legal.*

**Гюнай Искендерова**
***Докторант, UNEC***
***ibrahimligunay03@gmail.com***

## Текущее состояние инвестиционной деятельности в несырьевом секторе

**РЕЗЮМЕ**

Эта статья анализирует текущее состояние инвестиционной деятельности в несырьевом секторе экономики Азербайджана и перспективы его развития. В статье рассматриваются стратегические шаги, предпринятые в последние годы для развития несырьевого сектора, а также меры, направленные на привлечение иностранных инвестиций. В статье также обсуждаются основные факторы инвестирования в несырьевой сектор, а также трудности, с которыми сталкивается эта отрасль, включая юридические, экономические и структурные проблемы. Кроме того, рассматриваются налоговые льготы, механизмы стимулирования инвестиций и региональные программы развития как основные инструменты для улучшения делового климата в несырьевом секторе. В заключении статьи представлены рекомендации для дальнейшего развития инвестиционной деятельности в несырьевом секторе.

**Ключевые слова:** *инвестиции, несырьевой сектор, ВВП (Валовой внутренний продукт), экономический, юридический.*

UOT: 338.364
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0151

# MÜASİR DÖVRDƏ AZƏRBAYCANDA QEYRİ-NEFTQAZ SEKTORU SAHƏLƏRİNDƏ RƏQƏMSAL İQTİSADİYYAT MEXANİZMLƏRİNİN TƏTBİQİ MƏSƏLƏLƏRİ

**EMİN MƏHƏRRƏMOV**
*Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin doktorantı*
*E-mail: eminmag1999@gmail.com*

Hazırda Azərbaycanda rəqəmsal iqtisadiyyat ölkənin iqtisadi sisteminin inkişafı üçün tamamilə yeni model kimi getdikcə populyarlaşır. Ölkə əhalisinin sayının artması və müxtəlif resursların istehlakı ilə rəqəmsal iqtisadiyyat həyatın demək olar ki, bütün sahələrinə, o cümlədən elm, təhsil, tibb, tikinti, nəqliyyat, kənd təsərrüfatı və s. öz təsirini göstərir: Məsələn, artıq internet vasitəsilə həkim qəbuluna yazılmaq, insanlar evdən çıxmadan distant təhsil ala, həmçinin onlayn sənədləri doldurub maliyyə xidmətləri ala bilərlər. Bunlar rəqəmsallaşma proseslərinin ölkənin davamlı inkişafında necə önəm daşıdığının bariz nümunəsidir. Rəqəmsallaşma sürətlə inkişaf edən müasir dünyada əsas vasitə kimi ön plana çıxır və iqtisadiyyatda böyük dəyişikliklərə səbəb olur. Yeni termin kimi istifadə edilən "rəqəmsal iqtisadiyyat" texnoloji innovasiyalara və rəqəmsal biliklərə əsaslanan yeni iqtisadiyyat formasıdır. İqtisadiyyatın bu forması yüksək səviyyəli İKT infrastrukturunun inkişaf etdirilməsini və onun istifadəçilərin xeyrinə səfərbər edilməsini təmin edir, cəmiyyəti, dövlət və biznesi əhatə etməklə yeni rəqəmsal bilik və bacarıqlar formalaşdırır [1, s.60]. Rəqəmsal iqtisadiyyat texniki tərəqqi, qlobal şəbəkə və informasiya sistemlərinin vasitəçilik etdiyi iqtisadi əlaqələrin seqmentidir. Ancaq rəqəmsallaşma texnologiyalar və alətlər kimi komponentlərdən istifadə etmədən mümkün deyil. Onlar dövlətlə əhali, banklar və müəssisələr arasında vasitəçi olur, qarşı tərəflər zəncirini qısaldır və qərarların qəbulu sürətini artırır.

Azərbaycanda özünün rəqəmsal potensialını reallaşdırmaq və ölkə iqtisadiyyatının rəqəmsallaşdırılması prosesini sürətləndirmək baxımından bütün lazımi şərait vardır. Yeni texnologiyalar dövlət idarəçiliyinin inkişafına, biznesin və insanlar arasında sosiallaşmanın və ünsiyyətin yeni formalarının yaradılmasına, onların həyat keyfiyyətinin yüksəldilməsinə önəmli təsir göstərir. Azərbaycanın özünün zəruri elmi və intellektual bazası var və rəqəmsal iqtisadiyyatda effektiv infrastrukturun yaradılması üçün kifayət qədər təşkilati və texnoloji həllər vardır [2, s.87]. Bundan əlavə, rəqəmsal iqtisadiyyat müəyyən mexanizmlərə malikdir ki, onların da hər birinin özünün tətbiq istiqamətləri vardır. Ümumilikdə rəqəmsal iqtisadiyyat mexanizmləri Azərbaycanda müəssisə və təşkilatların daha səmərəli və çevik fəaliyyətini təmin edir, əmək məhsuldarlığını artırır, coğrafi imkanları genişləndirir və yeni biznes modelləri yaradır. Onlar həm də geniş məlumat çeşidinə və rahat onlayn xidmətlərə çıxışı olan istehlakçılar üçün vacibdir. Rəqəmsal iqtisadiyyat Azərbaycan iqtisadiyyatının ayrılmaz hissəsidir və biznesin, elm və texnologiyanın inkişafına önəmli təsir göstərir. Onun davamlı inkişafı və həyatın bütün sahələrinə inteqrasiyası gələcək üçün yeni imkanlar və çağırışlar vəd edir. Bunlara əsaslanaraq müasir dövrdə Azərbaycanda qeyri neft-qaz sektoru sahələrində rəqəmsal iqtisadiyyat mexanizmlərinin tətbiqi istiqamətlərinin araşdırılması böyük önəm daşıyır.

Rəqəmsal iqtisadiyyat mexanizmlərinin bəzi üstünlüklərini fərqləndirmişik:

1. Biznes proseslərinin səmərəliliyinin artırılması: Rəqəmsal texnologiyalar prosesləri avtomatlaşdırmağa və optimallaşdırmağa imkan verir, onların icrasını sürətləndirir və resurs xərclərini azaldır. Buraya istehsal proseslərinin avtomatlaşdırılması, monitorinq və məlumatların təhlili, inventarların idarə edilməsi və s. daxildir. Rəqəmsal iqtisadiyyat sayəsində biznes daha çevik və səmərəli olur.

2. İnformasiya və xidmətlərə çıxışın yaxşılaşdırılması: Rəqəmsal texnologiyalar dünyanın istənilən yerindən məlumat və xidmətlərə çıxışı mümkün edir. Onlar insanlara lazımi məlumatları tez və rahat şəkildə əldə etməyə, onlayn rejimdə mal və xidmətlər almağa, ünsiyyət qurmağa və uzaqdan işləməyə imkan verir. Bu, istehlakçılar üçün rahatlığı və əlçatanlığı artırır, həmçinin biznes üçün coğrafi sərhədləri genişləndirir.

3. İnnovasiyaların tətbiqi üçün yeni imkanlar yaradılması: Rəqəmsal texnologiyalar innovasiyaların yaradılması və tətbiqi üçün yeni imkanlar açır. Onlar biznesə yeni məhsul və xidmətlər hazırlamağa,

mövcud olanları təkmilləşdirməyə, məlumatları proqnozlaşdırmağa və təhlil etməyə, müştərilərlə qarşılıqlı əlaqəni yaxşılaşdırmağa və s. imkan verir. Bu, iqtisadi inkişafa töhfə verir, rəqabəti stimullaşdırır və həyat standartlarını yaxşılaşdırır.

Rəqəmsal iqtisadiyyat mexanizmləri informasiyanı emal etmək, ötürmək və saxlamaq, həmçinin rəqəmsal məzmun yaratmaq və onlayn xidmətlər göstərmək üçün istifadə olunan müxtəlif texnologiya və platformalardır. Bu alətlər müasir iqtisadiyyatların inkişafında və fəaliyyətində əsas rol oynayır. Rəqəmsal iqtisadiyyatın əsas vasitələrindən biri internetdir. O, insanlar, müəssisələr və cihazlar arasında məlumat və ünsiyyətə sürətli çıxış imkanı verir, həmçinin veb proqramlar, onlayn mağazalar və sosial şəbəkələr kimi digər rəqəmsal iqtisadiyyat alətləri üçün də əsasdır.

Rəqəmsal iqtisadiyyatın fundamental mexanizmlərinə isə bunları aid etmişik:

1. Böyük verilənlər. Bu terminin ilk dəfə 2008-ci ildə ortaya çıxmasına baxmayaraq, bununla bağlı məlumatlar əvvəllər mövcud idi. Lakin qlobal məlumat axınının artması ilə belə böyük həcmdə məlumatların işlənməsi zərurəti yarandı. Bu gün dünyada böyük verilənlər anlayışı təhlil obyekti, daha dəqiq desək, ənənəvi metodlardan istifadə etməklə öyrənilməsi mümkün olmayan heterogen və sürətlə daxil olan böyük həcmli rəqəmsal informasiya deməkdir.

2. Süni intellekt. Süni intellekt, o cümlədən maşın öyrənmə sahəsindəki inkişaflar, müxtəlif hesablama alqoritmlərindən istifadə etməklə geniş spektrli tədqiqat obyektlərinin davranışını təhlil etməyə və proqnozlaşdırmağa imkan verən böyük həcmli rəqəmsal məlumatlarla təmin edilir. Süni intellekt artıq səsin tanınmasında və müxtəlif kommersiya məhsullarında istifadə olunur. İqtisadçıların proqnozlarına görə, 2030-cu ilə qədər bu texnologiya dünyada təqribən 13 trilyon dollarlıq qlobal iqtisadi effekt yarada biləcək ki, bu da əlavə olaraq illik ÜDM artımını 1,2% artıracaq [3, s.22].

3. Blokçeyn. Bu texnologiya ilk dəfə 2009-cu ildə istifadə edilmiş, anonim və təhlükəsiz kriptovalyuta əməliyyatları üçün əsas rolunu oynamışdır. Kriptovalyuta elektron, virtual sikkə kimi səciyyələndirilə bilər ki, bu da kopyalana bilməyən və şifrlənmiş məlumatdır. Blokçeyn demək olar ki, istənilən kriptovalyutada istifadə olunur və onun işinə zəmanət verir. Artıq yüzlərlə kriptovalyuta yaradılıb və bu say artmaqda davam edir. Lakin blokçeyn texnologiyasından istifadə imkanları təkcə kriptovalyutalarla məhdudlaşmır. Blokçeyn müqavilələrin, əməliyyatların, məlumatların və ya köçürmələrin rəqəmsal kadastrının saxlanması məqsədilə istifadə edilən bir vasitədir. Onun üstünlüyü və fərqi cəhəti ondan ibarətdir ki, zəncirin bütün iştirakçıları ona ayrıca giriş imkanına malikdirlər, səlahiyyətlərin iyerarxik bölgüsü, sistemdəki digər iştirakçıların xəbəri olmadan məlumatların saxtalaşdırılması ehtimalını aradan qaldırır. Bu texnologiya mütəmadi olaraq yenilənən qeydlər siyahısını saxlamağa qadirdir ki, belə məlumat siyahılarına bloklar deyilir. Bloklar bir-biri ilə bağlıdır və bütün məlumatlar geri dönməz şifrələnməyə məruz qalır.

4. İntellektual informasiya texnologiyaları (İİT). İİT dedikdə, süni intellekt alqoritmlərindən istifadə etməklə müxtəlif verilənləri emal edə bilən texnologiyalar başa düşülür. İİT-nin köməyi ilə adətən yalnız insan intellektinin nəzarətində olan situasiyaları formalaşdırmaq və tənzimləmək mümkün olur. Ümumiyyətlə qəbul edilir ki, bu texnologiyalar qərara dəstək sistemləri və süni intellektin birgə praktik tətbiqi nəticəsində yaranıb, onların birləşməsi qərar qəbulunun effektivliyinin artmasına kömək edir. Bu tip texnologiyaların əsas vəzifəsi hər hansı tətbiqi sahədə tədqiqatçıların və insan cəmiyyətinin nailiyyətlərindən istifadə edərək istifadəçi üçün vacib məlumat əldə etməkdir.

5. FinTech. Müasir iqtisadiyyatın bir neçə sektoru texnologiya və qloballaşma baxımından bank və maliyyə kimi müqayisə edilə bilər. Ən böyük bankların çoxmilli şəbəkəsi sayəsində bank innovasiyası bütün dünyada sürətlə yayılır. Mobil tətbiqlərin və ucuz bulud texnologiyalarının yayılması FinTech məhsul və xidmətlərini daha da əlçatan edir. Bir çox ölkələr elektron ödənişlər və pul köçürmələri, kreditləşdirmə, investisiyalar və digər maliyyə xidmətləri üçün öz İKT məhsullarını inkişaf etdiriblər.

6. Əşyaların interneti. Bu termin əsasən 2008-2009-cu illərdə meydana çıxmışdır. Əşyaların İnterneti dedikdə, insanın iştirakı olmadan bir-biri ilə və ya xarici mühitlə əlaqə saxlaya bilən fiziki obyektlərdən (əşyalardan) ibarət şəbəkə nəzərdə tutulur. Burada vacib olan, məlumatları müstəqil şəkildə ötürə bilən cihazların muxtariyyətidir. Bu texnologiya müxtəlif fəaliyyət sahələrində prosesləri avtomatlaşdırmaq və insan iştirakını onlardan kənarlaşdırmaqla iqtisadiyyatın məhsuldarlığını artırmağa yönəlib. Əşyaların interneti texnologiyası

digər texnologiyalardan əhəmiyyətli üstünlüklərə malikdir: o, istehlak bazarında, istehsal və ticarətdə geniş yayılmışdır [4, s.109].

7. Bulud texnologiyaları. Onlar yüksək internet sürəti ilə təmin edilən, istifadəçilərlə uzaq məlumat mərkəzləri arasında sabit əlaqə yaratmağa imkan verən paylanmış hesablama texnologiyalarıdır. Bulud texnologiyaları rəqəmsal iqtisadiyyat üçün mühüm vasitədir. Onlar məlumatları istifadəçinin kompüterlərində və ya cihazlarında yerli olaraq deyil, uzaq serverlərdə saxlamağa və emal etməyə imkan verir. Bu, məlumatların və proqramların əlçatanlığını artırır və aparat və infrastruktur xərclərini azaldır.

Rəqəmsal iqtisadiyyat mexanizmlərinin inkişafı informasiya texnologiyalarının (İT) istifadəsinə əsaslanır. Onsuz rəqəmsal iqtisadiyyatın inkişafını təsəvvür etmək mümkün deyildir. Məlumdur ki, İT sahəsi hazırda sürətlə inkişaf edən sahələrdən biridir. İT sahəsinin sürətli inkişafı istismarda olan avadanlıqların sürətlə köhnəlməsi və nəticədə onların utilizasiyası problemi yaradır ki, bu da əlavə xərclərə gətirib çıxarır. Azərbaycanda İT-lərin istehsalı demək olar çox az olduğundan onların əsas hissəsini xarici ölkələrdən idxal edir. Azərbaycanda rəqəmsal iqtisadiyyatın inkişafı İT-lərə tələbatı artırır ki, bu da xarici ölkə təchizatçılardan texnoloji asılılığın artmasına və bununla da müəssisə, region və bütövlükdə ölkə səviyyəsində iqtisadi və texnoloji təhlükəsizliyin zəifləməsinə gətirib çıxara bilər [5, s.51].

Rəqəmsal iqtisadiyyatın inkişafına ciddi maneələrdən biri İT sahəsində yüksəkixtisaslı, innovativ kadrların yetərli qədər olmamasıdır. Məhz bu kimi səbəblərdən Azərbaycan hələ də rəqəmsal iqtisadiyyatın inkişafında kifayət qədər uğur qazana bilməyib. Rəqəmsal iqtisadiyyatın inkişafı ilə bağlı qeyd olunan problemlər və təhlükələr onların aradan qaldırılması istiqamətində tədbirlərin görülməsini önəmli vəzifə kimi qarşıya qoyur. Rəqəmsal iqtisadiyyat müasir qlobal iqtisadiyyatın demək olar bütün sahələrinə, o cümlədən, təhsil, səhiyyə, nəqliyyat, pərakəndə ticarət, bank işi, enerji və s. kimi müxtəlif sektorlara təsir edir. Rəqəmsal iqtisadiyyatın inkişafının əsasını təşkil edən İKT-dir və o, iqtisadi artıma getdikcə daha önəmli töhfə verir. İKT əşyaların internetini və sabit, mobil və yayım şəbəkələrini birləşdirən getdikcə daha çox cihaz və obyektlərlə qarşılıqlı əlaqə və şəxsi münasibətləri reallaşdırma üsullarını dəyişir [6, s.23].

Müasir cəmiyyətdə İKT ictimai həyatın bütün sahələrinə, o cümlədən təhsilə təsir göstərir. Təhsilin bütün səviyyələrində İKT-yə xüsusi diqqət yetirilir, çünki bu, digər sahələrdə və bütövlükdə cəmiyyətdə informasiyalaşdırma proseslərinin uğurlu inkişafı üçün şərtdir. Sosial institut kimi təhsil intellektual potensialın təkrar istehsalının əsasını təşkil edir, ona görə o, dinamik inkişaf edən cəmiyyətin maraqlarına cavab verməli və işçilərin və işəgötürənlərin şəxsi maraqlarını nəzərə almaqla sürətli inkişafa yönəldilməlidir. Təhsil almaqla insan sürətlə inkişaf edən texnologiyalara daha yaxşı uyğunlaşır və yenilikləri daha həvəslə qəbul edir [7, s.9-10].

Bütün dövrlərdə təhsil sahəsi cəmiyyətin inkişafının ayrılmaz tərkib hissəsi olaraq qalır. Müasir təhsil mühiti tədrisin yeri və formasını seçmək azadlığını, ali məktəbə qəbulun mövcudluğunu, o cümlədən təlimin innovativ formalarının tətbiqi imkanlarını, fərdi metodların seçilməsi imkanlarını əks etdirən təşkilati yenilikləri nəzərə almalıdır. Təhsil sahəsində İKT aşağıdakı məqsədlər üçün istifadə olunur: bütün səviyyələrdə təhsil prosesinin intensivliyini artırmaq; tələbələrin şəxsi inkişafı, onların dinamik inkişaf edən cəmiyyətdə həyata hazırlanması; tədris fəaliyyətinin informasiya və metodiki təminatının təkmilləşdirilməsi; tələbələrin təlim prosesinə motivasiyasının artırılması.

Rəqəmsal iqtisadiyyatı təşkil edən əsas mexanizmlərin tətbiq olunduğu sahələrdən biri elektron ticarətdir. Satışın avtomatlaşdırılması texnologiyaları və istehsalın idarəetmə sistemlərinin avtomatlaşdırılması elektron ticarətin yaranmasına səbəb olmuşdur. Elektron ticarət dedikdə, əməliyyat iştirakçılarının elektron prosedurlardan istifadə etməklə müəyyən hərəkətləri yerinə yetirməsi başa düşülür. Elektron ticarət anlayışı geniş mənada kompüter şəbəkələrindən istifadə etməklə müəssisələr, ev təsərrüfatları, fiziki şəxslər və dövlət təşkilatları arasında malların ticarəti kimi qəbul edilir. Elektron ticarətin predmeti təkcə mallar deyil, habelə xidmətlərdir: informasiya, konsaltinq, maliyyə, hüquqi, tibbi, təhsil, nəqliyyat və s. Elektron ticarət anlayışına həm də yazılı mətnlərin, audio və video məzmun, istehsal proseslərinin monitorinqi, sifarişlərin yerinə yetirilməsi, bank və pul köçürmələrinin aparılması, dövlət satınalmaları, elektron birjaların fəaliyyəti və s. daxildir. Elektron ticarətin məqsədləri bunlardır: davamlı gəlir əldə etmək üçün yeni kanalların yaradılması, əməliyyat xərclərinin azaldılması, məhsul və xidmətlərə daxil olmaq üçün vaxtın azaldılması,

ünsiyyətin sadələşdirilməsi, müştərilərlə qarşılıqlı əlaqənin davamlılığının təmin edilməsi, bazar payının artırılması, qiymət üstünlüklərinin təmin edilməsi və rəqabət qabiliyyətinin artırılması. Elektron ticarət müxtəlif səviyyələrdə kompüter şəbəkələrində baş verən bütün rəqəmsal əməliyyatları əhatə edir. Elektron ticarətin inkişafı ölkə üçün mühüm istiqamətdir, çünki yerli biznes strukturları bu yolla öz məhsullarını daxildə və xaricdə satırlar.

Rəqəmsal iqtisadiyyatın kommersiyalaşdırılması ilə əlaqədar olaraq iqtisadiyyatın real və maliyyə sektorlarında önəmli dəyişikliklər baş verir. Maliyyə-bank sistemində əsas rəqəmsal xidmət növlərinə daxildir: onlayn sığorta xidmətləri. Buraya daxildir: əmlak, avtomobil, həyat, müəssisə və təşkilatların işçiləri üçün sığorta, tibbi sığorta, yük sığortası və s.; internet bankçılıq. Bu, elektron ödəniş sistemləri vasitəsilə müştəri hesablarına yerləşdiyi ərazidən asılı olmayaraq məsafədən xidmət göstərilməsini nəzərdə tutur; internet ticarəti - əmtəə, fond və valyuta birjalarında internet vasitəsilə ticarətə birbaşa çıxışı nəzərdə tutur); internet marketinq - istehlakçıların alıcılıq qabiliyyətini, iqtisadiyyatın real sektorunun müəssisələri və maliyyə təşkilatları tərəfindən rəqibləri, portalları, xidmətləri, malların reklamını, onlayn mağazalarını, internet saytlarını və s. öyrənmək məqsədilə istifadə olunur); internet auksionları (onlayn hərraclarda potensial alıcılar öz qiymətini təyin edirlər və mallar ən yüksək təklif qiymətinə satılır). Satışın belə forması Avropa İttifaqı ölkələrində və ABŞ-da geniş yayılmışdır; virtual ofislər (ofis sahəsinə qənaət etməyə imkan verir və işçilər telekommunikasiya və kompüterlərdən istifadə edərək evdə öz vəzifələrini yerinə yetirə bilərlər) və s.

## Yekun

Beləliklə, müasir rəqəmsal dövlət idarəetmə sisteminin yaradılması vətəndaşlara yaranan problemləri onlayn həll etməyə imkan verir. Müasir iqtisadi şəraitdə rəqabət aparmaq və inkişaf etmək üçün müəssisə və təşkilatlar rəqəmsal iqtisadiyyatın və İT-nin inkişafı sahəsində səriştələrini dinamik şəkildə inkişaf etdirməli, cari istifadə üçün işçi potensialının inkişafının əsas istiqamətlərini artırmalı, yeni mənbələrdən xarici mühit haqqında daha ətraflı məlumat əldə etməlidirlər. Bu istiqamətlərdə bir qrup amillər və prioritetlər ön plana çıxır:

- Rəqəmsal dövlət idarəetmə sisteminin yaradılması ölkənin bütün sahələrinin, o cümlədən qeyri-neft sektorunun inkişafına da töhfə verə bilər.
- Dövlət sektorunda istifadə olunan informasiya texnologiyaları, rəqəmsal xidmətlər və məhsulların təhlili göstərir ki, rəqəmsal transformasiya dövlət orqanlarının fəaliyyətinin səmərəliliyini artıra bilər.
- Rəqəmsal transformasiyanın uğuru, ilk öncə, dövlət xidmətlərinin göstərilməsi prosesində idarəetmə problemlərinin yüksək keyfiyyətli həllindən asılıdır.
- İndiki mərhələdə Azərbaycanda dövlət idarəçiliyi sahəsində rəqəmsal texnologiyaların və platforma həllərinin fəal şəkildə tətbiqi əsas prioritet vəzifədir.
- Bu baxımdan ölkəmizdə rəqəmsal hökumətin inkişafı konsepsiyası rəqəmsal dövlət idarəçiliyi sisteminin inkişafı üçün ilkin şərtləri yaradır ki, bu da ölkənin rəqəmsal inkişafının makroiqtisadi problemlərini, bütün fəaliyyət sahələrində rəqəmsal texnologiyaların səmərəli şəkildə tətbiqi ilə bağlı vəzifələri həll etməyə qadirdir və s.

**Açar sözlər:** *Azərbaycan, qeyri-neftqaz sektoru, rəqəmsal mexanizmlər, rəqəmsal iqtisadiyyat, yüksək texnologiyalar, internet resursları.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Talıbova M. Rəqəmsal iqtisadiyyatın inkişafı: Azərbaycanda rəqəmsal iqtisadiyyatın cari vəziyyəti və gələcək perspektivlər. İqtisadi islahatlar Elmi analitik jurnal, (2021/1) № 1, s.60-68*

*2. Cəmilzadə Ş.V. Rəqəmsal iqtisadiyyat və onun inkişafında dövlətin rolunun gücləndirilməsi istiqamətləri. SDU-nun Elmi xəbərləri, cild 16, №3, 2020, s.85-88*

*3. Криштаносов, В.Б. Цифровая экономика: современные направления, динамика развития, вызовы / В. Б. Криштаносов // Труды БГТУ. Серия 5: Экономика и управление. – 2020. – № 1(232). – С. 13-30*

*4. Крюкова, А. А. Инструменты цифровой экономики / А. А. Крюкова, Ю. А. Михаленко // Карельский научный журнал. – 2017. – Т. 6, № 3(20). – С. 108-111*

*5. Əliyev T.Q. Rəqəmsal iqtisadiyyat: mahiyyəti və inkişaf perspektivləri. Audit, 2022, 1 (35), s.46-53.*

*6. Qasımlı V., Talıbova M., Quliyeva G., Müseyibov A., Mirzəyev F., Qədəşov A., Əhmədova G. Rəqəmsal iqtisadiyyat. Bakı: ”Azprint”nəşriyyatı, 2023, 262 s.*

7. Алешкина, О.В. Цифровизация общества: роль и перспективы образования / О.В. Алешкина, К.В. Апокина // Экономика и управление: научно-практический журнал. – 2019. – № 4(148). – С. 8-11.

**Эмин Магеррамов**
***Докторант Азербайджанского Государственного Университета Нефти и Промышленности***
***E-mail: eminmag1999@gmail.com***

**Вопросы применения механизмов цифровой экономики в ненефтегазовых секторах Азербайджана в современных условиях**

**РЕЗЮМЕ**

В статье рассматриваются вопросы применения механизмов цифровой экономики в ненефтегазовых секторах Азербайджана в современных условиях. Представлены проблемы развития ненефтегазового сектора и показана их сущность. Рассмотрены приоритеты развития ненефтегазовых секторов на основе цифровых механизмов. Раскрыта сущность и дана примерная структура цифровой экономики. Обобщены характеристика распространённых форм и направлений действия цифровых механизмов. Определены направления и выдвинуты предложения по интенсификации применения механизмов цифровой экономики в ненефтегазовых секторах Азербайджана в ближайшем будущем

**Ключевые слова:** *Азербайджан, ненефтегазовый сектор, цифровые механизмы, цифровая экономика, высокие технологии, интернет-ресурсы.*

**Emin Magerramov**
***Doctoral student of Azerbaijan State Oil and Industry University***
***Email: eminmag1999@gmail.com***

**Issues of application of digital economy mechanisms in non-oil and gas sectors of Azerbaijan in modern conditions**

**SUMMARY**

The article discusses the issues of applying digital economy mechanisms in non-oil and gas sectors of Azerbaijan in modern conditions. The problems of development of the non-oil and gas sector are presented and their essence is shown. The priorities of development of non-oil and gas sectors based on digital mechanisms are considered. The essence and approximate structure of the digital economy are explained. The characteristics of common forms and directions of action of digital mechanisms are given. In the near future, directions are defined and proposals are put forward to intensify the application of digital economy mechanisms in the non-oil and gas sectors of Azerbaijan.

**Key words:** *Azerbaijan, non-oil and gas sector, digital mechanisms, digital economy, high technologies, internet resources.*

UOT: 338.36:338.33
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0154

# MÜASİR DÖVRDƏ AZƏRBAYCANDA KİMYA VƏ NEFT-KİMYA SAHƏSİNİN MÖVCUD VƏZİYYƏTİNİN TƏDQİQİ

**MÜQƏDDƏS ƏZİZZADƏ**
*Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin doktorantı*
*E-mail: muqeddes.azizzade080@gmail.com*

Qeyd edək ki, Azərbaycan iqtisadiyyatı bir sıra sahələrdən ibarətdir ki, bunlar arasında sənaye xüsusi yer tutur. Müasir şəraitdə Azərbaycan iqtisadiyyatının inkişafının davamlılığı yalnız onun müxtəlif sahələrinin, xüsusən də sənayenin fəal inkişafı əsasında mümkündür. Sənaye kompleksi istənilən ölkənin iqtisadiyyatında önəmli rol oynayır, onun dünya birliyində yerini, sosial sabitliyini, əhalinin həyat səviyyəsini və keyfiyyətini müəyyənləşdirir. Sənaye artımının sabitliyi və texnoloji liderliyi investisiyaların həcmindən, burada istifadə olunan texnologiyalardan xeyli dərəcədə asılıdır. Azərbaycanda əsas sənaye sahələri arasında kimya və neft-kimya sahəsi xüsusi rol oynayır. Ölkənin kimya və neft-kimya sahəsi, bir qayda olaraq, iri kimya və neft-kimya kompleksləri olan aparıcı müəssisələrdən ibarətdir. Bu sektor iqtisadiyyatın önəmli sahəsi kimi müxtəlif məhsullar, o cümlədən plastik, kauçuk, sintetik liflər və neft və qaz əsaslı digər məhsullar istehsal edir. Kimya və neft-kimya sahəsi xalq təsərrüfatının kimyəvi və neft xammalının emalı əsasında məhsul istehsal edən sahəsidir. Digər sənaye sahələri ilə müqayisədə yüksək texnologiya, tənzimləmə mürəkkəbliyi, əhəmiyyətli kapital qoyuluşu ilə xarakterizə olunur [1, s.179].

Kimya və neft-kimya sahəsi ölkə sənayesinin inkişafının əsas mühərriklərindən biridir və iqtisadi, müdafiə və sosial baxımdan böyük önəm daşıyır. Onun inkişafı sayəsində bir çox sənaye sahələri lazımi xammal ilə təmin edilir. Bundan əlavə, ölkənin ən mühüm makroiqtisadi göstəricilərinin formalaşmasında önəmli rol oynayır. Müasir kimya və neft-kimya sahəsi müxtəlif xüsusiyyətlərlə xarakterizə olunur ki, bunlara daxildir:

**Qloballaşma**. Kimya və neft-kimya sahəsinin qloballaşması aşağıdakı proseslərdə təcəssüm olunur: kimya və neft-kimya sintezi sahəsində aparıcı qlobal şirkətlər tərəfindən hazırlanmış və tətbiq edilən müasir texnologiyalar həmin sənayeni inkişaf etdirməkdə maraqlı olan istənilən ölkə üçün əlçatan olmalıdır; məhsulların regionlararası axınları tarazlaşır, beynəlxalq ticarət paralel olaraq beynəlxalq rəqabətin güclənməsi ilə inteqrasiya olunur; regional bazarlarda yeni istehsalçıların və rəqiblərin meydana çıxması ilə əlaqədar kapitalın səfərbərliyi baş verir.

Son illər qloballaşma proseslərinin dərinləşməsi, COVID-19 kimi pandemiyaların yayılması, maliyyə-iqtisadi böhranların güclənən nəticələri dünya iqtisadiyyatında yeni meyillərin və meyarların formalaşmasını zərurətə çevirmişdir. Əgər ölkənin təbii sərvətləri azdırsa və ya milli resurslarla bağlı çətinlikləri varsa, bu proseslərdə qlobal rəqabətədavamlı qalmaq üçün çox çətin problemləri həll etməlidir. Milli və nisbətən təbii sərvətlərlə zəngin olan ölkələr bu nemətləri obyektiv və düzgün qiymətləndirməli, onlardan səmərəli istifadə məqsədilə milli maraqlar çərçivəsində məhsulların istehsalı və ixracını təşkil etməklə sistemli yanaşma təmin edilməlidir. Qlobal rəqabət şəraitində dünya əmtəə bazarlarında davamlılıq meyarlarına cavab verməyən məhsulların ixracının sabitliyi qeyri-mümkündür. Bu meyarlara əsaslanaraq belə qənaətə gəlinir ki, qloballaşma şəraitində qeyri-neft sektorunun əsas sahələrindən olan kimya və neft-kimya sahəsinin istehsal-ixrac potensialından istifadənin artırılması baxımından Azərbaycan hələ də sabit mövqeyə malik deyil [2, s.13].

**Konsolidasiya** - Bu proses kimya və neft-kimya sahəsində, eləcə də onunla əlaqəli sənayelərdə müəssisələrin inteqrasiyasını ifadə edir. İri layihə həllərinin reallaşdırılması məqsədilə müxtəlif tərəfdaşlıq formaları, o cümlədən konsorsiumlar, ittifaqlar, klasterlər formalaşdırılır.

**Tsiklik** - Bu xüsusiyyət kimya və neft-kimya sahəsinə xas olan növbəti xarakterik xüsusiyyətdir. Baş vermiş dəyişikliklərin təhlili bizə optimal strateji qərarlar hazırlamağa imkan verir. Tədqiq etdiyimiz sahə məhsullarının istehsalında artıb-azalmalar baş verir. İstehsal həcmini sabit saxlamaq üçün yeni məhsulların yaradılması məqsədilə daim axtarışda aparılmalıdır. Kimya və neft-kimya sahəsində texniki yetkinliyə nail olunma. Texnologiyanın daim təkmilləşdirilməsi həmin sahə məhsullarının istehsalı zamanı son məhsulun yüksək məhsuldarlığına nail olunması, onların keyfiyyətinin yüksəldilməsi,

çeşidinin genişləndirilməsi deməkdir. **Ətraf mühitin mühafizəsi amilinin təsirinin gücləndirilməsi**. Ölkənin iqtisadi inkişafında önəmli rol oynayan ən böyük komplekslərdən biri olan kimya və neft-kimya sahəsi ekoloji vəziyyətə mənfi təsir göstərir, atmosferə zərərli maddələrin atılmasına görə əsas sənaye sahələrindən hesab olunur. **Qiymət amilinin təsirinin davam etməsi**. Karbohidrogen qiymətlərinin dəyişməsinin əsas səbəbi kimya və neft-kimya məhsullarının istehsalının ölkə iqtisadiyyatına əhəmiyyətli təsir göstərməsi ilə bağlıdır [3, s.75 ].

Azərbaycanın iri kimya və neft-kimya müəssisələrinin dinamikliyi və gələcək inkişafı bilavasitə neft və qaz emalı sənayesinin inkişafından asılıdır. Öz növbəsində neft emalının inkişafı bağlanmış neft müqavilələrinin uğurla reallaşdırılması ilə bağlıdır. Neft emalının dərinliyinin artırılması xammalın kompleks istifadəsi üçün geniş imkanlar yaradır və müvafiq olaraq müvafiq neft-kimya sahəsinin səmərəli inkişafına kömək edir. Xammal potensialı nöqteyi-nəzərindən yerli kimya və neft-kimya istehsalının sürətli artım üçün hər cür şansı var. Hazırda Azərbaycanda kimya və neft-kimya sahəsinin inkişaf səviyyəsini müəyyənləşdirmək məqsədilə onun bir sıra göstəricilərinin qiymətləndirilməsi zəruridir, hansı ki, həmin göstəricilər tədqiq etdiyimiz sahə müəssisələrinin səmərəlilik səviyyəsini xarakterizə edir. İstehsalın təşkilində səmərəlilik bu sənayedə uğur əldə etmək üçün önəmli amildir. İstehsal səmərəliliyinin əsas göstəricilərinə məhsuldarlıq, məhsulun keyfiyyəti, istehsal xərclərinin azaldılması və əməyin mühafizəsinin yaxşılaşdırılması kimi amillər daxildir. İstehsalın səmərəliliyinin qiymətləndirilməsi müxtəlif üsullarla, o cümlədən maliyyə, iqtisadi və əməliyyat göstəriciləri ilə reallaşdırıla bilər. Maliyyə göstəricilərinə mənfəət, rentabellik, istehsalın maya dəyəri və s.; iqtisadi göstəricilərə istehsal xərclərinin azaldılması, məhsuldarlığın artması və s.; əməliyyat göstəricilərinə istehsal proseslərinin səmərəliliyi, məhsulun keyfiyyəti və əməyin mühafizəsi kimi göstəricilər daxil ola bilər [4, s.163].

Müasir dövrdə kimya və neft-kimya sahəsinin səmərəliliyini qiymətləndirmədən həmin sahədə iqtisadi sabitlik mümkün deyil. Həmin sahə müəssisələrinin səmərəliliyinin təhlili daxili iqtisadi nəzəriyyə və təcrübədə böyük önəm daşıyır. Bu, onun inkişaf etdirilməsinin zəruriliyi ilə əlaqədardır, burada müəssisənin sağ qalmasının açarı onun maliyyə sabitliyidir. Müəssisə ödəmə qabiliyyətinə malik olarsa və maliyyə cəhətdən sabitdirsə, o zaman investisiyaların cəlb edilməsi, kreditlərin alınması, təchizatçıların seçilməsi və ixtisaslı kadrların seçilməsi baxımından eyni profilli təşkilatlarla müqayisədə bir sıra üstünlüklərə malikdir [5, s.12]. Müəssisə nə qədər səmərəli fəaliyyət göstərsə, bazar konyunkturasının dəyişməsi riskindən bir o qədər müstəqildir və buna görə də müflis olma ehtimalı bir o qədər azdır. Kimya və neft-kimya sahəsinin səmərəliliyinin qiymətləndirilməsi onların idarəetmə və maliyyə idarəçiliyinin əsas elementidir, bunun əsasında inkişaf strategiyası, investisiyaların cəlb edilməsi və istifadəsi, müəssisənin inkişafı və modernləşdirilməsi formalaşır. Kimya və neft-kimya sahəsinin səmərəliliyinin qiymətləndirilməsi həmin müəssisələrin iqtisadi vəziyyətini, öz öhdəliklərini öz vəsaitləri hesabına ödəmək qabiliyyətini, cəlb edilmiş vəsaitlərin səviyyəsini, habelə müxtəlif iqtisadi göstəricilərin və əmsalların hesablanmasına əsaslanır.

Fikrimizcə, kimya və neft-kimya müəssisələrinin səmərəliliyinin qiymətləndirilməsinə aşağıdakılar daxildir: analitik balansın qurulması, balansın aktiv və passivlərinin təhlili, balansın aktivləri və öhdəlikləri arasında əlaqənin qiymətləndirilməsi, maliyyə sabitliyi göstəricilərinin, neft emalının səmərəliliyinin təhlili, müəssisənin maliyyə sabitliyi səviyyəsinin müəyyənləşdirilməsi, nəticələrin təhlili.

Şəkil 1 vasitəsilə Azərbaycanın kimya və neft-kimya sahəsinin mövcud vəziyyətini xarakterizə edən bəzi göstəriciləri təhlil edək.




**Şəkil 1. Azərbaycanda kimya və neft emalı müəssisələri üzrə məhsul buraxılışı [6].**

Şəkil 1-dən görürük ki, ölkə üzrə 2023-cü ildə 6140,6 milyon AZN dəyərində kimya və neft emalı məhsulları istehsal olunub ki, bunun 73,7%-i kimya, 26,3%-i isə neft emalı müəssisələri üzrədir. 2015-

ci ildə bu nisbət müvafiq olaraq 87,5% və 12,5%, 2022-ci ildə isə 70,7% və 29,3% olmuşdur. Şəkil 2-dən hər iki sahə müəssisələri üzrə buraxılmış məhsulun dəyər həcmində davamlı artımını görmək olar. Yalnız 2020-ci ildə COVID-19 pandemiyası səbəbindən özündən əvvəlki ilə nisbətdə neft emalı məhsullarının həcmində azalma müşahidə olunub (6,6%).

Kimya və neft emalı müəssisələrinə investisiya qoyuluşlarının təhlili də böyük maraq doğururur (şəkil 2.).




**Şəkil 2. Azərbaycanda kimya və neft emalı müəssisələri üzrə məhsul buraxılışı [6].**

Şəkil 2-dən görürük ki, kimya və neft emalı müəssisələrinə qoyulan investisiyaların həcmi qeyri-bərabər artmışdır. Tədqiq etdiyimiz illərdə neft emalı müəssisələrinə investisiya qoyuluşları kimya müəssisələrinə nisbətdə çox olmuşdur. Yalnız 2020-ci ildə bu nisbət əksinə olmuşdur, yəni həmin ildə bu sənaye sahələrinə ümumilikdə 1891,8 milyon AZN dəyərində investisiya yönəldilib ki, bunun 75,5%-i kimya, 24,5%-i isə neft emalı müəssisələrinin payına düşmüşdür. 2020-ci ildə kimya müəssisələrinə investisiya həcmi özündən əvvəlki ilə görə 6,8 dəfə çox artmışdır. Əgər nəzərə alsaq ki, istənilən sənaye sahəsinin inkişafının əsas amili investisiya qoyuluşudur, onda həmin vəsaitlərin cəlb edilməsinin prioritet vəzifələrdən biri olduğunu deyə bilərik. Göstəricilərin təhlili Azərbaycanda kimya və neft-kimya sahəsinin inkişaf potensialının mövcud olduğunu deməyə əsas verir. Bu potensialın artırılması bir sıra strateji önəm daşıyan tədbirlərin görülməsini zərurətə çevirir.

Yüksək texnologiyaların formalaşdırılması əsasında kimya və neft-kimya sahəsinin modernləşdirilməsi onların inkişaf etdirilməsinin strateji istiqamətidir. Həmin müəssisələrin inkişafı üçün müasir yüksək səviyyəli texnologiyaların tətbiqi əsasında modernləşdirilməsi onların iqtisadi inkişafının lazımi tempini və keyfiyyətini təmin etməyə imkan verir [7, s.69]. Kimya və neft-kimya sahəsinin inkişafındakı meyillər ölkə iqtisadiyyatında bazar münasibətlərinin formalaşması və inkişafı prosesləri ilə əlaqələndirilir. Kimya və neft-kimya sahəsinin fəaliyyətinin səmərəliliyinin artırılmasının önəmli amili istehsalın modernləşdirilməsi yolu ilə onun inkişaf etdirilməsidir ki, bu da istehsal məsrəflərinin azalmasına önəmli dərəcədə təsir edəcəkdir.

Azərbaycanda kimya və neft-kimya sahəsinin inkişafına töhfə verə biləcək istiqamətlərə daxildir:

- ən son elm və texniki nailiyyətlərə əsaslanan, ekoloji cəhətdən təmiz və təhlükəsiz, enerjiyə qənaət edən texnologiyaların tətbiqi ilə yüksək səmərəli istehsalın inkişafı;
- mühəndislik və texnologiya, idarəetmə, marketinq, maliyyə və kommersiya sahələrində yüksək-ixtisaslı kadr potensialının formalaşdırılması və inkişafı;
- xammal kimi propilen və polipropilendən (boru sənayesi, elektrotexnika, tibb, qablaşdırma və s.) istifadə etməklə son məhsulların istehsalı üçün sənaye sahələrinin sürətləndirilmiş inkişafı üçün ilkin şərtlərin yaradılması;
- Azərbaycan Respublikasının kənd təsərrüfatının mineral gübrəyə olan tələbatının tam ödənilməsi;
- yeni yaradılacaq iş yerlərinin sayının və büdcəyə vergi daxilolmalarının artırılması;
- əhalinin istehlak mallarına tələbatının təmin edilməsi;
- yeni sosial infrastruktur obyektlərinin yaradılması, kiçik və orta biznesin inkişafı;
- yeni yüksək likvid məhsulların buraxılması hesabına respublikanın ixrac potensialının genişləndirilməsi;
- müasir neft və qaz emalı kompleksinin tikintisi;
- Avropada analoqu olmayan qabaqcıl texnologiyaya əsaslanan müasir istehsal müəssisələrinin yaradılması və s.

## YEKUN

Beləliklə, kimya və neft-kimya sahəsinin inkişafının verə biləcəyi töhfələri nəzərə alaraq, burada elmi-texniki inkişafın yüksək səviyyədə təmin edilməsi, innovasiya fəaliyyətinin nəticələrinin təkmilləşdirilməsi zəruridir ki, bu məqsədlə aşağıdakı istiqamətlərdə tədbirlərin görülməsini təklif edirik:

- milli iqtisadiyyatda struktur dəyişikliklərinin

reallaşdırılması və bunun üçün şəraitin yaradılması;
- innovasiya sektorunun maliyyələşdirilmə həcminin artırılması;
- dövlət innovasiya proseslərinin tənzimlənməsi və dəstəklənməsi;
- neft-kimya sahəsində yeni inkişafların idarə olunmasının səmərəli formalarından istifadə;
- kimya və neft-kimya sahəsindəki istehsalçıların həmin sahə məhsullarının rəqabət qabiliyyətinin və keyfiyyətinin artırılması və s.

Kimya və neft-kimya sahəsinin Azərbaycan iqtisadiyyatında oynadığı rolu nəzərə alaraq, yaranan maliyyə-təsərrüfat və istehsal problemlərinin vaxtında həlli tələb olunur ki, bu məqsədlə ən səmərəli təşkilati-təsərrüfat mexanizmlərindən ibarət ən qabaqcıl və müasir idarəetmə üsullarından istifadə etmək lazımdır. Ölkəmizin iqtisadiyyatı üçün ən əhəmiyyətli olan bu sahənin davamlı və effektiv inkişafını təmin etməkdir və s.

**Açar sözlər:** *kimya, neft-kimya, kimya və neft-kimya, neft-kimya kompleksinin vəziyyəti, kimya sahəsinin problemləri, kimya və neft-kimya sahəsinin inkişaf perspektivləri.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Гундарева, А.В. Особенности анализа финансового состояния предприятий химической промышленности / А.В. Гундарева // Экономика будущего: тренды, вызовы и возможности: материалы II Всероссийской научной конференции с международным участием, – Казань, – 23–24 мая 2024, – с. 179-183.*

*2. Şəkərəliyev A.Ş. İxracın strukturunun qeyri-neft məhsulları hesabına genişləndirilməsi istiqamətləri. Qərb Universiteti, Elmi xəbərlər, – 2017. № 1, – s.5-15.*

*3. Марданшин, Р.Г. Особенности современной нефтехимической промышленности / Р.Г. Марданшин, Д. Джано // Эффективные системы менеджмента: качество и цифровые интеллектуальные системы: материалы IX Международного научно-практического форума, – Казань, 15–16 апреля 2021, – с. 73-76.*

*4. Кодзоев, Р.А. Методы оценки эффективности нефтехимического производства / Р.А. Кодзоев // Формирование конкурентной среды, конкурентоспособность и стратегическое управление предприятиями, организациями и регионами: Сборник статей VIII Международной научно-практической конференции, – Пенза, 15–16 мая 2023, – с. 163-166.*

*5. Усманова, Г.Р. Оценка эффективности деятельности нефтеперерабатывающего предприятия / Г. Р. Усманова // Вестник экономики и менеджмента. – 2019. № 3-4, – с. 12-15.*

*6. ARDSK. [Elektron resurs]/ URL: https://www.stat.gov.az/source/industry/ARDSK.*

*7. Əliyev, Ş.T. Azərbaycanda neftkimya emal müəssisələrinin rəqabətqabiliyyətinin artırılması yolları / Ş.T. Əliyev // Elmi Xəbərlər. Sosial və Humanitar Elmlər Bölməsi. – 2024. – Cild 20, №. 1, – s. 67-72.*

**МУГАДДАС АЗИЗЗАДЕ**
***Докторант Азербайджанского Государственного Университета Нефти и Промышленности***
***E-mail: muqeddes.azizzade080@gmail.com.***

**Резюме**

**Исследование состояния химической и нефтехимической промышленности Азербайджана в современном периоде**

В статье иследованы современное состояние сферы химии и нефтехимии в Азербайджане в современных условиях. Проанализированы процессы развития и состояние дел химической и нефтехимической отраслей. Исследован потенциал развития химического и нефтехимического комплекса и отмечена важность принятия мер по добавочной производственной цепочке. Раскрыта проблемы, замедлящие развитие химической и нефтехимической отраслей, и указаны пути их решения. Даны направления по интенсификации развития химической и нефтехимической промышленности Азербайджана с учетом новых задач.

**Ключевые слова:** *химия, нефтехимия, химия и нефтехимия, состояние нефтехимического комплекса, проблемы химической отрасли, перспективы развития химической и нефтехимической отрасли.*

**MUGADDAS AZIZZADE**
***Doctoral student of Azerbaijan State Oil and Industry University***
***E-mail: muqeddes.azizzade080@gmail.com***

**Summary**

**Research of the state of chemical and petrochemical industry of Azerbaijan in the modern period**

The article studies the current state of the sphere of chemistry and petrochemistry in Azerbaijan in modern conditions. The processes of development and the state of affairs of chemical and petrochemical industries have been analysed. The potential of development of chemical and petrochemical complex has been investigated and the importance of taking measures on additional production chain has been noted. The problems slowing down the development of chemical and petrochemical industries are revealed and the ways of their solution are indicated. Directions on intensification of development of chemical and petrochemical industry of Azerbaijan taking into account new tasks are given.

**Key words:** *chemistry, petrochemistry, chemistry and petrochemistry, state of the petrochemical complex, problems of the chemical industry, prospects for the development of the chemical and petrochemical industry.*

Fəlsəfə və Sosiologiya

UOT: 364-78
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0157

# SOSİAL İŞİN İCRASI ÜÇÜN ADEKVAT SOSİAL MÜHİTİN YARADILMASININ METODOLOJİ ASPEKTLƏRİ

**SAMİR HƏSƏNOV**
*Fəlsəfə üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Fəlsəfə və sosial elmlər kafedrasının baş müəllimi*

*E-mail: samir-gasanov-63@mail.ru*
*orcid.org/0000-0001-5211-8359*

## Giriş

Tədris prosesi zamanı həm iş proqramlarında, həm də təlimatlarda və monoqrafiyalarda cəmiyyətin müxtəlif sahələrində insanların həyat və fəaliyyəti onun ayrılmaz bir sosial komponenti kimi bir sistemi təşkil edir. Bununla əlaqədar olaraq təqdim edilən məqalədə onları aşağıdakı kimi təsnif etmək olar:

1. İstehsal, istehsal və sosial infrastruktur sahəsində sosial iş texnologiyaları;
2. Məşğulluq texnologiyasının xüsusiyyətləri;
3. Səhiyyə sahəsində sosial iş texnologiyaları;
4. Təhsil sahəsində texnologiyaların spesifikliyi;
5. Elm sahəsində sosial iş texnologiyaları;
6. Mədəniyyət sahəsində sosial iş texnologiyalarının xüsusiyyətləri;
7. Mədəni və istirahət sahəsində sosial iş texnologiyaları;
8. Xüsusiyyətlər, texnologiya, sosial iş, güc struktur cəmiyyətlər;
9. Penitensiar sistemdə sosial iş texnologiyalarının xüsusiyyətləri;
10. Şəhər və kənd yerlərində, aralıq məskunlaşma formalarında sosial iş texnologiyalar;
11. İstehsalat-texnoloji sahələrdə çalışanlar arasında aparılan sosial iş;
12. Sosial-etnik münasibətlər sosial mühit kimi;
13. Məişət xidmətləri sahəsində sosial iş texnologiyalarının xüsusiyyətləri.

Məqalədə sosial işin təşkilində diqqətdən yayınan boşluqlara münasibət bildirilmiş və müvafiq tövsiyələr verilmişdir. Sosial iş obyektini daha geniş nəzərə alaraq müvafiq tədris kursunun yalnız çətin həyat vəziyyətində olan əhali qrupları üçün deyil, həm də cəmiyyətin zəruri sosial strukturun mühiti nəzərə alınmışdır.

Əsas material və nəticələr. Sosial sahə sosial mühitin tərkib hissəsi kimi onun quruluşuna daxil olan bir neçə komponent aşağıdakı kimi təsnif edilmişdir:

a) sosial fəaliyyət;
b) sosial struktur;
c) sosial infrastruktur;
d) fərdi sosial münasibətlər [xarici].

Bu komponentlərin hər birinin məzmununu qısaca olaraq aşağıdakı formada izah edək.

Ümumiyyətlə, sosial iş fəaliyyəti sosial reallığın mövcudluğu və inkişaf yolu deməkdir, sosial həyatın təzahürü, ətraf mühitin məqsədyönlü əks olunması və dəyişdirilməsidir. Bu fəaliyyətin əsas xüsusiyyətləri sosial məkana adekvat şüurluluq (məqsədyönlülük), məhsuldarlıq və sosial xarakterlilikdir. Bu xüsusiyyəti nəzərə alaraq təhlil zamanı sosial fəaliyyəti bütövlükdə sosial sferaya, bütün digər fəaliyyət növlərinin sosial aspektlərinin həyata keçirilməsinə yönəlmiş kimi qəbul edilməsi məqsədəmüvafiqdir. Bunun xüsusi təzahürü insanlara zamanında yardım, sosial dəstək, insanların sosial müdafiəsi, onların yaşayışı üçün normal şəraitin yaradılmasına yönəlmiş sosial işlərdə öz əksini tapır. Cəmiyyətin sosial quruluşu sosial sferanın tərkib hissəsi kimi (yalnız bu sahə deyil) obyektiv olaraq mövcud əsas sosial siniflər və digər qruplar, təbəqələr və insan icmaları arasında sabit və nizamlı əlaqələrin məcmusudur. Toxunulan mövzunun kontekstində cəmiyyətin sosial quruluşunun bir-birindən bu və ya digər dərəcədə sosial cəhətdən fərqlənən xüsusiyyətlərə görə differensiasiyası əks etdirilir. Bu baxımdan sosial iş, insanların düşdüyü vəziyyətə (əlillik, qocalıq, xəstəlik, yoxsulluq və s.) görə sosial strukturda xüsusi yer tutan əhali qrupu və təbəqələri çərçivəsində müəyyən edilməsini nəzərdə tutur, onlarla sosial işin ən müxtəlif texnologiyalarından istifadəsinin icrasına münasibət bildirilir [1].

Sosial infrastruktur sosial sferanın tərkib hissəsi kimi insanın cəmiyyətdə - istehsalatda, siyasi və mənəvi sahələrdə, ailədə, məişətdə yaşaması üçün şəraiti təmin edən maddi və qeyri-maddi elementləri təmsil edir. Bu, elm, təhsil, səhiyyə, ticarət, ictimai iaşə, məişət xidməti, mənzil-kommunal təsərrüfatı,

nəqliyyat, rabitə və s. kimi sənaye sahələrinin fəaliyyət məcmusudur.

Sosial münasibətlər sosial sferanın tərkib hissəsi kimi düzgün mənada insanlar, onların qrupları və təbəqələri arasında obyektiv inkişaf edən münasibətlər, onların cəmiyyətdə bərabərliyi (sosial) və qeyri-bərabərliyi, onların maddi, mənəvi və digər tələbatları, mövcudluq və inkişaf şərtlərinin fərdi, qrup, sinif dairəsində sosial ədalət prinsiplərinin həyata keçirilməsi, sosial ədalətin təmin edilməsi dərəcəsi deməkdir. Nəticə etibarı ilə sosial sferanın bu komponenti dəyərlərə, nemətlərə və xidmətlərə, təminatlara və fərdi hüquqlara, iş şəraitinə, təhlükəsiz həyatına, asudə vaxtına, sağlamlığına çıxış imkanları (hər bir şəxs, qrup, cəmiyyətin təbəqəsi üçün) kimi müəyyən edilə bilər. Peşə və yaşayış yeri seçimini müəyyən etmək imkanları, idarəetmədə iştirak, sosial və peşəkar yüksəliş (hərəkətlilik) fəaliyyətlərini təmin edir [2].

Sosial infrastruktur sosial sahənin bir hissəsi olaraq, cəmiyyətdə-istehsal, siyasi və mənəvi sahələrdə, ailədə, gündəlik həyatda insan həyatı üçün şərait yaradan maddi və mənəvi elementlərdir. Bu, elm, təhsil, səhiyyə, ticarət, iaşə, məişət xidməti, mənzil-kommunal təsərrüfatı, nəqliyyat, rabitə və s. kimi sahələrin məcmusudur.

Sosial münasibətlər müvafiq mənada, sosial sahənin bir komponenti olaraq insanlar, onların qrupları və təbəqələri arasında obyektiv inkişaf edən münasibətlər, cəmiyyətdəki bərabərliyi (sosial) və bərabərsizlik, sosial ədalət prinsiplərinin həyata keçirilməsi, maddi məmnuniyyət dərəcəsi, dini və digər xidmətlərə ehtiyacı olan insanlar, fərdin, qrupun, sinifin mövcudluğu və inkişafı şərtləri deməkdir. Nəticədə sosial sahələrin bu kimi komponentlərini konkretləşdirmək mümkündür. Hər bir şəxs, qrup, cəmiyyətin müxtəlif təbəqələri üçün dəyərli nemət və xidmətlər, fərdin zəmanətləri və hüquqları, iş və həyat şəraiti, asudə vaxtı, sağlamlığı, peşə və yaşayış yerini seçmək hüququnu müəyyənləşdirmək imkanları, idarəetmədə iştirak, sosial status və qabiliyyətinə müvafiq peşələrin təşviqi (hərəkətlilik) də bura aiddir [3].

Nəzərə almaq lazımdır ki, qloballaşma prosesi ilə xarakterizə olunan insan cəmiyyətinin hazırkı inkişaf mərhələsində qloballaşma bir tərəfdən sosial sahənin inkişafına kömək edir, digər tərəfdən, xüsusilə inkişaf etməmiş və ya inkişaf etməkdə olan ölkələrdə onun inkişafına və fəaliyyətinə mane olur. Ekvivalent olmayan mübadilə, qiymətlərin "qayçı"lanması və digər səbəblərə görə fərq gəlirlər baxımından inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrlə müqayisədə 10 dəfədən aşağıdır. İndi BMT-nin rəsmi olaraq müəyyən etdiyi yoxsulluq həddinin altında 3 milyarddan çox insan yaşayır. Gündəlik gəliri 2 dollardan azdır. Məsələn, hazırda postsovet məkanının (Baltikyanı ölkələr istisna olmaqla) sakinləri ABŞ və Avropa ölkələrinin sakinlərindən 30-40 dəfə kasıbdır [4].

Prezident İlham Əliyev 2030-cu ilə qədər ölkənin ÜDM-nin ikiqat artması əsasında ölkə əhalisinin sosial vəziyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdıra biləcək sosial-iqtisadi inkişaf strategiyasını təsdiq etmişdir. Bu strategiyaya əsasən 2030-cu ilə kimi əhalinin ən imkansız kateqoriyaları ayda 500 ABŞ dollarına yaxın müavinət almaq imkanı əldə edəcəklər [5].

Sosial işin vahid obyekti sosial sahə olaraq konkretləşdirilməsini vurğulayaraq onun əsas komponenetlərinə anlamaq üçün müxtəlif texnologiyalardan istifadə edilməsi məqsədəmüvafiqdir. Qeyd edilənlərdən ən əhəmiyyətliləri bunlardır:

- Sahə istehsal, xidmət və sosial infrastrukturlar. Bu sahəyə ətraf mühit, maddi və digər nemətlərin yaradılması daxildir; sənaye və kənd təsərrüfatı istehsalına, eləcə də əhaliyə xidmət edən iqtisadiyyatın bir sıra sahələri; cəmiyyətdə həyat şəraitini təmin edən maddi və qeyri-maddi dəyərlər: istehsal, siyasi və mənəvi sahələrdə, ailədə və gündəlik həyatda;
- Şəhər, kənd və aralıq məskunlaşma formaları. Sosial siyasət və sosial iş baxımından bu sahə insan həyatı üçün vacib olan ölçülər, yaşayış məntəqələri, onlarda əhalinin konsentrasiyası, inkişaf səviyyəsi - istehsal qüvvələri, istehsal növləri (sənaye və kənd təsərrüfatı və digərləri), abadlıq, nəqliyyatın, rabitə vasitələrinin və s. inkişafı nəzərə alınmalıdır;
- Səhiyyə sahəsi - sağlamlığın qorunması, xəstəliklərin qarşısının alınması, müalicəsi və insan ömrünün uzadılması üçün tədbirlər həyata keçirən dövlət, özəl və qarışıq müəssisə və qurumlar sistemi;
- Təhsil sahəsi, bütün növ və təlim formalarını əhatə edir, kadrların hazırlığı və yenidən hazırlığını həyata keçirən müvafiq infrastrukturlar;
- Sahə elmləri — həyata keçirilən elmi-tədqiqat institutları və laboratoriyaları, elmi xidmətlər göstərən mərkəzlər, dizayner və kouçinq büroları,

təbiətdə və cəmiyyətdə obyektiv bilik haqqında hadisə və prosesləri qiymətləndirməyi bacaran kollektivlər, ayrı-ayrı alimlər tərəfindən əsaslandırma və sistemləşdirmə təsisatları;

- Müvafiq sahələr üzrə mədəniyyət səviyyələri, o cümlədən insanların fəaliyyətinin obyektiv nəticələri (maşınlar, tikililər, bilik məhsulları, sənət əsərləri, əxlaq və hüquq normaları və s.), habelə bu fəaliyyəti həyata keçirən işçilər və onların qabiliyyətləri (bilik, bacarıq, zəka səviyyəsi, mənəvi və estetik inkişaf, dünyagörüşü, insanların ünsiyyət üsulları və formaları);

- Mədəni istirahət sahələri - qeyri-iş vaxtının bir hissəsini istirahət və əyləncə üçün istifadə etmək üçün yerlər (kütləvi istirahət müəssisələrini ziyarət etmək, turlar və kütləvi tədbirlərə tamaşa etmək, rəqs, oxu və s.), yaradıcılıq və həvəskar fəaliyyətlər, bədən tərbiyəsi, idman oyunlarının təşkilini əhatə edən bütün infrastrukturlar;

- Cəmiyyətin güc strukturları - ordu, hərbi donanma, sərhəd bölmələri, polis, xüsusi təyinatlılar və ölkə daxilindəki xarici düşmən qüvvələrdən və radikal müxalifətdən qoruyan digər güc bölmələri. Təbii ki, bura güc strukturlarının müvafiq funksiyalarının yerinə yetirilməsini təmin etmək üçün hazırlanmış güc bölmələrinin bütün infrastrukturları da daxildir;

- Penitensiar sistem - bunlara qanun pozuntusu və ya cinayət törətmiş insanların islah cəzalarını çəkdikləri islah və əmək müəssisələri, habelə cəzaların icrasını və cəzalandırılanların islah olunmasına (müsbət sosiallaşma) təmin edən fəaliyyətidir;

- Sosial-etnik mühit – Bura geniş mənada ictimai-siyasi və sosial fəaliyyət göstərən etnik birliklər, sosial əmək bölgüsü, istehsal üsulu (metodları), ictimai münasibətlər və qurumların məcmusu, ictimai şüur, müəyyən bir cəmiyyətin (cəmiyyətin) mədəniyyəti; dar mənada-birbaşa sosial-etnik icmanın, qrupun, təbəqənin mühiti, onların ayrı-ayrı nümayəndələri, ailə-məişət münasibətləri, kollektiv əmək və məskunlaşma, sosial və sosial-etnik xarakterli insanların müxtəlif qrupları daxil etmək olar;

- Əhaliyə məişət xidməti göstərən sahələr - xidmət sektorunun bir hissəsi, müvafiq müəssisə və müəssisələr tərəfindən qeyri-istehsal xidmətlərinin göstərilməsi (mənzil təmiri, paltarların təmizlənməsi, geyim, ayaqqabı, avtotexniki xidmət, iaşə, hamam xidmətləri, bərbərxanalar, çamaşırxanalar, fotoatelyelər, məişət texnikasının təmiri və s.) [6].

Bu sahələrin hər birində sosial iş obyekti kimi onların spesifikliyi nəzərə alınmaqla normal iş və istirahət şəraitinin yaradılması. Bu sahələrdə çalışan insanların və əhali qruplarının, təbəqələrinin bu sahələrlə birbaşa və ya dolayısı ilə əlaqəli tibbi və digər yardımların, dəstəyin, sosial müdafiənin göstərilməsi məsələləri həll olunur (həll edilməlidir) [7]. Nəticədə (sosial tədbirlərin həyata keçirilməsi yolu ilə) yaradılan normal həyat şəraitlərinin icrası insanların, onların müxtəlif qruplarının və təbəqələrinin müsbət sosiallaşması təmin edilir.

## Nəticə

Beləliklə, sosial sahə sosial işin bütün aspektləri və istiqamətləri ilə həyata keçirildiyi sosial məkan olması haqqında əsaslı nəticə çıxarmaq olar. Eyni zamanda, sosial məkanın həm geniş, həm də dar mənada şərh edildiyini xatırlatmaq yerinə düşər. Geniş mənada bu, insanın yaşayış mühiti kimi təbii sərvətin sosial inkişaf etmiş hissəsi, cəmiyyətin həyatının və insanın obyektiv dünyasının məkan-ərazi tərəfi, "yerləşdiyi yer" baxımından cəmiyyətin sosial quruluşunun xarakterik xüsusiyyətidir", sosial qrupların və təbəqələrin, onların inkişafı üçün şərait və imkanlardır. Sosial məkana vətəndaşların sosial maraqlarının müdafiəsini, onların sosial tələbatlarının reallaşdırılmasını bilavasitə təmin edən, insanın və cəmiyyətin potensialının reallaşdırılmasına sövq edən və ya əngəl törədən hər şey daxildir. Buna görə də bəşəriyyətin normal inkişafını təmin edən təbii məkanı qorumaq çox vacibdir. Dar mənada sosial məkan fərdlərin, qrupların və icmaların sosial inkişafı üçün şərait və imkanların mühüm xüsusiyyətlərini əhatə edən mühit deməkdir. Sosial məkanın elementləri insanı, vətəndaş cəmiyyətini, dövləti, regionları, milli və digər sosial-etnik idarəetmə subyektlərini, əmək və məişət birliklərini bilavasitə əhatə edən mühitdir.

**Açar sözlər:** *sosial iş, sosial məkan, sosial infrastruktur, cəmiyyət, peşə birlikləri, sosial-etnik birliklər.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Azərbaycan Respublikasının Konstitusiyası. 12 noyabr 1995-ci il.*

*2. Əhmədov Y. Sosial işin nəzəriyyəsi və təcrübəsi. Bakı, 2013, 144 s.*

*3. Campanini A., Sanfelici M. (a cura di) Promuovere le relazioni umane e la giustizia sociale. Contributi alla conferenza mondiale del 2021, Franco Angeli, Milano;*

*4. Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası. Bakı, 22 iyul, 2022.*

*5. BMT-nin 2023-cü il üçün ölkə üzrə illik hesabatı. https://azerbaijan.un.org/sites/default/files/2024-05/APR23_AZ.pdf*

*6. ILO. Chapter 5. Social protection. https://webapps.ilo.org/100/ru/story/protection/*

*7. Məmmədova R.O. Sosial işə giriş. Bakı, 2019. 360 s.*

**Samir Hasanov**

**METHODOLOGICAL ASPECTS OF CREATING AN ADEQUATE SOCIAL ENVIRONMENT FOR THE PERFORMANCE OF SOCIAL WORK**

**Summary**

The main goal of the article is to review some institutional aspects of creating the necessary environment for the effective functioning of social work, which plays an important role in the life of society in modern times, and to provide relevant recommendations and suggestions. It is reported that the rapid development of modern times, the progress of information and communication technologies, and the innovative processes implemented in different fields require the existence of new approaches that meet the requirements of the modern era in the teaching process. It is noted that at present, solving various problems in the social field on a scientific basis, institutionalizing social work activities and training specialists in this field are considered important issues.

The article used general methods of analysis to investigate the problem: comparative analysis of legal-normative documents, description of the environment, classification of components and generalizations.

For the first time, the author classified the components necessary to ensure the effective functioning of social work, and the principles of activity corresponding to this classification were drawn up.

Summarizing the objectives provided in the analysis, notes and comments, the author came to the conclusion that the social field is a social space or social environment where social work is carried out with all its aspects and directions. At the same time, it is noted that social space in a broad sense is a socially developed part of an important natural resource such as a person's living environment, a spatial-territorial aspect of the life of society and the objective world of a person, a characteristic feature of the social structure of society in terms of its "location", social groups and layers, conditions and opportunities for their development. In a narrow sense, social space means an environment that includes important features of conditions and opportunities for the social development of individuals, groups and communities. The elements of the social space are the environment that directly covers people, civil society, the state, regions, national and other socio-ethnic management subjects, labor and household associations. For this reason, it is said that it is an important duty of everyone to protect the natural space that ensures the normal development of humanity.

**Keywords:** *social work, social space, social infrastructure, society, professional associations, socio-ethnic associations*

**Самир Гасанов**

**МЕТОДОЛОГИЧЕСКИЕ АСПЕКТЫ СОЗДАНИЯ АДЕКВАТНОЙ СОЦИАЛЬНОЙ СРЕДЫ ДЛЯ ОСУЩЕСТВЛЕНИЯ СОЦИАЛЬНОЙ РАБОТЫ**

**Резюме**

Основной целью статьи является рассмотрение некоторых институциональных аспектов создания необходимой среды для эффективной деятельности социальной работы, играющей важную роль в жизни общества в современную эпоху, а также предоставление соответствующих рекомендаций и предложений. Отмечается, что стремительное развитие современности, прогресс информационно-коммуникационных технологий, инновационные процессы, реализуемые в различных сферах, требуют наличия новых подходов, соответствующих требованиям современности в учебном процессе. Указывает-

ся, что в настоящее время научно обоснованное решение различных проблем в социальной сфере, институционализация деятельности социальной работы и подготовка специалистов в этой области считаются важными вопросами.

На основе анализа поставленных целей, обобщения замечаний и комментариев автор пришел к выводу, что социальная сфера — это социальное пространство или социальная среда, в рамках которых реализуются все аспекты и направления социальной работы. В то же время отмечается, что социальное пространство в широком смысле представляет собой социально развитую часть жизненной среды человека как важного природного ресурса, пространственно-территориальный аспект жизни общества и объективного мира человека, а также характерную черту социальной структуры общества с точки зрения «места расположения». Это также условия и возможности для развития социальных групп и слоев. В узком смысле социальное пространство представляет собой среду, охватывающую важные особенности условий и возможностей для социального развития индивидов, групп и сообществ. Элементами социального пространства являются человек, гражданское общество, государство, регионы, национальные и другие социально-этнические субъекты управления, а также трудовые и бытовые объединения. В связи с этим подчеркивается, что охрана естественного пространства, обеспечивающего нормальное развитие человечества, является важной задачей для всех.

В статье использованы общие методы анализа для исследования проблемы: сравнительный анализ правовых и нормативных документов, описание среды, классификация компонентов и обобщения.

Автор впервые классифицировал компоненты, необходимые для обеспечения эффективного функционирования социальной работы, и разработал принципы деятельности, соответствующие данной классификации.

**Ключевые слова:** *социальная работа, социальное пространство, социальная инфраструктура, общество, профессиональные объединения, социально-этнические объединения.*

UOT: 316
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0158

# AZƏRBAYCANDA NEQATİV UŞAQLIQ TƏCRÜBƏLƏRİNİN YAŞANMA TEZLİYİNİN VƏ XÜSUSİYYƏTLƏRİNİN ARAŞDIRILMASI

**ÜLVİYYƏ MİRZƏYEVA**
*Azərbaycan Universiteti, dissertant*
*E-mail: ulviyya.mirzayeva@gmail.com*
*ulviyya.mirzayeva@au.edu.az*

Sağlam bir cəmiyyətə sahib olmaq istəyi hər kəsin istəyi olsa da, əksər hallarda biz buna nail olmaq istiqamətində çox önəmli olan bir məsələni çox zaman diqqətdən qaçırırıq. Bu gün hər bir ailədə, hər bir icmada tərbiyə olunan uşaq sabah həmin cəmiyyətin qurucusuna çevrilir və cəmiyyətdə baş verən bir çox problemlər, istər sosial, istərsə də sağlamlıq problemləri məhz həmin o uşağın necə tərbiyə olunduğunun nəticəsini əks etdirir. Gələcək nəsillərin sosial-iqtisadi, tibbi rifahını düşünürüksə gənc nəslin şəxsi keyfiyyətləri və sağlamlığının düzgün formalaşması üçün münbit mühitdə böyüməsinə xüsusi diqqət ayırmalıyıq.

Uşaqlıqda yaşadığımız hadisələr, qazandığımız təcrübələr, həmçinin onların bizə olan mənfi və müsbət təsirləri barədə çoxlu elmi məlumatlar mövcuddur. Bu gün Neqativ Uşaqlıq Təcrübələri (bundan sonra NUT) adlandırdığımız və insanın həyatında ciddi təsirləri olan yaşanmış təcrübələr elmi araşdırmaçıların diqqət mərkəzindədir. NUT-lar uşaqlıq dövründə, yəni 0-18 yaşlar arası dövrdə baş verən zorakılıq, sui-istifadə və ya laqeydlik, ailədə zorakılığın şahidi olmaq, ailə üzvünün intihara cəhd etməsi, vəfat etməsi, müharibə, təbii fəlakətlər və s. kimi potensial travmatik hadisələrdir. Uşaqlıqda baş verən belə travmatik hadisələr emosional olaraq ağrılı və ya narahatedici olmaqla yanaşı illər boyu davam edən təsirlərə malik ola bilir [1].

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatlarına əsasən, Neqativ Uşaqlıq Təcrübələri (NUT) uşaqların erkən yaşlarda məruz qala biləcəyi ən intensiv və tez-tez baş verən stress mənbələrindən biridir.

Davranışı öyrənən elm sahələrində və biotibbdə də həyatın erkən illərindəki psixo-sosial stresin fiziki sağlamlıq üzərində uzunmüddətli təsiri hipotezinə maraq getdikcə artır [2] [3].

NUT ilə bağlı olan uzunmüddətli sağlamlıq və sosial risklərin mövcudluğu danılmazdır. Uzun illər aparılmış araşdırmalar nəticəsində məlum olmuşdur ki, bir şəxs nə qədər çox Neqativ Uşaqlıq Təcrübələri barədə məlumat verirsə, həmin şəxsin yetkinlik yaşında ciddi psixi xəstəliyə tutulma ehtimalı da bir o qədər çox olur.

Nigeriyada 2010-cu ildə Bibilola D. Oladeji, Victor A. Makanjuola, Oye Gureje tərəfindən aparılan "Ailə ilə əlaqəli Neqativ Uşaqlıq Təcrübələri psixiatrik pozuntular üçün risk faktorları kimi" araşdırmasının nəticəsində ailədə zorakılığı əks etdirən valideyn cinayəti, valideynlərin psixi xəstəlikləri, valideynlərin narkotik aludəçiliyi kimi mənfi təcrübələri yaşayan uşaqların yetkinlik dövründə psixi sağlamlıq problemləri ilə qarşılaşma ehtimalının daha yüksək olduğu aşkar edilmişdir. Araşdırmaya cəlb olunmuş respondentlərin demək olar ki, yarısı 16 yaşından əvvəl ailə kontekstində Neqativ Uşaqlıq Təcrübəsi yaşadığı barədə məlumat vermişdir [4].

Başqa bir tədqiqatda da ümumilikdə 17.000-dən çox yetkin insanın tibbi nəticələri öyrənildikdən sonra onların uşaqlıqda ailə zorakılığı, sui-istifadə və ya etinasızlıq kimi stressorlarla, yəni bir sözlə NUT-la qarşılaşmış olub-olmamaları araşdırılmışdır. Tədqiqat nəticəsində məlum olmuşdur ki, erkən uşaqlıq dövründə, xüsusən 0-5 yaş arası dövrdə davamlı NUT-a məruz qalanlar arasında erkən ölüm hallarının [5], autoimmun pozğunluqların [6] rast gəlinməsi qarşılaşmayanlara görə 2.5 dəfə artıqdır.

ABŞ-da 18–34 yaş arası gənc yetkinlər arasında aparılan başqa bir tədqiqatda göstərilir ki, Neqativ Uşaqlıq Təcrübələri ürək-damar problemlərini və onun səbəblərini formalaşdıra bilər. Ümumiyyətlə ABŞ-da gənc yetkinlər arasında ölümün dördüncü ən yayılmış səbəbi ürək xəstəlikləridir. [7]

Həmçinin 2020-ci ildə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) yayımladığı ən son məlumatlara görə, Azərbaycanda koronar ürək xəstəliyi səbəbindən ölənlərin sayı 33.319 olmuşdur, bu da ümumi ölümlərin 42,39%-ni təşkil edir. Yaşa görə tənzimlənmiş ölüm nisbəti hər 100.000 nəfərə 388.41-dir və bu, kifayət qədər yüksək göstərici Azərbaycanın dünya üzrə 2-ci sırada bərqərar olmasına gətirib çıxarır [8].

Həmçinin son 35 il ərzində Azərbaycanda əhalinin üzləşdiyi problemlər: müharibə, qaçqınlıq, məcburi köçkünlük, Sovetlər birliyinin dağılması kimi cəmiyyətdə baş verən siyasi-iqtisadi dəyişikliklər kimi halların uşaqlıq dövründə yaşanan çoxşaxəli

NUT-lara səbəb olma ehtimalı danılmazdır.

Son illər, İsraildə yaşayan və Avropadan köç edən insanlarla bağlı bir araşdırma ortaya çıxmışdır. Müharibə sonrası İsraildə həyat sürən, xüsusən də Holokostda təqib olunan çox sayda yəhudi əsilli köçkünlər arasında xərçəng xəstəliyinin rastgəlmə tezliyinin yüksək olduğu müəyyən edilmişdir.1940–1945-ci illərdə doğulanların, yəni 5 yaşından əvvəl çox ağır şəraitlərə məruz qalan insanların arasında bu göstəricinin daha yüksək olduğu müşahidə edilmişdir. Bu şəxslərdə xərçəng xəstəliyinə tutulma hallarının müharibədən öncə dünyaya gəlmiş insanlara nisbətən 3,5 dəfə yüksək olduğu məlum olmuşdur [9].

Bu gün beynəlxalq təcrübədə yuxarıdakı kimi bir çox məsələlərdə NUT-un rolu araşdırılır.

Bu istiqamətdən yanaşmanın geniş vüsət alması və bu gün Azərbaycanın kardiovaskulyar xəstəliklər reytinqində ikinci sırada olması və yuxarıda qeyd etdiyimiz sosial siyasi dəyişikliklər bizi Azərbaycanda 0-18 yaş qrupu əhali arasında NUT-un yaşanma tezliyini araşdırılması sahəsində tədqiqat aparmamıza təkan verdi.

Tədqiqat aləti olaraq ACE-Q beynəlxalq sorğu aləti seçildi. Alətin respondentlərin özləri tərəfindən heç bir kənar müdaxilə olmadan asanlıqla doldurula bilir olması, anonimliyi onu tədqiqat üçün əlverişli etmişdir. Neqativ Uşaqlıq Təcrübələri Sorğusu (ACE-Q) 18 yaşından əvvəl müştərinin yaşadığı mənfi və ya travmatik təcrübələri ölçmək üçün 10 maddədən ibarət bir alətdir. ACE-Q, müştərinin uşaqlıqda psixoloji, fiziki və cinsi istismara məruz qalmasını, həmçinin ailə daxilindəki disfunksiyaları, o cümlədən ev zorakılığı, narkotik istifadə və həbsə girmə hallarını yoxlayır. [10]

Felitti V. J., Anda, R. F., Nordenberg D, Williamson D. F., Spitz A. M., Edwards V., Koss M. P., & Marks J. S. tərəfindən tərtib edilmiş bu alət 1998-ci ildə “Uşaqlıqda istismar və ailə disfunksiyasının yetkinlərdə ölümlərin aparıcı səbəbləri ilə əlaqəsi. Neqativ Uşaqlıq Təcrübələrinin (ACE) Araşdırması” adlı tədqiqatda da istifadə edilmiş və həmin tədqiqatın nəticəsi Amerika "Preventiv Tibb" jurnalında dərc edilmişdir [11].

2024-cü ilin avqust -oktyabr ayları arasında apardığımız tədqiqatımızda 491 nəfər 18 yaşından yuxarı olan respondent iştirak etdi. Respondentlərin suallara tam səmimi və sərbəst şəkildə cavab vermələri üçün sorğu anonimlik təmin edilməklə həyata keçirildi.

Azərbaycan konteksti nəzərə alınaraq şəhər və kənd yerlərində əhalinin yanaşma, təhsil, məlumatlılıq səviyyəsinin müxtəlif olmasını nəzərə alaraq, respondentlərin öz uşaqlıq dövrünü kənd və ya şəhərdə keçirmələri barədə də sual anket hissəyə əlavə edildi. İştirak edənlərin 50.2 %-nin şəhər, 19.6 %-nin rayon mərkəzi, 24.2 %-nin öz uşaqlıq dövrlərini kənddə keçirdikləri müəyyən edildi.

Sorğuda 19-65 yaş və daha böyük yaş qrupundan olan respondentlər iştirak etdilər. Onların yaş qrupları üzrə bölgüsü aşağıdakı diaqramda göstərildiyi kimidir:




Həmçinin respondentlər içərisində müəllim, həkim, vətəndaş cəmiyyəti nümayəndələri, reabilitasiya mütəxəssisləri, fermer, mühəndis, hüquqşünas, müxbir, dövlət qulluqçusu, saç ustası, vergi müfəttişi, tələbə, işsiz insanların da olduğu çox geniş bir spektri əhatə edir.

ASE-Q sorğu alətinin ilk sualı respondentlərin evdə 18 yaşınadək hər hansı emosional zorakılıqla üzləşib-üzləşməmələrini araşdırmaq məqsədi daşıyır və cavab olaraq 21.1% sualı “bəli” deyə cavablandırmışdır və uşaqlıq dövründə emosional zorakılıq yaşadığını təsdiqləmişdir.




İkinci sualda ailədaxili fiziki zorakılığa məruz qalma halı araşdırılmışdır. 20.8% şəxsin valideynləri və ya onlarla yaşayan hər hansı bir şəxs tərəfindən fiziki zorakılığa məruz qaldığı aydın olmuşdur.



3-cü sualda respondentdən 5 yaş böyük insan tərəfindən 18 yaşınadək seksual nəvazişə və ya cinsi zorakılığa məruz qalma halları araşdırılarkən 8.6% respondentin məruz qalma halları müəyyən edilmişdir. Buraya seksual xarakterli toxunma, nəvaziş, ənənəvi və qeyri-ənənəvi cinsi zorakılıq halları aid edilir.

3. Həyatınızın ilk 18 ilində səndən 5 yaş böyük insan nə vaxtsa ................ sənə toxunub, nəvaziş göstərib və ya seksual xarakterli başqa hərəkətlər e...ginal əlaqədə olub və ya olmağa cəhd edib?
491 ответ




4-cü olaraq uşaqlıq dövründə çox geniş yayılmış və zərərli olması hesab edilməyən və bir çox hallarda NUT hesab edilməyən sevgisizlik, qayğıdan məhrum olma kimi etinasızlığa məruz qalma halları araşdırılır. 25.5 % respondent etinasızlıqla üzləşdiyini etiraf etmişdir.

4. Həyatınızın ilk 18 ilində tez-tez hiss etmisən ki........................................ ailəndə heç kim səni sevmir, özəl hiss etmir ...ı göstərmir, dəstək göstərmir,onlar arasında bağlılıq yoxdur
491 ответ




5-ci sual daha ciddi və görünən ac qalma, gigiyena qaydalarına əməl edilməməsi, valideyn laqeydliyi (valideynlərin içki aludəçiliyi kimi hallarda) kimi etinasızlıq əlamətlərini araşdırır. Respondentlərin 5.5 %-i bu sualı “bəli” deyə cavablandırmışdır.

5. Həyatınızın ilk 18 ilində tez-tez hiss etmisen ki........................................ ac qalmısan, cirkli paltarlar geyinmisən, səni qoruyan ...r, ehtiyacın olduğunda səni həmişə götürməyiblər
489 ответов




Bildiyimiz kimi valideyn boşanmaları da göstərdikləri təsirə görə uşaqlıqda yaşanılan NUT hesab olunur. 6-cı sual məhz bu məsələni araşdırır. Respondentlərin 14.7 %-i tək valideynli ailədə yaşadıqları barədə məlumat vermişdir.

6. Həyatınızın ilk 18 ilində valideynərin nə vaxtsa ayrı yaşayıblar və ya ayrılıblar
491 ответ




7-ci sual valideyn tərəfindən göstərilən fiziki zorakılığın davamlı olma hallarını araşdırır. 9.6 % respondent yaşanılan fiziki məruz qalmanın davamlı olduğunu söyləmişdir.

7. Həyatınızın ilk 18 ilində anan və ya ögey anan tez-tez səni itələyib, şillələyib,nəyisə sən atıb və ya bəzən və ya tez...bir neçə dəqiqə davamlı olaraq vurub, biçaqla təh
489 ответов




8-ci sual respondentin zərərli vərdişləri olan bir şəxslə uşaqlıq dövründə münasibətinin olub-olmamasını aydınlaşdırır. 8.6 % respondent həyatlarının ilk 18 ilində alkoqol və ya narkotik problemi olan bir insanla bir yerdə yaşadığını söyləmişdir.

8. Həyatınızın ilk 18 ili ərzində sən alkoqol problemi və ya narkotik istifadə edən bir şəxslə nə vaxtsa bir yerdə yaşamısan?
491 ответ




9-cu sualda NUT hesab edilən ailədə psixi xəstələrin, əqli əlilliyi olan insanın olma ehtimalı və ya suisidə cəhd araşdırılır. 11.4 % respondent sualı “Bəli” deyə cavablandırmışdır.

9. Həyatınızın ilk 18 ili ərzində ailə üzvlərindən kimsə depresiyada olub və ya əqli problemli olu və ya suisidə cəhd edib?
491 ответ




Ailə üzvlərindən kiminsə həbsdə olması ehtimalını araşdıran 10-cu suala respondentlərin 3.5 %-i müsbət cavab vermişdir.

10. Həyatınızın ilk 18 ili ərzində ailə üzvlərindən kimsə həbsdə olub?
491 ответ




Yaşanılan NUT-ların sağlamlığa təsirinin öyrənilməsi üçün məlumatlar əldə edildikdən sonra hər bir iştirakçının topladığı ballar hesablandı və buna əsasən onların sağlamlıq riskləri, narkotik asılılığı və içki aludəçiliyi kimi hallara məruz qalma riski müəyyən edildi.

Respondentin balının yüksək olması (4 bal və daha yüksək) klinik əhəmiyyət kəsb edir, onun daha çox uşaqlıq dövrü mənfi təcrübələr yaşadığını və sağlamlıq, sosial və ya digər rifah problemlər üçün daha yüksək riskin olduğunu göstərir.

**Tədqiqatımızın nəticəsi olaraq respondentlərin 1 və daha artıq bal alaraq ailədaxili NUT-a məruz qalması prevalensinin 48.8%, NUT-la qarşılaşmamış respondentlərin prevalensinin 51.2%, olması məlum oldu.**

**Ballar üzrə prevalensə gəldikdə isə respondentlərin 31%-i bir NUT, 23.8%-i iki NUT,16.3%-i üç NUT, 12.1%-i dörd NUT, 6.3%-i beş NUT, 5.4%-i altı NUT, 1.3%-i yeddi NUT, 1.7%-i səkkiz NUT barədə məlumat verir.**

Beynəlxalq tədqiqatlara əsasən ACE-Q balı 0 olan insanlarla müqayisədə, ACE-Q balı 4 olan şəxslərin siqaret çəkmə ehtimalı iki dəfə, depressiya yaşama ehtimalı 5 dəfə, alkoqol asılılığı ehtimalı 7 dəfə, narkotik maddə istifadəsi ehtimalı 10 dəfə və intihara cəhd etmə ehtimalı 12 dəfə daha çoxdur.

**Ümumilikdə tədqiqatımızın nəticəsi həyatlarının ilk 18 ilində NUT yaşamış insanların 26.8% də (bütün NUT yaşayanlar içərisində 64 nəfərdə 4+ bal qeyd olunmuşdur) yüksək riskin olduğunu göstərir.**

Bu mövzuda olan beynəlxalq araşdırmalarda bütün böyüklərin əksəriyyəti (52%-75%) ACE-Q üzrə bir və ya daha yüksək bal alır (CDC, 2010; Edwards və digərləri, 2007; Ford və digərləri, 2011; Ramiro və digərləri, 2010; Rothman, Bernstein və Strunin, 2010). [12]

Başqa bir beynəlxalq tədqiqatda bu prevalensi araşdırmış olan digər tədqiqatlar (22 ölkədən 206 tədqiqat) öyrənilmişdir. Nəticədə NUT-ların beş səviyyəsinin ümumi prevalensi aşağıdakı kimi olmuşdur: NUT yaşamayanlar- 39.9%; bir NUT üçün 22.4%; iki NUT üçün 13.0%; üç NUT üçün 8.7% və dörd və ya daha çox NUT üçün 16.1% . [13]

Hughes və həmmüəlliflərinin 2017-ci ildə apardığı başqa bir tədqiqatda ümumi əhalinin az bir hissəsinin (5%-10%) 4 və ya daha yüksək bal alması diqqətə çatdırılır [14].

Beləliklə, müxtəlif araşdırmalara nəzər saldığımızda məlum olur ki, NUT-lar bütün populyasiyalarda ümumi əhali arasında geniş yayılmışdır, lakin onların prevalensi fərqliliklər göstərir.

NUT-lar fərdi rifah, əhalinin sağlamlığı üçün əsas təhdidlərdən biridir. Buna görə də bu gün bu problemə qlobal miqyasda və təcili həll edilməli bir sosial məsələ kimi yanaşılması labüddür. Bu gün kifayət qədər öyrənilən NUT-ların həm yaxın, həm də uzaq gələcəkdə insan sağlamlığına, onun sosial rifahına göstərdiyi təsiri nəzərə alaraq, bunun qarşısının alınması üçün strategiyaların, həm də nəticəyə müdaxilələrin hazırlanması cəmiyyətin qarşısında duran bir sosial problemdir. Yayılmanı azaltmaq və NUT-un təsirlərinin şiddətini yüngülləşdirmək üçün, gələcək nəsillərin sağlamlığına olan zərərli təsirləri azaltmaq üçün hər bir populyasiya daxilində yaşanılan NUT-ların öyrənilməsi, xüsusiyyətlərinin araşdırılması, müxtəlif əhali qrupları arasında prevalensin öyrənilməsi, sosial-demoqrafik xüsusiyyətlərin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Bu hədəfli profilaktik tədbirlərin planlanması və həyata keçirilməsi üçün zəmin yaradır və hər qrup üçün məhz onun ehtiyaclarına uyğun tədbirlərin təşkil edilməsinə imkan verir.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Ulviyya Mirzayeva SOCIAL ISSUES, Vol.1, No.1, 2023, pp.78-86 https://au.edu.az/userfiles/uploads/9b1552de661171b5782477f3319348a1.pdf*

*2. Matthews, K.A. and Gallo, L.C. (2011) Psychological Perspectives on Pathways Linking Socioeconomic Status and Physical Health. Annual Review of Psychology, 62, 501-530. http://dx.doi.org/10.1146/annurev.psych.031809.130711*

*3. Zeidner, M. and Matthews, G. (2005) Evaluation Anxiety: Current Theory and Research. In: Elliot, A.J. and Dweck, C.S., Eds., Handbook of Competence and Motivation, Guildford Press, London, 141-163.*

*4. Oladeji, Bibilola & Makanjuola, Victor & Gureje, Oye. (2010). Family-related adverse childhood experiences as risk factors for psychiatric disorders in Nigeria. The British journal of psychiatry : the journal of mental science. 196. 186-91. 10.1192/bjp.bp.109.063677.*

*5. Anda RF, Dong M, Brown DW, Felitti VJ, Giles WH, Perry GS, Valerie EJ, Dube SR. The relationship of adverse childhood experiences to a history of premature death of family members. BMC Public Health. 2009 Apr 16;9:106. doi: 10.1186/1471-2458-9-106. PMID: 19371414; PMCID: PMC2674602.*

*6. Dube SR, Fairweather D, Pearson WS, Felitti VJ, Anda RF, Croft JB. Cumulative childhood stress and autoimmune diseases in adults. Psychosom Med. 2009 Feb;71(2):243-50. doi: 10.1097/PSY.0b013e3181907888. Epub 2009 Feb 2. PMID: 19188532; PMCID: PMC3318917)*

*7. Jackson DB, Testa A, Woodward KP, Qureshi F, Ganson KT, Nagata JM. Adverse Childhood Experiences and Cardiovascular Risk among Young Adults: Findings from the 2019 Behavioral Risk Factor Surveillance System. Int J Environ Res Public Health. 2022 Sep 16;19(18):11710. doi: 10.3390/ijerph191811710. PMID: 36141983; PMCID: PMC9517189.*

*8. https://www.worldlifeexpectancy.com/azerbaijan-coronary-heart-disease*

*9. Lital Keinan-Boker, Neomi Vin-Raviv, Irena Liphshitz, Shai Linn, Micha Barchana, Cancer Incidence in Israeli Jewish Survivors of World War II, JNCI: Journal of the National Cancer Institute, Volume 101, Issue 21, 4 November 2009, Pages 1489–1500, https://doi.org/10.1093/jnci/djp327).*

*10. https://novopsych.com.au/assessments/diagnosis/adverse-childhood-experiences-questionnaire-ace-q/*

*11. Felitti, V. J., Anda, R. F., Nordenberg, D., Williamson, D. F., Spitz, A. M., Edwards, V., Koss, M. P., & Marks, J. S. (1998). Relationship of childhood abuse and household dysfunction to many of the leading causes of death in adults. The Adverse Childhood Experiences (ACE) Study. American Journal of Preventive Medicine, 14(4), 245–258. https://doi.org/10.1016/s0749-3797(98)00017-8*

*12. https://novopsych.com.au/assessments/diagnosis/adverse-childhood-experiences-questionnaire-ace-q/*

*13. Madigan, S., Deneault, A. A., Racine, N., Park, J., Thiemann, R., Zhu, J., Dimitropoulos, G., Williamson, T., Fearon, P., Cénat, J. M., McDonald, S., Devereux, C., & Neville, R. D. (2023). Adverse childhood experiences: a meta-analysis of prevalence and moderators among half a million adults in 206 studies. World psychiatry : official journal of the World Psychiatric Association (WPA), 22(3), 463–471. https://doi.org/10.1002/wps.21122*

*14. Hughes K, Bellis MA, Hardcastle KA, Sethi D, Butchart A, Mikton C, Jones L, Dunne MP. The effect of multiple adverse childhood experiences on health: a systematic review and meta-analysis. Lancet Public Health. 2017 Aug;2(8):e356-e366. doi: 10.1016/S2468-2667(17)30118-4. Epub 2017 Jul 31. PMID: 29253477.*

## XÜLASƏ

Məqalədə bu gün uzun zamandakı təsirlərinə görə dünya təcrübəsində çox geniş araşdırılmaqda olan Neqativ Uşaqlıq Təcrübələrinin Azərbaycanda rastgəlmə tezliyi və digər xüsusiyyətlərinin araşdırılması məqsədilə aparılmış tədqiqatın nəticəsindən bəhs edilir. Neqativ Uşaqlıq Təcrübələrinin yaxın və uzaq gələcəkdə insan sağlığı üzərində təsirlərinə aid olan müxtəlif araşdırmalar mövcuddur. Bu araşdırmaların nəticələrinə görə uşaqlıqda Neqativ Uşaqlıq Təcrübələri yaşayan insanların gələcəkdə narkotik istifadəsi də daxil olmaqla, bir sıra zərərli vərdişlərə aludə olma, psixi xəstəliklər və ürək-damar xəstəliyinə tutulma ehtimalı digərlərinə görə bir neçə dəfə çoxdur. Məqalədə bu sahədə aparılan bəzi beynəlxalq tədqiqat işlərinin nəticələri Azərbaycandakı tədqiqatın nəticəsi ilə müqayisəli şəkildə təsvir edilmişdir.

Həmçinin Azərbaycanda Neqativ Uşaqlıq Təcrübələrinin yaşanma tezliyi (prevalensi) araşdırılaraq həyatının ilk 18 ilində belə təcrübələri yaşamış insanlar arasında risk qrupuna daxil olan insanların faiz dərəcəsi müəyyən edilmiş, məhz hansı təcrübə və ya zorakılıqların yaşandığı, bu təcrübələrin ailə daxili və ya cəmiyyətlə əlaqədar olması və s. kimi suallara cavab axtarılmışdır.

**Açar sözlər:** *Neqativ Uşaqlıq Təcrübələri, uşaqlara qarşı zorakılıq, mənfi uşaqlıq təcrübələri, boşanmanın uşaqlara təsiri, NUT-un səbəb olduğu sağlamlıq riskləri, erkən ölüm, erkən kardiovaskulyar xəstəliklər, NUT.*

**Ulviyya Mirzayeva**

**Investigation of the prevalence and characteristics of Adverse Childhood Experiences in Azerbaijan**

**SUMMARY**

The article discusses the results of a study conducted to investigate the frequency and other features of Adverse Childhood Experiences (ACEs) in Azerbaijan. These experiences are currently being widely studied globally due to their long-term effects. Numerous investigations have explored the impact of ACEs on human health, both in the short term and long term. According to the findings, individuals who have experienced ACEs are several times more likely than others to develop harmful habits, such as drug use, mental illness, and cardiovascular diseases in the future. Additionally, the article compares the results of international research studies in this field with findings from research conducted in Azerbaijan.

The prevalence of ACEs in Azerbaijan was also examined, and the percentage of individuals in the risk group - those who experienced such adversities in their first 18 years - was determined. The study sought to answer questions regarding the nature of these experiences, whether they involved intra-family or societal violence, and other related factors.

**Keywords:** *Adverse Childhood Experiences, violence against children, effects of divorce on children, health risks caused by ACEs, early death, early cardiovascular diseases, ACE*

**Ульвия Мирзаева**

**Исследование распространенности и характеристик негативного детского опыта в Азербайджане**

**РЕЗЮМЕ**

В статье рассматриваются результаты исследования, проведенного с целью изучения частоты и других характеристик негативного детского опыта в Азербайджане, который в настоящее время широко изучается в мировой практике из-за его долгосрочных последствий. Существует множество исследований, посвященных влиянию негативного детского опыта на здоровье человека в краткосрочной и долгосрочной перспективе. Согласно результатам этих исследований, люди с негативным детским опытом в несколько раз чаще развивают ряд вредных привычек, таких как употребление наркотиков, психические заболевания и сердечно-сосудистые заболевания. В статье также представлены результаты некоторых международных исследований, проведенных в этой области, в сравнении с данными исследований, проведенных в Азербайджане.

Кроме того, была исследована распространенность негативного детского опыта в Азербайджане, а также определен процент людей в группе риска среди тех, кто пережил такие травмы в возрасте до 18 лет. Были заданы и предоставлены ответы на вопросы о том, какой именно опыт или насилие были пережиты, связаны ли эти события с семьей или обществом и т. д.

**Ключевые слова:** *Негативный детский опыт, насилие в отношении детей, влияние развода на детей, риски для здоровья вызванные НДО, преждевременная смерть, ранние сердечно-сосудистые заболевания.*

UOT 101.1:316
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0160

# MÜHARİBƏ İŞTİRAKÇILARININ SOSİAL PROBLEMLƏRİNİN HƏLLİNDƏ "DOST" MƏRKƏZLƏRİ VƏ "YAŞAT" FONDUNUN ROLU

**RAUF ABBASOV**
*Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutunun doktorantı*

*E-mail: rauf-abbasov-2009@mail.ru*

## Giriş

Postmüharibə dövründə Azərbaycan hökuməti Vətən müharibəsi iştirakçılarının sosial rifahının yüksəldilməsi üçün genişmiqyaslı tədbirlər həyata keçirmişdir. Bu tədbirlər sosial müdafiə, reabilitasiya, məşğulluq və mənzil təminatını əhatə edir və Vətən müharibəsi iştirakçılarının cəmiyyətə inteqrasiyasını asanlaşdırır. Dövlətin həyata keçirdiyi sosial proqramlar minlərlə ailənin həyat şəraitini əsaslı surətdə yüksəltmiş və bu şəxslərin dövlətin dəstəyini daim öz üzərlərində hiss etməsinə səbəb olmuşdur. Sosial problemlərin həlli üçün həyata keçirilən tədbirlər, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi ilə koordinasiya olunan proqramlar vasitəsilə icra olunur. Həmin proqramlar vasitəsi ilə müharibə ilə əlaqədar əlilliyi olan şəxslər, müharibə iştirakçıları və şəhid ailələri üçün müxtəlif sosial və maddi dəstək təmin edilir.

Vətən müharibəsi iştirakçıları üçün sosial dəstək tədbirlərinin həyata keçirilməsində əsasən iki qurum "YAŞAT" Fondu və "DOST" agentlikləri mühüm rol oynayır. Hər iki qurum Azərbaycanın postmüharibə dövründəki sosial siyasətində vacib komponentlər kimi fəaliyyət göstərərək müharibə iştirakçıları, şəhid ailələri və digər sosial qrupların rifahını təmin etməyə yönəlmişdir. Bu məqsədlə bir sıra layihələr həyata keçirilmiş, mövcud sosial strukturlar daha da genişləndirilmişdir.

Fəlsəfi baxımdan insan ləyaqəti, hər bir fərdin təməl hüquqları və dəyərlərini qorumağı tələb edir. Müharibə iştirakçıları, döyüş meydanında şəxsi təhlükəsizliyini riskə ataraq, bu ləyaqəti daha da irəli aparır. "DOST" mərkəzləri, bu insanlara layiqli sosial xidmətlər təqdim etməklə onların ləyaqətini bərpa etmə və qoruma missiyasını həyata keçirir. İdeoloji baxımdan bu, dövlətlə cəmiyyətin kollektiv borcu və məsuliyyəti kimi qəbul edilə bilər.

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "DOST" Agentliyi müharibə veteranları və qazilərin sosial reabilitasiyasını və sosial xidmətlərə çıxışını təmin edən əsas qurumlarından biridir. "DOST" Agentliyi postmüharibə dövründə müharibə iştirakçıları və şəhid ailələrinə göstərilən sosial xidmətlərdə müstəsna rol oynamışdır. Azərbaycanda ilk "DOST" Mərkəzi 9 may 2019-cu ildə fəaliyyətə başlamışdır və bu fəaliyyət illəri ərzində 725 mindən artıq vətəndaşa xidmət göstərilmişdir. Agentlik, müharibə iştirakçılarının məşğulluq imkanlarının artırılması üçün xüsusi proqramlar həyata keçirmişdir [1].

"DOST" Mərkəzləri arasında "DOST" İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin xüsusi rolu vardır və əsas məqsədi əlilliyi olan şəxslərin, o cümlədən Vətən müharibəsi iştirakçıları və onların ailələrinin cəmiyyətə inteqrasiyasını təmin etməkdir. Mərkəz həm də onların yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək, məşğulluqlarını təmin etmək və psixoloji dəstək göstərmək üçün genişmiqyaslı tədbirlər həyata keçirir.

"DOST" mərkəzləri əsasən sosial xidmətlərin təmin edilməsi və dövlət-vətəndaş münasibətlərinin optimallaşdırılmasına yönəldiyi halda, "DOST" İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi daha çox yaradıcılıq və inkluzivlik prinsipləri üzərində qurulmuş, cəmiyyətin müxtəlif təbəqələrinin yaradıcı potensialını inkişaf etdirməyə və fərdi yaradıcılığı təşviq etməyə yönəlmişdir [3]. "DOST" İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi, "inklüzivlik" ideyasını dərin fəlsəfi köklərə malik şəkildə təzahür etdirir. Bu, bərabər hüquqların sadəcə hüquqi deyil, həm də mənəvi və mədəni sahələrdə tam şəkildə tanınmasını nəzərdə tutur. John Dewey kimi fəlsəfi düşüncə sahibləri inkluzivliyin təhsil və yaradıcılıq vasitəsilə həyata keçməsinin cəmiyyətin demokratik inkişafına necə təsir etdiyini vurğulamışdır. Burada inkluzivlik hər bir fərdin, o cümlədən əlilliyi olan şəxslərin də bərabər şəkildə iştirak etməsini və öz yaradıcılığını ifadə etməsini təmin edir.

Yaradıcı fəaliyyətlər yalnız estetik baxımdan deyil, həm də insanın daxili gücünü və sosial dəyərini açıq şəkildə göstərir. Bu fəaliyyətlər vasitəsilə insanlar həm özlərini ifadə edir, həm də cəmiyyətə faydalı olurlar. Bu mərkəzin fəaliyyəti, sosial dəyişikliklərdə yaradıcılığın oynadığı rolu göstərir. Pa-

ulo Freire kimi təhsil fəlsəfəsi sahəsində mütəfəkkirlər təhsilin və yaradıcılığın sosial ədalətin və bərabərliyin təmin edilməsində vacib olduğunu qeyd edirlər [6]. Hannah Arendt yaradıcılığı insanın dünyaya aktiv bir şəkildə təsir etməsinin ən mühüm aspektlərindən biri kimi qiymətləndirirdi [7].

Hərbi qulluqçuların və şəhid ailələrinin sosial müdafiəsinə əlavə dəstək məqsədilə 2020-ci ilin dekabrında Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "YAŞAT" Fondu yaradılmışdır. Fond tərəfindən müharibə iştirakçılarına maliyyə yardımları edilərək, onların ehtiyaclarının qarşılanmasına çalışılmışdır. 2021-2024-cü illər ərzində fond tərəfindən minlərlə şəhid ailəsi və müharibə qazisinə dəstək verilmişdir. Bu yardımlar əsasən tibbi xidmətlər, təhsil, mənzil və məişət ehtiyaclarını əhatə etmişdir.

"YAŞAT" Fondu və "DOST" agentlikləri Vətən müharibəsi iştirakçılarının sosial problemlərinin həllində bir-birini tamamlayan və əməkdaşlıq edən qurumlardır. Hər iki qurumun birgə fəaliyyəti nəticəsində müharibə iştirakçıları və şəhid ailələri daha geniş və effektiv sosial dəstək sisteminə malikdirlər.

"DOST" agentlikləri "YAŞAT" Fondu tərəfindən həyata keçirilən yardımların effektiv şəkildə çatdırılmasını təmin edir və onların icra prosesində mühüm rol oynayır. Müharibələrin müxtəlif növləri var: vətəndaş müharibəsi, diplomatik müharibə, qisas uğrunda müharibə, gediş və ya hücum müharibəsi, "soyuq müharibə", nüvə müharibəsi, bioloji müharibə, kimyəvi müharibə, ticarət və ya iqtisadi müharibə və s. [4]. Lakin fərq etmir, bunların ən əsas xarakterik cəhəti bütün iştirakçıların eyni sosial-psixoloji halətdə olmasıdır. Azərbaycanda əhalinin sosial müdafiə sisteminin gücləndirilməsi istiqamətində bir sıra uğurlu addımlar atılmış və mövcud qanunvericilik təkmilləşdirilmişdir. Digər tərəfdən, mövcud vəziyyətin təhlili göstərir ki, ölkədə sosial müdafiə proqramlarının əhatəliliyi və intensivliyi üçün bir sıra mühüm addımlar atılmalıdır və Azərbaycan özündə bunun potensialına malikdir [2].

Azərbaycanda texnologiyanın müasir imkanlarından tam mənada istifadəni nəzərdə tuta bilən konsepsiyanın "DOST" mərkəzləri və "YAŞAT" Fondunun birgə səyləri vasitəsilə tətbiqi sosial problemlərin həllində innovativ və əsaslı rol oynaya bilər. Bununla aşağıdakı siyahıda müəyyən edilmiş proqramlar ilə Azərbaycanda sosial problemlərə əlçatanlığın asanlaşdırılması və daimi olaraq nəzarətinin təşkilinə nail oluna bilər:

1. Telemedisin və Uzaqdan Müşahidə Platforması: Müharibə iştirakçıları internet və telefon xidmətlərindən istifadə etməklə tibbi yardım məsləhətləri ala bilər. Platformanın günün 24 saat fəaliyyəti nəticəsində daim onlara yardım göstərilə bilər və eyni zamanda müşahidə platforması ilə vəziyyətləri daimi olaraq monitorinq olunar.

2. Təlim platformalarının süni intellektlə tətbiqi: Təlim proqramları ilə müharibə iştirakçılarına əmək bazarında yer tutmaları üçün müəyyən peşə bilikləri öyrədilə bilər. Həmin proqramın süni intellektlə birgə tətbiqi isə hər insana uyğun öz ehtiyacları və istəkləri istiqamətində xüsusiləşdirilməsinə kömək yaradar.

3. Rəqəmsal sağlamlıq proqramları: Virtual tətbiqlər vasitəsilə monitorinq və psixoloji dəstək xidmətlərinin göstərilməsi daha da asanlaşır və 7/24 əlçatan vasitəyə çevrilir.

4. Robototexnikaya əsaslanan reabilitasiya: Dövrümüzün texnikaya əsaslanan protezləri ilə əzalarını itirmiş şəxslərə yenidən hərəkət qabiliyyəti yaratmaq mümkün olur. Robotik eksoskeletlər isə fiziki cəhətdən zəif olan şəxslərə gəzə bilmə bacarığını bərpa edir.

"Texnoloji Dəyişikliklər və Rəqəmsal Reabilitasiya" modeli dünya miqyasında bir çox ölkədə tətbiq edilmişdir. Modelin səciyyəvi cəhəti onun tətbiqi zamanı özünü göstərir və digər modellərdən üstünlüyünü də ortaya qoyur. Bu model, müharibə iştirakçılarının və əlillərin sosial reabilitasiyası üçün rəqəmsal texnologiyadan istifadə etməklə onların yenidən cəmiyyətə inteqrasiyasını tam mənada hərtərəfli təmin edir.

İsraildə rəqəmsal reabilitasiya texnologiyaları tətbiq edildikdən sonra veteranlar və əlillər üçün xüsusi mobil tətbiqlər, virtual dəstək qrupları və rəqəmsal protezlərdən istifadə edilməyə başlandı. "ReWalk" adlı robotik texnologiya, veteranların normal gedişlərini bərpa etməyə kömək edir və rəqəmsal terapevtlər psixoloji dəstək verir. Bu texnologiyanın tətbiqi ilə veteranların sosial adaptasiya göstəriciləri yüksəlmiş və işəgötürülmə statistikalarında da artım müşahidə edilmişdir.

2000-ci illərin əvvəllərində ABŞ-da müharibə iştirakçıları və əlillər üçün tətbiq edilən reabilitasiya proqramları əsasən fiziki terapiya və dövlət tərəfindən verilən məhdud maddi yardımlarla həyata keçirilirdi. Müharibədə iştirak etmiş şəxslər iş yerlərinə,

sosial həyatlarına uyğunlaşmaqda böyük çətinlik çəkirdilər. ABŞ-da reabilitasiya texnologiyası, xüsusilə rəqəmsal texnologiya, inkişaf etdirilərək müharibə iştirakçılarına virtual reabilitasiya proqramları və süni intellekt əsaslı sosial dəstək proqramları təklif olunmağa başlandı. Misal üçün, ABŞ "Veteranlar İşləri İdarəsi" (VA) rəqəmsal reabilitasiya və protez texnologiyalarından geniş istifadə edərək, robot texnikası və virtual reallıq vasitələri ilə əsgərlərin fiziki və psixoloji terapiya almalarına imkan yaratdı. Süni intellektli təlim proqramları vasitəsilə veteranlar yeni bacarıqlar əldə edir və cəmiyyətə daha tez inteqrasiya olunurlar [5].

Böyük Britaniyada müharibə iştirakçılarının reabilitasiyası əsasən dövlətin təmin etdiyi xidmətlər və məhdud fiziki reabilitasiya mərkəzləri vasitəsilə həyata keçirilirdi. Böyük Britaniyada rəqəmsal reabilitasiya modeli, veteranlar və əlillər üçün müxtəlif texnologiyaların istifadəsinə əsaslanan xidmətlər təklif etməyə başladı. Müharibə iştirakçıları üçün rəqəmsal mentorlar, telemedisin kimi xüsusi innovativ imkanlar və şərait yaradıldı. Böyük Britaniyada virtual terapiyadan posttravmatik stres pozuntusu (PTSP) olan insanların müalicəsində geniş şəkildə istifadə edilir.

"DOST" mərkəzləri və "YAŞAT" Fondu, müxtəlif təhsil qurumları ilə əməkdaşlıq edərək müharibə iştirakçıları üçün təqaüd proqramları, eləcə də xüsusi təlim kursları-"Birgə təhsil proqramları" yarada bilər. Bu təhsil proqramları vasitəsi ilə "DOST" mərkəzləri və "YAŞAT" Fondu müharibə iştirakçılarının sosial reinteqrasiyasını daha da gücləndirə bilər.

## Nəticə

"YAŞAT" Fondu yerli və beynəlxalq təhsil müəssisələri ilə əməkdaşlıq edərək, müharibə iştirakçılarına və onların ailələrinə təqaüdlər təqdim edə, həmçinin bu təqaüdlər vasitəsi ilə onların yüksək keyfiyyətli təhsil almalarına və yeni biliklər əldə etmələrinə şərait yarada bilər. Xüsusilə xaricdə təhsil proqramları və mübadilə proqramlarının tətbiq edilməsi ilə müharibə iştirakçılarının təhsil imkanlarını genişləndirmək mümkündür. "DOST" Agentliklərinin də müasir texnoloji alət və üsullardan yararlanması onu, dünyanın ən qabaqcıl sosial yardım göstərən qurumlarından biri kimi problemlərin həllində effektiv səciyyə daşıyan örnək olaraq təqdim edə bilər.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. DOST Agentliyi Rüblük Bülleten No: 14, səh.2, iyul 2024 buraxılışı. https://dost.gov.az/nesr.php?-nesr=18*

*2. "Azərbaycanda Sosial Müdafiə Sistemi: Qiymətləndirmə və Təkmilləşdirilməsi İstiqamətləri", CESD Tədqiqat Qrupu, BAKI-2016, səh.19*

*3. DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi. https://dost.gov.az/page/dost-inkluziv-inkisaf-ve-yaradiciliq-merkezi*

*4. Zülqaydə Mollayeva, "Postmüharibə dövründə əhali arasında yaranmış psixoloji problemlər və onların aradan qaldırılması", Xəzər Universiteti, BAKI-2022, səh.8*

*5. "Supporting United States Veterans: A Review of Veteran-Focused Needs Assessments from 2008-2017", University Park-2017, November, Clearinghouse, page 11.*

*6. Paulo Freire , "Pedagogy of the Oppressed", The Continuum International Publishing Group, New York-2000, page 61.*

*7. Hannah Arendt , "The Human Condition", The University of Chicago Press, 2nd edition, Chicago-1998, page 176.*


## XÜLASƏ


"YAŞAT" Fondu və "DOST" Agentlikləri Vətən müharibəsi iştirakçılarının sosial problemlərinin həllində bir-birini tamamlayan və əməkdaşlıq edən qurumlardır. Bu səbəbdən onların daha effektiv formada birlikdə fəaliyyətləri nəticəsində, sosial problemlərin həllində qarşıya çıxan məsələlər ilə daha asan mübarizə yolları tapmaq və bünövrəsini möhkəmləndirmək mümkündür. Bütün dünyada texnoloji dəyişikliklərin süni intellektlə olan qarşılıqlı əlaqəsi bu sahədə öz töhfəsini hələ yeni də olsa göstərməkdədir. Azərbaycan da bu sahədə müharibə iştirakçıları üçün müxtəlif məsələlərin həllində texnoloji dəyişikliklərin yaratdığı məhsullardan istifadə etməklə dünyanın qabaqcıl ölkələrinə örnək təşkil edə biləcək özünəməxsus problem həll etmə mexanizmini yarada bilər.



**Açar sözlər:** *sosial problemlər, müharibə iştirakçıları, inteqrasiya, "DOST" Mərkəzləri, "YAŞAT" Fondu.*

**РАУФ АББАСОВ**
***Докторант Национальной Академии Наук Азербайджана,***
***E-mail: rauf-abbasov-2009@mail.ru***

## РОЛЬ ЦЕНТРОВ "DOST" И ФОНДА "YAŞAT" В РЕШЕНИИ СОЦИАЛЬНЫХ ПРОБЛЕМ УЧАСТНИКОВ ВОЙНЫ

### РЕЗЮМЕ

Фонд «Яшат» и Агентства «ДОСТ» — это учреждения, которые дополняют и сотрудничают друг с другом в решении социальных проблем участников Отечественной войны. Поэтому в результате их более эффективной совместной деятельности можно найти более простые пути решения возникающих проблем в решении социальных проблем и укрепить их основы. Взаимодействие технологических изменений во всем мире с искусственным интеллектом все еще вносит свой вклад в эту область, хотя и находится на ранних стадиях. Азербайджан также может создать уникальный механизм решения проблем в этой области, который может послужить примером для ведущих стран мира, используя продукты, созданные в результате технологических изменений, для решения различных проблем участников войны.

**Ключевые слова:** *социальные проблемы, ветераны войны, интеграция, Центры "DOST", Фонд "YAŞAT".*

**RAUF ABBASOV**
***Doctoral student of the Azerbaijan National Academy of Sciences***
***E-mail: rauf-abbasov-2009@mail.ru***

## THE ROLE OF "DOST" CENTERS AND "YAŞAT" FOUNDATION IN SOLVING SOCIAL PROBLEMS OF WAR PARTICIPANTS

### ABSTRACT

The "YAŞAT" Foundation and the "DOST" Agencies are complementary and cooperating institutions in solving the social problems of the participants of the Patriotic War. Therefore, as a result of their more effective joint activities, it is possible to find easier ways to deal with the issues encountered in solving social problems and strengthen their foundations. The interaction of technological changes with artificial intelligence all over the world is still showing its contribution in this area, although it is still new. Azerbaijan can also create a unique problem-solving mechanism for the participants of the war in this area, which can serve as an example for the leading countries of the world, by using the products created by technological changes in solving various issues.

**Keywords:** *social problems, war veterans, integration, "DOST" Centers, "YAŞAT" Foundation.*

UOT: 1 (091)
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0164

# AZƏRBAYCAN MÜTƏFƏKKİRİ EYNƏLQÜZAT MİYANƏCİNİN HƏYAT VƏ YARADICILIĞI

**MEHMET EMİN**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun doktorantı*

*E-mail: kocmehmetemin@gmail.com*
*https://orcid.org/0000-0002-1025-5643*

## Giriş

Miyanəci dövrü, geniş İslam coğrafiyasında siyasi və dini mübarizələrin yüksək gərginlik təşkil etdiyi bir vaxtı əks etdirir. Bu dövr, Abbasi, Fatimi, Büveyhi, Qaraxani, Səlcuq və digər əhəmiyyətli dövlətlərin mövqelərini qorumaq məqsədilə apardıqları çəkişmələr və Səlib yürüşləri ilə səciyyələnir. Xüsusilə, Səlibçilərin 1098-1099-cu illərdəki qələbələri və Qüdsdə Səlibçi Krallığının qurulması bu dövrün mötədil siyasi mühitini xarakterizə edir. Qərbdən və Şərqdən olan təzyiqlər nəticəsində Abbasi xilafətinin zəifləməsi, Bağdad və Hicaz bölgəsindəki daxili mübarizələr də dövrün kritik xüsusiyyətlərindəndir. Xüsusilə, Şiə-Büveyhi və İsmaili-Fatimi qüvvələrinin Abbasilərə qarşı hücumları, Bağdadın fitnə və xaos mərkəzinə çevrilməsinə səbəb olmuşdu [5, s. 496-499].

Batinilərin təbliğat və terror fəaliyyətinin qarşısını almağa çalışmış alimlərdən biri, Miyanəci tərəfindən tanınan Əbu Həmid Qəzali idi. Qəzali, Batini ideologiyasını fəlsəfi və məntiqi üsullarla təkzib etmək məqsədilə müxtəlif əsərlər yazmışdır. Lakin, Miyanəci, Qəzali və onun ardıcıllarının bu mübarizəsini kifayət qədər təsirli hesab etməmişdir. Onun fikrinə görə, dini və məzhəbi qarşıdurmaların əksinə, bu dövrün rəhbərləri tərəfindən edilən təbliğat cəhdləri daha çox mübahisə və çəkişmələrə səbəb olmuşdur.

Miyanəci dövrü, həm dini, həm də siyasi baxımdan çox mürəkkəb və qarşıdurmalarla zəngin bir dövr kimi qiymətləndirilə bilər. Dini ideologiyalar arasında baş verən mübarizələr, mədəni və siyasi çətinliklər qarşısında dövlətin zəifləməsi və vətəndaş müharibələri kimi təsirlər dövrün mühüm xüsusiyyətlərindəndir.

## Miyanəcinin həyatı

Miyanəci (490/1096-ö. y.) Həmədan şəhərində doğulmuş və Azərbaycanın Miyanəc şəhərindən olan ailəyə mənsubdur. Ailəsi uzun müddət Həmədanın tanınmış alim və ictimai şəxslərindən ibarət olmuşdur. Atası Əbu Bəkr Muhamməd b. Əli Miyanəci Həmədanda qazı vəzifəsində çalışmış və tanınmış Şafii fəqihi Əbu İshaq Şirazi ilə yaxın dost olmuşdur. Miyanəci də atasının təsiri ilə elmi və dini mühitlərə yaxın olmuş, xüsusilə təsəvvüfə böyük maraq göstərmişdir. Bu maraq onun həyatının və təfəkkürünün əsas istiqamətini təşkil etmişdir.

Miyanəci, dövrün fəlsəfi və dini mühitində müstəqil bir filosof kimi tanınır. O, həm mühazirələr oxuyur, həm də müxtəlif dini və elmi məsələlərə dair yazılar yazırdı. Məktublarında elmi və mənəvi təcrübələrini paylaşır, tələbələrinə ibadət və əxlaq mövzusunda məsləhətlər verir, dini həyatın doğru istiqamətini göstərməyə çalışırdı. Eyni zamanda, Miyanəci cəmiyyətin müxtəlif təbəqələrindən olan insanlarla münasibət qurur və onların hər birinə öz irşadını çatdırmağa çalışırdı. O, bu şəkildə həm alim, həm də bir irşadçı kimi fəaliyyətini davam etdirirdi.

Dərgüzini, xüsusilə İsmaili-Batini hərəkatının dəstəkləyicisi olaraq, dövrün dini və siyasi mühitində bir çox əhəmiyyətli hadisələrdə yer almışdır. O, Miyanəciyə qarşı mübarizədə də böyük rol oynamışdır. Mənbələrə görə, Dərgüzini Miyanəciyə qarşı çirkin bir təbliğat aparmış və nəticədə onun edamına səbəb olmuşdur. Bütün bu hadisələr, Miyanəci və onun ideyalarının dövrün siyasi və dini mühitində necə bir təhlükə yaratdığını göstərir [9, s. 55].

Miyanəci dövrün əhəmiyyətli filosof və mütəfəkkirlərindən biri olmuşdur və onun həyatına dair müxtəlif tədqiqatlarda, xüsusən də onun dini mövqeləri ilə bağlı, çoxsaylı nəzəri təhlillər aparılmışdır. Bir sıra alimlər onun Əbu Həmid əl-Qəzzali ilə əlaqələrini müzakirə edərək, Miyanəciyə Qəzzali ənənəsinin davamçısı kimi baxır və bu əlaqənin təhlilində iki əsas yanaşmanı ortaya qoyurlar. Bu yanaşmaların birincisi, Miyanəci və Əhməd Qəzzali arasındakı əlaqələri izah edir. Qəzzali, Nizamiyyə mədrəsəsini tərk etdikdən sonra, qardaşı Əhməd Qəzzali həmin mədrəsəyə rəhbər təyin olunmuşdur və Miyanəci Əhməd Qəzzali ilə sıx əlaqədə olmuşdur. Bununla yanaşı, Miyanəci, həmçinin dövrün yüksək məmurları və alimləri ilə də yaxından əməkdaşlıq etmiş, İslam cəmiyyətində və dinində birliyin təmin olunmasına dair fikirlərini ortaya qoymuşdur. Bu, onun əsas fəlsəfi mövqeyi idi [2, s. 50].

Miyanəci, xüsusilə məzhəb təəssübkeşliyinə qarşı sərt bir mövqe tutmuşdur və İslamın əsas məqsədinin insanların birliyini və qardaşlığını təmin etmək olduğunu müdafiə edirdi. O, məzhəb və din fərqlərinin insanların inancını zədələməməli olduğunu və hər kəsin bir Allah yolunda birləşməli olduğunu vurğulamışdır. Onun nəzərində, İslam yolunun əsas məqsədi insanın daxili inkişafıdır və hər hansı bir təriqətə aid təəssübkeşlik insanın bu məqsədi əldə etməsini əngəlləyir. Bu ideyaları, xüsusən də Dərgüzinin rəhbərlik etdiyi İsmaili-Batini hərəkatı ilə birbaşa müxalifət təşkil etmişdi. Miyanəci, batini fikirlərini tənqid edir və onların İslamın orijinal təlimlərindən sapdığını iddia edirdi.

Miyanəci, öz mövqeyini qorumağa çalışarkən dini təhrifə qarşı sərt reaksiyalar göstərmişdir. Onun bu mövqeyi, təriqət liderlərinin və dövrün bəzi alimlərinin onu dini mühafizəkar təlimlərdən kənara çıxmış kimi qəbul etmələrinə səbəb olmuşdur. Nəticədə, Miyanəci, dini təhdidlər və siyasi intriqalar nəticəsində edama məhkum edilmişdir. Bu, onun mürəkkəb təfəkkürünün, xüsusən də həqiqətə çatma yolu və dini təriqətlərin təhrifindən qorunma ilə bağlı ideyalarının anlaşılmadığı və səhv şərh edildiyi bir dönəmdə baş vermişdir [3, 52-53].

Miyanəci ilə İsmaililər arasında yaranan əsas ideoloji ziddiyyətlər, onların fəlsəfi mövqelərindəki fərqliliklərdən qaynaqlanır. Miyanəci, "Vacibü’l-Vücud" anlayışına əsaslanaraq, Allahın hər şeyin mahiyyəti olduğunu və bütün mövcudatın yalnız Allahın iradəsi ilə mövcud olduğunu vurğulamışdır. Buna qarşı, İsmaililər, yaradılışı Allahın mahiyyətindən çıxan bir axar kimi təsvir edərək, sudur nəzəriyyəsinə inanırdılar. Miyanəci bu yanaşmanı təkzib edərək, Allahla yaradılmış varlıqlar arasında fundamental bir fərq olduğunu müdafiə edirdi.

Eyni zamanda, Miyanəci, dini təriqətlərin batini təfsirini və Quranın zahiri mənalarını kənara qoyan yanaşmalarını təhrif hesab edirdi. Onun fəlsəfəsində Quran və Sünnə, təfəkkür və dinin əsas mənbələri olaraq qalır, hər hansı bir təriqət və ya fəlsəfi sistem yalnız bu mənbələrə uyğun olmalıdır.

Miyanəci ilə İsmaililər arasındakı bu ideoloji ziddiyyətlər, həm fəlsəfi, həm də teoloji mübahisələr şəklində özünü göstərmişdir. Miyanəci, sudurçu və panteist fikirləri İslamın əsl təlimlərinə zidd hesab edirdi. Bu fəlsəfi və dini fərqliliklər, nəticədə onun həyatını və ölümünü təyin edən mühüm amillərdən biri olmuşdur. Bu baxımdan, onun edamı, sadəcə bir siyasi və dini münaqişənin nəticəsi deyil, həm də dərin teoloji və fəlsəfi bir mübahisənin təzahürüdür.

Miyanəci ilə İsmaililər arasındakı qarşıdurma, sadəcə ideoloji və dini fərqliliklərdən qaynaqlanmır, eyni zamanda təfəkkürün və dini təlimlərin, o cümlədən Quran və Sünnənin düzgün anlaşılmasına dair geniş bir mübahisə təşkil edir. Miyanəci, öz fəlsəfəsində İslamın əsl mənasını qorumağa çalışaraq, öz dövründəki dini təhriflərə və batini fikirlərə qarşı ciddi mübarizə aparmışdır [1, s. 7].

Miyanəci, öz həyatında və əsərlərində dərin elmi təcrübə və təsir altında olduğu çoxsaylı alimlərdən bəhs etmişdir. Onun ən mühüm müəllim və rəhbəri olaraq, atasının, Həmədan qazısının rolunu vurğulamaq mümkündür. Bu, Miyanəciyə təlim-tərbiyə və dini elmlərin dərinliklərinə girişdə əvəzsiz dəstək olmuşdur. Əsərlərində, həmçinin müxtəlif alimləri və arifləri müəllim və pir olaraq tanıdır, onların zahiri və batini elmlərə dair dərin biliklərini qeyd edir.

Miyanəci, xüsusən Əbu Həmid Qəzaliyə böyük hörmət bəsləyir və onu özünün ruhani müəllimi, çıxılmaz vəziyyətlərdən xilas edən bir şəxs olaraq təqdim edir. O, Əhməd Qəzali, Şeyx Bərəkə, Şeyx Fətha, Şeyx Hamuyə kimi alim və ariflərdən geniş şəkildə bəhs edir, onları öz həyatında və əsərlərində ilham mənbəyi kimi göstərir.

Bundan başqa, Miyanəci, həmçinin məşhur alimi, astronomiya və fəlsəfə sahəsindəki böyük şəxsiyyəti Ömər Xəyyamın tələbəsi olduğunu qeyd edir. Riyaziyyat və astronomiya üzrə ciddi təhsil aldığı, həndəsə və cəbr sahələrindəki biliyi ilə məşhur olduğu da bilinməkdədir. O, "Münyətül-haysub" adlı əsərini yazacaq qədər riyaziyyatla maraqlanmışdır.

Miyanəci, həmçinin, müxtəlif sufi və kəlam müəllimləri, məsələn, Şeyx Məvdud, Şeyx Məhəmməd b. Hammuyə kimi dəyərli şəxslərlə bağlı məlumat verir. Onun özünəxas dini düşüncələri, fəlsəfi yanaşmaları və batini elmlərə dair geniş biliyi onu öz dövrünün ən mühüm düşünürlərindən biri etməyə səbəb olmuşdur.

Bütün bu məlumatlar, Miyanəciyə dərindən təsir edən və onu öz elmi və mənəvi inkişafına yönləndirən alimləri və mütəfəkkirləri göstərir. Onun əsərlərində bu alimlərin təsiri aydın şəkildə özünü göstərir, bu da Miyanəciyə dini və fəlsəfi müstəvidə yüksək mövqe qazandırmışdır.

**Miyanəcinin əsərləri**

Miyanəci, İslam dünyasında təsəvvüf və fəlsəfi təfəkkürün inkişafına mühüm töhfələr vermiş bir sufi və mütəfəkkirdir. O, çoxsaylı əsərləri ilə öz dövrünün ən əhəmiyyətli alimlərindən biri hesab olunur. Onun ən məşhur və təsirli əsərlərindən bəziləri aşağıdakılardır:

**1. Zübdətül-Həqaiq** – Miyanəci, bu əsərini 24 yaşında yazmış və əsərin məqsədi üç əsas prinsipi — Tövhid, Nübüvvət və Məad — izah etməkdir. Əsər kəlami, təsəvvüfi və fəlsəfi məsələləri geniş şəkildə ələ alır və bu mövzuların açıqlanmasına xüsusi diqqət yetirilir. Miyanəci, öz əsərini yazmağa səmimi bir dostunun dini suallarına cavab olaraq başlamış və bu əsər ruhani inkişafın bir vasitəsi kimi təqdim olunur.

**2. Şəqval-qərib ənil-əvtan ilə uləmail-buldan** – Miyanəci bu əsəri Bağdad zindanında olarkən yazmışdır. Əsər həm dövrün alimlərinə qarşı bir cavabdır, həm də onun təsəvvüfi və fəlsəfi düşüncələrinin inkişafını göstərir.

**3. Təmhidat** – Bu əsər Miyanəci tərəfindən yazılan ən mühüm əsərlərdən biridir. Əsər İslam coğrafiyasında sufizmin əsas prinsiplərini izah edən bir müqəddimə kimi məşhurdur. Onun içindəki on təmhid, müxtəlif fəlsəfi və kəlam mövzularını geniş şəkildə ələ alır. "Təmhidat", həm də "Zübdətül-Həqaiq" əsəri ilə müqayisədə daha zəngin və dərindir.

**4. Naməha (Məktublar)** – Miyanəci dövrün alimlərinə, dostlarına və dövlət rəhbərlərinə yazdığı məktublar vasitəsilə geniş bir təfəkkür dünyası təqdim edir. Bu məktublar müxtəlif kəlami, fəlsəfi və təsəvvüfi məsələlərə toxunur, həmçinin Miyanəci öz dövrünün sosial və ictimai hadisələrinə dair də dərin fikirlər irəli sürür.

**5. Nüzhətül-Uşşaq və Nəhzətül-Müştaq** – Miyanəci bu əsərində min beytlik bir divan təqdim edir və onun şeirləri aşiqin halını və məqsədini təsvir edən bir əsər olaraq diqqət çəkir.

**6. Qayətül-bəhs ən mənal-bəs** – Bu əsər ilahiyyat, peyğəmbərlik və axirət mövzularını əhatə edir və Miyanəci, onun tələbələr və azad düşüncəli insanlar üçün vacib bir əsər olduğunu bildirir.

**7. Risalətül-Əlaiyyə** – Miyanəci bu əsəri yazarkən adi insanlar üçün zəruri olan etiqad məsələlərinə toxunmuş və geniş bir fəlsəfi mülahizə təqdim etmişdir [8, 44-45].

Miyanəci, həmçinin çoxsaylı məktubları ilə öz düşüncələrini və təcrübələrini dostlarına və dövrün rəhbərlərinə çatdırmışdır. Onun məktubları, bir tərəfdən fəlsəfi və dini mövzuları, digər tərəfdən də dövrün sosial və siyasi vəziyyətini izah edir. Bu əsərlər, Miyanəcinin dərindən düşündüyünü və təsəvvüf düşüncəsini elmi və hikməti bir dilə tökdüyünü göstərir. Eyni zamanda Miyanəcinin əsərləri, müasir dövrün filosofları və alimləri üçün də əhəmiyyətli bir qaynaq olaraq qalır.

**Miyanəcinin edam olunmasının səbəbləri**

Miyanəci öz dövründə böyük bir sufi alimi və fəlsəfi mütəfəkkir kimi tanınsa da, onun edamı ilə bağlı səbəblər mürəkkəb və çoxqatlıdır. Ən çox müzakirə olunan əsas səbəblər bunlardır:

**1. Dini və fəlsəfi görüşləri:** Miyanəci, xüsusilə İslamın metafizik və mistik aspektlərinə dair qeyri-adi baxışlar irəli sürüb. O, təsəvvüf və fəlsəfəni birləşdirərək insanın Allahla birliyi, Allahın varlığını və eşqin təbiətini izah edən fikirlər ortaya qoymuşdur. Onun görüşləri bir çox müctəhid alimlər və dövrün dini rəhbərləri tərəfindən ziddiyyətli və hətta təhlükəli hesab olunurdu. Miyanəci həmçinin müxtəlif dini təriqətlərə, xüsusilə mühafizəkar dini xadimlər tərəfindən tənqid edilirdi. Bu, onun kəlam və fəlsəfi düşüncələrinə qarşı ciddi müqavimətə səbəb olmuşdu.

**2. Təsəvvüf nəzəriyyəsi:** Miyanəci, sufi nəzəriyyəsi ilə bağlı çox dərindən təhlillər aparmış və sufilərin təlimatlarını, xüsusən də eşq və mistik birliyi vurğulamışdır. Bu cür fikirlər dövrünün ortodoksal İslam alimləri tərəfindən təqdir edilmirdi, çünki onlar təsəvvüf təlimlərini bir qədər təhlükəli hesab edir, bəzən onları bütpərəstlik və ya bidət kimi qələmə verirdilər. Miyanəci də öz əsərlərində və məktublarında bu görüşləri açıq şəkildə ifadə edirdi.

**3. Şəxsi münaqişələr və siyasi amillər:** Miyanəci həm də dövrünün siyasi və dini elitası ilə münasibətlərində çətinliklərlə üzləşmişdi. O, Bağdadda təqib edilərək həbs olunmuş və bu dövrdə fəlsəfi və dini əsərləri ilə əlaqədar sərt tənqidlərə məruz qalmışdır. Həbsdə olarkən yazdığı əsərləri, həm də müxtəlif dövlət xadimləri və mütəfəkkirlərlə yazışmaları, onu dövrün bəzi hakim təbəqələri ilə qarşıdurmaya gətirib çıxardı.

**4. Təhlükəli mücərrəd baxışlar:** Miyanəci, həmçinin "Varlığın başlanğıcı", "Allahın nuru" və "İblisin mücərrədliyi" kimi mücərrəd fəlsəfi məsələlər barədə dərindən fikirlər irəli sürmüşdür. Bu fikirlər zaman zaman İslamın əsas prinsipləri ilə

ziddiyyət təşkil edirdi və dini hakimlər tərəfindən şübhəli görülürdü.

Miyanəci, bu səbəblərə görə, dövrünün dini qurumlarının təzyiqinə məruz qalmış və nəticədə edama məhkum edilmişdir. Əsas səbəb, onun dini düşüncələrinin və fəlsəfi baxışlarının dövrün ortodoksal ideologiyalarına uyğun olmaması, həmçinin cəmiyyətdəki əsaslı dini rəhbərliklə olan qarşıdurmaları ilə əlaqədar olaraq meydana gəlmişdir [9, 58].

Miyanəci və İsmaililər arasındakı ideoloji ziddiyyətlər daha çox dini, fəlsəfi və təsəvvüfi baxışlarda özünü göstərirdi. Bu ziddiyyətlər xüsusilə İsmaili təriqətinin ortodoksal və gizli fəlsəfi əsasları ilə Miyanəcinin açıq və daha eklektik mistik yanaşmalarına qarşı çıxmaları ilə bağlıdır. Aşağıda bu ideoloji ziddiyyətlərin əsas məqamlarını qeyd etmək olar:

**1. Mərkəzləşdirilmiş rəhbərlik və şəxsi təcrübə:** İsmaililər, xüsusilə Nizari İsmaili təriqətinin tərəfdarları, təriqətin rəhbərliyini (İmamı) mərkəzi bir mövqe olaraq qəbul edirdilər. Onlar, yalnız İmamın və ya "Gizli İmam"ın təlimləri ilə doğru yola yönələcəklərinə inanırdılar və İmamın son dərəcə əhəmiyyətli və ilahi bir lider olduğunu qəbul edirdilər. Buna qarşı, Miyanəci daha çox şəxsi, mistik təcrübə və birbaşa Allah ilə əlaqə qurulması məsələsinə vurğu edirdi. O, insanın Tanrı ilə birbaşa əlaqə qurmasının mümkün olduğunu və bu əlaqənin yalnız və yalnız təcrübə və eşqlə baş verə biləcəyini müdafiə edirdi.

**2. Gizlilik və açıq fəlsəfə:** İsmaililər özlərinin xüsusi və gizli biliklərə sahib olduqlarını və bu biliklərin yalnız təriqətin seçilmiş üzvlərinə açıldığını əsas götürürdülər. Onlar, biliklərin dərin, batini və sırf təriqət üzvlərinə məlum olduğunu, ümumilikdə isə bu biliklərin yayılmamalı olduğunu hesab edirdilər. Miyanəci isə, fəlsəfi düşüncələrini və təsəvvüfi təlimlərini açıq şəkildə ifadə edir, bunları geniş auditoriyaya çatdırırdı. O, bilik və hikmətin yalnız xüsusi insanlara deyil, ümumi olaraq axtaran hər kəsə verilməli olduğunu müdafiə edirdi. Bu, İsmaili təriqətinin gizlilik prinsipinə qarşı bir ziddiyyət təşkil edirdi.

**3. İslami ortodoksiya və həqiqət anlayışı:** Miyanəcinin fəlsəfi və dini baxışları, bəzən İslamın ənənəvi və ortodoksal prinsipləri ilə uyğun gəlmirdi. Məsələn, o, Allahın birliyini və insanın bu birliyə yaxınlaşmasının əhəmiyyətini çox vurğulasa da, bəzi hallarda İslamın normativ hüquqi və dini sisteminə tənqidlər irəli sürürdü. İsmaililər isə, İslamı öz ənənəvi formatında qəbul edərək, onu öz mistik və təfsiredici xüsusiyyətləri ilə birləşdirirdilər, amma hələ də İmamın rəhbərliyini və İslamın ənənəvi prinsiplərini qoruyurdular.

**4. İnkar və açıq təfəkkür:** İsmaililər, bəzən özlərinin təfsir və şərhlərini "gizli" və "inkar edici" şəkildə təqdim edirdilər. Bu, həqiqətin çox qatlı olması və yalnız seçilmişlərə açıq olmasını nəzərdə tuturdu. Miyanəci isə, açıq və aydın şəkildə "haqq"ı və "doğru yol"u izah etməyə çalışırdı. Onun fəlsəfi yanaşması, hər kəsin ruhani və mistik anlamı tapmağa cəhd etməsini təşviq edirdi, bu isə İsmaililərin gizlilik və xüsusi təfsirlərinə qarşı bir müxalifət idi.

Bu ideoloji ziddiyyətlərdən dolayı Miyanəci və İsmaililər arasında qarşıdurmalar yaranmış və zaman-zaman bu fərqli yanaşmalar, həm fəlsəfi, həm də dini səviyyədə ciddi mübahisələrə yol açmışdır. Nəticədə, 35 yaşlı gənc və xoşniyyətli Miyanəci, bu gizli və məkrli təşkilatın onun üçün qurduğu tələyə düşərək həyatını itirmişdir.

## Nəticə

Miyanəci, dövrünün ən vacib dini və fəlsəfi fiqurlarından biri kimi, İslam dünyasında dərin təsir buraxmış bir şəxsiyyətdir. O, öz elmi fəaliyyətləri ilə yalnız dövrünün alimlərini deyil, həm də cəmiyyətin hər təbəqəsini istiqamətləndirmişdir. Onun edamı, yalnız bir şəxsiyyətin faciəsi deyil, həm də dövrün siyasi və dini mübarizələrinin bir nəticəsi kimi qiymətləndirilə bilər. Bu hadisələr, Miyanəci və onun kimi mütəfəkkirlərin siyasi və dini təzyiqlərə qarşı necə bir mövqe tutduqlarını və bunun sonunda necə cəzalandırıldığını açıq şəkildə ortaya qoyur.

**Açar sözlər:** *İslam, mütəfəkkir, təsəvvüf fəlsəfəsi, mistik düşüncə, din.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Acar A. Selçuklu Sultanı Sencer'in Din Siyaseti (Abbasi Halifeliği ve İsmailîlerle İlişkiler), Ankara Üniversitesi Sosyal Bilimler Enstitüsü Basılmamış Doktora Tezi, 1997, 196 s.*

*2. Alkış A. Aynul'kudât-ı Hemedânî'nin Hayatı, Eserleri ve Usûl-i Selâse Hakkındaki Tasavvufî-Kelâmî Görüşlerinin Tahlili. İstanbul: Hikemiyât, 2021, 394 s.*

*3. Karaoğlu M. C. Büyük Selçuklu Devleti Vezirleri. Van Yüzüncü Yıl Üniversitesi Basılmamış Yüksek Lisans tezi, 2011, 169 s.*

4. Köymen M. A. Tuğrul Bey ve Zamanı. İstanbul: Milli Eğitim Basımevi,1976,170 s.
5. Merçil E. Büveyhîler // TDV İslâm Ansiklopedisi Cilt 6. İstanbul: Türkiye Diyanet Vakfı, 1992, 496-500 ss.
6. Ocak A. Selçukluların Dinî Siyaseti, İstanbul: Tarih ve Tabiat Vakfı (TATAV) Yayınları, 2002, 444 s.
7. Özaydın A. Karahanlılar // Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi cilt 24. İstanbul: Türkiye Diyanet Vakfı, 2001, 404-412 ss.
8. Sandıkçı M. Aynülküdat Hemedânî'nin hayatı, eserleri ve Temhîdât tercümeleri, İstanbul: Marmara Üniversitesi Sosyal Bilimler Enstitüsü Basılmamış Yüksek Lisans tezi, 2009, 245 s.
9. Topgül E. M. Bir Cerh Sebebi Olarak Teşeyyu‘ (Şiîlik Eğilimi) Kavramına Tarihsel Bir Bakış // Marmara Üniversitesi İlâhiyat Fakültesi Dergisi, sy. 42, 2012, 47-76 ss.

**The Life and Works of the Azerbaijani Thinker Ayn Al-Qudat Al-Myanaji**

**SUMMARY**

Ayn Al-Qudat Al-Myanaji was a prominent Azerbaijani thinker who lived in the 12th century. He is particularly known for his Sufi philosophy and mystical thoughts. His ideas challenged the orthodox and esoteric religious teachings of his time and created ideological conflicts with the Ismailis. His execution might have been related to ideological disputes and scientific rivalries. Myanaji's legacy has played a significant role in the development of Sufi philosophy in the modern era.

**Keywords:** *Islam, philosopher, Sufi philosophy, mystical thought, religion.*

**Жизнь и творчество азербайджанского мыслителя Эйналкузата Миянеджи**

**РЕЗЮМЕ**

Эйналгузат Миянеджи был известным азербайджанским мыслителем, жившим в XII веке. Он особенно известен своей суфийской философией и мистическими взглядами. Его идеи оспаривали ортодоксальные и эзотерические религиозные учения того времени и создавали идеологические конфликты с исмаилитами. Его казнь могла быть связана с идеологическими спорами и научными соперничествами. Наследие Миянеджи сыграло важную роль в развитии суфийской философии в современную эпоху.

**Ключевые слова:** *ислам, философ, суфийская философия, мистическое мышление, религия.*

UOT 101.1:316
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0172

# TEXNOGEN SİVİLİZASİYADA TƏHSİLİN RƏQƏMSAL VƏ ROBOTİK TRANSFORMASİYALARI: SOSİAL-FƏLSƏFİ TƏHLİL

**RƏVAN ƏLİYEV**
*Azərbaycan Milli Elmlər Akademiyasının*
*Fəlsəfə və Sosiologiya İnstitutunun doktorantı*
*E-mail: ravanaliyev.97@gmail.com*
*Orcid ID: 0009-0000-2862-9802*

## Giriş

Texnogen sivilizasiya, insanın texnologiyanın inkişafı və texnoloji nailiyyətlərin ictimai həyata praktiki tətbiqi ilə sıx əlaqədə olduğu bir dövrü xarakterizə edir. Bu proses cəmiyyətin təkamülü, təbii mühitin dəyişdirilməsi və insanın həyat şəraitinin texnoloji vasitələrlə formalaşdırılması ilə müşayiət olunur. Texnogen cəmiyyətin təməl xüsusiyyətlərindən biri, texnologiyanın inkişafının bütün sahələrə nüfuz etməsi və onları dəyişdirməsi ilə xarakterizə olunur. Bu proses təhsil sahəsində də əhəmiyyətli dəyişikliklərə səbəb olmuşdur. Texnologiyanın təhsilə inteqrasiyası təhsil mühitini yenidən qurmuş, həmçinin tədris metodlarını və öyrənmə prosesini transformasiya etmişdir.

Hazırda dünyada təhsil mühiti sürətlə dəyişir və bu dəyişikliklərin bir çoxu texnogen sivilizasiyanın nailiyyətlərinin təsiri altında baş verir. Yeni texnologiyalar, onlayn təhsil platformaları, süni intellekt və rəqəmsal imkanlar, təhsilin daha əlçatan, dinamik forma almasına səbəb olmuşdur. Eyni zamanda, texnogen sivilizasiya təhsilin innovasiya, yaradıcılıq və problem həll etmə bacarıqlarını inkişaf etdirmək məqsədinin gücləndirilməsini tələb edir. Çünki texnogen sivilizasiyanın yaratdığı yeni sosial, mədəni və iqtisadi çətinliklər, təhsil sistemlərinin bu dəyişikliklərə uyğunlaşmasını və müasir çağın tələblərinə cavab verməsini vacib edir. Buna görə də texnogen sivilizasiyada təhsilin transformasiya süni intellekt, robotik sistemlər vasitəsilə gerçəkləşir.

## Süni intellekt və robotik sistemlərin təhsilin transformasiyasında rolu

Süni intellekt sistemləri təhsilin transformasiyasında çox mühüm rol oynadığı üçün sosial-fəlsəfi diskursda geniş müzakirə edilir. Təhsil, insanın inkişafı və cəmiyyətin irəliləyişi baxımından əsas sahə olduğu üçün süni intellekt sistemlərinin bu sahəyə daxil olması təhsil metodlarının, şərtlərinin, mühitinin və məqsədlərinin dəyişməsinə gətirib çıxarmışdır. Təhsil sistemi texnogen sivilizasiyanın mühüm komponentlərindən biri olaraq onun tələbləri ilə transformasiyaya uğrayır. Sosial fəlsəfi diskursdan yanaşdıqda bu transformasiya "çağırış-cavab" dialektikası əsasında baş verir. Cəmiyyətin qarşılaşdığı hər bir çağırış – istər iqtisadi böhran, istər ekoloji təhlükələr, istərsə də pandemiya kimi qlobal böhranlar – sivilizasiyanın texnoloji potensialını yenidən qiymətləndirmək və uyğun cavablar yaratmaq zərurətini ortaya qoyur. Məsələn, COVID-19 pandemiyası təhsil sisteminin rəqəmsallaşması istiqamətində yeni imkanlar yaratmışdır. Bu böhran şəraitində təhsil sahəsində baş verən texnoloji transformasiya təkcə zərurət deyildi; o həm də texnogen sivilizasiyanın texnoloji imkanlarının özünü praktiki nümayiş etdirməsi idi. Hər bir böhran bir növ “çağırış” olaraq yeni texnoloji həllərin irəli sürülməsi üçün münbit zəmin yaradır. Texnogen sivilizasiya bu “çağırış”lara “cavab” olaraq təhsil kimi fundamental sahələrin də yenidən formalaşmasını təmin edir. “...Böyümə prosesində eyni çağırışla iki dəfə qarşılaşılmır, çünki fərziyyəyə görə, böyümə davam etdiyi müddətdə hər çağırış ya uğurla həll edilir, ya da keçmişin bir parçasına çevrilərək aradan qalxır. Bunun əksinə olaraq, ardıcıl gələn çağırışlara verilən reaksiyaların nəticəsi zəfərdən çox məğlubiyyət olduqda, cavabsız qalan həmin çağırışdan xilas olmaq heç vaxt mümkün olmur və o, davamlı olaraq insanın qarşısına çıxmağa davam edir [13, s. 243]. Məsələn, COVID-19 pandemiyasından sonra təhsil sisteminin rəqəmsallaşma prosesi sürətlənmiş, bu keçid bir çox uğurlu nəticələr doğurmuşdur. Rəqəmsal texnologiyaların tədris prosesinə inteqrasiyası biliklərin daha geniş auditoriyaya çatdırılmasını təmin etmiş, tədris resurslarına əlçatanlığı artırmış və təhsil prosesini daha çevik etmişdir. Lakin eyni zamanda, pedaqoji tədqiqatlar göstərir ki, bu transformasiya yeni problemlərin ortaya çıxmasına səbəb olmuşdur. “..Zaman keçdikcə müəllimlər başa düşdülər ki, şagirdlər texnologiyanı aktiv şəkildə istifadə etsələr də, onların materialları başa düşmələri və tənqidi düşünmə bacarıqları əhəmiyyətli dərəcədə artmamışdır. Bir çox şagirdlər internetdən cavabları kopyalayır və əsas anlayışları

başa düşmədən onları qəbul edirlər, həmçinin məlumatı olduğu kimi qəbul edib, onu tənqid və ya analiz etmədən qəbul edirlər [8, s. 205]. Nəticə etibarilə təhsil sisteminin transformasiyası bir “çağırış” olaraq hələ də qalır və cəmiyyətlər texnologiyanın qlobal çağırışlarına tam cavab verə bilmir. Çünki təhsil azadlıq vasitəsidir və texnologiya ilə bu azadlıq qlobal ölçüdə genişlənə bilərdi. Lakin, tənqidi şüur olmadan texnologiya, əksinə, əksik və ya səthi istifadəsi ilə basqı vasitəsinə çevrilə bilər. M. Rijal qeyd edirdi: təhsildə texnologiyanın inteqrasiyası, yalnız öyrənmənin keyfiyyətini yaxşılaşdırmaqla kifayətlənməməli, həm də rəqəmsal məlumatlara tənqidi yanaşmaq bacarığına sahib, cəmiyyətdə texnologiyanın təsirini başa düşən fərdlər yetişdirməyi təmin etmək məqsədini güdməlidir [4, s. 318].

Beləliklə, texnologiya ilə azadlığın genişlənməsi üçün texnoloji imkanların bir vasitə deyil, həm də dərin düşüncə və tənqidi şüurla zənginləşdirilməsi zərurəti meydana çıxır. Bu zaman “çağırışlara” cavab tapmaqda bəşəriyyət ənənəvi üsullar ilə yeni texnoloji bacarıqları sintez etməyə cəhd göstərir. Bu sintez prosesi, həmçinin, insanın öz təbii instinktləri ilə texnologiyanın təklif etdiyi yeniliklər arasında tarazlıq yaradılması tələbini də gündəmə gətirir. Belə bir vəziyyətdə insan, adətən, instinktiv olaraq daha tanış və etibarlı görünən ənənəvi üsullara üstünlük verir, çünki onlar təhlükəsizlik hissini gücləndirir. “...Müasir texnologiya ilə ibtidai instinktlər arasında ziddiyyət yarananda, həmişə “primat” istəkləri üstün gəlir. Bu, "Mağara adamı prinsipi"dir. Mağara adamı hər zaman "öldürmə sübutu" ( mağara adamları üçün həyatda qalmaq və ya təhlükələrdən qorunmaq üçün həqiqətləri qəti şəkildə təsdiqləyən sübutlar lazım idi- R.Ə) tələb edirdi. Eynilə, biz də kompüter ekranında görünən elektronlara etibar etməyib, kağız nüsxələr istəyirik [7].

Texnogen sivilizasiyada müəllimlər hazırda ənənəvi pedaqoji tədris metodlarını informasiya və kommunikasiya texnologiyalarının imkanları ilə sintez edərək hibrid yanaşmadan istifadə edirlər. Lakin pedaqoji mühitin və pedaqoqların bu texnoloji imkanlara daha çox uyğunlaşmasına ehtiyac var. Nəticədə, e-öyrənmə mühitinə uyğunlaşmaq fərdi pedaqoji yanaşmanı tələb edir. Başqa sözlə, ənənəvi pedaqoji çərçivələr e-öyrənmə mühitində kifayət qədər təsirli ola bilmir [1,9]. Bu kontekstdə, texnoloji imkanların təhsilə tətbiqi yalnız elektron cihazların imkanlarına əsaslanmaqla məhdudlaşmır, həm də öyrənmə prosesinin daha çevik, hərəkətli olmasını təmin edən yeni yanaşmaları özündə birləşdirir. Bu yanaşma, əsasən, fərdi öyrənmə tələblərini nəzərə alaraq, hər bir şagirdin öz bacarıqlarını tətbiq etməklə öyrənməsini dəstəkləyən fərdiləşdirilmiş tədris yanaşmalarıdır. E-öyrənmə və M-öyrənmə metodları, tələbələrin fərdi ehtiyaclarına uyğun şəkildə öyrənmə imkanlarını genişləndirir və ənənəvi tədris mühitinin məhdudiyyətlərini aşmağa kömək edir. E-öyrənmədəki "e" hərfi, "elektron"u təmsil edir və bu, onlayn və ya offlayn, sinxron və ya asinxron olaraq, şəbəkələnmiş və ya müstəqil kompüterlər və digər elektron cihazlar vasitəsilə həyata keçirilən bir çox təhsil fəaliyyətlərini əhatə edir. Əlavə olaraq, M-öyrənmə, ya da mobil öyrənmə, daşınma qabiliyyətinə malik cihazlardan istifadə etməyi nəzərdə tutur ki, bu da müxtəlif mühitlərdə tədris imkanlarını artırır [2. s 11-13]. M-öyrənmə ənənəvi sinif mühitinin imkanlarını daha da genişləndirir. Lakin bu transformasiya texnologiyanın müxtəlif formalarının tədris prosesində müəllim, idarəedici, menecer və sair rolları üstlənməsi məsələsini gündəmə gətirir. Sosial-fəlsəfi diskursdan yanaşdıqda bu proses məlumatların təhlükəsizliyi, həmçinin qeyri-adekvat situasiyalarda uyğun davranış göstərilə bilməməsi kimi fərqli yanaşmaları ortaya çıxarır. Bu baxımdan, sosial-fəlsəfi diskursda süni intellekt, robotik sistemlərin təsiri ilə təhsil sisteminin transformasiyasını təhlil edərkən bir neçə baxış nəzərdən keçirilir. Süni intellektin və robotik sistemlərin müəllim, menecer kimi fəaliyyət göstərməsinin yaratdığı transformasiyaların sosial nəticələrinin öyrənilməsinin aktuallığı artır. Sinifdə liderlik, tələbələrin xüsusiyyətlərinin tanınması, fərdi öyrənmə, izləmə, rəhbərlik, obyektiv qiymətləndirmələr aparmaq, dəyişikliklərdən xəbərdar olmaq kimi vəziyyətlərdə süni intellekt texnologiyalarının daha yaxşı nəticələr əldə edə biləcəyi gözlənilir. Məktəb idarəçisi-meneceri kimi süni intellekt sistemləri təhlükəsizlik, müəllim performansı və inkişafı, düzgün planlaşdırma, valideyn idarəçiliyi və nizam-intizamlı idarəetmə kimi bir çox sahələrdə süni intellekt sistemlərinin faydalarının olacağı şübhə doğurmur [3]. Ancaq eyni zamanda təhsil sisteminin texnoloji transformasiyası bir çox problemləri paralelində gətirir. “... əvvəldən etiraf etmək lazımdır ki, öyrənmə və qiymətləndirmə üçün süni intellektdən istifadə həm müxtəlif narahatlıqlar doğurur. Bunlara süni intellekt sistemlərinin pedaqogi-

kaya yanaşması ilə bağlı narahatlıqlar, müəllimlərin mövqeyinə potensial təsirlərə dair əsaslı sübutların olmaması və daha geniş etik problemlər aiddir" [6, s. 1-16]. Bu narahatlıqlar və etik problemlər, robotların və süni intellektin təhsil sahəsindəki rollarını daha da dərindən müzakirə etmək zərurəti yaratmaqla yanaşı onların insanın sosial və psixoloji ehtiyaclarına necə uyğunlaşa biləcəyini anlamaq yolunda bir sıra aktual suallar ortaya qoyur. Robotların və süni intellektin inkişafı həm də bəşəriyyət-texnologiya münasibətlərinin fəlsəfi təhlilini tələb edir, çünki bu texnologiyalar həm praktiki, həm də dərin mənəvi sualları gündəmə gətirir. Robotların tarixi yeni görünsə də, "robot" sözü ilk dəfə təxminən 100 il bundan əvvəl çex yazıçısı Karel Çapekin əsərində istifadə edilən çex dilində "qul (kölə) və ya "zəhmətkeş" mənasını verən "robota" sözündən götürülmüşdür. İsaak Asimov 1938-1942-ci illər arasında nəşr olunan qısa hekayələr toplusunda robot texnikasının populyarlaşmasına töhfə verdi. O dövrdə yalnız oyunlarda və hekayələrdə mövcud olan robotlar real dünyaya ilham verdi. Elmi fantastikadan reallığa keçid 1958-ci ildə "General Motors" şirkəti tərəfindən avtomobil istehsalına kömək etmək üçün "Unimate" robotunu təqdim edəndə baş verdi. "Unimate"-nin 1961-ci ildə ilk istifadəsindən bəri robot texnikasının sənayeyə tətbiqi genişləndi [12, s. 833]. Müasir texnogen cəmiyyətdə isə robotların təhsildə istifadəsi proqramlaşdırma dillərinin inkişafı ilə sıx bağlıdır. Logo proqramlaşdırma dilinin inkişafı ilə təhsil robotlarından istifadə olunmağa başlandı. Massaçusets Texnologiya İnstitutunda (MIT) Seymur Papert və onun həmkarları tərəfindən hazırlanmış Törtl (Turtle) adlı tısbağa formalı robot Logo proqramlaşdırma dili ilə idarə olunan ilk təhsil robotu kimi istifadə edilmişdir [5, s. 558-578]. Tısbağa formalı robotun, xüsusilə Logo proqramlaşdırma dili ilə idarə olunması, təhsildə konstruktivizm fəlsəfəsinə əsaslanır. Konstruktivizm, uşaqların aktiv şəkildə öyrənmələrini və təcrübə vasitəsilə yeni biliklər kəşf etmələrini təşviq edən bir yanaşmadır. S. Papert və həmkarları bu fəlsəfi yanaşmanı tətbiq edərək, uşaqlara proqramlaşdırma, problem həll etmə və mücərrəd düşünmə bacarıqlarını təcrübə yolu ilə öyrətməyə çalışmışlar. Bu yanaşma, təhsilin texnologiya ilə necə əlaqələndirilə biləcəyini və uşaqların öyrənmə prosesinə daha aktiv şəkildə qoşulmalarını təmin etməyi hədəfləyirdi. "...Öyrənmə prosesi öyrənənin ictimai bir varlıq qurmaqda şüurlu şəkildə iştirak etdiyi bir kontekstdə baş verir" [11. s, 1]. Məsələn, dünyanın 70-dən çox ölkəsində 6000-dən çox akademik müəssisədə yerləşən və minlərlə tələbə və müəllimin ehtiyaclarına xidmət edən Nao ən məşhur humanoid təhsil robotudur. Bundan əlavə, Nao tədqiqatda ən çox istifadə edilən humanoid robotdur və öyrənmə robotu tədqiqatlarının təxminən 50%-i onun imkanları ilə bağlıdır [10. s, 1398]. Bununla yanaşı istifadə olunan Zenon adlı robot, insanlar kimi, fiziki hərəkətləri və reaksiyaları müəyyən etmək və idarə etmək üçün ətrafının 3 ölçülü zehni görüntüsünü görə bilir. Daha sonra ətrafda gördüklərinə əsasən naviqasiya etmək, üz ifadələri göstərmək və bədənini hərəkət etdirmək qabiliyyətinə malikdir [12. s, 837]. Ümumilikdə, sosial-fəlsəfi diskursda robotlarla qarşılıqlı ünsiyyət prosesində olan tələbələrin təcrübəsi, ənənəvi müəllim-tələbə münasibətindən fərqli bir "məna" yaradır. Öyrənənlərin "məna qurma" təcrübəsi, texnologiya ilə təhsilin əlaqəsini daha yaxşı anlamağa imkan verir. Bu qarşılıqlı əlaqə, təhsilin daha interaktiv və şəxsi bir hal almasına səbəb olsa da, insan-mərkəzli təhsildən uzaqlaşma riskini də daşıyır. Robotların "insana bənzərliyi" və onların öyrətmə prosesində bir müəllim kimi qəbul edilmə təcrübəsi fenomenoloji aspektdə yeni müzakirələr yaradır.

## Nəticə

Təhsil sisteminin texnogen transformasiyasının sosial-fəlsəfi aspektləri, xüsusən də süni intellekt və robotların təhsil sisteminə daxil olması mövzusu, müasir dövrün ən vacib fəlsəfi və etik suallarını gündəmə gətirir. Süni intellekt və robotların təhsildəki rolu, eyni zamanda təhsil fəlsəfəsinin yeni bir mərhələyə qədəm qoymasına səbəb olur. Bu mərhələ, yalnız texnologiyanın mümkün olan sərhədlərini deyil, həm də texnologiyanın insan təbiətinə, mədəniyyətinə və etik qaydalarına necə inteqrasiya oluna biləcəyini göstərir. Bu prosesin nəticəsi olaraq, təhsil sistemi həm texnoloji, həm də humanist yanaşmaların sintezi ilə inkişaf etməlidir ki, bu da cəmiyyətin hərtərəfli inkişafını təmin edə bilsin. Təhsil sisteminin texnoloji transformasiyası prosesi təhsilin yalnız funksional deyil, həm də fəlsəfi əsaslarla da dəyişməsini tələb edir. Sosial fəlsəfi diskursda təhsilin transformasiyası, yalnız yeni texnologiyaların tətbiqi ilə deyil, həm də cəmiyyətin bu yeniliklərə necə adaptasiya olunduğu və təhsilin əsas məqsədlərinin qorunub saxlanması ilə bağlı bir

balansın tapılması ilə mümkündür.

Təhsil, insanın sosial və mədəni inkişafını dəstəkləyən bir sahə olaraq, texnologiyanın imkanlarından istifadə etməli, amma eyni zamanda onun mənfi təsirlərinə qarşı da diqqətli olmalıdır. Bu yolda, təhsil sisteminin gələcəyi, texnologiyanın insanın təbii instinktləri və sosial ehtiyacları ilə uyğunlaşmasında, həm də insanlıq və texnologiya arasındakı münasibətlərin daha dərindən təhlil edilməsində dayanır. Sosial-fəlsəfi diskursda təhlil etdikdə təhsil sistemində texnogen dəyişikliklər, informasiyanın ancaq passiv şəkildə qəbul edilməsindən, daha çox interaktiv, praktiki və özəl təcrübə vasitəsilə əldə etməyin aktuallığını göstərir. Beləliklə, ənənəvi təhsil forması bilik və bacarıqların kollektiv məqsədlərə xidmət etməsi prinsipinə əsaslanırdısa, müasir texnogen təhsil sisteminin imkanları isə təlim prosesini daha çox fərdi inkişaf və şəxsi müstəqillik üzərinə qurmağa yönəldir.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Adilbayeva, U., Digital communication technology for teaching a foreign language and culture through reading / Mussanova, G. A., Mombekova, N. B., & Suttibayev, N. A. // International Journal of Society, Culture & Language, – 2022. 10(3), 21-30.*

*2. Chitra, A. P., & Raj, M. A. E-learning // Journal of Applied and Advanced Research,2018. 3(1), S11-S13.*

*3. Çetin, M. ve Aktaş, A. // Yapay zeka ve eğitimde gelecek senaryoları. Uluslararası Toplum Araştırmaları dergisi. –2021. 11 (18), 4227-4267.*

*4. Fadli R. M. Digital pedagogy philosophy: building critical awareness of the role of technology in education // – Universitas Esa Unggul, Indonesia, Jurnal Filsafat, ISSN: 0853-1870 (print); 2528-6811(online) Vol. 34, No. 2, – 2024, – p. 307 – 334*

*5. Hangün, M. E., Eğitimde robotik kullanımına yönelik araştırmaların incelenmesi: Bir içerik analizi çalışması / Kalınkara, Y., Bayer, H. ve Tekin, A., // Erzincan Üniversitesi Eğitim Fakültesi dergisi, . –2022, 24(3), 558-578.*

*6. Holmes. Artificial Intelligence in education. In: Tatnall, A. (eds) // Encyclopedia of Education and Information Technologies. Springer, Cham – 2019. p.1-16*

*7. https://www.renatatomko.com/the-caveman-principe*

*8. Lynch, J. Critical digital pedagogy for the Anthropocene./ J. Lynch. Athabasca University Press –2023, –pp. 205–218*

*9. Nouraey, P., Bavali, M, Behjat, F. A post-pandemic systematic review of E-learning: A cross-cultural study.// – 2023. International Journal of Society, Culture & Language, 11(3), 97-114.*

*10. Papakostas, G. A., Social robots in special education: A systematic review/ Sidiropoulos, G. K., Papadopoulou, C. I., Vrochidou, E., Kaburlasos, V. G., Papadopoulou, M. T., ... & Dalivigkas, N. // Electronics –2021, 10(12), 1398.*

*11. Papert, S. Mindstorms. Children, Computers and Powerful ideas. New York: Basic books – 1980, 232 p.*

*12. Şen, N. Özel eğitimde insansı robotlar //Avrupa Bilim ve Teknoloji dergisi– 2021, (32), 832-842.*

*13. Toynbee, A. J. Tarih bilinci, cilt 1, çev. Murat Belge, Bateş yayınları, İstanbul, – 1978. 584 p.*

## XÜLASƏ

Məqalədə texnogen sivilizasiya və onun təhsil sisteminə təsiri barədə sosial-fəlsəfi rakursda təhlillər təqdim edilir. Məqalənin əsas mövzusu, texnologiyanın təhsildəki rolunun dəyişməsi və bu dəyişikliklərin cəmiyyətin təhsil sistemini necə transformasiya etməsidir.Yeni texnologiyalar, xüsusən onlayn təhsil platformaları, süni intellekt və rəqəmsal vasitələr, təhsilin daha əlçatan, çevik və dinamik olmasına səbəb olmuşdur. Məqalə, texnologiyanın təhsil sisteminə inteqrasiyasının tədris metodlarını və öyrənmə prosesini necə transformasiya etdiyini sosial-fəlsəfi rakursda araşdırır. Lakin bu dəyişikliklər yalnız müsbət təsirlərlə məhdudlaşmır; eyni zamanda bəzi sosial, etik və pedaqoji problemləri də gündəmə gətirir. Məqalənin nəticəsində, təhsil sisteminin texnogen transformasiyasının sosial və fəlsəfi aspektləri vurğulanır. Bu dəyişikliklərin təhsilin rəqəmsal və robotik transformasiyalarında yeni mərhələlərə səbəb olduğu bildirilir. Məqalədə təhsilin yalnız texnoloji tərəfini deyil, həm də humanist yanaşmaların inteqrasiyası təklif olunur. Bu, bəşəriyyətin hərtərəfli inkişafını təmin etmək və insanın mədəni, sosial və psixoloji inkişafını dəstəkləmək üçün vacibdir.

**Açar sözlər:** *sivilizasiya, texnogen sivilizasiya, təhsil, süni intellekt, robotik sistemlər.*

**Ravan Aliyev**
***Azerbaijan National Academy of Sciences***
***Doctoral student of the Institute of Philosophy and Sociology***
***E-mail: ravanaliyev.97@gmail.com***
***Orcid ID: 0009-0000-2862-9802***

## DIGITAL AND ROBOTIC TRANSFORMATIONS OF EDUCATION IN TECHNOGENIC CIVILIZATION: A SOCIO-PHILOSOPHICAL ANALYSİS

**SUMMARY**

The article presents an analysis of technogenic civilization and its impact on the education system from a socio-philosophical perspective. The main topic of the article is the changing role of technology in education and how these changes transform the education system of society. New technologies, especially online educational platforms, artificial intelligence and digital tools, have made education more accessible, flexible and dynamic. The article examines how the integration of technology into the education system transforms teaching methods and the learning process from a socio-philosophical perspective. However, these changes are not limited to only positive effects; at the same time, they also raise some social, ethical and pedagogical problems. As a result of the article, the social and philosophical aspects of the technogenic transformation of the education system are emphasized. It is stated that these changes have led to new stages in the digital and robotic transformations of education. The article proposes the integration of not only the technological side of education, but also humanistic approaches. This is important for ensuring the comprehensive development of humanity and supporting the cultural, social and psychological development of a person.

**Keywords:** *civilization, technogenic civilization, education, artificial intelligence, robotic systems.*

**Раван Алиев**
***Национальная Академия Наук Азербайджана***
***Докторант Института Философии и Социологии***
***Эл. почта: ravanaliyev.97@gmail.com***
***Orcid ID: 0009-0000-2862-9802***

## ЦИФРОВЫЕ И РОБОТИЗИРОВАННЫЕ ТРАНСФОРМАЦИИ ОБРАЗОВАНИЯ В ТЕХНОГЕННОЙ ЦИВИЛИЗАЦИИ: СОЦИАЛЬНО-ФИЛОСОФСКИЙ АНАЛИЗ

**РЕЗЮМЕ**

В статье представлен анализ техногенной цивилизации и ее влияния на систему образования с социально-философской точки зрения. Основная тема статьи — меняющаяся роль технологий в образовании и то, как эти изменения трансформируют систему образования общества. Новые технологии, особенно платформы онлайн-образования, искусственный интеллект и цифровые инструменты, сделали образование более доступным, гибким и динамичным. В статье рассматривается, как интеграция технологий в систему образования трансформирует методы преподавания и процесс обучения с социально-философской точки зрения. Но эти изменения не ограничиваются положительными эффектами; В то же время это поднимает некоторые социальные, этические и педагогические вопросы. В результате статьи акцентируются социальные и философские аспекты техногенной трансформации системы образования. Считается, что эти изменения привели к новым этапам цифровой и роботизированной трансформации образования. В статье предлагается интеграция не только технологического аспекта образования, но и гуманистических подходов. Это необходимо для обеспечения всестороннего развития человечества и поддержки культурного, социального и психологического развития человека.

**Ключевые слова:** *цивилизация, техногенная цивилизация, образование, искусственный интеллект, робототехнические системы.*

UOT 316
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0175

# MÜHARİBƏ VETERANLARININ SOSİAL HƏYATA İNTEQRASİYASININ TƏHLİLİ

**ŞİRİN MƏHƏMMƏD**

*Azərbaycan Turizm və Menecment Universiteti, doktorant*

*E-mail: muhammadshirin123@gmail.com*

## Giriş

Müharibə veteranları müasir cəmiyyətlərin diqqət mərkəzində olan xüsusi sosial qruplar arasında yer alır. Onların qarşılaşdığı sosial, psixoloji və iqtisadi problemlər, həmçinin cəmiyyətə yenidən inteqrasiya prosesindəki çətinliklər inklüzivlik anlayışının zəruriliyini ortaya qoyur. Müharibənin gətirdiyi dağıdıcı təsirlər təkcə döyüş meydanlarında yox, həm də fərdlərin həyatının hər bir sahəsində hiss olunur. Bu baxımdan, müharibə veteranları münaqişə bölgələrində xidmət göstərmiş, fiziki və psixoloji travmalara məruz qalmış şəxslərdir. Onların bir çoxu post-travmatik stres pozuntusu (PTSP), fiziki əlilliklər və sosial təcrid ilə mübarizə aparır. Veteranlar müharibə sonrası dövrdə yalnız tibbi yardıma deyil, həm də mənəvi və emosional dəstəyə ehtiyac duyurlar. Onların cəmiyyətlə yenidən əlaqə qurması üçün iş imkanları, təhsil proqramları və sosial iştirak platformalarının təmin edilməsi zəruridir.

Bu baxımdan, məqalənin əsas məqsədi müharibə veteranlarının sosial inklüzivlik ehtiyaclarının müasir cəmiyyətlərdəki əhəmiyyətini vurğulamaq və onların cəmiyyətə yenidən inteqrasiyasını dəstəkləyən strategiyaları təhlil etməkdir. Tədqiqat sosioloji və psixoloji yanaşmaları birləşdirərək veteranların qarşılaşdığı çətinlikləri və onların həllinə yönəlmiş tədbirləri araşdırır. Araşdırmada həm kəmiyyət, həm də keyfiyyət metodlarından istifadə edilmiş, veteranların sosial və iqtisadi fəaliyyətlərdə iştirak səviyyələri ilə yanaşı, onların şəxsi təcrübələri və sosial dəstək sistemlərinin effektivliyi fokus qrupları və müsahibələr vasitəsilə öyrənilmişdir.

Məqalə müharibə veteranlarının sosial inklüzivlik problemlərinin çoxşaxəli bir yanaşma ilə həllinə dair tədqiqatlara yeni perspektivlər əlavə edir. Dünya təcrübəsini müqayisəli şəkildə analiz edərək, sosial siyasətin inkişafında beynəlxalq yanaşmaların tətbiqinin əhəmiyyətini ortaya qoyur və Azərbaycan üçün tövsiyələr təqdim edir.

## Veteranlarının sosial inklüzivliyinin nəzəri-metodoloji bazası

Müharibə veteranlarının sosial inklüzivliyə ehtiyacı onların müharibə sonrası qarşılaşdığı unikal çətinliklərdən qaynaqlanır. Bu ehtiyac bir neçə əsas amilə dayanır. Bunlardan birincisi psixoloji travmalardır. Müharibə veteranları tez-tez post-travmatik stres pozuntusu, depressiya və digər problemlərlə üzləşirlər. Bu psixoloji travmalar onların normal sosial həyatlarına davam etməsini çətinləşdirir və təcrid olunmalarına səbəb olur. Veteranlar bu travmalardan xilas olmaq və yenidən cəmiyyətin aktiv üzvü olmaq üçün psixoloji dəstəyə ehtiyac duyurlar. Veteranlar arasında posttravmatik stres pozuntusu (PTSP) və intihar riski kimi zehni sağlamlıq problemləri geniş yayılmışdır. "Journal of Nervous and Mental Disease" jurnalında yayımlanan bir araşdırmaya görə, təxminən 4% veteran hazırda PTSP-dən əziyyət çəkir və PTSP yaşamışların üçdə bir hissəsindən çoxunda bir və ya bir neçə simptom davam edir (1, s.224). Veteranlar arasında intihar riski ümumi əhali ilə müqayisədə daha yüksəkdir. Bu riskə PTSP, depressiya və mülki həyata adaptasiya çətinlikləri kimi faktorlar təsir edir. Körfəz Müharibəsi veteranları arasında yorğunluq, baş ağrıları və koqnitiv çətinliklər kimi bir sıra xroniki simptomlar müşahidə olunur ki, bunlar ümumilikdə "Körfəz Müharibəsi Sindromu" kimi tanınır. Bu vəziyyət xidmət zamanı müxtəlif ətraf mühit təhlükələrinə məruz qalma ilə əlaqələndirilmişdir (2, s.702).

Bundan başqa, müharibə zamanı yaralanan və ya əlil olan veteranlar fiziki məhdudiyyətlər səbəbindən cəmiyyətin bir çox fəaliyyətinə tam şəkildə qatılmaqda çətinlik çəkirlər. Onların sosial fəaliyyətlərə tam qoşulması üçün fiziki reabilitasiya xidmətlərinə və uyğun mühitə ehtiyacı var.

Digər bir səbəb iqtisadi çətinliklərdir. Müharibədən qayıdan veteranların bir çoxu iş tapmaqda və sabit gəlir əldə etməkdə çətinlik çəkir. Onların hərbi təcrübəsi mülki iş bazarına uyğun olmadığı üçün, əlavə təhsil və ya təlimə ehtiyac duyurlar. Veteranlar üçün xüsusi məşğulluq proqramları və iqtisadi dəstək

mexanizmləri olmadan, onlar maliyyə problemləri ilə üzləşir və cəmiyyətdən daha çox təcrid olunur.

Müxtəlif kompleks ehtiyaclara malik veteranların ailələri sağlamlıq və sosial xidmətlərə çıxışda və bu xidmətlərdən yararlanmaqda ciddi çətinliklərlə qarşılaşırlar. Hərbi və mülki xidmət sistemlərinin qarşılıqlı təsirləri bu ailələr üçün dəstək prosesini daha da mürəkkəbləşdirə bilər. Bu barədə aparılmış sistemli bir araşdırma veteran ailələrinin kompleks ehtiyaclarının ödənilməsində çətinliklərlə üzləşdiyini və onların sağlamlıq və sosial xidmətlərə çıxışında maneələrin olduğunu vurğulayır. Veteranların ailələri həm hərbi, həm də mülki xidmət sistemləri ilə əlaqə saxlamaq məcburiyyətində qalır ki, bu da xidmətlərin koordinasiyasını və uyğunlaşdırılmasını çətinləşdirir. Belə vəziyyət həm veteranların, həm də ailə üzvlərinin rifahına mənfi təsir göstərir. Tədqiqat nəticələri göstərir ki, ailələrin ehtiyaclarını dəstəkləyəcək daha səmərəli və əlaqələndirilmiş yanaşmalara ehtiyac var (3).

Üstəlik cəmiyyətin mənfi stereotipləri də burada rol oynayır. Bəzi hallarda veteranlara qarşı mövcud olan mənfi stereotiplər onların cəmiyyətə inteqrasiyasını çətinləşdirir. Veteranlar bəzən aqressiv və stabillikdən məhrum şəxslər kimi qəbul olunur, bu da onların işə qəbul olunmasında və sosial həyatlarında əlavə maneələr yaradır. Veteranlar müharibə sonrası cəmiyyətdə özlərinə uyğun yer tapmaqda çətinlik çəkə bilirlər. Onların döyüş təcrübələri və mülki həyatda qarşılaşdıqları fərqlər onları sosial fəaliyyətlərdən uzaqlaşdırır. Bu səbəbdən onlar üçün ictimai iştirak proqramları və sosial dəstək təşəbbüsləri həyata keçirilməlidir (4, p.989).

Digər tərəfdən, iqtisadi maneələr də veteranların cəmiyyətə inteqrasiyasında böyük problemlər yaradır. Müharibədən sonra iş imkanlarının azalması və əmək bazarına daxil olmaqda çətinliklər veteranları maddi sıxıntılarla üz-üzə qoyur. Bir çox veteran sosial yardım proqramlarına güvənməyə məcbur qalır. Lakin bu yardım proqramları çox zaman kifayət qədər təsirli və davamlı olmur (5, p.1393) Onların məşğulluğunu təmin etmək üçün xüsusi olaraq veteranlara yönəlmiş iş imkanlarının yaradılması və peşə təhsili proqramlarının tətbiqi vacibdir. Veteranların sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilməsi üçün güzəştli kreditlər təqdim edilməli və dövlət tərəfindən xüsusi təşviq proqramları həyata keçirilməlidir. Eyni zamanda, veteranların cəmiyyətə yenidən inteqrasiyasını asanlaşdırmaq üçün onların maliyyə müstəqilliyini təmin edən uzunmüddətli iqtisadi strategiyalar hazırlanmalıdır.

Veteranların psixoloji sağlamlığı məsələsi xüsusi diqqət tələb edir. Müharibə zamanı yaşanan travmalar bir çox halda uzun müddət müalicə olunmadan qalır və bu, ciddi psixoloji problemlərin yaranmasına gətirib çıxarır. Veteranların emosional travmaları ilə mübarizə aparmaq üçün onların psixoloji dəstək proqramlarına çıxışı təmin olunmalıdır. Psixoloji problemlər təkcə fərdi deyil, həm də ailə üzvləri ilə münasibətlərə mənfi təsir göstərərək sosial təcridi gücləndirə bilər (6, p.104).Bu səbəbdən veteranlar və onların ailələri üçün xüsusi psixoterapiya seansları təşkil edilməlidir. Həmçinin, psixoloji dəstəyin cəmiyyət səviyyəsində dəstəklənməsi, veteranların yenidən cəmiyyətin aktiv üzvlərinə çevrilməsi üçün əhəmiyyətlidir. Bu, həm də veteranların özünüdərkinin və özünəinamının bərpasına kömək edəcəkdir.

Mənfi stereotiplərin və psixoloji travmaların təsiri ilə veteranlar çox zaman sosial fəaliyyətlərdən uzaqlaşır və cəmiyyətdən təcrid olunmuş vəziyyətə düşürlər. Bu təcrid onların inteqrasiya prosesini çətinləşdirir. Cəmiyyətin veteranlara olan münasibətində dəyişikliklər etmək, onları fəal şəkildə sosial fəaliyyətlərə cəlb etmək lazımdır. Veteranların idman, mədəniyyət və ictimai tədbirlərdə iştirakı üçün xüsusi proqramlar hazırlanmalıdır. Onlar bu tədbirlərdə özlərini cəmiyyətin bir hissəsi kimi hiss etməli, digər sosial qruplarla əlaqələr qurmalıdırlar. Bu, həm veteranların sosial adaptasiyasını gücləndirir, həm də onların cəmiyyətə inteqrasiyasını asanlaşdırır.

Bu məqamda müharibə veteranlarını sosial inklüzivliyə ehtiyacı olan xüsusi sosial qrup kimi tədqiq etmək üçün sosioloji yanaşma mühüm əhəmiyyət kəsb edir. Bu metodologiya veteranların sosial təcrid vəziyyətini, cəmiyyətlə əlaqələrinin gücləndirilməsi yollarını və onların sosial inteqrasiyasını araşdırmağa imkan verir. Burada həm kəmiyyət, həm də keyfiyyət metodlarından istifadə edilir. Veteranların sosial fəaliyyətlərdə iştirak nisbətləri, işsizlik səviyyələri və dəstək xidmətlərindən istifadə tezliyi kəmiyyət analizi ilə araşdırılır. Eyni zamanda, onların şəxsi təcrübələri və sosial maneələrlə bağlı hissləri fokus qrupları və müsahibələr vasitəsilə öyrənilir (7,p.304). Psixoloji yanaşma isə öz növbəsində veteranların travma sonrası reabilitasiyası və emosional rifahına yönəlmiş tədqiqatları əhatə edir. PTSD kimi problemlərin müəyyən edilməsi üçün psixometrik

testlərdən istifadə edilir, eyni zamanda psixoterapiya proqramlarının effektivliyini qiymətləndirmək üçün eksperimental metodlar tətbiq olunur. Veteranların psixoloji sağlamlığı sosial inteqrasiyanın əsas amili olduğu üçün bu yanaşma onların emosional balansının bərpasında mühüm rol oynayır.

**Veteranların sosial inklüzivliyinin təmin edilməsində dünya təcrübəsi**

Veteranların psixoloji sağlamlığı məsələsi ABŞ təcrübəsində xüsusi yer tutur. Müharibə travmalarının yaratdığı psixoloji problemlərlə mübarizə aparmaq üçün xüsusi tibbi və psixoloji dəstək proqramları həyata keçirilir. Bu xidmətlər veteranların emosional rifahını təmin etməklə yanaşı, onların ailə və sosial münasibətlərinə də müsbət təsir göstərir. Psixoloji dəstəyin davamlı və əlçatan olması, veteranların sosial inteqrasiyasına böyük töhfə verir. Psixoloji sağlamlıq sahəsində ABŞ Veteranlar İşləri Departamenti (VA) geniş xidmətlər təqdim edir. "Wounded Warrior Project" çərçivəsində fəaliyyət göstərən "Warrior Care Network" proqramı post-travmatik stres pozuntusu (PTSP) və travmatik beyin zədələri (TBI) ilə mübarizə aparan veteranlara mütəxəssis yardımı göstərir (8). Bu proqramın bir hissəsi olaraq veteranlar Yale və Harvard kimi nüfuzlu tibb mərkəzlərində müalicə ala bilirlər. Psixoloji dəstək proqramları yalnız fərdi rifahı yaxşılaşdırmaqla qalmır, həm də veteranların ailə həyatına və cəmiyyətlə münasibətlərinə müsbət təsir göstərir.

Veteranların sosial adaptasiyası və icma dəstəyi də ABŞ-da əsas prioritetlərdən biridir. Müxtəlif icma əsaslı layihələr vasitəsilə veteranlar sosial fəaliyyətlərə cəlb olunur, bu isə onların təcrid hissini azaltmağa və yeni sosial əlaqələr qurmağa kömək edir. Belə təşəbbüslər veteranların cəmiyyətin fəal üzvləri kimi iştirakını təmin edir və onların adaptasiya prosesini sürətləndirir. Məşğulluq və təhsil sahəsində ABŞ-ın həyata keçirdiyi proqramlar arasında "Hire Heroes USA" xüsusi diqqətə layiqdir (9). Bu proqram veteranların iş tapmasına kömək edir, onların hərbi təcrübəsini mülki sahələrdə tətbiq etmək üçün məsləhətlər verir və CV hazırlamaqda dəstək göstərir. Digər tərəfdən, "GI Bill" proqramı vasitəsilə veteranlar təhsil xərclərini qarşılayaraq ali təhsil və peşə təlimi alırlar (10). Bu proqramın köməyi ilə minlərlə veteran yeni peşə sahələrində fəaliyyət göstərmək imkanı qazanmışdır. Məsələn, müharibədən sonra ali təhsil almaq istəyən veteranlar bu proqramdan istifadə edərək mühəndislik, tibb və ya biznes kimi sahələrdə karyera qururlar.

Veteranların sosial adaptasiyasını dəstəkləmək üçün "Team Red, White & Blue" adlı təşkilat xüsusi layihələr həyata keçirir (11).Bu təşəbbüs veteranları idman tədbirlərində, könüllü layihələrdə və ictimai fəaliyyətlərdə iştirak etməyə təşviq edir. Məsələn, veteranlar bu təşkilat vasitəsilə marafonlarda iştirak edir, cəmiyyətlərindəki problemlərin həllinə dəstək verir və yeni dostluqlar qururlar. Bu cür sosial əlaqələr onların özlərini cəmiyyətin ayrılmaz hissəsi kimi hiss etməsinə yardım edir.

Mənzil sabitliyinin təmin olunması veteranların cəmiyyətə inteqrasiyasında mühüm rola malikdir. ABŞ hökuməti tərəfindən təqdim olunan xüsusi ipoteka proqramları, veteranların mənzil problemlərinin həlli üçün geniş imkanlar yaradır. Bundan əlavə, maliyyə məsləhət xidmətləri və yardımlar veteranların iqtisadi müstəqilliyini təmin etməyə yönəlib. Mənzil problemlərinin həllində ABŞ hökuməti tərəfindən təqdim olunan "VA Home Loans" proqramı mühüm əhəmiyyətə malikdir (12). Bu proqram vasitəsilə veteranlar aşağı faizli ipoteka kreditləri əldə edərək ev sahibi olurlar. Məsələn, müharibədən qayıdan bir çox veteran bu proqramdan istifadə edərək ailələri üçün sabit yaşayış şəraiti təmin edir. Mənzil sabitliyi veteranların yenidən sosial həyata adaptasiyasını asanlaşdırır.

ABŞ-da hüquqi yardımın təşkili də veteranların sosial inklüzivliyində mühüm addımdır. Veteranlar hüquqlarını qorumaq və müxtəlif hüquqi maneələri aradan qaldırmaq üçün geniş hüquqi xidmətlərdən faydalana bilirlər. Bu yanaşma onların müstəqil və hüquqi cəhətdən güclü fərdlər kimi cəmiyyətdə yer almasına kömək edir. Veteranların hüquqlarının müdafiəsi və hüquqi məsələlərdə dəstək üçün "Veterans Legal Institute" təşkilatı fəaliyyət göstərir (13). Bu təşkilat veteranlara imtiyaz tələbləri, borcların idarə olunması və digər hüquqi məsələlərdə pulsuz yardım təqdim edir.

ABŞ-ın bu çoxşaxəli yanaşması göstərir ki, veteranların sosial inklüzivliyinin təmin olunması yalnız onların fərdi ehtiyaclarının qarşılanması deyil, eyni zamanda cəmiyyətin rifahına töhfə vermək baxımından da vacibdir. Veteranların iş imkanlarının artırılması, psixoloji və sosial dəstəyin təmin olunması, mənzil və hüquqi məsələlərin həlli kimi tədbirlər onların cəmiyyətə tam inteqrasiyasını təmin edir.

Azərbaycan da bu təcrübədən bəhrələnərək öz veteranlarının sosial inklüzivliyini təmin etmək üçün effektiv strategiyalar tətbiq edə bilər.

Qardaş Türkiyə Respublikası da öz növbəsində müharibə veteranları olan qazilərin sosial inteqrasiyası və rifahını təmin etmək məqsədilə müxtəlif sosial siyasət və proqramlar həyata keçirir. Bu sahədəki təcrübə bir neçə əsas istiqamətlərdə cəmlənir. Bunlardan birincisi hüquqi tənzimləmələr və idarəetmədir. 2011-ci ildə Ailə və Sosial Xidmətlər Nazirliyi nəzdində Şəhid Yaxınları və Qazilər Baş İdarəsi yaradılmışdır (14). Bu qurum qazilərə və şəhid ailələrinə yönəlik sosial xidmətlərin həyata keçirilməsi və koordinasiyasından məsuldur.

Sosial və iqtisadi dəstək çərçivəsində isə qazilərə aylıq təqaüdlər və digər maddi yardımlar təqdim olunur. 2023-cü ilin məlumatlarına görə, gazi aylıqları artırılmış və qazilərin həyat standartlarının yüksəldilməsi məqsədilə əlavə sosial yardımlar təmin edilmişdir. Bununla yanaşı, qazilərin və şəhid ailələrinin üzvlərinin dövlət qurumlarında işlə təmin olunması üçün xüsusi kvotalar ayrılmışdır. Bu, onların iqtisadi müstəqilliyini təmin etmək və cəmiyyətə inteqrasiyasını asanlaşdırmaq məqsədi daşıyır.

Təhsil və təlim dəstəyi çərçivəsində, qazilərin və şəhid ailələrinin uşaqlarına təhsil bursları və digər təhsil imkanları təqdim olunur. 2025-ci il üçün nəzərdə tutulan proqramlar çərçivəsində, bu ailələrin övladlarına müxtəlif təhsil dəstəkləri və burslar təmin ediləcəkdir. Eyni zamanda, qazilərə və onların ailələrinə tibbi və psixoloji dəstək xidmətləri təqdim olunur. Bu xidmətlər, onların fiziki və psixoloji sağlamlığını qorumaq və cəmiyyətə inteqrasiyasını dəstəkləmək məqsədi daşıyır.

Bundan əlavə, qazilərə və şəhid ailələrinə mənzil təminatı və ya mənzil yardımları təqdim olunur. Məsələn, TOKİ (Toplu Konut İdaresi) tərəfindən həyata keçirilən layihələrdə bu ailələrə xüsusi mənzil imkanları təmin edilir (15).Qazilərin və şəhid ailələrinin sosial həyata inteqrasiyasını dəstəkləmək üçün müxtəlif sosial, idman və mədəni tədbirlər təşkil olunur. Bu tədbirlər onların cəmiyyətlə daha sıx əlaqə qurmasına və sosial adaptasiyasına kömək edir. Türkiyənin bu sahədəki təcrübəsi qazilərin və şəhid ailələrinin sosial, iqtisadi və psixoloji ehtiyaclarını qarşılamaq üçün çoxşaxəli bir yanaşma tətbiq edildiyini göstərir. Bu siyasət onların cəmiyyətə tam inteqrasiyasını təmin etmək və həyat keyfiyyətini artırmaq məqsədi daşıyır.

Bu sahədəki ən nümunəvi ölkələrdən biri Finlandiyadır. Finlandiya müharibə veteranlarına dəstək göstərmək sahəsində uzunmüddətli ənənəyə malikdir və onların sağlamlıq və sosial ehtiyaclarını qarşılamağa yönəlmiş genişmiqyaslı xidmətlər təqdim edir. Bu xidmətlərə səhiyyə, reabilitasiya, yaşayış dəstəyi və sosial yardım daxildir ki, bu da veteranların qayğı və tanınmasını təmin edir. Finlandiyada müharibə veteranları geniş səhiyyə xidmətlərindən yararlanmaq hüququna malikdirlər. Keyfiyyətli və əlçatanlığı ilə tanınan Finlandiya səhiyyə sistemi veteranlara ilkin və ixtisaslaşmış tibbi yardımlar təqdim edir. Bu yardımlara mütəmadi tibbi müayinələr, mütəxəssis konsultasiyaları və zəruri müalicələr daxildir. Sistem səhiyyə və sosial xidmətlərin inteqrasiyasına xüsusi diqqət yetirir ki, bu da veteranların koordinasiya olunmuş və əhatəli qayğı almasını təmin edir. Veteranların yaşayış ehtiyaclarını qarşılamaq məqsədilə Finlandiya müxtəlif yardım növləri təqdim edir. Buraya əlillik səbəbindən mənzillərin modifikasiyasına dəstək və uyğun yaşayış yerlərinə çıxış təminatı daxildir. Bu, veteranların müstəqil və rahat yaşamasını təmin edir (16, p.493). Səhiyyə və sosial xidmətlərin regional və yerli səviyyələrdə inteqrasiyası bu dəstəyin təqdim edilməsini asanlaşdırır. Səhiyyə və yaşayış yardımından kənar, Finlandiya veteranların sosial rifahına böyük önəm verir. Müxtəlif təşkilatlar və icma qrupları sosial dəstək göstərir, tədbirlər təşkil edir və veteranların cəmiyyətlə əlaqədə qalmasını təmin edir.

Finlandiya hökuməti Cəbhə Veteranlarına Təqaüd və Əlavə Cəbhə Veteranlarına Təqaüd proqramları vasitəsilə maliyyə dəstəyi təqdim edir (17). Bu yardımlar funksional qabiliyyəti əhəmiyyətli dərəcədə azalmış veteranların xərclərini qarşılamaq məqsədini güdür. Dövlət Xəzinədarlığı Hərbi Yaralanmalar Aktı çərçivəsində əlil veteranlara və onların ailələrinə kompensasiya təqdim edir (18) Bu yardımlar tibbi yardım, reabilitasiya, evdə qayğı xidmətləri və yaşayış şəraitinin təkmilləşdirilməsini əhatə edir. Əlil veteranlar, onların həyat yoldaşları və dul qadınlar üçün iki həftəyə qədər rezident reabilitasiya və ya 15 günədək intensiv ambulator reabilitasiya xidmətləri təqdim olunur. Xaricdə yaşayan cəbhə veteranları Finlandiyada və ya yaşadıqları ölkələrdə reabilitasiya xidmətlərindən istifadə edə bilərlər. Finlandiyada Müharibə Əlilləri Assosiasiyası kimi təşkilatlar veteranların hüquqlarını müdafiə edir və onların rifahına töhfə verir. Bu

proqramlar Finlandiyanın veteranların ehtiyaclarına uyğunlaşdırılmış dəstək təmin etməkdəki səylərini əks etdirir (19).

**Nəticə**

Nəticədə, müharibə veteranlarının sosial inklüzivliyi müasir cəmiyyətlərin sosial siyasətində mühüm yer tutur və onların cəmiyyətə yenidən inteqrasiyası yalnız fərdi rifahı deyil, bütövlükdə sosial harmoniyanı təmin etmək üçün vacibdir. Müharibədən qayıdan veteranların üzləşdiyi çətinliklər çoxşaxəli olduğundan onların həllinə kompleks yanaşma tələb olunur. Psixoloji travmalar, iqtisadi maneələr, sosial təcrid və mənfi stereotiplər kimi problemlər veteranların cəmiyyətə inteqrasiyasını ləngidən əsas amillərdir. Bu səbəbdən psixoloji dəstək proqramları, iqtisadi təşəbbüslər və ictimai maarifləndirmə kampaniyaları kimi çoxşaxəli yanaşmalar tətbiq edilməlidir. Veteranların iş bazarına daxil olması, onların iqtisadi müstəqilliyinin təmin edilməsi və peşəkar potensiallarının cəmiyyətin inkişafı üçün istifadəsi baxımından əhəmiyyətlidir. Eyni zamanda, onların emosional sabitliyi və ailədaxili münasibətləri gücləndirən psixoloji dəstək tədbirləri həm fərdi, həm də kollektiv səviyyədə sosial rifahın təməlini təşkil edir. Bu tədbirlərin koordinasiyalı şəkildə tətbiqi veteranların sosial təcriddən çıxarılmasına və cəmiyyətin fəal üzvlərinə çevrilməsinə töhfə verir.

Bununla belə, müharibə veteranlarının cəmiyyətə tam inteqrasiyası təkcə dəstək mexanizmlərinin yaradılması ilə məhdudlaşmamalıdır. Sosial inklüzivlik veteranların aktiv şəkildə cəmiyyətin hər bir sahəsində iştirakını təmin etməyi nəzərdə tutur. Veteranlara qarşı mənfi stereotiplərin aradan qaldırılması, onların sosial və mədəni tədbirlərə cəlb olunması, həmçinin ailələrinin ehtiyaclarının nəzərə alınması kimi yanaşmalar inklüzivlik strategiyalarını daha təsirli edir. Veteranların özlərini dəyərli hiss etməsi və yeni sosial şəbəkələr qurması yalnız onların deyil, bütövlükdə cəmiyyətin sabitliyinə müsbət təsir göstərir. Bu kontekstdə, dövlət və qeyri-hökumət təşkilatlarının birgə fəaliyyəti sosial siyasətin daha məqsədyönlü və uzunmüddətli nəticələr əldə etməsinə şərait yaradır. Veteranların təcrid olunmaması və onların potensialının cəmiyyətin ümumi inkişafına yönəldilməsi inklüziv siyasətin əsas məqsədlərindən biri olaraq qalmalıdır. Ümumilikdə, müharibə veteranlarının cəmiyyətə tam inteqrasiyası yalnız fərdi səviyyədə deyil, həm də cəmiyyətin bütövlükdə inkişafında əhəmiyyətli rol oynayan fundamental sosial məsələdir.

**ƏDƏBİYYAT SİYAHISI:**


1. *Bartlett, B. et all. Military Veteran Status and Posttraumatic Stress Disorder Symptomatology Among Urban Firefighters The Moderating Role of Emotion Regulation Difficulties. The Journal of Nervous and Mental Disease 207(4):p 224-231, April 2019. DOI: 10.1097/NMD.0000000000000958*

2. *Manhapra, A. et all. Who Uses Veterans Mental Health Services? A National Observational Study of Male Veteran and Nonveteran Mental Health Service Users. The Journal of Nervous and Mental Disease 209(10):p 702-709, October 2021. DOI: 10.1097/NMD.0000000000001369*

3. *Maguire, A. et al. Veteran families with complex needs: a qualitative study of the veterans' support system. BMC Health Services Research volume 22, Article number: 74 (2022). https://bmchealthservres.biomedcentral.com/articles/10.1186/s12913-021-07368-2*

4. *Liu, S., Silanskis, E., Knetig, J., & Holliday, R. Intimate Partner Violence Screening for Veterans Accessing Homelessness Services. Journal of Aggression, Maltreatment & Trauma, 2022, 32(7–8), 989–1004. https://doi.org/10.1080/10926771.2022.2112337*

5. *Szukis, H. et all. Economic burden of treatment-resistant depression among veterans in the United States. Current Medical Research and Opinion, 2021, 37(8), 1393–1401. https://doi.org/10.1080/03007995.2021.1918073*

6. *Manheim, C. E., Haverhals, L. M., Jones, J., & Levy, C. R. Allowing Family to be Family: End-of-Life Care in Veterans Affairs Medical Foster Homes. Journal of Social Work in End-of-Life & Palliative Care, 2016, 12(1–2), 104–125. https://doi.org/10.1080/15524256.2016.1156603*

7. *Adams, R.E. et all. Social and Psychological Risk and Protective Factors for Veteran Well-Being: The Role of Veteran Identity and Its Implications for Intervention. Mil Behav Health. 2019 Mar 12;7(3):304–314. doi: 10.1080/21635781.2019.1580642.*

8. *How Warrior Care Network Accelerates Mental Health and PTSD Recovery for Veterans. Wounded Warrior Project. URL: https://newsroom.woundedwarriorproject.org/How-Warrior-Ca-*

re-Network-Accelerates-Mental-Health-and-PTSD-Recovery-for-Veterans

9. Our mission is your next one. Hire Heroes USA. URL: https://www.hireheroesusa.org/about/

10. Servicemen's Readjustment Act (1944). National Archives. URL: https://www.archives.gov/milestone-documents/servicemens-readjustment-act

11. What We Do: Our Programs. Team Red, White & Blue. URL: https://teamrwb.org/programs

12. VA Loans: The Complete Guide. Veterans United. URL: https://www.veteransunited.com/va-loans/#loan-type

13. Mission & Overview. Veterans Legal Institute. URL: https://www.vetslegal.org/about-us/mission-overview/

14. T.C. Aile ve Sosyal Hizmetler Bakanlığı Şehit Yakınları ve Gaziler Genel Müdürlüğü: Tarihçe. URL: https://www.aile.tr/syggm/genel-mudurluk/tarihce/

15. Şehit Yakınları-Gaziler: Sosyal Konut Hamlesi. URL: https://talep.toki.gov.tr/sehitvegazi.html

16. Nivala, S., & Sarvimäki, A. The lifelong struggle of Finnish World War II veterans. Aging & Mental Health, 2015, 19(6), 493–499. https://doi.org/10.1080/13607863.2014.954525

17. 60 vuotta opiskelustipendejä sotaorvoille ja veteraanien lapsille. 02.03.2009. URL: https://www.sttinfo.fi/tiedote/34737/60-vuotta-opiskelustipendeja-sotaorvoille-ja-veteraanien-lapsille?publisherId=3390

18. Privacy policy: Compensation to the applicant under the Military Injuries Act. 13.05.2019. URL: https://www.valtiokonttori.fi/en/universal/privacy-policy-compensation-to-the-applicant-under-the-military-injuries-act/

19. The Disabled War Veterans' Association of Finland / Sotainvalidien Veljesliiton Etelä-Pohjanmaan piiri ry. URL: https://epsotainvalidipiiri.kotisivukone.com/in-english

**Анализ интеграции ветеранов войны в социальную жизнь**

**РЕЗЮМЕ**

Ветераны войны являются одной из самых уязвимых социальных групп в современных обществах, нуждающихся в реинтеграции и социальной инклюзии. Основными проблемами, с которыми сталкиваются ветераны, являются посттравматическое стрессовое расстройство (ПТСР), физические увечья, экономические трудности и социальная изоляция. Данная статья анализирует меры, направленные на социальную инклюзию ветеранов, и их эффективность, изучая пути укрепления их связей с обществом. Обеспечение экономической независимости ветеранов, развитие программ психологической поддержки и преодоление негативных стереотипов выделяются в качестве ключевых стратегий. Мировой опыт, особенно примеры США, Турции и Финляндии, подчеркивает значимость различных мероприятий для социальной интеграции ветеранов. Адаптация этих подходов к реалиям Азербайджана может существенно способствовать улучшению благосостояния ветеранов в стране. Статья также подчеркивает комплексные потребности семей ветеранов, предлагая более широкое их рассмотрение в социальной политике. В итоге, комплексный подход к поддержке инклюзии ветеранов войны не только способствует их социальной интеграции, но и укрепляет общую гармонию в обществе.

**Ключевые слова:** *ветераны войны, инклюзия, теоретический подход, методология, мировой опыт.*

**Analysis of the ıntegration of war veterans into social life**

**SUMMARY**

War veterans are among the most vulnerable social groups in modern societies, requiring reintegration and social inclusion. The main challenges faced by veterans include post-traumatic stress disorder (PTSD), physical disabilities, economic hardships, and social isolation. This article analyzes measures aimed at fostering social inclusion for veterans and evaluates their effectiveness by exploring ways to strengthen their connections with society. Ensuring veterans' economic independence, developing psychological support programs, and eliminating negative stereotypes emerge as key strategies. Global experiences, particularly examples from the USA, Turkey, and Finland, highlight the significance of various initiatives for veterans' social integration. Adapting these approaches to Azerbaijan's realities could significantly contribute to improving veterans' welfare in the country. The article also emphasizes

the complex needs of veterans' families, advocating for their broader consideration in social policies. Ultimately, comprehensive approaches to supporting war veterans' inclusion not only facilitate their social integration but also contribute to overall societal harmony.

**Keywords:** *war veterans, inclusion, theoretical approach, methodology, global experiences.*

**XÜLASƏ**

Müharibə veteranları müasir cəmiyyətlərin ən həssas sosial qruplarından biri olaraq, cəmiyyətə yenidən inteqrasiya və sosial inklüzivlik ehtiyacları ilə diqqət mərkəzindədirlər. Veteranların qarşılaşdığı əsas problemlər arasında post-travmatik stres pozuntusu (PTSP), fiziki əlilliklər, iqtisadi çətinliklər və sosial təcrid dayanır. Bu məqalə veteranların sosial inklüzivliyinə yönəlmiş tədbirləri və onların effektivliyini təhlil etməklə, onların cəmiyyətlə əlaqələrinin gücləndirilməsi yollarını araşdırır. Veteranların iqtisadi müstəqilliyinin təmin edilməsi psixoloji dəstək proqramlarının inkişafı və mənfi stereotiplərin aradan qaldırılması əsas strategiyalar kimi önə çıxır. Dünya təcrübəsi xüsusilə ABŞ, Türkiyə və Finlandiya nümunələri veteranların sosial inteqrasiyası üçün müxtəlif tədbirlərin əhəmiyyətini göstərir. Bu yanaşmaların Azərbaycan reallıqlarına uyğunlaşdırılması ölkədə veteranların rifahının artırılmasına mühüm töhfə verə bilər. Məqalə həm də veteranların ailələrinin kompleks ehtiyaclarını vurğulayaraq, onların sosial siyasətdə daha geniş nəzərə alınmasını təklif edir. Nəticə etibarilə, müharibə veteranlarının inklüzivliyini dəstəkləyən kompleks yanaşmalar onların sosial inteqrasiyasını təmin etməklə yanaşı, cəmiyyətin ümumi harmoniyasına da töhfə verir.

**Açar sözlər:** *Müharibə veteranları, inklüzivlik, nəzəri yanaşmalar, metodologiya, dünya təcrübəsi.*

# MÜNDƏRİCAT

## SİYASİ ELMLƏR

MÜBARİZ GÖYÜŞLÜ: TÜRKİYƏ VƏ AZƏRBAYCAN MEDİASINDA
KONFEDERASİYA MƏSƏLƏSİNƏ MÜNASİBƏT....... 5
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.011

XƏYYAM İSMAYILZADƏ: SOYUQ MÜHARİBƏ İLLƏRİNDƏ
ABŞ-ÇXR MÜNASİBƏTLƏRİNDƏ TAYVAN MƏSƏLƏSİ....... 10
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.013

GÜLŞƏN BABAYEVA: AZƏRBAYCAN DİASPOR TƏŞKİLATLARININ
ERMƏNİ LOBBİSİNƏ QARŞI FƏALİYYƏTLƏRİ (1994-2020-ci illəri)....... 14
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.015

ЭЛЬВИН ТАЛЫШИНСКИЙ: ОСНОВНЫЕ ПОНЯТИЯ ИНФОРМАЦИОННОЙ
ВОЙНЫ В СИСТЕМЕ МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЙ....... 20
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.017

VAFA ZAKIR ISMAYILOVA: THE EUROPEAN UNION MISSION AS
AN ATTEMPT TO INTERVENE IN THE SOUTH CAUCASUS....... 26
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.019

İBRAHİM BABAYEV: AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASI
DEMOKRATİK DÖVLƏT QURUCULUĞUNUN TƏMƏL PRİNSİPİ KİMİ....... 32
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.023

MƏHƏBBƏT SEYİDOVA: BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ "YUMŞAQ GÜC"....... 38
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.025

MURAD HƏSƏNXANLI: GƏNCLƏRLƏ İŞİN TƏŞKİLİ:
NƏZƏRİ VƏ METODOLOJİ YANAŞMALARIN ƏSASLARI....... 43
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.028

FİDAN XƏLİLOVA: XARİCİ SİYASƏTİN FORMALAŞMASINDA
MİLLİYYƏTÇİLİYİN TƏSİRİ: NƏZƏRİ–KONSEPTUAL YANAŞMA....... 49
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.029

ELMIR BADALOV: "FROM HYDROCARBONS TO RENEWABLES: THE EU-AZERBAIJAN ENERGY PARTNERSHIP IN A CHANGING GEOPOLITICAL LANDSCAPE"............................. 55
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.032

BURCU TEMÜR: THE ROLE OF CITIES IN NATION-BUILDING PROCESS: THE OSH EXAMPLE...................................................................... 62
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.036

АЙСЕЛЬ АСКЕРЛИ: АРКТИЧЕСКАЯ ШАХМАТНАЯ ДОСКА: ГРЕНЛАНДИЯ В ЭПИЦЕНТРЕ МИРОВЫХ АМБИЦИЙ................................................................ 67
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.039

ELGÜN İBRAHİMOV: RUSİYA-UKRAYNA MÜHARİBƏSİ FONUNDA TÜRKİYƏNİN BALKAN REGİONU SİYASƏTİNDƏ YENİ ÇAĞIRIŞLAR.................................... 74
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.042

JOVHAR MUSEYIBZADA : FOREIGN POLICY PRIORITIES OF AZERBAIJAN....................... 80
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.047

LƏMAN MİKAYILOVA: MÜASİR TÜRK DÖVLƏTLƏRİNİN AKTUAL PROBLEMLƏRİ......... 85
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.051

ИРАДА МАМЕДОВА: ИСТОРИЧЕСКИЙ ОПЫТ РАЗРЕШЕНИЯ КОНФЛИКТОВ В АЗЕРБАЙДЖАНЕ............................................................................................ 90
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.054

SƏRXAN HÜSEYNLİ: STRATEJİ SƏBR- TÜRKİYƏNİN SURİYADAKI QƏLƏBƏSİNİN AÇARI KİMİ............................................................................................ 95
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.057

KƏRİMOVA NƏZRİN: "REGİON" ("BÖLGƏ") ANLAYIŞI MÜASİR SİYASƏT ELMİNİN KATEQORİYASI KİMİ.............................................................................. 99
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.058

СОНА АБАСОВА: ТУРИЗМ КАК СОВРЕМЕННЫЙ АТРИБУТ ПУБЛИЧНОЙ ДИПЛОМАТИИ... 105
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.062

XƏLİL YUSİFLİ: BEYNƏLXALQ TƏCRÜBƏDƏ GƏNCLƏR SİYASƏTİNƏ DAİR YANAŞMALARDA YENİ TENDENSİYA VƏ REALLAŞDIRILMA PARADİQMALARI.................... 109
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.065

SEVİNC İBADOVA: AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ KOREYA RESPUBLİKASI İLƏ MÜNASİBƏTLƏRİNDƏ “THAAD (YÜKSƏK HÜNDÜRLÜK SAHƏSİNDƏN MÜDAFİƏ TERMİNALI)” PROBLEMİ....................................................................... 115
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.068

## TARİX VƏ ANTROPOLOGİYA

NÜŞABƏ QULİYEVA: HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN TƏHSİLİNDƏ İSLAHATLAR VƏ İNKİŞAF.......................................................................................... 118
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.075

MƏRYƏM ORUCLU: ETNİK MÜXTƏLİFLİYİN TƏNZİMLƏNMƏSİNDƏ İZOLYASİYA VƏ ASSİMLYASİYA SİYASƏTİ........................................................................... 122
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.083

ŞAHİSMAYIL İSMAYILOV: AZƏRBAYCAN -TÜRKİYƏ MÜNASİBƏTLƏRİ: TARİXİ TƏRƏFDAŞLIQDAN STRATEJİ İNTEQRASİYAYA............................................................ 127
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.086

M.M. KƏRİMOVA, L.T. SOLOVYOVA, O.A. ƏHMƏDOV: RUSİYADA AZƏRBAYCAN DİASPORUNUN VƏ BİR AİLƏNİN TARİXİ..................................... 133
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.089

ЭРКИН САДЫХЗАДЕ: ЛЁГКИЕ НАСТУПАТЕЛЬНЫЕ ВООРУЖЕНИЕ В АЗЕРБАЙДЖАНСКОМ ГОСУДАРСТВЕ СЕФЕВИДОВ.............................................................. 145
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.092

VƏFA ƏLİYEVA: NARGİN ADASINDAN TÜRK ƏSİR ZABİTLƏRİNİN QAÇIRILMASININ TƏŞKİLİNDƏ AĞABALA QULİYEVİN İŞTİRAKI BARƏDƏ....................... 153
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.094

NƏRGİZ AXUNDOVA: AZƏRBAYCAN ƏRAZİSİNDƏ ERKƏN ƏKİNÇİLİK MƏDƏNİYYƏTLƏRİ VƏ ONUN FORMALARI................................................................. 159
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.096

## İQTİSADİYYAT

ELŞAD YUSİFOV, MURAD ABDURAHMANLI: DAVAMLI İNKİŞAF EDƏN ŞİRKƏTLƏRDƏ HEYƏTİN İDARƏ EDİLMƏSİ PROSESİNDƏ MÜASİR YANAŞMALAR VƏ ZİDDİYYƏTLƏR........ 163
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0101

ARZU İBRAHİMLİ HÜSEYNOVA: YERLİ SƏVİYYƏDƏ ƏRZAQ TƏHLÜKƏSİZLİYİ SİSTEMİNİN FORMALAŞMASI XÜSUSİYYƏTLƏRİ........ 168
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0104

RAMİL ŞAHÜSEYNLİ: SOSİAL İNFRASTRUKTUR ANLAYIŞI, MAHİYYƏTİ VƏ SOSİAL KAPİTALIN CƏMİYYƏTİN İNKİŞAFINDAKI ROLU........ 175
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0107

GÜLŞƏN KƏRİMOVA: ELEKTRON TİCARƏTDƏ ESG PRİNSİPLƏRİNİN İNTEQRASİYASI VƏ DAVAMLI İNKİŞAF........ 179
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0110

TURAN ALLAHVERDİ: İNTERNET MÜHİTİNDƏ BİZNES PROSESLƏRİNİN İDARƏ EDİLMƏSİ........ 184
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0113

ELŞAD YUSİFOV, VƏSİLƏ QASIMOVA: SƏNAYE MÜƏSSİSƏLƏRİNDƏ İNSAN KAPİTALININ STRATEJİ PLANLAŞDIRILMASINA TƏSİR EDƏN AMİLLƏRƏ UYĞUN İDARƏETMƏ QƏRARLARININ QƏBULU........ 188
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0115

AYSEL BƏDƏLZADƏ: AZƏRBAYCANDA İNSAN KAPİTALININ İNKİŞAFINA İNVESTİSİYA QOYULUŞU SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ........ 193
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0118

FATİMƏ MUSAYEVA: AZƏRBAYCANIN POSTKONFLİKT ƏRAZİLƏRİNDƏ İNVESTİSİYA-MALİYYƏ MEXANİZMLƏRİNİN İNKİŞAF ETDİRİLMƏSİ YOLLARI........ 197
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0126

SEVDA HACIYEVA: QLOBAL KONTEKSTDƏ AQRAR SEKTORDA SAHİBKARLIQ FƏALİYYƏTİNƏ NƏZƏRİ YANAŞMALAR........ 202
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0132

LALƏ ŞAHBAZOVA: AZƏRBAYCANDA BANKLARIN KREDİT PORTFELİNİN MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ.................. 207
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0135

ELXAN BODUROV: REGİONUMUZDA DAYANIQLI MALİYYƏ VƏ YA DAYANIQLI MÜHASİBAT UÇOTUNUN FORMALAŞMASININ ƏSAS PROBLEMLƏRİ......... 212
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0137

HİDAYƏT ƏHMƏDZADƏ: GÖMRÜK PROSEDURLARININ TƏKMİLLƏŞDİRİLMƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ.................................................................... 216
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0139

RUSİF ƏLİYEV: İQTİSADİ İNKİŞAFDA GÖMRÜK TARİF TƏNZİMLƏNMƏSİ......................... 219
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0142

RUSLAN XƏLİLZADƏ: DÜNYA TƏCRÜBƏSİNDƏ GÖMRÜK TARİF TƏNZİMLƏNMƏSİ.......................................................................................... 222
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0146

GÜNAY İSGƏNDƏROVA: AZƏRBAYCANDA QEYRİ-NEFT SƏNAYESİNDƏ İNVESTİSİYA FƏALİYYƏTİNİN MÖVCUD VƏZİYYƏTİ................................................................ 225
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0148

EMİN MƏHƏRRƏMOV: MÜASİR DÖVRDƏ AZƏRBAYCANDA QEYRİ-NEFTQAZ SEKTORU SAHƏLƏRİNDƏ RƏQƏMSAL İQTİSADİYYAT MEXANİZMLƏRİNİN TƏTBİQİ MƏSƏLƏLƏRİ.................................................. 231
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0151

MÜQƏDDƏS ƏZİZZADƏ: MÜASİR DÖVRDƏ AZƏRBAYCANDA KİMYA VƏ NEFTKİMYA SAHƏSİNİN MÖVCUD VƏZİYYƏTİNİN TƏDQİQİ........................................... 236
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0154

**FƏLSƏFƏ VƏ SOSİOLOGİYA**

SAMİR HƏSƏNOV: SOSİAL İŞİN İCRASI ÜÇÜN ADEKVAT SOSİAL MÜHİTİN YARADILMASININ METODOLOJİ ASPEKTLƏRİ......................................................... 241
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0157

ÜLVİYYƏ MİRZƏYEVA: AZƏRBAYCANDA NEQATİV UŞAQLIQ TƏCRÜBƏLƏRİNİN YAŞANMA TEZLİYİNİN VƏ XÜSUSİYYƏTLƏRİNİN ARAŞDIRILMASI.................................... 246
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0158

RAUF ABBASOV: MÜHARİBƏ İŞTİRAKÇILARININ SOSİAL PROBLEMLƏRİNİN HƏLLİNDƏ “DOST” MƏRKƏZLƏRİ VƏ “YAŞAT” FONDUNUN ROLU........................................ 252
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0160

MEHMET EMİN: AZƏRBAYCAN MÜTƏFƏKKİRİ EYNƏLQÜZAT MİYANƏCİNİNHƏYAT VƏ YARADICILIĞI............................................................................................ 256
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0164

RƏVAN ƏLİYEV: TEXNOGEN SİVİLİZASİYADA TƏHSİLİN RƏQƏMSAL VƏ ROBOTİK TRANSFORMASİYALARI: SOSİAL-FƏLSƏFİ TƏHLİL........................................ 261
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0172

ŞİRİN MƏHƏMMƏD: MÜHARİBƏ VETERANLARININ SOSİAL HƏYATA İNTEQRASİYASININ TƏHLİLİ................................................................................................ 266
DOI: https://doi.org/10.30546/3006-0346.2025.1.85.0175

**Founder:**
**“Kaspi” Geopolitical Research Center**

**Corrector:**
**Leyla Binyatova**

**Designer:**
**Tural Huseynov**

**Address of the editorial office:**
**Fikret Amirov Street 1, Baku, Azerbaijan**
**Tel: (+994 12) 493 04 15**
**Fax: (+994 12) 493 04 15**
**E-mail: strategiya.az@mail.ru**

**Number of copies printed: 150**
**Order №83**

**Published by**
**“Class Print” LLC publishing house**
**Address: Matbuat avenue 22, Yasamal district,**
**Baku, Azerbaijan**

**Təsisçi:**
**“Kaspi” Geosiyasi Araşdırmalar Mərkəzi**

**Korrektor:**
**Leyla Binyatova**

**Dizayner:**
**Tural Hüseynov**

**Redaksiyanın ünvanı:**
**Bakı şəhəri, Fikrət Əmirov küçəsi 1**
**Tel.: (+994 12) 493 04 15**
**Faks: (+994 12) 493 04 15**
**E-poçt: strategiya.az@mail.ru**

**Tiraj: 150**
**Sifariş №83**

**“Class Print” MMC nəşriyyatının**
**mətbəəsində çap olunub**
**Ünvan: Bakı şəhəri, Yasamal rayonu,**
**Mətbuat pr. 22**